**“Ən böyük münsif Allahdır”**
***Qurani Kərim***

**Vidadi Mirkamal**

# BEYNƏLXALQ ARBİTRAJ PROSESİ

**BAKI - 2011**

**Redaktor:**
Habil İsgəndərov

**Assistent:**
Mətanət Nağıyeva
Vəfa Abdulqədirova

Tanınmış hüquqşünas Vidadi Mirkamalın "BEYNƏLXALQ ARBİTRAJ PROSESİ" kitabında ölkəmizdə ilk dəfə olaraq Arbitraj Məhkəmələrinin fəaliyyəti prosessual nöqteyi-nəzərdən araşdırılır, müstəqil tədris kursu kimi əhatəli şəkildə təqdim edilir.
Dəyərli tədqiqat əsərində qloballaşan müasir dünyada beynəlxalq arbitraj məhkəmələrinin rolunun və əhəmiyyətinin artmasını şərtləndirən səbəblər, Azərbaycan Respublikasının qoşulduğu müvafiq konvensiyaların mahiyyəti də geniş şərh olunur.
Əminik ki, kitab ilk təşəbbüs olaraq hüquqşünaslar, elmi işçilər, tələbələr və bu sahənin mütəxəssisləri tərəfindən maraqla qarşılanacaqdır.

A $\frac{1201000000-1}{071-2011}$ Qrifli nəşr

© Vidadi Mirkamal
© Azərbaycan Arbitraj və Mediasiya Mərkəzi

# MÜNDƏRİCAT

Ön söz ........................................................................................................ 8

**I fəsil**
**Beynəlxalq Arbitraj Prosesinin anlayışı, predmeti və sistemi.**
**Beynəlxalq iqtisadi münasibətlərdə mübahisələrin həll edilməsi**
§ 1. Arbitraj prosesinin anlayışı, predmeti və sistemi ............................................. 10
§ 2. Mübahisələrin alternativ həll edilməsi üsulları .................................................. 17
§ 3. Beynəlxalq Arbitrajın inkişaf tarixi .................................................................. 24
§ 4. Arbitrajın hüquqi təbiəti .................................................................................... 26

**II fəsil**
**Arbitraj prosesinin mənbələri**
§ 1. Beynəlxalq Konvensiyalar .................................................................................. 31
§ 2. İkitərəfli Beynəlxalq müqavilələr
§ 2. İkitərəfli Beynəlxalq müqavilələr ..................................................................... 37
§ 3. Tövsiyə xarakterli beynəlxalq sənədlər ............................................................ 39
§ 4. Azərbaycan Respublikasının qanunvericiliyi və Beynəlxalq
Arbitraj haqqında Beynəlxalq aktların qarşılıqlı əlaqəsi ........................................ 42

**III fəsil**
**Beynəlxalq Kommersiya mübahisələrinə**
**baxılması üzrə mərkəzlər**
§1. Beynəlxalq arbitraj institutları və reqlamentləri ................................................ 50
§ 2. Beynəlxalq Ticarət Palatasının Beynəlxalq Arbitraj Məhkəməsi ...................... 57
§ 3. London Beynəlxalq Arbitraj Məhkəməsi ........................................................... 61
§ 4. Amerika Arbitraj Assosiasiyası .......................................................................... 66
§ 5. Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu ................................................. 69
§ 6. İnvestisiya mübahisələri üzrə Beynəlxalq Mərkəz ............................................ 74
§ 7. Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsi ............................................. 77
§ 8. RF-nın Sənaye – Ticarət Palatası yanında
Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi ........................................................ 80
§ 9. Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi .............................. 82

**IV fəsil**
**Arbitraj sazişi**
§ 1. Arbitraj sazişinin anlayışı və növləri ................................................................. 91
§ 2. Arbitraj sazişinin etibarlılığı şərtləri .................................................................. 98
§ 3. İradə azadlığı prinsipinin həyata keçirilməsinin ümumi şərtləri ...................... 113
§ 4. Tərəflərin seçdiyi hüququn tətbiqi ................................................................... 121
§ 5. Arbitraj sazişinin məzmunu .............................................................................. 126

**V fəsil**
**Arbitraj prosesinin iştirakçıları**
§ 1. Arbitraj prosesinin iştirakçılarının tərkibi ........ 153
§ 2. Arbitraj prosesində tərəflər və onların nümayəndələri ........ 158
§ 3. Arbitraj prosesində üçüncü şəxslər ........ 161
§ 4. Arbitraj prosesinin digər iştirakçıları ........ 163

**VI fəsil**
**Arbitrajın tərkibi**
§ 1. Arbitrin cavab verməli olduğu tələblər ........ 167
§ 2. Arbitrlərin hüquq və vəzifələri ........ 171
§ 3. Arbitrlərin təyin edilməsi qaydası ........ 173
§ 4. Arbitrlərin səlahiyyətlərinə xitam verilməsi ........ 178

**VII fəsil**
**Mübahisələrin Arbitraja aidiyyəti**
**və Arbitrajın səlahiyyəti**
§ 1. Mübahisələrin arbitraja aidiyyəti ........ 185
§ 2. Mübahisələrin dövlət məhkəmələrinə aidiyyətinin istisna edilməsi ........ 189
§ 3. Etirazın verilməsi ........ 193
§ 4. Arbitrajın səlahiyyətinin müəyyən
edilməsi Kompetens – Kompetens ........ 197

**VIII fəsil**
**Arbitraj prosesində sübutlar**
§ 1. Arbitraj prosesində sübutlar və onların təqdim edilməsi qaydası ........ 202
§ 2. Yazılı sübutlar ........ 205
§ 3. Tərəflərin izahatları ........ 210
§ 4. Şahid ifadələri ........ 211
§ 5. Ekspertin rəyi ........ 213
§ 6. Maddi sübutlar ........ 215

**IX fəsil**
**Arbitraj baxışına hazırlıq**
§ 1. Arbitraj baxışının prosedurunu müəyyən edən qaydalar ........ 218
§ 2. Arbitrajın başlanması ........ 220
§ 3. Arbitraj prosesində nümayəndəlik ........ 223
§ 4. İlkin arbitraj baxışı və ilkin qərar ........ 227
§ 5. Təminedici tədbirlərin görülməsi ........ 229
§ 6. Arbitraj xərcləri ........ 232

**X fəsil**
**İşə mahiyyət üzrə baxılması və qətnamənin çıxarılması**
§ 1. İşin dinlənilməsi ........ 239
§ 2. Arbitraj araşdırmasının qurtarması və qətnamənin çıxarılması ........ 244
§ 3. Arbitraj icraatına qətnamə çıxarılmadan xitam verilməsi ........ 246
§ 4. Arbitrlərin xüsusi rəyləri ........ 248

**XI fəsil**
**Arbitraj qətnamələri və onlara yenidən baxılması**
§ 1. Arbitraj qətnamələrinin anlayışı və növləri ........ 251
§ 2. Qətnamədə olan səhvlərin aradan qaldırılması, qətnamənin təfsiri. Əlavə qətnamə ........ 255
§ 3. Arbitraj qətnamələrinə Arbitraj Məhkəməsi tərəfindən yenidən baxılması ........ 257

**XII fəsil**
**Arbitraj qətnamələri üzərində məhkəmə nəzarəti**
§ 1. Arbitraj qətnamələri üzərində məhkəmə nəzarətinin anlayışı və məqsədi ........ 261
§ 2. Məhkəmə nəzarətinin hüquqi tənzimi ........ 263
§ 3. Arbitraj qətnaməsinin ləğvi üçün əsaslar ........ 265
§ 4. Arbitraj qətnaməsinin ləğv edilməsinin hüquqi nəticələri ........ 269

**XIII fəsil**
**Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsi**
§ 1. Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsinin anlayışı və qaydası ........ 272
§ 2. Xarici arbitraj qətnamələrinin tanınması və icrasının beynəlxalq hüquqi tənzimi ........ 274
§ 3. Xarici arbitraj qətnamələrinin tanınması və icrasının şərtləri ........ 277
§ 4. Xarici arbitraj qətnamələrinin tanınmasından və icra edilməsindən imtina edilməsi üçün əsaslar ........ 278

Ədəbiyyat ........ 282

Qanunvericilik ........ 285

**Beynəlxalq Arbitraj Məhkəmələrinin Reqlamentləri**

Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Əsasnaməsi ........ 287

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamenti ........ 319

Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamenti ........ 355

London Beynəlxalq Arbitraj Məhkəməsinin (LBAM) Reqlamenti ........ 375

Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamenti ........ 405

Almaniya Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamenti ........ 421

## ÖN SÖZ

SSRİ dağılandan sonra müstəqillik qazanmış ölkələrdə beynəlxalq hüquqa, beynəlxalq iqtisadi proseslərə və birliklərə inteqrasiya meylləri başladı. Azərbaycan Respublikası bu cəhətdən istisnalıq təşkil etmədi, belə ki, Azərbaycan bir çox Konvensiyaları imzalamış və beynəlxalq təşkilatlara üzv olmuşdur. İnteqrasiya prosesi bir sıra yeni institutların, mərkəzlərin yaranmasını həyati zərurətə çevirmişdir.

Dünyada gedən inteqrasiya və qloballaşma prosesləri arbitraj orqanlarının da fəaliyyətində özünü göstərir. Dünyanın müxtəlif ölkələrində, şəhərlərində, azad iqtisadi zonalarında daimi fəaliyyət göstərən arbitraj məhkəmələri mövcuddur.

XX əsrin 80-ci illərindən yeni arbitraj institutlarının yaranması geniş vüsət almağa başladı. Avro-Ərəb Arbitraj Sistemi, Honq-Konq Beynəlxalq Arbitraj Mərkəzi, Amerikaarası Kommersiya Arbitraj Komissiyası, Asiya-Afrika hüquq məsləhət Komitəsi bu qəbildən olan mərkəzlərdəndir.

Son dövrlər ölkəmizdə beynəlxalq arbitraj məhkəmələrinin rolunun və əhəmiyyətinin artmasına və xarici dillərdə (ingilis, fransız, alman, rus) kifayət qədər ədəbiyyatın nəşr olunmasına baxmayaraq, Azərbaycan dilində bu sahədə sanballı monoqrafiya, elmi-tədqiqat əsərləri, kitablar yazılmamışdır.

Beynəlxalq Kommersiya Arbitraj Məhkəmələrinin fəaliyyəti istər postsovet məkanında yerləşən ölkələrdə, istərsə də Avropa ölkələrində prosessual baxımdan müstəqil tədqiqat obyekti olmamışdır, bu kitab Arbitraj Məhkəmələrinin fəaliyyətini prosessual nöqteyi-nəzərdən müstəqil araşdıran və onu müstəqil tədris kursu kimi təqdim edən ilk təşəbbüs və cəhddir.

Lakin bu kitab bu sahədə yazılan ilk əsər olduğuna görə müəyyən çatışmazlıqlardan və Sizdə mübahisə doğura biləcək məqamlardan da xali deyildir.

Müəllif bu problemin tədqiqatını davam etdirmək niyyətindədir və bu dərsliklə bağlı oxucuların, xüsusən tədqiq olunan sahənin mütəxəssislərinin rəy və təklifləri çox maraqlı və gərəklidir.

Ona görə də Sizlərin hər bir qeydinizi və iradınızı müəllif dərin minnətdarlıq hissi ilə qəbul etməyə hazırdır.

# I fəsil

# Beynəlxalq Arbitraj Prosesinin anlayışı, predmeti və sistemi. Beynəlxalq iqtisadi münasibətlərdə mübahisələrin həll edilməsi

### *§ 1. Arbitraj prosesinin anlayışı, predmeti və sistemi*

Xarici iqtisadi münasibətlər, hər şeydən əvvəl bu münasibətlərə daxil olan subyektlərin arasında bağlanan dövlətlərarası müqavilələrlə rəsmiləşdirilir və bu beynəlxalq müqavilələrdə onu bağlayan dövlətlərin öhdəlikləri, hüquqi mübahisələrin həll edilməsi mexanizmi, bu münasibətlərə tətbiq ediləcək qanunvericilik (xarici hüquq normaları, kollizion normalar və s.) konkretləşdirilir.

Bu müqavilələrdə nəzərdə tutulan öhdəliklərin icra edilməməsi bir qayda olaraq dövlətlərarası münasibətlər çərçivəsində beynəlxalq ümumi hüquq institutlarının normaları əsasında həll olunur.

Azərbaycan Respublikasının mövcud durumunda digər dövlətlərlə bağlanan beynəlxalq müqavilələr əsasında həmin dövlətlərə məxsus olan və mülki hüququn subyekti olan şəxslər arasında (həm hüquqi şəxslər, həm də sahibkarlar) bir sıra kommersiya müqavilələrinin bağlanması həyati zərurətə çevrilmişdir. Dövlətlərarası müqavilələrdə nəzərdə tutulan müddəalar bu dövlətlərə məxsus olan şəxslər arasında bağlanan kommersiya müqavilələri ilə daha da konkretləşdirilir və ünvanlaşdırılır. Məsələn, "Əsrin Müqaviləsi"nin bağlanması ilə xarici müəssisələr və Azərbaycan müəssisələri arasında bu müqavilənin icrası ilə bağlı yüzlərlə müqavilələr bağlanmışdır və bu kommersiya müqavilələrinin hüquqi tənzimi beynəlxalq ümumi hüquq, beynəlxalq xüsusi hüquq və milli mülki hüquq normalarına əsaslanır.

Azərbaycan Respublikasının son dövrlərdə bağladığı neft kontraktlarında xarici iqtisadi əlaqələrin ümumi prinsipləri əks olunmaqla yanaşı, həmçinin, görüləcək işin həcmi və müddəti, maliyyələşdirilmə qaydası, itkilər, qiymətlər, hesablaşma qaydası, bank təminatları və digər şərtlər də razılaşdırılmışdır.

Xarici ticarət əqdləri üzrə tərəflər müxtəlif ölkələrin mülki hüquqlarının subyektləri sayılırlar və onlar arasında hər hansı mübahisə və ya fikir ayrılığı yarandıqda özlərinin subyektiv hüquqlarının və ya qanuni mənafelərinin müdafiəsi üçün məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsi) müraciət edə bilərlər. Təcrübə göstərir ki, belə hallarda xarici ticarət əqdlərinin subyektləri mübahisələri əksər hallarda baxılmaq üçün dövlət məhkəmələrinə (milli məhkəmələr) deyil, arbitraja (münsif məhkəmələri) verirlər.[1]

"Münsiflər məhkəməsi" məfhumu çoxmənalıdır, beynəlxalq ümumi hüquqda münsiflər məhkəməsi dedikdə, qədim Yunanıstan və

[1] Шинкарецкая Г.Г. Международная судебная процедура, М., 1992. с.9.

qədim Roma dövründən bəşəriyyətə məlum olan münaqişələrin hərbi nizamlanmasına alternativ olan dövlətlərarası mübahisələrin barışıq yolu ilə tənzimlənməsi kimi anlaşılırdı.[1]

Münsiflər məhkəməsi – dövlət məhkəmələrinə aid olan bir sıra hüquqi mübahisələrə (münsiflər məhkəməsində baxıla bilməyən mübahisələr barədə bu fəsildə söhbət açacağıq) tərəflərin könüllü sazişi əsasında baxan orqandır. Ona görə də münsiflər məhkəməsini, həmçinin, dövlət məhkəmələrinə münasibətdə mübahisələrə alternativ formada baxan məhkəmə orqanı kimi səciyyələndirirlər.[2]

Etimoloji baxımdan münsiflər məhkəməsinin hərfi mənası ingilis dilində olan "arbitration" sözündən götürülmüşdür və həm təcrübədə, həm də hüquq ədəbiyyatında "münsif məhkəməsi" və ya "arbitraj" kimi işlədilir, başqa sözlə, "münsif məhkəməsi" və "arbitraj" məfhumları bir-birinin sinonimidir və yerindən asılı olaraq onların işlədilmə texnikası vardır. Məsələn, 1958-ci il tarixli Nyu-York Konvensiyası "On the recognition and the enforcement of the foreign arbitral awards" - "Beynəlxalq münsif məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi haqqında Konvensiya" kimi deyil, "Beynəlxalq arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında Konvensiya" kimi tərcümə edilir. Başqa dillərə də (o cümlədən, rus dilinə) bu Konvensiya "Beynəlxalq arbitraj" kimi tərcümə olunmuşdur".[3]

Dünyanın tanınmış və daimi fəaliyyət göstərən münsif məhkəmələri də (arbitraj institutları) "arbitraj" və ya "arbitraj məhkəmələri" adlanır. Məsələn, Amerika Arbitraj Assosiasiyası (The American Arbitration Association), Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu (Arbitration Institute of the Stockholm Chamber of Commerse), Honq-Konq Beynəlxalq Arbitraj Mərkəzi (Hong Kong International Arbitration Centre), London Beynəlxalq Arbitraj Məhkəməsi (the London Court International Arbitration), Beynəlxalq Arbitraj Məhkəməsi (International Chamber of Commerse), Rusiya Federasiyasının Sənaye-Ticarət Palatası yanında Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi (The International Arbitration Court (ICAC) of the Chamber of Commerse and Industry) və i.a.

Lakin az da olsa "münsif məhkəmələri" məfhumundan da beynəlxalq qurumlar öz adlarında istifadə edirlər. Məsələn, Niderlandda yerləşən Daimi Beynəlxalq Münsif Məhkəməsi (Permanent International Court of Arbitration).

---

[1] Арбитражный процесс, М., 1998. с.391.
[2] Виноградова Е.А. Третейский суд. Законодательство. Практика. Комментарий. М., 1997. с.21.
[3] Арбитражный процесс, Мю1998.с. 393

Bir vaxtlar, hətta təsərrüfat mübahisələrinə baxan dövlət məhkəmələri də "arbitraj məhkəməsi" adlandırılırdı. Belə ki, ötən əsrin 20-ci illərində yaradılmış və 1992-ci ilədək həm məhkəmə, həm də idarəçilik orqanı kimi dualist hüquqi təbiətə malik olan "Dövlət arbitraj orqanları" fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1992-ci ilin fevralın 25-də bu sətirlərin müəllifinin təşəbbüsü və yaxından iştirakı ilə "Azərbaycan Respublikasının Təsərrüfat Prosessual Məcəlləsi" və "Azərbaycan Respublikasının Arbitraj Məhkəməsi haqqında Qanun" qəbul olundu. Bu qanunvericilik aktlarına əsasən, Azərbaycan Respublikasında təsərrüfat mübahisələri üzrə ədalət mühakiməsini Arbitraj Məhkəməsi həyata keçirirdi. Yeni yaradılan məhkəmə "Arbitraj Məhkəməsi" adlandırılsa da, o, klassik mənada anlaşılan "arbitraj", "münsif məhkəməsi" deyil, sırf dövlət məhkəməsi idi. İşgüzar danışıqlarda, xarici investorlarla və hüquqşünaslarla görüşlərdə "arbitraj məhkəməsinin" dövlət məhkəməsi kimi fəaliyyət göstərməsinin məntiqsiz izahı qarşılıqlı münasibətlərdə bir çox çətinliklər yaradırdı və buna görə də 1995-ci il 12 noyabr tarixdə qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyasında "arbitraj məhkəməsi" ifadəsi "İqtisad Məhkəməsi" məfhumu ilə əvəzləndi. Lakin Rusiya Federasiyasında bu orqan hələ indiyədək də "Arbitraj Məhkəməsi" adlanır.

İstər inkişaf etmiş ölkələrdə, istərsə də Rusiyada «Beynəlxalq Arbitrajların fəaliyyəti» prosessual nöqteyi nəzərdən birbaşa təhlil edilməmişdir və arbitrajlarda işlərə baxılması qaydası beynəlxalq arbitrajların fəaliyyətinin ümumi kontekstində araşdırılmışdır. Ona görə də istər ABŞ-da, istər Avropa ölkələrində, istər Cənub – Şərqi Asiya ölkələrində, istərsə də Rusiyada «Beynəlxalq arbitraj prosesi» adı altında müstəqil nə elmi tədqiqat işi, nə də tədris fənni öyrənilməmişdir.

Biz bu kitabda ilk dəfə olaraq «Beynəlxalq arbitraj prosesi»ni müstəqil hüquq sahəsi kimi prosessual baxımdan araşdırmağa çalışacağıq.

Hüquq ədəbiyyatında «Arbitraj prosesi» məfhumu altında hüquqi şəxslərin və sahibkarların pozulan və ya mübahisələndirilən hüquqlarının müdafiəsinə yönələn və hüquq normaları ilə nizama salınan arbitraj məhkəmələrinin fəaliyyət forması anlaşılır.[1]

Arbitraj prosesi həmçinin sahibkarlıq fəaliyyəti nəticəsində yaranan mübahisələr üzrə işin arbitraj qanunvericiliyi çərçivəsində mərhələlər üzrə inkişafının inikasıdır.

---

[1] Б. С. Анохин. Арбитражное процессуальное право России. М. 1999. с.8

Göründüyü kimi arbitraj prosesi:

a) sahibkarlıq sferasında yaranan;

b) subyektləri hüquqi şəxslər və ya sahibkarlar olan;

c) prosessual hüquq normaları ilə tənzim edilən xüsusi münasibətlər sistemidir.

Arbitraj prosesi subyektlərinin hüquqlarının müdafiəsi məfhumu öz tərkibində aşağıdakıları ehtiva edir.

a) müəyyən şəxslərə bu və ya digər hərəkətləri etməyi və ya etməməyi qadağan etmə. Bu halda söhbət hüquqi və qeyri hüquqi hərəkətlərdən gedir. Məsələn, öhdəliyin icra edilməsi (malın verilməsi, qüsurun aradan qaldırılması, pulun köçürülməsi və s.) və ya qeyri-hüquqi hərəkətlərdən çəkinmək (əmtəə nişanından qeyri-qanuni istifadə, əmlakdan əsassız istifadə və s.);

b) hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və ya xitamı. Məsələn, sahibkarlıq müqaviləsinin dəyişdirilməsi və ya xitamı, əqdin qeyri-qanuni və ya etibarsız sayılması və s.

c) müəyyən hüquq və vəzifələrin mövcud olmasının və ya olmamasının tanınması və ya müəyyən edilməsi. Bu halda söhbət mövcud hüquq və vəzifələrin qeyri-müəyyənliyinin aradan qaldırılmasından gedir.

Yuxarıda sadalananlar beynəlxalq arbitraj orqanlarının da fəaliyyətinə şamil edilir. Ona görə də bu kitabda gələcəkdə işlədiləcək «Arbitraj prosesi» məfhumu «Beynəlxalq arbitraj prosesi» kimi anlaşılmalıdır.

Beynəlxalq arbitraj prosesində işlərin həll edilməsi beynəlxalq konvensiyalarda, beynəlxalq müqavilələrdə, tövsiyə xarakterli beynəlxalq aktlarda, adətlərdə, arbitraj sazişlərində müəyyən edilən **prosessual formada** həyata keçirilir.

Mülki prosessual hüquqda mövcud olan prosessual formadan fərqli olaraq beynəlxalq arbitraj prosesindəki prosessual forma daha mütəhərrik, demokratik və dəyişkəndir. Belə ki, mülki prosessual formada tərəflərin və məhkəmənin fəaliyyəti qabaqcadan prosessual qanunda nəzərdə tutulmuşdur və həm tərəflər, həm də məhkəmə bu normalara əməl etməyə borcludurlar, əks halda iş üzrə çıxarılan qərar (qətnamə, qərardad) bu əsasla ləğv edilə bilər. Beynəlxalq arbitraj prosesində istər tərəflər, istərsə də arbitraj məhkəməsi öz rəylərindən asılı olaraq işə baxılma qaydasında daha geniş manevrlər etmək imkanına malikdirlər (Məsələn, tətbiq edilməli hüququn və ya işə baxılması ilə bağlı reqlamentin sərbəst surətdə seçilməsi və s.). Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin (bundan

sonra BKAM) Əsasnaməsinin 15-ci maddəsinə müvafiq olaraq BKAM mübahisələri, tərəflərin razılığı ilə müəyyən olunmuş, təqdim edilən maddi hüquq normaları əsasında həll edir. Belə razılaşma olmadıqda isə BKAM tətbiq olunmasını mümkün saydığı kollizion normalara əsaslanan hüququ rəhbər tutur.

BKAM arbitraj araşdırmasında bu Əsasnaməni rəhbər tutur. Lakin bu Əsasnamə və tərəflərin razılığı ilə tənzimlənməyən məsələlərin həllində BKAM tərəflərin hər birinə öz mənafelərini qorumaq imkanı verməklə və tərəflərə bərabər münasibət göstərməklə, beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanunvericiliyini əsas götürməklə münasib hesab etdiyi qaydada işin araşdırılmasını aparır.

Bu müddəa Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının qanununun 19-cu maddəsində də təsbit olunmuşdur.

Hətta Arbitraj məhkəməsi qərar qəbul edərkən qanunu deyil, ədalət prinsipini əldə rəhbər tuta bilər.

Beynəlxalq arbitraj haqqında qanunun 28-ci maddəsinin 3-cü bəndinə əsasən Arbitraj məhkəməsi «ex aequo et bono» və yaxud «barışıq vasitəçiliyi» qərarını yalnız tərəflər ona belə səlahiyyət verdiyi halda qəbul edir.

Beynəlxalq arbitraj prosesində işə baxılmasında yalnız arbitraj məhkəməsi deyil, həmçinin digər şəxslər də (tərəflər, üçüncü şəxslər, arbitraj prosesinin digər iştirakçıları) iştirak edirlər.

Beləliklə, Beynəlxalq arbitraj məhkəməsinin işdə iştirak edən şəxslər arasında yaranan iqtisadi mübahisələrə baxılması və həll edilməsi üzrə beynəlxalq arbitraj prosessual hüququ ilə tənzimlənən fəaliyyəti **arbitraj prosesi** adlanır.

Beynəlxalq arbitraj məhkəməsinin mübahisələrə baxılması və həll edilməsi sahəsindəki fəaliyyəti prosesin mərhələləri üzrə müəyyən məntiqi ardıcıllıqla həyata keçirilir. Arbitraj prosesinin hər bir mərhələsində müxtəlif məsələlər həll edilir. Bu halda hər bir mərhələdə yaranan hüquq münasibətləri həll edilməli mübahisədən, hüquq münasibətlərinin predmetindən, hüquq münasibəti iştirakçılarının subyektiv tərkibindən, prosessual hərəkətlərin məqsəd və məzmunundan asılı olaraq səciyyəvi xarakter daşıyır.

Arbitraj prosesinin hər bir mərhələsində məhkəmə iddia ərizəsi qəbul edildikdən qətnamə çıxarılanadək müxtəlif məsələləri həll etməlidir.

Beynəlxalq arbitraj prosesi iddianın qaldırılması, işin baxılmaq üçün hazırlanması, işə baxılması, qətnamənin çıxarılması, qətnaməyə

nəzarət qaydasında baxılması (bu məsələ müxtəlif ölkələrdə müxtəlif cür həll edilir, bu barədə sonrakı fəsillərdə ətraflı bəhs ediləcəkdir) və qətnamənin icrası mərhələlərindən ibarətdir.

Beynəlxalq arbitraj məhkəməsi qətnamənin icrası ilə bilavasitə məşğul olmamasına baxmayaraq qətnamənin icrası və tanınması da (1958-ci il Nyu-York Konvensiyasına müvafiq olaraq) arbitraj prosesinin bir mərhələsi hesab edilməlidir. Qətnamənin icrası Beynəlxalq arbitraj prosesinin son və həlledici mərhələsidir.[1]

Arbitraj prosesinin bütün mərhələlərində münaqişə edən tərəflər və arbitraj məhkəməsi öz aralarında müəyyən münasibətlərə daxil olurlar, bu münasibətlərdə tərəflər sübutetmə ilə bağlı bərabər hüquqlardan istifadə edirlər. Bu münasibətlər **prosessual hüquq münasibətləri** adlanır. **Arbitraj prosessual hüquq münasibətləri** iqtisadi mübahisələrə baxılması və həll edilməsi prosesində arbitraj məhkəməsi ilə (və ya arbitrlə) prosesin iştirakçıları (tərəflər, üçüncü şəxslər və s.) arasında yaranan münasibətlərdir. Bu münasibətlər beynəlxalq konvensiyalar, beynəlxalq müqavilələr, tövsiyə xarakterli aktlar, adətlər, arbitraj sazişi və arbitraj məhkəməsinin reqlamenti ilə tənzimlənir.

Beynəlxalq arbitraj prosessual hüquq münasibətlərinə aşağıdakı münasibətlər aid edilməlidir:

1. İşə baxılması və həll edilməsi üzrə arbitraj məhkəməsinin hüquq və vəzifələri.
2. İşdə iştirak edən şəxslərin hüquq və vəzifələri.

Hər iki prosessual hüquq münasibətləri beynəlxalq hüquqi aktlarda, milli qanunvericilikdə və arbitraj reqlamentlərində dəqiq olaraq əks olunmalıdır.

Arbitraj prosessual hüquq münasibətləri bir sıra səciyyəvi xüsusiyyətlərə malikdir. Bu münasibətlər ilk növbədə konkret iş üzrə arbitraj məhkəməsi və proses iştirakçıları arasında yaranan münasibətlərdir. Mübahisə edən tərəflər arasında isə maddi hüquq münasibətləri mövcud olur. Məhz maddi hüquq normalarının pozulması nəticəsində arbitraj məhkəməsində baxılacaq mübahisə predmeti yaranır, prosessual hüquq münasibətləri isə işə baxan arbitraj məhkəməsi (və ya arbitr) ilə mübahisənin iştirakçıları (subyektləri) arasında yaranır.

Arbitraj məhkəməsi – posessual hüquq münasibətlərinin məcburi subyektidir, onun iştirakı olmadan proses mümkünsüzdür.

[1] Bu barədə XIII fəsildə daha geniş bəhs ediləcəkdir.

Arbitraj prosessual hüquq münasibətlərinin **obyektini** hüquqi şəxslər və sahibkarlar (Beynəlxalq arbitrajda tərəflərdən biri mütləq xarici şəxs olmalıdır) arasında yaranan kommersiya (iqtisadi, ticarət) mübahisələri təşkil edir.

Arbitraj prosessual hüquq münasibətlərinin subyektiv tərkibi arbitraj prosesinin iştirakçılarından ibarətdir, bura arbitraj məhkəməsi (və ya təkbaşına arbitr), tərəflər, üçüncü şəxslər və prosesin digər iştirakçıları (şahidlər, ekspertlər, tərcüməçilər, nümayəndələr) daxildir.

Arbitraj prosessual hüquq münasibətləri ictimai hüquq münasibətlərinin müstəqil bir növü olmaqla aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

- bu münasibətlər yalnız iqtisadi sahədə yaranan kommersiya mübahisələrinə beynəlxalq arbitraj məhkəməsində baxılan zaman prosessual - hüquqi formada yaranır;
- beynəlxalq arbitraj prosessual hüquq münasibətlərinin subyekti yalnız hüquqi şəxslər və sahibkarlar (tərəflərdən biri xarici şəxs olmaqla) olur, həmçinin bu münasibətlərin mütləq subyekti mübahisəni həll edən arbitraj məhkəməsi olmalıdır;
- arbitraj prosessual hüquq münasibətlərinin yaranması üçün tərəflər arasında arbitraj sazişinin mövcudluğu və onun əsasında işin arbitraj məhkəməsində qaldırılması
üçün tərəflərin hüquqlarının pozulması və ya mübahisələndirilməsi əsas şərtdir;
- arbitraj prosesinin subyektləri öz fəaliyyətlərini arbitraj sazişinə və seçdikləri reqlamentə uyğun həyata keçirməlidirlər.

Kommersiya mübahisələrinə beynəlxalq arbitraj məhkəməsində baxılması qaydası hər bir arbitraj institutunun, mərkəzinin və ya məhkəməsinin qəbul etdiyi reqlamentə uyğun aparılmalıdır.

Məsələn, Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsində mübahisələrə 11 noyabr 2003-cü il tarixdə təsdiq edilmiş Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Əsasnaməsi əsasında baxılıb həll edilməlidir, London Beynəlxalq Arbitraj Məhkəməsi 01.01.1998-ci il tarixli Reqlamenti əsasında işlərə baxır, Alman Arbitraj İnstitutunu 01.07.1998-ci il tarixli Arbitraj Məhkəməsinin Reqlamenti əsasında işlərə baxır və s.

Hər bir Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamenti arbitraj prosesinin müxtəlif mərhələlərini və arbitraj prosesinin əsas prinsiplərini və subyektlərinin hüquqi statusunu müəyyən edən müxtəlif hüquq institutlarını təsbit edir.

Arbitraj reqlamentlərində hüquq normalarının və institutlarının məntiqi ardıcıllıqla düzülüşü arbitraj prosesinin sistemini təşkil edir.

## *§ 2. Mübahisələrin alternativ həll edilməsi üsulları*

Beynəlxalq kommersiya müqavilələrində mübahisələrə məhkəmələrə və arbitrajlara münasibətdə alternativ qaydada baxılması haqqında şərtlərin nəzərdə tutulması hallarına rast gəlinir.

Əslində arbitrajda işlərə baxılması dövlət məhkəmələrinə münasibətdə mübahisələrin alternativ qaydada həll edilməsidir, lakin bu paraqrafda həm də arbitraj icraatına münasibətdə alternativ qaydada mübahisələrin həll edilməsindən bəhs ediləcəkdir.

Mübahisələrin alternativ həll edilməsi qaydasının məqsədi son nəticədə tərəflərin hüquq və vəzifələrini müəyyən edən məcburi hüquqi qüvvəyə malik olan aktın qəbul edilməsi deyildir, dövlət məhkəmələrində və arbitrajlarda işə baxılmasının məqsədi məlum olduğu kimi sonda məcburi hüquqi qüvvəyə malik aktın (qərarın, qətnamənin) qəbul edilməsidir.

Mübahisələrə alternativ qaydada baxılmasının uğurlu olması son nəticədə arbitrtaj məhkəmələrinə müraciətin azalması ilə müşayiət olunur, lakin bu faktdan qorxmaq və çəkinmək lazım deyildir, çünki həm arbitraj qaydasında, həm də alternativ qaydada mübahisələrə baxılmasının son məqsədi mübahisənin həll edilməsi və tərəflərin bir araya gətirilməsidir.

Mübahisələrə alternativ qaydada baxılmasının dörd üsulu vardır:

1) Birbaşa danışıqlar;
2) Mediasiya;
3) Konsiliatsiya (barışıq proseduru);
4) Mini proseslər.

Kommersiya münasibətlərində hər hansı münaqişənin yaranması zamanı tərəflərin bir-biri ilə əlaqəyə girməsi, **birbaşa danışıqlar** aparması hamı tərəfindən tanınan və qəbul edilən üsullardan biridir. Hətta, bir sıra ölkələrin qanunvericiliyində mübahisənin məhkəməyə verilməsinədək tərəflərin birbaşa danışıqlar aparması tələbi qanunvericilik qaydasında müəyyən olunmuşdur. Məsələn, Yaponiyanın qanunvericiliyində üçüncü, marağı olmayan şəxslərin iştirakı ilə birbaşa

danışıqların aparılması məcburi qayda kimi nəzərdə tutulmuşdur, bu halda üçüncü şəxslər danışıqlarda müşahidəçi kimi iştirak edirlər.[1]

Qanunvericilikdə birbaşa danışıqların aparılması nəzərdə tutulmayan ölkələrdə də (məsələn, Azərbaycan, Rusiya) hakimlər əksər hallarda tərəflər arasında barışıq sazişinə nail olunması üçün onlara birbaşa danışıqlar aparmağı təklif edirlər.

Məhkəmə və arbitraj proseslərindən fərqli olaraq birbaşa danışıqlar xüsusi prosessual qaydalarla tənzim olunmur, danışıqların aparılması formasını, qaydasını konkret hallardan asılı olaraq tərəflər özləri müəyyən edirlər.

Birbaşa danışıqlar baş tutmadığı halda tərəflər hüquqların müdafiəsi üçün məhkəməyə, arbitraj məhkəməsinə müraciət etmək hüququnu özlərində saxlayırlar.

Mübahisələrə alternativ qaydada baxılmasının ikinci üsulu **mediasiyadır**.

Mediasiya – üçüncü, neytral tərəfin (mediatorun və ya vasitəçinin) obyektiv vasitəçiliyi ilə mübahisə iştirakçıları arasında barışıq sazişinin və ya kompromisin əldə edilməsi cəhdidir. Mediasiya bir çox hallarda üçüncü şəxslərin iştirakı ilə tərəflər arasında birbaşa danışıqlar kimi səciyyələndirilir.

Mediasiya hələ qədim zamanlardan Çində və Asiya – Sakit okean bölgəsində uğurla tətbiq olunmuşdur. Hazırda Çində və Yaponiyada tərəflər əksər hallarda öz aralarındakı normal münasibətləri saxlamaq niyyəti ilə mübahisənin həlli üçün məhkəmə və arbitraj orqanlarına deyil, mediatora, vasitəçiyə müraciət edirlər.

Əvvəllər mediasiyadan dövlətlər arasında yaranan mübahisələrin həll edilməsi üçün beynəlxalq ümumi hüquq sferasında istifadə edilirdisə, hazırda bu üsul beynəlxalq iqtisadi münasibətlər sferasında da geniş tətbiq edilir. Məsələn, 1994-cü ildə Ümumdünya intellektual mülkiyyət təşkilatının nəzdində Arbitraj və Mediatsiya Mərkəzi yaradılmışdır. Bu Mərkəzin reqlamentinə müvafiq olaraq mediasiya proseduru yalnız tərəflərin razılığı olduqda tətbiq edilə bilər. Belə razılıq ya kommersiya müqaviləsində ayrıca bənd kimi, ya da mübahisə yarandıqdan sonra tərəflərin imzaladığı ayrıca razılaşma kimi nəzərdə tutula bilər.

Mübahisə yarandığı halda tərəflərdən biri Arbitraj və Mediasiya Mərkəzinə mediasiyanın keçirilməsini, tərəflərin və onların nümayəndələrinin rekvizitlərini, yaranan mübahisənin qısa təfsilatını

[1] Зыкин И.С. Негосударственное регулирование / Международное частное право: Современные проблемы. М., 1993, с.14.

özündə ifadə edən ərizəni təqdim edir. Mediasiya haqqında ərizənin surəti eyni zamanda digər tərəfə də göndərilir.

Ərizəni aldıqdan sonra Mərkəz dərhal mediatorun təyin edilməsi üçün tərəflərlə əlaqə yaradır və onların mediator barədə tələblərini öyrəndikdən sonra bir neçə namizəd təklif edir. Tərəflər mediatorun namizədliyi haqqında razılığa gəldikdən sonra Mərkəz həmin şəxsi mediator təyin edir. Mərkəz, həmçinin, tərəflərlə mediasiyanın keçirilməsinin texniki məsələlərini müzakirə edir (keçirilmə yeri, zəruri xidmətlər və s.) Tərəflərin və mediatorun razılığı ilə Mərkəz mediatorın qonorarının məbləğini müəyyən edir.

Mübahisənin nizama salınmasında mediatorun çox böyük rolu vardır. Prosesin uğurlu taleyi çox dərəcədə mediatorun bilik səviyyəsindən, diplomatik qabiliyyətindən və danışıqları aparmaq məharətindən asılıdır. Mediator özünü hakim və ya arbitr kimi aparmamalı, tərəflərə hüquqi məsləhətlər verməməli və kimin haqlı, kimin təqsirkar olmasını müəyyən etməməlidir. Bütün prosesin gedişində mediator özünü tərəflərdən asılı olmayan, müstəqil və neytral şəxs kimi aparmalıdır.

Mediator təyin edildikdən dərhal sonra hansı müddətdə və hansı qaydada dinləmələrin keçirilməsi barədə tərəflərlə məsləhətləşmələr aparır və tərəflərə hansı sənədlərin təqdim edilməsini bildirir.

Birinci dinləmədə tərəflər və mediator iclasın aparılması qaydasını (məsələn, tərəflərlə ayrıldıqda və ya birlikdə dinləmələrin aparılması və s.) və həmçinin, zəruri olduqda əlavə sübutların təqdim edilməsi və ya ekspertizanın təyin edilməsi məsələsini müzakirə edirlər.

Ümumiyyətlə, mediasiya tərəflərin və mediatorun müəyyən etdiyi qaydada aparılır, tərəflərin belə bir qayda haqqında razılığı olmadıqda mediasiya Mərkəzin reqlamenti əsasında aparılır.

Tərəflər arasındakı mübahisə birinci iclasda və ya bir neçə iclasdan sonra həll edilə bilər. Əgər tərəflər mübahisəni həll etmək haqqında razılığa gələrlərsə, o, yazılı formada ifa-də olunur, tərəflər və mediator tərəfindən imzalanır. Bu, mediasiya nəticəsində ortaya çıxan yeganə sənəddir. Mediasiya aparılan zaman iclas protokolu tərtib olunmur və tərəflərin, mediatorun bu prosesdə tərtib etdikləri bütün digər sənədlər proses qurtardıqdan sonra məhv edilməlidir. Mediasiya prosesində açılan bütün informasiyalar gizli saxlanmalıdır, bu informasiyalardan sonradan işə məhkəmədə və ya arbitrajda baxılarkən istifadə etmək və ona istinad etmək olmaz.

Mediasiya heç də həmişə kompromislə başa çatmır, mediator görsə ki, tərəfləri bir araya gətirmək mümkün deyildir, o halda

mediasiyanın xitam edilməsi haqqında qərar qəbul edir. Birinci iclasdan sonra və saziş bağlananadək tərəflərdən biri mediasiyanın xitam edilməsi haqqında ərizə ilə müraciət etməyə haqlıdır.

**Konsiliatsiya və ya barışıq proseduru** mübahisələrin alternativ həll olunması üsullarından biridir, bu prosedur da mübahisənin üçüncü, neytral şəxsin vasitəçiliyi ilə həll edilməsini nəzərdə tutur. Bir çox arbitraj institutları özünün barışıq reqlamentinə malikdirlər (Məsələn, Beynəlxalq Ticarət Palatası, İnvenstisiya mübahisələrinin həll edilməsi üzrə beynəlxalq Mərkəz) BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyası (YUNSİTRAL) 23 iyul 1980-ci ildə özünün Barışıq Proseduru haqqında Qaydalarını qəbul etmişdir. Beynəlxalq Ticarət Palatasının Barışıq Reqlamenti 1 yanvar 1988-ci ildə qəbul olunmuşdur. Bu prosedur beynəlxalq xarakterli kommersiya mübahisələrinə BTP tərəfindən təyin edilən təkbaşına vasitəçi tərəfindən baxılıb həll edilməsi imkanını nəzərdə tutur. Bu halda tərəflərin barışıq prosedurunun tətbiq edilməsi haqqında qabaqcadan razılaşması tələb olunmur. Konsiliatsiya qərarına gələn tərəf BTP-nin Beynəlxalq Arbitraj Məhkəməsinin Katibliyinə müvafiq xahişlə müraciət edir və əvvəlcədən Katibliyə 500 ABŞ dolları məbləğində qeydiyyat rüsumu ödəyir. Katiblik digər tərəfə daxil olan təklif barədə məlumat verir və ona barışıq prosedurunda iştirak edib etməməsini bildirməsi ilə bağlı 15 gün vaxt verir. Əgər 15 gün ərzində digər tərəfdən cavab alınmazsa, hesab olunur ki, tərəf konsiliatsiyadan imtina edir və bu barədə Katiblik tərəfindən ərizəçiyə məlumat verilir.

Digər tərəf barışıq prosedurunda iştirak etməyə razılıq verdikdə, bu razılıq barədə göstərilən müddət ərzində Beynəlxalq Arbitraj Məhkəməsinin Katibliyini məlumatlandırır. Konsiliatsiya haqqında razılıq əldə edildikdə Beynəlxalq Arbitraj Məhkəməsinin Baş katibi qısa müddətdə vasitəçini təyin edir, sonuncu isə tərəfləri özünün təyinatı ilə bağlı məlumatlandırır və onlara müəyyən edilən müddətdə özlərinin müvafiq arqumentlərini təqdim etməyi təklif edir. Vasitəçi tərəflərlə iclasın keçirildiyi yeri müəyyənləşdirir.

Eyni zamanda, Katiblik işin mahiyyətini və vacibliyini nəzərə alaraq konsiliatsiya prosedurunun başlanması üçün zəruri olan məbləği müəyyən edir. Bu məbləğ vasitəçinin gözlənilən qonorarının və barışıq proseduru ilə bağlı xərclərin, həmçinin, inzibati xərclərin ödənilməsinə sərf olunur.

Müəyyən edilmiş məbləği tərəflər bərabər hissələrdə ödəyirlər. Barışıq prosedurunun gedişində Beynəlxalq Arbitraj Məhkəməsinin Katibliyi ilkin ödənilmiş məbləğin barışıq proseduru ilə bağlı gözlənilən

ümumi xərclərin ödənilməsi üçün kifayət etmədiyi qərarına gəldiyi hər bir halda, Katiblik tərəfindən bərabər hissələrdə əlavə haqqın ödənilməsini tələb edir.

Barışıq Reqlamentində konsiliatorun (vasitəçinin) konkret hüquq və vəzifələri, konsiliatsiyanın aparılması qaydası nəzərdə tutulmamışdır, konsiliatsiyanın aparılması qaydasını vasitəçi özü müəyyən edir. Reqlamentin 5-ci maddəsinə uyğun olaraq vasitəçi barışıq prosedurunu qərəzsizlik, dürüstlük və ədalətlilik prinsiplərini rəhbər tutmaqla öz mülahizəsinə əsasən həyata keçirir. Tərəflər istədikdə öz seçimləri üzrə məsləhətçilərin xidmətlərindən istifadə edə bilərlər.

Vasitəçi hər iki tərəfə kompromisin şərtlərini təqdim edir, tərəflər bu şərtləri qəbul etdikdə barışıq proseduru alınmış sayılır, əks təqdirdə isə barışıq baş tutmamış hesab olunur.

Mediasiyada olduğu kimi, konsiliatsiyada da barışıq prosedurunun konfidensiallığı qorunmalıdır, bu prosedurda hansı qisimdə iştirak etməsindən asılı olmayaraq istənilən şəxs buna hörmət etməlidir.

Konsiliatsiyaya aşağıdakı hallarda xitam verilir:

a) Tərəflərin barışıq sazişini imzalaması ilə. Tərəflər bu sazişdən asılı olurlar. Bu saziş onun icrası, yaxud tətbiqinin bunu tələb etdiyi müddət və ya hala qədər konfidensial olaraq qalır.

b) Vasitəçinin, barışıq prosedurunun uğursuz başa çatmasını qeyd etdiyi protokolun tərtib edilməsi ilə. Protokolda barışıq prosedurunun baş tutmamasının motivləri göstərilmir.

c) Konsiliatsiyanın istənilən mərhələsində tərəflərdən hər hansı birinin, yaxud hər iki tərəfin barışıq prosedurunun daha davam etdirilməməsi qərarı ilə vasitəçinin məlumatlandırılması halında.

Barışıq proseduru (konsiliatsiya) bitdikdə vasitəçi tərəflərin imzaladıqları barışıq haqqında sazişi, yaxud özünün bu sazişin əldə edilməməsini nəzərdə tutan məlumatını, yaxud barışıq prosedurunun daha aparılmaması ilə bağlı tərəflərdən birinin və ya bir neçəsinin bildirişini Beynəlxalq Arbitraj Məhkəməsinin Katibliyinə göndərir.

Barışıq Reqlamentinin 10-cu maddəsinə uyğun olaraq tərəflər, digər hal barədə razılaşmayıblarsa, vasitəçinin barışıq prosedurunun predmeti olmuş mübahisə ilə bağlı hər hansı məhkəmə və ya arbitraj prosedurlarında arbitr, tərəfin nümayəndəsi, yaxud məsləhətçisi funksiyalarını həyata keçirməməlidir. Tərəflər, digər hal barədə razılaşmayıblarsa, vasitəçini məhkəməyə, yaxud arbitraja şahid qismində çağırmamağı qarşılıqlı olaraq öhdələrinə götürürlər.

Tərəflər, həmçinin, məhkəmə, yaxud arbitrajda və ya hər hansı digər üsulla aşağıdakıları sübut kimi təqdim etməməyi öhdələrinə götürürlər:

a) digər tərəfin mübahisənin nizama salınması ilə bağlı irəli sürdüyü istənilən fikir və təklifləri;

b) vasitəçi tərəfindən irəli sürülmüş təklifləri;

c) tərəflərdən hər hansı birinin mübahisənin nizama salınması ilə bağlı vasitəçinin təklifini qəbul etməyə hazır olmasını göstərən faktları.

Göründüyü kimi, Beynəlxalq Ticarət Palatasının Barışıq Reqlamenti həm mediasiya, həm də konsiliatsiya prosedurlarının aparılması üçün çox geniş hüquqi bazadır və tərəflərin razılığı olduqda hər iki prosedur bu Reqlament çərçivəsində uğurla aparıla bilər.

Bəzi hallarda "mediasiya" və "konsiliatsiya" məfhumları sinonim kimi işlədilir, çünki hər iki prosedurda məqsəd tərəflərə barışığa gəlməkdə kömək etməkdən ibarətdir. Hər iki prosedurda tərəflər vasitəçinin yardımından yararlanırlar, lakin hər iki prosedurda vasitəçilərin tətbiq etdiyi metodlar müxtəlifdir. Konsiliatsiyada tərəflər əvvəlcədən barışığa gəlməyə razılıq verirlər və vasitəçi hər iki tərəflə görüşdükdən və müvafiq sənədlərlə tanış olduqdan sonra mediatordan fərqli olaraq barışıq sazişinin layihəsini özü tərtib edir və onu tərəflərə təqdim edir. Bu halda konsiliator hər iki tərəfin tələbləri ilə ətraflı tanış olduqdan sonra onların imzalaya biləcəyi ədalətli barışıq layihəsini ortaya qoymağa borcludur, əks halda, konsiliatsiya baş tutmaya bilər.

Konsiliatsiya və ya mediatsiya baş tutmadığı təqdirdə, tərəflər həmin mübahisəni baxılmaq üçün məhkəməyə və ya arbitraj məhkəməsinə vermək hüququnu özlərində saxlayırlar.

Son dövrlərdə **mini-proseslər** beynəlxalq kommersiya mübahisələrinin həll edilməsinin ən geniş yayılan üsullarından biri olmuşdur. Mini-proseslər ilk dəfə ABŞ-da yaranmışdır və onun hazırda bir neçə müxtəlif növləri fəaliyyət göstərir. ABŞ-da yaranmasına baxmayaraq mini-proseslər Avropada da geniş tətbiq sferasına malikdir.

Amerika Arbitraj Assosiasiyası və Sürix (İsveçrə) Ticarət Palatası özünün mini-proseslərin keçirilməsi haqqında Qaydalarını qəbul etmişdir. Məsələn, Sürix Ticarət Palatası mini-proseslərin keçirilməsi Qaydalarını 1984-cü ilin 12 oktyabrında qəbul etmişdir.

Bu Qaydalara müvafiq olaraq mübahisə yarandıqda tərəflərdən biri mübahisənin predmetinin qısa xülasəsini göstərməklə müvafiq ərizəni və 500 İsveçrə frankı məbləğində qeydiyyat rüsumunun ödənilməsi barədə sənədi Sürix Ticarət Palatasına göndərir.

Ərizəni aldıqdan dərhal sonra Palata bu barədə və mini-prosesə razılıq alınması ilə bağlı digər tərəfə məlumat göndərir. Məlumata müsbət cavab alındıqda Palata tərəflərə komissiyanın (münsiflərin) tərkibinə öz nümayəndələrini təyin etməsi barədə müraciət edir.

Adətən belə nümayəndələr qismində tərəflərin yüksək çinli vəzifəli şəxsləri (şirkətin prezidenti və ya vitse-prezidenti) təmsil olunurlar. Sonra tərəflər birlikdə komissiyanın sədri olacaq neytral, üçüncü şəxsi təyin edirlər.

Komissiyanın sədri vəzifəsinə bir qayda olaraq həmin mübahisə predmetini bilən, o sahədə yüksək biliyə və təcrübəyə malik olan hörmətli, nüfuzlu şəxslər təyin olunurlar.

Komissiyanın sədri tərəflərə öz tələblərini əsaslandıran halların və ona etirazların təqdim edilməsi üçün müddət müəyyən edir. Çox qəribədir ki, Qaydalarda hətta təqdim ediləcək sənədlərin həcmi də göstərilir – bu, 25 maşın yazısı vərəqindən artıq ola bilməz. Mübahisəyə baxılması müddəti isə 30 gün müəyyən olunmuşdur.

Təyin olunmuş gündə iclas başlayır və əvvəlcə tərəflərin nümayəndələri mübahisə üzrə öz mövqelərini qısa şərh edirlər və ondan sonra yaranmış mübahisəli vəziyyəti aradan qaldırmaq üçün və hər iki tərəfi qane edən qərarın qəbul edilməsi məqsədilə tərəflər bir araya gəlirlər. Komissiyanın sədri hər iki tərəfi razı sala biləcək sazişin hazırlanmasında tərəflərə kömək edə bilər.

Qaydalara görə Sürix mini-prosesi davam edən müddət ərzində tərəflər mübahisənin həlli üçün məhkəməyə və arbitraja müraciət etmək hüququndan imtina edirlər, məhkəmədə və arbitrajda başlanmış proses isə bu müddətdə dayandırılır.

Mini-proseslərin əksəriyyəti tərəflər arasında kompromislə başa çatır. Tərəflər kompromisə gəlmədikdə, komissiya mübahisənin nizama salınması üçün komissiya üzvləri tərəfindən yekdilliklə qəbul edilmiş tövsiyələri onlara göndərir. Əgər komissiyanın üzvləri yekdil rəyə gəlməzsə, onda komissiyanın sədri özü tərəflərə mübahisənin nizama salınması yollarını təklif edir.

Komissiyanın üzvləri birlikdə və ya komissiyanın sədri təkbaşına tərəflərə kompromisin şərtlərinə cavab vermək üçün vaxt müəyyən edirlər.

Komissiyanın bütün iclasları bağlı qapılar arxasında aparılır, tərəflərin, komissiya üzvlərinin, komissiya sədrinin aldığı bütün informasiyalar konfidensial xarakter daşıyır və sonradan məhkəmədə, arbitrajda onlardan istifadə edilməsi qadağan olunur.

Mini-proses qaydasında mübahisələrin həll edilməsinin məhkəmədə və arbitrajda işə baxılmasından əsas fərqi xərclərin az olması, tezliyi (adətən işə 1-3 günə baxılır), hər iki tərəfin vəzifəli şəxslərinin bir-biri ilə birbaşa danışıqlara girməsi, tərəflər arasında işgüzar münasibətlərin saxlanması və prosedurun konfidensiallığıdır.

Lakin mediasiyada, konsiliatsiyada olduğu kimi mini-proseslərdə də qəbul edilmiş qərar məcburi qaydada icra edilə bilməz və tərəflərdən biri əldə edilən sazişi icra etmədikdə mübahisə baxılmaq üçün məhkəməyə və ya arbitraj məhkəməsinə verilməlidir. Bu halda isə mini-prosesə çəkilən xərcə və itirilən vaxta yalnız heyfsilənmək olar.

Mübahisələrin alternativ qaydada həll edilməsinin üsulları bir çox hallarda səmərə verir, o, tərəflərə imkan verir ki, qeyri-rəsmi şəraitdə, qısa müddətdə və nisbətən az xərclə aralarındakı işgüzar münasibətlər saxlanmaqla mübahisəni tənzim etsinlər. Lakin bu üsulların da tətbiqinin müəyyən hədləri vardır. Belə ki, bu üsullardan hər hansı biri həyata keçirilərkən müqavilənin şərtlərinin təfsiri, kimin haqlı və kimin haqsız olması, müqavilə öhdəliklərinin qəsdən və ciddi pozulması ilə bağlı mübahisə yarandıqda və bu prosesdə işgüzar münasibətlərə xələl gələ bilərsə, o halda məhkəməyə və ya arbitraja müraciət edilməsi ən yaxşı çıxış yoludur.

Mediasiyanın, konsiliatsiyanın və mini-prosesin nəticəsində demək olar ki, **yeni müqavilə** yaranır və onun icrası hər bir halda tərəflərin iradəsindən asılıdır və burada məcburi icraya yer yoxdur.

Ona görə də hesab edirik ki, mübahisələrin alternativ qaydada həll edilməsinin hər bir üsulu (birbaşa danışıqlar, mediasiya, konsiliatsiya, mini-proseslər) yaşam hüququna malikdir və kommersiya hüququ subyektləri müqavilələr bağlanarkən mütləq bunu nəzərə almalı və ondan faydalanmalıdırlar.

## *§ 3. Beynəlxalq Arbitrajın inkişaf tarixi*

Kommersiya arbitrajı çox qədim tarixə malikdir. Dövlət məhkəmələri yarananadək arbitraj araşdırması mübahisələrin həllinin ilk sivil forması olmuşdur.

Hələ eramızdan əvvəl V əsrdə Afinada arbitraj araşdırmasından geniş istifadə olunurdu. Pul məbləği ilə bağlı bütün mübahisələr əvvəlcə arbitrə göndərilirdi, əgər arbitr tərəfləri barışığa gətirə bilmirdisə, o halda arbitr şahidlərin iştirakı ilə işə mahiyyəti üzrə baxırdı. Arbitrajın

qətnaməsindən xalq yığıncağına şikayət verilə bilərdi, lakin bu halda tərəflər iş üzrə yeni sübutlar təqdim edə bilməzdilər.

Roma hüququna görə arbitraj qətnaməsinə hüquqi qüvvə verilmirdi, lakin sonralar Romada tərəflər mübahisənin arbitrə verilməsi və arbitrin qətnaməsinin icra edilməsi hallarında cərimənin tətbiq edilməsi haqqında qarşılıqlı öhdəlik (compromisum) imzalamaqla bu çətinliyi dəf edə bildilər.[1] Bu, əslində ilk arbitraj sazişləri idi.

XII cədvəl qanunlarında artıq dövlət hakimləri ilə tərəflərin seçdikləri arbitraj fərqləndirilirdi və arbitrlərin seçilməsi halları konkret göstərilirdi.

E.ə. I əsrə qədər belə bir qayda formalaşmağa başladı ki, iddiaçı ilk əvvəl arbitrin namizədliyini təklif edirdi və cavabdeh bununla razılaşdığı təqdirdə **pretor** bu seçimi təsdiq edirdi. Arbitrin çıxardığı qətnamə məhkəmə qərarı sayılmırdı və yalnız «rəy» (sententia) adlandırılırdı, ona görə də «rəy»dən şikayət verilə bilməzdi və o, məcburi qaydada icraya yönəldilmirdi, onu tərəflər könüllü qaydada icra edirdilər.

Orta əsrlərdə arbitraj Avropanın şimalında və cənubunda ticarətçilər arasında mübahisənin həll edilməsi vasitəsi kimi çıxış edirdi. Arbitr qismində gildiya başçıları, nüfuzlu tacirlər çıxış edirdilər, arbitrlər mübahisəni mövcud dövlət və kilsə qanunları əsasında deyil, o dövrdə artıq formalaşmış ticarət adətləri əsasında həll edirdilər[2]. Məhz həmin dövrlərdə ticarət hüququ və ticarət adətləri vüsət almağa başladı və sonralar XX əsrdə bu adətlər «Lex Mercatoria» adı aldı.

XVI – XVII əsrlərdə bir çox Qərbi Avropa dövlətlərində mütləq monarxiya üsul idarəsi bərqərar olduğu üçün arbitraj tədricən dövlət məhkəmələri ilə əvəz olundu, lakin XVIII – XIX əsrlərdə ticarətin və sənayenin surətli inkişafı ticarət və dəniz arbitrajlarının formalaşmasını sürətləndirdi, dəniz və ticarət arbitrajları kommersiya assosiasiyalarının, ticarət, dəniz və fond birjalarının, həmçinin ticarət palatalarının yanında yaranmağa başladı.

XIX əsrin sonlarında ilk arbitraj məhkəmələri yaranmağa başladı. Onlardan dünya miqyaslı ilk arbitraj mərkəzi Beynəlxalq Ticarət Palatasının yanında 1923-cü ildə yaradılan Beynəlxalq arbitraj məhkəməsi oldu və bu, beynəlxalq kommersiya arbitrajlarının yaranması üçün təkan verdi.

XX əsrin ortalarınadək bir çox ölkələrdə Kommersiya mübahisələrinə arbitrajlarda baxılmasına mənfi və hətta, düşmən

---

[1] Е. В. Брунцева. Международный Коммерческий арбитраж. Санкт-Петербург, 2001, с.32

[2] А.Ф. Волков. Торговые третейские суды //Третейский суд. 1999. №2-3

münasibət bəslənirdi, lakin zaman keçdikdə bu münasibət müsbətə doğru dəyişməyə başladı.

Hansı ölkədə dövlət məhkəmələrində işə baxılması prosesi qarışıq, ətalətli və bahalıdırsa, maddi hüquq qeyri-müəyyən və mürəkkəbdirsə həmin ölkələrdə arbitraj icraatına tələbat həyati zərurətə çevrilir.[1]

Ayrı-ayrı ölkələrdə və bölgələrdə arbitraj institutlarının, mərkəzlərinin və məhkəmələrinin təşəkkül tapması və inkişafı bu kitabın digər fəsillərində geniş araşdırma predmeti olduğu üçün bu paraqrafda şərh edilməyəcəkdir.

## *§ 4. Arbitrajın hüquqi təbiəti*

Arbitraj məhkəmələrinin hüquqi təbiətinə və fəaliyyətinə həsr edilmiş hüquq ədəbiyyatında arbitraj məhkəmələrinin hüquqi təbiəti ilə bağlı dörd nəzəriyyə mövcuddur: 1) müqavilə; 2) prosessual; 3) qarışıq; 4) müstəqil (muxtar).[2]

**Muqavilə (konsessual)** nəzəriyyəsinin tərəfdarlarının bir qismi arbitraj məhkəməsinə adi mülki-hüquq münasibəti kimi baxırlar, onların fikrincə, mübahisənin arbitraj məhkəməsinə verilməsi haqqında saziş mülki-hüquqi öhdəliklər müəyyən edir. Tərəflər bu Sazişdə arbitrajın növünü (ad hoc və ya arbitraj institutu), mübahisənin hansı arbitraj məhkəməsinə aidiyyatını, arbitrlərin seçilməsini, baxılma vaxtını və yerini, tətbiq olunacaq hüquq normalarını və s. razılaşdıra bilərlər.

Müqavilə nəzəriyyəsinin digər tərəfdarları isə belə hesab edirlər ki, arbitraj məhkəməsinin arbitrləri tərəflərin tapşırığı (mandatı) əsasında fəaliyyət göstərirlər və həmin məhkəmənin çıxardığı qətnamə tərəflərin müqavilədə (sazişdə) gəldiyi razılığın nəticəsidir. Bu nəzəriyyənin nəzəri və praktiki məsələlərinə prof. F. Kleynin əsərlərində daha çox rast gəlinir.[3]

**"Prosessual"** nəzəriyyənin tərəfdarları arbitrajın hüquqi təbiətinin müəyyənləşdirilməsində onun prosessual ünsürlərinə üstünlük verirlər. Bu nəzəriyyəyə görə arbitraj məhkəməsi dövlət ədalət mühakiməsinin xüsusi

---

[1] Третейский суд. М. 2000, №4-6. с. 82

[2] Лебедев С.Н. Международный торговый арбитраж, М.1965. с.22; Лунц Л.А., Марышева Н.И. Курс международного частного права. Т.3. Международный гражданский процесс, М.,1976, с.217; Минаков А.И. Арбитражное соглашение и практика рассмотрения внешнеэкономи-ческих споров, М., 1985, с.77; Хлестова И.О. Арбитраж во внешнеэко-номических отношениях стран-членов СЭВ, М., 1980. с.7.

[3] Klein F.E./Considerations sur Larbitrage en droit international pruve, Bale, 1955.

bir formasıdır və arbitraj araşdırmasının bütün ünsürləri və mərhələləri, mübahisələrin arbitraja verilməsi ilə bağlı arbitraj sazişi də daxil olmaqla prosessual hüququn predmetidir, arbitraj araşdırması nəticəsində çıxarılan qətnamə isə dövlət məhkəmələrinin qətnaməsi ilə eynidir. "Prosessual" nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, arbitraj məhkəmələrinin hakimlərinin fəaliyyəti dövlət məhkəmələrinin hakimlərinin fəaliyyəti ilə eynilik təşkil edir, belə ki, həm arbitrlər, həm də hakimlər tərəflərdən asılı deyildir və həm arbitraj məhkəməsinin və həm də dövlət məhkəməsinin səlahiyyəti ərazisində fəaliyyət göstərdiyi ölkənin qanunvericiliyi ilə müəyyən olunur. Arbitraj məhkəmələri ilə dövlət məhkəmələri arasında ciddi fərq onların təyin edilməsi qaydasındadır – hakimləri səlahiyyətli dövlət orqanları, arbitrləri isə tərəflər təyin edirlər.[1]

Göründüyü kimi, "müqavilə" nəzəriyyəsinin tərəfdarları arbitraj məhkəməsinin təşkilinin və fəaliyyətinin bütün məsələlərinin mülki hüquq bazasında həll edilməsini önə çəkirlər, "prosessual" nəzəriyyənin tərəfdarları isə əksinə, arbitraj məhkəməsi ilə bağlı bütün məsələlərin prosessual hüquq əsasında həll edilməsində israrlıdırlar.

Arbitrajın hüquqi təbiətinin həm "müqavilə", həm də "prosessual" nəzəriyyə əsasında müəyyən edilməsinin yaşamaq haqqının olmaması barədə hüquq ədəbiyyatında kifayət qədər fikirlər söylənilmişdir.[2]

**"Müqavilə"** nəzəriyyəsinin əsas nöqsanlarından biri ondan ibarətdir ki, bu nəzəriyyənin tərəfdarları arbitraj məhkəməsinin tərəflərin tapşırığı əsasında yaradılmasını və ona görə də mübahisəyə baxılması ilə bağlı bütün münasibətlərin tapşırıq müqaviləsi əsasında müəyyən edilməsini iddia edirlər, halbuki arbitraj məhkəməsinin qətnaməsinin istər məzmununun, istərsə də çıxarılması qaydasının tapşırıq müqaviləsinə heç bir aidiyyəti yoxdur.

**"Prosessual"** nəzəriyyənin tərəfdarları isə əsassız olaraq belə hesab edirlər ki, mübahisənin baxılmaq üçün arbitraj məhkəməsinə verilməsi haqqında saziş prosessual sənəddir və həmçinin, istər dövlət məhkəmələrinin, istərsə də arbitraj məhkəmələrinin qətnamələri prosessual cəhətdən eynilik təşkil edir.

---

[1] Лебедев С. Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон. М.,1988., с.59

[2] Лебедев С.Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон. М. 1988, с.61,

Лунц Л.А., Марышева Н.И. Курс международного частного права. Т.3. Международный гражданский процесс, М.,1976, с.217; Минаков; Мары-шева Н.И. Курс международного частного права. Т.3, М.1976, с.217; Минаков А.И. Арбитражное соглашение и практика рассмотрения внешнеэкономических споров, М., 1985, с.82; Хлестова И.О. Арбитраж во внешнеэкономических отношениях стран-членов СЭВ, М., 1980. с.10

**"Qarışıq"** nəzəriyyənin tərəfdarları arbitraj məhkəməsinin hüquqi təbiətini həm maddi-hüquqi ünsürlərin vəhdəti kimi (Sui generis) səciyyələndirirlər.

Arbitraj – sui generis institutu olmaqla maddi-hüquqi və prosessual-hüquqi elementləri özündə birləşdirir, yəni, arbitrajla bağlı hər hansı məsələ həll edilərkən həm maddi və həm də prosessual hüququn normalarından istifadə edilir. Bu nəzəriyyəni hüquq ədəbiyyatında İsveçrəli prof. C. Sansse Hollun adı ilə əlaqələndirirlər.[1]

"Qarışıq" nəzəriyyəyə görə (sui generis) arbitraj məhkəməsi mülki-hüquqi müqavilə əsasında yaradılır və prosessual hüquqi nəticələr doğurur və öz tərkibində 3 ünsürü əhatə edir:

1) Sui generis institutu kimi arbitrajın hüquqi təbiəti həm maddi, həm də prosessual hüquqla müəyyən olunur;

2) Arbitraj sazişində tərəflər tətbiq edilməli qanunu seçməyə haqlıdırlar;

3) Arbitraj sazişinin etibarlı olması üçün əsas müqavilənin etibarsızlığını şərtləndirən hüququn normalarının tətbiqi məcburi deyildir.[2]

Bu nəzəriyyənin əsas praktiki əhəmiyyəti ondan ibarətdir ki, işin arbitraj məhkəməsinə verilməsi barədə razılığa gələn tərəflərin hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti, sazişin etibarlılığı şərtləri və forması, tətbiq olunacaq qanunun və ya kollizion normanın seçilməsi maddi hüquqa uyğun olaraq həll edilir, arbitraj araşdırması, qətnamənin çıxarılması və icrası isə prosessual hüquq normaları əsasında həyata keçirilir.

Arbitrajın hüquqi təbiəti ilə bağlı "müstəqil" (muxtar) nəzəriyyə nisbətən son dövrlərdə yaranmışdır. "Müstəqil" nəzəriyyənin tərəfdarlarının mövqeyini şərh edərək A.İ. Minakov göstərir ki, onlar həm müqavilə, həm prosessual, həm də qarışıq nəzəriyyəni təkzib edirlər.[3]

"Müstəqil" nəzəriyyə müəllifləri belə hesab edirlər ki, arbitraj məhkəməsi – maddi və prosessual ünsürlərdən azad orijinal müstəqil bir sistemdir.[4]

Onlar arbitraja **perse** institutu kimi baxaraq diqqəti arbitraj prosedurunun rahatlığına və çevikliyinə yönəldirlər və onların fikrincə,

---

[1] Saucer-Hall G. L'arbitrage en droit international prive. Annuaire de L'Institut de droit international, Bale, 1952. V.1, p.469.

[2] Минаков А.И. Арбитражные соглашения и практика рассмотрения внешнеэкономических споров, М., 1985. с.83.

[3] Минаков А.И. Göstərilən əsər, s.84.

[4] Рубеллин-Девиъщи Ж, Ессаи сур Ла натуре де Л'арбитраэе. Парис. 1965. п.71.

arbitraj sazişi mülki-hüquqi müqavilə deyildir və ona görə də hətta, sui generis özlüyündə prosessual hüquqi nəticələr doğura bilməz. Digər tərəfdən, arbitraj sazişi heç prosessual sənəd də deyildir, çünki arbitrajın fəaliyyəti dövlət tənzimlənməsindən kənardadır, ona görə də arbitraj məhkəmələri yalnız "mütləq müstəqillik" vasitəsilə milli hisslərdən uzaqlaşaraq mübahisəni müstəsna olaraq beynəlxalq ticarət hüququ əsasında həll edən orqana çevrilə bilər.[1]

Göründüyü kimi, "müstəqil" nəzəriyyənin tərəfdarları milli hüquq sistemlərinə arxa çevirmək hesabına dövlətlərin fövqündə duran arbitraj sistemi yaratmağa çalışırlar ki, bu da həm mövcud olan reallığa, həm də dövlətlərin suverenliyi prinsipinin müddəalarına ziddir və ona görə qəbul edilə bilməz.

Fikrimizcə, "müstəqil" nəzəriyyəni də həmçinin, arbitrajın hüquqi təbiətini müəyyən edən ayrıca nəzəriyyə kimi qəbul etmək mümkünsüzdür, ona görə də hesab edirik ki, arbitrajın hüquqi təbiətini daha dəqiq, daha dolğun və həm maddi, həm də prosessual hüquqi baxımdan daha əsaslı müəyyən edən qarışıq (sui generis) nəzəriyyənin yaşamaq haqqı tanınmalıdır.

[1] Минаков А.И. Göstərilən əsər, c.84.

# II fəsil
# Arbitraj prosesinin mənbələri

## *§ 1. Beynəlxalq Konvensiyalar*

Beynəlxalq Kommersiya Arbitrajının fəaliyyətinin hüquqi cəhətdən tənzim edilməsi beynəlxalq səviyyədə beynəlxalq konvensiyaların və ikitərəfli beynəlxalq müqavilələrin bağlanması, ölkədaxili səviyyədə isə beynəlxalq Kommersiya Arbitrajının fəaliyyətini nizama salan qanunların qəbul edilməsi yolu ilə həyata keçirilir. Həmçinin bir sıra tövsiyə xarakterli beynəlxalq sənədlər mövcuddur ki, bir çox ölkələrin arbitraj qanunvericiliyinə əsaslı surətdə təsir göstərir (məsələn, YUNSİTRALın Nümunəvi Arbitraj Qanunu).

Kommersiya Arbitrajlarının fəaliyyətini nizama salan Beynəlxalq Konvensiyalar ərazi sferasına (ümumdünya və bölgə) və tətbiq olunma sferasına (ümumi və xüsusi) görə fərqləndirilir. Beynəlxalq Kommersiya arbitrajlarının fəaliyyəti ilə bağlı **Ümumdünya miqyaslı** Konvensiyalara aşağıdakılar aid edilə bilər:

1) Xarici Arbitraj qətnamələrinin tanınması və icra edilməsi haqqında 1958-ci il Nyu-York Konvensiyası;
2) Dövlətlər və xarici şəxslər arasında investisiya mübahisələrinin həll edilməsi haqqında 1965-ci il tarixli Vaşinqton Konvensiyası.

Bölgə miqyaslı Konvensiyalara isə aşağıdakılar aiddir:

1) Xarici ticarət Arbitrajı haqqında 1961-ci il tarixli Avropa Konvensiyası;
2) İqtisadi və elmi-texniki əməkdaşlıq münasibətlərindən irəli gələn mülki-hüquqi mübahisələrin arbitraj yolu ilə həll edilməsi haqqında 1972-ci il tarixli Moskva Konvensiyası (Bu Konvensiya Keçmiş Qarşılıqlı İqtisadi Yardım Şurasına daxil olan ölkələrə şamil edilirdi);
3) Beynəlxalq Kommersiya Arbitrajı haqqında 1975-ci il tarixli Panama Konvensiyası (Bu Konvensiya Şimali və Cənubi Amerikanın 16 dövləti tərəfindən imzalanmışdır).

**Ümumi xarakterli** Konvensiyalara hər hansı kommersiya xarakterli arbitraj sazişlərinə, arbitraj proseslərinə və arbitraj qətnamələrinə aid ümumi məsələləri tənzim edən Konvensiyalar (Nyu-York Konvensiyası, Avropa Konvensiyası, Panama Konvensiyası) aid edilə bilər.

**Xüsusi Beynəlxalq Konvensiyalara** yalnız investisiya mübahisələrinin həll edilməsi məqsədinə xidmət edən Vaşinqton Konvensiyası aiddir.

Beynəlxalq Konvensiyaların və digər beynəlxalq müqavilələrin normaları onu imzalayan dövlətlərin Milli qanunvericiliyinin bir

hissəsinə çevrilir və qanunların tətbiqi pro–sesində üstün hüquqi qüvvəyə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 151-ci mad–dəsinə müvafiq olaraq Azərbaycan Respublikasının qanun–vericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir.

**Beynəlxalq mübahisələrin sülh yolu ilə nizama salınması haqqında 1899 və 1907-ci il Haaqa Konvensiyası** beynəlxalq ümumi hüquq sferasında dövlətlər arasında yaranan münaqişələrin sülh yolu ilə həll edilməsinin bir neçə üsulunu nəzərdə tuturdu, bura: Üçüncü ölkələrin vasitəçiliyi (mediasiya), Beynəlxalq İstintaq Komissiyasına müraciət və arbitraja müraciət daxil idi.

Konvensiyanın 15-ci maddəsinə uyğun olaraq Beynəlxalq Arbitraj dövlətlərin hüquqa hörmət əsasında seçdikləri hakimlər vasitəsilə həmin dövlətlər arasında mövcud olan münaqişənin sülh yolu həll edilməsini özünün əsas vəzifələrindən biri sayır. Bu məqsədlərin həyata keçirilməsi üçün Konvensiya Haaqada Daimi fəaliyyət göstərən münsif məhkəməsinin yaradılmasını nəzərdə tuturdu. Məhkəməyə həm Konvensiyanın iştirakçısı olan dövlətlər, həm də onların razılığı ilə üçüncü ölkələr də müraciət edə bilərdilər (Konvensiyanın 26-cı maddəsi).

Konvensiyanın iştirakçısı olan hər bir dövlət yüksək əxlaqi keyfiyyətləri ilə arbitr olmağa layiq olan və beynəlxalq hüquq məsələlərinin həllində bilikli və səlahiyyətli olan dörd şəxsi arbitr kimi seçirdi və həmin şəxsin adı 6 il müddətində arbitrlər siyahısına daxil edilirdi. Mübahisə yarandığı təqdirdə hər bir tərəf iki arbitr seçirdi və onlar da öz sıralarından arbitraj tərkibinin sədrini seçirdilər. Mübahisə həmçinin tərəflərin rəyindən asılı olaraq bir və ya üç arbitr tərəfindən həll edilə bilərdi.

Hal-hazırda məhkəmədə işlərə baxılmasının hüquqi tənzimlənməsi 20 oktyabr 1992-ci ildən qüvvəyə minmiş Dövlətlər arasında mübahisələrə arbitraj baxışının fakültativ Qaydaları vasitəsilə həyata keçirilir.

**1923-cü il tarixli arbitraj qeyd-şərti haqqında Cenevrə Protokolu və Xarici arbitraj qətnamələrinin icrası haqqında 1927-ci il tarixli Cenevrə Konvensiyası** Kommersiya arbitrajına bilavasitə aid ilk Beynəlxalq razılaşmadır.

1923-cü il tarixli Cenevrə Protokolu Beynəlxalq Ticarət Palatasının təşəbbüsü ilə hazırlanmışdır. Protokolun 1-ci maddəsinə uyğun olaraq onu imzalayan tərəflər **arbitraj qeyd-şərti** əsasında yaranmış **kommersiya mübahisəsini** baxılmaq üçün arbitraj məhkəməsinə təqdim edə bilərdilər. Həmin Protokolun 3-cü maddəsinə əsasən onu imzalayan dövlətlər öz ərazilərində çıxarılan arbitraj qətnaməsinin icrasını milli qanunvericiliyinə uyğun olaraq təmin etməlidirlər.

Beləliklə, Protokol digər ölkələrin ərazisində çıxarılan arbitraj qətnamələrinin icra edilməsi hallarında tətbiq edilmirdi.

1923-cü il tarixli Cenevrə Protokolu və 1927-ci il tarixli Cenevrə Konvensiyası müasir kommersiya arbitrajının fəaliyyətinin beynəlxalq hüquqi tənzimlənməsinin əsasını qoydu. Bu aktların əsas müddəaları öz əksini Xarici Arbitraj Məhkəmələrinin qərarlarının tanınması və icra edilməsi haqqında 10 iyun 1958-ci il tarixli Nyu-York Konvensiyasında öz əksini tapdı.

Nyu-York Konvensiyasının hazırlanmasında Beynəlxalq Ticarət Palatası əhəmiyyətli rol oynamışdır.

Münsiflər (arbitraj) məhkəmələrinin qətnamələrinin tanınması və icra edilməsi ilə əlaqədar ən geniş tətbiq edilən beynəlxalq əhəmiyyətli çoxtərəfli müqavilə 10 iyun 1958-ci il tarixdə qəbul edilmiş Nyu-York Konvensiyasıdır.

Konvensiyanın VII maddəsi müəyyən edir: «Mövcud Konvensiyanın qərarı Razılaşan Dövlətlər arasında bağlanmış arbitraj qərarlarının tanınması və icra edilməsi barədə ikitərəfli və ya çoxtərəfli sazişlərin fəaliyyətinə toxunmur, habelə heç bir maraqlı tərəfi belə arbitraj qərarının tanınması və icra edilməsi tələb olunan ölkənin qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin imkan verdiyi qaydada və hədd çərçivəsində hər hansı arbitraj qərarından faydalanmaq hüququndan məhrum etmir.»

Buna görədir ki, məsələn, Almaniya Federativ Respublikasının məhkəmə təcrübəsində Rusiya arbitraj qətnaməsinin icrası ilə bağlı 1958-ci il Konvensiyasına deyil, SSRİ ilə AFR arasında ticarət və dənizçiliyin ümumi məsələləri ilə əlaqədar 25 aprel 1958-ci ildə bağlanmış Razılaşmaya istinad edilmişdi.[1]

Həmin Konvensiyanın I maddəsinə əsasən, bu Konvensiya tərəflərin həm fiziki, həm də hüquqi şəxslər arasında yaranan mübahisələr üzrə arbitraj qərarlarının tanınması və icra edilməsi tələb

---

[1] Е. В. Брунцева, Международный Коммерческий Арбитраж, С. Петербург , 2001, с.45.

olunan dövlətdən fərqli olan dövlətin ərazisində çıxarılmış beynəlxalq arbitraj qərarlarının tanınması və icra edilməsi sahəsində tətbiq edilir.

Beləliklə, xarici arbitraj qətnaməsinin tanınması və icra edilməsi üçün birinci şərt xarici arbitraj qətnaməsinin ərazisində tanınması və icra edilməsi tələb olunan ölkənin Konvensiyanın üzvü olmasıdır.

Konvensiyanın I maddəsinin 3-cü bəndinə əsasən, mövcud Konvensiya imzalandıqda, ratifikasiya edildikdə və ya ona qoşulduqda, yaxud Konvensiyanın X maddəsində nəzərdə tutulmuş bildirişi edərkən, hər bir dövlət qarşılıqlı olaraq bəyanat verə bilər ki, o, mövcud Konvensiyanı yalnız digər Razılaşan Dövlətin ərazisində çıxarılmış arbitraj qərarlarının tanınması və icra edilməsinə münasibətdə tətbiq edəcəkdir. Bu cür bəyanat müxtəlif vaxtlarda Konvensiyanın çoxlu sayda iştirakçıları tərəfindən edilmişdir.

Konvensiyanın vəziyyəti, iştirakçı dövlətlərin siyahısı, onlar tərəfindən edilmiş bəyanatlar göstərilməklə, BMT-nin Beynəlxalq Ticarət Komissiyası tərəfindən hər il dərc olunur. Azərbaycan Respublikası 19 noyabr 1999-cu ildən etibarən Konvensiyanın iştirakçısıdır.

Mübahisənin arbitraj (münsiflər) məhkəməsində baxılması və müvafiq olaraq belə məhkəmənin qətnaməsinin tanınması və icrasından təkcə çoxlu sayda dövlətlərin ərazisində tanınması və icra edilməsi üstünlüklərinə malik olması ilə deyil, həmçinin, Konvensiyada bununla əlaqədar bir çox şərtlərin nəzərdə tutulması ilə də fərqlənir ki, həmin şərtlərin mövcud olduğu halda arbitraj məhkəməsinin qətnamələri tələb olunan dövlətin ərazisində tanınır və icra edilir.

Yarana biləcək mübahisənin tərəfləri üçün arbitraj məhkəməsinin qətnaməsinin qüvvəyə minməsi, qətnamənin qüvvəyə minməsinə qədər ondan şikayət verilməsi imkanlarının aydınlaşdırılması da əhəmiyyət kəsb edir. Bu məsələnin həlli yolları mübahisəyə baxan arbitraj məhkəməsinin Reqlamentində və məhkəmənin işə baxdığı və qərar çıxardığı ölkənin qanunvericiliyi, o cümlədən Konvensiya ilə tənzimlənir.

Konvensiyanın V maddəsinin 1-ci bəndinin «e» yarımbəndində qeyd edildiyi kimi, arbitraj qətnaməsi tərəflər üçün qüvvəyə minməmiş, yaxud ərazisində çıxarıldığı ölkənin və ya qanunu tətbiq edilən ölkənin səlahiyyətli hakimiyyət orqanı tərəfindən ləğv edilmiş və ya icrasının dayandırılması haqqında əleyhinə qətnamə çıxarılmış tərəf, qətnamənin tanınmasının və icrasının həyata keçirilməsi tələb olunan ölkənin səlahiyyətli hakimiyyət orqanına sübutlar təqdim etsə, arbitraj qətnaməsinin tanınması və icrasından imtina edilə bilər. Azərbaycan

Respublikasının mülki-prosessual qanunvericiliyi ilə də nəzərdə tutulmuşdur ki, qətnamə, ərazisində həmin qətnamə çıxarılan dövlətin qanunvericiliyi üzrə qanuni qüvvəyə minməmişsə, məhkəmənin qətnaməsini məcburi qaydada icra etməkdən imtina edilməsinə yol verilir (Azərbaycan Respublikası MPM-in 465.1.4-cü m.). Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuşdur ki, xarici dövlətlərin məhkəmələrinin və arbitrajların qərarları əsasında icra sənədi, həmin qərar Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada tanındıqdan sonra verilir («Məhkəmə qərarlarının icrası haqqında» Qanunun 77.2-ci m.)

2008-ci ilin mart ayınadək olan məlumata görə Nyu-York Konvensiyasını 139 dövlət imzalamışdır.

**Xarici ticarət arbitrajı haqqında Avropa Konvensiyası** 21 aprel 1961-ci ildə Cenevrə şəhərində imzalanmışdır. Onun hazırlanmasında BMT-nin Avropa İqtisadi Komissiyası müstəsna rol oynamışdır. Hazırda onun 25 üzvü vardır. Azərbaycan Respublikası Avropa Konvensiyasının üzvüdür. Avropa Konvensiyasının tətbiqi sferası Avropa qitəsi ilə məhdudlaşmır, onun iştirakçılarının coğrafiyası genişdir, belə ki, hətta Kuba və Burkina-faso limi kimi qeyri Avropa dövlətləri də bu Konvensiyasının üzvüdürlər.

Avropa Konvensiyanın 2-ci maddəsinə uyğun olaraq hüquqi şəxslər arasında arbitraj sazişinin bağlanması imkanı nəzərdə tutulmuşdur. Bu imkan Milli dövlət orqanlarının arbitraj sazişinin bağlanması və işin baxılmaq üçün arbitraja verilməsinin qadağan edilməsi müddəasını aradan qaldırır.

Avropa Konvensiyası həmçinin arbitrajın səlahiyyətləri ilə bağlı məsələləri, arbitrajla iştirakçıların qarşılıqlı münasibətləri, tətbiq edilməli hüququn seçilməsi, arbitraj qətnaməsinin cavab verməli olduğu tələbləri və arbitraj qətnaməsinin ləğv edilməsi ilə bağlı müddəaları özündə əks etdirir.

Xarici arbitraj qətnamələrinin tanınması və icrası ilə bağlı məsələlərə bu Konvensiya toxunmurdu.

Hüquq ədəbiyyatında belə fikir də vardır ki, Avropa Konvensiyası beynəlxalq Kommersiya arbitrajının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərməmişdir və yalnız Nyu-York Konvensiyasına Əlavə kimi mövcuddur.[1] Hesab edirik ki, kifayət qədər mübahisəli fikirdir.

---

[1] Е.В. Брунцева. Международный Коммерческий Арбитраж, Санкт – Петербург, 2001, с.48.

**Dövlətlər və Xarici şəxslər arasında investisiya mübahisələrinin həll edilməsi haqqında 1965-ci il tarixli Vaşinqton Konvensiyası** imzalanmaq üçün 18 mart 1965-ci il tarixdə açılmış və 14 oktyabr 1966-cı il tarixdə qüvvəyə minmişdir. Bu Konvensiyanın hazırlanmasında Ümumdünya Bankı həlledici rol oynamışdır.

Bu Konvensiya hər şeydən əvvəl xarici investisiyaların mənafelərinin müdafiəsini nəzərdə tutur. Konvensiyada bu məqsədlə Vaşinqtonda İnvestisiya mübahisələrinin həll edilməsi üzrə Beynəlxalq Mərkəzin yaradılmasını nəzərdə tutulurdu (İnternational Center for Settlement of İnvestment Disputes - İCSİD). Konvensiyada həmçinin mərkəzin strukturu, səlahiyyəti, Arbitraj və Barışıq Prosedur Qaydaları da müəyyən edilirdi. Vaşinqton Konvensiyası yalnız investisiya fəaliyyəti nəticəsində yaranan, tərəflərdən biri dövlət və ya dövlət orqanı, digəri isə başqa dövlətə mənsub investor olan (fiziki və ya hüquqi şəxslər) və müvafiq arbitraj sazişi bağlanan hallarda tətbiq edilirdi.

Konvensiya dövlət immunitetinə istinad etməklə investisiya mübahisələrinə Milli məhkəmələrdə baxılması üçün müraciət edilməsi imkanını istisna edir. Konvensiyanın 54-cü maddəsinə əsasən Beynəlxalq Mərkəzin xarici investisiya mübahisələrinin həll üzrə çıxardığı qətnamələr qətidir və Vaşinqton Konvensiyasını imzalayan iştirakçı – dövlətlərin ərazilərində heç bir əlavə yoxlama aparılmadan icra edilməlidir. Konvensiyanın 52-ci maddəsinə uyğun olaraq işi uduzan tərəf qətnamənin ləğv edilməsi üçün Beynəlxalq Mərkəzin Baş Katibinə müraciət edə bilərdi, Baş Katib qətnaməyə yenidən baxılması üçün xüsusi komitə yaradırdı və qətnamənin ləğvi üçün əsaslı prosessual hüquq pozğunluqları olduqda Komitə qətnaməni tam və ya qismən ləğv etmək hüququna malik idi.

Vaşinqton Konvensiyasını hazırda 132 dövlət imzalamışdır. Azərbaycan Respublikasında bu Konvensiyanın üzvüdür.

**Arbitraj barəsində vahid qanun haqqında 20 yanvar 1966-cı il tarixli Avropa Konvensiyası** Bu Konvensiyanın məqsədi Avropa Şurasına üzv dövlətlərin arbitraj qanunvericiliyinin unifikasiyası olmuşdur. Lakin bu Konvensiya yalnız Avstriya və Belçika tərəfindən imzalanmış və Belçika tərəfindən təsdiq edilmişdir.

Avropa Konvensiyası ilə bir gündə Arbitraj Reqlamenti də qəbul edilmişdir, həmin Reqlamentə müvafiq olaraq mübahisələrə *ad hoc* qaydasında baxılması proseduru nəzərdə tutulmuşdur.

**Beynəlxalq Kommersiya Arbitrajı haqqında 1975-ci il tarixli Amerikaarası Panama Konvensiyası** 30 yanvar 1975-ci ildə

Panamada imzalanmışdır və indiyədək 19 dövlət tərəfindən qəbul edilmişdir.

Bu Konvensiyanın 1-ci maddəsinə müvafiq olaraq hər hansı kommersiya əqdi üzrə artıq yaranan və gələcəkdə yaranacaq mübahisə tərəflərin yazılı formada ifadə etdirdikləri arbitraj sazişinə əsasən arbitraj məhkəməsində baxıla bilərdi. Konvensiyanın 3-cü maddəsinə əsasən tərəflər arasında digər razılaşma olmadıqda mübahisəyə Kommersiya Arbitrajı üzrə Amerikaarası Komis–siyasının prosedur Qaydalarında nəzərdə tutulan prosessual formada baxıla bilər. Bu Qaydalar YUNSİTRAL-ın 1976-cı il tarixli Arbitraj Reqlamenti əsasında hazırlanmışdır və 1 yanvar 1978-ci il tarixdən tətbiq olunur.

## *§ 2. İkitərəfli Beynəlxalq müqavilələr*

Bir çox dövlətlər aralarında ticarət, iqtisadi və investisiya münasibətlərini nizama salan ikitərəfli müqavilələr bağlayırlar, həmin dövlətlər bu müqavilələrdə arbitraj mübahisələrinə baxılması ilə bağlı və həmçinin arbitraj qətnamələrinin tanınması və icra edilməsi qaydası ilə əlaqəli məsələləri nəzərdə tuta bilərlər.

**Azərbaycan Respublikası Hökuməti və Belçika Krallığı Hökuməti** arasında hava əlaqələri haqqında Sazişin 18-ci maddəsinə əsasən Razılığa Gələn Tərəflər mübahisəli məsələni danışıqlar yolu ilə həll edə bilmədikdə, öz aralarında razılaşdırdıqları qərara əsasən, müvafiq şəxsə və təşkilata və yaxud Razılığa Gələn hər hansı bir Tərəfin təkidi ilə həmin məsələni üç **münsifdən ibarət Məhkəməyə** təqdim edə bilərlər.

Arbitraj məhkəməsi aşağıdakı şəkildə təşkil olunacaqdır:

Razılığa Gələn hər bir Tərəf Razılığa Gələn digər Tərəfdən diplomatik kanallar vasitəsi ilə arbitraj keçirilməsinə dair müraciəti aldıqdan sonra 60 gün müddətində bir **münsif** müəyyən etməlidir. Sonrakı 60 gün ərzində iki **münsif** arasında razılığa əsasən üçüncü **münsif** müəyyən ediləcəkdir.

Üçüncü **münsif** üçüncü Dövlətin vətəndaşı olacaqdır, o, Məhkəmənin Sədri vəzifəsini yerinə yetirəcək və Məhkəmənin keçiriləcəyi yeri təyin edəcəkdir.

Göstərilən müddət ərzində **münsiflərdən** hər hansı biri müəyyən olunmazsa və yaxud üçüncü **münsif** təyin olunmazsa, o zaman Razılığa Gələn hər bir Tərəf **münsifin** müəyyən olunması xahişi ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının Prezidentinə müraciət edə bilər.

**Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında** investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında Sazişin 11-ci maddəsinə uyğun olaraq Razılığa gələn Tərəflərdən istənilən birinin məsələ qaldırdığı tarixdən keçən altı ay ərzində mübahisə tənzimlənməzsə, o, Razılığa gələn Tərəflərdən istənilən birinin müraciəti əsasında **Münsiflər Məhkəməsinə** verilə bilər.

**Münsiflər Məhkəməsi** qərarlarını səs çoxluğu əsasında qəbul edir. Bu qərar qətidir və Razılığa gələn Tərəflər üçün hüquqi cəhətdən məcburidir.

Məhkəmə öz prosedura qaydalarını müəyyən edir. O, istənilən Razılığa gələn Tərəfin müraciəti əsasında məhkəmə qərarının təfsirini verir. Məhkəmə xüsusi şəraitə uyğun olaraq başqa qərar qəbul etmişsə, hakimlərin maaşları da daxil olmaqla, məhkəmə xərcləri iki Razılığa gələn Tərəf arasında bərabər bölünür.

**Azərbaycan Respublikası və Niderland Krallığı arasında hava daşımaları haqqında** Sazişin 17-ci maddəsinə müvafiq olaraq Razılığa gələn tərəflər mübahisəli məsələni danışıqlar yolu ilə həll edə bilərlər; əgər göstərilən vasitələrlə razılıq əldə edilməsə, mübahisə Razılığa gələn bir Tərəfin tələbi ilə tribunalda baxılmağa veriləcək. Bu məhkəmə üç **Münsifdən** ibarətdir, Razılığa gələn hər bir Tərəf bir **münsif** təyin edir, üçüncüsü isə iki belə təyin edilmiş **münsif** tərəfindən təyin edilir. Razılığa gələn hər bir Tərəf Razılığa gələn bir Tərəfin o birisindən diplomatik kanallarla mübahisəli məsələnin müzakirəsinin Arbitraj yolu ilə həll edilməsi haqqında bildiriş aldığı tarixdən sonra altmış (60) gün müddətində **münsif** təyin edir və üçüncü **münsif** sonrakı altmış (60) gün müddətində təyin edilir. Əgər Razılığa gələn hər hansı Tərəf göstərilən müddətdə **münsif** təyin etməsə və ya üçüncü **münsif** göstərilən müddətdə təyin edilməsə, Razılığa gələn hər hansı Tərəf zəruriyyətdən asılı olaraq **münsif** və ya **münsiflər** təyin edilməsi haqqında xahişlə Mülki Aviasiya Beynəlxalq Təşkilatı Şuranın Prezidentinə müraciət edə bilər. Hər bir halda üçüncü **münsif** üçüncü dövlətin vətəndaşı olmalıdır və **münsiflər** strukturunun prezidenti (sədri) vəzifəsini yerinə yetirməlidir.

**Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hava daşımaları haqqında Sazişin** 19-cu maddəsinə əsasən Razılığa Gələn Tərəflər müzakirələr yolu ilə razılıq əldə edə bilmədiyi halda, məsələnin həll edilməsi üçün müvafiq şəxsə və ya struktura müraciət etməklə razılığa gələ bilər və yaxud Razılığa Gələn Tərəfdən hər birinin müəyyən edəcəyi bir **münsif** və bu yolla

seçilən iki **münsifin** təyin etdiyi üçüncü **münsifdən ibarət məhkəməyə** təqdim edə bilər onlar da öz növbəsində aşağıdakı şəkildə müəyyən olunacaqlar. Razılığa Gələn Tərəflərin hər biri diplomatik yolla arbitrajın keçirilməsinə dair tələb alındıqdan sonra 60 gün ərzində iki **münsif** arasında razılığa əsasən üçüncü **münsif** müəyyən olunacaqdır. Tərəflərdən hər hansı biri göstərilən müddət ərzində bir **münsif** təyin etməzsə və ya üçüncü **münsif** seçilməzsə, Tərəflərdən biri Mülki Aviasiya Təşkilatı Sədrindən bir və ya bir neçə **münsif** təyin etməsini xahiş edə bilər. Bu halda, üçüncü **münsif** üçüncü bir dövlətin vətəndaşı olacaq və **münsiflər** heyətinin sədri olacaqdır.

Razılığa Gələn Tərəflərin hər biri öz **münsifinin** xərclərini ödəməlidir. Arbitraj məhkəməsinin digər xərcləri, Tərəflər arasında bərabər bölünərək ödəniləcəkdir.

Belə Sazişlər Azərbaycan hökuməti ilə Özbəkistan arasında (qaz sahəsinin inkişaf etdirilməsində əməkdaşlıq haqqında), Türkiyə Respublikası Hökuməti arasında (investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında) və digər dövlətlər arasında da bağlanılmışdır.

Beləliklə, ikitərəfli beynəlxalq müqavilələr Beynəlxalq arbitraj prosesinin mənbəyi olmaqla özündə arbitraj prosesinin mühüm müddəalarını əks etdirir və tərəflər kommersiya arbitrajı və onun fəaliyyəti ilə bağlı məcburi davranış qaydaları müəyyən edirlər.

## *§ 3. Tövsiyə xarakterli beynəlxalq sənədlər*

Arbitraj prosesinin mənbələrindən biri də bütün dünyada beynəlxalq kommersiya arbitrajlarının fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən, lakin normativ xarakterə malik olmayan tövsiyə xarakterli beynəlxalq sənədlərdir. Bu sənədlərin hazırlanması və qəbulu BMT-nin Beynəlxalq ticarət hüququ üzrə Komissiyanın fəaliyyəti ilə sıx bağlıdır (UNCİTRAL)

1958-ci il tarixli Nyu-York Konvensiyası arbitraj prosesinin heç də bütün sahələrini tənzim etmək məqsədini qarşısına qoymamışdır. Arbitraj instansiyalarında bu vəzifəni müvafiq arbitraj orqanının reqlamentləri yerinə yetirir. Ad hoc arbitrajında isə bu yaxınlara qədər vahid prosedur qaydası mövcud deyildi. Bu vəzifənin yerinə yetirilməsi və beynəlxalq iqtisadi mübahisələrə baxılmasının tənzim edilməsi məqsədi ilə **BMT-nin Beynəlxalq ticarət hüququ üzrə Komissiyası YUNSİTRAL-ın Arbitraj Reqlamentinin** hazırladı və BMT-nin Baş

Assambleyası 15 dekabr 1976-cı ildə yekdilliklə bu Reqlamenti qəbul etdi.

Reqlamentin qəbulundan sonra bir sıra arbitraj institutları və mərkəzləri (o cümlədən London Beynəlxalq Arbitraj Məhkəməsi, Amerika Arbitraj Assosiasiyası) öz fəaliyyətlərini YUNSİTRAL-ın Arbitraj Reqlamentinə uyğun şəkildə həyata keçirməyə başladılar.

Hazırda YUNSİTRAL-ın Arbitraj Reqlamentinə istinadən arbitraj qeyri-şərtinin edilməsi təcrübəsi bütün dünyada çox geniş yayılmışdır. Hətta bir sıra arbitraj institutları və mərkəzləri öz Reqlamentlərinə dəyişiklik edərək onu YUNSİTRAL-ın Arbitraj Reqlamentinə uyğunlaşdırmağa başladılar. Lakin Reqlamentin qəbulundan əsas məqsəd arbitraj institutlarının deyil, *ad hoc* arbitrajlarının fəaliyyətinin tənzim edilməsi olmuşdur.

Reqlamentin 1-ci maddəsinə əsasən tərəflər müqavilədə yazılı formada[1] həmin müqaviləyə aid olan mübahisələrin YUNSİTRAL-ın Arbitraj reqlamenti əsasında arbitraja verilməsi haqqında razılaşdıqda, belə mübahisələr tərəflərin yazılı formada razılaşdıra bildikləri dəyişikliklərə bu Reqlament əsasında həll edilməlidir.

Bu Reqlament, onun qaydalarının tərəflərin imtina edə bilmədikləri qanunun normaları ilə ziddiyyət təşkil etdiyi hallar istisna olmaqla, arbitraj araşdırmasını tənzimləyir. İstisna halda həmin qanunun norması tətbiq olunur.

Reqlamentin 3-cü maddəsinə uyğun olaraq Arbitraj araşdırmasını başlayan tərəf (burada və gələcəkdə «iddiaçı» adlandırılan) digər tərəfə (burada və gələcəkdə «cavabdeh» adlandırılan) arbitraj haqqında bildiriş göndərir.

Cavabdehin arbitraj haqqında bildiriş aldığı gündən arbitraj araşdırması başlanmış
hesab olunur.

Reqlamentin 5-ci maddəsinə müvafiq olaraq əgər tərəflər əvvəlcədən arbitrlərin sayı (bir və ya üç) barədə razılığa gəlməyiblərsə və cavabdeh arbitraj haqqında bildirişi aldıqdan sonra 15 gün

---

[1] Nümunəvi arbitraj qeyd-şərti bu müqavilədən irəli gələn və ya buna aid olan istənilən fikir ayrılığı və tələb, yaxud bu müqavilənin pozulması, xitam verilməsi və ya etibarsızlığı ilə bağlı məsələlər hazırda qüvvədə olan YUNSİTRAL Arbitraj Reqlamentinə müvafiq olaraq arbitrajda həll olunacaq.

**Qeyd – Tərəflər buna aşağıdakı əlavəni edə bilərlər:**

a) səlahiyyətli orqan… (müəssisənin adı və ya şəxsin adı);

b) arbitrlərin sayı…(bir və ya üç);

c) arbitrajın yeri… (şəhər və ya ölkə);

d) arbitraj araşdırmasının dili (dilləri)… bu müqaviləyə aid mübahisələr YUNSİTRAL-ın Arbitraj Reqlamentinə müvafiq olaraq arbitraja verildiyi halda belə mübahisələr tərəflərin yazılı formada razılaşdıqları dəyişikliklər bu Reqlamentə əsasən olunmalıdır.

müddətində tərəflər bir arbitrin olması barədə razılığa gəlməyiblərsə, o halda üç arbitr təyin edilir.

İşə baxılması dili haqqında müddəalar Reqlamentin 17-ci maddəsində təsbit olunmuşdur. Həmin maddəyə əsasən tərəflərin razılığı nəzərə alınmaqla, arbitraj məhkəməsi təyin edildikdən dərhal sonra arbitraj prosesində işə baxılma dili, yaxud dilləri barədə məsələni həll edir. Bu qərar iddia ərizəsinə, cavabdehin iddia üzrə etirazına və digər başqa yazılı ərizələrə və şifahi araşdırma aparılan zaman ediləcək dilə, yaxud dillərə aid edilir.

Arbitraj məhkəməsi iddia ərizəsinə və ya cavabdehin iddia üzrə etirazlarına əlavə edilmiş istənilən sənədlərin, eləcə də araşdırmanın gedişi zamanı təqdim edilmiş istənilən əlavə sənədlər və ya sübutların, tərəflərin razılığa gəldikləri və ya arbitraj məhkəməsinin müəyyən etdiyi dilə, yaxud dillərə tərcümə edilməsi barədə sərəncam verə bilər.

Arbitraj Reqlamenti həmçinin iddia ərizəsi, işlərin arbitraja aidiyyəti, sübutlar, arbitraj baxışı, arbitraj qətnamələri ilə bağlı məsələləri də özündə əks etdirir.

**Beynəlxalq Kommersiya Arbitrajı haqqında YUNSİTRAL-ın 21 iyun 1985-ci il tarixli Nümunəvi Qanunu** da BMT-nin beynəlxalq ticarət hüququ üzrə Komissiyası tərəfindən hazırlanmışdır. BMT-nin Baş Assambleyası özünün dekabr 1985-ci il tarixli qərarında beynəlxalq kommersiya arbitrajları üzrə vahid qanunvericiliyin yaradılması arzusunu əldə rəhbər tutaraq bütün dövlətlərə Beynəlxalq Arbitraj haqqında Nümunəvi Qanuna istinad etməyi tövsiyə etmişdir.

Nümunəvi Qanunun qəbul edilməsinə Nyu-York Konvensiyasının müddəalarına müxtəlif ölkələrin müxtəlif cür yanaşması və arbitraj qətnamələrinin icrasında Milli məhkəmələrin fərqli praktikası təkan vermişdir. Beynəlxalq kommersiya Arbitrajlarının fəaliyyətini nizama salan Milli qanunvericiliyin normalarının beynəlxalq normalara uyğunlaşdırılması sahəsində YUNSİTRAL-ın Nümunəvi Qanunun əhəmiyyətli rolu olmuşdur.

Qeyd etmək lazımdır ki, Nümunəvi Qanun özlüyündə klassik anlamda olan Qanun deyildir və yalnız konkret ölkələrdə arbitraj qanunvericiliyinin hazırlanmasında nümunə rolunu oynayır, lakin digər tərəfdən bu Qanunun arxasında BMT-nin və YUNSİTRAL-ın nüfuzu dayanır və onun üçün də heç bir dövlət onu inkar etmək əzmində deyildir. Çünki öz ölkəsinə xarici investisiyaları cəlb etmək niyyətində olan hər hansı bir dövlət Nümunəvi Qanuna istinad etməyən köhnə arbitraj qanunvericiliyi ilə çətin ki, qarşısına qoyduğu məqsədə nail olsun.

Nümunəvi Qanunun 1-ci maddəsinə uyğun olaraq Bu Qanun hər hansı bir dövlətlə başqa dövlət və yaxud dövlətlər arasında istənilən sazişə riayət olunmaq şərti ilə beynəlxalq ticarət[1] arbitrajına tətbiq olunur.

Qanunun 8-ci maddəsinə əsasən Arbitraj sazişinin predmeti olan məsələyə aid
qarşısında iddia qaldırılmış məhkəmə hər hansı bir tərəfin mübahisənin mahiyyəti üzrə ilkin ərizəsinin təqdim edildiyi vaxtdan gec olmayaraq, bu barədə tərəflərin xahişi olarsa, arbitraj sazişi etibarsız deyilsə, qüvvəsini itirməmişdirsə və yaxud icrası mümkün olmayan hallar yoxdursa, tərəfləri arbitraja göndərməlidir.

Bu maddənin 1-ci bəndində göstərilmiş iddia təqdim olunduğu halda, məhkəmədə iddianın məhkəmə aidiyyəti məsələsi həll edilənədək arbitraj baxışı başlana və ya davam etdirilə bilər və ya arbitraj qərarı qəbul edilə bilər.

Nümunəvi Qanun həmçinin arbitraj sazişi, məhkəmə tərkibi, arbitrajın səlahiyyətləri, arbitraj baxışı, arbitraj qərarı və ondan şikayət verilməsi ilə bağlı müddəaları da özündə əks etdirir.

Nümunəvi Qanun dünyanın bütün ölkələrinin arbitraj qanunvericiliyinə öz müsbət təsirini göstərmişdir.

Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli Qanunu da YUNSİTRAL-ın Nümunəvi Qanunu əsasında hazırlanmışdır.

## *§ 4. Azərbaycan Respublikasının qanunvericiliyi və Beynəlxalq Arbitraj haqqında Beynəlxalq aktların qarşılıqlı əlaqəsi*

Son illər ərzində Beynəlxalq arbitraj Məhkəmələrinin, münsiflər Məhkəməsinin fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarında müddəalar yer almışdır, bu Azərbaycan Respublikasının Beynəlxalq Konvensiyalara qoşulması ilə bağlı proseslərin məntiqi nəticəsi olmuşdur.

---

[1] «Ticarət» termini geniş mənada təfsir edilməlidir ki, o, həm müqavilə, həm də müqaviləsiz ticarət münasibətlərindən meydana çıxan bütün məsələləri əhatə edir. Ticarət xarakterli münasibətlər aşağıdakı razılaşmaları əhatə edir: mallarla təchiz olunma və ya xidmətlər, yaxud malların və ya xidmətlərin mübadiləsi haqqında istənilən ticarət əqdləri; paylanmalar haqqında razılaşmalar, ticarət nümayəndəlikləri; faktor əməliyyatları; lizinqlər; injinirinq; sənaye müəssisələrinin tikintisi; məsləhət xidmətlərinin göstərilməsi; lisenziyaların alqı-satqısı; investisiyalar; maliyyələşdirmə; bank xidmətləri; sığorta; istismar, yaxud konsesiyalar üzrə sazişlər; birgə müəssisələr və sənaye, yaxud sahibkarlıq əməkdaşlığını əhatə edən digər formalar; sərnişinlərin və malların hava, su, dəmir yolu və avtomobil yolları ilə daşınması.

**Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin** 29-cu maddəsinə əsasən məhkəməyə Aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda, işdə iştirak edən şəxslərin yazılı razılığı ilə **münsiflər məhkəməsinin** həllinə verilə bilər.

Arbitraja bağlı normalar Mülki Prosessual Məcəlləsinin 74, 153, 167, 183, 259, 261-ci maddələrində qanunvericilik yolu ilə təsbit edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi 47-ci fəsli (Azərbaycan Respublikasında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması - 462-465-ci maddələr) və 50-ci fəsli və (Xarici dövlətin arbitraj məhkəmələrinin qətnamələrinin icrası və tanınması – 474 – 477-ci maddələri) arbitraj məhkəmələrinin fəaliyyətinə həsr edilmişdir.

**Məhkəmə qərarlarının icrası haqqında Azərbaycan Respublikasının Qanunun** 6-cı maddəsində icra sənədləri kimi həmçinin «beynəlxalq arbitrajın, münsiflər məhkəməsinin qərarları və xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri»də nəzərdə tutulmuşdur.

**Əmtəə Birjası haqqında Qanunun** 6-cı maddəsi, **Girov haqqında Qanunun** 28-ci maddəsi, **Qiymətli Kağızlar haqqında Qanunun** 6-cı maddəsi, **İnvestisiya fəaliyyəti haqqında Qanunun 19-cu maddəsi, Xarici investisiyanın qorunması haqqında Qanunun** 12, 42-ci maddələri, **Sığorta haqqında Qanunun** 17-ci, 19-cu, 37-ci maddələri, **Müflisləşmə və iflas haqqında Qanunun** 25-ci, 47-ci maddələrində də arbitrajların fəaliyyəti ilə bağlı normalar müəyyən edilmişdir.

Bu hüquqi aktlar içərisində əsas yeri 18 noyabr 1999-cu il tarixli Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının Qanunu tutur.

Bu Qanun ilk növbədə YUNSİTRAL-ın Nümunəvi Qanunu əsasında hazırlanmışdır və o cəhətdən də beynəlxalq standartlara tam cavab verir. Qanunun 1-ci maddəsinə əsasən həmin Qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilmədikdə beynəlxalq ticarət arbitrajına tətbiq edilir. 5-ci maddəyə müvafiq olaraq Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla bu Qanunla tənzimlənən məsələlərə dair heç bir məhkəmə müdaxiləsi olmamalıdır.

Bu Qanunun səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bir sıra məsələlərin həllində (arbitrajın seçilməsi, arbitrlərin sayı,

arbitraj tərkibinin formalaşdırılması qaydası, tətbiq olunası qanun, arbitrajın aparıldığı dil, arbitraj baxışının aparılması prosedurunun seçilməsi və s.) tərəflərə çox geniş hüquqlar və müstəqillik verir.

Qanunun 11-ci maddəsi arbitrlərin təyin edilməsi qaydasını müəyyən edir. Bu maddəyə müvafiq olaraq Tərəflər bu maddənin 4 və 5-ci bəndlərinə əməl etmək şərti ilə öz mülahizələrinə əsasən arbitr və ya arbitrlərin təyin edilməsi prosedurunu razılaşma əsasında müəyyən edə bilərlər.

Bu barədə razılıq olmadıqda:

a) arbitrajda üç arbitr olacağı halda, hər bir tərəf bir arbitr təyin edir, təyin edilmiş iki arbitr isə üçüncü arbitri təyin edir. Digər tərəfdən, bu barədə müraciət almış tərəf 30 gün müddətində arbitr təyin etməzsə və yaxud tərəflərin təyin etdiyi iki arbitr təyin edildikləri gündən 30 gün müddətində üçüncü arbitrin seçilməsi haqqında razılığa gələ bilməmişlərsə, tərəflərdən hər hansı birinin müraciəti ilə arbitr 6-cı maddədə göstərilmiş məhkəmə tərəfindən təyin edilir;

b) təkbaşına arbitr ilə olan arbitrajda arbitr təyin edilməsində tərəflər razılığa gələ bilmədikdə, hər hansı tərəfin xahişi ilə arbitr 6-cı maddədə göstərilmiş məhkəmə tərəfindən təyin edilir.

Qanunun 6-cı maddəsinə əsasən isə Məhkəmənin funksiyaları Azərbaycan Respublikasının Ali Məhkəməsi yerinə yetirir (əvvəllər bu orqan Azərbaycan Respublikası İqtisad Məhkəməsi idi).

Qanunda arbitraj tərkibinə (arbitrə) də geniş səlahiyyətlər verilmişdir: o, öz səlahiyyəti haqqında qərar qəbul edir (16-cı maddə), təminedici tədbirlər görür (17-ci maddə), tərəflər arasında razılıq olmadıqda arbitrajın aparıldığı yer və dil haqqında qərar qəbul edir (20 və 22-ci maddələri), prosedur qaydasını müəyyən edir (19-cu maddə), mübahisənin mahiyyəti üzrə tətbiq edilən normanı tərəflər seçmədikdə arbitraj tərkibi tətbiqini mümkün saydığı kolliziya normalarına uyğun müəyyən edilmiş hüququ tətbiq edir (28-ci maddə), iş üzrə ekspert təyin edir (26-cı maddə) və s.

Tərəflər arasında digər razılaşma yoxdursa, arbitraj baxışında birdən artıq arbitr olduqda arbitraj məhkəməsinin hər hansı bir qərarı arbitraj məhkəməsinin üzvlərinin səs çoxluğu ilə çıxarılmalıdır (29-cu maddə).

Qanunun 30-cu maddəsinə əsasən Arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırarlarsa, arbitraj məhkəməsi baxışa xitam verir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda razılaşdırılmış şərtlər əsasında arbitraj qərarı formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir.

Arbitraj qərarı yazılı formada çıxarılmalı və arbitraj tərkibi (arbitr) tərəfindən imzalanmalıdır (31-ci maddə).

Qanunun 34-cü maddəsi arbitraj qərarının ləğv edilməsi ilə bağlı prosedur qaydasını müəyyən edir.

34-cü maddənin 2-ci bəndinin b) yarımbəndi 2005-ci ilin may ayınadək aşağıdakı mətində verilmişdir:

Arbitraj qərarı aşağıdakı hallarda Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən ləğv edilə bilər:

b) əgər məhkəmə müəyyən etsə ki:

I) Azərbaycan Respublikasının qanunvericiliyinə görə mübahisə obyekti arbitraj baxışının predmeti ola bilməz; və yaxud

II) arbitraj qərarı Azərbaycan Respublikasının qanunvericiliyinin ziddiyyətidr.

Qanun **«... arbitraj qərarı Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olduqda»** müddəası heç bir Beynəlxalq Konvensiyaların və digər beynəlxalq sənədlərin məzmununa uyğun deyildi, çünki tərəflər arbitrajda tətbiq edilməli qanunu seçərkən (bu onların hüququdur) seçdikləri hər hansı bir qanun (Məsələn: İngiltərənin Kommersiya və sığorta haqqında qanunu) Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmaya bilər və bu əsasla arbitraj qərarının ləğv edilməsi absurddur. Bütün beynəlxalq Konvensiyalarda və digər beynəlxalq sənədlərdə bu bənd «... arbitraj qərarı ölkədəki **ümumi qaydaya** uyğun olmadıqda» kimi ifadə olunmuşdur və bu ifadə daha geniş təfsirə imkan verir. Ona görə də bu sətirlərin müəllifinin də yaxından təşəbbüsü və iştirakı ilə Azərbaycan Respublikasının Milli Məclisi Qanunun bu bəndinə aşağıdakı kimi dəyişiklik etmişdir:

«... I) arbitraj qərarı Azərbaycan Respublikasının Konstitusiyasına zidd olduqda».

Bu, əvvəlki ilə müqayisədə daha geniş təfsir edilə biləcək mütərəqqi normadır.

Əvvəlki fəsillərdə artıq qeyd edildiyi kimi 11 noyabr 2003-cü il tarixdə Azərbaycanda ilk dəfə olaraq Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi təsis olundu və həmin tarixdə də BKAM-ın Əsasnaməsi təsdiq edildi.

Həmin Əsasnamə YUNSİTRAL-ın Arbitraj Reqlamentini və Beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının Qanunun tələblərinə uyğun hazırlanmışdır.

Əsasnamənin 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi (bundan sonra - BKAM) 18 noyabr 1999-cu il tarixli «Beynəlxalq arbitraj haqqında» Azərbaycan

Respublikası Qanuna əsasən öz fəaliyyətini könüllülük əsasında həyata keçirən müstəqil, daimi fəaliyyət göstərən arbitraj təşkilatıdır (münsiflər məhkəməsidir).

BKAM-a tərəflərin razılığı ilə xarici ticarət və beynəlxalq iqtisadi əlaqələrin digər növlərinin həyata keçirilməsindən yaranan müqavilə və digər mülki-hüquqi münasibətlərə dair mübahisələr (əgər tərəflərdən ən azı birinin kommersiya müəssisəsi xaricdə yerləşirsə), həmçinin, Azərbaycan Respublikasının ərazisində yaradılmış xarici investisiyalı və beynəlxalq birlik və təşkilatların öz aralarında və ya onların iştirakçıları arasında mövcud olan mübahisələr, eləcə də onlarla Azərbaycan Respublikasının digər hüquq subyektləri arasındakı mübahisələr verilə bilər.

Mülki-hüquqi münasibətlərdən yaranan mübahisələrə, xüsusilə, malların alqı-satqısına (göndərilməsinə), işlərin həll edilməsinə, xidmətlərin göstərilməsinə, malların və (və ya) xidmətlərin mübadiləsinə, malların və sərnişinlərin daşınmasına, ticarət nümayəndəliyinə və vasitəçiliyinə, icarəyə (lizinq), elmi-texniki mübadiləyə, yaradıcılıq fəaliyyətinin digər nəticələrinin mübadiləsinə, sənaye və digər obyektlərin yaradılmasına, lisenziyalı əməliyyatlara, investisiyalara, kredit-hesablaşma əməliyyatlarına, sığortaya (təkrar sığortaya), müştərək sahibkarlığa, sənaye və sahibkarlıq kooperasiyasının digər formalarına dair münasibətlərdən yaranmış mübahisələr və s. kommersiya münasibətlərindən irəli gələn mübahisələr BKAM-ın həllinə verilə bilər.

BKAM mübahisələrə, tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisələrin həlli üçün yazılı Saziş və ya müqavilə qeyd-şərti olduqda, hazırkı Əsasnaməyə uyğun olaraq baxır.

Əsasnamənin 4-cü maddəsinə əsasən BKAM öz vəzifəsini həyata keçirərkən müstəqildir və heç kimdən asılı deyildir.

BKAM-ın arbitrləri (hakimləri) baxdıqları mübahisəli işdə tərəflərin nümayəndəsi kimi çıxış edə bilməzlər.

BKAM-da mübahisələrin həlli tərəflərin hüquq bərabərliyi Prinsipi əsasında həyata keçirilir.

Tərəflərin hər biri öz mövqeyini bildirmək və hüquqlarını müdafiə etmək üçün bərabər hüquqlara malikdir.

Əsasnamənin 5-ci maddəsinə əsasən İşdə iştirak edən tərəflər və üçüncü şəxslər iştirakçı hesab olunurlar. Arbitraj araşdırmasının tərəfləri hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

Özünün mənafeyi naminə iddia qaldırılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər iddiaçı hesab olunurlar.

İddia tələbinin yönəldiyi hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər cavabdeh hesab olunurlar.

Məhkəmə aktı ilə mənafeyinə toxunulan hər hansı bir şəxs tərəflərin razılığı ilə üçüncü şəxs qismində işə cəlb edilə bilər.

Əsasnamənin 9-cu maddəsinə müvafiq olaraq Məhkəmənin arbitrləri (hakimləri), katibliyin əməkdaşları və məruzəçilər məhkəmə araşdırması üçün alınmış bütün məlumatları gizli saxlamağa borcludurlar.

Əsasnamənin 13-cü maddəsinə əsasən BKAM işin araşdırılmasını mümkün qədər, Arbitraj Kollegiyasının (və yaxud təkbaşına arbitrin seçilməsi və ya təyin edilməsi) bu Əsasnaməyə uyğun olaraq təşkil edildiyi andan 90 gün müddətində başa çatdırmalıdır. Zərurət olduqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) bu müddəti artıra bilər.

Arbitrlər, hazırkı Əsasnaməyə əsasən, BKAM-ın səlahiyyətlərinə aid olan mübahisələrin həlli sahəsində lazımi xüsusi biliklərə malik olan şəxslər sırasından seçilirlər. Arbitr funksiyasını yerinə yetirən şəxs iştirakı nəzərdə tutulan mübahisə ilə bağlı onun qərəzsizliyinə və müstəqilliyinə əsaslı şübhələr gətirə bilən bütün hallar barədə BKAM-a məlumat verməlidir (əgər arbitrə arbitraj araşdırmaları zamanı belə hallar məlum olarsa, o, bu haqda dərhal BKAM-ı məlumatlandırmalıdır).

BKAM-ın arbitrlərinin adı, atasının adı və soyadı, təhsili və iş yeri, elmi dərəcəsi və rütbəsi, ixtisası göstərilməklə, 5 il müddətinə arbitrlərin siyahısı (gələcəkdə - arbitrlərin siyahısı) «İnternational Commercial Arbitration» Cəmiyyətinin Ali Orqanı tərəfindən təsdiq olunur.

Arbitrlərin siyahısı hər bir maraqlı şəxsin sorğusuna əsasən BKAM-ın katibliyi tərəfindən təqdim edilir.

Arbitrlərin funksiyalarını siyahıya daxil edilməyən şəxslər də yerinə yetirə bilərlər.

Arbitr (hakim) öz funksiyasını yerinə yetirə bilmədikdə və ya layiqincə yerinə yetirmədikdə və yaxud Arbitrlərin Etik Kodeksinin tələblərinə riayət etmədikdə Rəyasət Heyətinin təqdimatına əsasən «İnternational Commercial Arbitration» Cəmiyyətinin Ali Orqanı tərəfindən vaxtından əvvəl arbitrlərin siyahısından xaric edilir.

Əsasnamənin 18-ci maddəsinə uyğun olaraq BKAM-ın Rəyasət Heyətinin tərkibi 7 nəfərdən ibarətdir. BKAM-ın Rəyasət Heyətinin tərkibinə BKAM-ın sədri, onun müavinləri, arbitrlərin siyahısına daxil edilən şəxslərin iştirakı ilə ümumi iclasda seçilmiş arbitrlərin üç üzvü daxildirlər. BKAM-ın sədri BKAM-ın Rəyasət Heyətinin sədridir.

BKAM-ın Rəyasət Heyəti hazırki Əsasnamə ilə səlahiyyətlərinə aid olan məsələləri həll edir, arbitraj təcrübəsini təhlil edir, BKAM-ın fəaliyyəti ilə bağlı məlumatların yayılması, BKAM-ın beynəlxalq əlaqələri və fəaliyyətinin digər məsələlərinə baxır. Rəyasət Heyətinin iclaslarında BKAM-ın məsul katibi məşvərətçi səsvermə hüququ ilə iştirak edir.

Rəyasət Heyətində sədr səsvermədə iştirak edir və axırıncı səs verir. Səslər barabər olduqda sədrin səsi həlledicidir. Rəyasət Heyətinin qərarlarının icrası BKAM-ın sədri tərəfindən həyata keçirilir.

Bu Əsasnamənin 52-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Rəyasət Heyətinin qərarları, səsvermədə Rəyasət Heyətinin üzvlərinin yarıdan çoxunun iştirakı şərti ilə, sadə səs çoxluğu ilə qəbul edilir. Rəyasət Heyətinin qərarı protokolla rəsmiləşdirilir. Rəyasət Heyətinin katibi funksiyalarını BKAM-ın məsul katibi yerinə yetirir.

Rəyasət Heyətinin islasları 3 ayda bir dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclaslar Rəyasət Heyətinin hər bir üzvünün təşəbbüsü ilə çağırıla bilər. Rəyasət Heyətinin iclaslarına BKAM-ın sədri sədrlik edir.

Rəyasət Heyətinin iclaslarına arbitrlər və digər şəxslər dəvət edilə bilərlər.

Rəyasət Heyətinin üzvü müzakirə edilən məsələ üzrə bitərəf qala bilməz.

Rəyasət Heyətinin iclasında müzakirəyə çıxarılan məsələlər barədə Rəyasət Heyətinin üzvlərinə Rəyasət Heyətinin iclaslarına 10 gün qalmış məlumat verilir.

Əsasnamədə həmçinin arbitraj araşdırmasının təşkilati və funksional prinsipləri, işin araşdırılması, arbitraj qətnaməsi, ona yenidən baxılması və qətnamənin icra edilməsi qaydası müəyyən edilir.

# III fəsil

# Beynəlxalq Kommersiya mübahisələrinə baxılması üzrə mərkəzlər

## *§1. Beynəlxalq arbitraj institutları və reqlamentləri*

Müasir dünyada kommersiya müqavilələrindən irəli gələn mübahisələrin həll edilməsi metodu dörd əsas kateqoriyaya bölünür:

- birbaşa danışıqlar;
- üçüncü şəxslərin vasitəçiliyi ilə danışıqlar (mübahisələrin alternativ həlli);
- milli məhkəmələr;
- arbitraj məhkəmələri.

Təcrübədə müqavilələrdən irəli gələn kommersiya mübahisələrinin əksəriyyəti birbaşa danışıqlar yolu ilə həll edilir.

Milli məhkəmələr müqavilələrdə nəzərdə tutulmasından asılı olmayaraq həmin ərazidə yaranan və daxili qanunvericiliklə onların səlahiyyətinə aid edilən kommersiya mübahisələrinə baxmağa haqlıdırlar.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 26-cı maddəsinə uyğun olaraq, idarə və ya digər mənsubiyyətindən və tabeçiliyindən asılı olmayaraq, hüquqi şəxslərlə, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən və qanunla müəyyən edilmiş qaydada fərdi sahibkar statusu əldə edən fiziki şəxslər arasında mülki, inzibati və digər hüquq münasibətlərindən yaranan iqtisadi mübahisələr üzrə işlər mülki icraat qaydasında İqtisad Məhkəməsinə aiddir.

Tərəflərin müxtəlif dövlətlərə məxsus olduğu beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə tərəflərin hər hansı birinin mənsub olduğu dövlətin milli məhkəməsində baxılması, təbii ki, digər tərəfi razı sala bilməz, başqa sözlə, milli məhkəmələr tərəflər üçün və ya onlardan biri üçün beynəlxalq müqavilələrdən irəli gələn mübahisələri həll etmək iqtidarında olan rahat forma deyildir.

Tərəflərin müxtəlif dövlətlərə mənsub olduğu kommersiya müqavilələrindən irəli gələn mübahisələrə milli məhkəmələrdə baxılması bir neçə səbəbdən tərəflər üçün əlverişli deyildir və qəbuledilməzdir.

Birincisi, qanunlarını, qanunvericilik sistemini, hakimlərin seçilməsi formasını, işə baxılması üzrə prosessual qaydasını bilmədiyi xarici ölkə məhkəməsinə etibar edilməsi müəyyən risqdir.

İkincisi, mülki mühakimə icraatı mütləq həmin məhkəmənin məxsus olduğu dövlətin dilində aparılmalıdır və bu da müəyyən sənədlərin (müqavilələrin, yazışmaların və s.) icra-atın aparıldığı dilə

tərcümə edilməsi zərurəti yaradır və sözsüz ki, xarici tərəfin yad dildə aparılan prosesdə fəallığını azaldır.

Üçüncüsü, milli məhkəmələrin qətnamələrinin tanınması üzrə müqavilələr sistemi təkmil deyildir və arbitraj icraatında çıxarılan qərarların başqa dövlətlərin ərazisində tanınması və icrası daha təminatlı olmaqla, xarici arbitraj qətnamələrinin tanınması və icrası üzrə 1958-ci il Nyu-York Konvensiyası ilə təmin olunur;

Dördüncüsü, milli məhkəmələrdə işə açıq baxılır və bu da kommersiya sirrinin yayılmasına şərait yaradır.

Yuxarıda göstərilənlərin məcmusu tərəflər üçün beynəlxalq müqavilələr bağlanarkən yaranacaq mübahisələrə arbitraj icraatı qaydasında baxılması şərtini razılaşdırmağı zəruri edir.

Arbitraj icraatı prosessual və maddi-hüquqi çevikliyi ilə fərqlənir. Məsələn, tərəflər işə müəyyən olunan müddət ərzində və ancaq ədalət meyarı əsas götürülməklə təqdim edilən sənədlər əsasında baxılması haqqında razılığa gələ bilərlər. Bu halda qanunun tələbi o qədər də önəmli rol oynamır.

Arbitraj icraatı işə neytral baxılmasını təmin etmək iqtidarında olmaqla, mübahisəyə neytral ərazidə və tərəflərin məxsus olduğu ölkənin deyil, neytral bir ölkənin qanunları əsasında baxa bilər. Tərəflər arbitrləri mübahisənin predmeti sahəsindəki biliyi və təcrübəsi nəzərə alınmaqla sərbəst seçmək hüququna malikdirlər.

Arbitraj icraatı dövlət məhkəmələrində mövcud olan işə baxılması müddətindən daha tez və daha az məsrəflə işə baxılmasını təmin edir. Bundan başqa, məhkəmə qətnaməsindən şikayət edilməsinin çoxpilləli sistemi və müddəti (bu qayda müəyyən vaxt aparır) olduğu halda arbitraj icraatında bu yoxdur.

Arbitraj qətnamələri "Xarici arbitraj qətnamələrinin tanınması və icrası haqqında" 1958-ci il Nyu-York Konvensiyasına uyğun olaraq tanınır və icra edilir. Həmin Konvensiyanı dünyanın 130-dan artıq ölkəsi imzalamışdır. Azərbaycan Respublikası da 09 noyabr 1999-cu ildən bu Konvensiyanın üzvüdür.

Arbitraj icraatının iki növü fərqləndirilir:

1) konkret işlər üzrə təşkil edilən arbitraj məhkəməsi (beynəlxalq aləmdə bu ad hoc arbitrajı adlandırılır);

2) daimi fəaliyyət göstərən arbitraj məhkəmələri (arbitraj institutu).

Ad hoc arbitrajında prosessual normanı tərəflər özləri müəyyən edirlər. Bu halda arbitraj prosesini idarə edən hər hansı bir orqan olmur. Tərəflər özləri arbitri təyin edirlər. Arbitrlərin təyin edilməsi qaydası

belədir: tərəflər işə baxılması üçün bir arbitr seçə bilərlər və ya hər bir tərəf öz arbitrini seçir və həmin arbitrlər də üçüncü arbitri seçirlər.

Ad hoc arbitrajında işə baxılmasının reqlamenti kimi YUNSİTRAL-ın nümunəvi arbitraj reqlamentindən geniş istifadə edilir, çünki bu reqlament işə baxılmasının prosessual qaydasını müəyyən etməklə yanaşı, həmçinin, arbitrlərin təyin edilməsi qaydasını da nizama salır. Ona görə də YUNSİTRAL-ın arbitraj reqlamenti kommersiya təşkilatları arasında xüsusi hörmətə layiqdir.

Dünyada gedən inteqrasiya və qloballaşma prosesləri arbitraj orqanlarının da fəaliyyətində özünü göstərir. Dünyanın müxtəlif ölkələrində, şəhərlərində, azad iqtisadi zonalarında daimi fəaliyyət göstərən arbitraj məhkəmələri mövcuddur. Ad hoc arbitrajından fərqli olaraq daimi fəaliyyət göstərən arbitraj məhkəmələri özlərinin idarəçilik orqanına, daimi fəaliyyət yerinə və rekvizitlərinə malik olur.

Hazırda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən və xüsusi nüfuza beynəlxalq imicə malik olan daimi fəaliyyət göstərən aşağıdakı arbitraj məhkəmələri vardır.

1. **Amerika Arbitraj Assosiasiyası** (American Arbitration Association) – beynəlxalq arbitraj institutu olmaqla Nyu-York şəhərində yerləşir və ABŞ-ın bütün ərazisində bölmələri vardır. İşlərə həm öz daxili reqlamenti (Construction İndustry Arbitration Rules), həm də YUNSİTRAL-ın nümunəvi Qanu-nu əsasında baxır.

2. **Çin Beynəlxalq İqtisadi və Ticarət Arbitraj Komissiyası** (China İnternational Economic and Trade Arbitration Comission) – Çinin beynəlxalq ticarətin inkişafı üzrə şurasının tərkibində fəaliyyət göstərən beynəlxalq arbitraj institutudur. Komissiya Pekində yerləşir, Şanxendə və Şanxayda bölmələri vardır. Arbitraj komissiyası öz arbitrinə və özünün arbitraj reqlamentinə malikdir (Reqlament 17 mart 1994-cü ildə qəbul edilmişdir).

3. **London Beynəlxalq Arbitraj Məhkəməsi** (The London Court of İnternational Arbitration) – Londonda yerləşir, burada mübahisəyə baxılmır, lakin arbitraj məhkəmələri təyin edir və dünya üzrə arbitraj prosesləri üçün inzibati təşkilati xidmət göstərilir.

4. **Beynəlxalq Ticarət Palatası yanında Beynəlxalq Arbitraj Məhkəməsi** (İnternational Court of Arbitration of the İnternational Chamber of Commerce) – Parisdə yerləşir, məşhur beynəlxalq arbitraj institutu olmaqla özü bilavasitə işə baxmır, lakin arbitraj məhkəmələri təyin edir və işlərə BTP-nin Arbitraj Reqlamenti əsasında baxılır.

5. **İnvestisiya Mübahisələrinin Tənzimlənməsi üzrə Beynəlxalq Mərkəz** (İnternational Center for the Settlement of investment

Disputes) – Vaşinqtonda yerləşir, onun fəaliyyətinə Ümumdünya Bankı nəzarət edir. Mərkəz barışıq proseduru və arbitraj prosesi yolu ilə investisiya mübahisələrinin tənzimlənməsinə yardım edir. Barışıq arbitraj prosedurunu özündə əks etdirən öz reqlamenti vardır.

6. **Daimi Münsif (Arbitraj) Məhkəməsi** – Haaqada yerləşir, 1899-cu ildə dövlətlər arasında mübahisələrə baxılması məqsədilə yaradılmışdır. Məhkəmənin Baş Katibi YUNSİTRAL Nümunəvi arbitraj reqlamentinə müvafiq olaraq arbitrləri təyin edən (tərəflər arbitrləri seçmək haqda razılığa gələ bilmədikdə) orqan funksiyasını yerinə yetirir.

7. **Mübahisələrin Həll Edilməsi Mərkəzi** (Centre for Disoute Resolution) - 1990-cı ildə İngiltərədə yaradılıb, mübahisələrin həlli üzrə vasitəçilik xidmətləri göstərir, məsləhətlər verir və s.

8. **Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu** (Arbitration İnstitute of the Stockholm Chamber of Commerce) – İsveçin Stokholm şəhərində yerləşir.

9. **Gürcüstan Sənaye-Ticarət Palatası yanında Arbitraj Məhkəməsi**.

10. **Honq-Konq Beynəlxalq Arbitraj Mərkəzi** (Honq Konq İnternational Arbitration Centre) – Honq-Konq şəhərində yerləşir.

11. **Qahirə Regional Kommersiya Arbitrajı Mərkəzi** (Cairo Regional Centre for Commercial Arbitration) – Misirin Qahirə şəhərində yerləşir.

12. **Koreya Arbitrlər Kollegiyası** (The Korean Arbitration Board) – Koreyanın Seul şəhərində yerləşir.

13. **London Dəniz Arbitraj Assosiasiyası** (The London Martime Arbitration Association) – İngiltərənin London şəhərində yerləşir.

14. **Amerikaarası Kommersiya Arbitrajı Komissiyası** (The İnter-American Commercial Arbitration Commission) – Vaşinqton şəhərində yerləşir.

15. **Avstriya federal iqtisadi palatasının beynəlxalq arbitraj mərkəzi** (İnternational Arbitral Centre of the Austrian Federal Economic Chamber) – Avstriyanın Vyana şəhərində yerləşir.

16. **Rusiya Federasiyasının Sənaye-Ticarət Palatası yanında Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi** (The İnternational Arbitration Court of the Chamber of Commerce and industry) – Moskva şəhərində yerləşir.

17. **İnvestisiya mübahisələrinin tənzim edilməsi üzrə Beynəlxalq Mərkəz** (İnternational Centre for the Settlement of investment Disputes) – Vaşinqton şəhərində yerləşir.

18. **Sənaye-Ticarət Palatası yanında Praqa Arbitraj Məhkəməsi** (The Prague Court of Arbitration of the Camber of Commerce) – Çexiyanın Praqa şəhərində yerləşir.

19. **Kuala-Lumpur Reqional Arbitraj Mərkəzi** (Kuola Lumpur Regional Centre for Arbitration) - Malayziyanın Kuala-Lumpur şəhərində yerləşir.

20. **Sinqapur Beynəlxalq Mərkəzi** (Sinqapore İnternational Centre) - Sinqapurda yerləşir.

21. **Sürix şəhərinin ticarət palatası** (Zuricher Handelskammer) – İsveçrənin Sürix şəhərində yerləşir.

22. **Fransa-Ərəb Ticarət Palatası** (Franco Arab Chamber of Commerce) – Paris şəhərində yerləşir.

23. **Yaponiya Kommersiya Arbitraj Assosiasiyası** (The Japan Commercial Arbitration Association) – Tokio şəhərində yerləşir.

24. **YUNSİTRAL (UNSİTRAL)** – Onun beynəlxalq kommersiya arbitraj sahəsində fəaliyyəti Arbitraj Reqlamentinin (1976), Barışıq Prosedurunun Reqlamentinin (1980), Beynəlxalq Kommersiya Arbitrajı Haqda Reqlamentin və Arbitraj prosedurunun təşkili Qaydalarının (1996) qəbul edilməsi ilə məhdudlaşmır. O, həmçinin, 1958-ci il Nyu-York Konvensiyasının genişləndirilməsi məqsədilə səmərəli fəaliyyət göstərir.

Yuxarıda göstərilənlərdən əlavə Cenevrədə, Əbu-Dəbidə, Dubayda, Bəhreyndə də daimi fəaliyyət göstərən arbitraj məhkəmələri vardır.

Yaranacaq kommersiya mübahisələrinin arbitraj məhkəmələrinin baxışına verilməsi üçün tərəflər arasında mütləq arbitraj sazişi bağlanmalıdır.

Arbitraj sazişi 3 formada bağlanır:

1) tərəflər arasında bağlanan kommersiya müqaviləsinin bir bəndi bu razılığı özündə əks etdirə bilər;

2) müstəqil arbitraj sazişinin bağlanması;

3) münsif qeydi.

Arbitraj sazişində tərəflər işə baxacaq məhkəmənin adı, yeri, işə hansı arbitraj reqlamenti və hansı qanunlar əsasında baxılması barədə razılığa gəlməlidirlər. Bu sazişdə, həmçinin, arbitrlərin təyin edilməsi qaydası və sayı da göstərilə bilər.[1]

XX əsrin 80-ci illərindən başlayaraq yeni arbitraj institutlarının yaranması geniş vüsət almağa başladı. Dünyanın bir sıra aparıcı

---

[1] Arbitraj sazişi barədə bu kitabın V fəslində daha geniş bəhs ediləcəkdir.

şəhərləri və inkişaf etməkdə olan ölkələri özləri-nin arbitraj institutlarını və arbitraj mərkəzlərini yaratmağa başladı.

Avro-Ərəb Arbitraj Sistemi (1983-cü ildə yaradılıb), Honq-Konq Beynəlxalq Arbitraj Mərkəzi (1985-ci ildə yaradılıb), Amerikaarası Kommersiya Arbitraj Komissiyası (1975-ci ildə yaradılıb), Asiya-Afrika hüquq-məsləhət Komitəsi (1990-cı ildə yaradılıb) bu qəbildən olan mərkəzlərdəndir.

XX əsrin 80-ci illərindən üçüncü dünyaya mənsub olan ölkələr arbitraj məhkəmələrində bir qayda olaraq cavabdeh qismində çıxış edirdilər və əsasən, işi uduzurdular. Ona görə də bu ölkələrdə belə bir səhv mövqe hakim idi ki, beynəlxalq arbitraj məhkəmələri Qərb dövlətlərinin əlində digər dövlətləri uduzdurmaq və kommersiya sferasından sıxışdırmaq aləti kimi çıxış edir. Bu məqsədlə də həmin ölkələrdə yeni arbitraj institutları yaranmağı başladı və beynəlxalq nüfuz qazandı.

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış ölkələrdə beynəlxalq hüquqa, beynəlxalq təşkilatlara və birliklərə inteqrasiya prosesi güclənməyə başladı. Azərbaycan Respublikası da bu cəhətdən istisnalıq təşkil etmədi, belə ki, Azərbaycan Respublikası bir çox Konvensiyaları imzalamış və beynəlxalq təşkilatlara üzv olmuşdur. İnteqrasiya prosesi bir sıra yeni institutların, mərkəzlərin yaranmasını həyati zərurətə çevirmişdir. İnteqrasiya və qloballaşma prosesləri arbitraj institutlarının da yaranmasında özünü göstərirdi.

Məsələn, Ukraynada 24 fevral 1994-cü il tarixdə "Beynəlxalq Kommersiya Arbitraj haqqında" qanun qəbul edilmiş və bu qanun əsasında Ukraynanın Sənaye-Ticarət Palatası yanında 2 arbitraj məhkəməsi – Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi və Dəniz Arbitraj Komissiyası yaradılmışdır.

Estoniyada Sənaye-Ticarət Palatası yanında Arbitraj Məhkəməsi haqqında 14 avqust 1991-ci il tarixli qanun qəbul edilmiş və həmin ildə Arbitraj Məhkəməsi yaradılmışdır. Həmin illərdə Latviya və Gürcüstanda da Arbitraj məhkəmələri yaradılmışdır.

18 noyabr 1999-cu ildə "Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanunun qəbul olunması irəliyə doğru atılan bir addım olmasına baxmayaraq, Azərbaycan Respublikasının ərazisində Arbitraj[1] Məhkəməsi çox gec – 2003-cü ilin noyabr ayında təşkil olunmuşdur.

---

[1] Vidadi Mirkamal "Arbitraj sazişi", Bakı, 2005 s. 12

Bu qanuna əsasən Beynəlxalq Arbitraj Məhkəməsinin qəbul etdiyi qərarlara dövlət məhkəmələri tərəfindən nəzarət edilməsi (sübutların əldə edilməsi üçün dövlət məhkəmələrinə müraciət edilməsi (27-ci maddə), arbitrajın qərarından dövlət məhkəməsinə şikayət edilməsi (34-cü maddə)) və həmçinin, arbitraj qərarlarının məcburi icrası qaydasının dövlət məhkəmələri vasitəsilə müəyyən edilməsi beynəlxalq hüquq aləmində arbitraj məhkəmələri üçün qəbul edilmiş dövlətin arbitraj icraatına müdaxiləsinin yolverilməzliyi qaydalarına uyğun deyildir. Arbitraj məhkəmələrinin hər hansı formada dövlət məhkəmələrindən asılı olması yolverilməzdir.

Lakin bütün bunlara baxmayaraq Azərbaycanda arbitraj məhkəməsinin yaradılmasını zəruri edən bir sıra şərtlər mövcud idi.

Birincisi, arbitraj məhkəməsinin mövcudluğunu şərtləndirən qanunvericilik bazasının yaradılması; (Qanunvericilik bazasına "Beynəlxalq Arbitraj haqqında" Qanun, Mülki Proses-sual Məcəllə, "Xarici arbitraj məhkəmələrinin qətnamələrinin tanınması və icrası haqqında" 1958-ci il Nyu-York Konvensiyası və "Məhkəmə qərarlarının icrası haqqında" Qanun daxil-dir).

İkincisi, Azərbaycana xarici investisiya axınının güclənməsi, iri məbləğli neft müqavilələrinin imzalanması və həyata keçirilməsi, Bakı-Tiflis-Ceyhan kəmərinin çəkilməsi üzrə müqavilənin imzalanması və icrasına başlanması, İpək yolu (TRASEKA) layihəsinin reallaşdırılması;

Üçüncüsü, ölkədə azad sahibkarlıq mühitinin çətinliklə də olsa formalaşması, mikroiqtisadi strukturların yaranması, yerli sahibkarlarla xarici hüquqi şəxslər və sahibkarlar arasında iqtisadi-ticarət münasibətlərinin inkişafı;

Dördüncüsü, beynəlxalq ticarət münasibətlərində, işgüzar iqtisadi münasibətlərdə bu və ya digər məsələlər üzrə yaranan münaqişələrin Azərbaycandan çox-çox uzaqlarda yerləşən və yerli sahibkarlar üçün bir sıra çətinliklər doğuran (yol xərcləri, işə baxılmasının naməlum proseduru, dil problemləri və s.) məhkəmələrdə deyil, Azərbaycanda yerləşən və dövlət qurumları ilə prosessual bağlılığı olmayan, müstəqil, ədalətli, subyektivlikdən uzaq, sadə işə baxılması proseduru olan bir məhkəmə orqanının yaradılmasını zəruri edirdi.

Belə bir orqan artıq yaradılmışdır, bu Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsidir (BKAM).

BKAM daimi əsaslarla fəaliyyət göstərən arbitraj məhkəməsidir və Bakı şəhərində fəaliyyət göstərir.

BKAM-ın yaranması Azərbaycan cəmiyyəti və hüquq aləmi üçün böyük hadisə olmaqla, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru

atılmış bir addımdır və Azərbaycanda xarici investisiyaların, yerli sahibkarlıq subyektlərinin hüquqlarının müdafiə olunmasında böyük əhəmiyyətə malikdir.

BKAM-ın təşkilati-hüquqi problemlərinin həlli ilə paralel olaraq hüquqi maarifləndirmə istiqamətində geniş izahat işlərinin aparılması, hüquq ictimaiyyətinin və sahibkarlar təbəqəsinin qanunvericilik materialları, beynəlxalq təcrübə və arbitraj araşdırmalarının elmi-praktiki aspektləri ilə tanış edilməsi qarşıda duran mühüm vəzifələrdən biridir.

## *§ 2. Beynəlxalq Ticarət Palatasının Beynəlxalq Arbitraj Məhkəməsi*

Beynəlxalq Ticarət Palatası 1919-cu ildə Parisdə bütün dünyada ticarətin inkişafı məqsədi ilə beynəlxalq yönümlü müəssisələrin və onların Milli Təşkilatlarının Assosiasiyası kimi yaranmışdır. Hazırda dünyanın 120-dən yuxarı dövlətinin 8000 müəssisəsi və təşkilatı BTP-nin üzvüdür.[1]

BTP-nin tərkibi Milli Ticarət Palatalarını təmsil edən Milli komitələrdən ibarətdir. BTP-nin fəaliyyət istiqamətləri müxtəlifdir, onların içərisində ticarət adətlərinin məcmuu olan «İnkotermisin» hazırlanması və arbitraj xüsusi yer tutur.

BTP-nin Beynəlxalq Arbitraj Məhkəməsi dünyanın aparılması arbitraj institutlarından biridir, o, 1923-cü ildə yaradılmışdır və indiyədək 11 mindən artıq mübahisəyə baxmışdır.[2]

Beynəlxalq Arbitraj Məhkəməsi dünyanın 40-dan artıq ölkəsində mübahisələrə baxmaq imkanına malikdir. BAM-si bir qayda olaraq beynəlxalq xarakterli kommersiya mübahisələrinə baxır, lakin tərəflər arasında müvafiq arbitraj sazişinin bağlandığı təqdirdə bu kateqoriyaya aid olmayan mübahisələrə də baxa bilərlər.

BTP-nin BAM-si əslində inzibati orqandır, o, birbaşa mübahisələrə baxılması ilə məşğul olmur. BAM-nin funksiyasına arbitraj baxışının başlanmasına razılıq verilməsi, zəruri hallarda arbitrlərin təyin edilməsi, tərəflər arbitraj sazişində nəzərdə tutulmadığı hallarda arbitrajın keçirildiyi yerin müəyyən edilməsi və arbitraj prosesinin Məhkəmənin Reqlamentinə uyğun keçirilməsinin təmin edilməsi daxildir. Arbitrajın keçirilməsi və qətnamənin çıxarılması

---

[1] Е. В. Брунцева. Международный Коммерческий Арбитраж, Санкт-Петербург, 2001,с,68

[2] Məlumat 1 yanvar 2000-ci ilədək olan dövrü əhatə edir.

BTP-nin Reqlamentinə müvafiq olaraq təyin edilən arbitrlərin səlahiyyətinə aiddir.

BAM-nin tərkibinə onun sədri, sədrin müavinləri və 70 üzvü daxildir. Məhkəmənin sədri BTP-nin Şurası tərəfindən seçilir, sədrin müavinləri isə Şura tərəfindən vəzifəyə təyin edilirlər.

BTP-nin Şurası Milli komitələrin təklifi ilə hər ölkədən bir üzv olmaqla BAM-nin üzvlərini təyin edir. Arbitraj məhkəməsinin heç bir üzvü məhkəmədə göstərdikləri fəaliyyətə görə mükafat almırlar. Arbitraj məhkəməsinin əsas funksiyalarından biri də arbitrlərin iş üzrə çıxardıqları qətnamənin yoxlanılması və bəyənilməsidir.

BTP-nin Reqlamentinə müvafiq olaraq çıxarılmış heç bir qətnamə məhkəmə tərəfindən bəyənilənədək rəsmi sayılmır, qətnamənin yoxlanılması və bəyənilməsi prosedurunun əsas məqsədi BTP çərçivəsində çıxarılan qətnamələr üzrə səhvlərin minimuma endirilməsi və vahid təcrübənin təmin edilməsi məqsədlərinə xidmət edir.

Arbitraj Məhkəməsi öz qətnamələrini ayda bir dəfə keçirilən plenar iclaslarında qəbul edir, təxirəsalınmaz hallarda isə qətnamə sonradan məhkəmənin plenar iclasına məruzə edilmək şərtilə Sədr və ya onun müavinləri tərəfindən qəbul edilir.

Arbitraj Məhkəməsinin yanında Baş Katibin rəhbərliyi altında daimi fəaliyyət göstərən Katiblik vardır. Katibliyin tərkibinə həmçinin məsləhətçilər, digər hüquqşünaslar, inzibati və texniki heyət də daxildir.

BTP Milli komitələrin təklif etdikləri arbitrlərin siyahısını tərtib edir, tərəflərə siyahıda adları olmayan arbitrlərin də seçilməsi hüququ verilir, lakin həmin arbitrlərin namizədliyi Arbitraj Məhkəməsi tərəfindən bəyənilməlidir.

BTP yalnız öz Reqlamentini tətbiq edir. Hazırda fəaliyyət göstərən Reqlament 1 yanvar 1998-ci ildə qüvvəyə minmişdir.

Reqlamentin 1-ci maddəsinin 4-cü bəndinə əsasən Məhkəmə, onun Daxili Reqlamenti ilə müəyyən edilmiş qaydada özünün üzvlərindən ibarət tərkibdə bir və ya bir neçə komitəyə qərarlar qəbul etmək səlahiyyəti verə bilər, bu şərtlə ki, hər cür belə qərar Məhkəməyə onun növbəti sessiyasında məruzə olunsun.

Arbitraj araşdırmasının başlanması ilə bağlı hərəkətlər Reqlamentin 4-cü maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə müvafiq olaraq Bu Reqlament əsasında arbitraja müraciət etmək istəyən tərəf özünün iddia ərizəsini («Ərizə») Katibliyə göndərir, Katiblik isə iddiaçıya və cavabdehə həmin ərizənin alınması və alınma tarixi haqqında məlumat verir.

Ərizənin Katiblik tərəfindən alınma tarixi bütün məqsədlər üçün arbitraj araşdırmasının başlanğıc tarixi hesab olunur.

İddia ərizəsi aşağıdakıları özündə əks etdirməlidir:

a) tərəflərdən hər birinin tam adı və ünvanı;

b) iddianın əsasını təşkil edən mübahisənin xarakteri və hallarının ifadə olunması;

c) tələbin predmeti və tələb edilən məbləğin, yaxud məbləğlərin mümkün həcmi;

ç) müvafiq saziş, xüsusilə də arbitraj sazişi;

d) arbitrlərin sayı və seçilməsi ilə bağlı, həmçinin arbitrin təyin edilməsinin müəyyən edilmiş qaydası haqqında müvafiq məlumatlar;

e) arbitrajın yeri, tətbiq edilən hüquq normaları və arbitraj araşdırmasının dili ilə bağlı bütün qeydlər.

İddiaçı iddia ərizəsini 3 (1)-ci maddəyə uyğun olaraq tələb edilən nüsxədə göndərir və inzibati xərclər üçün ərizənin verildiyi tarixdə qüvvədə olan III Əlavə ilə («Arbitraj xərcləri və qonorarları») müəyyən edilmiş avans ödəyir. İddiaçının bu tələblərdən hər hansı birinə əməl etmədiyi halda Katiblik onlara əməl edilməsi üçün müddət müəyyən edə bilər; bu müddətin keçməsi ilə xitam verilir, lakin iddiaçı eyni ərizəni yenidən təqdim etmək hüququndan məhrum edilmir.

Katiblik ərizənin kifayət sayda nüsxələrinə və tələb olunan avansın ödənilməsini təsdiq edən sənədə malik olduqda ərizənin surətini və ona əlavə edilmiş sənədləri cavabdehə öz rəyini bildirməsi üçün göndərir.

Tərəflər artıq eyni tərəflər arasında arbitraj araşdırmasının bu Reqlament əsasında predmeti olan hüquq münasibətləri ilə bağlı iddia ərizəsi verdikdə, Məhkəmə tərəfindən hər hansı birinin xahişi ilə ərizədə göstərilmiş tələbləri artıq icraatda olan işin predmeti olan tələblərlə, arbitrlərin səlahiyyətli haqqında Aktın hələ Məhkəmə tərəfindən imzalanmadığı və ya təsdiq olunmadığı halda, birləşdirə bilər. Arbitrlərin səlahiyyəti haqqında Akt Məhkəmə tərəfindən imzalandığı, yaxud təsdiq olunduğu halda tələblərin birləşdirilməsi haqqında qərar yalnız 19-cu maddənin şərtlərinə əməl edilməklə qəbul edilə bilər.

Reqlamentin 8-ci maddəsinə əsasən Mübahisələr təkbaşına arbitr, yaxud üç arbitr tərəfindən həll edilə bilər.

Arbitrlərin sayı barədə tərəflərin razılığı yoxdursa, Məhkəmə işə təkbaşına baxan arbitrı təyin edir; istisna hallarda məhkəmə mübahisənin xarakterinə görə üç arbitrı təyin edir. Bu halda İddiaçı Məhkəmənin qərarı haqqında bildirişi aldığı gündən 15 gün

müddətində, cavabdeh isə iddiaçının arbitri təyin etməsi haqqında bildirişi aldığı gündən 15 gün müddətində arbitri təyin edir.

Tərəflər mübahisənin təkbaşına arbitr tərəfindən həll ediləcəyini razılaşdırdıqda, qarşılıqlı razılaşma əsasında təkbaşına arbitri təsdiq edilmək üçün təyin edə bilərlər. Tərəflər təkbaşına arbitri iddiaçının arbitraja göndərilmiş ərizəsinin digər tərəfin aldığı gündən 30 gün müddətində, yaxud əlavə verilmiş müddət ərzində təyin etmədikdə, təkbaşına arbitr Məhkəmə tərəfindən təyin edilir.

Mübahisəyə üç arbitr tərəfindən baxıldıqda, hər bir tərəf müvafiq olaraq iddia ərizəsində və ona etirazda təsdiq olunmaq üçün bir arbitri təyin edir. Tərəflərdən hər hansı biri arbitri təyin etmədikdə arbitr Məhkəmə tərəfindən təyin edilir. Arbitraj tərkibinin sədri funksiyasını həyata keçirən üçüncü arbitr, tərəflər onun təyin edilməsi üçün başqa qayda barədə razılaşmayıbsa, Məhkəmə tərəfindən təyin edilir. Bu halda arbitrin təyin edilməsi 9 – cu maddənin tələblərinə müvafiq qaydada təsdiq edilməlidir. Məhkəmənin, yaxud tərəflərin özlərinin müəyyən etdikləri müddət ərzində üçüncü arbitrin təyinatı həyata keçirilmirsə, üçüncü arbitr Məhkəmə tərəfindən təyin edilir.

Reqdamentin 21-ci maddəsinə uyğun olaraq Arbitraj tərkibi işə baxılmasında iştirak etmək üçün tərəfləri ağlabatan müddət ərzində xəbərdar etməklə, onlara müəyyən edilmiş gün və yerdə keçiriləcək iclasa gəlməyi təklif edir.

Lazımi qaydada çağırılmış tərəflərdən hər hansı biri üzürlü səbəb olmadan gəlmədikdə, arbitraj tərkibi işə baxılmasını həyata keçirmək hüququna malikdir.

Arbitraj tərkibi tərəflərin iştirak etmək hüququna malik olduqları dinləmə üçün məsuliyyət daşıyır. Arbitraj tərkibinin və tərəflərin razılığı olmadan araşdırmada iştirak etməyən şəxslər dinləməyə buraxılmırlar.

Tərəflər şəxsən, yaxud lazımi qaydada səlahiyyət verilmiş nümayəndələri vasitəsilə təmsil oluna bilərlər. Eyni zamanda, onlar məsləhətçilərin xidmətlərindən də istifadə edə bilərlər.

Arbitraj tərkibi tərəflərə dinlənilmək üçün kifayət qədər imkan verildiyi qənaətinə gəldikdə işin araşdırılmasını bitmiş elan edir. Bundan sonra istisna hal kimi arbitraj tərkibinin tələb etdiyi və ya onun razılığı olmadan hər hansı bir ərizənin, sənədin, yaxud sübutun təqdim edilməsinə yol verilmir.

Arbitraj tərkibi İşin araşdırılmasını bitmiş elan etdikdə Katibliyə qərar layihəsinin təsdiq edilməsi üçün Məhkəməyə veriləcəyinin təxmini tarixini bildirir. Arbitraj tərkibi həmin tarixin daha gec tarixə dəyişdirilməsi haqqında hər hansı məlumatı Katibliyə bildirir.

Reqlamentin 24-29-cu maddələri arbitraj qərarına həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, BTP-nin BAM-si dünyanın ən bahalı məhkəmələrindən biri sayılır, bu məhkəmədə işə baxılması xərcləri digər arbitrajlarla müqayisədə xeyli çoxdur.

«Arbitraj xərcləri və qonorarlar haqqında» III əlavənin 1-ci maddəsinə əsasən tərəflər Reqlament əsasında arbitraja müraciət etməyi razılaşdırdıqda və əgər onlar arbitraj sazişinin bağlandığı vaxt qüvvədə olan Reqlamentə tabe olmağı razılaşdırmayıblarsa, arbitraj araşdırmasının başlanğıcında qüvvədə olan Reqlamentə tabe olurlar.

Cavabdeh 5-ci maddə ilə nəzərdə tutulmuş qaydada Etirazı göndərmədikdə, yaxud tərəflərdən biri arbitraj sazişinin həcmi, etibarlığı və ya mövcudluğu barədə bir və ya bir neçə etiraz irəli sürdükdə, Məhkəmə etirazın və ya etirazların əsaslığı və ya mümkünlüyü barədə məsələni əvvəlcədən həll etmədən arbitraj sazişinin ***prima facie*** mövcudluğunu mümkün hesab etsə, işi arbitraj icraatına qəbul edə bilər. Bu halda arbitraj tərkibinin səlahiyyətinə aid olan istənilən qərar tərkibin özü tərəfindən qəbul edilir. Məhkəmə belə nəticəyə gəlmədikdə, tərəflər işin icraata qəbul edilə bilməməsi haqqında məlumatlandırılırlar. Bu halda tərəflər onların məcburi arbitraj sazişi ilə bağlı olub-olmadıqları məsələsinin həll edilməsi üçün səlahiyyətli məhkəməyə müraciət etmək hüququnu özlərində saxlayırlar.

Əlavənin 4-cü maddəsinə uyğun olaraq 1 yanvar 1998-ci il tarixdən və ondan sonra icraata qəbul edilmiş bütün işlərə, bu işlərə Reqlamentin hansı variantının tətbiq edilməsindən asılı olmayaraq, inzibati xərclər və arbitrlərin qonorarları cədvəli tətbiq olunur.

İnzibati xərclərin və arbitrlərin qonorarlarının ödənilməsi üçün zəruri olan məbləği hesablamaq üçün hər hissəsinin hesablanmış məbləğini toplamaq lazımdır. Lakin, mübahisənin məbləği 80 milyon ABŞ dollarından çox olduqda 75.800 ABŞ dolları məbləğində birdəfəlik ödəniş inzibati xərcləri tamamilə təmin edir.

### *§ 3. London Beynəlxalq Arbitraj Məhkəməsi*

London Gəmiçilik, ticarət, sığorta və tikinti işləri üzrə arbitrajın keçirildiyi yer kimi bütün dünyada məşhurdur, bu sahələr üzrə keçirilən arbitrajların arbitrləri bir qayda olaraq hüquqşünas deyil, həmin sahənin mütəxəssisləri sırasından seçilirdilər. Tərəflər arbitrləri mübahisənin predmetini bilən kolleqaları sırasında təyin edirdilər, sədrlik edən arbitr

kimi isə adətən barrister seçilirdi. Arbitraj prosesi ingilis dövlət məhkəmələrinin prosesindən çox az fərqlənirdi, arbitrajın qətnaməsindən maddi hüququn düzgün tətbiq olunmaması və digər səbəblərdən London Kommersiya Məhkəməsinə şikayət vermək olardı. Belə «xüsusi işlərə» (special case) apellyasiya qaydasında baxılırdı və beləliklə də arbitraj qərarları üzərində dövlət məhkəmələrinin daimi nəzarəti həyata keçirilirdi. Bu cəhətlərə görə də 1879-cu ilədək London Beynəlxalq Arbitraj Məhkəməsinə ingilislərdən başqa digər dövlətlərin hüquqi şəxsləri müraciət etmirdi.

1979-cu ildə Lordlar Palatası ingilis arbitraj qanunvericiliyinin islahatı haqqında qərar qəbul etdi və bunun nəticəsində yeni Arbitraj qanunu qəbul edildi, bu qanuna əsasən arbitraj qətnaməsinə dövlət məhkəməsində mahiyyət üzrə yenidən baxılması qaydası ləğv edildi. «Xüsusi işlər» *(special case)* proseduru adi apellyasiya proseduru ilə əvəz olundu.

Hazırda ingilis arbitrajlarının əksəriyyətində gəmiçilik, sığorta və tikinti işləri üzrə mübahisələrə hüquqşünas olmayan mütəxəssislər tərəfindən baxılır.

London Beynəlxalq Arbitraj Məhkəməsi baxılan işlərin sayına görə Paris və Cenevrə arbitraj Məhkəməsindən sonra dünyada üçüncü yeri tutur.

1996-cı ildə İngiltərədə yeni Arbitraj haqqında qanun qəbul edildi, bu qanun 01 yanvar 1997-ci ildə qanun qüvvəyə minmişdir. Bu qanun tərəflərə daha geniş hüquqlar vermiş, arbitraj prosedurunu təkmilləşdirmiş və arbitraj xərclərini azaltmışdır. Bu qanunla arbitraj qərarlarından dövlət məhkəmələrinə şikayət verilməsi qaydası da təkmilləşdirilmiş və bir qədər «yumşaldılmışdır».

London Arbitraj Məhkəməsi 1892-ci ildə London Sitinin Bələdiyyə Şurasının təşəbbüsü ilə «London arbitraj Palatası» adı altında yaradılmışdır. O, 1903-cü ildə London arbitraj məhkəməsi, 1981-ci ildə isə London Beynəlxalq Məhkəməsi adlandırılmışdır. London Beynəlxalq Arbitraj Məhkəməsi 1986-cı ildə məhdud məsuliyyətli cəmiyyət (MMC) kimi qeydiyyatdan keçmişdir.

London BAM-nin ali orqanı Direktorlar Şurasıdır, onun tərkibinə beynəlxalq kommersiya arbitrajı sahəsində tanınmış olan mütəxəssislər, London Sənaye Ticarət Palatasının və Arbitrlərin Nizamnamə institutunun nümayəndələri daxildirlər. London BAM-nın yüksək vəzifəli şəxsi məhkəmənin Prezidentidir, o həmçinin Direktorlar Şurasının Sədri hesab olunur. Arbitraj Məhkəməsinin belə qeyri-adi

strukturu onun Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) olması ilə izah edilməlidir.

London BAM Prezidentdən, dörd vitse-prezidentdən və dünyanın müxtəlif dövlətlərindən beynəlxalq kommersiya arbitrajı sahəsində aparıçı mütəxəssislər olan 25 üzvdən ibarətdir. Məhkəmənin özü bilavasitə mübahisənin həll edilməsi ilə məşğul olmur, onun funksiyasına arbitrlərin təyin edilməsi və işdən kənarlaşdırılması, işə baxılması prosesində yaranan mübahisələrin həll edilməsi, arbitrajın normal keçirilməsinin təmin edilməsi və Reqlamentin düzgün tətbiq edilməsinə nəzarət daxildir.

Beynəlxalq Ticarət Palatasından fərqli olaraq LBAM çıxarılmış arbitraj qətnamələrinin yoxlanılmasını həyata keçirmir.

LBAM Londonda yerləşməsinə baxmayaraq dünyanın hər hansı ölkəsində öz Reqlamentinə və YUNSİTRAL-ın Arbitraj Reqlamentinə uyğun olaraq arbitrajın keçirilməsini təşkil edir və bununla bağlı xidmətlər göstərir.

**London Beynəlxalq Arbitraj Məhkəməsi** 01 yanvar 1998-ci il tarixli **Reqlament** əsasında fəaliyyət göstərir.

LBAM-nin Reqlamentin preambulasında göstərildiyi kimi London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinə və ya London Beynəlxalq Arbitraj Məhkəməsinə əsasən, hər hansı bir saziş, qeyd-şərt və yaxud münsif qeydi yazılı şəkildə və ya digər qaydaya əsasən arbitrajı nəzərdə tutursa, hesab edilir ki, arbitraj araşdırması mövcud Reqlamentə və ya arbitraj araşdırmasının başlanmasına qədər LBAM tərəfindən qəbul edilərək qüvvəyə minən əlavə qaydalara uyğun olaraq keçirilməlidir.

Bu Reqlamentə arbitraj araşdırması başlananadək qüvvəyə minmiş Arbitraj xərcləri və qonorarları haqqında Əsasnamə də daxildir. Bu Əsasnaməyə vaxtaşırı olaraq LBAM tərəfindən əlavələr olunur.

Arbitraj tərkibinin formalaşdırılması Reqlamentin 5-ci maddəsində nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən Mövcud Reqlamentdə «arbitraj tərkibi» termini bir arbitri və ya sayı birdən çox olan bütün arbitrləri əhatə edir. Arbitr dedikdə, kişi və qadın cinsindən olan şəxslər başa düşülür. (LBAM-in prezidenti, vitse-prezidenti və üzvləri, katib və ya katibin müavini, ekspertlər, şahidlər, tərəflər və hüquqi nümayəndəliklərə münasibətdə də yuxarıda göstərilənlər başa düşülməlidir).

Arbitraj araşdırmasını aparan bütün arbitrlər bu Reqlamentə uyğun olaraq, arbitraj araşdırması zamanı qərəzsiz və müstəqil olmalıdırlar; onlardan heç biri arbitraj prosesində hər hansı bir tərəf

üçün vəkil kimi fəaliyyət göstərməməlidir. Heç bir arbitr təyin edilməzdən əvvəl və ya təyin edildikdən sonra heç bir halda mahiyyəti üzrə və ya mübahisənin nəticələri ilə bağlı hər hansı bir tərəfə şərh verməməlidir.

Reqlamentin 7-ci maddəsinə uyğun olaraq Arbitrin bir və ya bir neçə tərəf və yaxud hər hansı üçüncü şəxs tərəfindən təyin edilməsi barədə tərəflərin razılığa gəldiyi halda, bu razılıq hər bir məqsəd üçün arbitrlərin namizədliyinin irəli sürülməsi barədə yazılı saziş kimi qiymətləndirilməlidir. Belə namizəd yalnız onun Reqlamentin tələblərinə uyğun gəldiyi halda LBAM tərəfindən arbitr təyin edilə bilər.

LBAM namizədin müvafiq tələblərə uyğun gəlmədiyi, yaxud müstəqil və ya qərəzsiz olmadığını müəyyən edərsə, onun arbitr təyin olunmasından imtina edə bilər.

Arbitraj araşdırmasının yeri və dinləmənin yeri Reqlamentin 16-cı maddəsində təsbit olunmuşdur. Belə ki, Tərəflər yazılı şəkildə arbitraj araşdırmasının yerini (və ya hüquqi ünvanını) razılaşdıra bilərlər. Tərəflər belə seçimdən istifadə etmədikdə, LBAM işin bütün hallarını öyrənənədək və tərəflərə digər yerin daha münasib olduğu barədə yazılı şərh təqdim etmək imkanı verənədək arbitraj çəkişməsinin keçirildiyi yer London şəhəri olacaqdır.

Arbitraj tərkibi iclaslarını, dinləmələri və müzakirələri özünün məqbul hesab etdiyi (öz seçiminə əsasən) hər hansı bir əlverişli coğrafi məkanda və ya LBAM-ın rəsmi yeri olmayan digər bir yerdə keçirərsə, arbitraj araşdırması LBAM-ın rəsmi yerində keçirilən arbitraj araşdırması hesab olunur və çıxarılan hər hansı bir qətnamə LBAM-ın rəsmi yerində çıxarılmış qətnamə hesab olunacaqdır.

Tərəflər yazılı formada aydın şəkildə digər arbitraj qanununun tətbiq edilməsi barədə razılığa gəlməmişlərsə və belə razılıq LBAM-ın rəsmi yerləşdiyi ölkənin hüququ ilə qadağan edilmədiyi halda arbitraj araşdırması zamanı tətbiq edilən hüquq LBAM-ın rəsmi yerinin arbitraj qanunu olacaqdır.

Reqlamentin 17-ci maddəsinə əsasən arbitraj araşdırmasının dili Katibə verilən, katibdən gələn informasiya və arbitraj araşdırması zamanı istifadə olunan dil  ingilis dili olarsa, iclaslarda iştirak etməyən və ya öz öhdəliklərinin yerinə yetirilməsindən boyun qaçıran tərəfin şikayət vermək üçün əsası olmayacağı şərtini tərəflərin yazılı şəkildə razılaşdırmadıqları təqdirdə arbitraj çəkişməsi başlanarkən istifadə olunan dil arbitraj sazişində göstərilən dil olmalıdır.

Arbitraj sazişi arbitraj araşdırmasının bir dildə aparılmayacağını nəzərdə tutduğu və arbitraj sazişi bir dildə tərtib edilmədiyi hallarda

LBAM arbitraj araşdırmasının hansı dildə başlanmasını müəyyən edə bilər.

Tərəflərin arbitraj araşdırmasının yalnız sənədlər əsasında aparılması barədə yazılı şəkildə razılaşdıqları hallar istisna olmaqla, hər bir tərəf öz arzusuna əsasən arbitraj tərkibi qarşısında işin mahiyyəti üzrə dinlənilmək hüququna malikdir.

Arbitraj tərkibi arbitraj baxışı üzrə hər bir iclas və dinləmələrin tarixini, vaxtını və yerini təyin edir və bu barədə tərəflərə əvvəlcədən bildiriş göndərir.

Arbitraj tərkibi xüsusi diqqətlə yanaşılması tələb olunan sualların siyahısını tərəflərə dinləmələr başlananadək təqdim edə bilər.

Tərəflər arasında digər razılaşma olmadığı və ya arbitraj tərkibi digər qərara gəlmədiyi hallarda bütün iclas və dinləmələr qapalı keçirilir.

Arbitraj tərkibi iclas və dinləmələr və ya onların bir hissəsi üçün müddətin hədlərinin müəyyənləşdirilməsi sahəsində müstəsna səlahiyyətlərə malikdir.

Reqlamentin 23-cü maddəsinə uyğun olaraq Arbitraj tərkibi özünün səlahiyyətləri, habelə arbitraj sazişinin mövcudluğu və etibarlığı barədə hər bir etiraz üzrə qərar qəbul etmək hüququna malikdir. Bu məqsədlə digər saziş üçün nəzərdə tutulan və ya onun bir hissəsini təşkil edən arbitraj qeyd-şərti digər sazişdən asılı olmayan arbitraj sazişi kimi qiymətləndirilməlidir. Arbitraj tərkibi tərəfindən belə sazişin mövcud olmaması, hüquqi qüvvəyə malik olmaması və ya etibarsız olması barədə qərar qəbul edilməsi avtomatik olaraq *(ipso jure)* arbitraj qeyd-şərtinin mövcud olmaması, hüquqi qüvvəyə malik olmaması və ya etibarsız olmasına səbəb olmur.

Reqlamentin 26-cı maddəsi arbitraj qətnaməsindən bəhs edir. Həmin maddəyə əsasən Arbitraj tərkibi arbitraj qətnaməsini yazılı formada çıxarır və tərəflər arasında yazılı şəkildə digər hal nəzərdə tutulmadıqda, arbitraj tərkibi bu qətnamənin əsaslandığı motivləri göstərir. Arbitraj qətnaməsində onun tarixi və arbitraj araşdırmasının yeri göstərilməlidir. Arbitraj qətnaməsi arbitraj tərkibi tərəfindən və ya bu qətnamə ilə razı olan arbitraj tərkibinin üzvləri tərəfindən imzalanmalıdır.

Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsinin çıxarılmasında tətbiq olunan hüququn imperativ normalarına riayət etməkdən imtina etdiyi halda, digər arbitrlər həmin arbitrin arbitraj qətnaməsinin çıxarılmasında iştirak etməməsinin səbəblərini qeyd etməklə onun iştirakı olmadan fəaliyyətlərini davam etdirə bilərlər.

Üç arbitrdən ibarət arbitraj tərkibinin hər hansı bir məsələ üzrə razılığa gəlmədiyi halda arbitrlər bu məsələni səs çoxluğu ilə həll edirlər. Hər hansı bir məsələ üzrə səs çoxluğu alınmadıqda qətnamə arbitraj tərkibinin sədri tərəfindən qəbul edilir.

Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsini imzalamaqdan imtina edirsə və ya arbitrin imzası qətnamədə olmadıqda, imzanın olmaması səbəbi göstərilməklə, arbitrlərin əksəriyyətinin imzası və ya (əksəriyyətin olmadığı halda) arbitraj tərkibi sədrinin imzası kifayət edəcəkdir.

Arbitraj xərclərinin məbləği (tərəflərin hüquqi yardıma və ya digər məsrəflər üçün sərf etdiyi xərclərdən əlavə) arbitraj xərcləri və qonorarları haqqında Əsasnaməyə uyğun olaraq, LBAM tərəfindən müəyyən edilir. Tərəflər birlikdə və ayrı-ayrılıqda arbiraj xərclərinin ödənilməsi üçün arbitraj tərkibinin və LBAM-ın qarşısında məsuliyyət daşıyırlar.

Arbitraj tərkibi LBAM tərəfindən müəyyən edilmiş arbitraj xərclərinin bütün məbləğini arbitraj qətnaməsində göstərməlidir. Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda arbitraj tərkibi xərclərinin hamısının və ya bir Arbitraj tərkibi LBAM-a arbitraj xərcini ödəmiş tərəfdən fərqli olaraq, digər tərəfin arbitraj xərclərinin hamısını və ya bir hissəsini ödəməsini müəyyən edərsə, arbitraj xərclərini ödəmiş tərəf digər tərəfdən müvafiq məbləğin alınmasını tələb edə bilər.

## *§ 4. Amerika Arbitraj Assosiasiyası*

1922-ci ildə ABŞ-ın işgüzar dairələrinin rəhbərlərinin təşəbbüsü ilə Amerikanın Arbitraj Cəmiyyəti yaradılmışdır. Cəmiyyət ilk vaxtlar arbitraj ideyalarının təbliği ilə məşğul olmuş və tədricən arbitrajların təşkili ilə bağlı xidmətlər göstərilməsi sahəsində fəaliyyət göstərmişdir.

1924-cü ildə arbitraj tədqiqatları ilə məşğul olan daha bir təşkilat – Arbitraj fondu yaradıldı.

1926-cı ildə **Amerika Arbitraj Cəmiyyəti** və **Arbitraj fondunun** birləşməsi nəticəsində **Amerika Arbitraj Assosiasiyası** yaranmışdır.

AAA-sı qeyri-kommersiya təşkilatı olmaqla öz qarşısına arbitraj, mediasiya, barışıq proseduru (konsiliasiya), danışıqlar vasitəsilə müxtəlif növ mübahisələrin həll edilməsinin öyrənilməsi, yayılması, təşkili və inzibati prosedurların hazırlanması məqsədini qoymuşdur.

AAA-nın üzvləri onun məqsəd və vəzifələrini yerinə yetirən, üzvlük haqqını ödəyən həm fiziki, həm də hüquqi şəxslər ola bilər. AAA-sı 4 il müddətinə seçilən və 40 nəfərdən az üzvü olmayan Direktorlar Şurası tərəfindən idarə olunur, sessiyalararası dövrdə isə Şuranın funksiyasını İcraiyyə Komitəsi yerinə yetirir. AAA-nın fəaliyyətinə gündəlik rəhbərliyi hər il Direktorlar Şurası tərəfindən seçilən Prezident həyata keçirir.

AAA-sı mübahisələrə alternativ qaydada baxılmasının formalarını tətbiq edən (əsasən mediasiya) ilk orqanlardan biri idi.

AAA-nın ABŞ-ın bütün ərazisində bölmələri vardır, Assosiasiya 1999-cu ildə 140 min 188 işə baxmışdır.[1]

AAA-nın müxtəlif sahələr üzrə mütəxəssislərdən ibarət 20 mindən artıq arbitri vardır, arbitrlərin fəaliyyəti AAA-nın və Amerika Hüquqşünaslar Assosiasiyasının (ABA) birgə hazırladığı Etik Məcəllə ilə tənzimlənir.

AAA-nın baxdığı işlər əsasən əmək, sığorta, tikinti, istehlakçıların hüquqlarının müdafiəsi, səhiyyə, qiymətli kağızlar üzrə münasibətləri əhatə edir, lakin AAA-sı ümumilikdə demək olar ki, hüququn bütün sahələri üzrə mübahisələri həll etmək üçün səlahiyyətlidir.

AAA-sı dünyanın 50-dən artıq arbitraj təşkilatları ilə qarşılıqlı əməkdaşlıqla bağlı müqavilələr bağlamışdır.

AAA-sı YUNSİTRAL-ın Nümunəvi Qanununun və Arbitraj Reqlamentinin hazırlanmasında yaxından iştirak etmişdir. Baxılan işlərin sayına görə AAA-sı yalnız Beynəlxalq Ticarət Palatasının Arbitrajından geri qalaraq dünyada ikinci sıradadır.

AAA-sı 1995-ci ilin dekabrında Kanada və Meksikanın üç arbitraj təşkilatı ilə qarışıqlıqlı əməkdaşlıq haqqında müqavilə imzalamaqla Kommersiya arbitrajı və mediasiya üzrə Amerika Mərkəzi (The Commercial Arbitration and Mediation Center for the Americas - CAMCA) yaratdılar. AAA-dan başqa Britaniya Kolumbiyası Beynəlxalq Kommersiya Arbitrajı Mərkəzi, Kvebek (Kanada) Milli və Beynəlxalq Kommersiya Mərkəzi və Mexiko şəhərinin Milli Kommersiya Palatası da Mərkəzin üzvüdürlər.

**AAA-nın yeni Arbitraj Reqlamenti** 01 aprel 1997-ci ildən fəaliyyətdədir, bu Reqlamentdən əlavə AAA-nın Beynəlxalq mübahisələr üzrə tərəflərin razılığı ilə tətbiq edilən daha bir neçə Reqlamenti də vardır. AAA həmçinin YUNSİTRAL-ın Arbitraj

---

[1] American Arbitration 1999 Annual Report.

Reqlamentinə uyğun olaraq arbitrajların təşkili üzrə inzibati fəaliyyəti də həyata keçirir.

Reqlamentin 4-cü maddəsinə əsasən arbitraj iddiaçının AAA-na iddia ərizəsi verməsi ilə başlayır və ərizədə aşağıdakılar göstərilməlidir:

a) tərəflərin tam adı və ünvanı;
b) mübahisənin xarakteri və işin halları;
c) iddianın predmeti və məbləği;
d) arbitraj sazişi;
e) arbitrlərin sayı və seçilməsi qaydası;
f) arbitrajın yeri, tətbiq ediləcək hüquq normaları, arbitrajın dili və s.

Cavabdeh Katiblikdən ərizəni aldıqdan sonra 30 gün müddətində öz rəyini («Etiraz») arbitraja təqdim etməlidir.

Arbitrlərin sayını tərəflər müəyyən edir, belə razılıq olmadıqda isə arbitri AAA təyin etməlidir, istisna hallarda məhkəmə mübahisənin xarakterinə görə üç arbitri təyin edir.

Reqlamentə əsasən hər bir arbitr müstəqil olmalı və mübahisə edən tərəflərdən asılı olmamalıdır. Təyinatını qəbul edən hər bir arbitr öz funksiyalarını AAA-nın Reqlamentinə uyğun həyata keçirməlidir. Reqlamentə uyğun olaraq arbitraj araşdırmasının yerini tərəflər özləri müəyyən edir, tərəflər arasında belə razılaşma olmadıqda həmin yeri məhkəmə müəyyənləşdirir.

Tərəflərlə məsləhətləşmədən sonra arbitraj tərkibi, tərəflər başqa qayda müəyyən etməyiblərsə, işə baxılmasını (işin dinlənilməsini) lazım bildiyi istənilən yerdə keçirə bilər.

Reqlamentə uyğun olaraq Tərəflər arbitraj tərkibi tərəfindən mübahisənin mahiyyətinə tətbiq ediləcək qanunla bağlı razılaşmada müstəqildirlər. Belə razılaşma olmadıqda arbitraj tərkibi lazım bildiyi hüquq normalarını tətbiq edir.

Bütün hallarda arbitraj tərkibi müqavilənin müddəalarını və müvafiq ticarət adətlərini nəzərə alır.

Arbitraj tərkibi, tərəflər ona belə səlahiyyət veriblərsə, dostcasına vasitəçi səlahiyyətlərini öz üzərinə götürür, yaxud mübahisəni *ex aequo et bono* əsasında həll edir.

Reqlamentə əsasən Tərəflər başqa cür razılaşdırmayıblarsa, arbitraj tərkibi işin ona verilməsindən sonra tərəflərdən hər hansı birinin xahişi ilə lazım bildiyi ilkin, yaxud təminedici tədbirlərdən birinin qəbul edilməsi üçün göstəriş verə bilər. Arbitraj tərkibi bu cür təminedici tədbirini müvafiq vəsatətlə müraciət etmiş tərəfin adekvat təminat təqdim etməsi ilə şərtləndirə bilər. Zərurət olduqda arbitraj tərkibi bu tədbirləri əsaslandırılmış əmr və ya qərar formasında qəbul edə bilər.

İşin arbitraj tərkibinə verilməsinə qədər, müəyyən hallarda isə bundan sonra da tərəflər istənilən səlahiyyətli məhkəmədən ilkin, yaxud təminedici tədbirlərin qəbul edilməsini xahiş edə bilərlər. Tərəfin belə tədbirin qəbul edilməsi, yaxud arbitraj tərkibi tərəfindən qəbul edilmiş oxşar tədbirlərin icra edilməsi məqsədilə məhkəməyə müraciət etməsi arbitraj sazişinin pozulması, yaxud ondan imtina edilməsi deyil və bu, arbitraj tərkibinin səlahiyyətinə təsir göstərmir. Məhkəmə tərəfindən qəbul edilmiş istənilən tədbir, yaxud istənilən bu cür vəsatət haqqında məlumat dərhal Katibliyin nəzərinə çatdırılmalıdır. Katiblik bu barədə arbitraj tərkibinə məlumat verir.

Reqlamentdə arbitraj qərarının çıxarılması qaydası da nəzərdə tutulmuşdur. Belə ki, Arbitraj tərkibi birdən çox arbitrdən ibarət olduqda, qərar səs çoxluğu ilə çıxarılır. Səs çoxluğu əldə edilmədikdə, qərar yalnız arbitraj tərkibinin sədri tərəfindən çıxarılır.

Qərar əsaslandırılmış olmalıdır.

Qərar arbitraj araşdırmasının yerində və onda qeyd edilmiş tarixdə çıxarılmış hesab olunur.

Arbitrajın qərarı yazılı formada çıxarılır və AAA tərəfindən heç bir yoxlamaya məruz qalmır. AAA-da işə baxılması xərcləri BTP-na nisbətdə aşağıdır, bundan başqa işin hər dinlənilmə günü üçün 150-200 dollar həcmində inzibati rüsum tutulur. Arbitrlərin qonorarı sərf olunan vaxtla ölçülür və saathesabı və ya günəmuzd qaydada ödənilir. Arbitrlərin qonorarı barəsində tərəflərin razılaşması olmadıqda qərar AAA tərəfindən qəbul edilir.

### *§ 5. Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu*

Arbitraj İnstitutu Stokholm Ticarət Palatası tərəfindən 1917-ci ildə ticarət, sənaye və dənizçilik sahəsində yaranan mübahisələrin həll edilməsi məqsədilə təsis edilmişdir. İnstitut hazırkı formasında 1949-cu ildən fəaliyyət göstərir.

Arbitraj İnstitutu Ticarət Palatasının orqanı olmasına baxmayaraq müstəqil fəaliyyət göstərir.

İnstitutun İdarə Heyəti Palatanın Direktorlar Şurası tərəfindən üç il müddətinə təyin olunmuş altı nəfərdən ibarətdir.

Palatanın Direktorlar Şurası İnstitutun İdarə Heyətinin üzvlərindən Sədri və Sədrin müavinini təyin edir. İdarə heyətinin Sədri və Sədrin müavini hüquqşünas olmalıdırlar.

Fövqəladə səbəblər olduqda Palatanın Direktorlar Şurası İdarə Heyətinin üzvünü tutduğu vəzifədən kənarlaşdırmaq hüququna malikdir. Əgər İdarə Heyətinin üzvü öz səlahiyyətlərini icra etdiyi müddət ərzində istefaya gedərsə, yaxud tutduğu vəzifədən azad edilərsə, Direktorlar Şurası qalan müddət üçün İdarə Heyətinin yeni üzvünü təyin edir.

İdarə Heyətinin iki üzvü yetərsayı təşkil edir. Qərarın səsçoxluğu ilə qəbul olunması mümkün olmadıqda, Sədrin səsi həllediciidir. Sədr, eləcə də sədrin müavini təcili məsələlərə görə İdarə Heyətinin adından qərar qəbul etmək hüququna malikdirlər. İdarə Heyətinin qərarları qətidir və Palata tərəfindən yenidən baxıla bilməz.

İnstitut, Baş katibin rəhbərlik etdiyi Katibliyə malikdir. Baş katib hüquqşünas olmalıdır.

Arbitraj İnstitutu dünyanın aparıcı arbitraj mərkəzlərindən biri sayılır və il ərzində baxılan işlərin sayına görə yalnız BTP, AAA və BKAM-dan geri qalır.

01 aprel 1999-cu ilədək İsveçdə 1929-cu il tarixli «Xarici arbitraj sazişləri və qətnamələri haqqında Qanun» qüvvədə olmuşdur. 01 aprel 1999-cu ildə Arbitraj haqqında yeni Qanun və STP-nin Arbitraj İnstitutunun Reqlamenti qüvvəyə minmişdir.

İsveçin yeni Arbitraj qanunu ölkə ərazisində keçirilən həm beynəlxalq və həm də daxili arbitraj münasibətlərini tənzim edir. Belə ki, Reqlamentin 1-ci maddəsinə əsasən Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu Stokholm Ticarət Paratasının arbitraj məsələləri ilə məşğul olan müstəqil orqanıdır. İnstitut özü mübahisələri həll etmir. Onun vəzifələrinə daxildir:

- Beynəlxalq və daxili mübahisələrin həll edilməsinə İnstitutun Reqlamentinə uyğun olaraq kömək etmək;
- Mübahisələrin həll edilməsinə İnstitut tərəfindən qəbul olunmuş digər prosedur qaydalarına uyğun olmaqla kömək etmək;
- Reqlamentdə nəzərdə tutulmuş prosedurdan qismən, yaxud tamamilə fərqlənə biləcək prosedurla İnstitutun müəyyən etdiyi qaydalara uyğun olaraq, arbitraj araşdırmalarına kömək etmək;
- Arbitraj və barışıq prosedurlarının aparılmasına dair informasiyanın təqdim olunması.

Qanun həmçinin arbitraj Tərkibinin formalaşdırılması qaydasını, arbitraj qətnamələrinə olan tələbləri, arbitrlərin cavab verməli olduğu tələbləri, arbitraj baxışının qaydasını, arbitraj qərarlarının ləğv edilməsi qaydasını, dövlət məhkəmələrinin arbitraj prosesinə müdaxiləsi hədlərini müəyyən edir.

Arbitraj İnstitutunda beynəlxalq Kommersiya mübahisələri aşağıdakı Reqlamentlərdən birinə uyğun olaraq keçirilə bilər:

1. STP-nın Arbitraj İnstitutunun Reqlamenti;
2. Sürətli Arbitraj Reqlamenti;
3. Sığorta Arbitraj Reqlamenti;
4. Mediasiya Reqlamenti;
5. YUNSİTRAL-ın Arbitraj Reqlamenti.[1]

STP-nın Arbitraj İnstitutunun əsas Reqlamentinin 5-ci maddəsinə uyğun olaraq Arbitraj icraatı iddiaçının arbitraj haqqında xahişinin İnstituta verilməsi ilə başlanır. Arbitraj xahişində aşağıdakılar göstərilməlidir:

I) tərəflərin və onların təmsilçilərin adları, poçt ünvanları, telefon və faks nömrələri, həmçinin elektron poçtunun ünvanı;

II) mübahisənin qısa təsviri;

III) iddiaçının tələblərinin ilkin ifadəsi;

IV) mübahisənin arbitraj tərəfindən həll edilməli olduğunu təsdiqləyən arbitraj sazişinin, yaxud qeyd-şərtinin surəti;

V) əgər seçilmiş prosedurda nəzərdə tutulubsa, iddiaçının təyin etdiyi arbitr, onun poçt və elektron poçtunun ünvanları, telefon və faksının nömrələri.

İddiaçı arbitraj haqqında xahişin verilməsi ilə eyni zamanda qeydiyyat rüsumunu da ödəyir. Rüsumun miqdarı arbitraj xahişinin verildiyi tarixdə qüvvədə olan İnstitutun «Arbitraj xərcləri və rüsumları haqqında» Əsasnaməsinə müvafiq qaydada müəyyənləşdirir.

Arbitraj xahişi təqdim olunarkən tələb edilən rüsum ödənilmədikdə, İnstitut iddiaçının həmin rüsumu ödəməsi üçün vaxt müəyyənləşdirilir.

Mübahisənin mahiyyətinə görə İnstitutun səlahiyyətlərə malik olmaması müəyyən edildikdə və ya göstərilən müddət ərzində qeydiyyat rüsumu ödənilmədikdə, iddiaçının arbitraj xahişi rədd edilir.

Reqlamentin 11-ci maddəsinə əsasən İnstitut tərəflərdən daxil olmuş istənilən yazılı ərizə barəsində əlavə məlumatların verilməsini tələb edə bilər. İnstitut iddiaçıdan tələb olunan məlumatları almazsa, iş üzrə icraatın dayandırılması haqda qərar qəbul edə bilər. İnstitut qarşılıqlı iddiaya aid olan məlumatları cavabdehdən almazsa, qarşılıqlı iddianı rədd edə bilər. Əgər cavabdeh digər yazılı ərizələrə aid olan

[1] İnstitut tərəfindən tezləşdirilən arbitraj prosedurunun Qaydaları, sığorta sahəsində mübahisələrə baxılması Reqlamenti, mübahisələrin tənzimlənməsində İnstitutun vasitəçilik xidmətlərinin barışıq proseduru Qaydaları və YUNSİTRAL-ın Arbitraj Reqlamentinə müvafiq prosedur Qaydaları qəbul olunmuşdur.

tələb edilmiş məlumatları təqdim etməzsə, bu iş üzrə icraatın davam etdirilməsinə mane olmur.

İnstitut tərəfindən göstərilmiş prosessual hərəkətlərin icrası üçün tərəflərə verilmiş hər bir müddət artırıla bilər.

Arbitrlərin sayını tərəflər öz mülahizələri əsasında müəyyən edirlər. Arbitrlərin sayı haqqında tərəflərin razılaşması yoxdursa, əgər İnstitut işin mürəkkəbliyini, mübahisənin dəyərini və digər halları nəzərə alaraq, mübahisənin bir arbitr tərəfindən həllini mümkünsüz hesab edirsə, arbitraj tərkibinə üç arbitr daxil edir.

Arbitraj tərkibi bir arbitrdən çox olduqda, tərəflərin hər biri eyni sayda arbitr təyin edir. Əgər tərəflər İnstitutunun müəyyən etdiyi müddətdə arbitrləri təyin etməzsə tərəflərin digər razılaşdığı hallar istisna olmaqla, təyinat İnstitut tərəfindən aparılır.

Əgər mübahisədə iki və ya daha çox iddiaçı, yaxud cavabdeh iştirak edirsə və mübahisə bir neçə arbitr tərəfindən həll edilməlidirsə, iddiaçılar cavabdehlərlə birlikdə bərabər sayda arbitr təyin edirlər. Tərəflərdən hər hansı biri göstərilən birgə təyinatı yerinə yetirmədikdə, təyinatı həmin tərəfin əvəzindən İnstitut həyata keçirir. Zəruri hallarda, tərəflərin digər razılaşması olmadıqda, İnstitut arbitraj heyətini tam tərkibdə təyin edə bilər.

Arbitraj tərkibinə birdən çox arbitr daxil edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, sədri İnstitut təyin edir.

Mübahisə bir arbitr tərəfindən həll edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, onun təyinatını İnstitut həll edir.

Tərəflərdən birinin təyin etdiyi arbitr öldükdə, həmin tərəf digər arbitr təyin edir. İnstitutun təyin etdiyi arbitr öldükdə, İnstitut digər arbitri təyin edir.

Əgər arbitr öz funksiyasını yerinə yetirməkdən imtina edərsə, yaxud o, vəzifəsindən aəad edilərsə, İnstitut digər arbitri təyin edir. Əgər arbitri tərəflərdən biri təyin etmişsə, İnstitut həmin tərəfin rəyini nəzərə alır. Əgər arbitrajın tərkibinə üç və ya daha çox arbitr daxildirsə, İnstitut işin qalan arbitrlərin tərəfindən davam etdirilməsi barədə qərar çıxara bilər. İnstitut belə qərar qəbul edərkən tərəflərin və arbitraj tərkibinin rəyini nəzərə alır.

Tərəflər müxtəlif dövlətləri təmsil etdiyi halda, əgər tərəflər başqa cür qərar qəbul etməyiblərsə, yaxud İnstitut digər rəyə gəlməyibsə, İnstitut sədrliyə üçüncü ölkənin vətəndaşını təyin edir.

Reqlamentin 17-ci maddəsinə müvafiq olaraq Arbitr qərəzsiz və müstəqil olmalıdır.

Arbitr təyin olunması təklif olunan şəxs, özünün qərəzsiz və müstəqil olmasına əsaslı şübhələr oyada biləcək istənilən hallar barədə məlumat verməyə borcludur. Əgər bununla belə, bu şəxs arbitr təyin edilmişsə, o, həmin hallar barədə dərhal tərəflərə və digər arbitrlərə yazılı məlumat verməlidir.

Arbitraj araşdırmasının gedişində, arbitrə onun işdən kənarlaşdırılmasında səbəb ola biləcək istənilən hal məlum olarsa, təcili olaraq yazılı şəkildə tərəflərə və digər arbitrlərə məlumat verməlidir.

Arbitraj tərkibi araşdırmanın aparılması qaydalarını arbitraj sazişinin və mövcud Reqlamentin müəyyən etdiyi şərtləri və tərəflərin istəklərini nəzərə almaqla müəyyən edilir.

Arbitraj tərkibi araşdırmanın aparılması qaydalarını arbitraj sazişinin və mövcud Reqlamentin müəyyən etdiyi şərtləri və tərəflərin istəklərini nəzərə almaqla müəyyən edir.

Arbitraj tərkibi sədrə prosedur məsələləri barədə müstəqil qərar qəbul etmək səlahiyyəti verə bilər.

Arbitraj tərkibi araşdırmanın konfidensiallığını təmin etməyə və işi qərəzsiz, qənaətcilliklə və ləngitmədən, tərəflərin hər birinə öz mövqeyini kifayət qədər şərh etmək imkanı verməklə aparmağa borcludur.

Arbitraj tərkibi tərəflərlə məsləhətləşdikdən sonra dinləmələrin aparılacağı yeri, arbitraj araşdırması nəzərdə tutulan yerdən başqa yerə təyin edə bilər.

Arbitraj tərkibi mübahisələri mahiyyəti üzrə tərəflərlə razılaşdırılmış hüquq normaları və ya qanun əsasında həll edir. Belə razılaşma olmadıqda, arbitraj tərkibi məqsədəmüvafiq hesab etdiyi qanunu və ya hüquq normalarını tətbiq edir.

Tərəflərin müəyyən dövlətin qanunvericiliyinə istənilən istinadı bu dövlətin kollizion normalarına deyil, bilavasitə maddi hüququna istinad kimi izah edilməlidir.

Arbitraj tərkibi, mübahisəni ədalətlə *(ex aequo et bono),* yaxud əgər tərəflər ona səlahiyyət verərsə, barışdırıcı vasitəçi *(amiable compositeure)* qisminde həll edir.

Reqlamentin 32-ci maddəsinə əsasən Arbitraj qərarı arbitraj araşdırması keçirilən yerdə çıxarılır. Sənəddə onun çıxarıldığı tarix, qətnamə və ya qərar olması, onların əsaslandırıldığı motivlər, həmçinin, arbitrlərin imzası olmalıdır. Arbitrlərdən birinin imzası olmadıqda, arbitraj qərarı o şərtlə çıxarılır ki, qərara arbitrlərin əksəriyyəti imza atmış olur və qərarda imzası olmayan arbitrin mübahisənin həll edilməsində iştirak etməsi təsdiqlənir.

Arbitrlərdən biri üzürsüz səbəblərdən, arbitraj tərkibinin hər hansı bir məsələ barədə müzakirəsində iştirak etmirsə, bu hal digər arbitrlərin qərar qəbul etməsinə mane olmur.

Tərəflər, arbitraj qərarını yalnız arbitraj tərkibinin sədrinin imzalayacağı barədə razılaşa bilərlər.

Arbitrin xüsusi rəyi olduqda, o, arbitraj qərarına əlavə edilir.

Arbitraj araşdırmalarının gedişində tərəflər mübahisəni həll edirlərsə, arbitraj tərkibi, tərəflərin xahişi ilə razılaşdırılmış şərtlərlə barışıq sazişini arbitraj qərarı şəklində rəsmiləşdirir.

39-cu maddəyə uyğun olmaqla arbitraj xərcləri və onların tərəflərin arasında bölüşdürülməsi arbitraj qətnaməsi ilə, yaxud arbitraj araşdırmasına yekun vuran digər qərarla rəsmiləşdirilir. Arbitraj qərarı həmçinin, yalnız xərclərə aid də çıxarıla bilər.

Arbitraj tərkibi arbitraj qərarını tərəflərə təcili göndərməyə borcludur.

Arbitraj qətnaməsi qətidir və çıxarıldığı andan məcburidir.

Reqlamentin 39-cu maddəsinə uyğun olaraq Arbitraj xərclərinə aşağıdakılar daxildir:

I) Arbitrlərin qonorarları;

II) İnstitutun inzibati rüsumu;

III) İşə baxılmasının gedişində arbitrlərin və İnstitutun meydana çıxan xərclərini ödəmək üçün kompensasiya;

IV) Reqlamentə müvafiq olaraq, İnstitutun təyin etdiyi bütün ekspertlərin xərclərinin kompensasiyası və qonorarları.

(I) – (II) bəndlərdə göstərilən xərclərin yekun məbləği İnstitut tərəfindən arbitraj icraatının başlandığı vaxt üçün qüvvədə olan arbitraj xərcləri və rüsumları haqqında Əsasnaməyə uyğun olaraq təyin edilir, (IV) bəndində göstərilən yekun məbləği isə arbitraj tərkibi müəyyənləşdirir.

Tərəflər 39-cu maddədə göstərilən bütün xərclərin ödənməsində tam bərabər məsuliyyət daşıyırlar.

Arbitraj tərkibi arbitraj araşdırmalarının xərclərinin tərəflər arasında bölünməsi barədə qərarı işin nəticəsindən və digər hallardan asılı olaraq çıxarır.

## *§ 6. İnvestisiya mübahisələri üzrə Beynəlxalq Mərkəz*

İnvestisiya mübahisələri üzrə Beynəlxalq Mərkəz (İCSİD) 1966-cı ildə «Dövlət və xarici şəxslər arasında investisiya mübahisələrinin həll edilməsi haqqında» 1965-ci il tarixli Vaşinqton Konvensiyası

qüvvəyə mindikdən sonra yaradılmışdır. İMÜBM Beynəlxalq Bankın tərkibinə daxildir və beynəlxalq ümumi hüququn təşkilatları sırasındadır. Beynəlxalq Bank Beynəlxalq Mərkəzə əvəzsiz olaraq binalar verir, zəruri inzibati xidmətlər göstərir və həmçinin Mərkəzin xərclərini ödəyir. Mərkəz təşkilatlara investisiya mübahisələrinə aid olan arbitrajların və konsiliasiyanın (barışıq proseduru) keçirilməsi ilə bağlı xidmətlər göstərir, bu mübahisələrdə tərəf qismində bir tərəfdə dövlət və ya onun orqanı, digər tərəfdə isə Konvensiyanın üzvü olan, digər dövlətə mənsub investor çıxış edir.

BM-nin əsas vəzifəsi «xüsusi beynəlxalq investisiyaların axının artırılması məqsədilə dövlət və xarici investorları arasında qarşılıqlı inam atmosferinin yaradılmasıdır».

Mərkəzin orqanları İnzibati Şura və Katiblikdir. İnzibati Şuranın tərkibinə Konvensiyanın iştirakçısı olan hər dövlətin bir nümayəndəsi daxildir, hər bir nümayəndə bir səs hüququna malikdir. Beynəlxalq Bankın Prezidenti vəzifəsinə görə Şuranın Sədridir, lakin onun səsvermə hüququ yoxdur. Şuranın əsas vəzifəsi Mərkəzin illik hesabatının və inzibati büdcəsinin bəyənilməsidir.

Mərkəzin Katibliyi Baş Katibdən, onun müavinlərindən və əməkdaşlarından ibarətdir. Baş Katib və onun müavinləri İnzibati Şura tərəfindən 6 il müddətinə seçilirlər.

Beynəlxalq Mərkəz birbaşa mübahisələrə baxılması və həll edilməsi ilə məşğul olmur, mübahisələrə Konvensiyaya əsasən yaradılmış arbitraj və barışıq komissiyalarında (konsiliator) baxılır. Mərkəz vasitəçilərin və arbitrlərin siyahısını tərtib edir, hər bir dövlət (Konvensiyanın üzvü olan dövlət) siyahıya altı il müddətinə dörd namizəd daxil etmək hüququna malikdir. İnzibati Şuranın Sədrinin (Beynəlxalq Bankın Prezidentinin) qərarı ilə həmin siyahıya əlavə olaraq on namizədin adı salınır. Lakin mübahisə iştirakçıları adı siyahıda olmayan şəxsləri də arbitr kimi təyin etməyə haqlıdırlar, bir şərtlə ki, həmin şəxslər Konvensiyanın 14-cü maddəsinin tələblərinə cavab versin, hər bir halda isə arbitraj tərkibinin sədri Mərkəzin siyahısında olan arbitrlər sırasından təyin edilir.

Beynəlxalq Mərkəz bir qayda olaraq Konvensiya iştirakçıları arasında investisiya qoyuluşu ilə bağlı yaranan mübahisələrə baxılmasını təşkil edir, lakin 1979-cu ildə qəbul edilmiş Əlavə prosedur Qaydalarına *(Additional Facilities Rules)* müvafiq olaraq Katiblik Vaşinqton Konvensiyasının hüdudlarından kənara çıxan mübahisələrə də baxılmasını təşkil edə bilər (bura «adi kommersiya mübahisələri»nə

baxılması səlahiyyəti və Konvensiya üzvü olmayan dövlətlər və şəxslər arasındakı mübahisələr də aid edilmişdir).

Beynəlxalq Mərkəz (İCSİD) mübahisələrə bir qayda olaraq 1984-cü il tarixli **Mübahisələrə arbitrajda baxılması haqqında Qaydalara** müvafiq olaraq baxır. Arbitraj Baş Katibə ərizənin verilməsi ilə başlayır. Ərizədə tərəflər, mübahisənin mahiyyəti, arbitraj sazişi, tətbiq olunmalı hüquq, tələbin predmeti və məbləği, arbitrajın yeri və keçiriləcəyi dil haqqında məlumatlar öz əksini tapmalıdır.

Mərkəzdə mübahisələrə bir qayda olaraq üç arbitrdən ibarət tərkibdə baxılır, hər bir tərəf bir arbitr təyin edir və arbitraj tərkibinin sədri tərəflərin razılığı əsasında təyin edilir, tərəflər arasında belə razılıq olmadıqda tərkib sədri İnzibati Şuranın Sədri tərəfindən təyin edilir.

Vaşinqton Konvensiyasının 39-cu maddəsinə uyğun olaraq işə baxan arbitrlər əsasən mübahisə iştirakçılarının mənsub olduğu dövlətə aid olmamalıdırlar, lakin bu müddəa tərəflər arasında xüsusi razılaşma olduğu hallara şamil olunur.

İşə baxılması tərəflərin razılaşması əsasında hər hansı bir yerdə keçirilə bilər, lakin tərəflər arasında arbitrajın keçirilməsi yeri ilə bağlı razılaşma olmadıqda işə Mərkəzin yerləşdiyi Vaşinqton şəhərində baxılır. Beynəlxalq Mərkəzdə işlərə bir qayda olaraq ingilis, ispan və fransız dillərində baxılır.

Konvensiyanın 41-ci maddəsinə uyğun olaraq arbitraj özü öz səlahiyyətini müəyyən edə bilər («Comptens – Competens»). Tərəflər arbitrajda işə baxılması Reqlamenti barədə razılığa gələ bilərlər, belə razılıq olmadıqda isə işə 1984-cü il tarixli «Arbitrajda mübahisələrə baxılması haqqında Qaydalar»a müvafiq olaraq baxılır.

İş üzrə qətnamə arbitrlərin səs çoxluğu ilə qəbul olunur və qətnamənin surəti Baş Katib tərəfindən tərəflərə göndərilir. Qətnamə qətidir və Konvensiyada göstərilən hallar istisna olmaqla ondan şikayət verilə bilməz. Konvensiyada isə göstərilir ki, qətnamədən razı olmayan tərəf qətnamə çıxarılan gündən 4 ay müddətində ondan Baş Katibə şikayət verə bilər Şikayəti alan Baş Katib ona baxılması üçün üç nəfərdən ibarət xüsusi Komitə təyin edir, həmin Komitə qətnaməni tam və ya qismən ləğv edə bilər və ya tərəflər müraciət etdikdə yeni arbitraj təyin edə bilər.

Vaşinqton Konvensiyası arbitrajın qətnaməsinin icrasının Nyu-York Konvensiyasından fərqli qaydasını müəyyən edir, belə ki, Vaşinqton Konvensiyasına əsasən iştirakçı dövlətlərin məhkəmələri arbitraj qətnaməsinin icrasından imtina edə bilməz və onu sözsüz icra etməlidirlər.

## *§ 7. Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsi*

1998-ci il tarixli Almaniya Mülki Prosessual Məcəlləsi ticarət dövriyyəsində arbitrajın rolunu müəyyən etməklə dövlət tənzimlənməsində onun prinsiplərini təsbit etdi.

Almaniyada qanunvericiliyin və məhkəmə təcrübəsinin inkişafı həmin ölkəni arbitraja meyilli ölkələrdən biri kimi səciyyələndirdi.

Almaniyada 1998-ci ildə qəbul edilən Arbitraj haqqında yeni Qanun Beynəlxalq Kommersiya arbitrajı haqqında YUNSİTRAL-ın Nümunəvi Qanununun müddəalarını özündə əks etdirdi. Həmin ildə həmçinin Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamenti də qəbul edilmiş və 01 iyul 1998-ci ildən qüvvəyə minmişdir. Arbitraj Reqlamentinin hazırlanmasında Arbitraj haqqında Qanundan və YUNSİTRAL-ın Nümunəvi Qanunundan geniş istifadə edilmişdir.

Reqlamentin 1-ci paraqrafına əsasən Tərəflər öz mülahizələrilə arbitrləri seçirlər və təyin edirlər. Tərəflər başqa qayda barədə razılığa gəlməyiblərsə, arbitraj tərkibinin sədri və ya təkbaşına arbitr hüquqşünas olmalıdır.

Alman Arbitraj İnstitutu arbitrlərin seçilməsi üçün sorğu üzrə təqdimatlar verir.

Tərəflər arasında digər razılıq yoxdursa, Arbitraj Məhkəməsi üç arbitrdən ibarətdir.

Reqlamentin 6-cı paraqrafına uyğun olaraq İddia, Alman Arbitraj İnstitutunun katibliklərindən birinə iddiaçı tərəfindən təqdim olunur. Arbitraj araşdırması, iddia ərizəsinin Alman Arbitraj İnstitutunun katibliklərdən birinə daxil olduğu andan başlanır.

İddia qaldırılarkən iddiaçı Alman Arbitraj İnstitutuna Alman Arbitraj İnstitutunun inzibati yığımını və iddia ərizəsi Alman Arbitraj İnstitutunun katibliyinə daxil olan gün qüvvədə olan xərclər cədvəlinə (§ 40-ın 5-ci bəndinə Əlavə) uyğun olaraq arbitrlər üçün əvvəlcədən avans ödəməlidirlər.

Alman Arbitraj İnstitutunun inzibati yığımı və arbitrlər üçün avans ödənməmişdirsə, Alman Arbitraj İnstitutunun katibliyi iddiaçıya hesab göndərir və iddiaçının onun ödəməsi üçün vaxt müəyyən edilir. Alman Arbitraj İnstitutunun katibliyinin müvafiq olaraq artırıla bilən, müəyyən etdiyi vaxtda ödəmə aparılmadıqda, iddiaçının öz iddia ərizəsini təkrar təqdim etmək hüququna toxunulmadan araşdırma dayandırılır.

Reqlamentin 12-ci paraqrafına müvafiq olaraq İddia ərizəsinin çatdırılması ilə eyni vaxtda Alman Arbitraj İnstitutunun katibliyi cavabdehdən tələb edir ki, o da arbitr təyin etsin. Əgər cavabdeh tərəfindən arbitrin təyin edilməsi Alman Arbitraj İnstitutunun katibliyinə cavabdehin iddia ərizəsini almasından 30 gün ərzində daxil olmazsa, iddiaçı arbitrin Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsi tərəfindən təyin edilməsini xahiş edə bilər.

Cavabdehin xahişi ilə Alman Arbitraj İnstitutunun katibliyi göstərilən vaxtı uzada bilər. Arbitrin təyin edilməsi, göstərilən müddət bitdikdən sonra da vaxtında hesab edilə bilər, o halda ki, bu təyinat Alman Arbitraj İnstitutunun katibliyinə, iddiaçının Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsinə arbitr təyin etmək xahişindən əvvəl daxil olsun.

Tərəf təyin etdiyi arbitrlə, Alman Arbitraj İnstitutunun katibliyi bu təyinat barədə məlumat aldıqdan dərhal sonra əlaqə saxlayır.

Tərəflərin təyin etdikləri arbitrlər arbitraj tərkibinin sədrini təyin edirlər və ləngitmədən bu təyinat barədə Alman Arbitraj İnstitutunun katibliyinə məlumat verirlər. Arbitraj heyətinin sədrini təyin edərkən arbitrlər tərəflərin bir-birinə uyğun gələn istəklərini nəzərə almalıdırlar. Arbitraj məhkəməsi tərkibinin sədrinin təyin edilməsi barədə məlumat Alman Arbitraj İnstitutunun katibliyinin tələb etdiyi vaxtdan sonra 30 gün ərzində Alman Arbitraj İnstitutunun katibliyinə daxil olmadıqda tərəflərin hər biri Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsindən arbitraj tərkibinin sədrinin təyin edilməsini xahiş edə bilər. Təyinat o halda vaxtında hesab edilir ki, belə təyinat Alman Arbitraj İnstitutunun katibliyinə, tərəflərdən birinin AAİ-nin arbitr təyin etmək üzrə Komitəsinə arbitraj tərkibinin sədrinin təyin olunması xahişindən əvvəl daxil olsun.

Reqlamentin 15-ci paraqrafının tələbinə əsasən Arbitr qərəzsiz və müstəqil olmalıdır; bu zaman o, heç bir göstərişlə əlaqədar olmamalıdır.

Arbitrajın yeri ilə bağlı Reqlamentin 21-ci paraqrafına uyğun olaraq Arbitrajın yeri barədə tərəflər razılığa gəlmədiyi halda, belə yeri arbitraj tərkibi müəyyən edir.

Bu paraqrafın 1-ci bəndinin tələblərinə baxmayaraq, tərəflər arasında digər razılıq yoxdursa, arbitraj tərkibi iş üzrə dinləmənin keçirilməsi, şahidlərin, ekspertlərin və ya tərəflərin dindirilməsi üçün, onun üzvləri arasında məsləhətləşmələrin aparılması, əmlaka baxış keçirilməsi və ya sənədlərlə tanışlıq üçün münasib hesab etdiyi istənilən yerdə yığışa bilər.

Tərəflər özləri arbitraj araşdırmasında istifadə ediləcək dil və ya dillər barədə razılığa gələ bilərlər. Belə razılaşma olmadıqda arbitraj tərkibi araşdırmada istifadə edilməli olan dil və ya dilləri müəyyən edir. Əgər digər hal nəzərdə tutulmayıbsa, tərəflər arasında belə razılaşma və ya arbitraj tərkibinin qərarı, tərəflərin istənilən yazılı ərizəsində, işin dinlənilməsinə və istənilən arbitraj qətnaməsinə, arbitraj tərkibinin digər qərarına və başqa məlumata aiddir.

Arbitraj tərkibi istənilən ekspert rəyləri və başqa sənədli sübutların tərəflərin razılaşdıqları və ya arbitraj məhkəməsinin müəyyən etdiyi dilə və ya dillərə tərcümə olunmasına sərəncam verə bilər.

Reqlamentin 23-cü paraqrafı tətbiq edilməli olan hüquqa həsr olunmuşdur. Belə ki, Arbitraj tərkibi mübahisəni tərəflərin mübahisənin mahiyyəti üzrə tətbiq edilə bilən, seçilmiş hüquq normalarına uyğun olaraq həll edir. Tərəflər birbaşa formada başqa hallar barədə razılığa gəlmədikdə, hər hansı dövlətin hüququ və ya hüquq sisteminin göstəricisi kollizion normalar kimi yox, həmin dövlətin maddi hüququna aid normalar kimi izah edilməlidir.

Tərəflərin hər hansı göstərişi olmadıqda, Arbitraj tərkibi araşdırma predmetinin daha sıx bağlı olduğu dövlətin qanununu tətbiq edir.

Arbitraj tərkibi, yalnız tərəflər ona birbaşa belə səlahiyyət verdikdə, *ex aequo et bono* və ya «barışıq vasitəçiliyi» qərarını qəbul edir. Belə səlahiyyət Arbitraj Məhkəməsində mübahisənin həll olunmasına qədər verilə bilər.

Arbitraj tərkibi bütün hallarda müqavilənin şərtlərinə müvafiq olaraq və bu əqd tətbiq edilən ticarət ənənələrini nəzərə almaqla qərar qəbul edir.

Reqlamentin 32-ci paraqrafına əsasən araşdırmanın istənilən mərhələsində Arbitraj tərkibi mübahisənin və ya ayrı-ayrı mübahisəli məsələlərin barışıq sazişilə həll olunmasına çalışmalıdır.

Arbitraj araşdırmasının gedişində tərəflər mübahisəni həll edirsə, Arbitraj tərkibi araşdırmanı dayandırır. Əgər barışıq sazişinin məzmunu ictimai qaydalara *(order rublic)* zidd deyilsə, Arbitraj tərkibi tərəflərin xahişilə bu barışığı razılaşdırılmış şərtlərlə Arbitraj qərarı ilə rəsmiləşdirir.

Razılaşdırılmış şərtlər əsasında Arbitraj qərarı 34-cü paraqrafın qaydalarına müvafiq çıxarılmalıdır və onun məzmununda Arbitraj qərarı olması göstərilməlidir. Belə Arbitraj qərarı mübahisənin mahiyyəti üzrə qəbul edilmiş istənilən başqa qərarla eyni qüvvəyə malikdir.

34-cü paraqrafa müvafiq olaraq Arbitraj qətnaməsi yazılı şəkildə çıxarılmalı və təkbaşına arbitr və ya arbitrlər tərəfindən imzalanmalıdır. Arbitraj araşdırması bir neçə arbitr tərəfindən aparıldığı halda Arbitraj tərkibinin arbitrlər çoxluğunun (olmayan imzaların səbəbini göstərmək şərtilə) imzalarının olması kifayətdir.

Arbitraj qətnaməsində Arbitraj araşdırmasının tərəflərinin, onların prosessual səlahiyyətli nümayəndələrinin, həmçinin, həmin Arbitraj qətnaməsini çıxaran arbitrlərin tam adları olmalıdır.

Tərəflər başqa hal barədə razılığa gəlməyiblərsə və yaxud belə qərar 32-ci paraqrafın 2-ci bəndində nəzərdə tutulduğu kimi razılaşdırılmış şərtlər əsasında çıxarılmışdırsa, Arbitraj qətnaməsində motivlər göstərilməlidir.

Arbitraj qərarında onun tarixi və Arbitrajın yeri göstərilməlidir. Arbitraj qətnaməsi bu tarixdə və bu yerdə çıxarılmış hesab edilir.

Arbitraj qətnaməsi qətidir və tərəflər üçün qanuni qüvvəyə minmiş məhkəmə qərarıdır.

Arbitraj qətnaməsi yalnız tərəflərin və Alman Arbitraj İnstitutunun yazılı icazəsi ilə dərc edilir. Tərəflərin, prosessual səlahiyyətlilərin və arbitrlərin adı, həmçinin, digər fərdi məlumatların dərc olunması yolverilməzdir.

Tərəflər, arbitrlər və Alman Arbitraj İnstitutunun Katibliyində arbitraj araşdırması üzrə təhkim olunmuş şəxslər arbitraj araşdırmasının aparılması ilə bağlı şəxslər barəsində və xüsusilə də araşdırmada iştirak edən tərəflər, şahidlər, ekspertlər və başqa sübutlar barəsində məxfiliyi qorumalıdırlar. Araşdırmaların iştirakçıları tərəfindən cəlb olunmuş şəxslər də məxfiliyi qorumağa borcludurlar.

Alman Arbitraj İnstitutuna arbitraj araşdırması barədə informasiyanı statistik məlumatlar sırasında, bu informasiya arbitraj araşdırmasında iştirak edən şəxslərin tanınmasını istisna edirsə, dərc etməsinə icazə verilir.

### *§ 8. RF-nın Sənaye – Ticarət Palatası yanında Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi*

Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin (ÜMİK) və Xalq Komissarları Sovetinin 17 iyun 1932-ci il tarixli dekreti ilə xarici ticarət sahəsində yaranan mübahisələrin həll edilməsi üçün SSRİ Sənaye – Ticarət Palatasının yanında Xarici Ticarət Arbitraj Komissiyası (XTAK) yaradıldı. XTAK-ın ilk Reqlamenti 1932-ci ildə təsdiq olunmuşdu və

1975-ci ildə ikinci Reqlament qəbul edildi. 1988-ci ildə XTAK-nın adı dəyişdirilərək Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi (BKAM) adlandırıldı və onun yeni sayca 3-cü Reqlamenti qəbul edildi.

Hazırda BKAM «Beynəlxalq Kommersiya Arbitrajı haqqında» RF-nın Qanuna və öz Əsasnaməsinə müvafiq olaraq fəaliyyət göstərir.

BKAM-ın orqanları onun Sədri, Rəyasət Heyəti və Katibliyidir. Məhkəmənin Sədri və onun müavinləri siyahıya daxil olan arbitrlərin ümumi yığıncağında 5 il müddətinə seçilirlər. Arbitrlərin siyahısı isə RF-nın Sənaye – Ticarət Palatası tərəfindən 5 il müddətinə təsdiq edilir.

Məhkəmənin Rəyasət Heyəti BKAM-ın Sədrindən, onun müavinlərindən, ümumi yığıncaq tərəfindən seçilən üç arbitrdən və həmçinin Sənaye - Ticarət Palatasının Prezidentinin təyin etdiyi şəxslərdən ibarətdir. Məhkəmənin Katibliyinə BKAM sədrinin razılığı ilə Sənaye – Ticarət Palatası tərəfindən təyin edilən məsul katib rəhbərlik edir.

BKAM-ın sonuncu və hazırda fəaliyyət göstərən Reqlamenti 8 dekabr 1994-cü ildə qəbul edilmişdir və 01 may 1995-ci ildə qanuni qüvvəyə minmişdir.

Reqlament Məhkəmənin təşkili və səlahiyyətini, arbitrlərin təyin edilməsi qaydasını, arbitraj prosesinin keçirilməsini, qətnamənin çıxarılması qaydasını və arbitraj xərcləri ilə bağlı prosedurları müəyyən edir.

Arbitraj araşdırması Məhkəməyə iddia ərizəsinin verilməsi ilə başlayır. İddia ərizəsində tərəflərin adları, ünvanları, iddia tələbi, iddianın qiyməti, arbitraj sazişi, seçilən arbitr və tətbiq olunacaq hüquq haqqında məlumat əks etdirilməlidir. İddiaçı iddia ərizəsini təqdim edərkən qeydiyyat rüsumu ödəməlidir, qeydiyyat rüsumu geri qaytarılmır.

Arbitraj rüsumunun avansı ödənilənə qədər iddia üzrə arbitraj araşdırması aparılır və iş hərəkətsiz qalır.

Cavabdeh iddia ərizəsinin surətini aldıqdan 45 gün müddətində rəy hazırlamalı və öz arbitrini təyin etməlidir. Cavabdeh həmçinin bu müddət ərzində qarşılıqlı iddia tələbini də təqdim etməyə haqlıdır.

Reqlamentə uyğun olaraq əgər tərəflər arasında işə təkbaşına arbitrin baxılmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaradılır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.

Qeyd etmək lazımdır ki, Reqlament yalnız əsas arbitrləri deyil, həmçinin iş üzrə ehtiyat arbitrlərin də təyin edilməsi qaydasını tənzim edir. Belə ki, cavabdeh iddia ərizəsinin surətini aldığı gündən 30 gün

müddətində seçdiyi arbitrin və ehtiyat arbitrin adlarını və soyadlarını və ya arbitrin və ehtiyat arbitrinin BKAM-ın Sədri tərəfindən təyin edilməsinə dair xahişini bildirməlidir.

Məhkəmə işə tərəflər arasında razılıq olmadıqda, Moskva şəhərində və rus dilində baxır.

Tərəflər, şifahi dinləmə keçirilmədən, yalnız yazılı materiallar əsasında mübahisənin araşdırılmasına dair razılığa gələ bilərlər.

Arbitraj Kollegiyası və ya təkbaşına arbitr işə baxılmasının sonunda qətnamə çıxarır, qətnamə səs çoxluğu ilə qəbul olunur. Arbitraj qətnaməsinin forma və məzmunu da Reqlamentdə müəyyən edilmişdir.

Arbitraj xərcləri və rüsumları haqqında Əsasnaməyə müvafiq olaraq qeydiyyat rüsumu 500 ABŞ dolları məbləğində müəyyən edilmişdir. Arbitraj rüsumu isə iddianın qiymətinə münasibətdə faizlə müəyyən edilir.

Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi ildə orta hesabla 400-500 işə baxır.

## *§ 9. Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi*

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış ölkələrdə beynəlxalq hüquqa, beynəlxalq təşkilatlara və birliklərə inteqrasiya prosesi güclənməyə başladı. Azərbaycan Respublikası da bu cəhətdən istisnalıq təşkil etmədi, belə ki, Azərbaycan Respublikası bir çox Konvensiyaları imzalamış və beynəlxalq təşkilatlara üzv olmuşdur. İnteqrasiya prosesi bir sıra yeni institutların, mərkəzlərin yaranmasını həyati zərurətə çevirmişdir. İnteqrasiya və qloballaşma prosesləri arbitraj institutlarının da yaranmasında özünü göstərirdi.

Məsələn, Ukraynada 24 fevral 1994-cü il tarixdə "Beynəlxalq Kommersiya Arbitrajı haqqında" qanun qəbul edilmiş və bu qanun əsasında Ukraynanın Sənaye-Ticarət Palatası yanında 2 arbitraj məhkəməsi – Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi və Dəniz Arbitraj Komissiyası yaradılmışdır.

Estoniyada Sənaye-Ticarət Palatası yanında Arbitraj Məhkəməsi haqqında 14 avqust 1991-ci il tarixli qanun qəbul edilmiş və həmin ildə Arbitraj Məhkəməsi yaradılmışdır. Hə-min illərdə Latviya və Gürcüstanda da Arbitraj məhkəmələri yaradılmışdır.

18 noyabr 1999-cu ildə "Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanunun qəbul olunması irəliyə doğru atılan bir addım olmasına baxmayaraq,

Azərbaycan Respublikasının ərazisində Arbitraj Məhkəməsi çox gec – 2003-cü ilin noyabr ayında təşkil olunmuşdur.

Bu qanuna əsasən Beynəlxalq Arbitraj Məhkəməsinin qəbul etdiyi qərarlara dövlət məhkəmələri tərəfindən nəzarət edilməsi (sübutların əldə edilməsi üçün dövlət məhkəmələrinə müraciət edilməsi (27-ci maddə), arbitrajın qərarından dövlət məhkəməsinə şikayət edilməsi (34-cü maddə)) və həmçinin, arbitraj qərarlarının məcburi icrası qaydasının dövlət məhkəmələri vasitəsilə müəyyən edilməsi qaydası nəzərdə tutulmuşdur. Qanun qəbulundan sonra Azərbaycanda arbitraj məhkəməsinin yaradılmasını zəruri edən bir sıra şərtlər mövcud idi.

Birincisi, arbitraj məhkəməsinin mövcudluğunu şərtləndirən qanunvericilik bazasının yaradılması; (Qanunvericilik bazasına "Beynəlxalq Arbitraj haqqında" Qanun, Mülki Proses-sual Məcəllə, "Xarici arbitraj məhkəmələrinin qətnamələrinin tanınması və icrası haqqında" 1958-ci il Nyu-York Konvensiyası və "Məhkəmə qərarlarının icrası haqqında" Qanun daxil-dir).

İkincisi, Azərbaycana xarici investisiya axınının güclənməsi, iri məbləğli neft müqavilələrinin imzalanması və həyata keçirilməsi, Bakı-Tiflis-Ceyhan kəmərinin çəkilməsi üzrə müqavilənin imzalanması və icrasına başlanması, İpək yolu (TRASEKA) layihəsinin reallaşdırılması;

Üçüncüsü, ölkədə azad sahibkarlıq mühitinin çətinliklə də olsa formalaşması, mikroiqtisadi strukturların yaranması, yerli sahibkarlarla xarici hüquqi şəxslər və sahibkarlar arasında iqtisadi-ticarət münasibətlərinin inkişafı;

Dördüncüsü, beynəlxalq ticarət münasibətlərində, işgüzar iqtisadi münasibətlərdə bu və ya digər məsələlər üzrə yaranan münaqişələrin Azərbaycandan çox-çox uzaqlarda yerləşən və yerli sahibkarlar üçün bir sıra çətinliklər doğuran (yol xərcləri, işə baxılmasının naməlum proseduru, dil problemləri və s.) məhkəmələrdə deyil, Azərbaycanda yerləşən və dövlət qurumları ilə prosessual bağlılığı olmayan, müstəqil, ədalətli, subyektivlikdən uzaq, sadə işə baxılması proseduru olan bir məhkəmə orqanının yaradılmasını zəruri edirdi.

Belə bir orqan artıq yaradılmışdır, bu Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsidir (BKAM).

BKAM daimi əsaslarla fəaliyyət göstərən arbitraj məhkəməsidir və Bakı şəhərində fəaliyyət göstərir.

BKAM-ın yaranması Azərbaycan cəmiyyəti və hüquq aləmi üçün böyük hadisə olmaqla, hüquqi dövlət quruculuğu yolunda irəliyə doğru atılmış bir addımdır və Azərbaycanda xarici investisiyaların, yerli

sahibkarlıq subyektlərinin hüquqlarının müdafiə olunmasında böyük əhəmiyyətə malikdir.

BKAM-ın təşkilati-hüquqi problemlərinin həlli ilə paralel olaraq hüquqi maarifləndirmə istiqamətində geniş izahat işlərinin aparılması, hüquq ictimaiyyətinin və sahibkarlar təbə-qəsinin qanunvericilik materialları, beynəlxalq təcrübə və arbitraj araşdırmalarının elmi-praktiki aspektləri ilə tanış edilməsi qarşıda duran mühüm vəzifələrdən biridir.

BKAM-ın Əsasnaməsinin 1-ci maddəsinə əsasən Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi 18 noyabr 1999-cu il «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununa əsasən öz fəaliyyətini könüllülük əsasında həyata keçirən müstəqil, daimi fəaliyyət göstərən arbitraj təşkilatıdır.

BKAM-a tərəflərin razılığı ilə xarici ticarət və beynəlxalq iqtisadi əlaqələrin digər növlərinin həyata keçirilməsindən yaranan müqavilə və digər mülki-hüquqi münasibətlərə dair mübahisələr (əgər tərəflərdən ən azı birinin kommersiya müəssisəsi xaricdə yerləşərsə), həmçinin Azərbaycan Respublikasının ərazisində yaradılmış xarici investisiyalı və beynəlxalq birlik və təşkilatların öz aralarında və ya onların iştirakçıları arasında mövcud olan mübahisələr, eləcə də onlarla Azərbaycan Respublikasının digər hüquq subyektləri arasındakı mübahisələr verilə bilər.

Mülki-hüquqi münasibətlərdən yaranan mübahisələrə, xüsusilə, malların alqı-satqısına (çatdırılmasına), işlərin həll edilməsinə, xidmətlərin göstərilməsinə malların və (və ya) xidmətlərin mübadiləsinə, malların və sərnişinlərin daşınmasına, ticarət nümayəndəliyinə və vasitəçiliyinə, icarəyə (lizinqə), elmi-texniki mübadiləyə, yaradıcılıq fəaliyyətinin digər nəticələrinin mübadiləsinə, sənaye və digər obyektlərin yaradılmasına, lisenziyalı əməliyyatlar, investisiyalara, kredit-hesablaşma əməliyyatlarına, sığortaya (təkrar sığortaya), müştərək sahibkarlığa, sənaye və sahibkarlıq kooperasiyasının digər formalarına dair münasibətlərdən yaranmış mübahisələr və s. kommersiya münasibətlərindən irəli gələn mübahisələr BKAM-ın həllinə verilə bilər.[1]

BKAM mübahisələrə, tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisələrin həlli üçün yazılı Saziş və ya müqavilə qeyd-şərti olduqda Əsasnaməyə uyğun olaraq baxılır.

---

[1] Vidadi Mirkamal "Arbitraj sazişi", Bakı, 2005 s.42

Mübahisənin BKAM-a verilməsi barədə mütləq tərəflər arasında arbitraj sazişi olmalıdır.

**Arbitraj sazişi** – tərəflər arasında hər hansı bir məsələ barədə yaranmış və ya yarana biləcək bütün və ya müəyyən mübahisələrin, onların müqavilə xarakteri daşıyıb-daşımamasından asılı olmayaraq, arbitraja verilməsi haqqında tərəflərin razılığıdır. Saziş müqavilədə arbitraj qeyd-şərti (əlavə bir müddəa şəklində) və ya ayrıca bir Saziş şəklində bağlanıla bilər. Saziş yazılı şəkildə bağlanılır.

Mübahisələrin BKAM-a verilməsinə dair Saziş – tərəflərin imzaladığı sənəddə öz əksini taparsa, yaxud bu razılaşmanı təsbit etməyə imkan verən məktubların mübadiləsi yolu ilə, teletayp, teleqraf və ya digər elektron rabitəsi vasitələrindən istifadə etməklə məlumat verilərsə, yazılı şəkildə bağlanılmış hesab edilir. Arbitraj qeyd-şərtinə müqavilədə istinad edilməsi Arbitraj Sazişi hesab olunur. Bu şərtlə ki, müqavilə yazılı şəkildə bağlanmışdır və bu istinad həmin qeyd-şərti müqavilənin bir hissəsinə çevrilir.

Əsasnamənin 5-ci maddəsinə uyğun olaraq İşdə iştirak edən tərəflər və üçüncü şəxslər iştirakçı hesab olunurlar. Arbitraj araşdırmasının tərəfləri hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

Özünün mənafeyi naminə iddia qaldırmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər iddiaçı hesab olunurlar.

İddia tələbin yönəldiyi hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər cavabdeh hesab olunurlar.

Məhkəmə aktı ilə mənafeyinə toxunulan hər hansı bir şəxs tərəflərin razılığı ilə üçüncü şəxs qismində işə cəlb edilə bilər.

«Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla Əsasnamə ilə tənzimlənin məsələlərə heç bir məhkəmə müdaxiləsinə yol verilmir.

BKAM işin araşdırılmasını mümkün qədər, Arbitraj Kollegiyasının (və yaxud təkbaşına arbitrin seçilməsi və ya təyin edilməsi) bu Əsasnaməyə uyğun olaraq təşkil edildiyi andan 90 gün müddətində başa çatdırmalıdır. Zərurət olduqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) bu müddəti artıra bilər.

Əsasnamənin 17-ci maddəsinə əsasən BKAM-ın Sədri Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən, onun müavinləri arbitrlərin siyahısına daxil edilən şəxslərin iştirakı ilə keçirilən ümumi iclasda 5 il müddətinə seçilirlər.

BKAM-ın sədri BKAM-ı ölkə daxilində və xaricdə təmsil edir.

BKAM-ın sədri Əsasnamədə nəzərdə tutulan funksiyaları yerinə yetirir. BKAM-ın sədr müavinlərinin funksiyalarını BKAM-ın sədri müəyyən edir.

BKAM-ın sədri öz funksiyalarını yerinə yetirə bilmədikdə onun funksiyalarını BKAM-ın sədrinin birinci müavini, o olmadıqda isə, BKAM-ın sədrinin təyinatına əsasən müavinlərindən biri yerinə yetirir.

BKAM-ın Rəyasət Heyətinin tərkibi 7 nəfərdən ibarətdir. BKAM-ın Rəyasət Heyətinin tərkibinə BKAM-ın sədri, onun müavinləri, arbitrlərin siyahısına daxil edilən şəxslərin iştirakı ilə ümumi iclasda seçilmiş arbitrlərin üç üzvü daxildirlər. BKAM-ın sədri BKAM-ın Rəyasət Heyətinin sədridir.

BKAM-ın Rəyasət Heyəti hazırki Əsasnamə ilə səlahiyyətlərinə aid olan məsələləri həll edir, arbitraj təcrübəsini təhlil edir, BKAM-ın fəaliyyəti ilə bağlı məlumatların yayılması, BKAM-ın beynəlxalq əlaqələri və fəaliyyətinin digər məsələlərinə baxır. Rəyasət Heyətinin iclaslarında BKAM-ın məsul katibi məşvərətçi səsvermə hüququ ilə iştirak edir.

Rəyasət Heyətində sədr səsvermədə iştirak edir və axırıncı səs verir. Səslər bərabər olduqda sədrin səsi həlledicidir. Rəyasət Heyətinin qərarlarının icrası BKAM-ın sədri tərəfindən həyata keçirilir.

Katiblik hazırkı Əsasnaməyə əsasən BKAM-ın fəaliyyətini təmin etmək üçün zəruri olan funksiyaları həyata keçirir. Katibliyə BKAM-ın Sədri ilə razılaşdırılaraq Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin təyin etdiyi məsul katib başçılıq edir.

BKAM-ın məsul katibi ilə müavini, həmçinin, katibliyin digər işçiləri arasında iş bölgüsünü BKAM-ın məsul katibi aparır.

Katiblik BKAM-da işlərin baxılması ilə bağlı funksiyaların həyata keçirilməsində BKAM-ın Sədrinə tabe olur.

BKAM-a iddia ərizəsi verildikdə arbitraj araşdırması başlanılır.

BKAM-a iddia ərizəsi verildiyi tarix onun təqdim olunduğu gün, iddia ərizəsi poçt vasitəsi ilə göndərilərsə – göndərilən sənəddəki poçtun ştamp tarixi hesab olunur.

İddiaçı iddia ərizəsini və yaxud tələbin təmin edilməsinə dair vasitəli təqdim edərkən

qeydiyyat rüsumu ödəməlidir. Qeydiyyat rüsumu ödənilənə qədər iddia və ya vəsatət verilməmiş hesab edilir. Qeydiyyat rüsumu geri qaytarılmır.

İddiaçı hər bir iddia üçün avansla arbitraj rüsumu ödəməlidir. İddiaçı tərəfindən iddia ərizəsi verilərkən avans məbləği qeydiyyat rüsumu hesab edilir.

Arbitraj rüsumunun avans ödənilənə qədər iddia üzrə arbitraj araşdırması aparılmır və iş hərəkətsiz qalır.

Qeydiyyat və arbitraj rüsumlarının məbləği, ödənilməsi və müəyyənləşdirilməsi, həmçinin, arbitraj araşdırmasına dair digər xərclərin ödənilməsi qaydaları, hazırkı Əsasnamənin ayrılmaz hissəsi olan «Arbitraj xərcləri və rüsumları haqqında» Əsasnamə ilə müəyyən edilir.

Arbitraj xərcləri və rüsumları haqqında Əsasnaməyə müvafiq olaraq qeydiyyat rüsumu 300 ABŞ dollarının manata olan məzənnəsi məbləğində ödənilir. Növbəti arbitraj rüsumu ödənilərkən qeydiyyat rüsumu arbitraj rüsumu məbləğinə daxil edilir.

Qeydiyyat rüsumu geri qaytarılmır.

Həmin Əsasnamənin 3-cü maddəsinə əsasən Arbitraj rüsumu ABŞ dolları ilə aşağıdakı cədvələ uyğun hesablanır:

| **Mübahisənin qiyməti (ABŞ dolları)** | **Arbitraj rüsumu (ABŞ dolları)** |
|---|---|
| 20. 000 qədər | 1000 |
| 20.001 dən 100.000 qədər | 1000 + 20.000-dən yuxarı məbləği 4%-i |
| 100.001 dən 500.000 qədər | 4.200 + 100.000-dən yuxarı məbləğin 2%-i |
| 500.001 dən 1.000.000 qədər | 12.200 + 500.000-dən yuxarı məbləğin 1%-i |
| 1.000.001 dən 2.000.000 qədər | 17.200 + 1.000.000-dan yuxarı iəbləğin 0,4%-i |
| 2.000.001 dən 5.000.000 qədər | 21.200 + 2.000.000-dan yuxarı məbləğin 0,2%-i |
| 5.000.001 dən 10.000.000 qədər | 27.200 + 5.000.000-dan yuxarı məbləğin 0,1%-i |
| 10.000.001-dən yuxarı | 32.200 + 10.000.000-dan yuxarı məbləğin 0,05%-i |

Arbitraj araşdırması zamanı işin mürəkkəbliyi nəzərə alınaraq, arbitraj araşdırması uzun müddət və xərclər əhəmiyyətli dərəcədə artdıqda, BKAM-ın Sədrinin arbitraj rüsumunun artırılmasına dair qərar çıxarmaq hüququ vardır.

Arbitraj araşdırması arbitraj qətnaməsinin çıxarılması ilə qurtarır.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr mübahisə ilə bağlı bütün məsələlərin kifayət qədər araşdırıldığını hesab etsə, o, şifahi işəbaxmanı bitmiş elan edir və qətnamə çıxarır.

Qətnamə iclasda Arbitraj Kollegiyasının səs çoxluğu ilə çıxarılır. Çıxarılan qətnamə ilə razılaşmayan arbitr öz xüsusi rəyini, qətnaməyə əlavə ediləcək yazılı formada, ifadə edə bilər.

Qətnamə çıxarıldıqdan sonra onun nəticə hissəsi tərəflərə şifahi elan edilir, əgər onlar iştirak etmirsə, 3 gün ərzində onlara yazılı formada məlumat verilir.

Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) tərəfindən qətnamənin elan edilməsindən 10 gün müddətindən gec olmayaraq katiblik əsaslandırılmış qətnaməni tərəflərə göndərir.

Əsasnamədə həmçinin arbitraj qərarlarına yenidən baxılması qaydası müəyyən edilmişdir. Belə ki, Tərəflər arbitraj sazişində nəzərdə tutduqları halda Rəyasət Heyəti işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən verilmiş şikayətlərə və bu Əsasnamənin 32.5-ci bəndində nəzərdə tutulmuş şikayətlərə baxır.

Tərəflər yalnız arbitraj sazişində nəzərdə tutduqları halda işə təkbaşına baxan arbitrlərin və ya Arbitraj Kollegiyasının qətnamələrindən Rəyasət Heyətinə şikayət verilə bilər.

Tərəflərin Rəyasət Heyətinə verdiyi şikayət ərizəsi 5 gün ərzində katiblik tərəfindən işdə birlikdə Rəyasət Heyətinə təqdim edilir.

Rəyasət Heyəti arbitraj qətnamələrindən verilən şikayətlərə (şikayət verildiyi vaxtdan) 2 ay ərzində, digər qərarlardan verilən şikayətlərə 10 gün müddətində baxıb həll etməlidir.

Rəyasət Heyəti üzvlərinin 2/3 hissəsi iştirak etdikdə Rəyasət Heyətinin iclası səlahiyyətli sayılır. Səslər bərabər olduqda şikayət qəbul edilməmiş hesab olunur.

Rəyasət Heyətində işlərə baxılma qaydası Əsasnamə ilə müəyyən edilən qaydalara uyğun aparılır.

BKAM-ın qətnaməsi könüllü şəkildə və qətnamədə göstərilən qaydada və müddətdə icra edilir.

Tərəflərin Sazişində digər qayda müəyyən edilməyibsə, icra müddəti göstərilməyən qətnamə dərhal icra edilməlidir.

BKAM-ın qətnaməsinin icrası məcburidir və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun icra edilir.

Digər dövlətlərdə icra edilməli olan qətnamələrin icra edilməsinə və tanınmasına 10 iyun 1958-ci il tarixli «Xarici arbitraj məhkəmələrinin qətnamələrinin icra edilməsi və tanınması barədə» Nyu-York Konvensiyası təsdiq edilir.

# IV fəsil
# Arbitraj sazişi

## *§ 1. Arbitraj sazişinin anlayışı və növləri*

Tərəflər mülki-hüquqi müqavilə bağlayarkən bu müqavilənin icrası zamanı yarana biləcək mübahisələrin arbitraj məhkəməsində həll edilməsi barədə razılığa gələ bilərlər. Bununla müqavilənin subyektləri hazırda mövcud olmayan, lakin gələcəkdə yarana biləcək bir halın – mübahisənin harada həll edilməsi haqqında düşünür və onu razılaşdırırlar.

Mövcud və ya gələcəkdə yarana biləcək mübahisələrin arbitraj məhkəməsində baxılması barədə müqavilə subyektlərinin müqavilədə razılaşdırdıqları bənd arbitraj sazişi adlanır.

Beynəlxalq Arbitraj haqqında Qanunun 7-ci və Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Əsasnaməsinin 2-ci maddəsinə müvafiq olaraq arbitraj sazişi – tərəflər arasında hər hansı bir məsələ barədə yaranmış və ya yarana biləcək bütün və ya müəyyən mübahisələrin, onların müqavilə xarakteri daşıyıb daşımamasından asılı olmayaraq, arbitraja verilməsi haqqında tərəflərin razılığıdır.

Arbitraj sazişi müqavilədə ayrıca bir bənddə nəzərdə tutulduqda – **arbitraj qeyd-şərti** adlanır.

Tərəflər bağlanılan müqavilə üzrə yaranacaq mübahisə-lərin arbitrajda həll edilməsini müqavilədə deyil, ayrıca razılaşmada (sazişdə) nəzərdə tutduqda o, arbitraj razılaşması ad-landırılmalıdır.

Tərəflər müqavilə icra edilən zaman yaranan mübahisənin də arbitraj orqanlarında baxılması haqqında razılığa gələ bilərlər; bu halda işin arbitraj məhkəməsinə verilməsi ilə bağlı tərəflər arasında bağlanan razılaşma **münsif qeydi** və ya **kompromis** adlandırılır.[1]

Arbitraj təcrübəsində münsif qeydi və ya kompromisdən çox az istifadə olunur, tərəflər daha çox arbitraj qeyd-şərtinə və arbitraj razılaşmasına üstünlük verirlər.

Arbitraj qeyd-şərti bir qayda olaraq ikitərəfli müqavilələrdə nəzərdə tutulur, lakin təcrübədə çoxtərəfli muqavilələrdə də arbitraj qeyd-şərtinə rast gəlinir. Təcrübədə "çoxtərəfli arbitraj qeyd-şərtlərinə" müxtəlif assosiasiyaların, birjaların, fondların təsis sənədlərində rast gəlinir.

**"Çoxtərəfli qeyd-şərtin"** nəzəri əsasları arbitraj məhkəməsinin qarışıq hüquqi təbiətinin (sui generis) tanınması ilə müəyyən olunur; belə ki, sazişin etibarlılığı, forması maddi hüquq (mülki hüquq) normaları əsasında müəyyən olunur. Ona görə də müəssisəni təsis edən

[1] Vidadi Mirkamal "Arbitraj sazişi", Bakı, 2005 s.43

təşkilatlar təsis müqaviləsində ayrıca olaraq yaranacaq mübahisələri arbitraj baxışına vermək haqqında razılığa gəlirlər.[1]

**Təcrübədə birtərəfli arbitraj qeyd-şərtinə** də rast gəlinir, birtərəfli qeyd-şərt adətən agent müqavilələri bağlanarkən nəzərdə tutulur. Belə ki, tərəflər protokol imzalayaraq agentin konkret vəzifələri, agentə ödəniləcək məbləğin müddəti və s. şərtlərlə yanaşı agentin haqqının vaxtında ödənilməyəcəyi təqdirdə onun iddia ilə istədiyi arbitraj məhkəməsinə müraciət etməsi haqqında qeyd-şərti də razılaşdırırlar.[2]

Ticarət nümayəndəsi (agent) haqqında müqaviləyə uyğun olaraq tapşıran agentin gördüyü işə görə haqqını vaxtında ödəmir və agent birtərəfli qeyd-şərtə görə iddia ilə arbitraj məhkəməsinə müraciət edir. Lakin tapşıran arbitraj qeyd-şərtinin etibarsız hesab edilməsini və arbitrajın səlahiyyətsiz sayılması barədə məsələ qaldırır və göstərir ki, arbitraj qeyd-şərti birtərəflidir. Prof. V.S. Pozdnyakovun fikrincə, arbitraj qeyd-şərtinin birtərəfli olması mübahisənin predmeti olan hüquq münasibətlərinin birtərəfliyindən irəli gəldiyi üçün tapşıranın arqumentləri əsassızdır və məhkəmə tərəfindən qəbul edilməməlidir.[3]

Fitkrimizcə, prof. V.S.Pozdnyakov haqlıdır. Arbitraj qeyd-şərtlərinin birtərəfli, ikitərəfli və çoxtərəfli olması müqavilə münasibətlərinin iştirakçılarının sayı ilə müəyyən olunur.

Arbitraj qeyd-şərti məzmununa görə alternativ qeyd-şərt ola bilər, belə ki, tərəflər yaranacaq mübahisəni bir deyil, bir neçə arbitraj məhkəməsinə verə bilərlər.

Hüquq ədəbiyyatında alternativ arbitraj qeyd-şərtinin iki növü fərqləndirilir:

1) tərəflərdən birinə və ya hər ikisinə mübahisə yaranacaq təqdirdə bir neçə arbitraj məhkəməsinə müraciət etmək imkanının verilməsi;

2) Yaranacaq mübahisənin dövlət məhkəməsinə və ya nəzərdə tutulan arbitraj məhkəməsinə verilməsi.[4]

Bir sıra dövlətlərin arbitraj haqqında qanunvericiliyində arbitraj qeyd-şərti və münsif qeydi arasında heç bir fərq qoyulmur. İngiltərənin 1950-ci il tarixli (1975 və 1979-cu illərdə ona əlavə və dəyişikliklər edilmişdir) Arbitraj haqqında Qanunun 32-ci bölməsinə müvafiq olaraq

---

[1] Виноградова Е.А. Правовые основы организации и деятельности третейского суда. Автореф. дисс. Канд. юрид. наук. М., 1994. с.28.

[2] Арбитражный процесс, М., 1998. с.410.

[3] Поздняков В.С. Международный коммерческий арбитраж в РФ. Закон. Регламент. Комментарий. М., 1996., с.18

[4] Арбитражный процесс. М., 1998, с.411.

arbitraj sazişi – hazırda mövcud olan və ya gələcəkdə yaranacaq mübahisənin arbitraj baxışına verilməsi haqqında tərəflərin razılaşmasıdır.[1]

ABŞ-ın 1925-ci il tarixli Arbitraj haqqında federal qanununun 2-ci paraqrafına uyğun olaraq ticarət əqdlərində və dəniz ticarəti sahəsində bağlanan əqdlərdə gələcəkdə yaranacaq və ya artıq yaranmış mübahisələrin arbitrajın həllinə verilməsi barədə razılaşma etibarlıdır, icra olunmalıdır və geri götürülə bilməz. ABŞ-ın bir sıra ştatlarının arbitraj qanunvericiliyində indiyədək də yalnız artıq yaranmış mübahisələrə arbitrajda baxılması haqqında razılaşmanın icra edilməsinin mümkünlüyü barədə normalar vardır.

Hətta, ABŞ-ın İllinoys ştatının arbitraj qanunvericiliyində 1961-ci ilədək müqavilədə arbitraj barədə razılaşmanı qadağan edən norma mövcud idi.[2]

Almaniyada mübahisənin arbitrajda baxılması haqqında razılaşma həm yaranmış mübahisələr, həm də gələcəkdə yarana biləcək mübahisələr üzrə bağlanıla bilər.

Almaniyanın mülki mühakimə icraatı haqqında qanunvericiliyin 1026-cı paraqrafına uyğun olaraq gələcəkdə yarana biləcək mübahisələrə arbitrajda baxılması haqqında razılaşma yalnız əvvəlcədən müəyyən edilmiş hüquq münasibətləri və ondan doğan mübahisələr üzrə etibarlıdır və hüquqi qüvvəyə malikdir.[3]

Bir sıra ölkələrdə münsif qeydi işlərin arbitrajda araşdırılmasının yeganə forması kimi tanınmışdır və yalnız sonralar arbitraj qeyd-şərti arbitraj sazişinin qanuni forması kimi təşəkkül tapmışdır. Məsələn, Fransada arbitraj qeyd-şərti yalnız kommersiya işləri üzrə 1925-ci ildən başlayaraq tanınmış və hüquqi qüvvə almışdır, Kvebekdə (Kanada) isə arbitraj qeyd-şərti arbitraj sazişi kimi 1966-cı ildə tanınmışdır.[4]

Fransada kommersiya müqaviləsində nəzərdə tutulan arbitraj qeyd-şərti çox geniş təfsir doğuran ümumi qayda və məsələlər üzrə bağlandıqda etibarsız sayılır və icra olunmur. Məsələn, patentlərin verilməsi ilə bağlı xarici ticarət müqaviləsində arbitraj qeyd-şərtinin nəzərdə tutulması Fransa qanunvericiliyinə görə mümkünsüzdür.

Kanadanın Fransız dilli əyaləti olan Kvebekdə 1966-cı ilə kimi arbitraj sazişi yalnız münsif qeydi formasında bağlana bilərdi. Kanadanın qalan doqquz əyalətində və iki federal ərazisində isə həm

[1] Крылова Н. Статус суда в Великобритании / Вестник Верховного Суда СССР, 1991, № 5, с.25.
[2] Егоров С. Верховный Суд США / Вестник Верховного Суда СССР, 1991, №9, с.43.
[3] Пучинский В.К. Принципы буржуазного гражданского процессуального права, М., 1988, с.79
[4] Боботов С.В. Правосудие во Франции. М., 1994, с.91.

arbitraj qeyd-şərti, həm də münsif qeydi arbitraj sazişinin müstəqil növü kimi tanınır.

Kvebekin 1 sentyabr 1966-cı ildən qüvvəyə minən Mülki Prosessual Məcəlləsinin 951-ci maddəsinə uyğun olaraq arbitraj sazişi yazılı formada bağlanmalı idi, lakin qanunun bu tələbinə baxmayaraq məhkəmələr uzun müddət mülki-hüquqi müqavilələrə arbitraj qeyd-şərtinin daxil edilməsini ümumi hüququn pozulması kimi qiymətləndirirdi.[1]

Arbitraj qeyd-şərti, arbitraj razılaşması, münsif qeydi arbitraj sazişinin müstəqil növlərini təşkil edir və bir-birindən asılı deyildir.[2]

Tərəflərin arbitraj məhkəməsinə müraciət etməsi üçün göstərilən üç növ arbitraj sazişindən birinin olması kifayətdir. Arbitraj təcrübəsində bir kommersiya müqaviləsi üzrə həm arbitraj qeyd-şərtinin, həm də münsif qeydinin olması faktlarına rast gəlinir. Bu, o halda olur ki, kommersiya müqaviləsinin icrası üzrə yarana biləcək müəyyən növ mübahisələr üzrə tərəflər arbitraj qeyd-şərtini razılaşdırır, lakin həmin müqavilə üzrə yaranan və arbitraj qeyd-şərtində nəzərdə tutulmayan digər növ mübahisələr üzrə isə tərəflər münsif qeydini imzalayırlar. Göründüyü kimi, bir kommersiya müqaviləsi üzrə iki arbitraj sazişi bağlanmışdır, bu halda hər iki arbitraj sazişi (həm arbitraj qeyd-şərti, həm də münsif qeydi) bir-birindən asılı deyildir və hər ikisinin hüquqi qüvvəsi vardır, çünki bir kommersiya müqaviləsinin olmasına baxmayaraq, arbitraj sazişi müxtəlif növ münasibətlərin tənzim edilməsi üçün bağlanmışdır və hər iki növün müstəqil yaşamaq haqqı tanınmalıdır.

Arbitraj qeyd-şərtinə münasibətdə beynəlxalq təcrübə kifayət qədər müxtəlif və rəngarəngdir. İspaniya, Portuqaliya, Livan, Argentina Braziliya, Venesuela, Honduras, Dominikan Respublikası, Kosta-Rika, Panama, Salvador, Ekvador kimi ölkələrdə qanunvericiliyin və məhkəmə təcrübəsinin öyrənilməsi göstərir ki, arbitraj qeyd-şərtinin mövcudluğu mübahisəyə arbitraj məhkəməsində baxılması üçün kifayət deyildir. Tərəflərin bağladığı kommersiya müqaviləsində gələcəkdə yaranacaq mübahisənin arbitraj baxışına verilməsi barədə arbitraj qeyd-şərtinin olmasına baxmayaraq artıq yaranmış mübahisəyə arbitraj

---

[1] Джудитта Кордеро Мосс. "Автономия воли в практике международ-ного коммерческого арбитража", М., 1996, с.67.

[2] Hüquq ədəbiyyatında müəlliflər bir qayda olaraq arbitraj sazişinin 2 növünü fərqləndirirlər: arbitraj qeyd-şərti və münsif qeydi. Bu müəlliflər sırasına A.İ.Minakovu, V.A.Kabatovu, O.N.Sadikovu, K.L.Razumovu aid etmək olar. Fikrimizcə, arbi-traj razılaşması da arbitraj sazişinin müstəqil növü kimi tədqiq edilməlidir, çünki arbitraj razılaşması kommersiya müqaviləsində arbitraj qeyd-şərti olmadığı halda müstəqil saziş kimi bağlanır və gələcəkdə yaranacaq mübahisənin arbitraj institutu-na verilməsi üçün hüquqi baza rolunu oynayır.

qaydasında baxılmaq üçün mütləq əlavə olaraq münsif qeydinin olması zəruridir, özü də bir sıra hallarda münsif qeydinin notariatda təsdiq edilməsinin məcburiliyi qanunvericilikdə nəzərdə tutulmuşdur. Başqa sözlə, kommersiya müqaviləsi uzrə yaranacaq və yaranan mübahisələrə arbitrajda baxılması üçün həm arbitraj qeyd-şərtinin, həm də münsif qeydinin olması əsas şərtdir, bu şərtin yerinə yetirilməməsi arbitraj qeyd-şərtinin etibarsızlığına səbəb olur və mübahisəyə dövlət məhkəməsində aidiyyatı üzrə baxılır. Beləliklə, yuxarıda adı çəkilən ölkələrdə mübahisənin arbitraj baxışına verilməsinin məcburi şərti münsif qeydinin mövcudluğudur, bu halda arbitraj qeyd-şərti müqavilənin bir bəndi olmaqla münsif qeydinin bağlanması üçün ilkin şərt rolunu oynayır.[1]

Yuxarıda adı çəkilən ölkələrdə münsif qeydi üçün çox ciddi tələblər mövcuddur. Məsələn, Braziliyanın 1973-cü il tarixli Mülki Prosessual Məcəlləsinə uyğun olaraq münsif qeydində tərəflərin və arbitrlərin adları, soyadları, ünvanları, peşələri, mübahisənin mahiyyəti, iddianın qiyməti, arbitraj rüsumlarının və xərclərinin bölüşdürülməsi üzrə tərəflərin vəzifələri dəqiq olaraq göstərilməlidir, əks təqdirdə, MPM-nin 1074-cü maddəsinə görə, münsif qeydi etibarsız sayıla bilər.

Bu ölkələrin qanunvericiliyinə görə münsif qeydi işə dövlət məhkəməsində baxılana qədər və məhkəmə prosesində hakimin iştirakı ilə yazılı formada bağlana bilər.[2]

Perunun qanunvericiliyinə görə arbitraj qeyd-şərti o halda müstəqil saziş kimi tanına bilər ki, o xaricilərin iştirakçılardan biri olduğu kommersiya müqaviləsinin bir şərti kimi nə-zərdə tutulsun və həmin mübahisə Peru məhkəmələrinin müstəsna aidiyyətində olmasın (Peru MPM-nin 1158-1160-cı maddələri).

1923-cü il arbitraj qeyd-şərti haqqında Protokolun iştirakçısı olan dövlətlərdə (Braziliya, İspaniya, Portuqaliya) və 1975-ci il Beynəlxalq Kommersiya Arbitrajı haqqında Amerikaarası Konvensiyanın iştirakçısı olan dövlətlərdə (Panama, Paraqvay, Çili) yalnız beynəlxalq ticarət münasibətlərindən irəli gələn mübahisələr üzrə bağlanan arbitraj qeyd-şərti tanınır və icraya yönəldilir.[3]

Müqavilədə razılaşdırılan arbitraj qeyd-şərti əsasında münsif qeydinin bağlanmasından imtina edilməsinin hüquqi nəticələri adı çəkilən ölkələrin qanunvericiliyində müxtəlif qaydada həll edilir.

[1] Рубанов А.А. Теоретические основы международного взаимодействия национальных правовых систем. М., 1984, с.63.
[2] Решетников ФМ. Правовые системы стран мира. Справочник. М., 1993. с.190.
[3] Пучинский В.К. Принципы буржуазного гражданского проц. права, М., 1988. с.78.

Məsələn, Braziliya qanunvericiliyinə görə arbitraj məhkəməsinə müraciət etmək üçün münsif qeydini bağlamaqdan imtina edən tərəfə təzyiq edilməsinin heç bir hüquqi əsası yoxdur, bu halda müqavilə subyekti olan digər tərəf işin arbitraj məhkəməsinə verilməsinin pozulması nəticəsində ona dəyən zərərin ödənilməsi üçün dövlət məhkəməsinə iddia ilə müraciət edə bilər.

Kosta-Rikada isə məhkəmə təcrübəsi başqa yolla inkişaf edir, belə ki, kommersiya müqaviləsində arbitraj qeyd-şərtini imzalamış tərəflərdən biri işin arbitraj baxışına verilməsi üçün münsif qeydinin bağlanmasından imtina edərsə, digər tərəf bu barədə dövlət məhkəməsinə müraciət edə bilər və dövlət məhkəməsi də öz növbəsində qərar çıxararaq digər tərəfi münsif qeydini imzalamağa məcbur edə bilər və ya arbitraj qaydasında işə baxılması üçün arbitrlər təyin edə bilər. Bundan başqa, münsif qeydini bağlamaqdan imtina edən tərəfin təqsiri ucbatından digər tərəfə dəyən zərərin ödənilməsini məhkəmə öz qərarında təqsirkar tərəfin üzərinə qoya bilər.

Meksika və Perunun qanunvericiliyinə görə arbitraj qeyd-şərtini bağlayan tərəflərdən biri münsif qeydini imzalamaqdan imtina etdikdə, məhkəmə digər tərəfin xahişi ilə işə baxılması üçün arbitrlər təyin edə bilər.[1]

Son dövrlərə qədər qanunda dəqiq göstərilmədiyinə görə Yunanıstanda arbitraj qeyd-şərti arbitraj sazişinin müstəqil növü kimi tanınmırdı. Yunanıstan Mülki Prosessual Məcəlləsinin 111-ci maddəsinə müvafiq olaraq arbitraj sazişində arbitrlərin adları, mübahisənin bütün detalları ətraflı təsvir olunmalı idi, əks təqdirdə arbitraj sazişi etibarsız hesab olunurdu. Gələcəkdə yaranacaq mübahisələrin arbitrajda həlli üçün də bağlanan arbitraj sazişləri də etibarsız sayılırdı. 1968-ci ildə Yunanıstanda qəbul edilən Mülki Prosessual Məcəlləyə uyğun olaraq arbitraj qeyd-şərti və münsif qeydi arbitraj sazişinin 2 müxtəlif və müstəqil növü kimi qəbul olunur.[2]

İngiltərə, Danimarka. Norveç, Almaniya, Türkiyə, ABŞ və bir sıra digər dövlətlərin qanunvericiliyi hazırda formasından və növündən asılı olmayaraq arbitraj sazişinə (arbitraj qeyd-şərti, arbitraj razılaşması, münsif qeydi) eyni tələblər müəyyən etmiş və onların hər birini müstəqil növ kimi qəbul etmişdir.[3]

---

[1] Тимофеева Н.Г. Становление и развитие правовой системы Мексики / Правоведение, 1992, № 2, с.83

[2] Шинкарецкая Г.Г. Международная судебная процедура, М., 1992, с.57.

[3] Решетников Ф.М. Правовые системы стран мира. Справочник, М., 1993, с.176

Bir sıra dövlətlərin qanunvericiliyində (əsasən Latın Amerikası ölkələrində) arbitraj qeyd-şərtinə nisbətdə münsif qeydi qarşısında çox ciddi tələblər qoymuşdur.

Hollandiyanın və Fransanın qanunvericiliyində münsif qeydinin qüvvədə olması üçün müəyyən müddət nəzərdə tutulmuşdur, bu müddət ərzində arbitraj araşdırması aparılmalı və arbitraj qətnaməsi çıxarılmalıdır. Bundan başqa Fransa qanunvericiliyinə müvafiq olaraq münsif qeydi tərtib olunarkən mütləq arbitraj araşdırmasının predmeti olan mübahisənin mahiyyətinin və arbitrlərin adının göstərilməsi nəzərdə tutulmuşdur.

Arbitraj üzrə beynəlxalq razılaşmalarda (1923-cü il tarixli arbitraj qeyd-şərti haqqında Protokol, 1958-ci il tarixli Nyu-York Kovnensiyası, 1961-ci il tarixli Avropa Konvensiyası, 1975-ci il tarixli beynəlxalq kommersiya arbitrajı üzrə Amerikaarası Konvensiya) arbitraj qeyd-şərti, arbitraj razılaşması və münsif qeydi arasında heç bir fərq qoyulmur və hər üçü arbi-traj sazişinin müstəqil növü kimi qəbul olunur. Məsələn, 1961-ci il tarixli Avropa Konvensiyasının 1-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq mübahisənin arbitraj məhkəməsinə verilməsi haqqında arbitraj sazişi yazılı olaraq müqavilədə arbitraj qeyd-şərti və ya ayrıca olaraq arbitraj razılaşması formasında bağlana bilər. Bu müddəa 1958-ci il Nyu-York Konvensiyasının II maddəsinin 2-ci bəndində də nəzərdə tutulmuşdur.

Yuxarıda adı çəkilən Konvensiyaların arbitraj sazişi ilə bağlı müddəalarının arbitraj qeyd-şərtinin və münsif qeydinin müxtəlif dövlətlərin qanunvericiliyində eyni cür təfsir olunmasına çox böyük təsir göstərmişdir.

Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikası Qanununun 7-ci və Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Əsasnaməsinin 2-ci maddəsinə müvafiq olaraq, arbitraj sazişi müqavilədə arbitraj qeyd-şərti (əlavə bir müddəa şəklində) və ya ayrıca bir saziş şəklində bağlana bilər. Arbitraj sazişi yazılı formada bağlanılır.

BKAM-ın Əsasnaməsinin 2-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq mübahisənin BKAM-a verilməsinə dair Saziş – tərəflərin imzaladığı sənəddə öz əksini taparsa, yaxud bu razılaşmanı təsbit etməyi imkan verən məktubların mübadiləsi yolu ilə, teletayp, teleqraf və ya digər elektron rabitəsi vasitələrindən istifadə etməklə məlumat verilərsə, yazılı şəkildə bağlanmış hesab olunur. Arbitraj qeyd-şərtinə müqavilədə istinad edilməsi Arbitraj Sazişi hesab olunur, bu şərtlə ki, müqavilə

yazılı şəkildə bağlanmışdır və bu istinad həmin qeyd-şərti müqavilənin bir hissəsinə çevirir.

### *§ 2. Arbitraj sazişinin etibarlılığı şərtləri*

Arbitraj sazişi qanunla müəyyən olunan tələblərə cavab verməlidir.

Arbitraj sazişi tərəflərin daxil olduğu hüquq münasibətlərindən əmələ gələn mübahisələr üzrə bağlanmalıdır. Arbitraj araşdırması haqqında sazişi yalnız fəaliyyət qabiliyyətli tərəf bağlaya bilər. Dünyanın bir çox ölkələrində mülki fəaliyyət qabiliyyətinə həm hüquqi şəxslər, həm də fiziki şəxslər malikdirlər, lakin hüquqi və fiziki şəxslərin mülki fəaliyyət qabiliyyətinə malik olmanın şərtləri və məhdudlaşdırmalar qanunla müəyyən olunur. Məsələn, Fransanın və Belçikanın qanunvericiliyində bu ölkələrin dövlət xadimlərinin arbitraj sazişini bağlamaq hüququna məhdudiyyət qoyulması haqqında ayrıca norma vardır.[1]

Arbitraj sazişi mülki hüquqi müqavilənin bir növü olduğu üçün müqavilələrin bağlanması üçün tələb olunan tərəflərin iradə ifadəsinin könüllülüyü prinsipi bu saziş bağlanarkən tətbiq olunur. Arbitraj sazişinin iştirakçılarının iradəsinin formalaşması üçün normal şəraitin mövcudluğu zəruridir. Əgər saziş məcburetmə nəticəsində bağlanarsa, o etibarsız sayılmalıdır. Sadalanan müddəalar hamı tərəfindən qəbul edilməklə həmin ölkələrin qanunvericiliyində təsbit olunmuşdur.

Azərbaycan Respublikasının MM-nin 324-cü maddəsinə müvafiq olaraq, əqd mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, **ikitərəfli** və ya çoxtərəfli **iradə ifadəsidir**. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış **iradə ifadəsi zəruridir**.

MM-nin 324.5-ci maddəsinə görə, iradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir.

Əgər nə zahiri ifadəyə görə, nə də başqa hallara görə iradənin məzmunu dəqiq müəyyənləşdirilə bilmirsə, əqd mövcud deyildir.

MM-nin göstərilən müddəaları arbitraj sazişinə də aiddir. Arbitraj sazişinin bağlanmasında tərəflərdən birinin iradə ifadəsi olmadıqda (zor və ya hədəqorxu, məcburiyyət altında bağlandıqda) həmin saziş məhkəmə qaydasında etibarsız sayıla bilər.

---

[1] Боботов С.В. Правосудие во Франции. М., 1994, с.93.

Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanan saziş, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu saziş (ağır şərtli əqd) zərərçəkənin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

Almaniyanın mülki qanunnaməsinin 1025-ci paraqrafına müvafiq olaraq, tərəflərdən biri özünün iqtisadi və ya sosial mövqeyindən istifadə edərək digər tərəfi əlverişsiz vəziyyətə salan və ona qeyri-qanuni əmlakı əldə etməyə hüquq verən müqaviləni bağlamağa məcbur edərsə, həmin müqavilə və arbitraj sazişi məhkəmə qaydasında etibarsız hesab oluna bilər.

Belçikanın Arbitraj haqqında Qanununun 1678-ci maddəsinə uyğun olaraq, arbitrlərin təyin olunmasında tərəflərdən hər hansı biri üstünlüyə malik olduğu hallarda arbitraj sazişi etibarsız sayıla bilər. Bu qayda, həmçinin, arbitrlərin yalnız bir tərəfin təyin etməli olduğu haqqında müqavilənin bağlandığı hallara da şamil edilir və belə müqavilələr, adətən, qoşulma müqavilələri adlandırılır.[1]

Qoşulma müqavilələri gündəlik həyatda istənilən müqavilələr qrupuna aiddir və bir çox hallarda bu müqavilələrdə tərəflərin iradə ifadəsi bərabər hüquqa əsaslanmır və tərəflər-dən biri üstünlük əldə edir. Məsələn, dünyanın bir çox ölkələrində istehlakçı ilə istehsalçı arasında bağlanan müqavilələrin mətni, məzmunu, şərtləri istehsalçı tərəfindən müəyyən olunur və artıq istehsalçının diqtəsi əsasında hazırlanmış bu müqavilə layihəsini qəbul etmək məcburiyyəti qarşısında qalan istehlakçının tərəf kimi mövqeyi zəifləyir və təbii ki, o, istehsalçının iradə ifadəsini yalnız həmin müqaviləyə qoşulmaqla qəbul etməli olur. Dünyanın müxtəlif ölkələrində və Azərbaycanda istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı qanunların qəbul edilməsinə və istehlakçıların hüquqlarını müdafiə edən çoxsaylı təşkilatların yaradılmasına baxmayaraq, bu problem hələ də həll edilməmiş qalır.

Beynəlxalq əqdlər bağlanarkən, bu problem daha da kəskinləşir, belə ki, beynəlxalq müqavilələrdə, bir qayda olaraq, istehsalçı qismində xarici hüquqi şəxs (firma, şirkət), is-tehlakçı qismində isə həmin ölkənin fiziki və ya hüquqi şəxsləri çıxış edir. Bu halda da istehlakçı xarici hüquqi şəxs tərəfindən əvvəlcədən hazırlanmış və təbii ki, ona sərf edən şərtləri özündə əks etdirmiş həmin müqavilə layihəsinə qoşulmaq

---

[1] Богуславский М.М. Иностранные инвестиции: правовое регулирование, М., 1996. с.47.

[2] Джудитта Кордеро Мосс, Автономия воли в практике Международного коммерческого арбитража, М., 1996, с.73.

məcburiyyətində qalır, hətta bu müqavilələrdə mübahisənin yaranacağı təqdirdə həmin mübahisəyə baxacaq arbitraj institutu da xarici hüquqi şəxs tərəfindən müəyyən olunur və bir çox hallarda həmin arbitraj institutu xarici şirkətin yaxın tanıdığı, daimi əlaqədə olduğu və hətta nəzarəti altında olan orqan olur. Ona görə də, hüquq ədəbiyyatında belə bir fikir irəli sürülür ki, kommersiya müqavilələrinin istehlakçıların iştirak etdiyi müqavilələrdən ayrılmasını və bu müqavilələrin hazırlanmasında və bağlanmsında istehlakçıların rolunun artırılması və onların iradəsinin azad ifadə edilməsi prinsipinin möhkəmləndirilməsi zəruridir.[2]

İstehlakçıların iradəsinin azad ifadə edilməsi icarə, bədbəxt hadisələrdən həyatın sığortası, borc, daşınma, malların alqı-satqısı, xidmət, istehlak ticarəti və s. müqavilələr bağlanarkən xüsusilə nəzərə alınmalıdır.

Lakin bir sıra ölkələrin qanunvericiliyində, o cümlədən, Azərbaycan qanunvericiliyində beynəlxalq dövriyyədə bağlanan kommersiya müqavilələri ilə məişət əqdləri arasında də-qiq sərhəd yoxdur və bir-birindən fərqlənmir. Məsələn, 1955-ci il tarixli daşınan əmlakın alqı-satqısı ilə bağlı Haaqa Konvensiyasında kommersiya müqavilələri ilə məişət xarakterli əqdlər arasında heç bir fərq qoyulmur, digər Konvensiyalarda isə (1980-ci il tarixli BMT-nin beynəlxalq alqı-satqı haqqında Konvensiyası), sadəcə olaraq, istehlakçılarla bağlanan əqdlər ayrıca nəzərdə tutulmuşdur.

1966-cı il tarixli Avropa Konvensiyasına Əlavələrin 2-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulmuşdur ki, arbitraj sazişində tərəflərin arbitraja müraciət etmək niyyətləri açıq ifadə edilməlidir, əks təqdirdə və ya arbitrlərin təyin edilməsində tərəflərdən hər hansına üstünlük verildikdə həmin arbitraj sazişi etibarsız sayılmalıdır.

Məhkəmə təcrübəsində iradə ifadəsinin könüllülüyü prinsipini müxtəlif cür təfsir edirlər. Məsələn, Hindistanda artıq bağlanmış arbitraj sazişinin mövcudluğuna baxmayaraq, məhkəmə hər iki tərəfdən bir daha mübahisəyə arbitraj məhkəməsində baxılması üçün iradə ifadəsini bildirməyi tələb etmişdir. Məhkəmə bu tələbi onunla əsaslandırmışdır ki, müqavilə bağlanarkən daha güclü olan tərəf öz iradəsini digər tərəfə təlqin edə bilər və bu da onu əlverişsiz vəziyyətə sala bilər.[1]

---

[1] Принципы международных коммерческих договоров / Перевод с англ. А.С.Комарова, М., 1996, с.33.

Beləliklə, bu məhkəmələrin fikrincə, müqavilə bağlanarkən tərəflərin ifadə etdikləri iradəsi könüllü olmaya bilər, onun üçün də məhkəmənin gedişində tərəflər öz iradələrini azad surətdə bir daha ifadə etməlidirlər, başqa sözlə, yeni arbitraj sazişi bağlamalıdırlar.

Fikrimizcə, arbitraj sazişinə belə baxış 1958-ci il Nyu-York Konvensiyasının tətbiqini əhəmiyyətli dərəcədə məhdudlaşdırır və arbitraj sazişinin etibarsızlığı prezumpsiyasına (fərziyyəsinə) əsaslanır ki, bu da yolverilməzdir.

Lakin hələ də bir sıra ölkələrdə aparıcı inhisarçı şirkətlərin sindikatların, konsorsiumların tərtib etdikləri tipik muqavilələrin şərtləri əsasında əqdlərin bağlanması təcrübəsi davam edir və onu imzalayan tərəflər həmin şərtləri dəyişdirmək iqtidarında olmadığından əslində inhisarçı müəssisələrin iradəsini qəbul etmək məcburiyyətində qalırlar. Bu halda da müqavilənin zahirən könüllü bağlanmasına baxmayaraq, əslində, güclü olan tərəfin iradə ifadəsi kimi özünü biruzə verir, çünki həmin müqaviləni imzalayan tərəf ya müqaviləni bütövlükdə imzalamaqdan imtina etməlidir (bu, bir çox hallarda tərəfin iqtisadi maraqlarına uyğun gəlmir) və ya müqaviləni arbitraj qeyd-şərti ilə birlikdə imzalamalıdır.

Göründüyü kimi, bu halda arbitraj institutunun, işə baxılması yerinin, tətbiq olunacaq qanunun seçilməsi imkanı tipik müqaviləni tərtib edən tərəfin istəyi əsasında müəyyən olunur və digər tərəfi bu imkandan məhrum edir.

Arbitraj araşdırmasının predmetini təşkil edən **mübahisələrin mümkünlüyü qaydası** da arbitraj sazişinin etibarlığı şərtlərindən biridir. Milli qanunvericilikdə bir qayda olaraq hansı mübahisələrə arbitraj qaydasında baxılması dəqiq olaraq nəzərdə tutulur, buna müvafiq olaraq da arbitraj sazişinin fəaliyyət dairəsi müəyyən olunur.

Dünyanın bir sıra ölkələrində (Fransa, Hindistan, Ekvador) arbitraj yalnız kommersiya mübahisələrini araşdırır. Fransa qanunvericiliyində "kommersiya", "mülki" və "ümumi mü-bahisələr" eyni mənada işlədilir.[1]

Fransa Mülki Prosessual Məcəlləsinin 631-ci maddəsinə müvafiq olaraq, arbitraj qeyd-şərti yalnız kommersiya mübahisələrinə münasibətdə bağlanıla bilər. Lakin son dövrlərdə məhkəmə təcrübəsində bu normanın daha geniş təfsir edilməsi meylləri müşahidə olunur və bu norma daha geniş iqtisadi münasibətlər dairəsinə şamil edilir.

---

[1] Пучинский В.К. Понятие и источники гражд.-произ. права Англии, США, Франции, М., 1988. с.131.

Məsələn, Hollandiya firması ilə Fransız nümayəndəsi arasında bağlanan agent müqaviləsində tərəflər bu müqavilə üzrə yaranacaq mübahisələrin Paris Arbitraj Məhkəməsinə verilməsi barədə arbitraj sazişi (arbitraj qeyd-şərti) bağlayırlar. Agent müqaviləsi Hollandiyada bağlanılır, fransız dilində tərtib olunur və arbitraj qeyd-şərtində həmin mübahisəyə Fransız qanunvericiliyi əsasında baxılması nəzərdə tutulur. Agent Fransız məhkəməsinə müraciət edərək onun kommersant olmaması səbəbilə Fransız qanunlarına müvafiq olaraq arbitraj sazişinin etibarsız hesab edilməsini xahiş edir. Məhkəmə agentin bu tələbini rədd edir və göstərir ki, arbitraj sazişi üçün Fransız qanunlarında müəyyən olunan müddəa yalnız ölkə daxilində bağlanan əqdlər üçün nəzərdə tutulmuşdur və beynəlxalq xarakterli müqavilələrə şamil edilmir, ona görə də, iddiaçının mübahisənin kommersiya yönümlü olmaması ilə bağlı tələbi rədd edilir. Fransa məhkəməsi agent müqaviləsində razılaşdırılan arbitraj qeyd-şərtini etibarlı və icra edilən hesab etmişdir.[1]

Arbitrajda baxılmalı olan mübahisələrə münasibətdə bir sıra digər məhdudiyyətlər də vardır. Məsələn, Argentinanın, Səudiyyə Ərəbistanının və Tunisin qanunvericiliyində mübahisənin dövlətin marağına toxunduğu hallarda və ya müqavilə üzrə tərəflərdən biri dövlət təşkilatı olduğu hallarda həmin mübahisələrə arbitrajda baxılması qadağandır və bu şərtlər çərçivəsində bağlanmayan arbitraj sazişi etibarsızdır və icra edilə bilməz. Norveçdə ödənişin təxirə salınması barədə bağlanan müqavilədə arbitraj qeyd-şərtinin razılaşdırılması qadağandır.[2] Fransada tərəflərdən biri dövlət hüquqi şəxsi olduqda və ya mübahisə hüquqi şəxsin ləğv edilməsi ilə bağlı olduqda arbitraj baxışının predmeti ola bilməz.

Filippin qanunvericiliyinə görə, tikinti müqavilələrindən irəli gələn tikinti planı və spesifikasiyanın təfsiri ilə bağlı, tikinti materiallarının müvafiqliyi ilə bağlı, tikintinin vaxtı və qaydası ilə bağlı mübahisələrin arbitraj baxışına verilməsi qadağandır.

İtaliya Mülki Prosessual Məcəlləsinin 2-ci maddəsinə uyğun olaraq, tərəflərdən birinin İtaliya vətəndaşı olduğu mübahisələrə xarici arbitraj məhkəməsində baxıla bilməz. Analoji norma Portuqaliyanın da Mülki Prosessual Məcəlləsinin 99-cu maddəsində əks olunmuşdur.[3]

Beynəlxalq Arbitraj qərarlarının tanınması və icrası barədə 1958-ci il Nyu-York Konvensiyasının V maddəsində nəzərdə tutulmuşdur ki, arbitraj qərarının tanınmasına və icra edilməsinə o halda etiraz edilə

---

[1] Pevue Critique de Droit İnternational Prive, 1994. p.97.
[2] Виноградова Е.А. Третейский суд. Законодательство. Практика. Комментарий. М., 1997.с.29.
[3] Лазарев С.Л. Международный арбитраж. М., 1991, с.150.

bilər ki, tanınması və icra edilməsi tələb olunan ölkənin səlahiyyətli icra hakimiyyəti orqanları müəyyən etsin ki:

A) **mübahisənin obyekti** bu ölkənin qanunvericiliyinə əsasən **arbitraj araşdırmasının predmeti ola bilməz** və ya

B) bu qərarın tanınması və icra edilməsi həmin ölkənin ictimai qaydalarına ziddir.

1961-ci il tarixli Avropa Konvensiyasının VI maddəsində də analoji norma nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının qanunvericiliyində hansı mübahisələrə arbitraj qaydasında baxılmasının mümkünlüyü dəqiq müəyyən olunmamışdır. MPM-nin 444-cü maddəsində xarici ölkə məhkəmələrində və xarici arbitraj məhkəmələrində araşdırma predmeti olmayan mübahisələrin siyahısını müəyyən etmişdir. Həmin maddəyə müvafiq olaraq Azərbaycan Respublikası məhkəmələrinin müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

1) Daşınmaz əmlaka əşya hüququ, eləcə də, həmin əmlakın icarəyə verilməsi və ya girov qoyulması haqqında iddialara dair işlər, əgər onların predmeti olan əmlak Azərbaycan Respublikası ərazisindədirsə;

2) Hüquqi şəxsin həqiqiliyinin və ya qeyri-həqiqiliyinin tanınması və hüquqi şəxsin buraxılması, yaxud onun qərarlarının ləğv edilməsi iddialarına dair işlər, əgər hüquqi şəxsin Azərbaycan Respublikasında hüquqi ünvanı (olduğu yer) vardırsa;

3) Patent, marka və ya digər hüquqların həqiqiliyinin tanınması iddialarına dair işlər, əgər bu hüquqların qeydə alınması və ya onların qeydə alınması üçün ərizələrin verilməsi Azərbaycan Respublikasında olmuşdursa;

4) Yük daşıma müqavilələrindən əmələ gələn yük daşıyanlara qarşı iddialara dair işlər.

Göründüyü kimi, 444-cü maddədə sadalanan işlərin dairəsi dəqiq müəyyən edilib və bu işlərin aidiyyəti tərəflərin sazişi (həmçinin, arbitraj sazişi) ilə dəyişdirilə bilməz. Belə ki, xarici dövlətlərin və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra edilməsi və tanınmasından imtina edilməsi barədə MPM-nin 465-ci maddəsində nəzərdə tutulmuşdur ki, işə baxılması Azərbaycan Respublikası məhkəməsinin müstəsna səlahiyyətinə aid olduqda sadalanan məhkəmələrin qətnamələrinin məcburi icrasından imtina edilir.

MPM-nin 476.0.2-ci maddəsinə müvafiq olaraq, əgər arbitraj məhkəməsinin qətnaməsinin icraya yönəldilməsi və tanınması barədə ərizəyə baxan məhkəmə müəyyən etsə ki, mübahisənin obyekti

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, arbitraj baxışının predmeti ola bilməz və yaxud arbitraj məhkəməsinin qətnaməsinin icraya yönəldilməsi Azərbaycan Respublikasının suverenliyinə və qanunvericiliyinin əsas prinsiplərinə ziddir, o halda xarici arbitraj məhkəməsinin qətnaməsinin məcburi icra edilməsindən və tanınmasından imtina edə bilər.

Göründüyü kimi, Azərbaycan Respublikasının MPM-si arbitraj məhkəmələrinə aid olan işlərin dairəsini dəqiq müəyyən etmir. Bu dəqiqlik heç "Beynəlxalq Arbitraj haqqında" Qanunda da nəzərdə tutulmamışdır. Yalnız həmin qanunun 34-cü maddəsinin 2-ci bəndində nəzərdə tutulmuşdur ki, əgər məhkəmə mübahisə obyektinin Azərbaycan Respublikasının qanunvericiliyinə görə arbitraj baxışının obyekti olmadığını müəyyən etsə, həmin iş üzrə çıxarılan qərarı ləğv edə bilər. Qanunun 36-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq, məhkəmə mübahisəli obyekti həmin dövlətin qanununa görə, arbitraj baxışının predmeti ola bilmədiyini müəyyən etdiyi halda, arbitraj qərarının hansı ölkədə çıxarılmasından asılı olmayaraq, onun tanınmasından və ya icra edilməsindən imtina edə bilər.

Beləliklə, nə Azərbaycan Respublikasının MPM-də, nə də "Beynəlxalq Arbitraj haqqında" Qanunda arbitraj araşdırmasının obyekti və ya predmeti olan mübahisələrin dairəsi də-qiq müəyyən olunmamışdır. "İnternational Commersial Arbitration" Cəmiyyəti yanında Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi haqqında Əsasnamənin 1-ci mad-dəsinin 2-ci bəndində arbitraj məhkəməsinə aid olan işlərin dairəsinin müəyyən edilməsinə cəhd edilmişdir. Belə ki, BKAM-a tərəflərin razılığı ilə xarici ticarət və beynəlxalq iq-tisadi əlaqələrin digər növlərinin həyata keçirilməsindən yaranan müqavilə və digər mülki-hüquqi münasibətlərə dair mübahisələr (əgər tərəflərdən ən azı birinin kommersiya müəssisəsi xaricdə yerləşirsə), həmçinin, Azərbaycan Respublikasının ərazisində yaradılmış xarici investisiyalı və beynəlxalq birlik və təşkilatların öz aralarında və ya onların iştirakçıları arasında mövcud olan mübahisələr, eləcə də, eynilə onlarla Azərbaycan Respublikasının digər hüquq subyektləri arasındakı mübahisələr verilə bilər.

Mülki-hüquqi münasibətlərdən yaranan mübahisələrə, xüsusilə, malların alqı-satqısına (çatdırılmasına), işlərin həll edilməsinə, xidmətlərin göstərilməsinə, malların və (və ya) xidmətlərin mübadiləsinə, malların və sərnişinlərin daşınmasına, ticarət nümayəndəliyinə və vasitəçiliyinə, icarəyə (lizinqə), elmi-texniki mübadiləyə, yaradıcılıq fəaliyyətinin digər nəticələrinin mübadiləsinə,

sənaye və digər obyektlərin yaradılmasına, lisenziyalı əməliyyatlara, investisiyalara, kredit-hesablaşma əməliyyatlarına, sığortaya (təkrar sığortaya), müştərək sahibkarlığa, sənaye və sahibkarlıq kooperasiyasının digər formalarına dair münasibətlərdən yaranmış mübahisələr və s. kommersiya münasibətlərindən irəli gələn mübahisələr BKAM-ın həllinə verilə bilər.

Göründüyü kimi, MPM-dən və "Beynəlxalq Arbitraj haqqında" Qanundan fərqli olaraq BKAM-ın Əsasnaməsi arbitraj araşdırmasının predmeti ola biləcək mübahisələrin təqribi dairəsini müəyyən etmişdir, lakin hansı mübahisələrin arbitraj baxışının obyekti olmaması Əsasnamədə də göstərilməmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyinin ümumi fəlsəfəsinə və məntiqinə əsaslanaraq, yalnız ehtimal etmək olar ki, arbitraj baxışının predmeti ola bilməyən mübahisələr sırasına müstəsna aidiyyətli işlərdən əlavə, valyuta və ya antiinhisar münasibətlərindən, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı münasibətlərdən, idarəçilik və inzibati xarakterli münasibətlərdən (nazirliklərin, dövlət komitələrinin, yerli icra hakimiyyəti orqanlarının əmr və sərəncamlarının ləğv edilməsi və ya etibarsız sayılması), vergi münasibətlərindən əmələ gələn mübahisələri aid etmək olar.

Dünyanın bir çox ölkələrinin qanunvericiliyi arbitraj sazişinin **yazılı formada bağlanmasını** nəzərdə tutur. Lakin bir sıra ölkələrdə, o cümlədən, Hollandiyada, İsveçdə, Danimarkada arbitraj sazişinin yazılı formada bağlanması məcburi deyildir. Bu halda arbitraj sazişinin (arbitraj qeyd-şərti, arbitraj razılaşması) şifahi formada bağlanması ticarət adətlərindən doğur, lakin bu halda da arbitraj sazişinin bir növü olan münsif qeydi mütləq yazılı formada bağlanmalı və tərəflərin imzası ilə təsdiq olunmalıdır.[1]

Böyük Britaniyada şifahi formada bağlanan arbitraj sazişi o halda etibarlı sayılır ki, bu münasibətlərə arbitraj haqqında qanunun deyil, ümumi hüquq normaları tətbiq edilsin, lakin Şotlandiyada tarixən anqlo-sakson hüququnun deyil, Roma hüquq sisteminin normalarına üstünlük verildiyi üçün vəziyyət tamamilə fərqlidir. Belə ki, Şotlandiyanın Arbitraj haqqında qanununa müvafiq olaraq, arbitraj sazişi o halda şifahi formada bağlanıla bilər ki, onun yazılı formada bağlanmasına zərurət olmasın.[2]

---

[1] Лебедев С.Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон, М., 1988, с.81.

[2] Фридмен Л. Введение в американское право, М., 1993, с.61.

Almaniyada arbitraj sazişi ticarət əqdi və ya onun bir hissəsi olduqda, yazılı formada tərtib edilməsi tələb olunmur. İtaliyada arbitraj qeyd-şərti o halda qanuni arbitraj sazişi sayılır ki, o, əsas müqavilənin bağlanması üçün danışıqlar aparılması prosesində hazırlanmış olsun. İtaliya Mülki Məcəlləsinin 1341, 1342-ci maddələrinə əsasən əgər tərəflərdən biri müqavilənin layihəsində arbitraj qeyd-şərti təklif edərsə və digər tərəf ayrıca yazılı formada onu bəyənməzsə, o halda, həmin qeyd-şərt əsas müqavilənin bağlanmağına baxmayaraq, etibarsız sayılır.

Göründüyü kimi, İtaliya qanunvericiliyi arbitraj sazişinin formasına dair əlavə tələblər müəyyən etmişdir və bu tələblərə əməl edilməməsi arbitraj sazişinin etibarsızlığına səbəb olur. Lakin İtaliya 1958-ci il Nyu-York Konvensiyasına qoşulduqdan sonra bu normanın tətbiqi dairəsi daralmışdır. Belə ki, arbitraj qeyd-şərti Konvensiyaya üzv olan dövlətlərlə beynəlxalq müqavilələr bağlanarkən, əlavə tələblər olmadan bağlanılır, lakin ölkədaxili müqavilə münasibətlərində MM-nin 1341, 1342-ci maddənin arbitraj sazişinin formasına dair tələbləri tətbiq edilir.[1]

Arbitraj üzrə bir sıra beynəlxalq Konvensiyalarda arbitraj sazişinin yazılı formada bağlanması barədə düzünə göstəriş vardır. Xarici arbitraj qərarlarının tanınması və icrası barədə 1958-ci il Nyu-York Konvensiyasının 2-ci maddəsinin I bəndinə müvafiq olaraq, hər bir razılaşan dövlət arbitraj çəkişməsinin predmeti ola biləcək hər hansı bir konkret müqavilə və ya digər hüquq münasibətlərinin obyekti ilə əlaqədar tərəflər arasında yaranan və ya yarana biləcək bütün və ya hər hansı mübahisəni arbitraja verməyi öhdəsinə götürdüyü yazılı sazişi tanıyır. Həmin maddənin II bəndinə əsasən, "arbitraj sazişinin yazılı forması" məfhumu özündə müqavilədə arbitraj qeyd şərtini və ya tərəflərin imzaladığı və yaxud onların məktub və ya teleqramlarında olan yazılı razılaşmanı ehtiva edir.

1961-ci il tarixli Avropa Konvensiyasının da 1-ci maddəsinin II bəndinə uyğun olaraq, arbitraj sazişi dedikdə, yazılı əqddə arbitraj qeyd-şərti və ya tərəflərin imzaladığı, yaxud məktublarda, teleqramlarda, teletayp məlumatlarında əks etdirilən və yazılı formada bağlanan arbitraj razılaşması anlaşılır. Göründüyü kimi, Nyu-York Konvensiyasından fərqli olaraq, Avropa Konvensiyası teletayp məlumatlarını da yazılı formaya aid edir, bu norma, həmçinin, 1975-ci il tarixli Amerikaarası Konvensiyasının da 1-ci maddəsində nəzərdə tutulmuşdur.

---

[1] Обзор современной итальянской судебной практики по вопросам, связанным с арбитражным соглашением. Yearbook, Commersial Arbitration. The Hague, v.VII, 1992. p.344

"Beynəlxalq Arbitraj haqqında" Qanunun 7-ci maddəsinə müvafiq olaraq, arbitraj sazişi yazılı formada bağlanılır. Saziş o halda yazılı şəkildə bağlanmış hesab olunur ki, o, tərəflərin imzaladıqları sənəddə əks etdirilmişdir və ya məktub mübadiləsi və yaxud belə sazişin təsbit olunmasını təmin edən teletayp, teleqraf və ya **elektron rabitəsinin başqa_vasitələrindən** istifadə olunmaqla bağlanmışdır və digər tərəf buna etiraz etmir.

BKAM-ın Əsasnaməsinin 2-ci maddəsinə əsasən, arbitraj sazişi müqavilədə arbitraj qeyd-şərti (əlavə bir müddəa şəklində) və ya ayrıca bir saziş şəklində bağlanıla bilər. Saziş yazılı şəkildə bağlanılır. Mübahisənin BKAM-a verilməsinə dair Saziş – tərəflərin imzaladığı sənəddə öz əksini taparsa, yaxud bu razılaşmanı təsbit etməyi imkan verən məktubların mübadiləsi yolu ilə, teletayp, teleqraf və ya digər elektron rabitəsi vasitələrindən istifadə etməklə məlumat verilərsə, yazılı şəkildə bağlanmış hesab edilir. Arbitraj qeyd-şərtinə müqavilədə istinad edilməsi bu şərtlə arbitraj sazişi hesab olunur ki, müqavilə yazılı şəkildə bağlanmışdır və bu həmin qeyd şərti müqavilənin bir hissəsinə çevirir.

Göründüyü kimi, istər "Beynəlxalq arbitraj haqqında" Qanunda, istərsə də BKAM-ın Əsasnaməsində Nyu-York və Avropa Konvensiyalarından fərqli olaraq müasir elektron rabi-təsi vasitələri də yazılı formanın bir ünsürü kimi nəzərdə tutulmuşdur və elm-texnikanın yüksək sürətlə inkişaf etdiyi, inteqrasiyanın və qloballaşmanın təsbit olunduğu hazırkı dövr-də bu, əlbəttə ki, zəruridir. BKAM-ın Əsasnaməsinin 2-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq, arbitraj sazişinin bağlanmasının yazılı formasının tələblərinə əməl edilmədikdə saziş bağlanmamış hesab olunur.

Arbitraj üzrə bir sıra beynəlxalq konvensiyalarda arbitraj sazişinin yazılı forması ilə yanaşı, şifahi formada bağlanması da nəzərdə tutulmuşdur. Məsələn, 1961-ci il tarixli Avropa Konvensiyasının 1-ci maddəsinə əsasən, razılığa gələn dövlətlərin qanunvericiliyi arbitraj sazişinin yazılı formada bağlanmasını nəzərdə tutmursa, o, hər hansı formada bağlanıla bilər.

Arbitraj sazişinin formasına dair Avropa Konvensiyasında 1958-ci il tarixli Nyu-York Konvensiyasından fərqli normanın nəzərdə tutulması təcrübədə hər iki konvensiyanın üzvü olan dövlətlər arasında müəyyən çətinliklərin yaranmasına səbəb olur. Məsələn, Almaniya məhkəməsində Almaniya firması ilə Avstriya korporasiyası arasında mübahisəyə baxılmışdır. Tərəflərdən biri alıcı (Avstriya korporasiyası) tərəfindən satıcıya (alman firması) göndərilmiş, lakin sonradan satıcı

tərəfindən yazılı formada təsdiq edilməmiş arbitraj sazişinin qanuniliyini mübahisələndirmişdir. Almaniya və Avstriya həm 1958-ci il tarixli Nyu-York Konvensiyasının, həm də 1961-ci il tarixli Avropa Konvensiyasının üzvü olduğu üçün məhkəmə qarşısında həmin mübahisənin hansı Konvensiyanın norması əsasında həll edilməsi problemi çıxmışdır. Bu məsələ arbitraj sazişinin etibarlılığının müəyyən edilməsi üçün prinsipial əhəmiyyət kəsb edirdi. Məhkəmə 1961-ci il tarixli Avropa Konvensiyasının normasını tətbiq edərək göstərmişdir ki, bu Konvensiya 1958-ci il Nyu-York Konvensiyasından sonra bağlandığı üçün üstün qüvvəyə malikdir.[1]

Arbitraj sazişinin yazılı formada bağlanmasının zəruriliyini nəzərdə tutan beynəlxalq Konvensiyaların və milli qanunvericiliyin tələbləri heç də həmişə məhkəmə və arbitrajlar tərəfindən eyni cür təfsir olunmur. Belə ki, Cenevrə məhkəməsi Hollandiyada çıxarılmış arbitraj məhkəməsinin qətnaməsinin İsveçrə ərazisində 1958-ci il Nyu-York Konvensiyasına əsasən icra edilməsindən imtina etmişdir, məhkəmə belə hesab etmişdir ki, Konvensiyada nəzərdə tutulan "məktublar mübadiləsi" anlayışı özündə məktubun göndərilməsi və ona cavab verilməsi hərəkətlərini ehtiva edir, bu məhkəmə işində isə tərəf arbitraj sazişinin bağlanması təklifini özündə əks etdirən məktuba cavab verməmiş və onun əvəzində akkreditiv açmaqla, guya, həmin məktubda şərh olunan məsələyə münasibətini bildirmişdir və bununla da Konvensiyanın arbitraj sazişinin mütləq yazılı formada bağlanması haqqında müddəasını pozmuşdur.[2]

Fransanın Kassasiya Məhkəməsi 1958-ci il Nyu-York Konvensiyasının arbitraj sazişinin yazılı formada bağlanmasına dair tələbini çox orijinal şəkildə təfsir etmişdir, belə ki, həmin məhkəmənin çıxardığı qətnaməyə əsasən, əgər ticarət əqdi onun faktiki icra edilməsi yolu ilə bağlanarsa və alıcı da arbitraj qeyd-şərtinə etiraz etməzsə, o halda arbitraj sazişi qəbul edilmiş sayılır və tərəflər bu şərtə əməl etməyə borcludurlar.[3]

Göründüyü kimi, bu halda alıcı arbitraj sazişini imzalamamış və ona yazılı cavab verməmişdir, lakin müqavilənin faktiki icra faktı və arbitraj qeyd-şərtinə digər tərəfin etiraz et-məməsi arbitraj sazişinin bağlanmasını şərtləndirir və hesab edirik ki, problemin bu şəkildə həll edilməsi həm normal məntiqə, həm də Konvensiyanın tələblərinə tam uyğundur.

---

[1] Aussenwirtchaftsdienst des Betribsss-Beraters, 1970, p.417

[2] Керр М. Роль судов и арбитража / Право и европейское сотрудничество. М. – Лондон, 1991, с.2.

[3] Боботов С.В. Правосудие во Франции, М., 1994, с.89.

Arbitraj sazişinin imzalanması forması və qaydası ilə bağlı problemlərin qanunvericilik qaydasında həll edilməsinin çox böyük təcrübi əhəmiyyəti vardır. Bu problemlər sırasına arbitraj qeyd-şərti və arbitraj razılaşmasının (arbitraj barədə şərtin müqaviləyə daxil edilməsi və ya ayrıca razılaşmanın imzalanması) hüquqi məsələlərinin həll edilməsi aiddir və dünyanın əksər qabaqcıl ölkələri bu problemləri öz milli qanunvericiliyində beynəlxalq Konvensiyaların tələblərinə uyğun həll etməyə səy göstərirlər. Kommersiya müqavilələrində digər şərtlərlə yanaşı arbitraj qeyd-şərtinin də razılaşdırılması texnikası və təcrübəsinin müxtəlif ölkələrdə, demək olar ki, eyni cür tətbiq edilməsinə baxmayaraq bu sözləri arbitraj razılaşması və münsif qeydi haqqında demək olmaz. Bu problemin həllinə müxtəlif ölkələrdə müxtəlif münasibətlər mövcuddur.

Belə ki, bir sıra ölkələrin qanunvericiliyində beynəlxalq mülki-hüquqi müqavilənin bağlanması ilə yanaşı arbitraj razılaşmasının da ayrıca tərtib olunması nəzərdə tutulmuşdur və ya bir sıra ölkələrin qanunvericiliyində arbitraj razılaşmasında və ya münsif qeydində möhürün olması, yaxud həmin razılaşmanın notariat qaydasında təsdiq edilməsi nəzərdə tutulmuşdur.

Hüquqi nöqteyi nəzərdən, arbitraj razılaşmasında imzaların və möhürün mövcudluğu, həqiqətən də, arbitraj sazişinin bağlanmasına dəlalət edir və tərəflərin birtərəfli qaydada onu dəyişməsini mümkünsüz edir və bu tələb beynəlxalq Konvensiyalarında (1958-ci il tarixli Nyu-York Konvensiyasının 2-ci maddəsi, Avropa Konvensiyasının 1-ci maddəsi, 1975-ci il tarixli Amerikaarası Arbitraj Konvensiyasının 1-ci maddəsi) tələblərinə zidd deyildir. Bununla yanaşı bir sənəddə hər iki tərəfin imzalarının mütləq olması tələbi beynəlxalq ticarət adətlərinə ziddir və ona görə də, göstərilən Konvensiyalarda arbitraj razılaşmasının məktub və ya teleqram mübadiləsi yolu ilə bağlanmasının mümkünlüyü haqqında norma vardır.

Arbitraj haqqında bir sıra beynəlxalq razılaşmalarda arbitraj sazişində imzaların olması zərurəti birbaşa nəzərdə tutulmamışdır. 1965-ci il tarixli dövlətlərarası və xarici vətəndaşlar arasında sərmayə qoyuluşu ilə bağlı mübahisələrin həll edilməsi üzrə Vaşinqton Konvensiyasının 25-ci maddəsinə müvafiq olaraq mübahisələrə beynəlxalq mərkəzdə (mübahisələrin həlli üzrə Beynəlxalq Mərkəz) baxılması üçün tərəflərin razılığı (yazılı razılaşmanın bağlanması) kifayətdir.[1]

---

[1] Розенберг М.Г. Международный договор и иностранное право в практике Международного Коммерческого Арбитражного Суда. М., 1998. с.90.

Təcrübədə bəzən kommersiya müqaviləsinin bağlanmasını təsdiq edən tərəflərin imzasından sonra arbitraj qeyd-şərti haqqında müddəalar yazılır və bununla bağlı haqlı bir sual ortaya çıxır: tərəflərin imzaları kommersiya müqaviləsinin bağlanması məqsədlərinə xidmət etdiyi halda, həmin imzalardan sonra yazılan arbitraj qeyd-şərtinə aid edilə bilərmi? Bu suala cavabın mürəkkəbliyini nəzərə alan Beynəlxalq Ticarət Palatası arbitraj qeyd-şərtinin müqaviləyə daxil edilməsi üsulları barədə aşağıdakı tövsiyələri vermişdir: 1) müqavilədə arbitraj qeyd-şərtinin qırmızı rəngli şriftlə verilməsi və bu mümkün olmazsa, arbitraj qeyd-şərtinin müqavilənin digər şərtlərindən ayrılması; 2) arbitraj qeyd-şərtinin müqavilədə tərəflərin imzaları üçün müəyyən edilmiş qrafadan yuxarıda nəzərdə tutulması.[1]

Bu məsələ ilə bağlı hüquq ədəbiyyatında müxtəlif fikirlər söylənmişdir. Bir sıra müəlliflər belə hesab edirlər ki, müqavilənin arxa tərəfində tərəflərin imzasından sonra nəzərdə tutulan arbitraj qeyd-şərtinin heç bir hüquqi qüvvəsi yoxdur, çünki müqaviləni imzalayan tərəflər bu qeyd-şərti görməyə bilərlər.[2] Lakin biz də o müəlliflərin fikri ilə razılaşırıq ki, müqavilənin harasında nəzərdə tutulmasından asılı olmayaraq, əgər tərəflər müqavilə bağlanan anadək arbitraj qeyd-şərtini müqavilə layihəsinə daxil etdiyi halda, o, etibarlı sayılmalıdır.[3] Hal-hazırda beynəlxalq təcrübədə belə arbitraj qeyd-şərti etibarlı sayılır və tanınır. Məsələn, Polşa xarici ticarət birliyi ilə Lixtenşteyn firması arasında bağlanan müqavilədə arbitraj qeyd-şərti müqavilənin arxa tərəfində nəzərdə tutulmuşdur və müqavilənin özündə də belə bir şərt vardır ki, müqavilənin arxa hissəsində nəzərdə tutulan şərtlər müqavilənin ayrılmaz hissəsini təşkil edir. Lixtenşteyn firması arbitraj qeyd-şərtinin etibarsız sayılması haqqında İsveçrənin yerli məhkəməsində iddia qaldırmışdır. İsveçrə məhkəməsi qətnamə çıxararaq arbitraj qeyd-şərtini etibarlı saymış və göstərmişdir ki, arbitraj qeyd-şərtinin harada yazılmasının heç bir hüquqi əhəmiyyəti yoxdur və iddiaçı, həmçinin, beynəlxalq ticarət münasibətlərində təcrübəli olduğu üçün müqavilənin arxa hissəsindəki qeyd-şərti görməyə bilməzdi və müqavilənin özündə də müqavilənin arxa hissəsində nəzərdə tutulanların onun tərkib hissəsi olması barədə düzünə göstəriş vardır.

[1] Минаков А.И. Арбитражные соглашения и практика рассмотрения внешнеэкономических споров, М., 1985. с.35.
[2] Принципы международных коммерческих договоров /Перевод с англ. А.С.Комарова. М., 1996. с.73; Хамедов И. Международный Коммерческий Арбитраж / Хозяйство и право. Ташкент, № 3, с.87.
[3] Лазарев С.Л. Международный арбитраж. М., 1991, с.151; Минаков А.И. Эюстярилян ясяр, с.35; Энтип М.Л. Международные судебные учреждения. М., 1984, с.71.

Həmin qətnamədən verilən şikayətə baxan Sürix şəhərinin Ali Konton məhkəməsi qətnaməni əsaslı sayaraq qüvvəsində saxlamışdır.[1]

Təcrübədə, həmçinin, susmaq yolu ilə (susmaq aksepti) bağlanan müqavilənin əlavəsində nəzərdə tutulan arbitraj qeyd-şərtinin etibarlı olması ilə bağlı məsələ də müəyyən çətinliklər törətməkdədir. Məsələn, Filippin korporasiyası məhkəməyə müraciət edərək, onunla xarici dəniz gəmiçiliyi müəssisəsi arasında çarterlə bağlı bağlanan müqavilənin əlavəsində nəzərdə tutulan arbitraj qeyd-şərtinin etibarsız sayılmasını xahiş edərək göstərmişdir ki, onunla xarici dənizçilik müəssisəsi arasında bağlanan müqavilənin əlavəsini o təsdiq etməmişdir və yalnız çarterə razılıq vermişdir. Məhkəmə Filippin korporasiyasının iddiasını rədd edərək göstərmişdir ki, bu halda çarter müqaviləsinin bağlanması üsulu ilə müqavilənin əlavəsinin bağlanması üsulu eynidir və müqavilənin özündə də müqaviləyə əlavənin onun tərkib hissəsi olması nəzərdə tutulmuşdur. Ona görə də, çarter müqaviləsinin bağlanması həm də həmin müqaviləyə əlavənin bağlanması deməkdir.[2]

Arbitraj sazişi aydın və səlis ifadə edilməlidir. Arbitrajın səlahiyyəti məsələsinin müəyyən edilməsində bunun çox böyük əhəmiyyəti vardır. Yunanıstanın Mülki Prosessual Məcəlləsinin 868-ci maddəsinə əsasən, arbitraj qeyd-şərti mübahisənin əmələ gəldiyi konkret hüquq münasibəti göstərildiyi halda etibarlı sayıla bilər.[3]

Aydın və səlis formada ifadə olunmayan arbitraj sazişi qanunda bu barədə birbaşa göstəriş olmadığı halda da etibarsız sayıla bilər. Məsələn, ingilis firması ilə xarici şirkət arasında bağlanan müqavilədə nəzərdə tutulan arbitraj qeyd-şərtinə görə tərəflər arasında müqavilə üzrə yaranan hər hansı mübahisəyə ingilis arbitrajında baxılmalıdır, eyni zamanda, qeyd-şərtə müvafiq olaraq, həmin müqavilə üzrə yaranacaq digər mübahisələrə xarici ticarət arbitraj məhkəməsində baxılmalıdır. İşə baxan ingilis arbitrajı arbitraj qeyd-şərtini etibarsız hesab edərək göstərmişdir ki, arbitraj sazişi aydın və səlis ifadə edilmədiyindən arbitrajın səlahiyyətinin müəyyən edilməsi mümkünsüzdür.[4]

Arbitraj sazişinin aydın və səlis ifadə edilməməsi ucbatından arbitrajın səlahiyyətinin düzgün müəyyən edilməməsi Rumıniyanın da xarici ticarət arbitraj məhkəməsinin təcrübə-sində olmuşdur və Rumın arbitrajı bu səbəbdən mübahisəyə baxılmasından imtina etmişdir. Rumın hüquqşünası İ.Nestor haqlı olaraq qeyd etmişdir ki, tərəflər ilk növbədə

[1] Решетников Ф.М. Правовые системы стран мира, Справочник, М., 1993. с.195.
[2] Комментарий судебно-арбитражной практики. Вып. 2 - М., 1995. с.120.
[3] Виноградова Е.А. Третейский суд. Законодательство. Практика. Комментарий. М., 1997. с.17.
[4] Решетникова И.В. Доказательственное право Англии и США. Екатеринбург, 1997, с.166.

müqavilədə mübahisəyə baxacaq arbitraj orqanını nəzərdə tutmalı və yalnız ondan sonra arbitrajın səlahiyyətini müəyyən etməlidir.[1]

Başqa bir misal. Avstriya firması ilə Çexiyanın xarici ticarət təşkilatı arasında bağlanan arbitraj sazişinə uyğun olaraq, tərəflər arasında gələcəkdə yarana biləcək mübahisələrə Çexiyanın Praqada yerləşən xarici-ticarət arbitrajında baxılmalı idi. Arbitraj sazişinin bu müddəasından sonra mötərizə içərisində "İsveçrənin Sürix şəhərində yerləşən Beynəlxalq Ticarət Arbitrajında" sözləri əlavə edilmişdir. Avstriya firması Çexiyanın xarici ticarət arbitrajının səlahiyyətli olmasını mübahisələndirərək arbitraj qeyd-şərtini aydın və səlis olmaması səbəbi ilə etibarsız sayılmasını xahiş etmişdir. Çexiyanın xarici ticarət arbitrajı firmanın bu tələbini əsassız sayaraq göstərmişdir ki, arbitraj qeyd-şərtində iki arbitraj orqanı göstərildiyi üçün o, alternativ xarakter daşıyır və iddiaçının rəyindən asılı olaraq yaranan mübahisə iki arbitraj orqanından birinə verilə bilər.[2]

Arbitraj sazişinin aydın və səlis ifadə edilməməsi bəzən eyni məzmunlu arbitraj sazişinin şərtləri üzrə bir ölkə daxilində bir-birinə zidd qətnamələrin çıxarılmasına səbəb olur. Məsələn, iki London firması arasında bağlanan çarter müqaviləsində yaranacaq mübahisəyə "Sentrakon" tipik arbitraj qeydinin şərtləri əsasında baxılması nəzərdə tutulmuşdur. Arbitraj qeyd-şərtinin başqa bir müddəasında isə yaranacaq mübahisəyə Parisdə baxılması müəyyən olunmuşdur. Tərəflərdən biri arbitraj sazişini mübahisələndirərək hesab edir ki, əslində, tərəflər mübahisəyə Parisdə baxılması barədə razılığa gəlmişlər və ona görə də "Sentrakon" tipik arbitraj qeyd-şərtinə istinad edilməsi etibarsız hesab edilməlidir. Məhkəmə tərəfin bu tələbini əsassız saymış və göstərmişdir ki, arbitraj sazişi onun qarşısına qoyulan tələblərə tam cavab verir və ona görə də etibarlıdır.[3]

İki firma arasında bağlanan müqavilədə mübahisə yaranacaq təqdirdə, ona Londonda baxılması haqqında arbitraj qeyd-şərti nəzərdə tutulmuşdur, lakin arbitraj orqanının adı, yuxarıda göstərilən misalda olduğu kimi, dəqiq müəyyən edilməmişdir. London məhkəməsi həmin arbitraj sazişini aydın və səlis olmaması səbəbi ilə etibarsız saymışdır.[4]

Göründüyü kimi, arbitraj sazişinin etibarlılığı şərtləri: a) tərəflərin fəaliyyət qabiliyyətli olması; b) iradə ifadəsinin könüllülüyü (iradə azadlığı); c) arbitraj araşdırmasının predmetinin mümkünlüyü və d)

---

[1] Хлестова И.О. Арбитраж во внешнеэкономических отношениях стран-членов СЭВ. М., 1980. с.79.

[2] Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практический комментарий. М., 1997. с.29.

[3] Крылова Н. Статус суда в Великобритании / Вестник Верховного Суда СССР, 1991. №5, с.43.

[4] Крылова Н. Göstərilən əsər, s.50.

arbitraj sazişinin forması ilə bağlı müddəaları özündə ehtiva edir. Bu şərtlərdən hər hansı birinə əməl edilməməsi arbitraj sazişinin etibarsızlığına səbəb olur və icra edilmir.

### *§ 3. İradə azadlığı prinsipinin həyata keçirilməsinin ümumi şərtləri*

18 noyabr 1999-cu il tarixli "Beynəlxalq arbitraj haqqında" qanunun 28-ci maddəsinə müvafiq olaraq Arbitraj Məhkəməsi mübahisəni hüququn elə normalarına uyğun həll edir ki, tərəflər bu normaları mübahisənin mahiyyətinə tətbiq edilə biləcək normalar kimi seçmiş olsunlar... Tərəflərin hər hansı bir göstərişi yoxdursa, arbitraj məhkəməsi tətbiqini mümkün saydığı kolliziya normalarına uyğun müəyyən edilən hüququ tətbiq edir.

Qanunun bu norması BKAM-ın Əsasnaməsinin 15-ci maddəsində də əks olunmuşdur. Belə ki, Əsasnamənin 15-ci maddəsinə uyğun olaraq, BKAM mübahisələri, tərəflərin razılığı ilə müəyyən olunan, tətbiq edilən maddi hüquq normaları əsasında həll edir. Belə razılaşma olmadıqda isə BKAM tətbiq olunmasını mümkün saydığı kollizion normalara əsaslanan hüququ rəhbər tutur.

Beynəlxalq xüsusi hüququn bir strukturu kimi iradə azadlığı və beynəlxalq kommersiya arbitrajı hüququn bir-birindən fərqli iki sahəsinə aiddirlər: iradə azadlığı tətbiq olunan hüququ müəyyən edən beynəlxalq xüsusi hüququn, beynəlxalq arbitraj isə beynəlxalq mülki prosessual hüququn müstəqil bir institutudur.[1]

Lakin həm beynəlxalq qanunvericilik, həm də Azərbaycan qanunvericiliyi bu iki müxtəlif hüquq institutlarını bir-biri ilə bağlayan çoxlu normalara malikdir, çünki iradə azadlığı ilə ilk növbədə beynəlxalq arbitraj institutuları qarşılaşır.

İradə azadlığı beynəlxalq xüsusi hüququn bir institutu olmaq etibarilə öz əksini dövlətlərin milli qanunvericiliyində, həmçinin, bu dövlətlərin bağladıqları beynəlxalq konvensiyalarda tapır. Hüquq institutu kimi iradə azadlığı hüquqi və fiziki şəxslər tərəfindən iştirakçısı olduqları hüquq münasibətlərinə tətbiq ediləcək hüquq normalarının seçilməsi ilə bağlı yaranan münasibətləri tənzim edən hüquq normaları sistemidir. Beynəlxalq kommersiya arbitrajı isə beynəlxalq mülki prosesin bir institutu olmaqla öz əksini dövlətlərin milli qanunvericiliyində və onların bağladıqları beynəlxalq

---

[1] Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.4

konvensiyalarda tapır. Öz təbiətinə görə beynəlxalq kommersiya arbitrajı hüquq normalarını tətbiq edən orqanların növlərindən biri sayılır.

İradə azadlığı və Beynəlxalq Kommersiya Arbitrajı institutları arasında çox mürəkkəb və sıx əlaqə vardır, bu, ilk növbədə, hüquq tətbiq edən orqanla tətbiq olunacaq hüquq norması arasındakı münasibət kimi özünü göstərir. Çünki beynəlxalq kommersiya arbitrajı iradə azadlığının nəticəsi kimi arbitraj sazişində nəzərdə tutulan müvafiq hüquq normasını (istər milli, istər beynəlxalq, istərsə də üçüncü dövlətlərin) tətbiq edir.

Avropa dövlətlərinin hüquq doktrinası ənənəvi olaraq iradə azadlığına beynəlxalq xüsusi hüququn bir institutu kimi baxırlar, bu isə o deməkdir ki, iradə azadlığı milli qanunvericiliyin prinsipi olmaq etibarilə digər norma və institutlarla birlikdə milli hüququn tətbiq edilməsi çərçivəsini müəyyən edir.[1] Bundan başqa beynəlxalq xüsusi hüquq, həmçinin, tərəflərin arbitraj sazişində razılaşdırdıqları tətbiq olunacaq qanunun hansı münasibətləri tənzim etdiyini də müəyyən edir, bu, bir sıra hallarda xarici investisiyalar, valyuta əməliyyatları, inhisarçılıq fəaliyyəti ilə bağlı münasibətləri də əhatə edir.

Beynəlxalq xüsusi hüququn bütün milli sistemlərində beynəlxalq kommersiya müqavilələrinə münasibətdə qanunun müəyyən etdiyi kollizion normalar mühüm yer tutur. Bu, tərəflərin vətəndaşlığı, müqavilənin bağlandığı yer və müqavilə üzrə tərəflərin razılaşdırdıqları icra yeri ilə bağlı münasibətlərə şamil oluna bilər. Beynəlxalq xüsusi hüququn milli sistemləri üçün ümumi olan odur ki, bütün bu kollizion bağlanmaya köməkçi meyar kimi baxılır və yalnız müqavilə bağlayan tərəflər tətbiq edilməli qanunu müəyyən etmədiyi hallarda ondan istifadə edilir.

Son dövrlər beynəlxalq kommersiya arbitrajlarının yerləşdiyi ölkənin milli qanunvericiliyindən asılı olmaması ilə bağlı (Lex Loci arbitri) fikirlər diskussiya obyekti olmaqdadır. Diskussiya aparılan məsələlərdən biri də beynəlxalq kommersiya arbitrajına xas olan arbitraj sazişinin şərtlərinin milli məhkəmələrə də şamil edilməsi imkanları ilə bağlıdır, çünki milli məhkəmələr dövlət orqanlarıdır və ona görə də ərazisində təşkil edildiyi ölkənin ümumi hüququnun və beynəlxalq xüsusi hüququnun müddəalarına tabedirlər (Lex fori). Bu müzakirələr,

---

[1] Рубанов А.А. Автономия воли в международном частном праве как теоретическая проблема / Советский ежегодник международного права. 1985. М., 1986. с.42.

həmçinin, beynəlxalq kommersiya arbitrajına mübahisələrin aidiyyatının hüquqi təbiəti ilə bağlı məsələləri də əhatə edir.[1]

İradənin azadlığı ilə beynəlxalq arbitraj məhkəmələrinin qarşılıqlı əlaqəsi iki prinsiplə müəyyən olunur: 1) Beynəlxalq xarakterli müqavilənin tərəfləri arbitrajın baxmalı olduğu qa-nunvericiliyi azad surətdə seçmək hüququna malikdirlər; 2) Müqavilədə tərəflər tətbiq edilməli qanunvericiliyi seçmədikdə arbitraj özü altı alternativ mənbədən istifadə etməklə, qanunvericiliklə bağlı məsələləri həll edir.

Arbitrajın seçməli olduğu altı alternativ mənbəyə: 1) tərəflərin seçdiyi qanun; 2) tərəflərin beynəlxalq hüquq sistemi üzrə müəyyən etdiyi qanun; 3) beynəlxalq ümumi hüququn hamı tərəfindən qəbul edilən prinsipləri; 4) beynəlxalq xüsusi hüququn hamı tərəfindən qəbul edilən prinsipləri; 5) beynəlxalq arbitrajın hamı tərəfindən qəbul edilən prinsipləri; 6) arbitrajın yerləşdiyi dövlətin kollizion hüquq normaları aiddir.[2]

Əvvəllər beynəlxalq arbitraj tərəflərin arbitraj sazişində razılaşdırdıqları hüququn ümumi qaydasına imperativ normalara, prosedur normalara və həmçinin, arbitrajın olduğu yerin milli hüquq normalarına tabeçiliyinin azalması tendensiyası davam edir, bu tendensiya yuxarıda sadalanan altı mənbədən arbitrajın sərbəst istifadə imkanlarının artmasında özünü göstərir. Göründüyü kimi altı alternativ mənbədən üçün milli qanunvericiliyə deyil, beynəlxalq arbitrajın ümumi qəbul olunmuş prinsiplərinə əsaslanır.

Lakin unutmaq lazım deyil ki, arbitraj haqqında ənənəvi konsepsiyaya görə arbitraj icraatı onun olduğu yerin (ərazinin) qanunvericiliyinə müvafiq olaraq həyata keçirilir, ona görə də həm beynəlxalq kommersiya arbitraj institutu, həm də iradə azadlığı institutu milli qanunvericilikdə nəzərdə tutulan milli hüquq institutu hesab edilir.[3]

1958-ci il Nyu-York Konvensiyasının V maddəsinin 1a bəndinə əsasən, arbitrajın olduğu yerin qanunvericiliyi pozulduğu hallarda arbitraj qətnaməsinin tanınmasından və icra edilməsindən imtina edilə bilər. Həmin norma Azərbaycan Respublikasının MPM-nin 476-cı maddəsində də əks olunmuşdur. Belə ki, MPM-nin 476-cı maddəsinə uyğun olaraq xarici dövlətin arbitraj məhkəməsinin qətnaməsinin

[1] Лазарев С.Л. Международный арбитраж, М., 1991, с.33.
[2] Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.10.
[3] Рубанов А.А. Автономия воли в международном частном праве как теоретическая проблема / Советский ежегодник международного пра-ва, 1985. М., 1986., с.130.

məcburi icra edilməsi və tanınmasından aşağıdakı hallarda imtina edilə bilər:

476.0.1.1. arbitraj sazişində iştirak edən tərəflərdən biri bu və ya digər dərəcədə fəaliyyət qabiliyyəti olmayan, yaxud bu sazişə əsasən tərəflərin tabe olduğu qanuna görə, sazişdə belə müddəa olmadıqda isə qətnamə çıxarılan ölkənin qanununa görə etibarsız hesab edildikdə;

476.0.1.4. münsiflər məhkəməsinin tərkibi və ya arbitraj qaydaları tərəflərin razılığına və ya bunların olmaması arbitrajın olduğu ölkənin qanununa uyğun gəlmədikdə.

MPM-nin 476.0.2-ci maddəsinə əsasən isə arbitraj məhkəməsinin qətnaməsinin icraya yönəldilməsi və tanınması barədə ərizəyə baxan məhkəmə müəyyən etsə ki, mübahisənin obyekti Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən arbitraj baxışının predmeti ola bilməz və yaxud arbitraj məhkəməsinin qətnaməsinin icraya yönəldilməsi Azərbaycan Respublikasının suverenliyinə və qanunvericiliyinin əsas prinsipinə ziddir. O halda da xarici dövlətin arbitraj məhkəməsinin qətnaməsinin məcburi icrasından və tanınmasından imtina edilə bilər.

MPM-nin 476-cı maddənin müddəaları "Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununun 36-cı maddəsində də nəzərdə tutulmuşdur. Fransanın MPM-nin 1494 və 1495-ci maddələrinə uyğun olaraq həm tərəflər, həm də arbitrlər arbitrajda işə baxılması qaydasını tənzim edən qanunu seçməkdə haqlıdırlar, belə seçim olmadıqda fransız qanunu (milli qanun) fəaliyyət göstərir.[1]

İsveçrənin 1989-cu il tarixli arbitraj haqqında qanununun 176-cı maddəsinə görə həmin qanunun müddəaları İsveçrədə fəaliyyət göstərən bütün arbitraj orqanlarına şamil edilir. Bundan başqa qanunun 190-cı maddəsində İsveçrədə arbitraj məhkəmələri tərəfindən qəbul edilmiş qətnamələr üzərində məhkəmə nəzarətinin prinsipləri müəyyən olunmuşdur. Bu prinsiplər, həmçinin, Hollandiyanın arbitraj haqqında qanununun 1065-ci maddəsində də əks olunmuşdur.[2]

Beynəlxalq Kommersiya Arbitrajı ilə arbitrajın keçirildiyi yerin qanunu arasında sıx əlaqə özünü YUNSİTRAL-ın nümunəvi qanununun 1-ci maddəsində də göstərir. Həmin qanunun 1-ci maddəsinə müvafiq olaraq... qanunun müddəaları... yalnız arbitrajın yeri göstərilən dövlətin ərazisində olduğu halda tətbiq olunur... Bu qanun göstərilən dövlətin istənilən digər qanununun təsirinə toxunmur, bu səbəbdən meydana çıxan müəyyən mübahisələr arbitraja verilə bilməz, yaxud arbitraja

---

[1] Боботов С.В. Правосудие во Франции. М., 1994, с.95.

[2] Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., 1993., с.101.

yalnız bu qanundakı müddəalardan fərqli müddəalara uyğun olmaqla verilə bilər.

Göründüyü kimi, arbitraj institutları bir qayda olaraq milli ticarət palatalırının (milli orqanların) yanında yaradıldığı üçün yaradıldığı ölkənin qanunlarına tabe olur. S.N.Lebedev haqlı olaraq göstərir ki, "arbitraj institutları öz statusuna görə millidirlər".[1]

Stokholm Ticarət Palatasının Arbitraj institutunun 1 aprel 1999-cu il tarixli Reqlamentinin 24-cü maddəsinə uyğun olaraq arbitraj tərkibi mübahisələri tərəflərlə razılaşdırılmış hüquq normaları və qanun əsasında həll edir. Belə müqavilə olmadıqda, arbitraj tərkibi daha əlverişli hesab etdiyi hüquq normalarını, yaxud qanunu (İsveçin arbitraj haqqında qanunu) tətbiq edir.[2]

BKAM-ın Əsasnaməsinin 15-ci maddəsinə əsasən isə BKAM mübahisələri, tərəflərin razılığı ilə müəyyən olunmuş, tətbiq edilən maddi hüquq normaları əsasında həll edir. Belə razılaşma olmadıqda isə BKAM tətbiq olunmasını mümkün saydığı **kollizion normalara əsaslanan hüququ** rəhbər tutur.

Göründüyü kimi, BKAM-ın Əsasnaməsi digər anoloji reqlamentlərdən fərqli olaraq bu halda yalnız mili qanunvericiliyin deyil, **kollizion normalara əsaslanan hüququn** tətbiq olun-masını nəzərdə tutur. Fikrimizcə, bu müddəa daha demokratikdir, müasir arbitraj icraatının ruhuna və fəlsəfəsinə uyğundur və son nəticədə arbitraj məhkəməsini milli hüquq sistemindən asılılığını aradan qaldırır.

BKAM-da işə baxılmasının **prosessual qaydası** isə Əsasnamənin 15-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq Əsasnamə ilə nizamlanır. Lakin Əsasnamə və tərəflərin razılığı ilə tənzimləməyən məsələlərin həllində BKAM tərəflərin hər birinə öz mənafelərini qorumaq imkanı verməklə və tərəflərə bərabər münasibət göstərməklə beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanunvericiliyini əsas götürməklə müvafiq hesab etdiyi qaydada işin araşdırılmasını aparır.

Beləliklə, BKAM-da mübahisələrə baxılmasını prosessual qaydası daha çox milli qanunvericiliyin tələblərinə uyğunlaşdırılmışdır.

Kommersiya müqavilələrində tətbiq olunmalı hüququn seçilməsini, başqa sözlə, iradə azadlığı prinsipinin həyata keçirilməsinin ümumi şərtlərini hər bir ölkənin beynəlxalq xüsusi hüququ müəyyən edir.

---

[1] Лебедев С.Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон. М., 1988, с.97.

[2] Münsiflər Məhkəməsi. Qanunvericilik. Təcrübə. Şərhlər. Bakı. 2002., s.170.

Son dövrlərdə Avropa ölkələrində beynəlxalq xüsusi hüququn islahatı həyata keçirilmişdir. Bu islahatların həyata keçirilməsinə Avropa İqtisadi Birliyinin müqavilə öhdəlikləri üzrə Konvensiyası (Konvensiya 19 iyun 1980-cı ildə Romada bağlanmış və 1 aprel 1991-ci ildən qanuni qüvvəyə minmişdir) təkan vermişdir.

Almaniya 25 iyun 1986-cı il tarixdə qanun qəbul edərək özünün beynəlxalq xüsusi hüquq sistemini yeniləşdirmişdir. Fransa 12 may 1981-ci ildən kolliziya hüququnun yeni prinsiplərini müəyyən etmişdir (qərar № 500). Böyük Britaniya (1979) və Hollandiya da (1986) bu yolla getmişdir. İsveçrə də 18 dekabr 1987-ci ildə Beynəlxalq xüsusi hüquq haqqında qanun qəbul etmişdir, analoji qanun Avstriyada da qəbul olunmuşdur.[1]

Azərbaycanda Beynəlxalq xüsusi hüquq haqqında qanun 6 iyun 2000-ci ildə qəbul edilmişdir.[2] Bu qanunun 1-ci maddəsinə uyğun olaraq xarici elementli mülki hüquqi münasibətlərə tətbiq olunmalı hüquq bu Qanunla bərabər, həm də digər müvafiq qanunvericilik aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ümumi qəbul olunmuş beynəlxalq adətlər, habelə tərəflərin razılığı əsasında müəyyən edilir.

İradə azadlığı prinsipinin həyata keçirilməsi şərtlərindən biri tərəflərin tətbiq edilmək üçün seçdiyi qanunun həmin ölkənin qanunlarına zidd olmamasıdır. Məsələn, "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinə əsasən xarici hüququn tətbiqinə məhdudiyyət o halda qoyula bilər ki, xarici hüquq normaları Azərbaycan Respublikasının Konstitusiyasına və referendumla qəbul edilmiş aktlarına zidd olsun.

Burada söhbət Lex Loci arbitri prinsipindən (Beynəlxalq Kommersiya Arbitrajına münasibətdə) gedir.

1980-cı il Roma Konvensiyasının 16-cı maddəsinə müvafiq olaraq, Konvensiyada göstərilən hər hansı ölkənin hüququnun tətbiq edilməsindən o halda imtina edilə bilər ki, bu hüququn tətbiqi məhkəmənin yerləşdiyi ərazinin məxsus olduğu dövlətin qanunvericiliyinə zidd olsun (*ordre public*).

Bu halda xarici qanunun milli qanunvericiliyə uyğunsuzluğu deyil, onun baxılan konkret mübahisə üzrə tətbiqinin mümkünsüzlüyü nəzərdə tutulur.

---

[1] Решетников Ф.М. Правовые системы сторон мира. Справочник. М., 1993, с.70.
[2] Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, Bakı, 2001, s.527-530.

İngiltərədə hakim ingilis ümumi hüququna zidd olan, lakin müqavilədə tətbiq olunmaq üçün nəzərdə tutulan qanunu tətbiq etməməyə haqlıdır.[1]

Beynəlxalq kommersiya arbitrajında Lex Fori ilə əlaqəli ordre public tərəflərin seçdiyi xarici hüququn tətbiqinin elə həddidir ki, o, bütün hüquq sistemləri tərəfindən tanınır. Bu, işin dövlət məhkəmələrinin baxışına verildiyi hallarda çətinlik törətmir, çünki hakim öz ölkəsinin Lege forisini tətbiq edir və bu halda ümumi hüquq avtomatik müəyyən olunur.[2]

Beynəlxalq kommersiya arbitrajının təcrübəsində tərəflərin tətbiq olunmaq üçün arbitraj sazişində razılaşdırdıqları qanunun arbitraj baxışının aparıldığı ölkənin qanunvericiliyinə uyğun gəlməməsi hallarına demək olar ki, rast gəlinmir.[3] Bu da ondan irəli gəlir ki, arbitraj sazişləri bağlanarkən, tərəflər çalışırlar ki, tətbiq edilmək üçün seçilən qanun milli qanunvericiliyə uyğun olsun, həmçinin, aparıcı ölkələrin hüquq sistemlərinin yaxınlaşması və digər ölkələrin milli qanunvericiliyinin beynəlxalq ümumi hüquqa uyğunlaşdırılması prosesi dünya ölkələri üçün ümumi olan hüquq qaydasının yaranmasını şərtləndirir.

İradə azadlığının həyata keçirilməsinin ümumi şərtlərindən biri də tərəflərə **qanundan qəsdən yan keçmənin qadağan olunmasıdır**. Belə ki, hüquq doktrinası ölkə daxili bağlanan və heç bir xarici hüquq sistemləri ilə əlaqəli olmayan müqavilələrin bağlanmasında iradə azadlığının tətbiq olunmasına mənfi yanaşır.

Fransanın hüquq doktrinasına görə xarici dövlətlərlə əlaqəli olmayan hüquq münasibətlərində tərəflər tətbiq olunmaq üçün xarici qanunu seçə bilməzlər.[4]

İngilis hüquq doktrinası isə belə hallarda tərəflərin qanundan yan keçmə hallarının hər birini ayrılıqda analiz etməyi tövsiyə edir və tərəflərin qanundan qəsdən yan keçməsi halı aşkar edildikdə seçilmiş xarici hüquq normasını tətbiq etməyi qadağan edir.

Təcrübədə bir qayda olaraq tərəflər ölkə daxili münasibətlərdə həmin ölkənin qanununun tətbiq edilməsindən o halda yan keçirlər ki,

---

[1] Пучинский В.К. Понятие и источники гражданского процессуального права Англии, США, Франции, М., 1988., с.3.

[2] Джудитта Кордеро Мосс, Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.32.

[3] Попков А. Международный арбитраж и постоянные международные суды: сходства и различия. Вестник Высшего Хозяйственного Суда Республики Беларусь, № 1, 2000, с.225.

[4] Боботов С.В. Правосудие во Франции, М., 1994., с.94

(və ya imtina edirlər) həmin münasibətlər xarici ölkə qanunvericiliyində daha ətraflı və konkret tənzim edilir. Bu hallara ən çox dəniz daşımalarında və bank razılaşmalarında rast gəlinir.[1]

Məsələn, Fransanın Mülki Məcəlləsinin 1133-cü maddəsinə müvafiq olaraq, əgər tərəflər iradə azadlığını digər ölkələrin hüquq sistemləri ilə əlaqəli olan müqavilə münasibətləri üzrə həyata keçirirlərsə, bu halda tərəflərin seçdikləri hüquq mülki hüququn ümumi meyarları əsasında tətbiq edilə bilər, əks təqdirdə həmin əqd etibarsız sayılmalıdır.[2]

Almaniyanın hüquq sisteminə görə alman hüququnun imperativ normalarından yan keçərək tətbiq edilmək üçün xarici qanun seçildiyi halda hüquq tətbiq edən orqan alman hüququnun imperativ normasını tətbiq etməyə haqlıdır, əgər alman hüququnda həmin münasibətləri tənzim edən imperativ normalar olmadıqda, o münasibətləri tənzim edən yeganə hüquq sistemi olan üçüncü ölkənin imperativ norması da tətbiq edilə bilər.[3]

19 iyun 1980-cı il tarixli Roma Kovnensiyası iradə azadlığının imperativ normalardan yan keçməklə həyata keçirilməsi münasibətlərini birbaşa tənzim etmir, lakin dolayısı olaraq 7.2-ci maddədə nəzərdə tutulur ki, ölkədaxili münasibətlərdə xarici qanunun tətbiq edilməsi imkanları məhdudlaşdırılmalıdır və beləliklə də, əvvəlcədən tərəflərin iradə azadlığı və imperativ normalardan yan keçmək imkanları haqlı olaraq məhdudlaşdırılır. Ona görə də Kovnensiyanın 3.3-cü maddəsinə müvafiq olaraq müqavilə beynəlxalq xarakterə malik olmadıqda, məhkəmə həmin sazişlə əlaqəli olan hər hansı hüquq sisteminin imperativ normasını tətbiq edə bilər.

Hər bir halda işə baxan beynəlxalq kommersiya arbitraj məhkəmələri, o cümlədən, Azərbaycanda yeni yaradılmış Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi mübahisələrin həll edilməsi üçün iradə azadlığının həyata keçirilməsinin ümumi şərtlərinə tərəflərin əməl edib-etməməsini yoxlamağa borcludurlar, çünki iradə azadlığı arbitraj sazişinin mühüm şərtlərindən biridir və ona əməl edilməməsi bir çox hallarda arbitraj sazişinin (növlərindən asılı olmayaraq) etibarsızlığına gətirib çıxarır.

[1] Джудитта Кордеро Мосс, göstərilən əsər, s.36.
[2] Крылова И. Судебная система Франции / Вестник Верховного Суда СССР, 1991, № 7, с.42.
[3] Решетников Ф.М. Правовые системы стран мира. Справочник, М., 1993, с.197.

## *§ 4. Tərəflərin seçdiyi hüququn tətbiqi*

Tərəflərin seçdiyi hüququn tətbiq edilməsini öz səlahiyyətləri dairəsində hüquq tətbiq edən orqanlar həyata keçirirlər və prinsipcə eyni məsələləri həll edirlər. Lakin hüquq tətbiq edən orqanlar içərisində beynəlxalq kommersiya arbitrajı mühüm yer tutur, ona görə də arbitraj tərəflərin arbitraj sazişində seçdiyi hüququ tətbiq edərkən digər hüquq tətbiq edən orqanlardan (məsələn, milli məhkəmələr) fərqli spesifik məsələləri həll etməli olurlar. Bu məsələlər sırasına tərəflərin seçdiyi hüquqa qoşulma, Lex foriyə aid olan imperativ normaların (milli qanunvericiliyin) öyrənilməsi və tətbiqi, seçilmiş hüququn müstəsna olaraq və tam tətbiqi, seçilən hüquqa üçüncü ölkənin imperativ hüquq normalarının qoşulması və nəhayət tabeçilik haqqında qeyd-şərt aid edilir.[1]

Tərəflər adətən tətbiq olunmalı hüququ seçərkən arbitraj sazişində onların tabe olacaqları münasibətlərə aid olan konkret hüquq normalarını deyil, bütövlükdə tətbiq olunacaq hüququ göstərirlər və bu halda seçilən hüquq heç də həmişə mülki hüquq normaları deyil həmçinin, cəmiyyətin sosial və iqtisadi mənafeyindən doğan münasibətləri tənzimləyən normalar, inzibati xarakterli normalar və müqavilə azadlığını müəyyən dövlətin mənafeyi naminə məhdudlaşdıran normalar ola bilər. Məsələn, İngiltərənin məhkəmə təcrübəsində iradə azadlığı ilə müəyyən olunan və müqavilənin etibarlılığını, tərəflərin öhdəliklərini və onun icrasını şərtləndirən tətbiq olunmalı hüquq "müqaviləyə xas olan hüquq" adlandırılır və bu hüquq çox geniş hüquq münasibətlərini tənzim edən valyuta qanunvericiliyi qaydalarına, öhdəliklər üzrə faizlərin həcmini məhdudlaşdıran qanunlara, həmçinin, rəqabətçilərin birliyini məhdudlaşdıran qanunvericiliyə tətbiq edilir.[2]

İsveçrənin Beynəlxalq xüsusi hüquq haqqında qanununun 13-cü maddəsinə uyğun olaraq xarici qanunvericiliyin hər hansı müddəasının tətbiq edilməsinin onun ümumi hüquq xarakteri daşıması səbəbiylə istisna edilməsi yolverilməzdir. Lakin bir sıra münasibətlər mövcuddur ki, (məsələn, əmək bazarının tənzimi, müəyyən kateqoriya malların ölkəyə gətirilməsi və çıxarılmasının qadağan edilməsi və s.) qanunvericilik bilərəkdən müqavilə azadlığı prinsipi məhdudlaşdırır,

---

[1] Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.64.

[2] Пучинский В.К. Понятие и источники гражданского процессуального права Англии, США, Франции. М., 1988, с.101.

lakin bu məhdudlaşdırılmanın məqsədi mülki hüququn məqsədləri ilə üst-üstə düşmür və ona görə Qanunun 13-cü maddəsi bu münasibətlərə şamil edilmir.[1]

Təcrübədə beynəlxalq müqavilənin subyektlərinin arbitraj sazişində tətbiq olunmalı hüquq kimi tərəflərə aidiyyatı olmayan, neytral, üçüncü ölkənin qanununun həmin münasibətlərə tətbiq olunması barədə razılığa gəlməsi hallarına da rast gəlinir.
Bununla bağlı hüquq ədəbiyyatında belə bir fikir mövcuddur ki, üçüncü ölkənin qanunun tətbiq olunması haqqında arbitraj sazişində razılığa gələn tərəflərin iradə azadlığı beynəlxalq xüsusi hüququn normalarına deyil, xarici maddi hüquq normalarına əsaslanır.[2]

Bu fikirlə razılaşmaq olar.

Son dövrlərdə beynəlxalq kommersiya arbitrajının təcrübəsində tərəflərin müqavilədə "tabeçilik haqqında qeyd-şərti" nəzərdə tutan müddəaları razılaşdırmaları hallarına rast gəlinir, bu, iradə azadlığının həyata keçirilməsinin adi formasından onunla fərqlənir ki, tərəflər nəinki onların münasibətlərinin hansı hüquqla tənzim edilməsini, həmçinin, heç bir münasibətləri olmayan bir ölkənin ümumi hüquq normalarına tabe olmaları barədə razılığa gəlirlər. Məsələn, xarici vasitəçidən mal idxal edən (importer) tərəfin həmin malı digər ölkələrə ixrac etmək (reeksport) üçün üçüncü ölkənin (bu halda malın məxsus olduğu ölkənin) qanunlarından istifadə edilməsi üçün razılığa gəlməsi.

Bu problemlə bağlı hüquq ədəbiyyatında diskussiyalar hələ də davam edir. Məlumdur ki, milli hüquq sistemini təşkil edən normaların içərisində dövlətin müəyyən etdiyi vacib siyasi, sosial və iqtisadi maraqları əks etdirən normalar da vardır. Hüquqi və fiziki şəxslər müqavilə bağlayarkən bu normalardan yan keçə bilməzlər, çünki bu normalar həmin münasibətlərin hansı hüquqla tənzim edilməsindən asılı olmayaraq tətbiq edilməlidir. Müxtəlif ölkələrin qanunvericiliyi onu müxtəlif adla: 1) İsveçrənin beynəlxalq xüsusi hüququ haqqında qanunda o, "ümumi hüquqi xarakterli müddəalar"; 2) Fransız hüquq sistemində "Lois de police"; 3) Digər dövlətlərdə "məcburi normalar"

[1] Садиков О.Б. Императивные нормы в международном частном праве / Московский журнал международного права. 1992, № 2, с.19.
[2] Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.67.

adlandırırlar.[1] Məsələn, Almaniyada bu kateqoriya "Eingriffsnormen" adlanır.[2]

Hüquq nəzəriyyəsində də o, müxtəlif adla: "iqtisadi hüquq "imperativ normalar", "müdaxiləçi hüquq" ("intervenüionist") adlandırılır.[3] Bu normaların əsas cəhəti onunla səciyyələndirilir ki, bu normaları müəyyən edən dövlət öz ərazisində yaranan beynəlxalq münasibətlərdə onlardan kənara çıxılmasını qadağan edir, başqa sözlə, həmin dövlətin ərazisində beynəlxalq münasibətlər sferasına daxil olan bütün subyektlər mütləq həmin normaları tətbiq etməlidirlər. Bu normaların üstün hüquqi qüvvəyə malik olması bir tərəfdən milli iqtisadi sistemin və ya ticarət balansının müdafiəsi, sosial cəhətdən daha az müdafiə olunan qrupların mənafeyi, digər tərəfdən, milli təhlükəsizliyin təmini və ya dövlətin xarici siyasət tədbirlərinin həyata keçirilməsi məqsədlərinə xidmət edir. Bura xarici valyutanın mübadiləsi üzrə qaydalar, banklar, qiymətli kağızlar, idxal və ixrac, rəqabət, əmək bazarı, istehlakçıların müdafiəsi və vergilər haqqında qanunlar aid edilir.

Bu normalar ("imperativ normalar" adı daha uyğundur) hər bir halda müqavilə azadlığını məhdudlaşdırır və hətta iradə azadlığı formasında da ondan kənara çıxmalara yol verilmir. İmperativ normaların bu xüsusiyyəti müxtəlif vaxtlarda müxtəlif diskussiyalara yol açsa da, hesab edirik ki, iradə azadlığının bu formada məhdudlaşdırılması həm normal məntiqə, həm də o normanı müəyyən edən dövlətin mənafeyinə tam uyğundur.

Lakin tam nəzərə almaq lazımdır ki, iradə azadlığı formasında seçilən və üçüncü dövlətə mənsub olan normaların tətbiqi avtomatik olaraq baş vermir, çünki imperativ normalar iradə azadlığından daha üçtün olan ümumi hüquqi xarakter daşıyan kollizion bağlılıq əsasında tətbiq edilir. Bura ərazi prinsipi və tərəflərin milli mənsubiyyəti, dövlətlər arasında əməkdaşlığın həcmi və s. aid edilir.

İmperativ normalar dövlət hakimiyyətinin həyata keçirilməsi forması olmaqla tərəflərin fərdi azadlığını nəzərə almadan hamı üçün ümumi olan hüquq və vəzifələr müəyyən edir, bu ümumi hüquq və vəzifələr kontekstində də iradə azadlığının sərhədləri müəyyən olunur.

---

[1] Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.69.

[2] Розенберг М.Г. Международный договор и иностранное право в практике международного коммерческого арбитражного суда. М., 1998, с.90.

[3] Практика Международного коммерческого арбитражного суда. Научно-практический комментарий, М., 1997, с.23.

Hüquq ədəbiyyatında xarici imperativ normaların tətbiqinin beynəlxalq xüsusi hüququn deyil, beynəlxalq hüququn problemi olması ilə bağlı da fikirlər mövcuddur.[1]

İradə azadlığının həyata keçirilməsi mülki hüquq sferası ilə məhdudlaşmır, imperativ normaları müxtəlif kollizion bağlılıq əsasında tətbiq etmək olar, bundan başqa, onların mövcudluğuna tətbiq olunan qanunun maddi normalarına uyğun qiymətləndirilən fakt kimi baxılmalıdır.

D.K.Mossun fikrincə, iradə azadlığı ümumi hüququn deyil, mülki hüquq normalarının tətbiq edilməsini müəyyən etməyə qabil olan müstəqil institut kimi səciyyələndirilməlidir.[2] O, haqlı olaraq göstərir ki, müxtəlif normaların müxtəlif təfsiri ilə bağlı problemləri yalnız vahid qanunvericilik və ya beynəlxalq konvensiyaların bağlanması yolu ilə aradan qaldırmaq olar.

Məsələn, 1975-ci ildə Latın Amerikası ölkələri beynəlxalq xüsusi hüququn ümumi prinsipləri haqqında Konvensiya imzalamışlar.[3]

Əvvəllərdə qeyd edildiyi kimi, beynəlxalq kommersiya arbitrajının təcrübəsində nizama salınan hüquq münasibətləri ilə heç bir əlaqəsi olmayan üçüncü ölkələrin qanunvericiliyinin imperativ normalarının tətbiq edilməsi barədə qeyd-şərtə tez-tez rast gəlinir. Arbitraj sazişlərində, hətta bir deyil, bir neçə üçüncü ölkənin imperativ normalarının tətbiq edilməsi imkanları da nəzərdə tutula bilər və bu xəttin də özünün nəzəri cəhətdən əsaslandırılması vardır.

1991-ci ildə Beynəlxalq Hüquq İnstitutu öz tövsiyələrində aşağıdakı tezisi nəzərdə tutmuşdur: əgər tərəflərin arbitraj sazişində razılaşdırdıqları arbitrajın yeri və tətbiq olunacaq normalar imperativ normalara uyğun gələrsə və ona zidd olmazsa, o, tətbiq edilməlidir, əks təqdirdə, tərəflərin tətbiq olunmaq üçün seçdiyi hüquqa üçüncü ölkənin imperativ normalarını əlavə etmək lazımdır.[4]

Hüquq ədəbiyyatında seçilmiş qanuna üçüncü ölkənin imperativ hüquq normalarının əlavə edilməsi ilə bağlı müxtəlif fikirlər vardır. Bəzi müəlliflər belə hesab edirlər ki, beynəlxalq kommersiya arbitrajı üçün üçüncü ölkənin hüququ deyilən anlayış mövcud deyildir, çünki beynəlxalq arbitraj öz hüquqi təbiəti etibarilə beynəlxalq olduğu üçün o,

---

[1] Садиков О.Б. Императивные нормы в международном частном праве / Московский журнал международного права. 1992, № 2, с.19.

[2] Джудитта Кордеро Мосс, Автономия воли в практике международного коммерческого арбитража, М., 1996, с.72.

[3] Yenə orada, s.72

[4] Практика Международного коммерческого арбитражного суда. Научно-практический комментарий, М., 1997, с.23.

hər hansı ölkənin milli hüquq sisteminə üstünlük verməyə haqlı deyildir və arbitraj öz təşəbbüsü ilə baxılan işin predmetini tənzim edən hər hansı dövlətin imperativ normalarını tətbiq etməlidir. Onların fikrincə, üçüncü ölkənin imperativ normaları beynəlxalq xüsusi hüquqda və beynəlxalq konvensiyalarda nəzərdə tutulmadığı hallarda da arbitraj tərəfindən tətbiq edilməlidir.[1]

Hüquq ədəbiyyatında bu fikrə əks olan fikirlər də mövcuddur. Həmin mövqeyi müdafiə edən müəlliflərin fikrincə, beynəlxalq kommersiya arbitrajı beynəlxalq orqan olduğu üçün o, heç bir ölkənin milli hüquq sistemi ilə bağlı deyildir və yalnız tərəflərin iradəsini yerinə yetirir, ona görə də arbitrajın öz təşəbbüsü ilə hər hansı ölkənin milli qanunvericiliyinin imperativ normalarını tətbiq etməsi mümkünsüzdür.[2]

Son dövrlərdə beynəlxalq kommersiya arbitrajlarının seçilmiş imperativ norma kimi üçüncü ölkələrin milli qanunvericiliyinin tətbiqi təcrübəsi üstünlük qazanmaqdadır, belə ki, bir sıra çoxtərəfli konvensiyalarda üçüncü dövlətlərin imperativ normalarının tətbiq edilməsi üzrə öhdəlik öz əksini tapmışdır və bu konvensiyaların da iştirakçı dövlətlərin milli qanun-vericiliyinə təsir imkanları çox genişdir. Belə Konvensiya sırasına Beynəlxalq Valyuta Fondu haqqında Bretton-Vud Konvensiyasını (VIII maddə, 2-ci bənd) 19 iyun 1980-cı il tarixli Roma Konvensiyasını (7-ci maddə) aid etmək olar.

Bu konvensiyaların üçüncü ölkələrin imperativ normalarının tətbiqi ilə bağlı müddəaları Almaniyanın, Avstriyanın, İsveçrənin və digər Avropa dövlətlərinin milli qanunvericiliyinə təsir göstərmişdir.

Tərəflərin seçdiyi üçüncü dövlətlərin imperativ hüquq normaları Beynəlxalq arbitraj məhkəməsinin təcrübəsində müxtəlif cür tətbiq olunur. Bir sıra hallarda üçüncü dövlətlərin imperativ normalarının tətbiqi imkanları məhdudlaşdırılır, bu halda arbitraj yalnız tərəflərin seçdiyi və onların məxsus olduğu dövlətin imperativ normalarını tətbiq edir. Digər halda isə arbitraj üçüncü dövlətin imperativ normalarını müxtəlif qaydada tətbiq edir: bir halda üçüncü dövlətin imperativ normaları digər normalarla birlikdə tətbiq olunur; bir sıra işlər üzrə isə arbitraj bu müddəaları hüquq norması kimi deyil, hüquqi fakt kimi tətbiq edir və bu da maddi hüququn tətbiqinin qiymətləndirilməsinə öz təsirini göstərir. Məsələn, Meksikalı iddiaçı ilə Fransız cavabdeh arasında mubahisəyə baxılarkən cavabdeh iddia edir ki, müqavilə

[1] Grigera Noon H.A/ Choice-Law problems in International commercial arbitration. Tubingen, 1992, p.77; Ярков В.В. Третейский Суд Национальной Ассоциа-ции участников фондового рынка / Вестник НАУФОР. 1998, № 1, с.4.
[2] Lew J.Applicable Law in International commercial arbitration N.Y., 1978, p.41; Дж.Кореро Moss, göstərilən əsər, s.68.

Meksika hüququnun imperativ normalarına zidd olduğu üçün etibarsız sayılmalıdır. Arbitraj qətnamə çıxararaq belə hesab etmişdir ki, Meksika hüququnun imperativ normaları ərazi xarakterli olduğu üçün onun tətbiqi həmin ərazi üzrə məhdudlaşdırılır və ona görə də beynəlxalq xarakterli müqavilələrdə nəzərə alına bilməz.[1]

Bu sətirlərin müəllifi də belə hesab edir ki, beynəlxalq arbitraj məhkəmələri milli orqan olmadığı üçün bu münasibətlərdə neytral mövqe tutmalı və tərəflərin həmin münasibətlərin tənzim edilməsi üçün arbitraj sazişində nəzərdə tutmadığı hüququ tətbiq etməkdən çəkinməli və son nəticədə digər dövlətlərin hüquq sistemlərinin milli siyasətinin həyata keçirilməsində vasitəçi rolu oynamamalıdır.

Fikrimizcə, iradə azadlığı prinsipinin əsas cəhətləri, məzmunu və tətbiqi imkanları ilə bağlı tədqiq edilməmiş problemlər kifayət qədərdir, iradə azadlığı ilə beynəlxalq arbitraj institutunun qarşılıqlı əlaqələri də müstəqil tədqiqat mövzusu ola bilər, biz bu fəsildə yalnız həmin əlaqələrin ümumi cəhətlərini araşdırmağa çalışdıq.

## *§ 5. Arbitraj sazişinin məzmunu*

Növündən asılı olmayaraq arbitraj sazişi hazırlanarkən onun məzmunu bir sıra ünsürləri özündə əks etdirməlidir. Bu ünsürlərin və şərtlərin arbitraj sazişinin məzmununa daxil edilməsi onun tətbiqi imkanlarını artırır və həmçinin arbitraj sazişini daha anlaşılan, tam və müəyyən edir.

Nə Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının qanununda, nə də BKAM-ın Əsasnaməsində arbitraj sazişinin məzmunu ilə bağlı heç bir müddəa yoxdur. Fikrimizcə, istər qanunla, istərsə də Əsasnamədə arbitraj sazişinin məzmununa dair müddəanın olması vacibdir.

Arbitraj nəzəriyyəsinə və praktikasına istinad edərək E.V. Bruntseva arbitraj sazişinin məzmununa aşağıdakı şərtlərin salınmasını zəruri hesab edir:

1) Arbitrajın tipi (arbitraj institutu və ya ad hoc);
2) İşə baxacaq arbitrajın adı;
3) İşə baxılacaq Reqlamentin adı;
4) Arbitrajda baxılacaq mübahisələrin növləri;
5) Arbitrajın keçirildiyi yer;

[1] Тимофеева Н.Г. Становление и развитие правовой системы Мексики. /Правоведение, 1992, №2, с.83.

6) Arbitraj araşdırmasının dili;
7) Tətbiq olunacaq hüquq;
8) İşə baxacaq arbitrlərin sayı;
9) Arbitraj tərkibinin formalaşdırılması qaydası.[1]

Müqavilənin xüsusiyyətindən, növündən və tərəflərin arzusundan asılı olaraq arbitraj sazişinin məzmununa digər şərtlər də əlavə edilə bilər.

Arbitraj sazişi hazırlanarkən ilk növbədə arbitrajın tipi məsələsi həll edilməlidi, başqa sözlə, arbitraj sazişini bağlamaq arzusunda olan subyektlər yaranacaq mübahisəyə ad hoc və ya arbitraj institutunda baxılmasını şərtləndirməlidirlər.

Arbitraj institutu daimi fəaliyyət göstərən orqanlara malik olmaqla özünün işə baxılması Reqlamentinə malikdirlər, ad hoc arbitrajı isə konkret mübahisənin həll edilməsi məqsədilə yaradılır və özünün inzibati aparatına və işə baxılması Reqlamentinə malik deyildir.

Həm ad hoc, həm də arbitraj institutu artıq yaranmış və ya gələcəkdə yaranacaq mübahisələrə baxılmaq üçün seçilə bilər.

Arbitraj praktikası göstərir ki, tərəflər bir qayda olaraq arbitraj institutunun seçilməsinə üstünlük verirlər, çünki arbitraj institutu aşağıdakı üstünlüklərə malikdir: 1) onun, idarəçilik aparatı var; 2) işə baxılması Reqlamentinə malikdir; 3) arbitraj tərkibini institut özü formalaşdıra bilər; 4) işə baxılmasını özü təşkil edir; 5) sübutların toplanmasına nəzarət edir və üçotunu aparır; 6) nüfuzlu arbitraj institutunun qərarlarının icrasında problem az olur və s.

Əlbəttə, arbitraj institutu nöqsanlardan da xali deyildir (məsələn, əlavə inzibati xərclər, bürokratik prosedurlar və s.).

Ad hoc arbitrajının üstünlüklərinə: 1) prosesin tərəflərin tələbinə uyğun aparılması; 2) işə baxılma prosedurunun çevikliyi; 3) sürət və vəsaitlərə qənaət edilməsi (məsələn, inzibati rüsumun olmaması, arbitrlərin qonorarlarına qənaət və s.) daxildir. Ad hoc arbitrajında inzibati funksiyaları (prosesin təşkili, binanın icrası və s.) arbitrlərin özləri və ya xüsusi olaraq bu məqsədlə tutulmuş inzibatçı və ya reqistrator yerinə yetirir.[2] Hər iki halda inzibati xərcləri tərəflər ödəyirlər.

Ad hoc arbitrajının naqisliklərindən biri ondan ibarətdir ki, arbitraj tərkibini formalaşdırılmasına çox vaxt sərf olunur. Belə ki, tərəflərdən biri arbitri təyin etmədikdə və ya təyinatla bağlı vaxtı gecikdirdikdə, yaxud sədrlik edənin təyin edilməsində razılığa gəlinmədikdə artıq vaxt

---

[1] Брунцова Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.105
[2] Комаров В.В. Международный коммерческий арбитраж, Харьков, 1995,с.31.

itirilir və həmçinin, tərəflər əlavə maliyyə xərclərinə məruz qalırlar. Arbitraj təcrübəsində bir sıra dövlətlər ad hoc arbitrajına inamsız yanaşdıqları üçün qətnamələrin də icra edilməsində və tanınmasında müəyyən çətinliklər yaranır.[1]

Beləliklə, arbitraj təcrübəsində tərəflər ad hoc arbitrajına nisbətdə arbitraj institutuna üstünlük verirlər. Tərəflər arbitraj sazişində yaranacaq və ya yaranan mübahisəyə ad hoc arbitrajında baxılmasını nəzərdə tutduğu halda, sonradan fikirlərini dəyişib arbitraj institutuna müraciət etməli olsalar bu, bir çox çətinliklər yarada bilər, ancaq əksinə, arbitraj institutu barəsində razılığa gələn tərəflər sonradan heç bir çətinlik çəkmədən həmin mübahisəni ad hoc arbitrajının həllinə verə bilərlər.

Arbitraj sazişinin məzmununa daxil olan ünsürlərdən biri mübahisənin baxılmaq üçün hansı arbitraj orqanına verilməsidir. Hazırda dünyanın müxtəlif ölkələrində çoxlu sayda arbitraj institutları fəaliyyət göstərir (Bu barədə I fəsildə geniş bəhs etmişik). Hər hansı bir arbitraj institutunu və onun reqlamenti heç də tərəflərin hər ikisini razı sala bilməz və onun üçün də arbitraj sazişində arbitraj orqanının seçilməsinə tərəflər maksimum ehtiyatlı yanaşmalıdırlar.

Arbitraj orqanının seçilməsi tərəflərin milliyyətindən, əqdin mahiyyətindən, qətnamənin icrasının mümkün problemlərindən, xüsusi bölgə və ya siyasi amillərdən çox asılıdır.

Arbitraj sazişində arbitraj orqanı seçilərkən aşağıdakı amillərin nəzərə alınması vacibdir:

1. Arbitraj institutunun müəyyən bölgəyə coğrafi bağlılığı. Məsələn, Honk-Konqda yerləşən arbitraj mərkəzi, Sakit okean bölgəsi, həmçinin, Çin və Honk-Konq arasındakı kommersiya mübahisələrinə baxan rahat bir orqandır; Qahirə arbitraj mərkəzi Şimali Afrika, Yaxın Şərq və ümumiyyətlə ərəb dünyası üçün əlverişli arbitraj institutudur; Kuala-Lumpur arbitraj institutu Cənubi və Cənub-Şərqi Asiya ölkələri üçün rahat forumdur və s. Lakin elə arbitraj institutları vardır ki, onlar öz fəaliyyətlərini müəyyən bölgə ilə məhdudlaşdırmırlar. Məsələn, Beynəlxalq Ticarət Palata Avropada yerləşsə də heç bir bölgəyə bağlı deyildir və qitələrdə yerləşən tərəflər öz aralarında yaranan mübahisələri könüllü olaraq bu arbitraj institutun həllinə verirlər.

---

[1] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.106.

2. Arbitraj sazişində seçilən arbitraj institutu mübahisələri prosessual cəhətdən keyfiyyətli, səmərəli, tez, ədalətli həll edən və hər iki tərəfə sərf edən reqlamentə malik olmalıdır. Arbitraj institutun reqlamentinin keyfiyyəti arbitraj orqanının seçilməsində həlledici rol oynayır.
3. Arbitraj institutunun seçilməsində həmin arbitrajın əməkdaşlarının təcrübəsi və ixtisaslaşması da mühüm əhəmiyyətə malikdir.
4. Arbitraj institutu ərazisində yerləşdiyi ölkənin yerli orqanlarından asılı olmamalıdır. Müəyyən orqanlardan (həm dövlət, həm də qeyri-dövlət) asılı olan arbitraj məhkəməsi tərəflərə münasibətdə qərəzsiz mövqedə dayana bilməz və bu da son nəticədə ədalətsiz qərarın çıxarılması ilə nəticələnə bilər.
5. Arbitraj institutunun sabitliyi arbitraj orqanının seçilməsində mühüm əhəmiyyət kəsb edir, çünki tərəflər müqavilə bağladıqdan bir neçə il sonra mübahisə yarana bilər, ona görə də müqaviləni bağlayan subyektlər arxayın olmalıdırlar ki, seçdikləri arbitraj institutu uzun illər fəaliyyət göstərəcək və öz varlığına xitam verməyəcəkdir. Əgər arbitraj institutu mübahisə yaranan vaxtadək öz fəaliyyətinə xitam verərsə, onda arbitraj sazişi 1958-ci il tarixli Nyu-York Konvensiyasının 2-ci maddəsinin 3-cü bəndinin təsiri altına düşür. Həmin maddəyə görə (həmçinin, Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının Qanunun 8-ci maddəsinin 1-ci bəndi) arbitraj sazişi etibarsız hesab olunduqda, qüvvəsini itirdikdə və ya icra edilə bilmədikdə məhkəmələr tərəfləri arbitraja göndərməyə haqlı deyildir.

Müxtəlif arbitraj institutları arbitrajın inzibati idarəçiliyinə müxtəlif cür yanaşırlar. Hüquq ədəbiyyatında arbitrajın inzibati idarəçiliyinin iki növünü fərqləndirirlər:

1. Tam inzibati idarəçilik.
2. Hissəvi inzibati idarəçilik.[1]

Tam inzibati idarəçiliyi həyata keçirən arbitraj institutu (Məsələn, Amerika Arbitraj Assosiasiyası, London Beynəlxalq Arbitraj Məhkəməsi) arbitrlər və tərəflər arasında hər cür yazışmanı, arbitraj iclasının keçirilməsini təşkil edir, arbitraj icraatının bütün

[1] Розенберг М.Г. Практика Международного коммерческого арбитражного суда, М., 1997, с.21.

mərhələlərində prosesə nəzarət edir və arbitrlər tərəfindən çıxarılan qətnamə barəsində tərəflərə məlumat verir.

Hissəvi inzibati idarəçilikdə isə (Məsələn, Beynəlxalq Ticarət Palatası) arbitraj institutu bir sıra vacib funksiyaları: çatışmayan arbitrlərin təyin edilməsi, çıxarılan qətnamənin yoxlanması və s. yerinə yetirir. Lakin bütün bu inzibati hərəkətlər arbitraj sazişi əsasında, arbitraj sazişi olmadıqda isə arbitraj tərkibinin göstərişi əsasında yerinə yetirilir.

Arbitraj orqanının inzibati xidməti öz tərkibində katiblik xidmətlərini və digər köməkçi hərəkətləri ehtiva edir. Bura adətən işə baxılmasının təşkili, arbitrlər və tərəflər arasında yazışmalar, arbitrlərin qonorarının müəyyən olunması, arbitraj xərclərini və arbitrlərin qonorarının ödənilməsi üçün tərəflərdən depozitin alınması və s. daxildir.

Bir sıra arbitraj orqanları yalnız özlərinin yerləşdiyi yerdə deyil, həmçinin, digər yerlərdə də inzibati idarəçilik funksiyalarını yerinə yetirmək imkanına malikdirlər. Məsələn, Beynəlxalq Ticarət Palatası, Amerika Arbitraj Assosiasiyası, London Beynəlxalq Arbitraj Məhkəməsi belələrindəndir.

Əksər arbitraj institutları isə (o cümlədən, Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi) yalnız öz ölkəsi daxilində və ya öz yerləşdiyi yerdə inzibati idarəçilik funksiyalarını yerinə yetirirlər.[1]

Arbitraj sazişində arbitraj institutu seçilərkən tərəflər mütləq həmin arbitraj orqanı haqqında, onun reqlamenti haqqında, göstərdiyi xidmətlər haqqında ətraflı biliyə malik olmalıdırlar.

Arbitraj təcrübəsində heç kəsə məlum olmayan arbitraj orqanının seçilməsinin dələduzluq hallarına yol açması barədə çoxlu sayda misallar vardır.

Məsələn, Kanadanın "Pel Tronix" şirkəti Fransanın "Portex" firması ilə bağladığı müqavilədə mübahisələrə Yuxarı Reyndə yerləşən Milli Arbitraj Mərkəzində baxılması haqqında arbitr-şərti etmişdir. Hər iki müəssisə arasında yaranan mübahisəyə Fransanın Bordo şəhərində arbitraj prosesində baxılmış və "Bel Tronix" şirkətinin ziyanına qətnamə çıxarılmışdır. Arbitraj qətnaməsi Bordo şəhərinin Apelyasiya Məhkəməsi tərəfindən qüvvədə saxlanmışdır. "Bel Tronix" şirkətinin təkidi ilə cinayət araşdırması zamanı məlum olmuşdur ki, Milli Arbitraj Mərkəzi yalnız kağız üzərində mövcud olmuşdur. Mərkəz bir prezidentdən ibarət olmuş və o da, guya, işə baxıb qətnamə çıxarmışdır,

[1] Виноградова Е. А. Третейский суд. М., 1997, с.87.

nəticədə mərkəzin prezidenti və "Protex" firması haqqında cinayət işi qaldırılmış, "Bel Tronix" şirkətinin əleyhinə çıxarılmış qətnamə isə ləğv edilmişdir.[1]

Arbitraj sazişinin məzmununu təşkil edən vacib ünsürlərdən biri də **Reqlamentin seçilməsidir.**

Əksər arbitraj Reqlamentləri arbitraj institutu ilə sıx bağlı olmaqla onların səciyyəvi xüsusiyyətlərini və məxsus olduğu hüquq sisteminin əsas müddəalarını özündə əks etdirir. Məsələn, Beynəlxalq Ticarət Palatasının Reqlamenti qitə hüququnun əsas elementlərini özündə birləşdirməklə bir növ "avropa" xarakterinə malikdir[2], London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamenti isə ingilis ümumi hüququ ilə bağlıdır və anqlo-sakson hüququnun əsas cəhətlərini özündə təcəssüm etdirir.

YUNSİTRAL-ın arbitraj reqlamenti heç bir arbitraj mərkəzi ilə əlaqəli deyildir və bütün hüquq sistemləri üçün qəbul edilən müstəqil normalar sisteminə malikdir və hər hansı dövlətin ərazisində yaranan hər hansı mübahisəyə baxılması üçün tətbiq edilə bilər.

Tərəflər arbitraj sazişində arbitraj institutu barədə razılığa gələrkən işə baxılması reqlamentini də razılaşdırmalıdır, bu Reqlament bir çox hallarda işə baxacaq arbitraj institutuna məxsus olur. Lakin bir sıra arbitraj orqanları bir deyil, bir neçə arbitraj reqlamentinə malikdirlər (Məsələn, Amerika Arbitraj Assosiasiyası, Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu), bu halda tərəflər hansı Reqlamentlə işə baxılmalı olmasını dəqiq müəyyən etməlidirlər.

Bir sıra arbitraj institutları (London Beynəlxalq Arbitraj Məhkəməsi, Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunu və s.) YUNSİTRAL-ın arbitraj reqlamentinə müvafiq olaraq beynəlxalq arbitrajların inzibati idarəçiliyini həyata keçirilməsinə razılıq vermişlər.[2]

Beynəlxalq arbitraj institutlarının reqlamentləri mütəmadi olaraq dəyişikliklərə məruz qalırlar və ya yeniləşirlər. 1997-1999-cu illərdə bir sıra beynəlxalq arbitraj institutlarının (o cümlədən, Beynəlxalq Ticarət Palatası, London Beynəlxalq Arbitraj Məhkəməsi, Amerika Arbitraj Assosiasiyası, Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu, Çin Xarici İqtisadi və Xarici Ticarət Arbitraj Komissiyası) reqlamentləri yeniləşmiş və ya əsaslı dəyişikliklərə məruz qalmışdır.

Tərəflər arasında sonradan köhnə və ya yeni arbitraj reqlamentinin tətbiqi ilə bağlı mübahisənin olmaması üçün arbitraj sazişində razılaşdırılan reqlamentin "müqavilə bağlanan ana qədər" və ya

---

[1] Məfhum E.V. Bruntsovaya məxsusdur.

[2] Арбитражный процесс, М., 1998, с.101.

"mübahisə əmələ gələn zaman" mövcud olması ilə əlaqədar şərtin qoyulması zəruridir. Əgər göstərilən şərtlər arbitraj sazişində öz əksini tapmazsa,
onda arbitraj praktikasına müvafiq olaraq arbitraj araşdırılması aparılan vaxt qüvvədə olan Peqlamentdən istifadə olunmalıdır.[1]

Arbitraj sazişində işə baxacaq arbitraj orqanı və onun Reqlamenti razılaşdırılarkən tərəflər həmin Reqlamentdə aşağıdakı ünsürlərin mövcudluğuna diqqət yetirməlidir: arbitrajın başlanması; iddianın verilməsi qaydası; iddiaya rəyin təqdim edilməsi və qarşılıqlı tələbin verilməsi; arbitrlərin təyin edilməsi; arbitrlərə etiraz və onların əvəz edilməsi qaydası; tərəflərin (və ya tərəfin) iclasda iştirak etmədikləri halda işə baxılması qaydası; prosessual nümayəndəlik qaydası; arbitraj xərcləri və arbitrlərin qonorarları; icraatın aparıldığı dil haqqında qaydalar; arbitrajın keçirildiyi yer; arbitraj qətnaməsinə olan tələblər; prosedurun məxfiliyi (konfidensiyallığı); arbitraj qətnaməsi və onun icrası qaydası.

Arbitraj reqlamentinin sadaladığımız ünsürlərini öyrəndikdən sonra arbitraj sazişində arbitraj institutunu və onun reqlamentini razılaşdırmaq olar.

Bir sıra arbitraj mərkəzlərinin reqlamentlərində arbitrlərə xüsusi tələblər müəyyən edilmişdir və bu tələblər şərti olaraq iki yerə bölünür:

1. İşə müstəsna olaraq yalnız həmin arbitrajın arbitrləri tərəfindən baxılmasını nəzərdə tutan qaydalar (məsələn, Rusiya Sənaye-Ticarət Palatası yanında Beynəlxalq Arbitraj Məhkəməsi, Çin Xarici Ticarət Arbitraj Komissiyası və s.). Bu halda işə həmin arbitrajın arbitrlər siyahısına daxil edilən şəxslər tərəfindən baxılır.
2. İşə həm həmin arbitrajın arbitrlər siyahısına daxil olan, həm də həmin siyahıya daxil olmayan şəxslər tərəfindən baxılmasını nəzərdə tutan qaydalar. Məsələn, BKAM-ın Əsasnaməsinin 16-cı maddəsinə müvafiq olaraq BKAM-da işə həm arbitrlər siyahısına daxil olan və həm də bu siyahıya daxil edilməyən şəxslər tərəfindən baxıla bilər.

Hər bir arbitraj institutu özünün nümunəvi (model) arbitraj qeyd-şərtinə malikdir və həmin qeyd-şərt müqavilə bağlanarkən onun mətninə daxil edilmək üçün arbitraj institutun özü tərəfindən hazırlanır və tərəflərə tövsiyə olunur. Arbitraj təcrübəsində çox az hallarda arbitraj institutunun hazırladığı qeyd-şərti dəyişikliklərə uğramadan tərəflər

[1] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.111.

tərəfindən qəbul olunur, əksər hallarda tərəflər tətbiq olunacaq qanun, icraatın aparıldığı dil barədə öz qeyd-şərtlərini əlavə edirlər. Məsələn, Beynəlxalq Ticarət Palatasının bu sahədə apardığı tədqiqata görə bağlanan 237 müqavilədən yalnız birində arbitraj institutunun qeyd-şərti dəyişikliyə uğramamışdır, qalan 236 müqavilə üzrə tərəflər arbitraj qeyd-şərtinə öz düzəlişlərini və əlavələrini etmişlər.[1]

Arbitraj sazişinin ünsürlərindən biri də arbitrajda baxılmalı olan mübahisələrin növü ilə bağlıdır. Belə ki, arbitraj sazişi özündə o növ mübahisəni əks etdirməlidir ki, həmin mübahisəyə arbitrajda baxılması barədə tərəflər razılığa gəlmiş olsunlar. Tərəflər arbitraj sazişində müəyyən növ mübahisələrin arbitraj baxışından çıxarılması üçün (məsələn "müqavilənin bağlanması ilə bağlı əmələ gələn mübahisələrdən istisna edilməklə, digər mübahisələr BKAM-da onun reqlamentinə uyğun olaraq baxılacaqdır"), yaxud arbitrajda baxılmalı mübahisələrin dairəsinin müəyyən edilməsi üçün (məsələn, "Bu müqavilənin icrasından əmələ gələn texniki xarakterli mübahisələrə BKAM-da, hüquqi xarakterli mübahisələrə isə aidiyyatı üzrə məhkəmədə baxılacaqdır") razılığa gələ bilərlər.

Tərəflər arbitraj sazişində arbitrajda baxılmalı olmayan mübahisələrin arbitraja aid edilməsi haqqında razılığa gələ bilməzlər, əks halda arbitraj sazişi etibarsız olur və icra olunmur. Məsələn, vergi mübahisələri, idarəçiliklə bağlı mübahisələr, inzibati xarakterli mübahisələr, inhisarçılıqla bağlı mübahisələr və s.

Arbitrajda baxılmalı olan mübahisələrin ümumi səciyyəsi 1958-ci il Nyu-York Konvensiyasının 1-ci maddəsinin 3-cü bəndində verilmişdir. Orada deyilir: Hər bir dövlət həmçinin, bəyan edə bilər ki, o mövcud Konvensiyanı belə bəyanat verən dövlətin milli qanunvericiliyinə görə yalnız **ticarət hüquq münasibətləri** hesab edilən müqavilə və ya digər hüquqi münasibətlər üzrə yaranmış mübahisələrə tətbiq edəcəkdir. Göründüyü kimi, Konvensiyada söhbət yalnız **ticarət hüquq münasibətləri** sferasında yaranan münasibətlər üzrə yaranan mübahisələrə arbitrajda baxılmasından gedir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının qanunvericiliyində və ümumiyyətlə hüquq leksikonunda "ticarət hüquq münasibətləri" daha çox "kommersiya hüquq münasibətləri" kimi işlədilir və fikrimizcə, "kommersiya hüquq münasibətləri sferasında yaranan mübahisələr" anlayışı daha dəqiq və anlaşılandır. Çünki kommersiya hüquq münasibətləri həm xarici ticarət,

---

[1] Stephen R.Bond, How to Draft an Arbitration Clause, 6 Jornal of International Arbitration 66 (1989).

həm də beynəlxalq iqtisadi əlaqələr sferasında yaranan münasibətləri özündə ehtiva edir.

BKAM-ın Əsasnaməsinin 1-ci maddəsinin 2-ci bəndində arbitraj məhkəməsində
baxılmalı olan mübahisələr kommersiya münasibətlərindən irəli gələn mübahisələr kimi səciyyələndirilir.

Tərəflər arbitraj sazişində **arbitrajın keçirildiyi yer** barədə də razılığa gələ bilərlər. Arbitraj sazişində arbitrajın keçirildiyi yer haqqında şərt sadə və lakonik ifadə edilməlidir:

"Arbitraj araşdırması Azərbaycan Respublikasında, Bakı şəhərində keçiriləcəkdir"; və ya "Arbitraj Azərbaycan Respublikasının Bakı şəhərində işə baxacaqdır".

Arbitrajın keçirildiyi yerin düzgün seçilməsi bir çox amillərə müsbət, pozitiv təsir edir, bu amillərə prosesin gedişi, tətbiq edilən prosessual norma, arbitrlərin seçilməsi, arbitraj tərkibinin sədri, tətbiq olunmalı maddi hüquq, arbitraj qətnaməsinin məcburi icrası və həmçinin, arbitraj qərarlarının üçüncü ölkələrdə məcburi icrası aid edilə bilər.

Arbitrajın keçirildiyi yerin seçilməsi üçün əhəmiyyəti olan amilləri hüquq ədəbiyyatında dörd qrupa bölürlər: 1) coğrafi; 2) siyasi; 3) iqtisadi; 4) hüquqi[1].

Arbitrajın keçirildiyi yer nəqliyyat baxımından (hava, avtomobil, dəniz, dəmiryol) hər iki tərəf üçün əlverişli yerdə olmalıdır, ona görə də tərəflər bir qayda olaraq fəaliyyət göstərdikləri ərazidə yerləşən arbitraj məhkəməsi işə baxan orqan kimi nəzərdə tuturlar. Tərəflər bəzən işə baxılması yeri kimi arbitraj sazişində neytral, üçüncü ölkənin ərazisini göstərirlər. Bu halda neytral ölkədə yerləşən arbitrajın səviyyəsi, təcrübəsi, nüfuzu nəzərə alınır.

Arbitrajın keçirilməsi yerinin müəyyən olunmasında **siyasi amillər:** ölkədə siyasi sabitlik; hər iki tərəfin təhlükəsizliyinin təminatı; hər iki tərəf üçün arbitrajın keçirildiyi yerin mümkünlüyü (məsələn, vizanın alınmasında rahat prosedur, həmin ölkəyə təhlükəsiz gediş-gəlişin mümkünlüyü və s.) də mühüm əhəmiyyətə malikdir.

Arbitrajın keçirilməsi yerinin müəyyən edilməsinə **iqtisadi amillər** də öz təsirini göstərir. İqtisadi amillər sırasına vəsaitlərin bir ölkədən digər ölkələrə maneəsiz köçürülməsi, sənədlərin və maddi sübutların bir ölkədən digərinə keçirilməsi imkanı, infrastrukturun inkişafı (yüksək xidmət göstərən otellər, restoranlar şəbəkəsinin mövcudluğu, müasir

---

[1] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.113.

nəqliyyatın olması, inzibati dayağın tərcüməçilərin, stenoqrafistlərin olması və s.) aid edilə bilər. Bura, həmçinin, arbitrajın keçirilməsi ilə bağlı xərclər də aid edilir.

Tərəflər arbitraj sazişində işə baxacaq arbitraj institutunu müəyyən edərkən **hüquqi amillərə** da son dərəcədə diqqətlə və ehtiyatla yanaşmalıdırlar, çünki arbitrajın yerləşdiyi ərazi coğrafi cəhətdən, siyasi cəhətdən, iqtisadi cəhətdən əlverişli ola bilər, lakin həmin ölkənin arbitraj qanunvericiliyi köhnəlmiş, dövrün tələbatına cavab verməyən, çoxlu sayda boşluğu olan və həmin ölkənin dövlət hakimiyyət orqanlarının təsir dairəsində ola bilər.

Arbitraj institutunun seçilməsində əsas hüquqi amillərdən biri həmin arbitrajın yerləşdiyi ölkənin 1958-ci il tarixli Nyu-York Konvensiyasının üzvü olmalıdır, həmin ölkənin Konvensiyanın üzvü olması arbitrajın çıxardığı qərarların tanınması və icra olunmasının əlavə təminatıdır.[1]

Müxtəlif ölkələrin qanunvericiliyi bir-birindən beynəlxalq kommersiya arbitrajı ilə bağlı münasibətlərin tənzimlənməsi səviyyəsinə görə fərqlənirlər, lakin son dövrlərdə bir çox müasir dövlətlərdə fəaliyyət göstərən arbitraj məhkəmələri hüquqi baza kimi YUNSİTRAL-ın nümunəvi qanundan istifadə edirlər və bu da həmin ölkələrin arbitraj qanunvericiliyini bir-birinə yaxınlaşdırır.

Arbitrajın keçirildiyi yerin seçilməsində arbitrlərin baxmalı olduğu mübahisələrin dairəsi də mühüm rol oynayır. Məsələn, ABŞ-da cinayət işləri və insan hüquqları ilə bağlı mübahisələr istisna olunmaqla arbitraj məhkəmələri bütün mübahisələrə baxmağa haqlıdırlar, hətta arbitrlər ümumiyyətlə məhkəməyə aid olmayan mübahisələrə də baxıb qərar çıxara bilərlər.[2]

Lakin bir çox ölkələrin qanunvericiliyində arbitraj məhkəmələrinin baxmalı olduğu

mübahisələrin dairəsi məhdudlaşdırılmışdır. Bu dairə, həmçinin, 1958-ci il tarixli Nyu-York Konvensiyasının I maddəsinin 3-cü bəndində də müəyyən edilmişdir: Arbitraj məhkəmələri yalnız **ticarət** (bizim anlamda – **kommersiya** – V.M.) hüquq münasibətləri hesab edilən müqavilə və ya digər hüquq münasibətləri üzrə yaranan mübahisələrə baxmağa haqlıdırlar.

Bir sıra ölkələrin qanunvericiliyi onların ərazisində keçirilən arbitraj araşdırmasının başqa ölkələrin prosessual qanunvericiliyi ilə tənzim edilməsini qadağan edir, bu sırada Almaniya qanunvericiliyi

---

[1] Комаров В.В. Международный Коммерческий Арбитраж, Харьков, 1995, с.73.
[2] Брунцева Е.В. Международный Коммерческий Арбитраж, Санкт-Петербург, 2001, с.115.

istisnalıq təşkil edir. Arbitrajın xarici prosessual hüquqdan istifadə etməsi imkanları ərazisində arbitrajın keçirildiyi ölkənin qanunları ilə ("milli qanunlar", "yerli qanunlar") müəyyən olunur. Milli qanunlar, həmçinin, kimlərin arbitr qismində işə baxması şərtlərini də müəyyən edir və bir çox ölkələrin qanunvericiliyi yalnız öz ölkəsinin vətəndaşlarının arbitr kimi işə baxmasını nəzərdə tutur.

Arbitrajın keçirildiyi yerin müəyyən edilməsində maddi hüququn tətbiq edilmə imkanlarının da nəzərə alınması həlledici əhəmiyyət kəsb edir. Tətbiq edilməli maddi hüququ tərəflər seçmədikdə, arbitraj ya özünün reqlamentinə əsasən, ya da kollizion normalara əsasən tətbiq edilməli maddi hüququ seçə bilər.

Məsələn, BKAM-ın Əsasnaməsinin 15-ci maddəsinə uyğun olaraq BKAM mübahisələri, tərəflərin razılığı ilə müəyyən olunmuş, tətbiq edilən maddi hüquq normaları əsasında həll edir, belə razılaşma olmadıqda isə BKAM tətbiq olunmasını mümkün saydığı kollizion normalara əsaslanan hüququ rəhbər tutur. Fikrimizcə, tam sivil bir yanaşmadır.

Ümumiyyətlə, arbitrajın keçirilməsi üçün bütün maraqlı tərəflərin və şəxslərin ideal saydığı yer tapmaq praktikada çox çətindir. Bu halda əsas məsələ – proses iştirakçılarının müxtəlif maraqlarının uzlaşması üçün orta balansın tapılmasıdır.[1]

Tərəflər arbitrajın keçirildiyi yer haqqında arbitraj araşdırması başlananadək razılığa gələ bilərlər. Arbitrajın keçirildiyi yer barəsində tərəflər razılığa gəlmədikdə yeri arbitraj institutu və ya arbitrlər müəyyən edə bilərlər.

Məsələn, Beynəlxalq Ticarət Palatasının və Amerika Arbitraj Assosiasiyasının reqlamentində bu qayda nəzərdə tutulmuşdur. BKAM-ın Əsasnaməsinin 10-cu maddəsinə uyğun olaraq tərəflər məhkəmə iclaslarının Azərbaycan Respublikasının istənilən ərazisində keçirilməsi üçün razılaşa bilərlər. Bu halda Bakı şəhərindən kənarda keçirilən məhkəmə iclaslarının əlavə xərclərinin ödənilməsi mübahisə edən tərəflərin üzərinə düşür. BKAM tərəflərdən bu xərclərin qabaqcadan ödənilməsini və ya ödənilməməsinə dair təminat verilməsini tələb edə bilər.

Zərurət olduqda BKAM-ın sədrinin razılığı ilə Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr Azərbaycan Respublikasının istənilən

---

[1] Алан Редферн, Мартин Щунтер, Law and Practice of İnternational Commercial Arbitration, Sweel, Maxwell, 1999. c.285

ərazisində məhkəmə iclasını keçirə bilər. YUNSİTRAL-ın arbitraj Reqlamentində də analoji qayda müəyyən edilmişdir.

Arbitraj sazişinin vacib ünsürlərindən biri də arbitraj icraatının aparılacağı dil haqqında qaydalardır.

Müqavilə bağlayan tərəflər müxtəlif dövlətlərə mənsub olduqları üçün müqavilə bir və ya bir neçə dildə tərtib olunur və "hər iki dildə tərtib olunan mətnin eyni hüquqi qüvvəyə malik olması" haqqında əlavə qeyd edilir. Bəzi hallarda tərəflər müqavilənin neytral, üçüncü dövlətin dilində tərtib edirlər. Məsələn, Azərbaycan şirkəti ilə Cənubi Koreya Respublikasına məxsus "Samsunq" şirkəti arasında müqavilənin ingilis dilində bağlanması və s.

Əgər tərəflər arbitraj sazişində icraatın aparıldığı dili müəyyən etmişlərsə, onda arbitraj icraatı həmin dildə aparılmalıdır. Tərəflər icraatın aparılacağı dili arbitraj sazişində razılaşdırmadıqda, dil haqqında qərarı arbitrlər qəbul edirlər, arbitraj təcrübəsində bir qayda olaraq müqavilənin tərtib olunduğu dil arbitraj araşdırmasının aparılacağı dil kimi müəyyən olunur. Müqavilə iki dildə tərtib olunduqda isə arbitrlərin qərarı ilə iki dildən biri arbitraj icraatının dili kimi seçilir, bu halda, həmçinin, digər dilə paralel tərcümə edilməsi variantının da seçilməsi mümkündür. Lakin bu seçim həm işə baxılması vaxtının uzanmasına, həm də iş üzrə xərclərin artmasına səbəb olur.

Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının Qanununun 22-ci maddəsinə müvafiq olaraq tərəflər öz mülahizələrinə görə arbitraj baxışının aparılacağı dil və yaxud dillər barəsində razılığa gələ bilərlər. Belə razılıq olmadıqda arbitraj məhkəməsi, arbitraj baxışında istifadə ediləcək dili və yaxud dilləri müəyyən edir. Belə razılıq və yaxud bu barədə məhkəmənin qərarında digər hal nəzərdə tutulmayıbsa, tərəflərin hər hansı bir yazılı müraciətinə, iş üzrə dinləməyə, hər hansı bir arbitraj qərarına və yaxud arbitraj məhkəməsinin digər sənədlərinə aid edilir.

Arbitraj məhkəməsi sərəncam verə bilər ki, istənilən sənədin sübutları tərəflərin razılaşdıqları və ya arbitraj məhkəməsinin təyin etdiyi dilə və ya dillərə tərcümə ilə birlikdə təqdim olunsun.

BKAM-ın Əsasnaməsinin 12-ci maddəsinə əsasən isə işə Azərbaycan dilində baxılır. BKAM tərəflərin razılığı ilə işə başqa dildə də baxa bilər. Əgər tərəf məhkəmə iclası aparılan dili bilmirsə, BKAM tərəfin xahişi ilə və tərəfin öz hesabına onu tərcüməçi ilə təmin edir.

Arbitraj araşdırmasının aparılacağı dil haqqında müqavilədə qeyd-şərt təxminən aşağıdakı kimi verilə bilər:

"Arbitraj araşdırması Azərbaycan dilində aparılacaqdır" və ya

"Arbitraj icraatı ingilis dilində aparılacaqdır".

Arbitraj sazişinin məzmununun vacib ünsürlərindən biri də tətbiq olunmalı hüququn seçilməsidir. Bu, ya tərəflərdən (məsələn, alıcının və ya satıcının) birinin məxsus olduğu dövlətin hüququ, ya da neytral, üçüncü dövlətin hüququ ola bilər. Tərəflər tətbiq olunmalı maddi hüququn seçilməsindən əlavə həmin müqavilə üzrə yaranacaq münasibətlərin beynəlxalq Konvensiyalara müvafiq olaraq tənzim edilməsi və ya təfsir edilməsi haqqında (məsələn, malların beynəlxalq alqı-satqısı müqavilələri haqqında Konvensiyaya uyğun olaraq və s.), yaxud hüququn ümumi prinsipləri (Lex Mercatoria) və ya arbitrlərin vicdanla və ədalətlə baxması (ex aequo et bono) və ya mübahisələrin "dost vasitəçilik" əsasında həll edilməsi haqqında razılığa gələ bilərlər.[1]

Arbitraj qanunvericiliyi və arbitraj təcrübəsinə əsasən tərəflər arbitraj sazişində hüququn aşağıdakı beş sisteminin tətbiq edilməsi haqqında razılığa gələ bilərlər:

1) tərəflərin fəaliyyət qabiliyyətini müəyyən edən hüquq;
2) arbitraj sazişinin etibarlılığını müəyyən edən hüquq;
3) arbitraj prosesini tənzim edən hüquq (Lex arbitri);
4) mübahisəin mahiyyətinə tətbiq edilən hüquq;
5) kollizion normalar.[2]

Tərəflərin fəaliyyət qabiliyyətini və arbitraj sazişinin etibarlılığını müəyyən edən hüquq haqqında əvvəlki fəsillərdə müfəssəl məlumat vermişik.

Lex arbitri məfhumu ərazisində arbitrajın keçirildiyi dövlətin qanunla münasibətdə işlədilir və əsasən arbitraj prosesinin aparılmasını tənzim edən qanunu özündə ehtiva edir. Çünki milli qanunvericilik işin arbitraj orqanlarına aidiyyəti, arbitraj prosesinin aparılması qaydası, təminedici tədbirlərin görülməsi qaydası, iddia tələblərinin birləşdirilməsi imkanları, arbitraj qətnaməsinin cavab verməli olduğu tələblər, həmçinin, arbitraj qətnaməsinin müvafiq dövlət orqanları tərəfindən yoxlanması imkanı ilə bağlı münasibətləri də nizama salır. Beləliklə, Lex arbitri hər şeydən arbitraj icraatını tənzim edən prosessual qanunvericilikdir.

Azərbaycan Respublikası ərazisində Lex arbitri qismində "Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu çıxış edir. Bir qayda olaraq arbitraj sazişində arbitrlərin tətbiq etməli

---

[1] Розенберг М.Г. Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практический комментарий. М., 1987. с.119.
[2] The Freshfields Guide to Arbitration and ADR Clauses in İnternational Contracts 31, 1993.

olduqları prosessual qanunvericilik göstərilmir, çünki ümumi qaydaya görə arbitraj araşdırması işə baxan arbitraj institutunun yerləşdiyi ərazinin (dövlətin) arbitraj qanunvericiliyinə və reqlamentinə uyğun olaraq aparılmalıdır. Tərəflər arbitraj sazişində arbitraj icraatının digər dövlətin prosessual normaları əsasında aparılması haqqında (əgər arbitrajın yerləşdiyi ərazinin (dövlətin) qanunları bunu qadağan etmirsə) prinsipial razılığa da gələ bilərlər.[1] Lakin arbitraj sazişində arbitraj icraatının digər dövlətin prosessual qanunvericiliyi əsasında aparılmasının nəzərdə tutulması, fikrimizcə, bir sıra problemlər doğura bilər. Bura arbitrajın keçirildiyi ölkənin imperativ normalarının bunu istisna etməsini, təminedici tədbirlərin hansı ölkənin (arbitrajın keçirildiyi ölkənin, yoxsa prosessual qanunu əsasında işə baxılan ölkənin) məhkəmələrinin yerinə yetirməsini aid etmək olar. Ona görə də hesab edirik ki, arbitraj sazişinə üçüncü ölkənin prosessual qanunvericiliyi əsasında işə baxılmasının nəzərdə tutulması bir sıra problemlər yaratdığına görə tərəflər maksimum bundan yararlanmamalı və işə baxan arbitraj institutunun məxsus olduğu dövlətin arbitraj prosessual qanunvericiliyindən faydalanmalıdırlar.

Tərəflərin arbitraj sazişində mübahisəni mahiyyət üzrə tənzimləyən maddi hüquq normasının tətbiq olunması haqqında razılığa gəlməsi hələ həmin dövlətin (maddi hüquq normasının məxsus olduğu dövlətin) prosessual hüquq normalarının da həmin münasibətlərə tətbiq edilməsi demək deyildir. Məsələn, Beynəlxalq Ticarət Palatasının arbitrajının Haaqada keçirilən arbitraj iclasında cavabdeh olan Misir şirkəti tətbiq olunmalı maddi hüquqi Misir hüququ olduğunu əldə rəhbər tutaraq Misirin arbitraj prosessual hüququnun da tətbiq edilməsini təkid etmişdir. Lakin arbitraj tətbiq olunmalı prosessual hüquq kimi Niderlandın arbitraj qanununun olması haqqında haqlı qərar çıxarmışdır.[2]

Arbitrajın keçirildiyi yer haqqında arbitraj qanunu adətən imperativ norma sayılır və tərəflər onu arbitraj sazişi ilə dəyişə bilməzlər. Ona görə də arbitrajın keçirildiyi yer haqqında razılığa gəlməzdən əvvəl tərəflər həmin yerin arbitraj qanunvericiliyini dərindən öyrənməlidirlər.

Arbitraj sazişində mübahisəni mahiyyət üzrə həll edən tətbiq olunmalı hüququ seçərkən tərəflər aşağıdakı əsaslardan biri üzrə mübahisənin tənzimlənməsi barədə razılığa gələ bilərlər:

1) Müəyyən dövlətin milli hüququ;

---

[1] Розенберг М.Г. Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практический комментарий. М., 1997, с.81.

[2] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.122

2) Beynəlxalq ümumi hüquq;
3) Beynəlxalq Konvensiyalar və digər beynəlxalq müqavilələr;
4) Hüququn ümumi prinsipləri;
5) Beynəlxalq ticarət hüququ (Lex Mercatoria);
6) Tövsiyə xarakterli beynəlxalq sənədlər;
7) Ticarət adətləri;
8) Ədalət prinsipi;
9) Hüquq normalarının, prinsiplərinin, adətlərinin məcmusu.

Bir çox xarici ticarət müqavilələrində tətbiq olunmalı hüquq kimi müqavilə iştirakçılarının mənsub olduğu dövlətin milli hüququ və ya üçüncü, neytral bir dövlətin milli hüququnun tətbiq olunması barədə şərt razılaşdırılır. Tətbiq olunmalı hüquq kimi milli hüququn seçilməsi bir çox cəhətdən tərəflər üçün əlverişlidir. Birincisi, milli hüququn seçilməsi müqavilənin icrası mexanizmini asanlaşdırır, ikincisi, bir çox halda o milli hüquq seçilir ki, həmin sahə üzrə o hüquq digər analoji dövlətlərin hüququndan daha çox inkişaf etmişdir.

Məsələn, İngiltərənin dəniz hüququ yüksək inkişaf etmiş və dəniz hüquq münasibətlərini hərtərəfli tənzim etmək iqtidarında olduğuna görə həm müqavilə üzrə tərəflər, həm də digər ölkələrdə bağlanan müqavilələrdə o, tətbiq olunmalı hüquq kimi seçilir. Bu sözləri, həmçinin, ingilis kommersiya hüququ haqqında da demək olar.

Tətbiq olunmalı hüquq kimi hər hansı dövlətin milli hüququ seçilərkən mütləq həmin ölkənin hüquq sisteminin özəllikləri nəzərə alınmalıdır. Məsələn, tərəflər arbitraj sazişində Amerika kommersiya hüququnu tətbiq olunmalı hüquq kimi seçiblərsə, bu, çox mücərrəd bir razılaşma kimi səciyyələndirilməlidir, çünki Amerika kommersiya hüququ deyilən bir hüquq yoxdur, bu halda tərəflər yalnız ABŞ-ın hər hansı bir ştatının kommersiya hüququnu tətbiq edilməli hüquq kimi seçə bilərlər.

Xarici ticarət və ya iqtisadi müqavilələrdə tətbiq edilməli hüquq kimi **beynəlxalq ümumi hüququn normalarının** seçilməsi hallarına təcrübədə çox az rast gəlinir və bu halda müqavilənin tərəfləri qismində yalnız dövlətlər çıxış edir.[1] Məsələn, İngiltərə və Fransa dövlətləri arasında La Manş tunelinin tikintisi ilə bağlı bağlanan müqavilədə tərəflər gələcəkdə yaranacaq mübahisələrə "beynəlxalq hüququn müvafiq prinsipləri əsasında" baxılması barədə razılığa gəlmişlər.[2]

---

[1] Комаров В.В. Международный коммерческий арбитраж, Харьков, 1995, с.73.
[2] Rozenberq M.Q. Göstərilən əsər, s.129; Поздняков В.С. Международный коммерческий арбитраж в Российской Федерации, Закон, Регламент, Комментарий, М., 1996, с.73

Tətbiq olunmalı hüquq kimi beynəlxalq ümumi hüququn seçilməsi təcrübədə bir sıra çətinliklər yarada bilər, bu da onunla bağlıdır ki, beynəlxalq ümumi hüquq müqavilə hüquq münasibətlərini özündə əks etdirən normalara malik deyildir və bu hüququn seçilməsi mübahisə üzrə tənzimetmə münasibətlərini daha da mürəkkəbləşdirə bilər.

Tərəflər arbitraj sazişində müqavilə münasibətlərinə müəyyən beynəlxalq konvensiyaların və ya beynəlxalq müqavilələrin normalarının tətbiq olunması haqqında razılığa gələ bilərlər. Tətbiq olunmalı Konvensiyalar içərisində "malların beynəlxalq alqı-satqısı müqavilələri üzrə" 1980-cı il tarixdə Vyanada imzalanan BMT-nin Konvensiyası, "Yüklərin beynəlxalq daşınması müqavilələri haqqında" 1978-ci il Konvensiyası, "Beynəlxalq maliyyə lizinqi haqqında" 1988-ci il tarixli Ottava Konvensiyası mühüm yer tutur. Bu halda həm Konvensiyanın üzvü olan dövlətlərin, həm də ona üzv olmayan dövlətlərin hüquqi və fiziki şəxslərinin bağladıqları müqavilədə həmin Konvensiya tətbiq edilməli hüquq kimi seçilə bilər.

BMT-nin Beynəlxalq Məhkəməsinin Nizamnaməsində **hüququn ümumi prinsipləri** beynəlxalq hüququn mənbəyi kimi nəzərdə tutulmuşdur. Dünyanın bir çox ölkələrinin məhkəmə və arbitrajları da Beynəlxalq Məhkəmədən nümunə götürürlər.[1] Müqavilə münasibətlərinin tənzim edilməsi üçün tərəflərin hüququn ümumi prinsiplərini seçməsi artıq beynəlxalq təcrübədə uğurla sınaqdan çıxarılmışdır. Bir çox halda tərəflər 1965-ci il Vaşinqton Konvensiyasının 42-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq hüququn ümumi prinsiplərinin hər hansı milli hüquq sistemi ilə məcmu halında tətbiq edilməsi haqqında razılığa gəlirlər, bu halda hüququn ümumi prinsipləri milli hüquq sisteminin tətbiq edilməsi üçün stabillik amili olmaq etibarilə investorlar üçün hüquqların daha təkmil və etibarlı müdafiəsi məqsədlərinə xidmət edir.

Hüquq ədəbiyyatında hüququn ümumi prinsiplərinin milli hüquq sistemi ilə məcmu halında tətbiq edilməsi imkanlarına bir-birindən fərqli iki baxış mövcuddur.

Birincisi fikrin tərəfdarları belə hesab edirlər ki, bu halda hüququn ümumi prinsipləri milli hüququ korrektə etmək üçün tətbiq olunur, başqa sözlə, milli hüquq normaları hüququn ümumi prinsiplərinə zidd olduqda, hüququn ümumi prinsiplərindən istifadə olunur.[2]

İkinci qrup müəlliflər isə hesab edirlər ki, hüququn ümumi prinsiplərindən milli hüquq sistemində boşluqlar olduqda istifadə

[1] Лебедев С.Н. Международный торговый арбитраж, М., 1965, с. 21;
[2] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.126.

olunmalıdır, başqa sözlə, bu halda hüququn ümumi prinsipləri köməkçi xarakter daşıyır.[1]

Fikrimizcə, hər iki fikrin tərəfdarları haqlıdırlar, çünki nəzərə almaq lazımdır ki, hüququn ümumi prinsipləri heç də hər bir halda mürəkkəb iqtisadi mübahisələri tənzim etmək iqtidarında deyildir və bu səbəbdən də onun müstəqil tətbiq edilməsi imkanları xeyli məhduddur.

Tətbiq olunmalı hüquq kimi beynəlxalq təcrübədə **beynəlxalq ticarət hüququnun (Lex Mercatoria) normalarından** geniş istifadə olunur.

Beynəlxalq ticarət hüququ universal xarakter daşıdığına görə ona kollizion normalara alternativ kimi də baxırlar.[2] Lex Mercatoria müxtəlif müəlliflər tərəfindən müxtəlif cür adlandırılır: "transmilli hüquq", "beynəlxalq ticarət hüququ". Kommersiya arbitrajı sahəsində görkəmli mütəxəssis F.Anderas Lex Mercatorianı "...adətlərdən, təcrübədən, konvensiyalardan, presendentlərdən və bir çox milli qanunlardan ibarət **hüququn mənbəyi**... təkmil olmayan kollizion normalara **alternativ"** kimi səciyyələndirir.[3]

Müasir Lex Mercatorianın nəzəri və təcrübi problemlərini Fransız hüquqçusu, professor Betran Qoldman işləyib hazırlamışdır. Beləliklə, Lex Mercatoria doktrinası Avropa qitəsində yaranmış və inkişaf etmişdir. Bertran Qoldmanla yanaşı İsveçrəli hüquq doktoru Pyer Lalivin bu sahədə əsərləri təqdirəlayiqdir.

Lakin İngiltərənin və ABŞ-ın bu sahə ilə məşğul olan hüquqçuları Lex Mercatoria-ya çox ehtiyatla yanaşırlar, onların fikrincə, bu hüquq qeyri müəyyəndir və arbitrlərə manevr etmək üçün çox böyük hüquqlar verir, həmçinin, bu hüquq yazılı deyildir, qanunlarda, məhkəmə presedentlərində əks olunmamışdır və yalnız "hüququn ümumi prinsiplərinə" və adətlərə söykənir.[4]

Həqiqətən də Lex Mercatorianın mənbəyini əksər milli hüquq sistemləri üçün ümumi olan hüququn prinsipləri təşkil edir, bura, həmçinin, beynəlxalq müqavilələrin və konvensiyaların əsas normaları (məsələn, Beynəlxalq alqı-satqı haqqında müqavilələr üzrə Vyana Konvensiyası, Müqavilə öhdəliklərinə tətbiq edilən hüquq haqqında Roma Konvensiyası və s.), ticarət adətləri və presedent hüququ kimi beynəlxalq məhkəmələrin və arbitrajların qətnamələri daxildir.

---

[1] Andreas F.Lowenfeld, Lex Mercatoria: an Arbitrator's View"in 6 Arbitration İnternational 133, 144 (1990)

[2] Yves Dezaley, Brayn C.Garth, Dealinq in Virtue 87 (1996).

[3] Kommersiya hüququ, Bakı, 2003, s.199.

[4] Виноградова Е.А. Третейский Суд, М., 1997, с.81.

Beləliklə, tərəflər arbitraj sazişində tətbiq edilməli hüquq kimi beynəlxalq ticarət hüququnu (Lex Mercatoria) seçməyə haqlıdırlar.

Tərəflər müqavilə bağlayarkən tətbiq olunmalı hüquq kimi müxtəlif **tövsiyyə xarakterli_beynəlxalq sənədlərə** istinad edə bilərlər. Bu sənədlər sırasına YUNSİTRAL-ın nümunəvi qanununu aid etmək olar.

Beynəlxalq iqtisadi mübahisələrin həll edilməsində bir sıra hallarda ticarət adətlərinin tətbiq edilməsi təcrübəsi geniş yayılmışdır. Ticarət adətlərinin tətbiq edilməsi imkanı malların beynəlxalq alqı-satqısı müqavilələri haqqında Vyana Konvensiyasında (9-cu maddə), YUNSİTRAL-ın arbitraj reqlamentində, həmçinin, bir sıra arbitraj institutlarının reqlamentlərində nəzərdə tutulmalıdır.

Beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanununun 28-ci maddəsinin 4-cü bəndinə görə "...bütün hallarda arbitraj məhkəməsi müqavilə şərtlərinə müvafiq olaraq və bu əqdlərə tətbiq edilən **ticarət adətlərini** nəzərə almaqla qərar qəbul edir."

Ticarət adətləri həm milli hüququn tərkib hissəsi kimi (Məsələn, Rusiya Vyana Konvensiyasının normalarını öz qanunvericiliyinə daxil etmişdir), həm də ondan ayrıca mövcud ola bilər (məsələn, "İnkoterms" qaydaları). Ona görə də ticarət adətlərinin tətbiqinin iki variantı mümkündür:

1) milli hüququn tərkib hissəsi olmaq etibarilə ticarət adətləri tərəflərin müqavilədə nəzərdə tutub-tutmamasından asılı olmayaraq tətbiq edilir;
2) yalnız müqavilədə göstərilən halda ticarət adətləri tətbiq olunur.

Bir çox ticarət adətlərinin təfsiri (şərhi) Beynəlxalq Ticarət Palatası tərəfindən verilmişdir. Məsələn, "İnkoterms" – Kommersiya terminlərinin (məfhumlarının) təfsirinin beynəlxalq qaydaları.

Beynəlxalq Ticarət Palatası ilk dəfə 1936-cı ildə belə bir toplunu hazırlamış və nəşr etmiş, sonradan ona müxtəlif vaxtlarda əlavə və düzəlişlər edilmiş, sonuncu dəfə isə 2000-ci ildə əlavə dəyişiklik edilməklə nəşr olunmuşdur.

Şərhin başlıca məqsədi malın satıcıdan alıcıya verilməsi öhdəliyi vaxtı müqavilə şərtlərinin dəqiq müəyyən olunması, xarici ticarətdə daha çox istifadə olunan tədarük şərtlərinin izah olunması, bu terminlərin müxtəlif ölkələrdə interpretasiyasının aradan qaldırılması, müqavilə üzrə tərəflərin öhdəliklərini vahid bir şəklə salmaqdan ibarətdir. İnkoterms tövsiyəedici xarakter daşıyır, tərəflərin bağladığı müqavilə ilə İnkoterms arasında ziddiyyət olarsa, müqavilənin şərtinin üstün tətbiq edilmə qüvvəsi vardır.

İnkotermsin tətbiq olunması, milli qanunlar arasında konflikt problemini nümunəvi ticarət şərtləri vasitəsilə aradan qaldırır.

İnkoterms-2000 redaksiyasında malın tədarükünün bazis şərtləri alqı-satqı müqaviləsi üzrə tərəflərin vəzifələrini müəyyən edir, yəni, malın satıcıdan alıcıya verilməsi, mala mülkiyyət hüququnun keçməsi anını və s. müəyyən edir. İnkoterms-2000 terminlərinin müəyyən etdiyi bazis şərtlər 4 qrupa bölünür. Bu qrupların qısa izahını verməyə səy göstərəcəyik.

1. **E qrupu**. Bu qrupda bir termin vardır – **EXWEx Works** (Franko-zavod). Franko-yükün göndərənin hesabına yüklənib müəyyən məntəqəyə, yerə göndərildiyini müəyyən edən termindir. E qrupunu səciyyələndirən əsas əlamət odur ki, satıcı malı alıcıya öz binasında və ya anbarında təhvil verir. Satıcı malın yüklənməsinə, gömrük haqqının ödənilməsinə cavabdehlik daşımır. Bu şərt satıcı üçün çox sərfəlidir, belə ki, satıcı malı müqavilədə göstərilən müddətdə və yerdə alıcının sərəncamına təqdim etdiyi andan öhdəliyi yerinə yetirmiş sayılır.
2. **F qrupu**. Bu qrupu səciyyələndirən əsas əlamət ondan ibarətdir ki, satıcı alıcının seçdiyi yükdaşıyana yükü təhvil verməyi öhdəsinə götürür.

Bu qrupda 3 termin vardır:

1) FCA – free carrier (franko-yükdaşıyan);
2) FAS – free alonqside ship (azad surətdə gəmi bortunun yanında);
3) FOB – free on board (azad surətdə gəmidə).

3. **S qrupu.** Bu qrupun əsas əlaməti odur ki, satıcı daşıma müqaviləsi bağlamağı öhdəsinə götürür, malın daşınmasına görə cavab verir, lakin malın təsadüfi tələf olması və ya zədələnməsi risqini öhdəsinə götürmür, onun itirilməsinə, zədələnməsinə görə əlavə məsuliyyət və xərc daşımır. Bu qrupda 4 termin vardır:
   1) CFR – cost and foreight (dəyər və fraxt);
   2) CİF – cost, onsurance, freight (dəyər, sığorta və fraxt);
   3) CRT – cost paid to... (fraxt, daşıma haqqı...);
   4) CİR – carriage and inqurance paid for (daşıma və sığorta... məntəqəyə qədər ödənilmişdir).
4. **D qrupu**. Bu qrupu xarakterizə edən əsas əlamət odur ki, bu qrupun terminlərində yükün təyinat ölkəsinə çatdırılmasını müəyyən edən şərtlər daxildir və satıcı malın

təyinat ölkəsinə çatdırılana qədər bütün xərcləri və riski öz üzərinə götürür. Bu qrupa 5 termin daxildir:

1) DAF – delivred at frontoer (sərhədə qədər göndərmə);
2) DES – delinred exship (gəmidən göndərmə);
3) DEQ – delivered exguay (tərsanədən göndərmə);
4) DDU – delivered duty unpaid (rüsumun ödənilməməsi ilə göndərmə);
5) DDR – delivered duty paid (rüsumun ödənilməsi ilə göndərmə).

Ticarət alətlərini əks etdirən standart müqavilə formaları əsasən dəniz daşımalarında, müxtəlif növ malların ticarətində, neft sənayesində və digər sahələrdə tətbiq olunur.

**Milli hüququn beynəlxalq hüquqla uzlaşması imkanı** 1965-ci il Vaşinqton Konvensiyasının 42-ci maddəsində əks olunmuşdur. Bu halda xarici investisiyaların müdafiəsinin təmin edilməsi məqsədilə beynəlxalq hüququn milli hüquq üzərində nəzarəti bərqərar olur. Beynəlxalq aləmdə oxşar şərtlərin, məsələn, milli hüquq və hüququn ümumi prinsiplərinin, Lex Mercatoria və ya ədalət prinsipinin birgə tətbiqi praktikası geniş yayılmışdır. Bura, həmçinin, hüquq normaları ilə yanaşı adətlərin də tətbiq edilməsini aid etmək olar. Bir sıra hallarda tətbiq olunmalı hüquqa belə kompleks yanaşma arbitrlər üçün yeganə mümkün fəaliyyət variantı hesab olunur.

Məsələn, Yaxın Qərq ölkələrindən birinin hökuməti ilə Amerika şirkəti arasında yaranan mübahisədə hər iki tərəfin nümayəndəsi milli qanunvericiliyin tətbiq edilməsinə etiraz edirlər. Yaranmış vəziyyəti təhlil edərək arbitrlər həmin mübahisənin həll edilməsi üçün hüququn ümumi prinsipləri ilə yanaşı Lex Mercatorianın tətbiq edilməsini məqsədə müvafiq hesab etmişlər. Tərəflər bu seçimdən razı qalmışlar.[1]

Tərəflər arasında yaranan mübahisənin şəraitin dəyişilməsi nəticəsində seçilmiş əsasında həll edilməsi qeyri-mümkün olduqda və ya bir tərəf üçün ədalətsiz olduqda, arbitrlər mübahisəni **amiable compresiteurs** ("dost vasitəçi") və ex aequo et bono ("ədalətlə və təmiz vicdanla") əsasında həll edə bilərlər. Bu şərtlər adətən uzunmüddətli müqavilələr bağlanarkən nəzərdə tutulur və belə şərtin nəzərdə tutulması şəraitin dəyişilməsi zamanı arbitrə imkan verir ki, yaranan mübahisəni ədalətlə və yaranan şəraitə uyğun həll etsin.

Müxtəlif ölkələrin qanunvericiliyi mübahisənin ex aequo et bono əsasında həll edilməsinə müxtəlif cür yanaşır. Bir sıra ölkələrin

[1] Виноградова Е.А. Третейский Суд, М., 1997, с.83.

qanunvericiliyində bu, ümumiyyətlə nəzərdə tutulmamışdır (məsələn, Rusiyada), bəzi ölkələrdə isə tərəflərin birgə razılığı əsasında mübahisənin bu cür həll edilməsi qanunvericilikdə düzünə olaraq nəzərdə tutulmuşdur (məsələn, Fransa, Almaniya, Niderland).

Hazırda bir çox ölkələrin qanunvericiliyində və arbitraj reqlamentlərində mübahisənin "dost vasitəçi" və "ədalətlə və təmiz vicdanla" həll edilməsi imkanı nəzərdə tutulmuşdur.

YUNSİTRAL-ın nümunəvi qanunun 28-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq "...Arbitraj məhkəməsi tərəflərin birbaşa ona vəkalət verdiyi halda, qərarı "dost vasitəçi" və ya "ex aequo et bono" qismində verir. Analoji norma Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 24-cü maddəsinin 3-cü bəndində də nəzərdə tutulmuşdur.

Azərbaycan qanunvericiliyində də bu norma öz əksini tapmışdır. Belə ki, Beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanununun 28-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq "...arbitraj məhkəməsi "ex aequo et bono" və yaxud "barışıq vasitəçiliyi"[1] qərarını yalnız tələflər ona belə səlahiyyət verdiyi halda qəbul edir".

Arbitrin səlahiyyətli olmasının hər hansı arbitraj prosesində hüquqların təminatçısı olmasına baxmayaraq tərəflərin ona ex aequo et bono qaydasında əlavə səlahiyyətlər verməsi bu təminatı daha da etibarlı edir.

Məsələn, "Ay Bi Em" şirkəti ilə "Fudjitsu" şirkəti arasında uzunsürən və mürəkkəb proses işə baxan arbitrlərin – hüquq doktoru və məşhur kompüter menecerinin – hüquq normaları əsasında işə baxılmasından imtina edib "ex aequo et bono" qaydasında işə baxdıqdan sonra uğurla başa çatmışdır.[2]

Təcrübədə bir sıra hallarda bir müqavilə münasibətlərinin bir neçə dövlətin qanunları ilə tənzim edilməsi zərurəti meydana çıxır (məsələn, müqavilənin bağlandığı ölkənin, müqavilənin icra edildiyi ölkənin), bu halda hansı ölkənin qanununun tətbiq edilməsi və ya hansı ölkənin qanunlarına üstünlük verilməsi məsələsi həll edilməlidir. **Kollizion normalar** belə bir "birləşdirici" gücə malik olduğu üçün ondan istifadə edilməsi praktikası geniş yayılmışdır. Kollizion normalar hər bir dövlətin qanunvericiliyində vardır.

---

[1] Qanunun dilinin qüsurlu olması burada da özünü göstərir. "Barışıq vasitəçiliyi" əslində "dost vasitəçi" kimi oxunmamalıdır. "Ex aequo et bono" nəyə görə "ədalətlə və təmiz vicdanla" kimi tərcümə edilməyib, bu da anlaşılmazdır, çünki hər iki prinsip ya hər iki dildə, ya da hər ikisi bir dildə verilsə idi üslub cəhətdən düzgün hesab olunardı.

[2] W.Michael Reisman et al., İnternational Commercial Arbitration 198-201 (1997).

Azərbaycan Respublikasının qanunvericiliyində də kollizion normalar Azərbaycan Respublikasının Milli Məclisində, Beynəlxalq xüsusi hüquq haqqında qanunda və digər normativ aktlarda müəyyən olunmuşdur.

Bir sıra hallarda arbitraj araşdırmasının keçirildiyi dövlətin kollizion normalarından istifadə olunur. Lakin kollizion normalar əsasında mübahisə həll olunmur, yalnız bu normalar əsasında tətbiq olunmalı maddi hüquq müəyyən edilir. Ona görə də tərəflər arbitraj sazişi bağlayarkən yaxşı olardı ki, tətbiq olunmalı maddi hüququ əvvəlcədən müəyyən etsinlər, bu halda heç kollizion normalardan istifadə edilməsinə də ehtiyac qalmazdı.

Tətbiq olunmalı hüququn seçilməsinin 2 üsulu vardır: birincisi, tərəflər özləri müqavilədə tətbiq olunmalı maddi hüququ müəyyən edirlər; ikincisi, tərəflər tətbiq olunmalı hüququ seçmədikdə onu arbitrlər müəyyən edirlər.

Arbitrlər tətbiq olunmalı hüququ seçərkən hansı meyarları əldə rəhbər tutmalıdırlar, hansı qanunvericiliyi tətbiq etməlidirlər sualına birmənalı cavab vermək çox çətindir, lakin hər bir halda tərəflər bu məsələnin həllini arbitrlərə tapşırmaqda müəyyən risqə yol vermiş olurlar.

Beynəlxalq təcrübə göstərir ki, tərəflər arbitraj sazişində tətbiq olunmalı hüququ müəyyən etmədikdə, arbitrlər tətbiq olunmalı hüququ aşağıdakı qaydada müəyyən edirlər:

1) arbitrajın keçirildiyi yerin maddi hüququnu seçə bilərlər;
2) arbitrajın olduğu yerin kollizion normalarını seçə bilərlər; (Bu üsul çox geniş yayılmışdır);
3) arbitrlər seçdiyi kollizion normalar əsasında tətbiq olunmalı hüququ seçə bilərlər (məsələn, YUNSİTRAL-ın nümunəvi qanununun 28-ci maddəsinin 2-ci bəndi);
4) müqavilənin müəyyən milli hüquqla sıx bağlı olması prinsipi əsasında tətbiq olunmalı hüququn seçilməsi; (Bu halda kollizion normalara müraciət olunmur. Roma Konvensiyasında, Almaniyanın, İsveçrənin arbitraj qanunvericiliyində bu, prinsip nəzərdə tutulmuşdur);
5) kollizion normalara və milli hüquqa bağlılıq prinsipinə istinad etmədən birbaşa tətbiq olunmalı maddi hüququn seçilməsi; (Bu qayda Fransanın, Niderlandın arbitraj qanunvericiliyində, dünyanın aparıcı arbitraj institutlarının reqlamentlərində nəzərdə tutulmuşdur). Lakin YUNSİTRAL-ın nümunəvi qanununda bu qaydadan imtina edilmişdir.

Müqavilədə tətbiq olunmalı hüquq haqqında qeyd-şərt aşağıdakı kimi ifadə edilməlidir:

"**Bu müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi əsasında tənzim edilir**"

Arbitraj sazişinin məzmununa daxil olan ünsurlərdən biri də **arbitrlərin sayı ilə** bağlı məsələdir.

Bir çox hallarda beynəlxalq arbitrajlar 3 arbitrdən ibarət olur, onlardan 2-cini tərəflər, 3-cünü isə arbitrlər özləri seçirlər və ya tərəflərin razılığı üzrə təyin olunurlar.

Məlumdur ki, mübahisə təkbaşına arbitr tərəfindən həll olunduqda bu, tərəflərə daha ucuz başa gələcək və daha az vaxt aparacaqdır. Tərəfin təkbaşına arbitri seçməsi, həm də bütün arbitrajın tərkibinə etibar etməsi hesab olunur və son dövrlərdə işə təkbaşına arbitrin baxması halları daha da çoxalmışdır.

Arbitrlərin sayı ilə bağlı məsələni tərəflərin həll etmədikdə bu məsələ arbitraj reqlamentinə və arbitraj praktikasına uyğun olaraq arbitraj məhkəməsi tərəfindən həll olunur. Bir sıra arbitraj institutlarının reqlamentlərində (Beynəlxalq Ticarət Palatası, London Beynəlxalq Arbitraj Məhkəməsi, Amerika Arbitraj Assosiasiyası) nəzərdə tutulmuşdur ki, tərəflər başqa hal nəzərdə tutmadıqda və "işin xarakteri" 3 arbitrdən ibarət tərkibdə işə baxılmasını zəruri etmədikdə, işə təkbaşına arbitr tərəfindən baxılır. Məsələn, Beynəlxalq Ticarət Palatasının reqlamentinə uyğun olaraq mübahisəli məbləğ 1,5 mln. dollardan artıq olmadığı halda işə təkbaşına arbitr tərəfindən baxılır.[1]

Bir sıra arbitraj institutlarının reqlamentlərində isə bir qayda olaraq 3 arbitrdən ibarət tərkibdə işə baxılması nəzərdə tutulmuşdur. Bura Stokholm Ticarət Palatasının Arbitraj institutunu, Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsini, YUNSİTRAL-ın arbitraj reqlamentini aid etmək olar.

BKAM-ın Əsasnaməsinin 27-ci maddəsinə müvafiq olaraq əgər tərəflər arasında işə təkbaşına arbitrin baxmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaranır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.

Əgər cavabdeh arbitr və ehtiyat arbitrini iddia ərizəsinin surətini aldığı gündən 20 gün müddətində seçməzsə, BKAM-ın sədri onun əvəzinə arbitrlər siyahısından arbitri və ehtiyat arbitri təyin edir.

Tərəflərin seçdiyi və ya BKAM-ın sədrinin təyin etdiyi arbitrlər, arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədrini seçirlər.

---

[1] Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001, с.136.

Əgər arbitrlər ikinci arbitrin seçilməsi və ya təyin edilməsindən keçən 15 gün müddətində Arbitraj Kollegiyasının sədrini seçməsələr, BKAM sədri tərəfindən arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədri təyin edilir.

Tərəflərin razılığı ilə işə təkbaşına arbitr baxırsa, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr tərəflərin razılığı ilə seçilir. Tərəflər 20 gün ərzində razılığa gələ bilmədikdə, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr arbitrlər siyahısından BKAM-ın Sədri tərəfindən təyin edilir.

Müqavilədə arbitraj tərkibi ilə bağlı qeyd-şərt aşağıdakı kimi ifadə edilə bilər:

1. "Təkbaşına arbitr Azərbaycandan (və ya Almaniyadan) olan hüquq doktoru (adı, soyadı, atasının adı) təyin edilsin".
2. "Arbitraj prosesi 3 arbitrdən ibarət tərkibdə keçirilsin və arbitrlər təcrübə ilə sıx əlaqəsi olan və azı 15 il iş təcrübəsi olan şəxslər sırasından təyin edilsin".
3. "Arbitraj baxışı 3 arbitrdən ibarət tərkibdə keçirilsin və arbitrlərdən 2-si sığorta sahəsində biliyə və təcrübəyə, 1-i isə hüquq sahəsində təcrübəyə malik olan şəxslər sırasından təyin edilsin.

Beləliklə, biz arbitraj sazişinin məzmununa daxil olan ünsürləri nəzərdən keçirdik. Sadalanan ünsürlərdən əlavə tərəflər arbitraj sazişində digər ünsürləri də müəyyən edə bilərlər. Bu ünsürlər sırasına arbitraj təcrübəsində iddianın təmin edilməsi tədbirlərinin müəyyən edilməsi, Kollegiyanın sədrinə əlavə səlahiyyətlərin verilməsi, arbitraj reqlamentindən kənara çıxılması, qətnamənin müəyyən vaxt ərzində çıxarılması, arbitraj xərclərinin bölüşdürülməsi aid edilə bilər.

Arbitraj sazişinin məzmununa daxil olan ünsürləri ümumiləşdirərək və arbitraj sazişinin hüquqi təbiət etibarilə müstəqil mülki-hüquqi müqavilə olduğunu nəzərə alaraq arbitraj sazişinin işlənib-hazırlanması və tərtib olunması ilə bağlı bəzi tövsiyələri nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik.

1. Arbitraj qeyd-şərti uzun və mürəkkəb olmamalıdır, o, aydın və müəyyən olmalıdır. Arbitraj qeyd-şərti qeyri-müəyyən və ikimənalı olduqda, onun tətbiq imkanları məhdudlaşa bilər, əlavə mübahisələr yarana bilər ki, bu da əlavə vaxt və xərcə aparıb çıxara bilər.
2. Arbitraj razılaşması öz məzmununa görə arbitraj qeyd-şərtindən əhəmiyyətli dərəcədə fərqlənməlidir, çünki arbitraj qeyd-şərti gələcəkdə yarana biləcək mübahisənin həll edilməsi üçün bağlanırsa, arbitraj razılaşması artıq

mövcud olan mübahisənin həll edilməsi üçün bağlanılır. Bu halda çətinlik ondan ibarətdir ki, artıq tərəflər arasında qarşıdurma mövcuddur və onların bir-birinə etibarı müəyyən mənada sarsılmışdır, ona görə də tərəflərdən biri vaxt udmaq

üçün müəyyən vasitələrdən (həm də hüquqi vasitələrdən) istifadə etməyə çalışır.

Ona görə də artıq yaranmış mübahisənin arbitraja verilməsi haqqında arbitraj razılaşmasında (bu, həm də ad hoc arbitraj qeyd-şərtinə aiddir) aşağıdakı şərtlərin nəzərdə tutulması tövsiyyə edilir:

1) Arbitraj sazişinin sferası (arbitrajda baxılmalı mübahisələrin dairəsi);
2) Arbitrlərin səlahiyyəti;
3) Arbitraj haqqında tələbin göndərilməsi qaydası və ona cavab verilməsi müddəti;
4) Tərəflərin nümayəndəsi;
5) Arbitraj tərkibinin formalaşdırılması qaydası;
6) Arbitrajın keçirildiyi yer;
7) Arbitraj araşdırmasının dili;
8) Tətbiq olunmalı hüquq;
9) İşə baxılmasının prosessual qaydası;
10) Arbitraj qətnaməsinin çıxarılması qaydası;
11) Qətnamənin icrası qaydası;
12) Arbitraj xərclərinin bölüşdürülməsi, o cümlədən, arbitrlərin qonorarlarının və inzibati xərclərin məbləği.

Göstərilən şərtlərin arbitraj sazişinə (bu halda arbitraj razılaşmasına və ad hoc arbitraj qeyd-şərtinə) daxil edilməsi həmin işə keyfiyyətli baxılması imkanlarını çoxaldar və əlavə vaxt itkisinin, yersiz mübahisələrin qarşısını alar.

3. Arbitraj sazişi gələcəkdə yarana biləcək mübahisənin bütün iştirakçıları tərəfindən imzalanmalıdır, çünki ümumi qaydaya görə arbitraj sazişini imzalayan şəxs onun razılığı olmadan hər hansı qisimdə işə cəlb edilə bilməz. Məhkəmələrdən fərqli olaraq arbitrlər, həmçinin, şəxsin razılığı olmadan onu üçüncü şəxs qismində işə cəlb etməyə haqlı deyildir. Məsələn, Baş podratçı ilə sifarişçi arasında bağlanan müqavilədə mübahisəyə arbitraj məhkəməsində baxılması nəzərdə tutulubsa və bu şərt baş podratçı ilə subpodratçı arasında bağlanan müqavilədə göstərilməyibsə, o halda baş podratçı ilə sifarişçi arasında yaranan

mübahisəyə subpodratçı məcburi qaydada cəlb edilə bilməz. Ona görə bu tipli müqavilələr bağlanarkən mübahisənin arbitraja verilməsi haqqında arbitraj sazişinə (həm qeyd-şərtə, həm arbitraj razılaşmasına, həm də münsif qeydinə) gələcəkdə yarana biləcək mübahisənin ehtimal olunan bütün subyektləri (bu halda baş podratçı, sifarişçi və subpodratçı) imza etməlidirlər.

4. Dövlət orqanları və müəssisələri ilə bağlanan müqavilələrdə arbitraj sazişinə dövlət orqanlarının iddianın arbitraj baxışına verilməsi və arbitraj qətnaməsinin icrası ilə bağlı dövlət immunitetindən imtinası haqqında müddəa da əlavə edilməlidir.

5. Tərəflər arbitraj sazişi bağlayarkən ikimənalı və ya çoxmənalı ifadələrdən mümkün qədər imtina etməlidirlər. Məsələn, arbitraj sazişində yaranacaq mübahisənin həm arbitraja, həm də məhkəməyə verilməsi imkanı haqqında şərt nəzərdə tutularsa, bu gələcəkdə daha bir mübahisənin yaranmasına şərait yarada bilər. Bu halda bir tərəf mübahisənin arbitraja, digər tərəf isə dövlət məhkəməsinə verilməsi barədə lüzumsuz və səmərəsiz mübahisə aça bilərlər. Ona görə də tərəflər arbitraj sazişində yarana biləcək mübahisənin arbitraja verilməsi barədə birmənalı razılığa gəlməlidirlər və ya qeyd olunmalıdır ki,

mübahisənin həll edilmək üçün arbitraja verilməsi həmin mübahisəyə dövlət məhkəməsində baxılmasını istisna edir.

Keyfiyyətli və diqqətlə hazırlanmış arbitraj sazişi işə arbitrajda vaxtında baxılmasının maddi və prosessual normaların düzgün seçilməsinin, arbitraj qətnaməsinin normal icrasının ən böyük təminatıdır.

# V fəsil
# Arbitraj prosesinin iştirakçıları

## *§ 1. Arbitraj prosesinin iştirakçılarının tərkibi*

Beynəlxalq Arbitraj məhkəməsində işə baxılması prosesində xarici hüquqi şəxslərin, müəssisələrin, sahibkarların prosessual vəziyyətini nizama salan hüquq normalarının məcmusu müstəqil prosessual institut olmaqla arbitraj prosesi iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir. Bu prosessual hüquqi normalar əsasən hər bir dövlətin Arbitraj haqqında qanunvericiliyində və Beynəlxalq Arbitraj İnstitutlarının Reqlamentində əks olunmuşdur.

İşə arbitraj məhkəməsində hərtərəfli, keyfiyyətli və ədalətli baxılması çox dərəcədə mübahisə subyektlərinin səlahiyyətlərinin həcmindən asılı olur.

Arbitraj prosesinin iştirakçıları işin nəticəsində bilavasitə maraqlı olan, öz adından çıxış edən, prosesin gedişinə təsir edə bilən şəxslər dairəsidir və bu cəhətdən onları bir neçə qrupa bölmək olar.

**Birinci qrupa** konkret işi həll edən **arbitraj məhkəməsi** (institutu, mərkəzi) aiddir. **İkinci qrupa** işin nəticəsində bilavasitə hüquqi marağı olan şəxslər daxildir, bunlar:
tərəflər və üçüncü şəxslərdir.

**Üçüncü qrupa** mübahisənin həll edilməsində bilavasitə hüquqi marağı olmayan, lakin arbitraj prosesinin normal keçməsinin təmin edilməsində rolu olan şəxslərdir, bura: şahidlər, ekspert-mütəxəssislər, tərcüməçilər, nümayəndələr aid edilə bilər.

Arbitraj prosesinin məcburi subyektləri sözsüz ki, arbitraj məhkəməsi və tərəflərdir, qalan şəxslərin prosesdə iştirakı hər bir işin konkret hallarından asılıdır.

İşdə iştirak edən şəxslər Qanunla və Arbitraj Reqlamenti ilə onlara verilən hüquq və vəzifələrdən vicdanla və bərabər hüquqla istifadə etməyə borcludurlar. Onlar bir tərəfdə məhkəmə olmaqla arbitraj prosessual hüquq münasibətlərinin subyektidirlər.

İşdə iştirak edən şəxslər arbitraj qanunvericiliyi ilə müəyyən edilən arbitraj prosessual hüquqlar və vəzifələr əldə etmək imkanı əldə etməklə arbitraj prosessual hüquq qabiliyyətinə malikdirlər.

Arbitraj prosessual hüquq qabiliyyəti maddi hüquqda olan hüquq qabiliyyəti ilə sıx əlaqəlidir, çünki hüquqlarının müdafiəsi məqsədilə arbitraja müraciət edən şəxsin ilk növbədə maddi hüquqla qorunan hüquqları pozulmalıdır, əks halda mübahisənin mövcudluğundan söhbət gedə bilməz. Lakin maddi hüquqda olan hüquq qabiliyyəti ilə arbitraj prosesində olan hüquq qabiliyyətini eyniləşdirmək olmaz.

Belə ki, maddi hüquqda olan hüquq qabiliyyəti - subyektiv hüquq və vəzifələr əldə etmək qabiliyyətidirsə (mülkiyyət hüququ, tələb hüququ), arbitraj prosessual hüquq qabiliyyəti – pozulmuş hüquqların müdafiəsini tələb etmək, prosessual hüquq və vəzifələrə malik olmaq qabiliyyətidir.

Arbitraj prosessual hüquq qabiliyyətinə hüquqi şəxslər və sahibkarlar malikdirlər, Beynəlxalq Arbitrajda isə bu subyektlərin prosessual hüquq qabiliyyəti həm də ayrı-ayrı dövlətlərə mənsub olması ilə şərtləndirilir.

BKAM-ın Əsasnaməsinin 1-ci maddəsinə uyğun olaraq Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi (bundan sonra - BKAM) 18 noyabr 1999-cu il tarixli «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununa əsasən öz fəaliyyətini könüllülük əsasında həyata keçirən müstəqil, daimi fəaliyyət göstərən arbitraj təşkilatıdır (münsiflər məhkəməsidir).

BKAM-a tərəflərin razılığı ilə xarici ticarət və beynəlxalq iqtisadi əlaqələrin digər növlərinin həyata keçirilməsindən yaranan müqavilə və digər mülki-hüquqi münasibətlərə dair mübahisələr (əgər tərəflərdən ən azı birinin kommersiya müəssisəsi xaricdə yerləşirsə), həmçinin, Azərbaycan Respublikasının ərazisində yaradılmış xarici investisiyalı və beynəlxalq birlik və təşkilatların öz aralarında və ya onların iştirakçıları arasında mövcud olan mübahisələr, eləcə də onlarla Azərbaycan Respublikasının digər hüquq subyektləri arasındakı mübahisələr verilə bilər.

Mülki-hüquqi münasibətlərdən yaranan mübahisələrə, xüsusilə, malların alqı-satqısına (çatdırılmasına), işlərin həll edilməsinə, xidmətlərin göstərilməsinə, malların və (və ya) xidmətlərin mübadiləsinə, malların və sərnişinlərin daşınmasına, ticarət nümayəndəliyinə və vasitəçiliyinə, icarəyə (lizinqə), elmi-texniki mübadiləyə, yaradıcılıq fəaliyyətinin digər nəticələrinin mübadiləsinə, sənaye və digər obyektlərin yaradılmasına, lisenziyalı əməliyyatlara, investisiyalara, kredit-hesablaşma əməliyyatlarına, sığortaya (təkrar sığortaya), müştərək sahibkarlığa, sənaye və sahibkarlıq kooperasiyasının digər formalarına dair münasibətlərdən yaranmış mübahisələr və s. kommersiya münasibətlərindən irəli gələn mübahisələr BKAM-ın həllinə verilə bilər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 44-cü maddəsinə əsasən Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdırıldığı an xitam verilir.

Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik olan və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər.

Özünün subyektiv hüquqlarını arbitraj məhkəməsində həyata keçirmək və müəyən prosessual hərəkətləri yerinə yetirmək üçün şəxs (istər xarici, istərsə milli hüquqi şəxslər) prosessual fəaliyyət qabiliyyətinə malik olmalıdır.

**Arbitraj prosessual fəaliyyət qabiliyyəti** – bilavasitə prosessual hərəkətlərin edilməsi, prosessual hüquq və vəzifələrin həyata keçirilməsi qabiliyyətidir.

Əmələ gəlmə şərtlərinə görə arbitraj prosessual fəaliyyət qabiliyyəti maddi hüquqda olan fəaliyyət qabiliyyəti ilə eynidir, lakin məzmununa görə biri digərindən fərqlidir. Əgər maddi hüquqda fəaliyyət qabiliyyəti - öz hərəkətləri ilə maddi hüquqlar əldə etmək və maddi vəzifələr daşımaq qabiliyyətidirsə (əqdlər bağlamaq qabiliyyəti, mülkiyyət əldə etmək qabiliyyəti və s.), arbitraj prosessual fəaliyyət qabiliyyəti – öz hərəkətləri ilə prosessual hüquq və vəzifələri həyata keçirməklə arbitraj prosesində iştirak etmək qabiliyyətidir (iddia vermək, vəsatət qaldırmaq, barışıq sazişi bağlamaq və s.).

Hüquqi şəxsin arbitraj prosessual hüquq qabiliyyəti və arbitraj prosessual fəaliyyət qabiliyyəti eyni vaxtda, yəni dövlət qeydiyyatına alındığı andan yaranır.

Beləliklə, beynəlxalq arbitraj prosesində işdə iştirak edən şəxs omaq üçün arbitraj prosessual hüquq və fəaliyyət qabiliyyətinə malik olmaq əsas şərtlərdən biridir.

Arbitraj prosesinin əsas və məcburi subyekti mübahisəni həll edən **Beynəlxalq arbitraj Məhkəməsidir.**

Arbitraj prosesi iştirakçıları arasında yalnız arbitraj məhkəməsi işə baxmaq və iş üzrə qətnamə çıxarmaq səlahiyyətinə malikdir. Arbitraj məhkəməsinin səlahiyyəti prosesin digər iştirakçılarının hüquq və vəzifələri ilə ziddiyyət təşkil etmir, əksinə, arbitraj məhkəməsi (və ya arbitraj) prosesin digər iştirakçılarının hüquq və vəzifələrinin həyata keçirilməsini təmin edir.

BKAM-ın Əsasnaməsinin 16-cı maddəsinə əsasən Arbitrlər, Əsasnaməyə əsasən, BKAM-ın səlahiyyətlərinə aid olan mübahisələrin həlli sahəsində lazımi xüsusi biliklərə malik olan şəxslər sırasından seçilirlər. Arbitr funksiyasını yerinə yetirən şəxs iştirakı nəzərdə tutulan mübahisə ilə bağlı onun qərəzsizliyinə və müstəqilliyinə əsaslı şübhələr

gətirə bilən bütün hallar barədə BKAM-a məlumat verməlidir (əgər arbitrə arbitraj araşdırmaları zamanı belə hallar məlum olarsa, o, bu haqda dərhal BKAM-ı məlumatlandırmalıdır).

BKAM-ın arbitrlərinin adı, atasının adı və soyadı, təhsili və iş yeri, elmi dərəcəsi və rütbəsi, ixtisası göstərilməklə, 5 il müddətinə arbitrlərin siyahısı (gələcəkdə – arbitrlərin siyahısı) Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən təsdiq olunur.

Arbitrlərin siyahısı hər bir maraqlı şəxsin sorğusuna əsasən BKAM-ın katibliyi tərəfindən təqdim edilir.

Arbitrlərin funksiyalarını siyahıya daxil edilməyən şəxslər də yerinə yetirə bilər.

Arbitr (hakim) öz funksiyasını yerinə yetirə bilmədikdə və ya layiqincə yerinə yetirmədikdə və yaxud Arbitrlərin Etik Kodeksinin tələblərinə riayət etmədikdə Rəyasət Heyətinin təqdimatına əsasən Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən vaxtından əvvəl arbitrlərin siyahısından xaric edilir.

Əgər tərəflərin arasında işə təkbaşına arbitrin baxmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaranır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.

Əgər tərəflərin razılığı ilə işə təkbaşına arbitr baxırsa, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr tərəflərin razılığı ilə seçilir. Onlar, həmçinin, təkbaşına arbitrin və ehtiyat təkbaşına arbitrin BKAM-ın Sədri tərəfindən təyin edilməsini də xahiş edə bilərlər. Tərəflər 20 gün ərzində razılığa gələ bilmədikdə, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr arbitrlər siyahısından BKAM-ın Sədri tərəfindən təyin edilirlər.

Arbitraj Kollegiyası işin araşdırmaya hazırlanması vəziyyətini yoxlayır və zəruri halda, hazırlıq üçün əlavə tədbirlər görür, xüsusilə, tərəflərdən yazılı şəkildə izahatlar, sübutlar və digər əlavə sənədlər tələb edir. Əgər işin araşdırmaya hazırlanması üçün əlavə tədbirlər görülürsə, bunun üçün müəyyən müddət təyin edilir.

Arbitraj Kollegiyasının sədri BKAM-ın məsul katibinə işin araşdırılması və hazırlanması üçün əlavə tapşırıqlar verə bilər. O, həmçinin, ona tərəflərin məhkəmə baxışına çağırılması üçün tapşırıqlar verə bilər.

Şifahi işəbaxmanın vaxtı və yeri haqqında çağırış vərəqəsi tərəflərə elə qaydada göndərilməlidir ki, hər bir tərəfin hazırlıq və şifahi işəbaxmaya gəlməsi üçün 30 gün müddəti olmalıdır. Tərəflərin razılığı ilə bu müddət azaldıla bilər.

Əgər növbəti şifahi işəbaxma zərurəti varsa, Arbitraj Kollegiyası konkret imkanları nəzərə alıb, onun keçirilməsini təyin edir.

Əsasnamənin 32-ci maddəsinə uyğun olarpaq əgər arbitr, Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz funksiyalarını yerinə yetirə bilmirlərsə və ya bu funksiyaları əsassız gecikdirərək həyata keçirmirlərsə, tərəflərin razılığı ilə onların hər birinin səlahiyyətləri dayandırıla bilər.

Arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətləri özlərinə etiraz ərizəsilə də dayandırıla bilər.

Tərəflər razılığa gələ bilməmişlərsə, onların hər birinin hazırkı maddənin 1-ci bəndinə əsaslanaraq, arbitrin, Arbitraj Kollegiyası sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması məsələsini həll etmək üçün BKAM-ın sədrinə müraciət etmək hüquqları vardır.

BKAM-ın sədrinin öz təşəbbüsü ilə hazırki maddənin 1-ci bəndində göstərilən arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması məsələsini həll etmək hüququ vardır.

Bu Əsasnamənin 31.3. və 32.4-cü bəndlərinə uyğun BKAM-ın Sədrinin qəbul etdiyi qərarlardan tərəflər BKAM-ın Rəyasət Heyətinə şikayət verə bilərlər.

Əsasnamənin 31-ci maddəsində arbitrə edilən etirazlın əsasları və qaydası təsbit edilmişdir. Belə ki, tərəflərin hər birinin, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə, əgər onların qərəzsizliyi və müstəqilliyi barədə əsaslı şübhələr doğura bilən hallar varsa, xüsusilə, əgər onların şəxsən, birbaşa və yaxud dolayısı ilə işin həllində maraqlı olduqları müəyyən edilirsə, onlara etiraz etmək hüquqları vardır. Tərəfin etirazın səbəbini göstərən yazılı ərizəsini, tərəf Arbitraj Kollegiyasının təşkili və bu cür halları bildiyi vaxtdan 15 gün müddətində verə bilər. Yalnız üzürlü səbəb olduqda göstərilən müddətdən sonra verilən etiraz ərizəsinə baxılması mümkündür.

Arbitrə etiraz məsələsi Arbitraj Kollegiyasının digər üzvləri tərəfindən həll edilir. Əgər onlar razılığa gələ bilməmişlərsə və ya etiraz iki arbitrə və ya təkbaşına arbitrə verilərsə, etiraz məsələsi BKAM-ın sədri tərəfindən həll edilir.

BKAM-ın sədrinin öz təşəbbüsü ilə arbitrə, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə 31-ci maddənin 1-ci bəndində göstərilən əsaslar olduqda, etiraz məsələsini həll etmək hüququ vardır.

Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz təşəbbüsü ilə özlərinə etiraz edə bilərlər.

31-ci maddənin 1-3-cü bəndlərindəki əsaslar, həmçinin, ehtiyat üçün seçilmiş və ya təyin edilmiş arbitrə, Arbitraj Kollegiyasının sədrinə və təkbaşına arbitrə də aid edilir.

31-ci maddənin 1-ci bəndində göstərilən eyni əsaslarla işin araşdırılmasında iştirak edən ekspertə və tərcüməçiyə etiraz verilə bilər. Bu halda etiraz məsələsi Arbitraj Kolegiyası tərəfindən həll edilir.

### *§ 2. Arbitraj prosesində tərəflər və onların nümayəndələri*

Arbitraj prosesində tərəflər o proses iştirakçıları hesab olunur ki, məhz onlar arasında maddi hüquq münasibətlərindən doğan mübahisə baş verir. Arbitraj prosesində tərəflər **iddiaçı** və **cavabdeh** adlanır. **İddiaçı** öz maraqlarının müdafiəsi üçün arbitraj məhkəməsinə iddia ərizəsi ilə müraciət edən şəxsdir, başqa sözlə, İddiaçı hüquqları cavabdeh tərəfindən pozulması güman edilən və iddia tələbi ilə arbitraj sazişinə uyğun olaraq arbitraj məhkəməsinə müraciət edən proses iştirakçısıdır. **Cavabdeh** isə iddiaçının iddia tələbi üzrə cavab verməli olan və iddiaçının hüquqlarını pozduğu güman edilən şəxsdir.

Hər bir arbitraj mübahisəsində azı iki tərəf vardır: iddiaçı və cavabdeh. Beynəlxalq arbitraj prosesində hər bir halda tərəflərdən biri və ya ikisi də xarici hüquqi şəxs olur.

Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının Qanunun 1-ci maddəsinə əsasən Arbitraj aşağıdakı hallarda beynəlxalq sayılır:

- arbitraj razılaşması (sazişi) bağlananda onun tərəflərinin müəssisələri ayrı-ayrı dövlətlərdə yerləşirlər;
- aşağıdakı yerlərdən biri tərəflərin öz müəssisələrinin olduğu dövlətin hüquqlarından kənarda yerləşir:

a) arbitrajın yeri, əgər bu yer arbitraj sazişində və yaxud ona uyğun müəyyən edilmişdirsə;

b) ticarət münasibətlərindən irəli gələn öhdəliklərin əsas hissəsinin icra edilməli olduğu hər hansı yer və yaxud mübahisə predmetinin sıx əlaqəli olduğu yer;

- tərəflər qəti razılığa gəlmişlər ki, arbitraj sazişinin predmeti birdən çox dövlət ilə əlaqəlidir.

Arbitraj prosesində həmçinin tərəf qismində Sahibkarlıq fəaliyyəti ilə məşğul olan xarici ölkə sahibkarları da çıxış edə bilərlər.

Bir sıra ölkələrin qanunvericiliyində bu hüquq həm də arbitrajın yerləşdiyi ölkənin sahibkarlarına da şamil edilmişdir.

Arbitraj prosesində işdə eyni zamanda bir neçə iddiaçı və ya bir neçə cavabdeh çıxış edə bilər. Bu, bir çox hallarda maddi hüququn məzmunundan asılı olur və arbitraj prosesində **prosessual iştirakçılıq** adlandırılır.

Arbitraj prosesində tərəflər bərabər hüquq və vəzifələrdən istifadə edirlər.

BKAM-ın Əsasnaməsinin 6-cı maddəsinə uyğun olaraq İşdə iştirak edən şəxslər Əsasnamə və qanunvericiliklə onlara verilmiş prosessual hüquqlardan vicdanla istifadə etməyə borcludurlar.

İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən, əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərarlarından, tərəflərin Sazişində nəzərdə tutulduğu hallarda məhkəmə qətnaməsindən Rəyasət Heyətinə şikayət etmək və sair hüquqlara malikdirlər.

Tərəflər arbitraj prosesinin hər hansı mərhələsində işi barışıq sazişi ilə qurtara bilərlər. BKAM-ın Əsasnaməsinin 50-ci maddəsinə əsasən Arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırarlarsa, Arbitraj Kollegiyası (işə təkbaşına baxan arbitr) baxışa xitam verir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda razılaşdırılmış şərtlər əsasında arbitraj qərarı formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir.

Razılaşdırılmış şərtlərlə arbitraj qərarı 48-ci maddənin müddəalarına uyğun olaraq çıxarılmalıdır və onun arbitraj qərarı olduğu göstərilməlidir.

Belə arbitraj qərarı, digər hər hansı arbitraj qərarı ilə bərabər hüquqi qüvvəli sayılır və mübahisənin mahiyyəti üzrə olan digər hər hansı arbitraj qərarı kimi icra olunmalıdır.

Cavabdeh arbitraj prosesində ilkin iddiaya qarşı qarşılıqlı iddia verə bilər. BKAM-ın Əsasnaməsinin 40-cı maddəsinə müvafiq olaraq Əsasnamənin 26-cı maddəsinin 1-ci bəndində qeyd edilən müddətdə (20 gün), cavabdehin müqaviləyə əsasən qarşılıqlı iddia vermək hüququ

vardır və ya həmin müqaviləyə əsasən də hesablama məqsədilə tələb irəli sürə bilər.

Əgər cavabdehin təqsirindən əsassız ləngimə nəticəsində qarşılıqlı iddianın və ya hesablama tələbinin arbitraj araşdırması uzadılırsa, Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr əlavə xərcləri və digər tərəfin məsrəflərinin ödənilməsini cavabdehə həvalə edə bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, qarşılıqlı iddianın və ya hesablama tələbinin həll olunmasını məqsədəuyğun hesab eiməyə bilər.

Qarşılıqlı iddia və hesablama məqsədilə verilən tələbə də ilk iddiaya aid olan qaydalar tətbiq olunur.

Arbitraj prosesində tərəflərin elə hüquqları vardır ki, həmin hüquqlar həm də tərəfin vəzifələri hesab olunur, məsələn, tərəfin iddia tələbi üzrə izahat vermək hüququ vardır, bu hüquq həm də tərəfin iddia tələbi üzrə izahat verməsi vəzifəsi ilə üst-üstə düşür və ya iş üzrə sübutların təqdim edilməsi tərəfin həm hüququ, həm də vəzifəsidir.

Arbitraj prosesində prosessual hüquq varisliyi institutunun da tətbiq edilməsini mümkün sayırıq, doğrudur, nə Beynəlxalq Konvensiyalarda, nə də mövcud Reqlamentlərdə (o cümlədən, YUNSİTRALIN-ın Arbitraj Reqlamentində) bu barədə heç bir müddəa əks etdirilməmişdir, ancaq bu institutunun tətbiqinin mümkünsüzlüyü haqqında da norma yoxdur. Belə ki, arbitraj prosesinin gedişi prosesində tərəflərdən biri sıradan çıxa bilər (hüquqi şəxs təsviyə edilə bilər, sahibkar – investor vəfat edə bilər, borc güzəşt edilə bilər), bu halda fikrimizcə, milli qanunvericiliyin normalarına istinadən hüququn analogiyasını tətbiq etməklə prosessual hüquq varisliyinə yol verilə bilər.

Arbitraj prosesində tətbiq ediləcək prosessual hüquq varisliyi institutu üçün hüquq varisliyinin maddi hüquqda müəyyən edilən hansı növdə olmasının (universal və ya sinqulyar) heç bir hüquqi əhəmiyyəti yoxdur.

Arbitraj prosesində prosessual hüquq varisinin iştirakı mütləq arbitraj məhkəməsinin razılığı ilə baş verməlidir, bu halda arbitraj məhkəməsinə prosessual hüquq varisliyi ilə bağlı sənədlər təqdim edilməlidir, belə sənədlər sırasına: hüquqi şəxsin ləğvi və ya dövlət qeydiyyatından çıxarılması barədə sənəd, sahibkar investorun ölümü barədə sənəd, borcun güzəşt edilməsi barədə sənəd və s. aid edilməlidir.

BKAM-ın Əsasnaməsinin 35-ci maddəsinin I bəndinə uyğun olaraq tərəflər arbitraj məhkəməsində öz işlərini birbaşa və ya özlərinin təyin etdikləri səlahiyyətli nümayəndələri vasitəsilə apara bilərlər.

Hüquqi şəxsin rəhbəri (Prezident, Direktor, İdarə Heyətinin Sədri, Koordinasiya Şurasının Sədri, Direktorlar Şurasının Sədri və s.) və onların müavinləri hüquqi şəxsin orqanları sayılır və onlar arbitraj prosesində işləri şəxsən apara bilərlər.

Sadalanan şəxslərin səlahiyyəti onların xidməti səlahiyyətini təsdiq edən sənədlərə (vəsiqə, qərar, əmr və s.) müəyyən edilir. Lakin hüquqi şəxslərin rəhbərlərinin arbitraj prosesində şəxsən iştirakı bir çox hallarda müxtəlif səbəblərdən mümkünsüz olur, ona görə də təcrübədə arbitraj prosesində nümayəndəlik institutundan geniş istifadə olunur.

Arbitraj prosesində nümayəndəlik dedikdə, arbitraj iclasında nümayəndənin fəaliyyəti, təmsil etdiyi şəxsin (həm hüquqi, həm də fiziki şəxsin) adından onun hüquq və vəzifələrindən istifadə etməklə əlverişli qətnamənin çıxarılmasına nail olması, həmçinin təmsil etdiyi şəxsə öz hüquq və vəzifələrini həyata keçirməsinə hüquqi yardım göstərilməsi ilə bağlı fəaliyyəti anlaşılmalıdır.

Nümayəndənin arbitraj prosesində iştirakı əsasən təmsil etdiyi şəxsin fiziki cəhətdən həmin prosesdə iştirak edə bilməməsi və ya təmsil edilənin yüksək keyfiyyətli ixtisaslı hüquqi yardım almaq istəyi ilə şərtləşir.

Beynəlxalq arbitraj prosesində tərəflər nümayəndə qismində ya özlərinin hüquqi xidmət aparatının əməkdaşlarından, ya da digər hüquq şirkətləri və ya vəkil bürolarının əməkdaşlarının xidmətindən yararlanırlar. Digər hüquq şirkətləri və ya vəkil bürolarının xidmətindən istifadə edilməsi məqsədilə təmsil edilənlə təmsil edən arasında hüquqi yardımın göstərilməsi haqqında müqavilə bağlanılmalıdır və həmin müqavilədə xidmət haqqı və nümayəndənin səlahiyyətləri konkret olaraq göstərilməlidir.

### *§ 3. Arbitraj prosesində üçüncü şəxslər*

BKAM-ın Əsasnaməsinin 42-ci maddəsinə əsasən yalnız mübahisə edən tərəflərin razılığı ilə arbitraj araşdırmasına üçüncü şəxslərin müdaxiləsinə yol verilir. Üçüncü şəxsləri araşdırmaya cəlb etmək üçün tərəflərin razılığından əlavə, cəlb edilmiş şəxsin öz razılığı da olmalıdır. İddia ərizəsinə verilən cavabın müddəti keçmirsə, üçüncü

şəxsin cəlb edilməsinə dair vəsatət təqdim edilə bilər. Üçüncü şəxsin cəlb edilməsinə razılıq yazılı formada verilməlidir.

Bu norma dünyanın bir çox arbitraj İnstitutlarının və Mərkəzlərinin Reqlamentlərində öz əksini tapmışdır.

Beynəlxalq arbitraj məhkəməsində baxılan bir sıra kateqoriya Kommersiya mübahisələri üzrə üçüncü şəxslər institutunun mövcudluğu mümkündür. Məsələn, tikinti podratı müqaviləsində subpodratçı «Sifarişçi»yə və «Podratçı»ya münasibətdə üçüncü şəxsdir. Üçüncü şəxslər institutundan beynəlxalq daşımalar, elmi – tədqiqat işlərinin aparılması ilə bağlı müqavilələrdən, malların göndərilməsi üzrə bağlanan müqavilələrdən əmələ gələn mübahisələrdə də istifadə edilə bilər.

Maddi hüquqda olan üçüncü şəxslər institutu ilə arbitraj prosesində olan üçüncü şəxslər institutu arasında bəzi hallarda hüquqi əlaqə mövcud olsa da, onlar arasında müəyyən fərqlər də vardır, belə ki, maddi hüquqda iddiaçı və cavabdeh olan şəxs, arbitraj prosesində üçüncü şəxs kimi çıxış edə bilər.

Məsələn, maddi hüquqda alqı-satqı müqaviləsi üzrə iddiaçı və cavabdeh olmalı olan «Alıcı» və «Satıcı» satılmış mala mülkiyyət hüququnun tanınması ilə bağlı digər şəxsin təqdim etdiyi iddia üzrə «Alıcı» iş üzrə cavabdeh olan «Satıcı»nın tərəfində üçüncü şəxs qismində işə cəlb edilməlidir.

Arbitraj qanunvericiliyində və Reqlamentlərində üçüncü şəxs institutunun növləri dəqiq göstərilməmişdir, söhbət yalnız ümumi formada üçüncü şəxslərin beynəlxalq arbitraj prosesində iştirakından gedir, lakin milli qanunvericilikdə üçüncü şəxslərin növləri dəqiq olaraq nəzərdə tutulmuşdur. AR MPM-nin 55-ci maddəsinə əsasən mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürən üçüncü şəxslər məhkəmə qətnamə çıxarana qədər bir tərəfə və yaxud hər iki tərəfə qarşı iddia irəli sürməklə işə qarışa bilərlər.

Onlar həmin kateqoriya mübahisələr üçün qanunda və ya müqavilələrdə nəzərdə tutulmuş, iqtisad məhkəməsində cavabdehlə mübahisənin məhkəməyə qədər həlli (pretenziya) qaydasına əməl olunması vəzifəsi istisna olmaqla, iddiaçının bütün hüquqlarından istifadə edir və onun bütün vəzifələrini daşıyırlar.

AR-nın MPM-nin 57-ci maddəsinə uyğun olaraq mübahisə predmeti barəsində müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər iş üzrə birinci instansiya məhkəməsi tərəfindən qətnamə çıxarılana qədər, bu qətnamə tərəflərdən birinə münasibətdə onların hüquq və vəzifələrinə təsir edə biləcəyi təqdirdə, prosesdə iddiaçının və ya

cavabdehin tərəfində iştirak edə bilərlər. Onlar işdə iştirak edən şəxslərin vəsatəti üzrə və ya məhkəmənin təşəbbüsü ilə işdə iştirak etməyə cəlb oluna bilərlər.

Müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər iddianın əsasını və predmetini dəyişdirmək, iddia tələblərinin miqdarını artırmaq və ya azaltmaq, iddiadan imtina etmək, iddianı etiraf etmək və ya barışıq sazişi bağlamaq, qarşılıqlı iddia vermək, məhkəmə qətnaməsinin məcburi icrasını tələb etmək hüquqları istisna olmaqla, tərəfin prosessual hüquqlarından istifadə edir və onun prosessual vəzifələrini daşıyırlar.

Göründüyü kimi milli qanunvericilik üçüncü şəxslərin iki növünü: müstəqil tələblər irəli sürən və müstəqil tələblər irəli sürməyən üçüncü şəxslər – nəzərdə tutur.

Fikrimizcə, Beynəlxalq Arbitraj prosesində də milli qanunvericiliyin normalarından hüququn analogiyasına uyğun olaraq istifadə edilməlidir.

### *§ 4. Arbitraj prosesinin digər iştirakçıları*

**Arbitraj prosesinin digər iştirakçıları** dedikdə, arbitraj prosesində iştirak edən, lakin qətnamənin çıxarılmasında hüquqi marağı olmayan şəxslər dairəsi anlaşılmalıdır. Bura şahidlər, ekspertlər, tərcüməçilər və nümayəndələr aid edilir. Onların hər birinin arbitraj prosesinin aparılmasında öz rolu vardır.

Qeyd etmək lazımdır ki, arbitraj prosesində üstünlük yazılı sübutlara verildiyi üçün şahid ifadələrindən istifadə edilməsi imkanı çox məhduddur, bununla belə arbitraj prosesində şahidlərin çağırılıb izahatının alınmasına və işin müəyyən halları barədə məlumat verməsinə heç bir qanunvericilik aktında və Reqlamentlərdə məhdudiyyət qoyulmamışdır. Lakin şahid ifadələrinin alınması və onların çağırılması qaydası da arbitraj qanunvericiliyi ilə tənzim olunmamışdır və bu da həmin institutun realizə edilməsində müəyyən çətinliklər yaradır. Bununla belə kommersiya mübahisələrinə son dövrlərdə sahibkarların, xarici investorların cəlb edilməsi yazılı sübutların (sənədlərin) rolunun azalmasına, ticarət adətlərindən və şahid ifadələrindən istifadə edilməsi imkanlarının çoxalmasına səbəb olmuşdur.

BKAM-ın Əsasnaməsinin 38-ci maddəsinə uyğun olaraq tərəflər, şifahi dinləmə keçirilmədən, yalnız yazılı materiallar əsasında

mübahisənin araşdırılmasına dair razılığa gələ bilərlər. Əgər təqdim edilən materiallar mahiyyəti üzrə mübahisənin həll edilməsi üçün kifayət etməzsə, Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxma təyin edə bilər.

Şifahi işəbaxma zamanı isə şahid ifadələrindən istifadə edilməsi və şahidin arbitraj prosesində iştirakı zəruridir.

Arbitraj prosesində işə baxılarkən xüsusi bilik tələb olunan xüsusatları araşdırmaq və izah etmək üçün arbitraj məhkəməsi ekspertizanın təyin olunması haqqında qərar çıxara bilər.

Ekspertiza elm və texnikanın, incəsənətin müxtəlif növləri üzrə təyin edilə bilər, hüquqi ekspertizanın aparılması isə yolverilməzdir, çünki arbitr özü bu sahə üzrə mütəxəssis olmaqla müəyyən hüquqi biliyə və vərdişlərə malikdir.

Ekspertizanın aparılması həvalə olunan şəxs arbitraj məhkəməsinin çağırışı üzrə məhkəməyə gəlməli və aparılan ekspertizanın rəyini təqdim etməlidir.

Əgər ekspert qarşısında qoyulan suallar qeyri-müəyyəndirsə, yaxud materiallar ekspertiza aparılması üçün kifayət etmirsə, o halda ekspert onun üzərinə qoyulmuş vəzifənin icrasından imtina edə bilər. Zəruri hallarda ekspert işin materialları ilə tanış olmaqla, arbitraj iclasında iştirak etməyə, əlavə materiallar tələb etməyə haqlıdır.

İşdə iştirak edən şəxslər ekspertə suallar verməyə və ekspertin namizədliyini irəli sürməyə və onu müzakirə etməyə haqlıdırlar, lakin hər bir halda son qərarı arbitraj məhkəməsi (arbitr) verir.

Ekspertiza ekspert idarələrinin işçiləri və ya arbitraj məhkəməsi tərəfindən tapşırılan digər mütəxəssislər tərəfindən həyata keçirilir. Ekspertizanın keçirilməsi arbitraj məhkəməsi tərəfindən bir neçə ekspertə tapşırıla bilər, bu halda ekspertlər öz aralarında məsləhətləşə bilərlər və onlar ümumi nəticəyə gəldikdə bir ümumi rəy verə bilərlər.

Ekspert hər bir halda yazılı formada rəy verməlidir.

BKAM-ın Əsasnaməsinin 12-ci maddəsinə əsasən işə Azərbaycan dilində baxılır. BKAM tərəflərin razılığı ilə işə başqa dildə də baxa bilər. Əgər tərəf məhkəmə iclası aparılan dili bilmirsə, BKAM tərəfin xahişi ilə tərəfin öz hesabına onu tərcüməçi ilə təmin edir.

Beynəlxalq arbitraj məhkəmələrində işə baxılmasında iştirak edən subyektlər müxtəlif dövlətlərə mənsub olduğuna görə demək olar ki, keçirilən arbitraj proseslərinin tam əksəriyyətində tərcüməçilərin iştirakı zəruridir.

Arbitraj prosesində tərcüməçi qismində tərcümə üçün lazım olan dili mükəmməl bilən şəxs çıxış edə bilər. Tərcümədə bu məqsədlər üçün

həm də o tərcüməçilər dəvət olunurlar ki, onlar məhkəmədə araşdırma predmeti olan münasibətlər sisteminə yaxından bələd olsunlar və **hüquqi tərcümə** sahəsində müəyyən vərdişlərə malik olsunlar. Tərcüməçi adətən proses iştirakçıları və ya arbitraj məhkəməsi tərəfindən təklif olunan tərcüməçilər sırasında təyin olunur, lakin proses iştirakçısından bu məqsədlərə istifadə edilməsi arbitraj prosesində yolverilməzdir.

Tərcüməçi arbitraj məhkəməsinin çağırışı üzrə gəlməyə, tam, dəqiq və vaxtında tərcümə etməyə borcludur. Tərcüməçi tərcüməni dəqiqləşdirmək üçün proses iştirakçılarına suallar verməyə haqlıdır.

BKAM Əsasnaməsinin 31-ci maddəsində arbitrə, ekspertə və tərcüməçiyə etirazın əsasları və qaydası nəzərdə tutulmuşdur. Bu fəslin 1-ci paraqrafında bu barədə geniş bəhs edilmişdir, lakin qeyd etmək lazımdır ki, 31-ci maddənin 5-ci bəndinə əsasən arbitrə edilən etirazın əsasları işin araşdırılmasında iştirak edən ekspertə və tərcüməçiyə də şamil edilməlidir. Bu halda etiraz məsələsi Arbitraj Kollegiyası tərəfindən həll edilməlidir.

# VI fəsil
# Arbitrajın tərkibi

## *§ 1. Arbitrin cavab verməli olduğu tələblər*

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 21-ci və BKAM-ın Əsasnaməsinin 21-ci maddəsinə uyğun olaraq arbitraj məhkəməsinə iddia ərizəsi verildikdə arbitraj araşdırması başlanır. Analoji maddə Beynəlxalq Arbitraj Məhkəmələrinin Reqlamentlərinin hamısında vardır. İşə baxan arbitraj tərkibi və ya arbitr təyin edilməyənədək arbitraj işi üzrə heç bir prosessual hərəkət yerinə yetirilə bilməz.

Məlum olduğu kimi dövlət məhkəmələrindən fərqli olaraq arbitraj məhkəmələrində hakimlərin təyin edilməsi bir çox hallarda tərəflərin rəyindən asılı olur. Arbitraj tərkibi hər bir konkret arbitraj işi üçün yaradılır və öz vəzifəsini yerinə yetirdikdən sonra (yəni mübahisəni mahiyyəti üzrə həll etdikdən sonra) onun fəaliyyətinə xitam verilir.

Arbitraj prosesində arbitrlərin düzgün seçilməsindən çox şey asılı olur, ona görə də tərəflər arbitrləri seçərkən onların peşəkarlığına, nüfuzuna və ədalətli olmasına daha çox diqqət yetirirlər.

Tərəflərin arbitrləri təyin etməsi bir neçə əhəmiyyətli qərarın qəbul edilməsini zəruri edir.

**Birincisi**, əgər tərəflər əvvəllər arbitrlərin sayı haqqında razılığa gəlməmişlərsə, arbitrlərin təyini zamanı bu məsələ də öz həllini tapmalıdır. Qeyd etmək lazımdır ki, əksər ölkələrin arbitraj qanunvericiliyi arbitrlərin sayının tək olmasını nəzərdə tutur və ya əksər Reqlamentlərdə tərəflər arbitrlərin sayı barədə razılığa gəlmədikdə bir və ya üç nəfərdən ibarət arbitrlərin təyin edilməsi proseduru müəyyən edilmişdir. Məsələn, BKAM-ın Əsasnaməsinin 27-ci maddəsinə əsasən əgər tərəflərin arasında işə təkbaşına arbitrin baxmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaranır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.

Daha çox arbitrlərin təyin edilməsinə çox nadir hallarda siyasi, mülahizələr əsasında siyasi işlər üzrə rast gəlinir. Məsələn, İran-Amerika Pretenziya Komissiyası 9 arbitrdən ibarətdir, işə hər biri 3 arbitrdən ibarət olan üç kollegiyada baxılır. Lakin qeyd etmək lazımdır ki, bu halda işlərə baxılması xərcləri və müddəti çox olur.

BKAM-ın Əsasnaməsinin 27-ci maddəsinin II bəndinə uyğun olaraq tərəflər hətta arbitrlər siyahısından ehtiyat arbitri də seçə bilərlər.

Tərəflərin seçdiyi və ya BKAM-ın Sədrinin təyin etdiyi arbitrlər, siyahısından Arbitraj Kollegiyasının sədrini seçirlər. Eyni qayda ilə onlar Arbitraj Kollegiyasının ehtiyat sədrini də seçə bilərlər.

Əgər arbitrlər ikinci arbitrin seçilməsi və ya təyin edilməsindən keçən 15 gün müddətində Arbitraj Kollegiyasının sədrini seçməsələr, BKAM-ın Sədri tərəfindən arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədri təyin edilir. Eyni qayda ilə BKAM-ın Sədri Arbitraj Kollegiyasının ehtiyat sədrini seçə bilər.

**İkincisi**, tərəflər təyin etdikləri arbitrlərin hansı meyarlara cavab verməli olduğunu müəyyən etməlidirlər. Arbitrlərin funksiyaları çoxdur, onlar prosesdə prosessual hüquq və vəzifələrin realizə edilməsinə kömək göstərməli, tərəfləri açıq münaqişədən çəkindirməli, iş üzrə tərəflərin maraqlarını özündə əks etdirən qətnamə çıxarmalı, prosesdə dil ilə bağlı problemləri həll etməlidirlər və s.

Tərəflər arbitrləri seçməkdə sərbəstdirlər, fəaliyyət qabiliyyətli hər bir fiziki şəxs arbitr təyin edilə bilər, arbitrlərin seçilməsi qaydası yalnız arbitraj Reqlamenti və tərəflərin arzusu ilə məhdudlaşdırıla bilər.

Məsələn, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 6-cı maddəsinə əsasən tərəflərin müxtəlif vətəndaşlığı olduğu halda, tərəflər arasında başqa hal barədə yazılı razılaşma olmadıqda, tək arbitr və ya arbitraj tərkibinin sədri tərəflərdən birinin vətəndaşı olduğu dövlətin vətəndaşı ola bilməz.

Tərəflərin vətəndaşlığı dedikdə, aksiyaların (payların) nəzarət zərfinin sahibləri və ya tərəflərə nəzarət edən şəxslərin vətəndaşlığı başa düşülür.

Bu maddənin məqsədləri üçün Avropa İttifaqının vətəndaşları Avropa İttifaqına üzv olan müxtəlif dövlətlərin vətəndaşları kimi nəzərdə tutulurlar.

BKAM-ın Əsasnaməsində belə bir məhdudiyyət müəyyən edilməmişdir.

Tərəflərin özləri də arbitrin təyin edilməsi üçün müəyyən şərtlər nəzərdə tuta bilərlər. Məsələn, arbitrin vətəndaşlığı, iş təcrübəsi, biliyi və ixtisası (dəniz ticarəti sahəsində, kommersiya, sığorta, patent və s. sahələrdə) ilə bağlı şərtlər müəyyən edilə bilər. Arbitrin təyin edilməsi zamanı bir qayda olaraq onun milliyyəti (vətəndaşlığı), ixtisası icraatın aparıldığı dili bilməsi, işə baxılmasında iştirak etmə imkanı və s. tələblər nəzərə alınır. Əksər dövlətlərin arbitraj qanunvericiliyində (o cümlədən, Azərbaycan Respublikasının qanunvericiliyində) **arbitrlərin milliyyəti və ya vətəndaşlığı** barədə məhdudiyyətlər nəzərdə tutulmamışdır. Lakin Çin Arbitraj Mərkəzinin Reqlamentinə əsasən

xarici dövlətlərin fiziki şəxsləri arbitr kimi siyahıya yalnız Çin vətəndaşlarının adını daxil etməlidirlər. Təcrübədə bəzi hallarda tərəflər arbitr qismində öz ölkələrinin vətəndaşlarının adını göstərirlər və bu, nə tərəflərdə, nə də arbitraj məhkəməsində etirazla qarşılamır və əksinə, normal sayılır. Üç arbitrdən ibarət Kollegiya tərkibində adətən sədr kimi neytral ölkənin nümayəndəsi təyin edilir.

Arbitrajın üstünlüklərindən biri də tərəflərin arbitr təyin edərkən onun müəyyən sahələrdə (hüquq, maliyyə, sığorta, kommersiya və s.) **yüksək biliyə malik olan şəxslər** sırasından seçmə imkanının olmasıdır. Təcrübədə bir çox hallarda tək arbitr və ya tərkibin sədri hüquqşünaslar sırasından təyin edilir.

Bu ondan irəli gəlir ki, arbitraj mübahisələrinə baxılması zamanı bir sıra prosessual və maddi hüquq normalarının tətbiqi (hətta xarici dövlətlərin hüquq normaları) zərurəti meydana gəlir ki, hüquqşünas olmayan mütəxəssisin bu hərəkətləri yerinə yetirməsi ilə bağlı müəyyən problemlər yarana bilər. Bu çətinliyin aradan qaldırılması yollarından biri də arbitrlərdən heç olmazsa birinin ixtisasca hüquqşünas olmasıdır.

Arbitr həm nəzəri, həm də praktiki cəhətdən hüququn müvafiq sahəsinə və həmçinin Beynəlxalq arbitrajın nəzəri və praktiki problemlərinə yaxından bələd olmalıdır.

Arbitr təyin edilərkən hətta həmin arbitrin hansı hüquq sisteminə (ingilis – sakson, qitə, şəriət, Alman-İsveç və s.) mənsub və ya bələd olması da nəzərə alınmalıdır, əks təqdirdə, məsələn, ingilis-sakson hüququna mənsub olan arbitrin Alman-İsveç hüququna bələd olması və ya onu tətbiq etməsi imkanı alman mənşəli arbitrin imkanından xeyli aşağı olması ehtimal oluna bilər.

**Arbitraj araşdırmasının aparıldığı dili bilməyən** arbitraj tərkibinin işə baxılmasında iştirakı müəyyən çətinliklərlə bağlıdır, bu halda tərcüməçinin prosesə cəlb edilməsi problemi həll etmir, əksinə, arbitraj xərclərini artırır. Arbitr icraatın aparıldığı dili bilmədikdə, tərəflərlə və iş üzrə sübutlarla birbaşa təmasda ola bilmir və bu da son nəticədə çıxarılan qətnamənin keyfiyyətinə öz mənfi təsirini göstərir.

Arbitr seçərkən **tərəflər onun sərbəst vaxtının olmasını** nəzərə almalıdırlar, belə ki, arbitr arbitraj prosesinə dərindən nüfuz etmək üçün boş vaxta malik olmalıdır.

Sübutların toplanması və araşdırılması prosesi arbitrdən xüsusi səy və zəhmət tələb edir, başqa işlərlə yüklənmiş arbitrin arbitraj prosesinə vaxt ayırması və prosessual problemlərlə yaxından ilgilənməsi mümkün deyildir.

Tərəflər arbitri təyin edərkən onun milli və beynəlxalq hüququ dərindən bilməsi ilə yanaşı, arbitrin **mədəni səviyyəsini və təşkilati bacarığını da** nəzərə almalıdırlar.

Hüquqşünasların Beynəlxalq Assosiasiyası (İnternational Bar Association) tərəfindən 1987-ci il tarixdə qəbul edilən «Beynəlxalq arbitrlərin Etik Qaydaları»na əsasən arbitr o halda təyinatı qəbul etməlidir ki, o, həmin işə baxılması üzrə özünü hazırlıqlı hesab etsin və qarşısına qoyulan funksiyaların uğurla yerinə yetirilməsinə inamı olsun.

Beynəlxalq arbitraj prosesində əsas prinsiplərdən biri də arbitrlərin müstəqilliyi və qərəzsizliyi prinsipidir. Bu prinsip demək olar ki, Arbitraj Reqlamentlərinin hamısında öz əksini tapmışdır. Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 7-ci maddəsi, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 17-ci maddəsi, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 5-ci maddəsi, Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentinin 5-ci maddəsi, Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinin 15-ci maddəsi, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 9-cu maddəsi bu prinsipə həsr edilmişdir.

Hətta bu prinsip İsveçrənin Federal Konstitusiyasında da qanunvericilik qaydasında təsbit olunmuşdur. Ümumiyyətlə, bütün dövlətlərdə hakimlərin müstəqilliyi və qərəzsizliyi imperativ norma olmuşdur və bu prinsipin tərəflərin sazişi ilə dəyişilməsi mümkünsüzdür.

**Arbitrajın müstəqilliyi** dedikdə, onunla tərəflər arasında hər hansı maddi, qiymətli, pul və ya digər əlaqələrin mövcud olmamasıdır.

Tərəflərlə hər hansı bir formada (səhmləri saxlayan, onunla əmək müqaviləsi münasibətlərində olan, yaxın qohumluq əlaqələri və s.) işgüzar əlaqədə olan şəxs arbitr qismində çıxış edə bilməz. Hər bir halda tərəflər ondan asılı olan şəxsi arbitr təyin etməyə haqlı deyildir.

**Arbitrin qərəzsizliyi** dedikdə, bu və ya digər tərəfə onun meylli olmaması (gizli və ya açıq formada) və işin həll edilməsinə tərəflərin təsir imkanlarının olmaması anlaşılmalıdır.

Arbitrin müstəqilliyi və qərəzsizliyi eyni anlayış deyildir, belə ki, müstəqil olan arbitr tərəflərdən birinə meyllənə bilər ki, bu da onun qərəzli olmasına gətirib çıxara bilər. Məsələn, iş üzrə təyin edilən arbitr digər mübahisələr üzrə tərəflərdən birinin vəkili kimi çıxış edir və bu halda təbii ki, arbitrin qərəzsizliyi şübhə altına alına bilər.

Arbitrin müstəqilliyinə və qərəzsizliyinə şübhə doğura biləcək hallar mövcud olduqda tərəflər onlara etiraz edə bilər. Məsələn, BKAM-

ın Əsasnaməsinin 31-ci maddəsinə uyğun olaraq tərəflərin hər birinin, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə, əgər onların qərəzsizliyi və müstəqilliyi barədə əsaslı şübhələr doğura bilən hallar varsa, xüsusilə, əgər onların şəxsən, birbaşa və yaxud dolayısı ilə işin həllində maraqlı olduqları müəyyən edilərsə, onlara etiraz etmək hüquqları vardır. Tərəfin etirazın səbəbini göstərən yazılı ərizəsini, tərəf Arbitraj Kollegiyasının təşkili və bu cür halları bildiyi vaxtdan 15 gün müddətində verə bilər. Yalnız üzürlü səbəb olduqda göstərilən müddətdən sonra verilən etiraz ərizəsinə baxılması mümkündür.

Arbitrə etiraz məsələsi Arbitraj Kollegiyasının digər üzvləri tərəfindən həll edilir. Əgər onlar razılığa gələ bilməmişlərsə və ya etiraz iki arbitrə və ya təkbaşına arbitrə verilərsə, etiraz məsələsi BKAM-ın sədri tərəfindən həll edilir.

BKAM–ın sədrinin öz təşəbbüsü ilə arbitrə, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə 31-ci maddənin 1-ci bəndində göstərilən əsaslar olduqda, etiraz məsələsini həll etmək hüququ vardır.

Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz təşəbbüsü ilə özlərinə etiraz edə bilərlər.

31-ci maddənin 1-3-cü bəndlərindəki əsaslar, həmçinin, ehtiyat üçün seçilmiş və ya təyin edilmiş arbitrə, Arbitraj Kollegiyasının sədrinə və təkbaşına arbitrə də aid edilir.

Arbitrə etiraz institutu demək olar ki, Arbitraj Reqlamentlərinin hamısında nəzərdə tutulmuşdur.

### *§ 2. Arbitrlərin hüquq və vəzifələri*

Arbitrlərin hüquq və vəzifələri Milli arbitraj qanunvericiliyi, Arbitraj Reqlamentləri və tərəflərin bağladığı arbitraj sazişi ilə müəyyən edilir.

Arbitrlərin işə baxmaq və həmin iş üzrə qətnamə çıxarmaq hüququ tərəflərin arbitraj sazişindən irəli gələn hüquqdur, tərəflər arbitraj sazişi ilə arbitrlərə prosesin keçirilməsi qaydasının müəyyən edilməsi hüququnu, ekspertizanın təyin edilməsi hüququnu, tərəflərdən sübutlar tələb etmək hüququnu, yerində mübahisənin obyektinə baxış keçirmək hüququnu, mübahisəni «barışıq vasitəçiliyi» ilə həll etmək hüququnu verə bilərlər. Arbitraj sazişi ilə həmçinin arbitrlərin üzərinə mübahisəyə müəyyən edilən maddi hüququ tətbiq etməklə baxılması,

nəzərdə tutulan prosedur qaydaları əsasında baxılması, işə müəyyən edilən müddət ərzində baxılması və s. vəzifələr qoyula bilər.

Arbitraj prosesinin gediş zamanı tərəflər arbitrlərin hüquq və vəzifələri ilə bağlı arbitraj qanunvericiliyinə və Reqlamentinə zidd olmayan razılığa gəlməyə haqlıdırlar.

Arbitraj Reqlamentlərində arbitrlər üçün çox geniş hüquqlar nəzərdə tutulmuşdur, bu sıraya arbitraj araşdırmasının aparıldığı dilin müəyyən edilməsi, tətbiq olunmalı hüququn müəyyən edilməsi, prosessual müddətlərin müəyyən olunması, sübutların tələb olunması, ekspertizanın təyin edilməsi, özünün səlahiyyəti haqqında («Competens - Competens») qərarın çıxarılması və s. hüquqlar aid edilməlidir.

Arbitraj Reqlamentləri adətən dispozitiv xarakter daşıyır və tərəflər Reqlamentdə nəzərdə tutulmayan hüquqları da arbitrlərə həvalə etməyə haqlıdırlar. Arbitraj Reqlamentləri həmçinin arbitrin üzərinə müəyyən vəzifələr də qoyur, məsələn, tərəflərə bərabər münasibət bəsləmək vəzifəsi, işin bütün hallarını araşdırmaq vəzifəsi, işi müəyyən olunan müddətdə başa çatdırmaq vəzifəsi, əsaslandırılmış qətnamənin çıxarılması vəzifəsi, iş üzrə konfidensiallığın qorunması vəzifəsi və s.

Hər bir ölkənin Milli arbitraj qanunvericiliyi arbitrlər üçün geniş hüquq və vəzifələr nəzərdə tuta bilər və ya əksinə, onu məhdudlaşdıra bilər. Məsələn, Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının qanuna görə arbitr iddia predmetinə münasibətdə təminedici tədbirlər həyata keçirə bilər (17-ci maddə), öz səlahiyyətləri barəsində qərar çıxara bilər (16-cı maddə), tərəflər arasında razılıq olmadıqda lazım bildiyi qaydada arbitraj baxışını apara bilər (19-cu maddə də) və s.

Qanunun 18-ci maddəsinə əsasən arbitrlər tərəflərə eyni münasibət göstərməlidir və hər bir tərəfə öz mövqeyini ifadə itməsi üçün hər cür imkan yaratmalıdır.

Dünyanın əksər ölkələrinin arbitraj qanunvericiliyində arbitrlərin öz funksiyalarını vicdanla və məsuliyyətlə yerinə yetirməsi vəzifəsi nəzərdə tutulmuşdur. Hətta Almaniya və Avstriya qanunvericiliyində arbitrlər bu vəzifəni lazımi qaydada icra etmədikdə dəyən ziyanın ödənilməsi ilə bağlı onlara qarşı iddia tələbinin verilməsi imkanı da nəzərdə tutulmuşdur. Bu halda tərəflərlə arbitrlər arasında yaranan münasibətlər müqavilə – hüquq münasibətləri kimi səciyyələndirilir. Lakin AR-nın qanunvericiliyində hakimlərin (arbitrlərin) vurduqları ziyana görə məhkəmə məsuliyyətinə cəlb edilməsi imkanı nəzərdə tutulmamışdır və əksinə, hakimlərin (arbitrlərin) toxunulmazlıq hüququ qanunvericilik yolu ilə təsbit olunmuşdur. Fikrimizcə, qanunvericiliyin

bu tələbi arbitraj icraatının mahiyyətinə, məntiqə və fəlsəfəsinə tam uyğundur.

Tərəflərin, Arbitraj Reqlamentinin və arbitraj qanunvericiliyinin arbitrlərin üzərinə qoyduğu vəzifələrdən əlavə, arbitrlərin əxlaqi və ya etik vəzifələri də vardır, bu sıraya arbitrlərin tərəflərdən hər hansı formada hədiyyələr qəbul etməsi, tərəflərlə qonorarla bağlı razılaşma əldə etməsi və s. hərəkətlər aid edilməlidir. Belə hərəkətlərə yol verən arbitrin qərəzsizliyi şübhə altına düşür və o, əxlaqi mənəvi cəhətdən iş üzrə obyektiv qətnamə çıxarmaq imkanından məhrum olur. Hakimlərin (arbitrlərin) əxlaqi və etik vəzifələri Beynəlxalq hüquqşünaslar Assosiasiyasının qəbul etdiyi «Beynəlxalq arbitrlərin etik Qaydalar»ında əks etdirilmişdir. Tərəflər arbitraj sazişində həmin Qaydaların tətbiq edilməsi barədə razılığa gələ bilərlər və bu halda həmin Qaydaların tələbləri işə baxan arbitrlər üçün məcburi xarakter daşıyır.

## *§ 3. Arbitrlərin təyin edilməsi qaydası*

Arbitrlərin təyin edilməsi qaydası milli arbitraj qanunvericiliyində və arbitraj Reqlamentlərində müxtəlif formalarda nəzərdə tutula bilər.

Arbitrlərin təyin edilməsinin hüquq ədəbiyyatında şərti olaraq 5 qaydası nəzərdə tutulur:[1]

1) Tərəflərin sazişi üzrə arbitrlərin təyin edilməsi;
2) Başqa arbitrlər tərəfindən təyin edilməsi;
3) Arbitraj orqanları (Məhkəmələri, institutları, mərkəzləri) tərəfindən təyin edilməsi;
4) Arbitrlərin arbitraj orqanını yaradan (yanında təşkil edən) təşkilatlar və ya digər səlahiyyətli orqanlar tərəfindən təyin edilməsi;
5) Arbitrlərin Milli məhkəmələr tərəfindən təyin edilməsi.

**Tərəflərin arbitrləri təyin etməsi** müxtəlif yollarla həyata keçirilir. Bir sıra hallarda tərəflər siyahı prosedurundan istifadə edilməsi barədə razılığa gələ bilərlər, belə ki, hər bir tərəf istədiyi bir neçə arbitrin (adətən üç və ya dörd) adlarını siyahıya daxil edirlər və

---

[1] Е. В. Брунцева. Международный Коммерческий арбитраж, Санкт Петербург. 2001, с. 156.

sonradan tərəflər həmin siyahını bir-birinə verirlər. Həmin siyahılar üzrə isə tərəflər potensial arbitrin seçilməsi barədə razılığa gəlirlər.

Digər halda isə tərəflər arbitrin (və ya arbitrlərin) namizədliyini razılaşdırıb onun adını arbitraj sazişinə daxil edirlər.

Təcrübədə ən çox istifadə edilən yollardan biri hər bir tərəfin bir arbitr təyin etməsi, həmin arbitrlərin isə üçüncü arbitri seçməsidir. Bu halda tərəflərdən biri müəyyən olunan vaxtda arbitri seçməzsə, onda arbitri arbitraj məhkəməsinin sədri təyin edir. Bu prosedura tərəflərin arbitraj prosesini uzatmağa yönələn hərəkətlərinin qarşısını alır və prosesin normal keçməsinə şərait yaradır.

Bu mexanizm arbitraj sazişi, Arbitraj Reqlamenti və ya Milli arbitraj qanunvericiliyi ilə nəzərdə tutula bilər.

Arbitrlərin təyin edilməsi müddəti əksər Arbitraj Reqlamentlərində (o cümlədən BKAM-ın Əsasnaməsində) müraciəti aldıqdan sonra 30 gün nəzərdə tutulmuşdur.

**Arbitrin başqa arbitrlər tərəfindən seçilməsi** prinsipinə görə, tərəflərin təyin etdiyi arbitrlər tərkibə sədrlik etmək üçün üçüncü arbitri seçməlidirlər.

BKAM-ın Əsasnaməsinin 11-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq «... arbitrajda üç arbitr olacağı halda, hər bir tərəf bir arbitr təyin edir, təyin edilmiş iki arbitr isə üçüncü arbitri təyin edir». Bu müddəa arbitraj Reqlamentlərinin əksəriyyətində öz əksini tapmışdır.

**Arbitrin arbitraj orqanları (institutları, mərkəzləri, məhkəmələri) tərəfindən təyin edilməsi** qaydası arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur, lakin arbitrlərin bu qaydada təyin edilməsi praktikası müxtəlifdir.

Məsələn, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 16-cı maddəsinə əsasən Arbitrlərin sayını tərəflər öz mülahizələri əsasında müəyyən edirlər. Arbitrlərin sayı haqqında tərəflərin razılaşması yoxdursa, əgər İnstitut işin mürəkkəbliyini, mübahisənin dəyərini və digər halları nəzərə alaraq, mübahisənin bir arbitr tərəfindən həllini mümkünsüz hesab edirsə, arbitraj tərkibinə üç arbitr daxil edilir.

Arbitraj Tərkibi bir arbitrdən çox olduqda, tərəflərin hər biri eyni sayda arbitr təyin edir. Əgər tərəflər İnstitutun müəyyən etdiyi müddətdə arbitrləri təyin etməzsə, tərəflərin digər razılaşdığı hallar istisna olmaqla, təyinat İnstitut tərəfindən aparılır.

Əgər mübahisədə iki və ya daha çox iddiaçı, yaxud cavabdeh iştirak edirsə və mübahisə bir neçə arbitr tərəfindən həll edilməlidirsə, iddiaçılar cavabdehlərlə birlikdə bərabər sayda arbitr təyin edirlər.

Tərəflərdən hər hansı biri göstərilən birgə təyinatı yerinə yetirmədikdə, təyinatı həmin tərəfin əvəzindən İnstitut həyata keçirir. Zəruri hallarda, tərəflərin digər razılaşması olmadıqda, İnstitut arbitraj heyətini tam tərkibdə təyin edə bilər.

Arbitraj Tərkibinə birdən çox arbitr daxil edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, sədri İnstitut təyin edir.

Mübahisə bir arbitr tərəfindən həll edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, onun təyinatını İnstitut həll edir.

Tərəflərdən birinin təyin etdiyi arbitr öldükdə, həmin tərəf digər arbitri təyin edir. İnstitutun təyin etdiyi arbitr öldükdə, İnstitut digər arbitri təyin edir.

Əgər arbitr öz funksiyasını yerinə yetirməkdən imtina edərsə, yaxud o, vəzifəsindən azad edilərsə, İnstitut digər arbitri təyin edir. Əgər arbitri tərəflərdən biri təyin etmişsə, İnstitut həmin tərəfin rəyini nəzərə alır. Əgər arbitrajın tərkibinə üç və ya daha çox arbitr daxildirsə, İnstitut işin qalan arbitrlər tərəfindən davam etdirilməsi barədə qərar çıxara bilər. İnstitut belə qərar qəbul edərkən tərəflərin və arbitraj tərkibinin rəyini nəzərə alır.

Tərəflər müxtəlif dövlətləri təmsil etdiyi halda, əgər tərəflər başqa cür qərar qəbul etməyiblərsə, yaxud İnstitut digər rəyə gəlməyibsə, İnstitut sədrliyə üçüncü ölkənin vətəndaşını təyin edir.

Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinin 13-cü paraqrafına müvafiq olaraq Arbitraj iddiasında iki və ya daha sox cavabdeh göstərdikdə, tərəflər digər hal barədə razılığa gəlməyiblərsə, onda iddianın alındığı vaxtdan 30 gün müddətində cavabdehlər arbitri birgə təyin etməlidirlər. İddia ərizəsi cavabdehlərə müxtəlif vaxtlarda çatdırıldıqda, bu müddət iddianı axırıncı cavabdehin aldığı vaxtdan hesablanır. Alman Arbitraj İnstitutunun katibliyi bu müddəti uzada bilər. Cavabdehlər göstərilən vaxt ərzində öz aralarında arbitrin təyin edilməsi barədə razılığa gəlmədikdə, Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsi, tərəflər digər hal nəzərdə tutmayıblarsa, tərəfləri dinləyir və iki arbitr təyin edir. Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsinin etdiyi təyinat nəticəsində iddiaçı tərəfindən edilmiş təyinat öz əhəmiyyətini itirir.

Tərəflərin və ya Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsinin təyin etdikləri arbitrlər arbitraj tərkibinin sədrini təyin edirlər.

YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 7-ci maddəsinin 2-ci bəndinə əsasən Arbitrin təyin olunması barədə bildirişi aldıqdan sonra

30 gün müddətində tərəflərdən biri digər tərəfə təyin etdiyi arbitr barədə məlumat vermədikdə:

a) birinci tərəf əvvəl razılığa gəldikləri səlahiyyətli orqandan ikinci arbitrin təyin edilməsini xahiş edə bilər; yaxud

b) əgər tərəflər əvvəldən belə orqan barədə razılaşmayıbdırsa və ya əvvəlcədən seçilmiş səlahiyyətli orqan fəaliyyətindən imtina edirsə və yaxud da tərəflərdən birinin xahişi daxil olduqdan sonra 30 gün ərzində arbitri təyin etmirsə, birinci tərəf Haaqa Daimi Münsif Məhkəməsinin Baş katibindən səlahiyyətli orqanın təyin edilməsini xahiş edə bilər. Sonra birinci tərəf bu yolla təyin edilmiş səlahiyyətli orqanından ikinci arbitrin təyin edilməsini xahiş edə bilər. İstənilən halda səlahiyyətli orqanın ikinci arbitri özünün seçmək hüququ vardır.

BKAM-ın Əsasnaməsinin 27-ci maddəsinə əsasən əgər cavabdeh arbitr və ehtiyat arbitrini, 20 gün müddətində seçməzsə, BKAM-ın Sədri onun əvəzinə arbitr siyahısından arbitri və ehtiyat arbitri təyin edir.

Tərəflərin seçdiyi və ya BKAM-ın Sədrinin təyin etdiyi arbitrlər, arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədrini seçirlər. Eyni qayda ilə onlar Arbitraj Kollegiyasının ehtiyat sədrini də seçə bilərlər.

Əgər arbitrlər ikinci arbitrin seçilməsi və ya təyin edilməsindən keçən 15 gün müddətində Arbitraj Kollegiyasının sədrini seçməsələr, BKAM-ın Sədri tərəfindən arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədri təyin edilir. Eyni qayda ilə BKAM-ın Sədri Arbitraj Kollegiyasının ehtiyat sədrini seçə bilər.

**Arbitrlərin arbitraj orqanını yaradan (yanında təşkil edən) təşkilatlar və digər səlahiyyətli orqanlar tərəfindən təyin edilməsi** qaydası da arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur.

YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 6-cı maddəsinə uyğun olaraq tərəflərdən biri təklifi aldıqdan 30 gün ərzində təkbaşına arbitrin seçilməsi ilə əlaqədar razılığa gəlmədiyi halda, təkbaşına arbitr tərəflərin razılığı ilə səlahiyyətli orqan tərəfindən təyin edilir. Əgər tərəflər səlahiyyətli orqan barədə razılığa gəlməyiblərsə, yaxud onların seçdiyi səlahiyyətli orqan fəaliyyət göstərməkdən imtina edirsə və ya tərəflərdən birindən xahiş daxil olduqdan 60 gün müddətində arbitri təyin etmirsə, tərəflərdən hər hansı biri səlahiyyətli orqanı təyin etmək xahişi ilə Haaqada yerləşən Daimi Münsif Məhkəməsinin Baş katibinə müraciət edə bilər.

Səlahiyyətli orqan tərəflərdən birinin xahişi ilə təkbaşına arbitri qısa müddətdə təyin edir. Təyinetmə zamanı səlahiyyətli orqan prosedur-siyahıdan istifadə edir; əgər tərəflərin buna etirazı olmazsa və

ya səlahiyyətli orqan aşağıda göstərilən konkret hallarda bu prosedurun tətbiqini qeyri-müvafiq hesab etmədikdə:

a) tərəflərdən birinin xahişi ilə səlahiyyətli orqan tərəflərə 3 nəfərdən az olmayaraq eyni siyahı (adları) göndərir;

b) tərəflərdən hər biri, bu siyahını aldıqdan sonra 15 gün ərzində siyahıda etiraz etdiyi adı və ya adları çıxarmaqla, qalanların adlarını öz istəyi ilə ardıcıl şəkildə nömrələyib, siyahını səlahiyyətli orqana qaytara bilər;

c) təyin olunan müddət bitdikdən sonra səlahiyyətli orqan tərəfindən qaytardığı siyahıdan müvafiq qaydada işə təkbaşına baxan arbitri təyin edir;

d) hər hansı bir səbəbdən təyinetmənin hazırkı qayda ilə həyata keçirilməsi mümkün olmadıqda, səlahiyyətli orqanın təkbaşına arbitri öz mülahizəsi əsasında təyin etmək hüququ vardır.

Təyinetmə zamanı səlahiyyətli orqan müstəqil və qərəzsiz arbitrin təyinatını təmin edən halları nəzərə alır, həmçinin, tərəflərin milliyyətinə aid olmayan arbitrin təyinatının məqsədəuyğunluğuna diqqət yetirir.

**Arbitrlərin milli məhkəmələr tərəfindən təyin edilməsi qaydası** milli arbitraj qanunvericiliyində və bir sıra arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur.

Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 11-ci maddəsinə əsasən tərəflər maddənin öz mülahizələrinə əsasən arbitr və ya arbitrlərin təyin edilməsi prosedurunu razılaşma əsasında müəyyən edə bilərlər.

Bu barədə razılıq olmadıqda:

a) arbitrajda üç arbitr olacağı halda, hər bir tərəf bir arbitr təyin edir, təyin edilmiş iki arbitr isə üçüncü arbitri təyin edir. Digər tərəfdən, bu barədə müraciət almış tərəf 30 gün müddətində arbitr təyin etməzsə və yaxud tərəflərin təyin etdiyi iki arbitr təyin edildikləri gündən 30 gün müddətində üçüncü arbitrin seçilməsi haqqında razılığa gələ bilməmişlərsə, tərəflərdən hər hansı birinin müraciəti ilə arbitr AR-nın Ali Məhkəməsi tərəfindən təyin edilir;

b) təkbaşına arbitr ilə olan arbitrajda arbitr təyin edilməsində tərəflər razılığa gələ bilmədikdə, hər hansı tərəfin xahişi ilə arbitr AR-nın Ali Məhkəməsi tərəfindən təyin edilir.

Tərəflərin əvvəlcədən razılaşdırdıqları təyinetmə prosedurunda:

a) tərəflərdən biri belə prosedura əməl etmirsə; və yaxud

b) belə prosedur ilə əlaqədar tərəflər və yaxud iki arbitr prosedura uyğun olaraq razılığa gələ bilmirsə; və yaxud

c) bu prosedur ilə əlaqədar təşkilat (idarə) da daxil olmaqla üçüncü şəxs prosedura uyğun üzərinə düşmüş hər hansı funksiyanı icra etmirsə, təyin etmə proseduru haqqında arbitraj sazişində digər qaydalar nəzərdə tutulmayıbsa, hər bir tərəf AR-nın Ali Məhkəməsindən zəruri tədbirlər görülməsini xahiş edə bilər.

AR-nın Ali Məhkəməsinin hər hansı məsələyə aid qəbul edilmiş qərarı qətidir, ondan şikayət verilə bilməz.

Məhkəmə arbitr təyin edərkən tərəflərin gəldiyi razılığa uyğun olaraq arbitrin namizədliyinə dair bütün zəruri tələbləri, o cümlədən arbitrin müstəqil və qərəzsizliyinə aid tələbləri nəzərə alaraq, təkbaşına arbitr və yaxud üçüncü arbitr təyin edildiyi hallarda tərəflərin vətəndaşlığına mənsub olmayan, digər vətəndaşlığı olan arbitrin təyin edilməsinin arzu olunduğunu da nəzərə ala bilər.

Qeyd etmək lazımdır ki, Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 11-ci maddəsi YUNSİTRAL-ın Beynəlxalq Ticarət Arbitrajı haqqında Nümunəvi Qanununun 11-ci maddəsi ilə eynilik təşkil edir və demək olar ki, bu qayda əksər ölkələrin milli arbitraj qanunvericiliyində öz əksini tapmışdır.

### *§ 4. Arbitrlərin səlahiyyətlərinə xitam verilməsi*

Arbitrlərin səlahiyyətlərinə müxtəlif səbəblərdən xitam verilə bilər. Hüquq ədəbiyyatında arbitrlərin səlahiyyətlərinə aşağıdakı səbəblərdən xitam verilməsi göstərilmişdir:

a) arbitrlərə etiraz edilməsi;

b) arbitrlərin özü özünə etiraz etməsi;

c) arbitrin ölümü;

e) arbitrin ağır xəstəliyi;

d) arbitrin üzərinə qoyulan funksiyanı yerinə yetirməməsi;

f) digər səbəblər.[1]

Mülki prosesdə olduğu kimi arbitraj prosesində də tərəflərin hər birinin Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə, əgər onların qərəzsizliyi və müstəqilliyi barədə əsaslı şübhələr doğura bilən hallar varsa, xüsusilə, əgər onların şəxsən, birbaşa və yaxud dolayısı ilə

[1] Е. В. Брунцева, Международный Коммерческий Арбитраж; Санкт-Петербург.2001, с.159

işin həllində maraqlı olduqları müəyyən edilərsə, onlara etiraz etmək hüququ vardır. Təcrübədə bir qayda olaraq etiraz digər tərəfin təyin etdiyi arbitrə verilir, tərkibin sədrinə və yaxud tərəfin özünün təyin etdiyi arbitrə etiraz edilməsi hallarına təcrübədə də çox az rast gəlinir.

Milli arbitraj qanunvericiliklərində və Arbitraj Reqlamentlərində arbitrə etiraz edilməsi əsaslarını dəqiq siyahısı nəzərdə tutulmamışdır. Məsələn, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 10-cu maddəsinə əsasən hər hansı arbitrin qərəzsizliyi və ya müstəqilliyinə əsaslı şübhə doğuran hallar olduqda, ona etiraz edilə bilər.

Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentinin 18-ci paraqrafına uyğun olaraq arbitrə yalnız o halda etiraz verilə bilər ki, onun qərəzsizliyi və müstəqilliyini şübhə altına ala bilən hallar olsun və yaxud o, tərəflərin razılaşmasında tələb edilən ixtisasa malik olmasın.

Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 12-ci maddəsində də analoji tələblər nəzərdə tutulmuşdur.

Göründüyü kimi arbitrajın fəaliyyətini tənzim edən hüquqi aktlarda arbitrə etirazın dəqiq siyahısı verilməmişdir. Lakin arbitraj təcrübəsində arbitrə etirazın müəyyən əsasları formalaşmışdır, bura:

a) arbitrin tərəflərin birindən maliyyə asılılığı, tabeçiliyi və ya professional münasibətləri;

b) arbitrin tərəflərdən biri ilə eyni millətə mənsub olması;

c) arbitrin öz fikrini əvvəlcədən ifadə etməsi;

e) məhkəmə presedentləri aid edilə bilər. [1]

Təcrübədə şirkətlərin öz əməkdaşlarını arbitr təyin etməsi hallarına çox nadir hallarda rast gəlinir, lakin bu halda arbitrə etiraz edilməsi qaçılmazdır. Bir tərəfə daim hüquqi məsləhətlər verən (və ya hüquqi xidmət göstərən) hüquqşünas yalnız hər iki tərəfin razılığı olduqda arbitr təyin edilə bilər. Göründüyü kimi bu halda arbitraj prosesində tərəf olan şirkət ilə hüquqşünas müqavilə münasibətindədirlər və deməli, biri digərindən maliyyə asılılığındadırlar, bu da arbitrə etiraz edilməsi üçün əsas sayıla bilər. Tərəf olan şirkətlə hüquqşünas arasında maliyyə və əmək münasibətlərinə xitam verildiyi hallarda tərəfin iştirakı ilə olan mübahisələr üzrə hüquqşünasın arbitr təyin edilməsi şansı böyükdür.

**Arbitrin tərəflərdən biri ilə eyni millətə mənsub olması** səbəbi ilə ona etiraz edilməsi hallarına da təcrübədə çox az rast gəlinir,

---

[1] С. Н. Лебедев, Международный Коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон, М. 1988,с. 102.

bir qayda olaraq bu əsasla təkbaşına arbitrə və ya tərəflərin təyin etmədiyi tərkib sədrinə etiraz verilir.

Ümumiyyətlə, beynəlxalq arbitraj prosesində tərəflərə hüquq verilmişdir ki, onlar istədiyi şəxsi (hətta öz ölkəsinin vətəndaşını) arbitr təyin etsin, lakin arbitraj tərkibinin sədri bir qayda olaraq üçüncü, neytral ölkənin nümayəndələri sırasında təyin edilir və ya seçilir.

Tərəflərdən biri hər hansı şirkət və ya korporasiyadırsa (hüquqi şəxsdirsə), bu halda onun «milliyyəti» qeydiyyatdan keçdiyi ölkə ilə müəyyən edilir, həmin hüquqi şəxsin arbitrin mənsub olduğu ölkədə bölməsinin və ya filialının olması etiraz üçün əsas ola bilməz.

**Arbitrin öz fikrini əvvəlcədən bildirməsi və ya ifadə etməsi** ona etiraz edilməsinin əsaslarından biridir. Arbitr icraatında olan iş ilə bağlı qabaqcadan fikrini bildirməyə, onu tərəflərə və ya başqa şəxslərə çatdırmağa haqlı deyildir, lakin arbitrin elmi məqalələrdə və ya konfranslarda arbitraj prosesi ilə bağlı (konkret iş üzrə deyil) söylədiyi fikirlərə görə ona etiraz edilməsi yolverilməzdir.

Arbitrin tərəflərdən birinin iştirak etdiyi başqa mübahisənin həllində iştirak etməsi də ona etiraz edilməsi üçün əsas ola bilməz, lakin bu faktı arbitrlərin özü digər tərəfə bildirməyə borcludur.

Bir sıra arbitraj işləri üzrə tərəflər **milli məhkəmə presedentlərinə** istinad edərək arbitrlərə etiraz edirlər və bu etirazı arbitraj prosesi ilə Milli məhkəmə prosesinin oxşar olması ilə əsaslandırırlar. Beynəlxalq arbitraj prosesində bu əsaslarla arbitrə etiraz edilməsi hallarına yol verilir və belə hal olduqda arbitrlər məhkəmə presedentlərinə diqqətlə yanaşmağa borcludurlar.

Arbitrlərə etiraz edilməsi proseduru müxtəlif ölkələrdə və müxtəlif arbitraj mərkəzlərində fərqli şəkildə müəyyən edilmişdir. Bu prosedurlar milli arbitraj qanunvericiliyi, arbitraj Reqlamentləri və tərəflərin arbitraj sazişləri ilə müəyyyən edilir.

Arbitrə arbitraj prosesi başlananadək və prosesin gedişində etiraz edilə bilər. Əksər arbitraj məhkəmələrinin Reqlamentlərində arbitraj prosesinin ləngiməməsi məqsədilə arbitrə etiraz edilməsi üçün qısa vaxt müəyyən olunmuşdur. BKAM-ın Əsasnaməsinin 31-ci maddəsinə əsasən tərəfin etirazın səbəbini göstərən yazılı ərizəsini, tərəf Arbitraj Kollegiyasının təşkili və bu halları bildiyi vaxtdan **15 gün** müddətində verə bilər. Bu müddət Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin **11-ci** maddəsində 30 gün, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 18-ci maddəsində 15 gün, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 10-cu maddəsində 15 gün, Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentinin

18-ci paraqrafında 14 gün müəyyən edilmişdir. Lakin Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentinin 12-ci maddəsində dəqiq müddət müəyyən edilməmişdir.

Arbitrə edilən etirazın proseduru BKAM-ın Əsasnaməsinin 31, 32, 33-cü maddələrində müəyyən edilmişdir. Belə ki, Tərəflərin hər bir birinin, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə, əgər onların qərəzsizliyi və müstəqilliyi barədə əsaslı şübhələr doğura bilən hallar varsa, xüsusilə, əgər onların şəxsən, birbaşa və yaxud dolayısı ilə işin həllində maraqlı olduqları müəyyən edilirsə, onlara etiraz etmək hüquqları vardır. tərəfin etirazın səbəbini göstərən yazılı ərizəsini, tərəf Arbitraj Kollegiyasının təşkili və bu cür halları bildiyi vaxtdan 15 gün müddətində verə bilər. Yalnız üzürlü səbəb olduqda göstərilən müddətdən sonra verilən etiraz ərizəsinə baxılması mümkündür.

Arbitrə etiraz məsələsi Arbitraj Kollegiyasının digər üzvləri tərəfindən həll edilir. Əgər onlar razılığa gələ bilməmişlərsə və ya etiraz iki arbitrə və ya təkbaşına arbitrə verilərsə, etiraz məsələsi BKAM-ın sədri tərəfindən həll edilir.

BKAM-ın sədrinin öz təşəbbüsü ilə arbitrə, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə hazırkı maddənin 1-ci bəndində göstərilən əsaslar olduqda, etiraz məsələsini həll etmək hüququ vardır.

Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz təşəbbüsü ilə özlərinə etiraz edə bilərlər.

Bu maddənin 1 – 3-cü bəndlərindəki əsaslar, həmçinin, ehtiyat üçün seçilmiş və ya təyin edilmiş arbitrə, Arbitraj Kollegiyasının sədrinə və təkbaşına arbitrə də aid edilir.

Bu maddənin 1-ci bəndində göstərilən eyni əsaslarla işin araşdırılmasında iştirak edən ekspertə və tərcüməçiyə etiraz verilə bilər. Bu halda etiraz məsələsi Arbitraj Kollegiyası tərəfindən həll edilir.

Əgər arbitr, Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz funksiyalarını yerinə yetirə bilmirsə və ya bu funksiyaları əsassız gecikdirərək həyata keçirmirlərsə, tərəflərin razılığı ilə onların hər bir birinin səlahiyyətləri dayandırıla bilər.

Arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətləri özlərinə etiraz ərizəsi ilə də dayandırıla bilər.

Tərəflər razılığa gələ bilməmişlərsə, onların hər birinin hazırki maddənin 1-ci bəndinə əsaslanaraq, arbitrin, Arbitraj Kollegiyası sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması

məsələsini həll etmək üçün BKAM-ın sədrinə müraciət etmək hüquqları vardır.

BKAM-ın sədrinin öz təşəbbüsü ilə arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması məsələsini həll etmək hüququ vardır.

BKAM-ın Əsasnaməsinin 31.3 və 32.4-cü bəndlərinə uyğun BKAM-ın Sədrinin qəbul etdiyi qərarlardan tərəflər BKAM-ın Rəyasət Heyətinə şikayət verə bilərlər.

Əgər Arbitraj Kollegiyasının sədrinə, təkbaşına arbitrə və ya arbitrə etiraz verilmişsə və ya digər səbəblərdən işin araşdırılmasında iştirak edə bilmirlərsə, onları müvafiq surətdə ehtiyat Arbitraj Kollegiyasının sədri, ehtiyat təkbaşına arbitr və ya ehtiyat arbitr əvəz edirlər. Əgər belə əvəzetmə mümkün olmazsa, Əsasnaməyə uyğun olaraq yeni Arbitraj Kollegiyasının sədri, təkbaşına arbitr və ya arbitr seçilir və ya təyin edilirlər. Əgər Arbitraj Kollegiyasının sədri, təkbaşına arbitr və ya arbitr BKAM-ın sədri tərəfindən təyin ediliblərsə, yeni təyin etmələri də o həyata keçirir.

Zərurət olduqda və tərəflərin fikri nəzərə alınmaqla dəyişdirilmiş Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr iş üzrə əvvəlki şifahi dinləmələrdə baxılmış məsələyə yenidən baxa bilər.

Arbitrə etiraz edilməsi ilə bağlı ərizənin verilməsi arbitraj prosesini dayandırırmı? Bu məsələ müxtəlif ölkələrdə müxtəlif cür həll edilir. Məsələn, Beynəlxalq Arbitraj haqqında AR-nın qanununun 13-cü maddəsinin 3-cü bəndinə əsasən tərəflər arasında razılaşdırılmış hər hansı bir prosedurun və yaxud bu maddənin 2-ci bəndində nəzərdə tutulmuş prosedurların tətbiqi zamanı etiraz haqqında ərizə (müraciət) təmin edilmirsə, etirazla müraciət etmiş tərəf etirazın rədd edilməsi haqqında qərarı aldığı gündən 30 gün müddətində AR-nın Ali Məhkəməsindən etiraz edilməsi ilə bağlı qərar qəbul edilməsini xahiş edə bilər; belə qərar qətidir və ondan heç bir şikayət verilə bilməz. Belə xahiş baxılıb müvafiq qərar qəbul edilənə kimi arbitraj məhkəməsi etiraz edilmiş arbitr də daxil olmaqla, arbitraj baxışını davam etdirə və arbitraj qərarı qəbul edə bilər.

Oxşar normalar İsveçin və Avstriyanın da arbitraj qanunvericiliyində nəzərdə tutulmuşdur. Lakin Belçikanın arbitraj qanunvericiliyində və İnvestisiya mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəzin Reqlamentində bu halda qısa müddətə də olsa arbitraj prosesinin dayandırılması nəzərdə tutulur.

Arbitrin səlahiyyətlərinə həmçinin onun ölümü, ciddi xəstəliyi, işə baxılmasında iştirak etməkdən imtina etməsi, özü-özünə etiraz və digər səbəblər üzündən xitam verilə bilər.

Məsələn, Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 14-cü maddəsinə müvafiq olaraq Arbitr öz funksiyalarını yerinə yetirmək iqtidarında deyilsə və yaxud digər səbəblərdən əsassız olaraq uzun müddət fəaliyyət göstərmirsə və ya arbitr özü vəzifəsindən imtina edirsə və yaxud tərəflərin arasında bu barədə razılıq əldə edilibsə, onun mandatına xitam verilir.

Bu əsasların hər hansı biri barəsində fikir ayrılığı yaranarsa, hər bir tərəf AR-nın Ali Məhkəməsinə mandata xitam verilməsinə aid qərar qəbul edilməsi xahişi ilə müraciət edə bilər; belə qərar qətidir və ondan şikayət verilə bilməz.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 12-ci maddəsinə əsasən Arbitr vəfat etdikdə, arbitrin istefa barədə ərizəsi Məhkəmə tərəfindən qəbul edildikdə, ona edilmiş etiraz Məhkəmə tərəfindən təmin edildikdə, yaxud bütün tərəflərin xahişi ilə dəyişdirilir.

Arbitr, həmçinin, Məhkəmənin təşəbbüsü ilə Məhkəmə onun öz funksiyalarını *de-yure*, yaxud *de-fakto* icra edə bilməməsi qərarına gəldikdə, yaxud o, öz funksiyalarını Reqlament əsasında, yaxud müəyyən edilmiş müddət ərzində yerinə yetirmədikdə dəyişdirilir.

Arbitrin dəyişdirilməsi zamanı Məhkəmə arbitrin təyin edilməsinin ilkin prosedurunun təkrar edilməsi olub-olmadığını öz mülahizəsinə əsasən həll edir. Yenidən təşkil edildikdən sonra arbitraj tərkibi tərəflərə öz rəylərini bildirməyi təklif edərək icraatın təzələnməsini və hansı həcmdə təzələnməli olmasını həll edir.

Arbitrin ölümü, yaxud onun Məhkəmə tərəfindən dəyişdirilməsi işin şifahi dinlənilməsindən sonra baş verərsə, Məhkəmə lazım bildikdə, qalan arbitrlərin iş üzrə icraatı davam etdirmələri barədə qərar qəbul edə bilər. Belə qərar qəbul edərkən Məhkəmə tərəflərin və qalan arbitrlərin rəylərinə diqqətlə yanaşır, həmçinin, bu hallar üçün vacib hesab etdiyi istənilən hər hansı digər məqamları nəzərə alır.

Analoji normalar digər arbitraj mərkəzlərinin və məhkəmələrinin Arbitraj Reqlamentlərində də nəzərdə tutulmuşdur.

# VII fəsil
# Mübahisələrin Arbitraja aidiyyəti və Arbitrajın səlahiyyəti

## *§ 1. Mübahisələrin arbitraja aidiyyəti*

Arbitraj hər hansı mübahisəyə baxıb həll etmək üçün müəyyən səlahiyyətə malik olmalıdır.

Beynəlxalq arbitraj prosesində səlahiyyətin mənbəyi qismində tərəflərin bağladıqları arbitraj sazişi, tətbiq edilməli olan hüquq, arbitrajın keçirildiyi yerin hüququ, arbitraj qətnaməsinin tanınmalı və icra edilməli olan ölkənin hüququ çıxış edir. Məhkəmə prosesində isə səlahiyyət məhkəmənin mənsub olduğu ölkənin müvafiq prosessual qanunvericiliyi ilə müəyyən olunur.

Arbitraj sazişinə uyğun olaraq arbitraj yalnız tərəflərin razılaşdırdıqları mübahisələrə baxa bilərlər, hansı mübahisənin baxılmaq üçün arbitraja verilməsini yalnız tərəflər şərtləşdirirlər və arbitrajın da səlahiyyəti bir qayda olaraq arbitraj sazişi ilə müəyyən edilir. Arbitraj sazişi isə artıq əvvəlki fəsillərdə araşdırdığımız kimi arbitrə yalnız arbitraj sazişini tənzimləyən qanunvericilik və arbitrajın keçirildiyi yerin qanunları çərçivəsində səlahiyyət verə bilər. Hər bir halda arbitrin öz səlahiyyət həddini aşmaqla qəbul etdiyi qətnamə 1958-ci il tarixli Nyu-York Konvensiyasının 5-ci və Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 34, 36-cı maddələrinə uyğun olaraq ləğv edilməli və onun icrasından imtina edilməlidir.

Təcrübədə bir sıra hallarda arbitraj sazişində gələcəkdə baxılacaq mübahisənin bütün detallarının heç də hamısı geniş şəkildə nəzərdə tutulmur və ya qısa qeydlərlə kifayətlənirlər. Arbitraj sazişində yol verilən belə boşluqları bir qayda olaraq arbitraj Reqlamentləri doldururlar. Arbitraj mərkəzlərinin (məhkəmələrinin) nümunəvi arbitraj qeydləri bir qayda olaraq geniş məzmunlu olmaqla bir çox prosessual məsələləri əks etdirir, lakin bunu ***ad hoc*** qaydasında işə baxılan zaman nəzərdə tutulan arbitraj qeydi haqqında demək olmaz, çünki ***ad hoc*** qaydasında işə baxılmasını nəzərdə tutan arbitraj qeydi ya qısa olur və ya ümumiyyətlə olmur. Bu halda isə arbitrin səlahiyyət dairəsi işə baxılmalı olan arbitraj Reqlamenti (və ya YUNSİTRAL-ın arbitraj Reqlamenti) ilə müəyyən olunur.

Arbitrlərin öz səlahiyyətlərini müəyyən etmək hüququ bir sıra beynəlxalq Konvensiyalarda (Vaşinqton Konvensiyasının 41-ci maddəsi, Avropa Konvensiyasının 5-ci maddəsi), YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 21-ci maddəsində, Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 16-cı maddəsində, Arbitraj Reqlamentlərində (BKAM-ın Əsasnaməsinin 7-ci maddəsi) nəzərdə tutulmuşdur.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 16-cı maddəsinə əsasən Arbitraj məhkəməsi öz səlahiyyəti barəsində, o cümlədən, arbitraj sazişinin mövcudluğu və yaxud etibarlığı barədə hər bir etiraz üzrə qərar çıxara bilər.

Bu məqsədlə müqavilənin tərkib hissəsi olan arbitraj qeyd-şərti müqavilənin digər şərtlərindən asılı olmayan razılıq kimi şərh olunmalıdır. Müqavilənin etibarsızlığı haqqında arbitraj məhkəməsinin çıxardığı qərar *«ipso jure»* arbitraj qeyd-şərtinin etibarsızlığına səbəb olmur.

Arbitraj məhkəməsinin səlahiyyətlərinin olmaması haqqında müraciət iddia üzrə etiraz təqdim edilməmişdən əvvəl bildirilməlidir.

Tərəflərin arbitr təyin etməsi və yaxud arbitr təyin edilməsində iştirakı, tərəfi belə müraciət etmək hüququndan məhrum etmir. Arbitraj məhkəməsinin öz səlahiyyətini aşması haqqında bəyanat arbitraj baxışının gedişində hər hansı bir məsələnin bu səlahiyyəti aşdığı müəyyən edilən kimi verilir. Belə halların hər birində gecikmiş bəyanatı arbitraj məhkəməsi bu şərtlə qəbul edə bilər ki, gecikmənin səbəbini üzürlü hesab etsin.

Arbitraj məhkəməsi Qanunun 16-cı maddəsinin 2-ci bəndində göstərilən bəyanata dair ya ilkin xarakterli məsələ üzrə olduğu kimi, yaxud da mübahisənin mahiyyətcə həll edilməsi kimi qərar çıxara bilər.

Əgər arbitraj məhkəməsi ilkin xarakterli məsələ üzrə olduğu kimi qərar çıxarsa ki, o səlahiyyətlidir, tərəflərdən hər hansı biri bu qərar haqqında xəbərdarlıq aldıqdan sonra 30 gün ərzində AR-nın Ali Məhkəməsindən xahiş edə bilər ki, bu məsələyə dair qərar qəbul etsin. Belə qərardan şikayət verilə bilməz. Bu cür xahiş həll edilənədək arbitraj məhkəməsi arbitraj baxışını davam etdirə və arbitraj qərarı çıxara bilər.

Arbitraj tərkibinin səlahiyyəti məsələsi aşağıda göstərilən iki qaydada müəyyən edilir:

1) Mübahisəyə baxılması üzrə səlahiyyətin tanınması və ya ondan imtina edilməsi məsələsinin arbitrlərin özləri tərəfindən həll edilməsi;

2) Arbitrajda işə başladıqdan sonra arbitrajın yerləşdiyi yerin məhkəməsi tərəfləri arbitrajda məcburi iştirak etməyə cəlb edə bilər və ya arbitraj tərkibinin səlahiyyətini mübahisələndirə bilər (bu o halda baş verə bilər ki, tərəflərdən biri arbitrlərin səlahiyyəti ilə bağlı məsələni məhkəmədə mübahisələndirmiş olsun).

Məhkəmə arbitrajda baxılan mübahisə üzrə öz səlahiyyətini arbitraj prosesi başlayanadək və ya başlanandan sonra və hətta arbitraj qətnaməsi çıxarıldıqdan sonra da həll edə bilər.

Qeyd etmək lazımdır ki, heç bir ölkədə arbitrlərin öz səlahiyyətlərini müəyyən etməsi hüququ məhkəmə nəzarətindən kənarda baş verə bilməz, sadəcə olaraq fərq nəzarətin həddində və onun həyata keçirilməsi müddətlərində ola bilər.

Məsələn, İngiltərədə məhkəmələr arbitrlərin qətnamə çıxarmasını gözləmədən tərəflər arasında arbitraj sazişinin ümumiyyətlə bağlanması və ya etibarsız hesab edilməsi ilə bağlı ərizəni icraatına qəbul etməyə haqlıdırlar. Fransız hüququna görə isə məhkəmə arbitrajın səlahiyyətli olub olmamasını yalnız arbitraj işin mahiyyəti üzrə qətnamə çıxardıqdan sonra yoxlaya bilər və arbitrajda iş başlanan zaman bu məqsədlə verilən ərizənin qəbulundan məhkəmə imtina edə bilər.

Bu sətirlərin müəllifi də belə hesab edir ki, arbitrajın səlahiyyəti ilə bağlı məsələni məhkəmənin arbitraj qətnaməsindən sonra yoxlaması məqsədəuyğundur, çünki onsuz da Milli qanunvericilikdə arbitraj qətnaməsinin yoxlanması və məcburi icraya yönəldilməsi ilə bağlı məhkəmələrin geniş hüquqları nəzərdə tutulmuşdur və məhkəmə bu çərçivədə arbitraj qətnamələrini (və həmçinin arbitraj sazişinin etibarlığını) yoxlamağa haqlıdır. Məsələn, Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 34-cü (Arbitraj qərarının ləğvi haqqında vəsatət verilməsi) və 36-cı maddələrində (Tanınmaqdan və ya icradan imtina edilməsi üçün əsaslar) məhkəmənin hüquqları təsbit edilmişdir.

Arbitraj sazişi – tərəflərin iradələrinin razılaşdırılmasının nəticəsidir. Arbitraj sazişinin fəaliyyət dairəsi tərəflərin bu və ya digər mübahisənin həll edilməsi üçün arbitraja verilməsi arzusunun ifadə edilməsindən asılıdır, başqa sözlə, tərəflərin müvafiq sazişi olmadan arbitraj işə baxmağa səlahiyyətli deyildir. Arbitraj tərəflərin sazişi ilə müəyyən edilən səlahiyyət həddindən kənara çıxmağa haqlı deyildir.

Arbitraj sazişi bağlamaqla tərəflər arbitrajın ümumi səlahiyyətini məhdudlaşdıra və ya onların səlahiyyətinə konkret hüquq münasibətləri üzrə müəyyən kateqoriya işlərə baxılma-sını aid edə bilərlər.

Lakin arbitrajın səlahiyyəti yalnız mülki hüququn subyekti olan tərəflərin sazişi ilə deyil, həmçinin, ümumi hüquqi xarakterli beynəlxalq müqavilələrlə də müəyyən edilə bilər. Bununla bağlı hüquq ədəbiyyatında arbitrajın səlahiyyətinin müəyyən edilməsinin üç üsulunu fərqləndirirlər: 1)Tərəflərin yazılı saziş bağlaması yolu ilə; 2)İddiaçının iddia ərizəsində işin arbitraja aid olmasını tanıması və cavabdehin arbitrajın işə baxması ilə bağlı yazılı sorğusuna razılıq verməsi yolu ilə;

3)Arbitrajın səlahiyyətini müəyyən edən beynəlxalq sazişin mövcudluğu.[1] A.İ.Minakov isə belə hesab edir ki, birinci iki halda arbitrajın səlahiyyəti tərəflərin iradə ifadəsi nəticəsində müəyyən edilir və ona görə də bu iki növ birləşdirilməlidir, üçüncü halda isə mülki hüququn subyektləri olan tərəflərin iradəsindən asılı olmayaraq, arbitrajın səlahiyyəti beynəlxalq müqavilə əsasında müəyyən olunur. Onun fikrincə, bu halda arbitrajın səlahiyyətlərinin müəyyən edilməsinin iki üsulundan söhbət gedə bilər.[2]

Fikrimizcə, hər iki nəzəriyyə arasında elə də prinsipial fərqlər yoxdur və hər iki nəzəriyyənin yaşam hüququ tanınmalıdır, lakin bu sətirlərin müəllifi belə hesab edir ki, göstərilən üsullar heç də arbitrajın səlahiyyətlərinin müəyyən olunmasında son hədd deyildir. Belə ki, mübahisələrin hər hansı məhkəmə orqanına (bu halda arbitraj məhkəməsinə) aidiyyatı üç əsasla müəyyən olunur:

1) İşdə iştirak edən şəxslərin subyektiv tərkibi (hüquqi şəxslər, fiziki şəxslər, sahibkarlar, xaricilər);

2) Mübahisənin predmeti (iddia ərizəsində şərh edilən tələbin xarakteri);

3) Hüquq münasibətinin xarakteri (mübahisənin hansı hüquq münasibətindən yaranması, məsələn, mülki, iqtisadi, beynəlxalq, ailə, inzibati və i.a.)

Göründüyü kimi, mübahisənin arbitraj orqanına aidiyyatı məsələsi mürəkkəb tərkib olmaqla onun nə tərəflərin sazişi, nə də beynəlxalq müqavilədə konkret olaraq nəzərdə tutulması mümkün deyildir. Mübahisənin arbitraj orqanına aidiyyatı məsələsi bir qayda olaraq işə baxana qədər arbitraj institutunun Reqlamentində və ya Əsasnaməsində nəzərdə tutulur. Məsələn, Beynəlxalq ticarət arbitrajı haqqında nümunəvi YUNSİTRAL qanununun 1-ci maddəsində, BKAM-ın Əsasna-məsinin 1-ci maddəsində (bu barədə sonrakı paraqlaflarda daha geniş bəhs edəcəyik) arbitraj institutunun səlahiyyətləri müəyyən olunmuşdur. Beləliklə, mübahisələrin arbitraj institutuna aidiyyatı fikrimizcə, yuxarıda sadalanan üç üsulla deyil, dörd üsulla müəyyən edilir: dördüncü üsul mübahisənin arbitraj orqanına aidiyyatının şərtlərinin Reqlamentdə və ya Əsasnamədə nəzərdə tutulmasıdır.

Hüquq ədəbiyyatında belə bir fikir mövcuddur ki, əgər arbitrajın səlahiyyəti beynəlxalq müqavilə ilə müəyyən edilirsə, o halda həmin məhkəmə arbitraj deyil, dövlət məhkəməsidir və müqavilə və prosessual

---

[1] Лебедев С.Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашения сторон, М., 1988, с.33;
[2] Minakov A.İ. Göstərilən əsər, s.43.

elementləri özündə əks etdirən arbitrajın hüquqi təbiəti də elə bununla müəyyən olunur.[1]

Fikrimizcə, arbitraja beynəlxalq müqavilə ilə hər hansı əlavə səlahiyyətlərin verilməsi nəticəsində onun hüquqi təbiətinin dəyişilməsi fikri ilə razılaşmaq çətindir, çünki beynəlxalq müqavilədə arbitraj məhkəməsi səlahiyyətinin artırılması həmin məhkəmənin dövlət məhkəməsindən üstün olduğunu bir daha nümayiş etdirir və hazırda da xarici ticarət sahəsində əqdlər bağlanarkən bu təcrübədən çox geniş istifadə olunur.

## *§ 2. Mübahisələrin dövlət məhkəmələrinə aidiyyatının istisna edilməsi*

Arbitraj sazişinin bağlanmasının prosessual-hüquqi nəticəsi konkret işin dövlət məhkəmələrinə aidiyyətinin istisna edilməsi (neqativ effekt) və mübahisəyə baxılması üçün tərəf-lərin razılaşdırdıqları arbitraj məhkəməsinə müraciət etmək imkanının yaranmasıdır (pozitiv effekt). Mübahisəyə arbitraj məhkəməsində baxılması haqqında tərəflərin razılığı həmin mübahisəyə tərəflərin məxsus olduğu dövlətin və həmçinin, digər dövlətlərin məhkəmələrində baxılmasını ümumiyyətlə istisna edir.

Arbitraj sazişindən irəli gələn vəzifələr onu bağlayan tərəflərin hər ikisinə bərabər əsaslarla tətbiq edilir. Lakin beynəlxalq təcrübədə bu qaydadan istisnalıqlara da rast gəlinir. Məsələn, Avstraliyanın Kvinslend ştatının sığorta haqqında qanuna müvafiq olaraq sığorta polisinə daxil edilən arbitraj qeyd-şərti yalnız sığortalı üçün məcburidir və o, öz seçiminə görə ya dövlət məhkəməsinə, ya da arbitraj məhkəməsinə müraciət edə bilər. Qanuna görə sığortaçı bu hüquqlardan istifadə edə bilməz.[2]

Tərəflər arasında arbitraj sazişinin mövcudluğu həmin işə baxılmasından imtina edilməsi vəzifəsini dövlət məhkəmələrinin üzərinə qoyur və konkret işə baxılmasından imtina edən məhkəmə tərəflərə sazişdə nəzərdə tutulan arbitraj məhkəməsinə müraciət etməyi tövsiyə edir.

Azərbaycan Respublikasının MPM-nin 29-cu maddəsinə müvafiq olaraq, məhkəməyə aid olan mübahisə qanunla, beynəlxalq müqavilələrlə və ya tərəflərin sazişi ilə nəzərdə tutulan hallarda, işdə iştirak edən şəxslərin yazılı razılığı ilə münsiflər məhkəməsinin (arbitraj

---

[1] Лазарев С.Л. Международный арбитраж, М., 1991, с.154.
[2] Minakov A.İ. Göstərilən əsər, s.44.

məhkəməsinin) həllinə verilə bilər. Bu maddədə nəzərdə tutulan hallarda iş baxılmaq üçün dövlət məhkəməsinə verilərsə, məhkəmə işin icraata qəbul edilməsindən imtina etməli və tərəflərə arbitraj sazişində göstərilən münsiflər məhkəməsinə (arbitraj məhkəməsinə) müraciət edilməsini izah etməlidir.

"Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə uyğun olaraq arbitraj sazişinin predmeti olan məsələyə aid qarşısında iddia qaldırılmış məhkəmə (burada söhbət dövlət məhkəməsindən gedir – V.M.) hər hansı bir tərəfin mübahisənin mahiyyəti üzrə ilkin ərizəsinin təqdim edildiyi vaxtdan gec olmayaraq, bu barədə tərəflərin xahişi olarsa, arbitraj sazişi etibarsız deyilsə, qüvvəsini itirməmişdirsə və yaxud icrası mümkün olmayan hallar yoxdursa, **tərəfləri arbitraja göndərməlidir**.

Qanunun 8-ci maddəsinin II bəndində haqlı olaraq nəzərdə tutulmuşdur ki, dövlət məhkəməsinə iddianın verildiyi halda (I bənddə nəzərdə tutulan – V.M.) məhkəmədə iddianın aidiyyəti məsələsi həll edilənədək arbitraj baxışı başlana və ya davam etdirilə bilər və arbitraj qərarı qəbul edilə bilər.

Təcrübədə bəzi hallarda arbitraj sazişi olmadan da hər hansı bir işin dövlət məhkəməsinin aidiyyətindən çıxarılması hallarına rast gəlinməsi mümkündür və bu da əsassız deyildir. Məsələn, BKAM-ın Əsasnaməsinin 2-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuşdur ki, əgər iddiaçı tərəfindən BKAM-a iddia ərizəsi, cavabdehdən isə iddia ərizəsinə rəy verilibsə, mübahisənin BKAM-ın baxışına verilməsi haqqında razılaşma bağlanmış hesab olunur. Göründüyü kimi, bu halda tərəflər arasında konkret olaraq arbitraj sazişinin bağlanmamasına baxmayaraq, tərəflərin qarşılıqlı **müsbət prosessual hərəkətləri** (iddiaçının iddia ərizəsi verməsi, cavabdehin isə iddia ərizəsinə rəy verməsi) faktiki olaraq arbitraj sazişinin bağlanması kimi qiymətləndirilir.

İngiltərədə isə arbitraj qaydasında baxılmalı iş dövlət məhkəməsinə verildikdə (başqa sözlə, tərəflər arasında arbitraj sazişi olduqda), digər tərəf məhkəmədən iş üzrə icraatın dayandırılmasını və mübahisənin baxılmaq üçün arbitraj sazişində nəzərdə tutulan arbitraj məhkəməsinə göndərilməsini xahiş edir. Məhkəmə isə öz növbəsində iş üzrə icraatı dayandırmaq üçün arbitraj sazişinin etibarlı olması, baxılacaq mübahisənin predmetinin bu sazişə uyğunluğu və tərəflərin həmin işə arbitraj məhkəməsində baxılması üçün təkrar razılığının olması faktlarını araşdırmalıdır.

Bu mürəkkəb qayda öz əksini arbitraj məhkəmələrində mübahisələrə baxılması haqqında Qaydalarda və Reqlamentlərdə tapmışdır. (Məsələn, Lloyd arbitrajı haqqında Qaydalar, Qida məhsulları üzrə tacirlərin Liverpul Assosiasiyaları haqqında Əsasnamə və i.a.).

Sığorta müqavilələri üzrə London Assosiasiyasının arbitraj icraatı haqqında Qaydalarına uyğun olaraq hüquq normalarına aid olan məsələlər həll edilmək üçün Ali Məhkəməyə verilməlidir, hətta tərəflərdən biri İngiltərədən kənarda yerləşdiyi halda da arbitraja aid olan bütün mübahisəli məsələlər müstəsna olaraq Ali Məhkəmənin səlahiyyətinə aid edilmişdir.[1]

Pakistanın məhkəmə təcrübəsində isə mübahisənin xarici arbitraj məhkəməsinə verilməsini nəzərdə tutan arbitraj sazişinin olması həmin mübahisənin yerli milli məhkəmələrdə baxılmasını istisna etmir, hətta belə arbitraj sazişinin bağlanması bir sıra hallarda dövlət məhkəmələri tərəfindən ümumi qaydanın və dövlət suverenliyinin pozulması kimi qiymətləndirilir.

Avstraliyanın xarici arbitraj qətnamələri və sazişləri haqqında 1974-cü il qanununa görə arbitraj sazişi bağlanıla bilməyən bütün mübahisələr dövlət məhkəməsinə aiddir və belə hal baş verdiyi halda (yəni, həmin mübahisələr üzrə arbitraj sazişi bağlandıqda) məhkəmə iş üzrə icraatı dayandırır.[2]

İngilis-Amerika hüquq sisteminə daxil olan ölkələrdə son dövrlərdə yuxarıda göstərilən qayda müəyyən dəyişikliklərə uğramışdır. İngiltərədə ticarət və digər mülki-hüquqi əqdlərin arbitrajda baxılmasına qoyulan formal məhdudiyyətlərə baxmayaraq, bu sahədə bağlanılan arbitraj sazişlərinin sayı artmaqdadır. Qeyd olunmalıdır ki, dünyanın 130-dan artıq arbitraj məhkəməsinin 37-si İngiltərədə fəaliyyət göstərir.[3]

İngiltərənin məhkəmə təcrübəsində tərəflərin müqaviləyə Scott V.Avery qeyd-şərti daxil etməsi hallarına çox rast gəlinir, bu qeyd-şərtə görə tərəflər arasında yaranan mübahisə arbitrajın icraatında olduğu müddətdə məhkəmə (dövlət məhkəməsi) həmin iş üzrə heç bir hüquqi hərəkəti (istər maddi, istərsə prosessual) yerinə yetirə bilməz. Tərəflər, həmçinin, müqaviləyə Atlantic Shipping qeyd-şərti də daxil edə bilərlər, bu qeyd-şərtə görə isə arbitraj baxışı arbitraj sazişində nəzərdə tutulan müddətdə başlamazsa, müqavilədən irəli gələn hər hansı iddia rədd

---

[1] Крылова Н. Статус суда в Великобритании / Вестник Верховного Суда СССР, 1991, № 5, с.19.
[2] Шинкарецкая Г.Г. Международная судебная процедура, М., 1992, с.101.
[3] Minakov A.İ., Göstərilən əsər, s.47.

edilməlidir və hətta müəyyən hallar mövcud olduqda həmin qeyd-şərt məhkəmə tərəfindən etibarsız sayıla bilər.[1]

Böyük Britaniyanın 1979-cu ildə qəbul edilmiş arbitraj haqqında qanunu da tədqiqat obyekti kimi çox böyük maraq doğurur, belə ki, həmin qanuna görə tərəflər müqaviləyə arbitraj qətnaməsinin məhkəmə təftişinə məruz qalmaması haqqında ("istisna edən saziş") şərt əlavə etməkdə haqlıdırlar. Bununla əlaqədar olaraq qanunda arbitraj sazişinin üç növü fərqləndirilir: 1) daxili saziş; 2) daxili olmayan saziş və 3) xüsusi saziş.

Daxili arbitraj sazişinə münasibətdə "istisna edən saziş" yalnız arbitraj araşdırması başlanandan sonra tətbiq edilə bilər, daxili olmayan arbitraj sazişinə münasibətdə "istisna edən saziş" həm arbitraj araşdırması başlananadək, həm də başlanandan sonra tətbiq edilə bilər. Xüsusi arbitraj sazişinə isə daxili arbitraj sazişində olduğu kimi "istisna edən saziş" arbitraj araşdırması başlanandan sonra tətbiq edilə bilər.

Qanunda beynəlxalq arbitraj araşdırması haqqında saziş müəyyən edilməmişdir, daxili arbitraj sazişi isə aşağıdakı tələblərə cavab verməlidir: 1) arbitraj araşdırmasının Böyük Britaniyada keçirilməsi nəzərdə tutulmalıdır; 2) arbitraj sazişinin iştirakçıları mütləq Böyük Britaniyanın təbəələri və ya hüquqi şəxsləri olmalıdırlar. Buradan da belə bir nəticə çıxarmaq olar ki, Qanunun ruhuna uyğun olaraq, tərəflərdən biri də ya hər ikisi Böyük Britaniyanın təbəəsi və ya hüquqi şəxsi olmayan və Böyük Britaniyada baxılmayan mübahisələri araşdıran arbitraj məhkəməsi beynəlxalq arbitraj sayılır.

Qanunda beynəlxalq arbitraja çox böyük səlahiyyət verilmişdir. Beynəlxalq arbitrajın səlahiyyəti aşağıdakı hallarda məhdudlaşdırılır: 1) hər hansı məsələ və ya iddia Admirallığın ali məhkəməsinin səlahiyyətinə aid olduqda; 2) mübahisə sığorta müqaviləsindən əmələ gəldikdə; 3) çoxtərəfli beynəlxalq müqavilələr əsasında bölünən mallarla bağlı mübahisələr yarandıqda.[2]

R.M.Ceksonun fikrincə, ingilis məhkəmə təcrübəsinə əsasən belə nəticə çıxarmaq olar ki, arbitraj sazişinin mövcudluğu məhkəmə icraatını (burada söhbət dövlət məhkəməsindən gedir – V.M.) sözsüz aradan qaldırmalı və arbitraj qətnaməsinin məhkəmə tərəfindən ləğv edilməsi və ya nəzarət edilməsi səlahiyyətləri tam məhdudlaşdırılmalıdır.[3] Bu fikirlə razılaşmamaq çətindir.

---

[1] Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., 1993, с.197.
[2] Попков А. Международный арбитраж и постоянные международные суды: сходства и различия / Вестник Высшего Хозяйственного Суда Республики Беларусь, № 1, 2000, с.225.
[3] Jackson R.M. The Machinery of Justice in Enqland, Cambridge, 1972, p.119.

İslam hüquq sisteminin fəaliyyət göstərdiyi Səudiyyə Ərəbistanında 1983-cü il tarixli arbitraj haqqında qanuna uyğun olaraq arbitraj qeyd-şərti və münsif qeydi imzalamış tərəflərin mübahisəni arbitraj baxışına vermək hüququnun olmasına baxmayaraq, tərəflərdən biri işi həll olunmaq üçün şəriət məhkəməsinə verdikdə, işə arbitrajda deyil, şəriət məhkəməsində baxılmalıdır və beləliklə də arbitraj sazişinin mövcudluğu işin şəriət məhkəməsində (dövlət məhkəməsində) baxılmasına maneçilik törətmir.[1]

İtaliyanın MPM-nin 2-ci maddəsinə müvafiq olaraq müqavilə bağlamaq yolu ilə mübahisənin xarici ölkə məhkəmələrində və ya arbitrajında baxılmasının nəzərdə tutulması hesabına İtaliya məhkəmələrinin səlahiyyətlərinin məhdudlaşdırılmasına yol verilmir, lakin işin xarici arbitraj məhkəməsində baxılmasını müəyyən edən beynəlxalq müqavilə olduqda arbitraj sazişi etibarlı sayılır.[2]

Analoji norma Portuqaliyanın da MPM-nin 65-ci maddəsində nəzərdə tutulmuşdur.

Əksər Latın Amerikası ölkələrində arbitraj qeyd-şərti əsasında işin dövlət məhkəməsinin aidiyyatından çıxarılması mümkünsüzdür, çünki artıq qeyd edildiyi kimi, tərəflər münsif qeydi ilə arbitraj qeyd-şərtini əlavə olaraq təsdiq etməsələr o etibarsız sayılır və icra olunmur.[3]

### *§ 3. Etirazın verilməsi*

Bir çox ölkələrin qanunvericiliyində işin dövlət məhkəmələrinin aidiyyətindən çıxarılması üçün arbitraj sazişinin mövcudluğunun zəruriliyi nəzərdə tutulsa da bu, kifayət deyildir, çünki arbitraj sazişinin mövcudluğuna baxmayaraq tərəflərdən biri mübahisəni baxılmaq üçün dövlət məhkəməsinə təqdim etdikdə digər tərəf buna etiraz edə və işin icraatının xitam edilməsi barədə məhkəmədən xahiş edə bilər. Beləliklə, arbitraj sazişinin mövcudluğu avtomatik olaraq işin dövlət məhkəməsinin aidiyyətindən çıxarılması demək deyildir, o, yalnız işin məhkəmədə baxılması üçün etiraz edilmənin əsası kimi çıxış edir və yalnız belə etiraz olduqda məhkəmə iş üzrə icraatı xitam edə bilər.

Arbitraj sazişinin mövcudluğuna baxmayaraq, tərəflər işin dövlət məhkəməsində baxılmasına etiraz etmirlərsə və ya susurlarsa, o halda susqunluq işə dövlət məhkəməsində baxılmasına razılıq kimi qiymətləndirilir.

---

[1] Сюкияйнен Л.Р. Мусульманское право, М., 1986, с.222.
[2] Пучинский В.К. Принципы буржуазного гражданского процессуального права. М., 1988. с.71.
[3] Лазарев С.Л. Международный арбитраж, М., 1991. с.153.

Bir sıra ölkələrin qanunvericiliyində arbitraj sazişi üzrə tərəf işin dövlət məhkəməsində baxılmasına etiraz etməyə bilər, lakin bu halda məhkəmə öz təşəbbüsü ilə arbitraj sazişinin mövcudluğuna istinad edərək iş üzrə icraatı xitam edə bilər.

Azərbaycan Respublikasının Mülki Prosessual Qanunvericiliyi məhkəməyə aid olan mübahisələrə təkcə ümumi məhkəmələrdə və ya iqtisad məhkəmələrində deyil, həm də münsiflər məhkəməsində (arbitraj məhkəməsində) baxılmasına yol verir. MPM-nin 259.0.5-ci maddəsinə əsasən, qanuna müvafiq olaraq tərəflər arasında həmin mübahisənin münsiflər məhkəməsində baxılması üçün müqavilə bağlanmışsa və işə mahiyyəti üzrə baxılmasından əvvəl mübahisənin məhkəmədə həll edilməsinə dair cavabdeh tərəfindən etiraz daxil olarsa, ərizə baxılmamış saxlanılır. Beləliklə, ərizənin baxılmamış saxlanması üçün iki şərt mövcud olmalıdır: 1) mübahisəyə münsiflər məhkəməsində baxılmasına dair tərəflər arasında qarşılıqlı razılıq (arbitraj sazişi) olmalıdır; 2) cavabdeh işə məhkəmədə mahiyyəti üzrə baxılmasından əvvəl mübahisənin məhkəmədə həll olunmasına etiraz etməlidir.

Göründüyü kimi, Azərbaycan Respublikasının Mülki Prosessual Qanunvericiliyinə uyğun olaraq, tərəflər arasında mübahisəyə arbitraj məhkəməsində baxılmasına dair arbitraj sazişinin mövcudluğu işə birmənalı olaraq məhkəmədə baxılmaması demək deyildir, belə ki, cavabdeh işə dövlət məhkəməsində baxılmasına etirazını bildirmədikdə, o zaman tərəflər arasında mübahisəyə arbitraj məhkəməsində baxılmasına dair sazişin olması işə məhkəmədə baxılmasına mane olmur.

"Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə müvafiq olaraq, arbitraj sazişinin predmeti olan məsələyə aid qarşısında iddia qaldırılmış məhkəmə hər hansı bir tərəfin mübahisənin mahiyyəti üzrə ilkin ərizəsinin təqdim edildiyi vaxtdan gec olmayaraq, bu barədə tərəflərin xahişi olarsa, arbitraj sazişi etibarsız deyilsə, qüvvəsini itirməmişdirsə və yaxud icrası mümkün olmayan hallar yoxdursa, tərəfləri arbitraja göndərməlidir.

Həmin maddənin 2-ci bəndinə əsasən iddia verildiyi halda məhkəmədə iddianın məhkəmə aidiyyəti məsələsi həll edilənədək arbitraj baxışı başlana və ya davam etdirilə bilər və arbitraj qərarı qəbul edilə bilər.

BKAM-ın Əsasnaməsinin 7-ci maddəsinə uyğun olaraq mübahisənin BKAM-a verilməsi barədə Sazişin olması və ya etibarlılığı məsələsini BKAM müstəqil surətdə həll edir. BKAM tərəflərin

Sazişinin mövcud olmadığını və ya etibarsız olduğunu müəyyən etdiyi hallarda mübahisə həll edilmək üçün aidiyyatı məhkəməyə verilə bilər.

Bir sıra ölkələrdə konkret mübahisələr üzrə tərəflər arasında arbitraj sazişinin mövcudluğu ilə bağlı **inkaredici fərziyyə** (prezumpsiya) geniş yayılmışdır. İnkaredici fərziyyəyə görə məhkəmənin iş üzrə icraatı xitam etməsi üçün tərəfin etiraz ərizəsi olmalıdır, çünki məhkəmə belə ərizə olmadan hüquqi müdafiə üçün məhkəməyə iddia ilə müraciət etmiş tərəfin tələbini geri qaytarmağa haqlı deyildir.[1]

İş üzrə icraatı xitiam edən və ya işin qəbul edilməsindən imtina edən məhkəmə yalnız tərəflər arasında bağlanan arbitraj sazişi ilə kifayətlənməyərək, həmçinin həmin işə məhkəmədə baxılmaması üçün tərəfin etirazını almalıdır, beləliklə, etiraz ərizəsi təkcə tərəflər arasında arbitraj sazişinin mövcudluğu faktı haqqında məlumat deyil, həm də qanunvericilikdə nəzərdə tutulmuş və hüquqi nəticələr doğuran prosessual hərəkətdir.

Arbitraj sazişinin mövcudluğunun inkaredici fərziyyəsinin sübut edilməsi vəzifəsi etiraz verən tərəfin üzərinə düşür, başqa sözlə, həmin tərəf yaranan mübahisə üzrə arbitraj sazişinin mövcudluğunu təsdiq edən sübutu məhkəməyə təqdim etməlidir. Ona görə də, hətta qanunda arbitraj sazişinin şifahi formada bağlanılmasının nəzərdə tutulduğu hallarda da arbitraj sazişinin yazılı formada bağlanması məqsədəuyğundur.

Etirazın hansı andan verilməsi məsələsi müxtəlif ölkələrin qanunvericiliyində eyni cür həll olunmur, bu ölkələrin əksəriyyətində etirazın məhkəmə baxışı başlananadək veril-məsi tələb olunur. İngiltərənin 1975-ci il tarixli Arbitraj haqqında Aktın 1-ci maddəsinə uyğun olaraq etiraz, digər prosessual hərəkətlərin edilməsindən əvvəl edilməlidir. Analoji norma Fransanın MPM-nin 168-ci maddəsində də nəzərdə tutulmuşdur.[2]

ABŞ-ın arbitraj haqqında federal qanununun 3-cü maddəsində etirazın verilməsi üçün müəyyən müddət nəzərdə tutulmamışdır, lakin təcrübədə etiraz bir qayda olaraq məhkəmə baxışı başlananadək verilməlidir.[3]

İsveçin MPM-nin 34-cü maddəsinə müvafiq olaraq etiraz prosesin əvvəlki mərhələsində – işə mahiyyəti üzrə baxılanadək verilməlidir.

---

[1] Минаков А.И. Арбитражные соглашения и практика рассмотрения внешнеэкономических споров. М., 1985, с.54

[2] Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., 1993, с.89.

[3] Пучинский В.К. Понятие и источники гражданского процессуального права Англии, США, Франции. М., 1988, с.63

1961-ci il tarixli Avropa Konvensiyasına uyğun olaraq dövlət məhkəməsinə etirazın verilməsi iddiaya baxılmamışdan əvvəl və ya baxılma anında həyata keçirilməlidir.

1958-ci il tarixli Nyu-York Konvensiyasının II maddəsinin 3-cü bəndində, 1961-ci il tarixli Avropa Konvensiyasının VI maddəsinin 2-ci bəndində nəzərdə tutulur ki, arbitraj sazişinin mövcudluğu əsası ilə dövlət məhkəməsində işə baxılmasına etiraz edilməsi zamanı məhkəmə bu sazişin mövcudluğunu və etibarsızlığını yoxlayır, bu halda etiraz yalnız arbitraj sazişinin tanınması səbəbi ilə təmin edilir və bu təminedilmə arbitraj sazişinin etibarlılığı prezumpsiyası ilə şərtləşir.

Nyu-York Konvensiyasının yuxarıda göstərilən maddəsinə müvafiq olaraq dövlət məhkəməsinə daxil olan iddia tələbi üzrə arbitraj sazişinin bağlanması müəyyən olunarsa tərəflərdən birinin xahişi üzrə məhkəmə həmin işi arbitraj məhkəməsinə göndərməyə borcludur.

Dövlət məhkəmələrinin arbitraj sazişinin etibarlılığını yoxlaması arbitrajın fəaliyyəti üzərində nəzarətin ünsürlərindən biridir və belə məhkəmə nəzarəti bir çox ölkələrin qa-nunvericiliyində nəzərdə tutulmuşdur. Məsələn, İsveçin arbitraj haqqında qanunvericiliyinə uyğun olaraq, arbitraj sazişi üzrə tərəflərdən biri öz arbitrini seçmədikdə və ya seçilmiş iki arbitr üçüncü arbitri müəyyən etmədikdə, həmin arbitrlərin seçilməsi hüququ İsveçin dairə məhkəməsinə keçir. Dairə məhkəməsi isə öz vəzifələrini layiqincə icra etməyən arbitri vəzifəsindən uzaşlaşdırmaqla yeni arbitr təyin edə bilər və ya arbitraj sazişini qanuna uyğun gəlmədiyinə görə ləğv edə bilər.[1]

Son vaxtlar arbitraj məhkəmələri üzərində dövlət nəzarətinin zəifləməsi tendensiyası davam edir və fikrimizcə, bu, müsbət prosesdir. Bu tendensiya iki istiqamətdə inkişaf edir: a) çoxtərəfli beynəlxalq konvensiyaların bağlanması və b) milli qanunvericiliyin normalarına müvafiq əlavə və düzəlişlər edilməsi ilə.

Məsələn, İngiltərədə 1979-cu ilə qədər mübahisəyə arbitrajda baxılan zaman hüquq normalarının tətbiqi ilə bağlı mübahisə yarandığı halda (Special case) dövlət məhkəməsi işə baxılmasını qadağan etməklə işi öz icraatına götürə bilərdi və bu təşəbbüs həm məhkəmə, həm də tərəflərin özləri tərəfindən verilə bilərdi. Əgər arbitraj işi dövlət məhkəməsinə verməyərək qətnamə çıxarardısa o halda dövlət məhkəməsi arbitrajın qətnaməsini etibarsız hesab edə bilərdi. Hazırda isə İngiltərədə "Arbitraj haqqında" 1979-cu il qanununa müvafiq olaraq Ali Məhkəmə hüquq normalarının düzgün tətbiq edilməməsi səbəbi ilə

---

[1] Лазарев С.Л. Международный арбитраж, М., 1991, с.153

arbitraj qətnaməsini ləğv etməyə səlahiyyətli deyildir və bu qanunla da İngiltərədə special case prosedurası ləğv edildi.[1]

Göründüyü kimi, milli qanunvericiliyin normalarına müvafiq dəyişikliklərin edilməsi və həmin normaların beynəlxalq hüququn tələblərinə uyğunlaşdırılması səmərəli və normal bir proses olmaqla beynəlxalq arbitrajın səlahiyyətlərinin genişləndirilməsində mühüm rol oynayır.

### *§ 4. Arbitrajın səlahiyyətinin müəyyən edilməsi Kompetens – Kompetens*

Arbitraj mübahisəni mahiyyəti üzrə həll etməmişdən əvvəl həmin mübahisənin həll edilməsi üçün özünün səlahiyyətli olub-olmaması məsələsini həll etməlidir. Adətən tərəflər arbitrajın səlahiyyəti ilə bağlı mübahisə etmədikdə bu prosedura təcrübədə elə də böyük çətinlik yaratmır.

Arbitrajın səlahiyyəti müxtəlif əsaslara görə şübhə altına alına bilər: bu, bir halda arbitraj sazişinin etibarsızlığı ilə, digər halda arbitrajın özünün statusu ilə şərtlənə bilər.

Məsələn, BKAM-ın Əsasnaməsinin 1-ci maddəsinə uyğun olaraq, BKAM-a müraciət edən subyektlərdən biri mütləq xarici şəxs (həm hüquqi, həm də fiziki (sahibkar)) olmalıdır. Təcrübədə Azərbaycan Respublikasının hüquqi şəxslərinin də BKAM-a müraciət etmə imkanları geniş müzakirə olunur. Lakin Azərbaycan Respublikasının hüquqi şəxsləri arasında yaranan mübahisə BKAM-a verilərsə və BKAM bu mübahisəyə mahiyyəti üzrə baxıb qətnamə çıxararsa, o halda Əsasnamənin 1-ci maddəsinə görə həmin mübahisəyə baxılması üzrə BKAM səlahiyyətsiz, çıxarılan qətnamə isə etibarsız hesab oluna bilər.

Praktikada bir çox hallarda arbitrajın səlahiyyətləri arbitraj sazişinin etibarsız hesab olunması səbəbi ilə mübahisələndirilir. Bu halda arbitraj sazişinin etibarsızlığını şərtləndirən müxtəlif səbəblər: tərəflərin fəaliyyət qabiliyyətsiz olması; sazişin qanunda göstərilən formaya uyğunsuzluğu; arbitrlərin arbitraj sazişində nəzərdə tutulan səlahiyyət həddlərini aşması və s. göstərilə bilər.

Bununla bağlı arbitraj təcrübəsində arbitrajın konkret işə baxmaqla bağlı səlahiyyətinin olması haqqında həmin arbitraj məhkəməsinin qətnamə çıxarması məsələsi mübahisələndirilmişdir.

---

[1] Крылова Н. Статус Суда в Великобритании / Вестник Верховного Суда СССР, 1991, № 5, с.17

Bir çox ölkələrdə uzun illərdir ki, bu mübahisələrə arbitraj məhkəməsində deyil, dövlət məhkəmələrində baxılır, başqa sözlə, arbitrajın səlahiyyəti haqqında mübahisə milli məhkəmədə həll edilir. Məsələn, ABŞ federal məhkəməsinin (həmçinin, bəzi ştatların da məhkəmələrinin) bir sıra qərarlarında arbitrajın səlahiyyəti ilə bağlı məsələ əks olunmuşdur. İngiltərədə arbitrlər indiyədək arbitraj sazişinin etibarlı olması barədə mübahisəyə baxmağa haqlı deyildir.[1]

Lakin son dövrlərdə beynəlxalq ticarət dövriyyəsinin inkişafı ilə əlaqədar olaraq bir sıra dövlətlərdə (Fransa, İsveçrə, Almaniya, Hollandiya və s.) bu sahədə arbitrajın səlahiyyətlərinin genişləndirilməsi prosesi vüsət almışdır. Məhkəmə-hüquq nəzəriyyəsində və praktikasında "kompetens-kompetens" doktrinası tətbiq edilməyə başlanmışdır və onun hərfi mənası "səlahiyyətdən doğan səlahiyyət" deməkdir.

O, qitə hüquq sistemində yaranmış və məzmunu ondan ibarətdir ki, arbitrlər dövlət məhkəməsinə müraciət etmədən öz səlahiyyətləri haqqında məsələni müstəqil özləri həll etməyə haqlıdırlar. Arbitrlərin səlahiyyət məsələsi üzrə qərarları onsuz da dövlət məhkəmələrində sonradan yoxlamaya məruz qalırlar, lakin "kompetens-kompetens" doktrinasının mahiyyəti arbitrlərə arbitrajın səlahiyyətini müstəqil həll etmək hüququnun verilməsi ilə şərtlənir.

"Kompetens-kompetens" doktrinası öz əksini bir sıra ölkələrin qanunvericiliyində tapmışdır. Məsələn, İsveçrənin arbitraj haqqında kantonlararası Konvensiyasına (1969-cu il, Konkordat) uyğun olaraq arbitraj sazişinin məzmunu və onun tətbiq edilmə sferası üzrə mübahisə yaranarsa, həmin mübahisəyə dövlət məhkəmələrində deyil, arbitraj məhkəməsində baxılmalıdır və bu halda arbitraj məhkəməsi öz səlahiyyətini müəyyən etməlidir.[2]

Ekvadorun ticarət "Arbitrajı haqqında" Qanununun 16-cı maddəsinə əsasən arbitrajın səlahiyyəti ilə bağlı məsələnin həlli müstəsna olaraq arbitrajın özünə aiddir.[3]

BKAM-ın Əsasnaməsinin 1-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq BKAM mübahisələrə, tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisələrin həlli üçün yazılı Saziş və ya müqavilə qeyd-şərti olduqda baxır. Həmin Əsasnamənin 2-ci maddəsinin 5-ci bəndinə əsasən əgər iddiaçı tərəfindən BKAM-a iddia ərizəsi, cavabdehdən isə

[1] Пучинский В.К. Понятие и источники гражданского процессуального права Англии, США, Франции. М., 1988, с.79
[2] Виноградова Е.А. Третейский суд. Законодательство. Практика. Комментарий, М., 1997. с.101
[3] Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., 1993. с.199.

iddia ərizəsinə rəy verilibsə, mübahisənin BKAM-a baxılmağa verilməsi haqqında razılaşma bağlanmış hesab olunur. Göründüyü kimi, bu halda da BKAM mübahisəyə baxmağa səlahiyyətlidir.

Əsasnamənin 7-ci maddəsinə görə isə mübahisənin BKAM-a verilməsi barədə **Sazişin olması və ya etibarlılığı məsələsini BKAM müstəqil surətdə həll edir**. BKAM tərəflərin Sazişinin **mövcud olmadığını və ya etibarsız olduğunu müəyyən etdiyi hallarda** mübahisə həll edilmək üçün **aidiyyatı məhkəməyə verilə bilər**.

Göründüyü kimi, BKAM-ın Əsasnaməsinin də sadalanan normaları "kompetens-kompetens" doktrinasının tələblərinə tam uyğundur. Bir sıra ölkələrin arbitraj reqlamentlərində "kompetens-kompetens" doktrinası müxtəlif cür həll edilir. Məsələn, Marsel Ticarət Palatasının arbitraj reqlamentində (Fransa), Almaniya arbitraj komissiyası yanında daimi arbitraj palatasının reqlamentində (Almaniya), Amerika şirniyyat ticarəti assosiasiyasının yanında arbitrajın reqlamentində (ABŞ) arbitrlərin səlahiyyəti ilə bağlı məsələyə baxmaq hüququ arbitrajın yanında təşkil edildiyi orqana (Ticarət palatası, assosiasiya və s.) məxsusdur.

Beynəlxalq Ticarət palatası yanında Arbitraj Məhkəməsinin (Paris), Bredford ticarət palatasının arbitrajının (Böyük Britaniya), Hamburq birjası yanında taxıl ticarəti üzrə assosia-siyasının arbitraj məhkəməsinin (Almaniya), Strasburq arbitraj palatasının (Fransa) reqlamentlərində isə arbitrajın səlahiyyəti ilə bağlı məsələnin tərəflərin seçdiyi arbitrlər (və ya təkbaşına arbitr) tərəfindən həll edilməsi nəzərdə tutulmuşdur.[1]

Göründüyü kimi, dünyanın əksər ölkələrində "kompetens-kompetens" doktrinası uğurla tətbiq olunur.

Arbitraj məhkəməsinin qətnaməsinin qəti olduğu və şikayət edilə bilmədiyi ölkələrdə arbitrajın səlahiyyəti ilə bağlı çıxarılan qərarlar da qətidir və ondan şikayət verilə bilməz. Əgər arbitrajın qətnaməsindən şikayət verilə bilərsə, o halda arbitrajın səlahiyyəti ilə bağlı çıxarılan qərardan da şikayət verilə bilər.

Bir sıra dövlətlərdə arbitraj qətnaməsi üzərində dövlət nəzarəti və ya digər nəzarət formaları vardır. Məsələn, Rusiya Sənaye-Ticarət Palatası yanında Dəniz Arbitraj Məhkəməsinin reqlamentində, Sürix Ticarət Palatası yanında Arbitraj Qaydalarında, Qalantereya mallarının ticarəti üzrə Kopenhagen Arbitraj Qaydalarında arbitrajın səlahiyyəti ilə

---

[1] Виноградова Е.А. Третейский суд. Законодательство. Практика. Комментарий, М., 1997. с.37

bağlı qətnamədən dövlət məhkəməsinə şikayət verilməsi qaydası nəzərdə tutulmuşdur.[1]

Bir sıra ölkələrin arbitraj reqlamentlərində isə arbitraj qətnaməsindən digər orqanlara şikayət verilməsi qaydası nəzərdə tutulmuşdur. Məsələn, Pambıq üzrə Bremen birjasının Arbitraj Məhkəməsinin (Almaniya) qətnaməsindən apelyasiya komitəsinə, Dəri xarici ticarəti üzrə Genuya Arbitraj Palatasının qətnaməsindən (İtaliya) xüsusi Apelyasiya Komitəsinə, London arbitraj komissiyasının, Marsel Ticarət Palatasının arbitrajının qətnamələrindən xüsusi olaraq yaradılmış apelyasiya komitələrinə şikayət vermək olar.[2]

BKAM-ın Əsasnaməsinin 6-cı və 52-ci maddələrinə uyğun olaraq yalnız arbitraj sazişində nəzərdə tutulduğu hallarda arbitraj qətnaməsindən BKAM-ın Rəyasət Heyətinə şikayət vermək olar.

"Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununun 34-cü maddəsində arbitraj məhkəməsinin qərarından Azərbaycan Respublikasının İqtisad Məhkəməsinə şikayət verilməsi qaydası və şərtləri nəzərdə tutulmuşdur. Başqa sözlə, Azərbaycan Respublikasının arbitraj qanunvericiliyi arbitraj məhkəmələrinin qərarlarından həm dövlət məhkəməsinə, həm də xüsusi orqana (bu halda BKAM-ın Rəyasət Heyətinə) şikayət verilməsi imkanını nəzərdə tutmuşdur.

"Kompetens-kompetens" doktrinası, həmçinin, 1961-ci il Avropa Konvensiyasının V maddəsinin 3-cü bəndində, BMT-nin 1966-cı il tarixli Avropa İqtisadi Komissiyasının Arbitraj reqlamentinin 18-ci maddəsində, 1965-ci il tarixli Vaşinqton Konvensiyasının IV maddəsində öz əksini tapmışdır.

---

[1] Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практический комментарий. М., 1997. с.103

[2] Лебедев С.Н. Международный Коммерческий Арбитраж: Компетенция арбитров и соглашение сторон. М., 1988, с.58.

# VIII fəsil
# Arbitraj prosesində sübutlar

### *§ 1. Arbitraj prosesində sübutlar və onların təqdim edilməsi qaydası*

Arbitraj prosesinin gedişində mübahisənin düzgün həll edilməsi üçün arbitraj məhkəməsi konkret mübahisə üzrə tərəflər arasında mövcud olan qarşılıqlı hüquq münasibətlərini aşkar etməli, iddiaçının iddia tələbinin haqlı olub-olmadığını müəyyən etməli, hüquq normalarının həqiqətən də pozulub – pozulmadığını araşdırmalıdır. Başqa sözlə, arbitraj məhkəməsi tərəflər arasında mövcud olan həqiqi hüquq münasibətlərini müəyyən etməlidir.

Məlum olduğu kimi hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və xitam edilməsi maddi hüquq normalarında nəzərdə tutulan müəyyən faktların (hüquqi faktların) mövcudluğu ilə şərtlənir. Ona görə də arbitraj məhkəməsi prosesdə **faktlarla** və **hüquqla** bağlı məsələni həll etməlidir.

Hüquqla bağlı məsələ müvafiq hüquq münasibətlərini tənzim edən normaların təhlili və təfsiri əsasında həll edilir. Faktlarla bağlı məsələ isə təsdiq edilmiş sübutlar əsasında müzakirə və həll edilir.

Faktlarla bağlı məsələ arbitraj prosesində tərəflərin çəkişməsi əsasında, hər bir tərəfin öz əsaslandığı halları sübut etməsi prinsipinə uyğun olaraq həll edilir və sübutetmə prosesinin əsası sayılır.

Arbitraj məhkəməsi iş üzrə həqiqəti aşkara çıxarmaq məqsədilə tərəflər arasında mövcud olan hüquq münasibətlərini özündə əks etdirən müxtəlif sənədləri araşdırır, tərəflərin nümayəndələrini, şahidləri dinləyir, maddi sübutları tədqiq edir, ekspertiza təyin edir və sair zəruri prosessual hərəkətləri yerinə yetirir.

**Arbitraj prosesində sübutlar** dedikdə, tərəflərin tələb və etirazlarını əsaslandıran halların və işi düzgün həll etmək üçün əhəmiyyəti olan başqa halların mövcud olduğunu və ya olmadığını müəyyən edərkən arbitraj məhkəməsinin əldə etdiyi **faktiki məlumatlar** anlaşılmalıdır.

Arbitraj prosesi üçün xüsusi olaraq sübutetmə nəzəriyyəsi hazırlanmamışdır, lakin ümumi hüquq nəzəriyyəçiləri tərəfindən işlənib hazırlanan cinayət, mülki iqtisadi mübahisələrə baxılması zamanı tətbiq edilən əsas müddəalar arbitraj prosesi sferasında da istifadə olunur.

Arbitraj prosesində də mülki prosesdə olduğu kimi hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Bu müddəa YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 24-cü maddəsində, Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 24-cü maddəsində və əksər arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur.

Milli arbitraj qanunvericiliyində və arbitraj Reqlamentlərində sübutların anlayışı verilməmişdir, lakin sübutların növləri demək olar ki, adı çəkilən aktların hamısında nəzərdə tutulmuşdur.

Arbitraj prosesində sübutların aşağıdakı növləri vardır:

a) sənədlər və digər yazılı sübutlar;

b) tərəflərin və üçüncü şəxslərin izahatları;

c) şahid ifadələri;

d) ekspert rəyi;

e) maddi sübutlar.

Hüquq ədəbiyyatında sübutetmənin əsas məsələləri ilə bağlı fikir vahidliyi yoxdur. Məsələn, sübutetmənin anlayışı ilə bağlı iki nəzəriyyə vardır. Birinci nəzəriyyəyə görə sübutetmə – işin faktiki hallarının qavranılması vasitəsidir. K.S. Yudelson belə hesab edir ki, sübutetmə – tərəflər arasında olan mübahisənin həll edilməsi üçün zəruri olan faktların mövcud olmasının və ya olmamasının müəyyən olunması ilə bağlı proses subyektlərinin fəaliyyətidir.[1]

İkinci nəzəriyyənin tərəfdarları isə hesab edirlər ki, sübutetmə dedikdə, əldə edilən faktların həqiqiliyinə məhkəməni inandırmaq sahəsində proses subyektlərinin fəaliyyətidir. S.V. Kurılyevə görə «sübutetmə qavrama deyil, sübutetmə – qavrama üçündür».[2]

Sübutetmə həmçinin sübutların təqdim edilməsi, toplanması və araşdırılması fəaliyyətini də özündə ehtiva edir.

İşi düzgün həll etmək üçün arbitraj məhkəməsi mübahisəli hüquq münasibətlərini yaradan, dəyişdirən və xitam edən bütün hüquqi faktları müəyyən etməlidir.

Hüquqi faktlar sübutetmə yolu ilə müəyyən olunur və **sübutetmənin predmetini** təşkil edir. Sübutetmə predmetinə hər şeydən əvvəl iddia tələbini əsaslandırmaq üçün iddiaçının söykəndiyi hüquqi faktlar və həmçinin iddiaya qarşı etiraz edən cavabdehin əsaslandığı hüquqi faktlar aid edilir. Sübutetmə predmetinə daxil olan bütün hüquqi əhəmiyyət kəsb edən faktlar arbitraj işi üzrə **faktiki tərkib** təşkil edir. İş üzrə faktiki tərkib iddianın əsası, cavabdehin etirazı və konkret mübahisə üzrə tətbiq edilən maddi hüquq norması əsasında formalaşır.

Mülki prosesdə məhkəmə sübut edilməli olan faktların dairəsini müəyyən etdikdən sonra hansı sübutun işə aid olması və hansı halın hansı sübutlarla təsdiq və ya inkar edilməsi məsələsini həll etməlidir və bununla bağlı qanunvericilikdə çox ciddi qayda müəyyən edilmişdir.

---

[1] К.С. Юдельсон. Проблема доказывание в гражданском процессе. М. 1951, с.33.

[2] С. В. Курылев. Доказывание и его место в процессе познания. Иркутск, 1995., с. 65.

MPM-nin 8-ci maddəsinə əsasən məhkəmə işin gedişində təqdim olunmuş o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır (Sübutların aidliyi).

MPM-nin 81-ci maddəsinə uyğun olaraq qanuna və ya digər normativ – hüquqi aktlara əsasən müəyyən sübutetmə vasitələri ilə təsdiq edilməli olan işin halları başqa sübutlarla təsdiq oluna bilməz (sübutların mümkünlüyü)

Qeyd etmək lazımdır ki, mülki prosesdə mövcud olan sübutların aidliyi və mümkünlüyü qaydası arbitraj prosesi üçün məcburi deyildir, başqa sözlə, arbitrlər sübutların aidliyi və mümkünlüyü qaydasına hakimlər kimi prosessual cəhətdən bağlı deyildir. Məsələn, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 22-ci maddəsinin 1-ci bəndinə əsasən arbitraj tərkibinin tərəflərdən birinin işin faktiki halları üzrə təqdim etdiyi, işin hər hansı bir materiallarına və ya ekspertlərin rəylərinə aid olan və əhəmiyyət kəsb edən sübutetmənin ciddi qaydalarının (və ya hər hansı digər qaydaların) tətbiq edilib – edilməməsinin qərara alınması, tərəflərin belə materialları bir – biri ilə mübadilə etməsi və onların arbitraj tərkibinə təqdim edilməsi müddətinin qaydası və formasının müəyyən edilməsi hüququ vardır.

Stokholm Ticarət Arbitraj İnstitutunun Reqlamentinin 26-cı maddəsinə müvafiq olaraq arbitraj tərkibi təqdim olunmuş sübutların işə aid olmadığını, əhəmiyyətsizliyini, yaxud sübutun digər daha əlverişli və ya qənaətli vasitələrlə əldə edilə bilməsini mümkün hesab edərsə, ona təqdim olunmuş sübutları qəbul etməyə bilər.

Arbitraj prosesdə sübutların aidliyi və mümkünlüyü qaydasının məcburi olmaması o demək deyildir ki, arbitraj tərkibi bu prosessual qaydadan istifadə etməlidir, əksinə sübutların aidliyi və mümkünlüyü ilə bağlı arbitrlərə verilən azadlıq onlara bu sferada daha geniş manevrlər etmək imkanı qazandırır.

Hətta arbitraj Reqlamentində bu barədə birbaşa göstəriş olmadığı hallarda da arbitraj tərkibi işə aid olan sübutları seçməli və onun hansı üsullarla təsdiq və ya inkar edilməsi hallarını dəqiq araşdırmalıdır.

Arbitraj prosesində sübutlar müxtəlif üsullarla əldə edilir və təqdim edilir, sübutların təqdim edilməsi üsulları bir çox hallarda arbitraj prosesinin keçirildiyi ölkənin hüquq sisteminin çərçivəsi ilə müəyyən edilir. Məsələn, Kontitental (qitə) hüquq sisteminin mövcud olduğu ölkələrdə sübutların təqdim edilməsində əsas rol arbitrə məxsusdur, o, şahidləri dindirir, sənədləri tələb edir, ekspertizanın aparılmasını təyin edir və s. İngilis – Sakson hüquq sistemli ölkələrdə

isə sübutların təqdim edilməsində fəal rolu tərəflər oynayırlar, arbitr isə yalnız sübutları araşdırır və sonra hansı tərəfin haqlı olduğu qənaətinə gəlir.

Kontinental və ingilis – sakson hüquq sistemləri arasında olan fərq sənədlərin və digər yazılı sübutların təqdim olunması hallarında daha çox üzə çıxır. İngilis – sakson hüquq sistemində məhkəmələrdə və arbitraj proseslərində tətbiq edilən və «discovery» (açılma) adlanan prosedura mövcuddur. «Diskoveri» prosesində tərəflər məhkəməyə (arbitraja) qədər məzmunundan asılı olmayaraq (xeyrinə və ya ziyanına, gizli və ya aşkar) onlarda olan bütün sənədlər barədə bir - birinə məlumat verməyə borcludurlar, lakin bu prosedura çox vaxt aparır və çox baha başa gəlir.

Kontinental hüquq sistemli ölkələrdə diskaveri proseduru yoxdur və tərəflər onlarda olan sübutlar barədə biri-birinə məlumat verməyə borclu deyildir, bütün təqdim edilən sənədlər arbitrdə toplanır və həmin sənədlərin tədqiq edilməsi ardıcıllığını arbitr həll edir. YUNSİTRAL-ın Nümunəvi Qanunu və Arbitraj Reqlamenti, həmçinin əsas arbitraj institutlarının Reqlamentləri sübutların təqdim edilməsi qaydasını kontinental hüquq sisteminə uyğun həll edirlər.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 27-ci maddəsinə uyğun olaraq arbitraj məhkəməsi və ya tərəf arbitraj məhkəməsinin razılığı ilə **AR Ali Məhkəməsinə** sübutların əldə edilməsi üçün köməklik barəsində müraciət edə bilər. Məhkəmə sübutların əldə edilməsi qaydalarına uyğun olaraq **səlahiyyətləri daxilində** bu müraciəti **yerinə yetirə bilər**. 27-ci maddənin mətnindən göründüyü kimi sübutların əldə edilməsi ilə bağlı müraciəti yerinə yetirmək məhkəmənin vəzifəsi deyil, hüququdur, başqa sözlə, məhkəmə bu müraciəti yerinə yetirməyə də bilər. Məhkəmənin sübutların əldə edilməsi ilə bağlı müraciəti hansı hallarda yerinə yetirməli və ya yetirməməli olduğu qanunda nəzərdə tutulmadığından bu maddənin təcrübədə icra edilməsinin müəyyən problemlər doğuracağı gümanediləndir.

## § 2. Yazılı sübutlar

Yazılı sübutlar arbitraj prosesində ən çox istifadə edilən sübut növlərindən biridir, arbitraj prosesində yazılı sübutların əhəmiyyəti arbitrajda həll edilən mübahisələrin xarakteri ilə şərtləşir.

AR-nın MPM-nin 89-cu maddəsinə əsasən **yazılı sübutlar** – iş üçün əhəmiyyətli hallar barədə məlumat verən notariat qaydasında

təsdiq olunmuş sənədlər, aktlar, müqavilələr, arayışlar, işgüzar yazışmalar və sair sənəd və materiallardır. Faks, elektron və ya digər rabitə vasitəsi ilə, yaxud sair üsulla əldə edilmiş materiallar məhkəmə tərəfindən o şərtlə yazılı sübut kimi qəbul edilə bilər ki, həmin sənədlərin həqiqiliyini müəyyən etmək mümkün olsun. Göründüyü kimi milli qanunvericilik yazılı sübutetmə vasitəsinin təqribi siyahısını verir və onun dairəsini məhdudlaşdırmır. Yazılı sübutun özü ifadə olunduğu əşya (Məsələn, kağız və ya digər material) əsasında müəyyən edilir, belə ki, əşya üzərinə həkk olunmuş yazının özünün yazılı sübut kimi əhəmiyyəti vardır, bu halda əşyanın özü sübutetmə vasitəsi kimi həmin iş üzrə heç bir əhəmiyyət kəsb etmir.

Arbitraj prosesində yazılı sübutlar qismində ən çox rəsmi sənədlərdən istifadə edilir, sənədlərin rəsmi xarakter daşıması həmin sənədlərin öz səlahiyyətini yerinə yetirən dövlət orqanları, müəssisələr, təşkilatlar, vəzifəli şəxslər tərəfindən tərtib edilməsi ilə müəyyən olunur. Rəsmi sənədlər üçün onların tərtib edilmə və verilməsinin, nəşr edilməsinin, müəyyən rekvizitləri özündə əks etdirməsinin xüsusi qaydasının mövcudluğu səciyyəvidir və onu digər sənədlərdən fərqləndirir.

Sənədlər özünün subyektiv tərkibinə, məzmununa, formasına, hüquqi istiqamətinə və əhəmiyyətinə görə müxtəlif ola bilər. Hüquq ədəbiyyatında rəsmi sənədlər bir neçə qrupa bölünməklə təsnif edilir.

**Birinci qrupa** hakimiyyət xarakteri daşıyan aktlar aid edilir, bu aktlar bir nəfər və ya kollegial orqan tərəfindən qəbul edilə bilər. Bu aktlar əsasən sərəncam xarakterli olmaqla hüquqi əhəmiyyətli nəticələr doğurur. Bu aktlar sırasına dövlət hakimiyyət və idarəçilik orqanlarının aktları; müəssisə, təşkilat və digər orqanların aktları; vəzifəli şəxslərin aktları; hüquqi şəxslərin və sahibkarların yazılı formada bağladıqları əqdlər aid edilə bilər. Bu aktlar müxtəlif cür: qərar, qətnamə, sərəncam, əmr, müqavilə, saziş və s. adlandırıla bilər.

Arbitraj prosesində işə baxılması zamanı həmin aktlardan sübut kimi istifadə edilməsi zərurəti meydana çıxa bilər və arbitrlər bu imkandan yararlanmağa haqlıdırlar.

**İkinci qrupa** hüquqi əhəmiyyət kəsb edən faktların mövcudluğunu təsdiq və ya inkar edən sənədlər aid edilir. Bu qrupa müxtəlif növ aktlar, protokollar, aparılan yoxlama zamanı səlahiyyətli orqanların tərtib etdikləri rəylər, müayinə protokolları və s. aid edilə bilər.

**Üçüncü qrupa** hüquqi əhəmiyyəti olan faktların olub-olmamasını təsdiq edən sənədlər aiddir, bu sənədlər informasiya

xarakteri daşımaqla müxtəlifdir. Bu sıraya arayışlar ödəmə tapşırıqları, qəbzlər, bildirişlər, qaimələr və s. aid edilə bilər. Sadalanan sənədlərin hamısı işin mahiyyət üzrə həll edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Arbitraj prosesində son dövrlərdə kompyuter texnologiyalarının, internet şəbəkələrinin sürətli inkişafı ilə əlaqədar olaraq elektron sənədlərin dövriyyəsi məhsullarından sübut əhəmiyyətli vasitələr kimi istifadə edilməsi zərurətə çevrilmişdir. Yazılı sübut kimi EHM-nın məhsullarından istifadə imkanı həm milli qanunvericilikdə, həm də arbitraj qanunveriliyində nəzərdə tutulmuşdur.

Elektron-hesablama texnologiyasından istifadə edilməklə hazırlanmış sənədlərin iki aspekti vardır: birincisi, EHM-dan istifadə edilməklə sənədlərin hazırlanması və ötürülməsi; ikincisi, elektron imza sistemindən istifadə edilməklə bu sənədlərin fərdiləşdirilməsi (və ya «müəllifləşdirilməsi»).[1]

Elektron sənəd dövriyyəsindən ən çox müqavilələrin bağlanması və icrası mərhələsində istifadə edilir.

AR MM-nin 406.3-cü maddəsinə uyğun olaraq yazılı formada müqavilə tərəflərin imzaladığı bir sənədin tərtibi yolu ilə, habelə poçt, teleqraf, teletayp, telefon, elektron rabitəsi və ya sənədin müqavilə üzrə tərəfdən gəldiyini dürüst müəyyənləşdirməyə imkan verən digər rabitə vasitəsilə sənədlər mübadiləsi yolu ilə bağlana bilər.

AR MM-nin 331.3-cü maddəsinə əsasən əqdlərin bağlanması zamanı mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın ***faksimilesindən*** elektron-rəqəmli imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə edilməsinə tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda və qaydada yol verilir.

EHM-nın qeydləri öz xarakterinə görə **sənəd** kimi tanınır, çünki birincisi, o, hüquqi qüvvəyə malikdir (zəruri rekvizitlərin olması, təşkilatın adının, sənədi göndərənin məlumatlarının əks etdirilməsi, təşkilatın olduğu yerin, sənədin hazırlanması vaxtının, sənədi təsdiq edən şəxsin kimliyinin məlum olması və s.), ikincisi isə oxunaqlı olmalıdır. Belə ki, **sənəd** hamının başa düşdüyü məzmunda olmaqla gizli şifrələrdən uzaq olmalıdır və bilavasitə sübut mənbəli informasiyanı özündə əks etdirməlidir.[2]

Elektron – şifrəli imza özündə müəyyən şifrə və simvolları əks etdirməklə öz texniki xüsusiyyətinə görə oxunaqlı olmaya bilər, lakin

---

[1] В.С. Анохин, Арбитражное процессуальное право России. М. 1999, с.205

[2] Правовое регулирование електронного документооборота в банковской практике: Учебное пособие/Под ред. Е.А. Суханова, М. 1994, с.111.

həmin imzanın müəllifliyi və ya həqiqiliyi ilə bağlı mübahisə yarandığı halda arbitraj məhkəməsi xətti və ya texniki ekspertizanın aparılması barədə qərar qəbul edə bilər.

Qeyd etmək lazımdır ki, arbitraj məhkəməsində yazılı sübutlar şahid ifadələrindən və ya tərəflərin izahatlarından daha üstün sayılır, çünki bir sıra hallarda arbitraj tərkibi tərəflər etiraz etmədikdə mübahisəyə yalnız yazılı sənədlər əsasında baxılması barədə qərar qəbul edə bilər. Təpəflərdən biri mübahisəyə yalnız yazılı sübutlar əsasında baxılmasına etiraz etdiyi halda arbitraj tərkibi işə şifahi qaydada baxılması haqqında qərar qəbul edə bilər.

Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 24-cü maddəsinə əsasən tərəflərin hər hansı digər razılaşmasına riayət etmək şərti ilə arbitraj məhkəməsi sübutların təqdim edilməsi üçün şifahi işəbaxma və ya digər şifahi müzakirələr keçirib-keçirməmək, yaxud yalnız sənədlər və digər materiallar əsasında araşdırma aparıb-aparmamaq haqqında qərar qəbul edir. Lakin tərəflər şifahi işəbaxmanın keçirilməsi haqqında şərtləşdikləri haldan başqa arbitraj məhkəməsi tərəflərin hər hansı biri xahiş edərsə, araşdırmanın lazımi mərhələsində şifahi işəbaxma keçirməlidir.

Qanunun 24-cü maddəsində müəyyən edilən bu qayda dünyanın əksər Arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur.

Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinin 28-ci paraqrafına uyğun olaraq tərəflərin sazişinin şərtlərinə riayət etməklə, Arbitraj tərkibi iş üzrə şifahi dinləmələrin keçirilməsi və ya araşdırmanın yalnız sənədlər və digər materiallar əsasında aparılması barədə qərar qəbul edir. Bu hallardan başqa, tərəflərin şifahi dinləmənin keçirilməsi barədə razılığı varsa, Arbitraj tərkibi belə dinləməni tərəflərdən birinin xahişilə araşdırmanın müvafiq mərhələsində apara bilər.

Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 25-ci maddəsinə əsasən şifahi dinləmə tərəflərdən birinin xahişi ilə, eləcə də arbitraj tərkibi şifahi dinləməni məqsədyönlü hesab etdikdə aparılır. Əgər dinləmə təyin edilmişsə, arbitraj tərkibi, tərəflərin arzusunu nəzərə alaraq dinləmənin vaxtını, onun davamlığını və sübutların təqdim edilməsi də daxil olmaqla, aparılması qaydasını təyin edir.

Araşdırmanın gedişində arbitr dəyişdirildikdə, yenidən formalaşdırılan arbitraj tərkibi, əvvəlki dinləmənin təkrar olunması, eləcə də lazım gələrsə, dinləmənin qismən, yaxud tamamilə təzələnməsi məsələsini həll edir.

Şifahi işəbaxmanın keçirilməsi ilə bağlı müddəa BKAM-ın Əsasnaməsinin 34-cü maddəsində də təsbit olunmuşdur.

Arbitraj Reqlamentlərində bir qayda olaraq yazılı sübutların təqdim edilməsi məsələsi dəqiq olaraq tənzim edilməmişdir. Məsələn, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 18-ci maddəsinə müvafiq olaraq iddiaçı, öz iddia ərizəsinə işə aid hesab etdiyi bütün sənədləri əlavə edə və ya gələcəkdə təqdim edəcəyi sənədlərə, yaxud digər sübutlara istinad edə bilər.

BKAM-ın Əsasnaməsinin 41-ci maddəsində də analoji norma nəzərdə tutulmuşdur. Həmin maddənin 5-ci bəndinə əsasən tərəflərin lazımi sübutları təqdim etməməsi Arbitraj Kollegiyasına və ya işə təkbaşına baxan arbitrin araşdırmanın davam etdirilməsinə və sübutlara əsasən qərar çıxarılmasına mane olmur.

Arbitraj prosesində iş üzrə zəruri olan sübutlar işdə iştirak etməyən üçüncü şəxslərin sərəncamında olduğu hallara da rast gəlinir, bu halda məlum olduğu kimi arbitraj məhkəməsi üçüncü şəxslərin üzərinə həmin sübutların təqdim edilməsi vəzifəsini qoya bilməz, çünki arbitraj məhkəməsinin səlahiyyəti mübahisə tərəflərinin dairəsi ilə məhdudlaşır.

Bir sıra ölkələrin arbitraj üzrə qanunvericiliyində belə hallarda sübutların məhkəmə vasitəsilə əldə edilməsi nəzərdə tutulmuşdur. Məsələn, Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 27-ci maddəsinə əsasən Arbitraj məhkəməsi və ya tərəf arbitraj məhkəməsinin razılığı ilə AR-nın Ali Məhkəməsinə sübutların əldə edilməsi üçün köməklik barəsində müraciət edə bilər. Ali Məhkəmə sübutların əldə edilməsi qaydalarına uyğun olaraq səlahiyyətləri daxilində bu müraciəti yerinə yetirə bilər. Analoji norma YUNSİTRAL-ın Nümunəvi Qanununun 27-ci maddəsində və bir çox arbitraj institutlarının Reqlamentlərində də nəzərdə tutulmuşdur. Sənədləri arbitraj prosesinin müxtəlif mərhələlərində təqdim edilə bilər. Sənədlərin hansı formada təqdim edilməsi bir sıra arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur. Məsələn, BKAM-ın Əsasnaməsinin 41-ci maddəsinə uyğun olaraq tərəflər yazılı sübutların əslini (orijinal) və ya əslinin təsdiq edilmiş surətlərini təqdim edə bilər. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin, işin araşdırılmasında zərurət olduqda, bu sübutların müvafiq dildə tərcüməsini tələb etmək hüququ vardır.

Yazılı sübutların yoxlanılması Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr tərəfindən müəyyən olunmuş üsulla həyata keçirilir. Arbitraj Kollegiyası yoxlama hərəkətlərinin icrasını arbitrlərdən birinə həvalə edə bilər.

Bu norma London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 17-ci, Amerika Arbitraj Assosiasiyasının Reqlamentinin 14-cü, RF-nın Xarici Ticarət Arbitraj Məhkəməsinin Reqlamentinin 34-cü paraqrafında da nəzərdə tutulmuşdur.

## *§ 3. Tərəflərin izahatları*

Arbitraj prosesində tərəflərin izahatları şəxsi sübutların növlərindən biridir. Sübutetmə vasitəsi kimi tərəflərin izahatlarından hər biri arbitraj işində istifadə edilir, çünki tərəflərin izahatları iddiaçının və cavabdehin tələb və etirazlarının əsaslandırıldığı ilkin və əsas sübutetmə materialıdır.

Tərəflər sübutetmə prosesində **ikili vəziyyətdə** iştirak edirlər: bir tərəfdən onlar mübahisənin yarandığı maddi – hüquq münasibətlərinin subyektləri kimi işin nəticəsində maraqlıdırlar, digər tərəfdən isə onlar sübut mənbəyidirlər.

Arbitraj prosesində tərəflərin izahatları şifahi və yazılı formada verilə bilər. Tərəflərin izahatları yazılı formada iddia ərizəsində və iddia tələbinə etirazda əks olunur, şifahi formada isə tərəflər prosesin gedişində izahat verirlər. Arbitraj məhkəməsinin təklifi ilə tərəflər öz izahatlarını prosesin gedişində də yazılı formada verə bilərlər.

İzahat vermək - tərəfin hüququdur, ona görə də arbitraj məhkəməsi tərəfi izahat verməyə məcbur edə bilməz, lakin tərəflərin izahatları iş üzrə bir sıra məsələləri aydınlaşdırmağa kömək edə bilər. Ona görə də iş üzrə izahat verməkdə tərəflərin özləri də maraqlı olmalıdırlar. İş üzrə əhəmiyyət kəsb edən hallar tərəflərin izahatları vasitəsilə müəyyən edilə bilər.

Qeyd etmək lazımdır ki, kontinental hüquq sisteminə məhsub olan ölkələrdə tərəflərin izahatları sübutların müstəqil növü kimi tanınır, ingilis – sakson hüquq sistemli ölkələrdə isə tərəflərin üzrə şahid qismində izahat verirlər.

Hüquqşünasların Beynəlxalq Assosiasiyasının qəbul etdiyi Sübutlar haqqında Qaydaların 5-ci maddəsinə əsasən hər bir tərəf iş üzrə özünün şəxsi münasibətini ifadə etmək üçün dinlənilə bilər. Beynəlxalq Kommersiya Arbitrajlarında tərəf qismində həmçinin tərəflərin nümayəndələri, hüquqi şəxslərin vəzifəli şəxsləri, əməkdaşları da

dinlənilə bilər. Təcrübədə hətta hüquqi şəxslərin sıravi əməkdaşlarının şahid qismində dindirilməsi hallarına da rast gəlinir.[1]

Arbitraj prosesində tərəflərin iş üçün əhəmiyyətli olan və onlara məlum olan faktlar barədə izahatları iş üzrə toplanmış digər sübutlarla yanaşı yoxlanılmalı və qiymətləndirilməlidir.

## *§ 4. Şahid ifadələri*

Arbitraj prosesində şahid qismində işin düzgün həll edilməsi üçün əhəmiyyəti olan məlumatları və halları bilən hər bir şəxs cəlb edilə bilər. Şahid – faktlar haqqında məlumat mənbəyidir. Ümumi qaydaya görə şahid işdə hüquqi marağı olmayan şəxsdir, lakin bir sıra hallarda qeyri-hüquqi maraq ünsürü mövcud ola bilər. Məsələn, hüquqi şəxsin vəzifəli şəxsi və yaxud əməkdaşları şahid qismində işə cəlb edildikdə onların maraq dairəsi arbitraj məhkəməsi tərəfindən müəyyən edilməli və onların ifadələrinə tənqidi yanaşılmalıdır. Qeyd etmək lazımdır ki, sübutetmə vasitəsi kimi şahid ifadələrindən arbitraj prosesində çox az hallarda istifadə olunur.

Əksər arbitraj Reqlamentlərində şahidlərin çağırılması və ifadələrinin alınması ilə bağlı xüsusi müddəalar yoxdur, bu sırada London Arbitraj Məhkəməsinin və İnvestisiya mübahisələrini həlli üzrə Beynəlxalq Mərkəzin Reqlamenti istisnalıq təşkil edir. Məsələn, London Arbitraj Məhkəməsinin Reqlamentinin 20-ci maddəsinə əsasən hər bir dinləmədən əvvəl arbitraj tərkibi tərəflərin hər birindən dəvət etmək istədiyi şahidlərin (əks sübutlar təqdim edən şahidlər də daxil olmaqla) şəxsiyyəti, habelə onların təsdiq edə biləcəyi hallar, onların məzmunu və arbitraj araşdırmasına aid olması barədə bildiriş tələb edə bilər.

Arbitraj tərkibi habelə tərəflərin materialları bir-birinə və arbitraj tərkibinə verilməsi müddətini, üsulunu və formasını müəyyən edə bilər; o, öz mülahizəsinə əsasən şahidlərin (onların işin faktiki hallarını təsdiq etməsindən və ya şahid-ekspert olmasından asılı olmayaraq) çıxışına icazə verə və qadağan edə, yaxud məhdudaşdırıla bilər.

Arbitraj tərkibi tərəfindən digər hal müəyyənləşdirilmədikdə, tərəflər şahidlərin ifadələrini yazılı formada və ya müvafiq qaydada imzalanmış ərizə şəklində, yaxud andlı ifadəsi (affidetiv) kimi təqdim edə bilərlər.

---

[1] М.Т. Розенберг. Практика Международного Коммерческого арбитражного суда. М. 1997, с.27.

Arbitraj prosesində tərəflərdən hər biri digər tərəfin ifadəsinə əsaslandığı şahidin şifahi dindirilməsi üçün arbitraj tərkibinin qarşısında ifadə verməsi barədə xahiş edə bilər. Əgər arbitraj tərkibi digər tərəfə şahidin gətirilməsi barədə tapşırıq verərsə və şahid üzürlü səbəb olmadan şifahi dinləmələrə gəlməzsə, arbitraj tərkibi şəhidin yazılı ifadələrinə özünün zəruri hesab etdiyi kimi qiymət verə (və ya onları tamamilə rədd edə) bilər.

Arbitraj tərkibi qarşısında dinləmələrdə şifahi ifadə verən hər bir şahidi tərəflərdən hər biri arbitraj tərkibinin nəzarəti altında dindirə bilər. Arbitraj tərkibi prosesin istənilən mərhələsində şahidə suallar verə bilər.

Tətbiq olunan istənilən hüququn imperativ normalarına riayət etmək şərti ilə tərəflərdən hər birinin və ya onların nümayəndələrinin hər hansı bir şahidlə, yaxud şahid ola biləcək şəxslə söhbət etmək və ya onun şahid ifadələrini yazılı şəkildə almaq, yaxud hər hansı bir dindirmədə şahid qismində təqdim etmək hüququ vardır.

Arbitraj tərkibi qarşısında işin faktiki halları və ya ekspertiza məsələləri üzrə şahid qismində ifadə vermək istəyən hər bir fiziki şəxs, LBAM-ın Reqlamentinə əsasən arbitraj araşdırmasının tərəfidirsə, yaxud hər hansı bir tərəfin vəzifəli şəxsi olubsa və ya hazırda vəzifəli şəxsi, aksioneri və ya qulluqçusu olmasından asılı olmayaraq şahid qismində tanına bilər.

Tərəflər arbitraj sazişində şahidlərin çağırılması və dindirilməsi qaydasını müəyyən edə bilərlər, belə saziş olmadıqda isə qaydanı arbitraj tərkibi müəyyən edə bilər. Şahidlərin dindirlməsi qaydasında da kontinental və ingilis-sakson hüquq sistemlərində müəyyən fərqlər mövcuddur. İngilis-sakson hüquq sisteminə mənsub ölkələrdə şahidlər müvafiq tərəfin arzusu ilə çağrılır və dindirilir, sonra isə digər tərəf şahidə çarpaz suallar verir. Bu halda şahidin dindirilməsi göründüyü kimi iki mərhələyə bölünür. Arbitrin də şahidə suallar vermək hüququ vardır, lakin bütövlükdə şahidlərin dindirilməsi prosesi tərəflərin (və ya onların nümayəndələrinin) sərəncamında olur.

Kontinental hüquq sistemli ölkələrdə isə şahidlərin dindirilməsi prosesi arbitrlər tərəfindən həyata keçirilir, tərəflər şahidlərə yalnız arbitrdən sonra və onun razılığı ilə suallar verə bilərlər. Beynəlxalq Kommersiya Arbitrajlarında arbitrlərin milli mənsubiyyətindən asılı olaraq hər iki model tətbiq edilir və hətta təcrübədə hər iki modelin «hibrid»indən (qarışıq model) də istifadə edilir.

Hətta bəzi ölkələrin arbitraj qanunvericiliyində (Belçika, Tunis, Luksemburq) şahidlərə yalnız arbitrlərin sual verməsi qaydası müəyyən

edilmişdir. Braziliya və Perunun arbitraj qanunvericiliyində şahidləri ancaq arbitrlər dindirə bilər, tərəflər isə şahidlərə yalnız arbitrin icazəsi ilə suallar verə bilərlər.

Məhkəmələrədən fərqli olaraq arbitraj məhkəmələrində şahidlərin and içməsi proseduru yoxdur, yalnız İnvestisiya mübahisələrində baxılması haqqında Qaydaların 35-ci maddəsinə uyğun olaraq şahidlər ifadə verməzdən əvvəl doğru danışmaqları barədə and içməlidirlər.

Arbitraj prosesində şahid ifadələrinin yazılı formada alınması təcrübəsi geniş yayılmışdır. Bu halda tərəf özü şahidlərin yazılı ifadələrini arbitraj məhkəməsinə təqdim edir və hansı şahidlərin arbitraj iclasına dəvət edilməsini göstərir. Arbitr (lər) şahidin yazılı ifadəsini qəbul edə bilər və ya tərəfə təklif edə bilər ki, yazılı ifadəsi alınmış şahid şifahi ifadə vermək üçün arbitraj iclasına dəvət edilsin. YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 25-ci maddəsinə uyğun olaraq şahidlərin ifadələri onlar tərəfindən yazılı surətdə təsdiq edilmiş formada təqdim oluna bilər. Təqdim olunan sübutların mümkünlüyünü, aidiyyatını, hansı mahiyyət və əhəmiyyət kəsb etməsini arbitraj məhkəməsinin özü müəyyən edir.

Arbitraj tərkibi şahid ifadələrinə işin bütün hallarını nəzərə almaqla qiymət verir, bu halda tərəflərlə şahidlər arasında mövcud olan münasibətlər, şahidin işin nəticəsində maraqlılığı dərəcəsi, şahidin mübahisənin əmələ gəlməsində rolu və yeri, faktları qavrama vərdişi, onun dünyagörüşü və s. nəzərə alınmalıdır.

### *§ 5. Ekspertin rəyi*

Arbitraj prosesində mübahisənin həll edilməsi üçün müəyyən halların araşdırılması işə həmin sahə üzrə xüsusi biliyi olan şəxslərin (ekspertlərin) cəlb edilməsi zərurətini meydana çıxara bilər, çünki arbitrlərin həmin sahə üzrə biliyi iş üzrə əsaslı qətnamənin çıxarılmasını mümkünsüz edə bilər. Belə halların araşdırılması müəyyən sahələr üzrə biliyi olan (mühəndis, mühasibat, maliyyə, sığorta, texniki və s.) ekspertlərin iştirakı ilə həyata keçirilir. Ekspertlər faktlar haqqındakı fikirlərini ekspert rəyi formasında təqdim edirlər.

Ekspertizanın müxtəlif növləri vardır, lakin arbitraj prosesi üçün səciyyəvi olan iqtisadi, texniki, mühasibat, sığorta, xətti ekspertiza növləridir.

Arbitraj prosesində ekspertlər mübahisə subyektləri tərəfindən və ya arbitraj tərkibi tərəfindən dəvət edilirlər. Tərəflərin ekspertləri

dəvət etməsi ingilis-sakson arbitraj prosesinin əlamətlərindən biri sayılmaqla hüquq ədəbiyyatında «ekspertlərin döyüşü» adlandırılır. Belə ki, tərəflərin hər biri xüsusi bilik tələb edilən halların araşdırılması üçün öz təşəbbüsü ilə arbitraja ekspert rəyi təqdim edə bilər («ekspert-şahid»), bu rəy bir qayda olaraq şifahi formada təqdim edildiyindən sonradan arbitraj iclasında «ekspert-şahidin» dindirilməsi və çarpaz dindirilməsi həyata keçirilir.

Kontinental hüquq sistemli ölkələrin arbitrajlarında tərəfin təşəbbüsü ilə işə cəlb olunan ekspertin şifahi rəy verməsinə nadir hallarda rast gəlinir, çünki ekspertiza bir qayda olaraq arbitraj tərkibi tərəfindən təyin olunur və onun rəyi yazılı formada arbitraja təqdim edilir. Bu halda ekspert arbitrajı tərkibi tərəfindən təyin edildiyi üçün onun rəyi neytral rəy hesab olunur və sübutların qiymətləndirilməsi zamanı ona daha etibarlı sübut kimi yanaşılır.

Beynəlxalq Kommersiya arbitrajlarında hər iki hüquq sisteminin ənənələrindən istifadə edildiyi üçün ekspert həm tərəflərin, həm də arbitraj tərkibinin təşəbbüsü ilə işə cəlb olunurlar. London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 21-ci maddəsinə əsasən Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda, arbitraj tərkibi:

a) arbitraj tərkibinə konkret məsələlər üzrə rəy vermək məqsədilə qərəzsiz və tərəflərdən asılı olmayan bir və ya bir neçə ekspert təyin edə bilər;

b) işə aidiyyatı olan hər bir məlumatın ekspertə təqdim edilməsi və ya eksperti işə aidiyyatı olan hər bir sənəd, əmtəə, nümunə, əmlak və yerlə tanış etməyin təmin edilməsini tələb edə bilər.

Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda əgər tərəflər xahiş edərsə və arbitraj tərkibi bunu zəruri hesab edərsə, ekspert özünün yazılı və ya şifahi rəyini arbitraj tərkibinə və tərəflərə təqdim etdikdən sonra rəy barəsində tərəflərin ona sual verməsi və mübahisəli məsələlər üzrə ifadələr vermək üçün ekspert-şahidlərin təqdim edilməsi məqsədilə ekspert bir və ya bir neçə dinləmələrdə iştirak etməlidir.

Bu maddəyə uyğun olaraq, arbitraj tərkibinin təyin etdiyi hər hansı bir ekspertin qonorar və məsrəfləri, 24-cü maddəyə əsasən, tərəflərin yaratdığı və arbitraj araşdırması xərclərinin bir hissəsini təşkil edən depozitdən ödənilir.

Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentinin 27-ci paraqrafına uyğun olaraq tərəflər arasında digər hal barədə razılıq olmadıqda və əgər hər hansı tərəf bu barədə xahiş etsə və ya Arbitraj tərkibi zəruri hesab etsə, ekspert, özünün yazılı və ya şifahi rəyini

verdikdən sonra dinləmələrdə iştirak etməlidir. Tərəflərə ona sual vermək üçün və mübahisəli məsələlər üzrə ifadə vermək üçün şahid ekspertlərin dəvət olunması imkanı yaradılmalıdır.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 26-cı maddəsinə əsasən isə Tərəflərin arasında digər razılıq yoxdursa, arbitraj məhkəməsi:

a) arbitraj məhkəməsi tərəfindən müəyyən edilən konkret məsələlərə dair ona məruzə edilməsi məqsədilə bir və ya bir neçə ekspert təyin edə bilər;

b) tərəflərdən iş üzrə hər hansı məlumatı və işə aid olan sənədlərin, malların və digər əmlakın ekspertə təqdim edilməsini və ekspert tərəfindən öyrənilməsi üçün şərait yaratmağı tələb edə bilər.

Tərəflər arasında digər razılıq yoxdursa, tərəflərin biri xahiş edərsə və yaxud arbitraj məhkəməsi zəruri sayarsa, ekspert yazılı və ya şifahi rəyini təqdim etdikdən sonra dinləmədə iştirak edə bilər. Bu halda tərəflərə ona suallar vermək imkanı verilir və mübahisəli məsələlər üzrə ifadə vermək məqsədi ilə tərəflər şahidləri ekspertlərə təqdim edə bilərlər.

Ekspertizanın təyin edilməsini arbitraj tərkibi tərəflərlə məsləhətləşdikdən sonra və ya məsləhətləşmədən həyata keçirə bilər.

Ekspertizanın keçirilməsi məqsədilə ekspert (və ya ekspertlər) tərəflərdən əlavə sənədlər tələb edə bilər.

Ekspertin rəyi arbitraj tərkibinə təqdim edilir, arbitraj tərkibi rəyin surətini tərəflərə göndərməlidir. Arbitraj tərkibi ekspertin rəyi ilə razılaşıb onu arbitraj iclasında elan edə bilər və ya tərəflərin təşəbbüsü ilə zəruri hallarda eksperti rəy vermək üçün iclasa dəvət edə bilər, bu halda tərəfin ekspertə rəylə bağlı suallar vermək hüququ vardır.

Ekspertin rəyi arbitraj iclasında tədqiq olunmaqla digər sübutlarla yanaşı qiymətləndirilir.

### *§ 6. Maddi sübutlar*

Arbitraj prosesində istifadə edilən sübutetmə vasitələrindən biri də maddi sübutlardır. AR MPM-nin 91-ci maddəsinə əsasən xarici görünüşünə, xüsusiyyətlərinə, olduğu yerə və digər əlamətlərinə görə iş üçün əhəmiyyətli olan halların müəyyən edilmə vasitəsi ola bilən əşyalar maddi sübutlardır.

Predmetlərdən o halda maddi sübutlar kimi istifadə olunur ki, onlar keçmişdə baş vermiş hadisələri, halları özündə əks etdirmiş olsun.

Maddi sübutlar iş üzrə həm sübut növü kimi, həmçinin həm mübahisənin obyekt və eyni zamanda həm də sübut kimi çıxış edə bilər.

Arbitraj prosesində bəzən maddi sübut qismində məhsulun keyfiyyət göstəricilərinə təsir edən predmetlər, daşıyıcı vasitələrin plombları (vaqonlar, konteynerlər) və s. çıxış edə bilər.

Arbitraj məhkəməsi tez xarab olan maddi sübutları müayinəsi və tədqiqini dərhal həyata keçirməlidir.

Maddi sübutlar arbitraj məhkəməsində saxlanılır, məhkəməyə gətirilə bilməyən maddi sübutlar olduqları yerdə saxlanılır. Arbitraj Məhkəməsi və ya sübutları təqdim edən şəxs maddi sübutların dəyişməz vəziyyətdə qalması üçün tədbirlər görməlidir.

Arbitraj Reqlamentlərinin əksəriyyətində maddi sübutların təqdim edilməsi qaydası nəzərdə tutulmamışdır, bir sıra Reqlamentlərində isə yalnız ümumi qayda müəyyən edilmişdir. Məsələn, BKAM-ın Əsasnaməsinin 41-ci maddəsinə əsasən Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr tərəflərdən **digər sübutların da** təqdim edilməsini tələb edə bilər. London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 22-ci maddəsinə uyğun olaraq tərəflər hər hansı müddət ərzində digər halı yazılı şəkildə razılaşdırmadığı və tətbiq olunan hüququn imperativ məhdudiyyətlərinə riayət edilməsi şərtilə arbitraj tərkibi tərəflərdən hər hansı birinin vəsatəti və ya özünün təşəbbüsü əsasında, lakin hər bir halda tərəflərə öz rəylərini bildirmək imkanı yaratmaqla hər hansı bir tərəfin nəzarəti altında olan və arbitraj çəkişməsinin predmetinə aid olan hər hansı əmlaka, torpaq sahəsinə və ya əşyaya digər tərəfin, onun ekspertinin və ya arbitraj tərkibinin təyin etdiyi ekspertlərin baxış keçirməsinə şərait yaradılması öhdəliyinin tərəflərdən hər hansı birinin üzərinə qoymaq səlahiyyətinə malikdir.

Maddi sübutlara baxış keçirilməsi və ya onun yerində müayinə edilməsi qaydası bir qayda olaraq, adətən arbitraj tərkibi tərəfindən müəyyən edilir, bu prosesdə arbitrlərlə yanaşı tərəflər, onların nümayəndələri, tərcüməçilər, digər mütəxəssislər də iştirak edirlər. Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 24-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq arbitraj məhkəməsinin mallara, digər əmlaka və ya sənədlərə baxış keçirmək məqsədilə təşkil etdiyi hər hansı şifahi işə baxma haqqında və ya məhkəmə iclası haqqında tərəflərə kifayət qədər vaxtında xəbərdarlıq göndərilməlidir.

# IX fəsil
# Arbitraj baxışına hazırlıq

### *§ 1. Arbitraj baxışının prosedurunu müəyyən edən qaydalar*

Mülki prosesdən fərqli olaraq arbitraj prosesində işə baxılması proseduru ilə bağlı məcburi prosessual çərçivə mövcud deyildir, ona görə də arbitraj prosesi müxtəlif üsullarla aparılır. Arbitraj prosesində mülki prosesdən fərqli olaraq sübutların alınmasının məhdud üsulları mövcuddur, şahidlər məcburi qaydada çağırıla bilməzlər, işə baxılması proseduru bir çox hallarda arbitrlərdən asılı olur, arbitrlərin qətnaməsi qətidir və ondan mahiyyəti üzrə şikayət verilə bilməz və s.

Arbitraj prosesində işə baxılması proseduru bir qayda olaraq arbitrajın yerləşdiyi ölkənin hansı hüquq sisteminə mənsub olması ilə müəyyən edilir.

Kontinental arbitraj prosesində aparıcı rol arbitrə məxsusdur, o, prosesin aparılmasını təşkil edir, ekspertiza təyin edir, tərəflərin və şahidlərin izahatlarını dinləyir və s. Tərəflər və onların nümayəndələri isə prosesin təşkili və aparılması ilə bağlı arbitrlərə yardım göstərirlər.

İngilis-amerika arbitraj prosesində isə arbitr kontinental prosesdə olduğu qədər fəal deyildir, əksinə passivdir, bu halda tərəflər özləri arbitrlərə sübutlar təqdim edirlər, işə ekspertlər cəlb edirlər, şahidlərin çarpaz dindirilməsini həyata keçirirlər və i.a. İngilis – amerika arbitraj prosesində işlərə şifahi baxılması təcrübəsi daha geniş yayılmışdır.

Lakin nəzərə alsaq ki, beynəlxalq kommersiya arbitrajlarının əksəriyyətinin Reqlamentləri hər iki hüquq sisteminin üstün cəhətlərini özündə əks etdirən qarışıq prodsedur qaydalarına malikdir fikrimizcə, gələcəkdə vahid arbitraj prosesinin formalaşması şübhə doğurmamalıdır.

Arbitraj prosesində tərəflər prosessual modelin seçilməsində sərbəstdirlər, əgər arbitraj sazişində belə model nəzərdə tutulmayıbsa, arbitraj Reqlamentlərində modelin seçilməsi imkanı arbitrlərin səlahiyyətindədir.

Arbitraj prosesi bütövlükdə iki mərhələyə bölünür:

1) Hazırlıq mərhələsi (yazılı mərhələ);
2) İşə şifahi baxılması (şifahi mərhələ).

Bu iki mərhələdən sonra arbitraj qətnaməsi çıxarılır.

Son vaxtlar sürətli arbitraj proseduru geniş yayılmışdır. Bununla bağlı bir sıra arbitraj institutları daha az xərc tələb edən və sürətli işə baxılmasını təmin edən arbitraj reqlamentləri qəbul etmişlər. Bu sıraya Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunu və Ümumdünya İntellektual Mülkiyyət Təşkilatını (ÜİMT) aid etmək olar.

Məsələn, **ÜİMT-nin sürətli arbitraj Reqlamentinə** əsasən bütün mübahisələrə təkbaşına arbitr tərəfindən baxılmalıdır, bununla bağlı isə bir sıra prosessual hərəkətlər və müddətlər qısaldılır. Şifahi dinləmələr 3 gündən artıq ola bilməz və bütövlükdə arbitraj prosesi 3 ay ərzində başa çatmalıdır, (ÜİMT-nın Arbitraj Reqlamentində bu müddət 9 aydır) arbitraj qətnaməsi işə baxılması başa çatdıqdan 1 ay ərzində çıxarılmalıdır (Arbitraj Reqlamentində bu müddət 3 aydır). ÜİMT hətta **«sürətli elektron arbitrajı»** xidməti təklif edir, bu halda bütün arbitraj prosesi şifahi dinlənilmə və iclas olmadan kompyuter əlaqəsi vasitəsilə həyata keçirilir.

«Sürətli elektron arbitrajı» zamanı arbitraj xərcləri və arbitraj müddətləri minimuma endirilir. Hesab edirik ki, mübahisələrə «sürətli elektron arbitrajı» qaydasında baxılması prosedurunun gələcəyi vardır və onun geniş vüsət alması yaxın gələcəyin perspektividir. Göründüyü kimi Arbitraj prosesinin cəlbedici xüsusiyyətlərindən biri də onda ciddi və məcburi prosessual tələblərin olmaması, həmçinin prosedur qaydaların tərəflərin özünün müəyyən etməsi imkanının olmasıdır. Bir sıra arbitraj sazişlərində (xüsusən də *ad hoc* qaydasında) arbitraj prosesinin keçirilməsi ilə bağlı bütün prosedur qaydalar nəzərdə tutula bilər, eyni zamanda arbitraj sazişlərində işə hər hansı bir arbitraj institutunun Reqlamenti əsasında baxılması şərti də razılaşdırıla bilər. Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 15-ci maddəsinə əsasən işin icraatında arbitraj tərkibi bu Reqlamenti, bu Reqlamentin tələblərinin kifayət etmədiyi halda isə arbitraja tətbiq olunan milli prosessual qanuna istinad edərək, yaxud istinad etmədən tərəflərin müəyyən etdikləri (yaxud onlar olmadıqda, arbitraj tərkibinin müəyyən etdiyi) istənilən qaydaları rəhbər tutur.

BKAM-ın Əsasnaməsinin 15-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq BKAM arbitraj araşdırmasında Əsasnaməni rəhbər tutur. Lakin Əsasnamə və tərəflərin razılığı ilə tənzimlənməyən məsələlərin həllində BKAM tərəflərin hər birinə öz mənafelərini qorumaq imkanı verməklə və tərəflərə bərabər münasibət göstərməklə, beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanunvericiliyini əsas götürməklə müvafiq hesab etdiyi qaydada işin araşdırılmasını aparır.

Analoji normalar Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun, London Beynəlxalq Arbitraj Məhkəməsinin, Amerika Arbitraj Assosiasiyasının, YUNSİTRAL-ın Arbitraj Reqlamentlərində də nəzərdə tutulmuşdur.

Milli arbitraj qanunvericiliyində də tərəflərə prosessual məsələlərin həll edilməsində geniş hüquqlar verilmişdir. Beynəlxalq

Arbitraj haqqında AR-nın Qanununun 19-cu maddəsinə əsasən Qanunun müddəalarına əməl etmək şərti ilə tərəflər öz mülahizələri əsasında arbitraj məhkəməsində baxışın aparılması proseduru haqqında razılığa gələ bilərlər.

Belə razılıq olmadıqda, arbitraj məhkəməsi bu Qanunun müddəalarına əməl etməklə lazım bildiyi qaydada arbitraj baxışını apara bilər. Arbitraj məhkəməsinə verilən səlahiyyətlərə hər bir sübutun mümkünlüyünü, aidiyyətini, mahiyyətini və əhəmiyyətini müəyyən etmək səlahiyyətləri də daxildir.

Nyu-York Konvensiyasının 5-ci maddəsində arbitraj qətnamələrinin ləğv edilməsi əsaslarından biri kimi arbitraj prosesinin tərəflərin arbitraj sazişinə uyğun olmayaraq keçirilməsi nəzərdə tutulmuşdur.

Dünyada yalnız bir neçə dövlət (o cümlədən Lüksemburq və Uruqvay) öz arbitraj qanunvericiliyində tərəflərin prosedur barədə razılığı olmadığı təqdirdə işə dövlət məhkəmələrinin baxdığı prosedur əsasında baxılması qaydası müəyyən olunmuşdur, digər dövlətlərdə isə (o cümlədən Azərbaycanda) arbitraj məhkəməsi milli qanunvericilikdə dövlət məhkəmələri üçün nəzərdə tutulmuş qaüdada (MPM-də) işə baxılması proseduruna tabe deyildir.

## *§ 2. Arbitrajın başlanması*

Arbitraj bir tərəfin digər tərəfə və ya arbitraj institutuna (və ya arbitraj məhkəməsinə) iddia ərizəsinin göndərilməsi ilə başlanır. BKAM-ın Əsasnaməsinin 22-ci maddəsinə əsasən İddia ərizəsində aşağıdakılar göstərilməlidir:

a) tərəflərin adları, ünvanları və digər rekvizitləri;

b) iddia tələbi;

c) BKAM-ın səlahiyyətlərinin əsasları;

ç) iddiaçının faktiki və hüquqi vəziyyətinə istinad edərək iddia tələbinin izahı və həmin vəziyyətin əsaslandığı sübutların təsdiq edilməsi;

d) iddianın qiyməti;

c) iddiaçı tərəfindən seçilən arbitrin və ehtiyat arbitrin adı, soyadı və yaxud arbitrin və ehtiyat arbitrin BKAM-ın sədri tərəfindən təyin edilməsi xahişi;

j) iddia ərizəsinə əlavə edilən sənədlərin siyahısı;

h) iddiaçının imzası.

İddia ərizəsi göstərilən tələblərə uyğun olmadığı halda, BKAM-ın katibi iddiaçıya iddia ərizəsində olan çatışmazlığı aradan qaldırmağı təklif edir.

Çatışmazlıq təklif edilən vaxtdan 1 ay müddətindən gec olmayaraq aradan qaldırılmalıdır.

İddiaçı iddia ərizəsində çatışmazlıqların aradan qaldırılması təklifinə əməl etməyərək onları aradan qaldırmadan işin baxılmasına təkid edirsə, BKAM iş üzrə qətnamə və ya araşdırmanın dayandırılması barədə qərar çıxara bilər.

BKAM-ın məsul katibi cavabdehi iddia ərizəsi barədə məlumatlandırır, iddia ərizəsinin surətini və ona əlavə edilmiş sənədləri cavabdehə göndərir. Bu zaman məsul katib cavabdehə aldığı iddia ərizəsinə və sübutlara dair öz yazılı izahatının 20 gün müddətində BKAM-a təqdim edilməsini təklif edir.

Cavabdeh iddia ərizəsinin surətini aldığı gündən 20 gün müddətində seçdiyi arbitrin və ehtiyat arbitrin adlarını və soyadlarını və ya arbitrin və ehtiyat arbitrin BKAM-ın Sədri tərəfindən təyin edilməsinə dair xahişini bildirməlidir.

Əgər tərəfləri arasında işə təkbaşına arbitrin baxılmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaranır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.

Əgər cavabdeh arbitr və ehtiyat arbitrini, Əsasnamədə nəzərdə tutulan müddətdə seçməzsə, BKAM-ın Sədri onun əvəzinə arbitrlər siyahısından arbitri və ehtiyat arbitri təyin edir.

Arbitraj Kollegiyası işin araşdırmaya hazırlanması vəziyyətini yoxlayır və zəruri halda, hazırlıq üçün əlavə tədbirlər görür, xüsusilə, tərəflərdən yazılı şəkildə izahatlar, sübutlar və digər əlavə sənədlər tələb edir. Əgər işin araşdırmaya hazırlanması üçün əlavə tədbirlər görülürsə, bunun üçün müəyyən müddət təyin edilir.

Arbitraj Kollegiyasının sədri BKAM-ın məsul katibinə işin araşdırılması və hazırlanması üçün əlavə tapşırıqlar verə bilər. O, həmçinin, ona tərəflərin məhkəmə baxışına çağırılması üçün tapşırıqlar verə bilər.

Şifahi işəbaxmanın vaxtı və yeri haqqında çağırış vərəqəsi tərəflərə elə qaydada göndərilməlidir ki, hər bir tərəfin hazırlıq və şifahi işəbaxmaya gəlməsi üçün 30 gün müddəti olmalıdır. Tərəflərin razılığı ilə bu müddət azaldıla bilər.

Əgər növbəti şifahi işəbaxma zərurəti varsa, Arbitraj Kollegiyası konkret imkanları nəzərə alıb, onun keçirilməsini təyin edir.

Tərəflərin təqdim edilən sübutlara əsasən öz mövqelərini ifadə etmək və şifahi mübahisə edilməsi üçün şifahi işəbaxma həyata keçirir. İşəbaxma qapalı keçirilir. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin icazəsi və tərəflərin razılığı ilə işəbaxmada arbitraj araşdırmasında iştirak etməyən şəxslər iştirak edə bilərlər.

Tərəflər, şifahi dinləmə keçirilmədən, yalnız yazılı materiallar əsasında mübahisənin araşdırılmasına dair razılığa gələ bilərlər. Əgər təqdim edilən materiallar mahiyyəti üzrə mübahisənin həll edilməsi üçün kifayət etməzsə, Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxma təyin edə bilər.

Arbitrajın başlanması haqqında ərizə ilə iddia ərizəsi fərqləndirilməlidir, çünki bir sıra Arbitraj Reqlamentlərində (Məsələn, London Arbitraj Məhkəməsinin Reqlamentinin 1-ci maddəsi, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 3-cü maddəsi) arbitrajın başlanmasının «ikimərhələli» proseduru nəzərdə tutulmuşdur. Bu prosedura görə tərəf arbitraj məhkəməsinə əvvəlcə mübahisənin mahiyyətini və tələbi ümumi formada özündə əks etdirən «arbitraj haqqında ərizə» təqdim etməli və ikinci mərhələdə isə mübahisənin detallarını və iddia tələbini dəqiqləşdirən iddia ərizəsi ilə müraciət etməlidir. Digər arbitraj Reqlamentlərində isə (Məsələn, Amerika Arbitraj Assosiasiyasının Arbitraj Reqlamentinin 18-ci maddəsi, Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 18-ci maddəsi və s.) iddia ərizəsi təqdim edildikdən sonra tərəflər iddia tələbini (və ya tələblərini) dəqiqləşdirən əlavə memorandum imzalamalıdırlar.

Bir sıra Arbitraj İnstitutları (o cümlədən Amerika Arbitraj Assosiasiyası) arbitraja təqdim ediləcək iddia ərizəsinin nümunəvi formasını təklif edirlər, bu halda tərəf iddia ərizəsinin hazır formasını dolduraraq onu yenidən arbitraj məhkəməsinə təqdim edir.

Bütün Arbitraj Reqlamentlərində cavabdehin iddia ərizəsinə cavab verməsi və arbitrlərin təyin edilməsi üçün müddət müəyyən edilmişdir. BKAM-ın Əsasnaməsində bu müddət 20 gün, Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentində 30 gün, Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentində 30 gün müəyyən edilmişdir.

Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinə və Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinə əsasən həmin müddət arbitraj tərkibi (və ya təkbaşına arbitr) tərəfindən müəyyən olunur.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 19-cu maddəsinə uyğun olaraq Arbitrlərin səlahiyyətləri haqqında Akt imzalandıqdan və Məhkəmə tərəfindən təsdiq olunduqdan sonra tərəflər yeni iddiaların və qarşılıqlı iddiaların xarakterini, arbitraj araşdırmasının mərhələsini və işə aid olan digər halları nəzərə alan arbitraj tərkibinin razılığı olmadan arbitrlərin səlahiyyətləri haqqında Aktın hüdudlarından kənara çıxan yeni iddialar və qarşılıqlı iddialar verə bilməzlər.

BKAM-ın Əsasnaməsinin 39-cu maddəsinə əsasən isə hər hansı bir tərəf şifahi işəbaxmanın sonuna qədər əsassız ləngimə olmadan öz iddia tələblərini və ya iddia üzrə etirazlarını dəyişə və ya əlavələr edə bilər.

Tərəflərdən birinin iddia tələblərinə və ya iddia üzrə etirazlara dəyişikliyə və ya əlavəyə dair əsassız ləngiməyə yol verməsi müəyyən edildikdə Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr həmin tərəfin üzərinə bu ləngimə ilə bağlı BKAM-ın əlavə xərclərini və digər tərəfin məsrəflərini ödəmək vəzifəsini qoya bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, iddia tələblərinə və ya iddia üzrə etirazlara bu cür dəyişiklik və ya əlavənin həll olunmasını məqsədəuyğun hesab etməyə bilər.

Təcrübədə bir sıra hallarda iddia ərizəsi arbitraj məhkəmələri tərəfindən arbitraj sazişində nəzərdə tutulmuş «mübahisələrin arbitraja qədər nizama salınması» proseduruna əməl edilməsi səbəbi ilə icraata qəbul edilmir və geri qaytarılır. Arbitraj prosesində mübahisələrin arbitraja qədər həll edilməsi qaydası məcburi xarakter daşımır, lakin belə bir qayda arbitraj sazişində nəzərdə tutulduğu halda tərəflər bu prosedura əməl etməyə borcludurlar.

## *§ 3. Arbitraj prosesində nümayəndəlik*

Hüquqi şəxslər arbitraj prosesində öz işlərini qanun və digər normativ hüquqi aktlarla, yaxud təsis sənədləri ilə (nizamnamə) onlara verilmiş səlahiyyət həddində öz orqanları və ya nümayəndələri vasitələri ilə həyata keçirirlər.

AR MPM-nin 69-cu maddəsinə uyğun olaraq hüquqi şəxslər məhkəmədə (o cümlədən arbitraj məhkəməsində – müəllif) qanunlarla, normativ – hüquqi aktlarla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilmiş orqanlar, yaxud hüquqi şəxslər tərəfindən bu məqsədlərlə vəkil edilmiş nümayəndələri vasitəsi ilə təmsil olunurlar.

AR MM-nin 49-cu maddəsinə əsasən hüquqi şəxslər Qanunvericiliyə və Nizamnaməyə uyğun fəaliyyət göstərən öz orqanları vasitəsilə mülki hüquqlar əldə edir və öhdələrinə mülki vəzifələr götürürlər. Hüquqi şəxs öz iştirakçıları, habelə təmsilçiləri vasitəsilə mülki hüquqlar əldə edə bilər və öhdəsinə mülki vəzifələr götürə bilər. Hüquqi şəxsin adından çıxış edən şəxs təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vicdan və ağılla hərəkət etməlidir.

Arbitraj prosesində nümayəndə-ona verilmiş səlahiyyət çərçivəsində arbitraj prosesində təmsil etdiyi şəxsin adından prosessual hüquq və vəzifələri yerinə yetirən şəxsdir.

Arbitraj prosesində nümayəndənin iştirakı müxtəlif səbəblərdən zəruri ola bilər. Bir halda bu əsas qanundan və ya normativ – hüquqi aktlardan doğursa, digər hallarda bu, arbitraj prosesində işlərin daha ixtisaslı hüquqşünasların aparması zərurətindən irəli gələ bilər.

Hüquq ədəbiyyatında arbitraj prosesində nümayəndəliyin iki növünü fərqləndirirlər:

1. Qanuni nümayəndəlik;
2. Könüllü və ya müqavilə üzrə nümayəndəlik.[1]

**Hüquqi şəxsin qanuni nümayəndəsi** kimi onun orqanları, yaxud hüquqi şəxslər tərəfindən bu məqsədlə vəkil edilmiş şəxslər çıxış edə bilər.

Hüquqi şəxsin rəhbərinin səlahiyyəti onun tərəfindən arbitraj məhkəməsinə təqdim edilən xidməti vəzifəsini bildirən sənədi, zəruri olduqda isə təsis sənədləri ilə (nizamnamə, müqavilə) təsdiq olunur.

Ləğv edilən hüquqi şəxsin adından arbitraj məhkəməsində ləğvetmə komissiyasının səlahiyyətli nümayəndəsi çıxış edir.

Qanuni nümayəndələr, qanunla nəzərdə tutulan məhdudiyyətlərlə yerinə yetirilmə hüququ təmsil edənə aid olan bütün prosessual hərəkətləri təmsil edilən adından yerinə yetirirlər. Onlar öz səlahiyyətlərini bildirən sənədi arbitraj məhkəməsinə təqdim edirlər.

Qanuni nümayəndələr arbitraj məhkəməsində işin aparılmasını nümayəndə sifətində seçdikləri başqa şəxsə tapşıra bilərlər. Bu halda hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya təsis sənədlərinə əsasən buna səlahiyyəti olan digər şəxsin imzası ilə həmin hüquqi şəxsin möhürü vurulmaqla verilir.

**Könüllü və ya müqavilə üzrə olan nümayəndəlik** mülki-hüquqi müqavilə əsasında yaranır, bu müqaviləyə əsasən bir tərəf

---

[1] Арбитражный процесс, М. 2000, с.134.

(təmsil edilən) digər tərəfə (nümayəndəyə) arbitraj məhkəməsində işin aparılmasını tapşırır, nümayəndə isə işin aparılması ilə bağlı prosessual hərəkətləri etməyi öz öhdəsinə götürür.

Müqavilə üzrə nümayəndəlik bir sıra hallarda əmək hüquq münasibətlərinə əsaslanır və hüquqi şəxsin əməkdaşı (bir qayda olaraq hüquq məsləhətçisi) tərəfindən həyata keçirilir. Bu halda nümayəndəlik hüquqi şəxslə onun əməkdaşı arasında bağlanan əmək müqaviləsinə əsaslanır.

Müqavilə üzrə nümayəndə qismində hüquqi şəxsin hüquq məsləhətçiləri və digər əməkdaşları, vəkillər, hüquq firmalarının hüquqşünasları, digər birgə iştirakçıların tapşırığı ilə iştirakçılardan biri çıxış edə bilər.

Nümayəndənin səlahiyyəti qanuna uyğun olaraq verilmiş və rəsmiləşdirilmiş etibarnamədə əks etdirilməlidir.

Vəkilin səlahiyyəti qanunla müəyyən olunmuş qaydada təsdiq edilən order əsasında rəsmiləşdirilir.

İddia ərizəsinin imzalanması, işin münsiflər məhkəməsinə verilməsi, iddia tələblərindən tam və ya qismən imtina edilməsi, iddianın təmin edilməsi, iddianın predmetinin və ya əsasının dəyişdirilməsi, barışıq sazişi bağlanması səlahiyyətinin başqa şəxsə tapşırılması, məhkəmə aktından şikayət verilməsi, məhkəmə aktının məcburi icrası tələbləri, qət olunmuş əmlakın və ya pul məbləğinin alınması ilə əlaqədar nümayəndənin səlahiyyətləri təmsil olunan tərəfin verdiyi etibarnamədə xüsusi göstərilməlidir.

Arbitraj prosesində əksər hallarda tərəflər öz nümayəndələri (adətən hüquqşünasları) vasitəsilə təmsil olunurlar.

Milli arbitraj qanunvericiliyində və arbitraj Reqlamentlərində də tərəflərin nümayəndə seçimində azadlığı imkanı təsbit edilmişdir.

BKAM-ın Əsasnaməsinin 35-ci maddəsinə əsasən Tərəflər BKAM-da öz işlərini birbaşa və ya özlərinin təyin etdikləri səlahiyyətli nümayəndələri vasitəsilə apara bilərlər. YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 4-cü maddəsinə uyğun olaraq tərəflər öz seçdikləri şəxslər vasitəsilə təmsil oluna və ya belə şəxslərin köməyindən istifadə edə bilərlər. Belə şəxslərin adları və ünvanları barədə digər tərəfə yazılı formada məlumat verilməlidir, həmin məlumatda bu təyinatın nümayəndəlik və ya hüquqi yardım məqsədilə həyata keçirilməsi qeyd olunmalıdır.

Müxtəlif ölkələrdə nümayəndə qismində çıxış edə bilən şəxslərin dairəsi müxtəlif meyarlarla müəyyən edilir. Məsələn, İsrail, İspaniya, İndoneziya, Səudiyyə Ərəbistanı kimi ölkələrdə nümayəndə kimi yalnız

hüquqşünaslar çıxış edə bilərlər. Müsəlman ölkələrində bununla bağlı dini və cinsi məhdudiyyətlər də mövcuddur. Malayziya və Barbadosda xarici hüquqşünaslar arbitraj prosesində nümayəndə qimində yalnız o halda çıxış edə bilərlər ki, onlara yerli hüquqşünaslar kömək etmiş olsunlar. Yaponiyada isə xarici hüquqşünasların arbitraj prosesində iştirakına ümumiyyətlə yol verilmir, hətta bu qaydanın pozulması sonradan arbitraj qətnaməsinin ləğvi üçün əsas ola bilər.

Vəkillər və vəkillik fəaliyyəti haqqında AR-nın qanunun 26-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikası ərazisində əcnəbi vəkillər mülki işlər, cinayət işləri, **iqtisadi mübahisələrə dair işlər**, inzibati xətalar haqqında işlər üzrə məhkəmə icraatına AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq qarşılıqlı münasibətlər əsasında buraxılır.

Nümayəndələrin səlahiyyətlərinin rəsmiləşdirilməsi müxtəlif ölkələrdə müxtəlif cür həll edilir. Avstriya, Yunanıstan və Argentinada bütün nümayəndələrdən etibarnamənin təqdim edilməsi tələb olunur, Niderlandda etibarnamə nümayəndə hüquqşünas olmadığı təqdirdə tələb olunur, İtaliya və Danimarkada isə etibarnamənin olub – olmaması vacib deyildir.

AR MPM-nin 73-cü maddəsinə müvafiq olaraq nümayəndənin səlahiyyəti qanuna uyğun olaraq verilmiş və rəsmiləşdirilmiş etibarnamədə əks etdirilməlidir. Vəkilin səlahiyyəti isə qanunla müəyyən olunmuş qaydada (orderlə müəllif) təsdiq edilir.

Arbitraj institutlarının Reqlamentləri də nümayəndələrin səlahiyyətlərinin rəsmiləşdirilməsi məsələsinə müxtəlif cür yanaşırlar.

Amerika Arbitraj Assosiasiyasının Beynəlxalq Arbitraj Reqlamentinin 12-ci maddəsinə əsasən tərəflər öz nümayəndələrinin adı, ünvanı, telefon nömrələri barədə digər tərəfə və arbitrajın katibliyinə (inzibatçısına) məlumat verməlidir.

Nümayəndənin arbitraj məhkəməsində səlahiyyəti təmsil olunanın adından işin müvəffəqiyyətli həlli üçün zəruri olan bütün prosessual hərəkətlərin edilməsini özündə birləşdirir.

Tərəf istənilən vaxt etibarnaməni ləğv edə bilər, müvəkkil edilmiş istənilən vaxt etibarnamədən imtina etməklə etibarnaməyə xitam verə bilər.

Qanunla müəyyən olunmuş qaydada nümayəndənin səlahiyyətinə xitam verildikdə, tərəf dərhal bu barədə arbitraj məhkəməsinə məlumat verməli, yaxud çıxmış nümayəndəni başqası ilə əvəz etməlidir.

## § 4. *İlkin arbitraj baxışı və ilkin qərar*

Arbitraj tərkibi formalaşdıqdan sonra arbitraj məhkəməsi işə baxılanadək arbitraj prosesinin təşkilati məsələlərini həll etmək üçün bir sıra hallarda hazırlıq iclası keçirir. Bir sıra Arbitraj Reqlamentlərində hazırlıq iclasının keçirilməsi nəzərdə tutulmuşdur. BKAM-ın Əsasnaməsinin 29-cu maddəsinə uyğun olaraq Arbitraj Kollegiyası işin araşdırmaya hazırlanması vəziyyətini yoxlayır və zəruri halda, hazırlıq üçün əlavə tədbirlər görür, xüsusilə, tərəflərdən yazılı şəkildə izahatlar, sübutlar və digər əlavə sənədlər tələb edir. Əgər işin araşdırmaya hazırlanması üçün əlavə tədbirlər görülürsə, bunun üçün müəyyən müddət təyin edilir.

Arbitraj Kollegiyasının sədri BKAM-ın məsul katibinə işin araşdırılması və hazırlanması üçün əlavə tapşırıqlar verə bilər. O, həmçinin, ona tərəflərin məhkəmə baxışına çağırılması üçün tapşırıqlar verə bilər.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 18-ci maddəsinə əsasən Arbitraj tərkibi Katiblikdən iş materiallarını alan kimi sənədlər əsasında, yaxud tərəflərin iştirakı ilə, onların axırıncı ərizələrini nəzərə almaqla, həmin iş üzrə onun səlahiyyətlərini müəyyən edən sənəd hazırlayır.

Arbitraj prosesinin təşkili ilə bağlı həll edilməli olan məsələlərin dairəsi çox genişdir və bu dairənin həcmi bir çox hallarda baxılan işin kateqoriyasından və mürəkkəblik dərəcəsindən asılıdır.

Hazırlıq iclasının keçirilməsinin vacibliyi və həmin iclasda həll olunmalı məsələlərin dairəsi İnvestisiya mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəzin Arbitraj Qaydalarının 21-ci maddəsində təsbit olunmuşdur. Həmin maddəyə əsasən Baş katibin tələbi və ya Arbitraj tərkibi Sədrinin istəyi ilə arbitraj tərkibinin və tərəflərin iştirakı ilə prosesin sürətləndirilməsi, informasiya mübadiləsi və mübahisəsiz faktların müəyyən edilməsi məqsədilə hazırlıq iclası keçirilə bilər.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamenti ilə nəzərdə tutulan (18-ci maddə) hazırlıq iclasının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, bu iclasda «Arbitrlərin səlahiyyəti haqqında Akt» adlanan (Terms of Referense) sənədin hazırlanmışdır. Bu sənəddə tərəflərin tələbləri dəqiq müəyyənləşdirilir, iddianın məbləği, arbitrajın yeri və tətbiq olunacaq prosessual qayda dəqiqləşdirilir. Hazırlıq iclasında «Arbitrlərin səlahiyyəti haqqında Akt»la birlikdə arbitraj prosesinin keçirilməsi qrafiki də tərtib olunur.

İlkin arbitraj baxışının keçirilməsi arbitrlərə və tərəflərə prosesi daha yaxşı planlaşdırmağa və iş üzrə əsaslı və ədalətli qətnamənin çıxarılması üçün əsasları hazırlamağa yardım edir.

Bir sıra ölkələrin (o cümlədən Belçika, Avstriya, ABŞ, İtaliya, Niderland, Almaniya) arbitraj qanunvericiliyi hazırlıq iclaslarında şahidlərin izahatlarının dinlənilməsinə icazə verir. Lakin əksər ölkələrin arbitraj qanunvericiliyində şahidlərin hazırlıq iclasına çağırılmasına müstəsna hallarda (məsələn, şahidin xəstəliyi, qocalığı, ölkəni tərk etmək istəyi və s.) icazə verilir.

Arbitraj prosesinin bir sıra məsələləri arbitraj araşdırmasının başlanğıcında həll edilməlidir, bura hər şeydən əvvəl arbitraj tərkibinin səlahiyyəti, tətbiq ediləcək maddi hüquq, iddia müddəti, məsuliyyət məsələlərinin məhdudlaşdırılması, dəymiş ziyanın həcmi və s. aiddir. Bu məsələlərin həlli üzrə arbitraj tərkibi bir çox hallarda qətnamə çıxarmaq zərurəti ilə üzləşir.

Hüquq ədəbiyyatında və dünya arbitraj təcrübəsində işin mahiyyəti üzrə həll edilməsinədək arbitrlər tərəfindən çıxarılan qətnamənin necə adlanması (terminoloji baxımdan) ilə bağlı fikir birliyi yoxdur. Bir sıra ölkələrdə bu, hazırlıq, aralıq və ya hissəvi qərarlar adlandırılır. Məsələn, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 32-ci maddəsinə uyğun olaraq Arbitraj məhkəməsinin son arbitraj qətnaməsi ilə yanaşı **ilkin**, **müddətli** və ya **hissəvi** arbitraj qərarları çıxarmaq hüququ vardır.

Göründüyü kimi YUNSİTRAL-ın Arbitraj Reqlamenti qərarlar arasında heç bir fərq qoymayaraq onların hamısının legitimliyini qəbul edir. Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun Arbitraj Reqlamenti (32-ci maddə) və London Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj Reqlamenti (26-cı maddə) bu qərarı «ayrıca arbitraj qərarı» adlandırır.

LBAM-ın Arbitraj Reqlamentinin 26-cı maddəsinə görə ... «Arbitraj tərkibi müxtəlif vaxtlarda müxtəlif məsələlər üzrə **ayrıca arbitraj qərarı** çıxara bilər. Belə qərarlar arbitraj tərkibinin çıxardığı digər arbitraj qərarı kimi eyni statusa və hüquqi qüvvəyə malik olacaqlar».

Hesab edirik ki, hazırlıq iclasında çıxarılan qərarlar işi mahiyyəti üzrə həll etmədiyi üçün sonrakı fəsillərdə **ilkin qərar** adlandırılması daha məqsədəuyğundur.

Hüquq ədəbiyyatında bu qərar **ilkin qətnamə** də adlandırılır.[1]

[1] Е.В. Брунцева, Международный Коммерческий арбитраж, Санкт – Петербург,2001,с.104.

Lakin AR MPM-nin 216-cı maddəsinə əsasən **qətnamə** – işi mahiyyəti üzrə həll edən məhkəmə qərarıdır və bu mənada hazırlıq (ilkin) qərarlarının «ilkin qətnamə» adlandırılması fikrimizcə, doğru deyildir.

İlkin arbitraj qərarlarının çıxarılması bir sıra arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur, lakin belə qərarların çıxarılması imkanı tərəflərin bağladığı arbitraj sazişi ilə də müəyyən edilə bilər. Bu hallar əsasən **ad hoc** arbitrajı üçün daha çox səciyyəvidir.

İlkin qərar hər iki tərəfin tələbi və ya arbitraj tərkibinin öz təşəbbüsü ilə çıxarıla bilər. Əgər tərəflərdən yalnız biri bu tələbi irəli sürdüyü halda ilkin qərarın çıxarılması arbitrlərdən asılı olacaqdır (bir şərtlə ki, tətbiq edilən hüquq buna yol vermiş olsun).

Beynəlxalq arbitraj məhkəmələrinin təcrübəsində ən çox ilkin qərar çıxarılan məsələ – arbitraj tərkibinin səlahiyyəti ilə bağlıdır. Əgər arbitraj tərkibi hesab etsə ki, baxılacaq məsələ ilə bağlı arbitraj səlahiyyətli deyil, o halda onun çıxardığı və ilkin qərar adlandırılan akt həm də son arbitraj qərarı olacaqdır, əksinə, arbitraj tərkibi hesab etsə ki, baxılacaq mübahisə üzrə arbitraj səlahiyyətlidir, çıxarılan qərar ilkin arbitraj qərarı olacaqdır. İlkin arbitraj qərarı həmçinin tətbiq olunmalı hüququn müəyyən edilməsi ilə bağlı məsələlərin həlli üzrə də çıxarıla bilər və bu halda ilkin qərar tərəflər arasında tətbiq olunmalı hüquqla bağlı mübahisəni aradan qaldırmağa xidmət edir.

İlkin arbitraj qərarı da arbitraj qətnaməsinin qarşısına qoyulan tələblərə cavab verməlidir. Belə ki, ilkin qərar da yazılı formada çıxarılmalı və qərarda onun çıxarılması tarixi, araşdırılma yeri, arbitraj tərkibi və qərarın motivləri göstərilməli və arbitraj tərkibi tərəfindən imzalanmalıdır. Çıxarılan ilkin qərarla razılaşmayan arbitr öz xüsusi rəyini, qərara əlavə ediləcək yazılı formada ifadə edə bilər.

### *§ 5. Təminedici tədbirlərin görülməsi*

Dövlət məhkəmələrindən fərqli olaraq arbitraj məhkəmələrinin səlahiyyəti arbitraj sazişini bağlamış tərəflərlə məhdudlaşır. Dövlət məhkəmələri tərəflərdə və ya üçüncü şəxslərdə olan iddianın obyekti ilə bağlı qanunda nəzərdə tutulan bütün təminedici tədbirlərin görülməsi sahəsində səlahiyyətlidirsə, arbitraj məhkəməsi analoji səlahiyyətdən məhrumdur. Ona görə də bir çox ölkələrin arbitraj qanunvericiliyi arbitraj məhkəmələrinə çox məhdud hüquqlar verir. Məsələn, Beynəlxalq Arbitraj haqqında AR-nın qanunun 17-ci maddəsinə əsasən

tərəflər arasında digər razılaşma yoxdursa, arbitraj məhkəməsi hər hansı bir tərəfin xahişi ilə mübahisəli predmetlə bağlı zəruri hesab edərsə, tərəflərin təminedici tədbirlərin həyata keçirməsinə dair **göstərişlər verə bilər.** Arbitraj məhkəməsi hər hansı tərəfdən belə tədbirlərin təmin edilməsini tələb edə bilər.

Bu tədbirlər sırasında malların saxlanılması və ya satılması, hər hansı obyektdə işlərin dayandırılması və ya davam etdirilməsi, bank təminatının verilməsi və s. aid edilə bilər.

İddianın təmini tədbirlərinin görülməsinin əsas məqsədi gələcəkdə çıxarılacaq arbitraj qətnaməsinin maneəsiz və problemsiz icrasının təmin edilməsidir.

Amerika Arbitraj Assosiasiyasının və Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin (Rusiya) Reqlamentinə əsasən arbitraj məhkəməsi təminedici tədbirlərin görülməsi üçün **ilkin qətnamə**, Beynəlxalq Ticarət Palatasının Arbitraj Məhkəməsi isə **arbitraj qətnaməsi** və ya **arbitraj əmri** çıxara bilər. BKAM-ın Əsasnaməsinin 37-ci maddəsinə uyğun olaraq Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr belə təminedici tədbirləri **müddətli qətnamə** formasında qəbul edə bilər. Arbitraj tərkibi hər hansı bir tərəfin xahişi ilə mübahisəli predmetlə bağlı zəruri hesab edərsə, tərəflərin təminedici tədbirləri həyata keçirməsinə dair göstərişlər verə bilər. O, hər hansı bir tərəfdən belə tədbirlərin təmin edilməsini xahiş edə bilər. Xarici arbitraj təcrübəsi göstərir ki, çıxarılması formasından asılı olmayaraq təminedici tədbirlərlə bağlı çıxarılan arbitraj qərarlarını tərəflər könüllü icra edirlər. Lakin məlum olduğu kimi təminedici tədbirlərlə bağlı arbitraj qərarı yalnız mübahisə obyekti tərəflərdən birində olduğu hallarda çıxarılır və öz səmərəsini verir, mübahisə obyekti üçüncü şəxslərdə olduğu halda isə belə arbitraj qərarları çıxarıla bilməz. Ona görə də belə hallarda arbitraj səlahiyyətli məhkəmə orqanlarına müraciət etməlidir. Bir sıra dövlətlərin arbitraj qanunvericiliyində (İngiltərə, ABŞ, Fransa) bununla bağlı norma nəzərdə tutulmuşdur.

YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 26-cı maddəsinə əsasən tərəflərdən birinin xahişi ilə arbitraj məhkəməsinin mübahisənin predmeti üzrə zəruri hesab etdiyi, mübahisənin predmeti olan malların mühafizəsində daxil olmaqla, onların üçüncü tərəfə saxlanca verilməsi barədə və ya tez xarab olan malların satışına dair sərəncam vermək kimi istənilən təminedici tədbirləri qəbul etmək hüququ vardır.

Bu kimi təminedici tədbirlər müddətli qətnamə formasında qəbul edilə bilər. Arbitraj məhkəməsinin belə tədbirlərin həyata keçirilməsi

üçün xərclərin ödənilməsinin təmin edilməsini tələb etmək hüququ vardır.

Tərəfin təminedici tədbirlərin qəbul edilməsinə dair məhkəmə orqanına müraciətinə arbitraj haqqında sazişə zidd olan hal və ya sazişdən imtina kimi baxılmamalıdır.

BKAM-ın Əsasnaməsinin 37-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq tərəflərin arbitraj baxışına qədər və yaxud arbitraj baxışı ərzində təminedici tədbirlərin görülməsi haqqında məhkəməyə müraciət etmələri və məhkəmənin belə tədbirlərin təmin edilməsi ilə bağlı müvafiq qərar qəbul etməsi arbitraj sazişi ilə ziddiyyət təşkil etmir.

Əgər tərəf BKAM-da qaldırılmış iddia üzrə iddianın təmin edilməsinə dair vəsatətlə dövlət məhkəməsinə müraciət edibsə, eyni zamanda, məhkəmə tərəfindən belə tədbir görülməsi barədə qərar çıxarılıbsa, tərəf BKAM-ı dərhal bu barədə məlumatlandırmalıdır.

Məsələn, dövlət məhkəməsinin qərardadı ilə tərəflərin bankda olan hesabları dondurula bilər, onların üzərinə həbs qoyula bilər və yaxud üçüncü şəxslərdə olan mübahisə obyektinin özgəninkiləşdirilməsinə qadağa qoyula bilər və s.

Beləliklə, təminedici tədbirlər arbitraj mübahisəsində tərəf olmayan üçüncü şəxslərə ünvanlandığı hallarda qərar qəbul etmək səlahiyyətinə arbitraj məhkəməsi deyil, dövlət məhkəmələri malik olurlar, bu sırada yalnız investisiya mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəzin (İCSİD) arbitrləri istisnalıq təşkil edirlər. Belə ki, bu Mərkəzin arbitrləri üçüncü şəxslərə münasibətdə təminedici tədbirlər üzrə qərarlar qəbul etmək səlahiyyətinə malikdirlər.

Arbitraj tərkibi formalaşanadək də təminedici tədbirlərin görülməsi zərurəti meydana gələ bilər, məlum olduğu kimi arbitraj tərkibinin formalaşması müəyyən vaxt və vacib prosedurlar tələb edir, bu vaxt ərzində isə mübahisənin obyekti aradan çıxarıla bilər (özgəninkiləşdirilə bilər), ölkədən çıxarıla bilər, bank hesabı boşaldıla bilər və s. təminedici tədbirlər isə bir çox hallarda nəticəli hərəkətlərin edilməsini zəruri edir. Ona görə də bir sıra arbitraj Reqlamentləri bu halda təminedici tədbirlərin görülməsini (bura həmçinin tərəflərlə bağlı təminedici tədbirlərin görülməsi də aiddir) dövlət məhkəmələrinə həvalə edir. Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 23-cü maddəsinə əsasən tərəflər başqa cür razılaşdırmayıblarsa, arbitraj tərkibi işin ona verilməsindən sonra tərəflərdən hər hansı birinin xahişi ilə lazım bildiyi ilkin, yaxud təminedici tədbirlərdən birinin qəbul edilməsi üçün göstəriş verə bilər. Arbitraj tərkibi bu cür təminedici tədbirini müvafiq vəsatətlə müraciət etmiş tərəfin adekvat təminat təqdim etməsi

ilə şərtləndirə bilər. Zərurət olduqda arbitraj tərkibi bu tədbirləri əsaslandırılmış əmr və ya qərar formasında qəbul edə bilər.

İşin arbitraj tərkibinə verilməsinə qədər, müəyyən hallarda işə bundan sonra da tərəflər istənilən səlahiyyətli məhkəmədən ilkin, yaxud təminedici tədbirlərin qəbul edilməsini xahiş edə bilər. Tərəfin belə tədbirin qəbul edilməsi, yaxud arbitraj tərkibi tərəfindən qəbul edilmiş oxşar tədbirlərin icra edilməsi məqsədilə məhkəməyə müraciət etməsi arbitraj sazişinin pozulması, yaxud ondan imtina edilməsi deyil və bu, arbitraj tərkibinin səlahiyyətinə təsir göstərmir. Məhkəmə tərəfindən qəbul edilmiş istənilən tədbir, yaxud istənilən bu cür vəsatət haqqında məlumat dərhal Katibliyin nəzərinə çatdırılmalıdır. Katiblik bu barədə arbitraj tərkibinə məlumat verir.

London Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj Reqlamentinin 25-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq Arbitraj tərkibinin bu maddənin 1-ci bəndində göstərilən səlahiyyətləri tərəflərdən hər hansı birinin arbitraj tərkibi formalaşanadək və müstəsna hallarda formalaşdıqdan sonra hər hansı bir dövlət məhkəməsinə və ya digər məhkəmə orqanlarına aralıq və ya təminedici tədbirlərin görülməsi məqsədilə müraciət etmək hüququna mane olmur. Arbitraj tərkibi formalaşdıqdan sonra belə tədbirlər haqqında verilən hər hansı bir göstəriş vəsatəti vermiş şəxs tərəfindən dərhal arbitraj tərkibinə və bütün digər tərəflərə təqdim edilməlidir.

Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Reqlamentinin 6-cı maddəsinə əsasən arbitraj tərkibi formalaşanadək təminedici tədbirlərin görülməsi səlahiyyəti Arbitraj Məhkəməsinin sədrinə məxsusdur.

Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun Reqlamentinin isə 31-ci maddəsinə uyğun olaraq «Tərəfin təminedici tədbir görülməsi xahişi ilə məhkəmə orqanına müraciət etməsi, arbitraj sazişi, yaxud mövcud Reqlamentə əsasən **yolverilməz hesab olunur».**

## *§ 6. Arbitraj xərcləri*

Arbitraj məhkəməsində mübahisələrə baxılması və həll edilməsi müəyyən xərclər tələb edir, bu xərclər sırasında arbitraj məhkəməsinin inzibati xərcləri, işə baxılması ilə bağlı digər xərclər, arbitrlərin qonorarları, arbitraj rüsumu və s. aiddir.

Arbitraj institutu (və ya Arbitraj Məhkəməsi) iddiaçı tərəfindən qeydiyyat rüsumu ödənilmədən işə baxılması üzrə heç bir prosessual hərəkəti yerinə yetirmir.

Müxtəlif arbitraj institutlarında qeydiyyat rüsumunun məbləği müxtəlifdir: Beynəlxalq Ticarət Palatasında 2500 ABŞ dollar, London Beynəlxalq Arbitraj Məhkəməsində 1500 funt sterlinq, Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsində 500 ABŞ dolları, Amerika Arbitraj Assosiasiyasında iddianın qiymətindən asılı olaraq 500 – 7 min ABŞ dolları və s.

Qeyd etmək lazımdır ki, hər bir arbitraj institutu (mərkəzi, məhkəməsi) işə baxılması Reqlamentindən əlavə Arbitraj xərcləri və rüsumları haqqında ayrıca Reqlamentə və ya Əsasnaməyə də malikdirlər. Bu Reqlament və ya Əsasnamələrdə həmin arbitraj institutunun xərclərinin və rüsumlarının məbləği, ödənilməsi qaydası və s. əks etdirilmişdir.

BKAM-ın Arbitraj xərcləri və rüsumları haqqında Əsasnaməsinin 1-ci maddəsinə əsasən arbitraj xərcləri və rüsumları: qeydiyyat rüsumundan, arbitraj rüsumundan, Arbitrajın əlavə xərclərindən və tərəflərin ödənişlərindən ibarətdir.

«Qeydiyyat rüsumu» - BKAM-a iddia ərizəsi və ya tələbin təmin edilməsinə dair vəsatət verilərkən arbitraj araşdırması başlanana qədər lazım olan xərcləri bağlamaq üçün ödənilən rüsumdur.

«Arbitraj rüsumu» - BKAM-ın araşdırmasına verilən hər bir iddiaya görə BKAM-ın fəaliyyəti ilə bağlı ümumi xərcləri (o cümlədən, arbitrlərin, məruzəçilərin qonororları, katibliyin mükafatlandırılması, arbitraj araşdırmasının təşkili və s. zəruri xərclər) ödəmək üçün tutulan rüsumdur.

«BKAM-ın əlavə xərcləri» - BKAM-ın konkret işin araşdırılması ilə bağlı çəkdiyi (xüsusilə, ekspertiza keçirilməsi və yazılı tərcümələrin xərcləri, ekspertlərə tərcüməçilərə ödənilən qonorar, şahidlərin xərclərinin ödənilməsi, ezamiyyə xərcləri və s. kimi) xüsusi xərclərdir.

«Tərəflərin ödənişləri» - bu maddənin əvvəlki bəndlərində göstərilən xərclərdən başqa, BKAM-a mübahisənin araşdırılması zamanı tərəflərin öz maraqlarını müdafiə etmək üçün ödədikləri xərclərdir.

Qeydiyyat rüsumu 300 ABŞ dollarının manata olan məzənnəsi məbləğində ödənilir. Növbəti arbitraj rüsumu ödənilərkən qeydiyyat rüsumu arbitraj rüsumu məbləğinə daxil edilir.

Qeydiyyat rüsumu geri qaytarılmır.

Arbitraj rüsumu ABŞ dolları ilə aşağıdakı cədvələ uyğun hesablanır:

| **Mübahisənin qiyməti (ABŞ dolları)** | **Arbitraj rüsumu (ABŞ dolları)** |
|---|---|
| 20. 000 qədər | 1000 |
| 20.001 dən 100.000 qədər | 1000 + 20.000-dən yuxarı məbləği 4%-i |
| 100.001 dən 500.000 qədər | 4.200 + 100.000-dən yuxarı məbləğin 2%-i |
| 500.001 dən 1.000.000 qədər | 12.200 + 500.000-dən yuxarı məbləğin 1%-i |
| 1.000.001 dən 2.000.000 qədər | 17.200 + 1.000.000-dan yuxarı iəbləğin 0,4%-i |
| 2.000.001 dən 5.000.000 qədər | 21.200 + 2.000.000-dan yuxarı məbləğin 0,2%-i |
| 5.000.001 dən 10.000.000 qədər | 27.200 + 5.000.000-dan yuxarı məbləğin 0,1%-i |
| 10.000.001-dən yuxarı | 32.200 + 10.000.000-dan yuxarı məbləğin 0,05%-i |

Aprbitraj araşdırması zamanı işin mürəkkəbliyi nəzərə alınaraq, arbitraj araşdırması uzun müddət və xərclər əhəmiyyətli dərəcədə artdıqda, BKAM-ın Sədrinin arbitraj rüsumunun artırılmasına dair qərar çıxarmaq hüququ vardır.

BKAM-ın Sədrinin, arbitrlərin və məruzəçilərin qonorarları «Arbitrlərin və məruzəçilərin qonorarları haqqında» BKAM-ın Əsasnaməsinə uyğun müəyyənləşdirilir.

Arbitrlərin qonorarları arbitrajın növündən asılı olaraq arbitraj məhkəməsi tərəfindən və ya tərəflərlə arbitrlərin qarşılıqlı razılaşması əsasında müəyyən edilir.

Arbitraj institutlarında arbitrlərin qonorarlarının məbləği bir qayda olaraq Arbitrlərin qonorarları haqqında Əsasnamədə əvvəlcədən dəqiq müəyyən olunur, *ad hoc* arbitrajında isə bu məbləğ tərəflərlə arbitrlərin razılaşması ilə konkretləşdirilir.

Arbitrlərin qonorarları 3 qaydada müəyyən oluna bilər:

1. Mübahisəli məbləğin faizi ilə;
2. Əvvəlcədən müəyyən olunan məbləğdə;
3. Saathesabı və ya gündəlik stavka əsasında.

**Mübahisəli məbləğin faizi anlayışına** həm ilkin iddia tələbinin, həm də qarşılıqlı iddia tələbinin məbləği aid edilir. Məsələn, Beynəlxalq Ticarət Palatasının Arbitraj Məhkəməsində arbitrlərin qonorarları iddia məbləği 1 min ABŞ dollarınadək olduqda, mübahisəli məbləği 0,5-2,5%-ni təşkil edir. Stokholm Arbitraj İnstitutunda bu məbləği iddia məbləği 1 mln-dan 2 mln. evroyadək olduğu halda 12.000 evro və plyus 1 milyondan yuxarı məbləğin 0,5%-i təşkil edir.

**Əvvəlcədən müəyyən olunan məbləğ üsulundan** əsasən *ad hoc* arbitrajında istifadə edilir. Arbitraj institutunda isə bu qayda məşhur arbitrlərə münasibətdə tətbiq edilir.

**Qonorarın saathesabı və ya gündəlik stavka əsasında** müəyyən olunması üsulundan Amerika Arbitraj Assosiasiyasında daha çox istifadə olunur, bu halda işə baxılması ilə bağlı itirilən vaxt dəqiq uçota alınmalıdır.

Arbitraj tərkibinin sədrinin qonorarı bir qayda olaraq digər arbitrlərə münasibətdə yüksək olur.

Məsələn, Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunda arbitrlərin qonorarı tərkib sədrinin qonorarının 60%-i həcmində müəyyən edilir.

Arbitraj rüsumu avans formasında ödənilir.

İddianın qiyməti Azərbaycan manatı ilə göstərildikdə, arbitraj rüsumu da Azərbaycan manatı ilə ödənilir. İddianın qiyməti ABŞ dolları ilə hesablandıqda, Azərbaycan Milli Bankının iddia verilən günə olan kursu ilə hesablanır. Qüvvədə olan valyuta qanunvericiliyinə zidd deyilsə, iddiaçının istəyi ilə arbitraj rüsumu ABŞ dolları ilə ödənilə bilər.

İddianın qiyməti xarici valyuta ilə göstərilibsə, arbitraj rüsumu da Azərbaycan manatı ilə ödənilir. İddianın qiyməti ABŞ dolları ilə hesablandıqda, Azərbaycan Milli Bankının iddia verilən günə olan kursu ilə hesablanır. Qüvvədə olan valyuta qanunvericiliyinə zidd deyilsə, iddiaçının istəyi ilə arbitraj rüsumu ABŞ dolları ilə ödənilə bilər.

İddianın qiyməti xarici valyuta ilə göstərilibsə, arbitraj rüsumu ABŞ dolları ilə ödənilir. İddianın qiymətinin ABŞ dollarına olan məzənnəsi beynəlxalq valyuta bazarının iddia verilən günə olan kursu ilə hesablanır.

Əgər işə təkbaşına arbitr tərəfindən baxılarsa, arbitraj rüsumu 30% miqdarında azaldılır.

Əgər iddiaçı iddianı iş üzrə dinləmələrin təyin olunmasına dair bildiriş göndərilənə qədər geri götürərsə, arbitraj rüsumu 75% miqdarında azaldılır.

Əgər iddiaçı, bildiriş göndəriləndən sonra işin ilk dinlənilməsinə qədər, xüsusən, tərəflər mübahisəni barışıq yolu ilə həll etdikləri halda, iddiasını geri götürürsə, eləcə də işin BKAM-da araşdırmasından tərəflərin imtina etməsi haqqında BKAM-a ərizə daxil olduğu digər hallarda, arbitraj rüsumu 50% miqdarında azaldılır.

İlk arbitraj iclasında qətnamə çıxarılmadan məhkəmə araşdırmasına xitam verilibsə, arbitraj rüsumu 25% miqdarında azaldılır.

Əgər iddiaçı tərəfindən arbitraj rüsumu ödənilənə qədər işə xitam verilibsə, o halda iddiaçıdan arbitraj rüsumunun 25%-i alınır.

İşə xitam verilməsinə dair qərar və yaxud qətnamədə arbitraj rüsumunun azaldılması haqqında məlumat öz əksini tapmalıdır. Arbitraj tərkibinin formalaşmasına qədər işə xitam verildikdə, arbitraj rüsumunun azaldılmasına dair qərar BKAM-ın Sədri tərəfindən qəbul edilir.

Arbitraj rüsumunun azaldılmasına dair nəzərdə tutulmuş qaydalar qeydiyyat rüsumuna aid edilmir.

Arbitraj rüsumu haqqında ilkin iddiaya aid edilən qaydalar, qarşılıqlı iddia və hesabların qarşılıqlı yoxlanması tələbi zamanı da tətbiq edilir.

Tərəflər arasında digər razılıq yoxdursa, arbitraj rüsumu əleyhinə qətnamə çıxarılmış tərəfdən tələb edilir.

İddia qismən təmin edildikdə, arbitraj rüsumu iddia tələbinin təmin edilən məbləğində münasib olaraq cavabdehdən və iddianın təmin edilməyən hissəsində mütənasib şəkildə iddiaçıdan tutulur.

BKAM arbitraj araşdırması ilə bağlı BKAM-ın əlavə xərclərinin ödənilməsi üçün, tərəflərdən birinin və ya hər ikisinin üzərinə avans ödəmək vəzifəsini qoya bilər.

BKAM əlavə xərclərin ödənilməsi üçün avans tələbini, xüsusilə, mübahisənin araşdırılması zamanı əlavə xərclər tələb edən hərəkətlərə dair ərizəsi əsaslı sayılan tərəfdən tələb edə bilər. BKAM tərəfindən mübahisənin araşdırılması üçün hərəkətlərin yerinə yetirilməsi, həmin tərəfdən əlavə xərclərin ödənilməsi üçün avansın müəyyən edilən müddət ərzində ödənilməsindən asılıdır.

Tərəfin seçdiyi arbitrin daimi yaşayış yeri BKAM-ın iclaslarından kənarda yerləşirsə, həmin arbitrin arbitraj araşdırmasında iştirak etməsi üçün xərcləri (geniş haqqı, yaşayış xərci və s.) onu seçən

tərəfin avansı hesabına ödənilir. Belə şəxs Arbitraj Kollegiyasının sədri seçilərsə, arbitraj araşdırmasında onun iştirakı üçün lazım olan xərcləri hər iki tərəf bərabər qaydada ödəyir.

Müəyyən olunmuş müddətdə cavabdeh tərəfindən müvafiq avans ödənilmədikdə, həmin avansın ödənilməsi iddiaçıya həvalə olunur.

Arbitraj araşdırması zamanı tərəflərdən birinin xahişi ilə tərəflərin izahatları, ərizələri və s. müraciətlər, eləcə də Arbitraj Kollegiyasının sualları, izahatları və göstərişləri tərcümə olunursa, tərcümə üzrə xərclər həmin tərəfin hesabına ödənilir.

Tərəflərin razılığı ilə dinləmələr xarici dildə aparılarsa, tərcümə üzrə çəkilən xərclər hər iki tərəfdən bərabər qaydada tutulur.

BKAM müvafiq tərəfdən və ya hər iki tərəfdən bu xərclərin ödənilməsi üçün avans tələb edə bilər. Bu qaydalar BKAM-ın qətnamələrinin tərcüməsi üzrə də tətbiq edilir.

BKAM-ın əlavə xərclərinin tərəflər arasında bölünməsi Əsasnamənin 6-cı maddəsinin müddəalarına uyğun həyata keçirilir, bu maddənin 4-cü bəndinin 1-ci hissəsində göstərilən xərclər tərcüməçinin xidməti ilə təmin olunmaq barədə xahiş etmiş tərəfin hesabından tutulur.

BKAM-a ödənilməli olan arbitraj xərcləri və rüsumları Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin hesabına köçürüldüyü gündən ödənilmiş sayılır.

BKAM-a ödənilən arbitraj xərcləri və rüsumlarının hesabı üzrə bank məsrəflərinin ödənilməsi ödənişi həyata keçirən tərəfin üzərinə qoyulur.

Xeyrinə qətnamə çıxarılmış tərəf, arbitraj araşdırması ilə bağlı xərclərin, o cümlədən, öz mənafeyinin hüquqi nümayəndəliklər vasitəsilə müdafiəsi ilə bağlı xərclərin ağılabatan məbləğdə digər tərəfdən tutulmasını tələb edə bilər.

İş üzrə konkret halları nəzərə almaqla BKAM, arbitraj rüsumunun, BKAM-ın əlavə xərclərinin və ödənişlərinin tərəflər arasında bölüşdürülməsinin digər qaydasını, xüsusilə də bir tərəfin əsassız və vicdansız, o cümlədən arbitraj araşdırmasını zərurət olmadan ləngidən hərəkətləri nəticəsində digər tərəfin çəkdiyi artıq xərclərin, bu xərcləri çəkmiş tərəfin onun xeyrinə həmin tərəfdən tutulmasını müəyyən edə bilər.

# X fəsil
# İşə mahiyyət üzrə baxılması və qətnamənin çıxarılması

## *§ 1. İşin dinlənilməsi*

Əksər arbitraj Reqlamentlərində işə şifahi qaydada baxılması proseduru nəzərdə tutulmuşdur.

Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun Reqlamentinin 25-ci maddəsinə əsasən şifahi dinləmə tərəflərdən birinin xahişi ilə, eləcə də arbitraj tərkibi şifahi dinləməni məqsədyönlü hesab etdikdə aparılır. Əgər dinləmə təyin edilmişsə, arbitraj tərkibi, tərəflərin arzusunu nəzərə alaraq dinləmənin vaxtını, onun davamlığını və sübutların təqdim edilməsi də daxil olmaqla aparılması qaydasını təyin edir.

Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinin 28-ci paraqrafına əsasən tərəflərin sazişinin şərtlərinə riayət etməklə, Arbitraj tərkibi iş üzrə şifahi dinləmələrin keçirilməsi və ya araşdırmanın yalnız sənədlər və digər materiallar əsasında aparılması barədə qərar qəbul edir. Bu hallardan başqa, tərəflərin şifahi dinləmənin keçirilməsi barədə razılığı varsa, Arbitraj tərkibi belə dinləməni tərəflərdən birinin xahişilə araşdırmanın müvafiq mərhələsində apara bilər. İşin hər bir şifahi dinlənməsində protokol tərtib olunur. Protokol Arbitraj tərkibinin sədri tərəfindən imzalanır. Protokolun surəti tərəflərə verilir.

BKAM-ın Əsasnaməsinin 34-cü maddəsinə müvafiq olaraq tərəflərin təqdim edilən sübutlara əsasən öz mövqelərini ifadə etmək və şifahi mübahisə edilməsi üçün şifahi işəbaxma həyata keçirilir. İşəbaxma qapalı keçirilir. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin icazəsi və tərəflərin razılığı ilə işəbaxmada arbitraj araşdırmasında iştirak etməyən şəxslər iştirak edə bilərlər.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentində və London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentində işə şifahi qaydada baxılması proseduru ayrıca olaraq nəzərdə tutulmamışdır.

London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 14-cü maddəsinə əsasən tərəflər arbitraj proseduru barədə razılığa gələ bilərlər və arbitraj tərkibinin ümumi qəbul edilmiş öhdəlikləri ilə razılaşdırılmaqla onlara tövsiyə edilir ki:

(I) hər bir tərəfə öz sübutlarını söyləmək və öz rəqiblərinin sübutlarını dinləmək imkanı verməklə bütün tərəflərə münasibətdə ədalətli və qərəzsiz fəaliyyət göstərsinlər;

(II) tərəflərin mübahisəsini tam şəkildə həll edən səmərəli üsulları nəzərdə tutan və lüzumsuz ləngimələri və xərcləri istisna edən

arbitraj araşdırmasının hallarına müvafiq prosedur qaydalarını qəbul etsinlər.

Tərəflər arasında belə razılaşmalar yazılı şəkildə olmalı və ya tərəflərin xahişi və səlahiyyət vermələri ilə arbitraj tərkibi tərəfindən protokollaşdırılmalıdır.

Bu maddənin 1-ci bəndinə uyğun olaraq, tərəflər arasında digər hallar razılaşdırılmamışsa, arbitraj tərkibi ümumi qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi məqsədilə tətbiq edilə bilən qanunla nəzərdə tutulmuş ən geniş fəaliyyət azadlığına malik olacaqdır: bütün müddət ərzində tərəflər arbitraj araşdırmasının ədalətli, səmərəli və sürətli aparılması üçün zəruri olan hər bir şeyi etməlidirlər.

Arbitraj tərkibi üç arbitrdən ibarət olduğu halda tərkibin sədri digər iki arbitrin ilkin razılığı ilə prosedur məsələləri üzrə təkbaşına qərar çıxara bilər.

Beynəlxalq Kommersiya arbitrajlarında şifahi işəbaxılması proseduru adətən qısa müddət ərzində həyata keçirilir, həm də nəzərə almaq lazımdır ki, arbitraj prosesində iş üzrə toplanmış sənədlər, yazılı sübutlar daha böyük əhəmiyyət kəsb edir.

Arbitraj iclası arbitrlər (arbitr) və ya arbitraj institutu (mərkəzi, məhkəməsi) tərəfindən təşkil oluna bilər. İşə baxılması qaydası əksər arbitraj məhkəmələrində əsasən arbitr tərəfindən müəyyən edilir, Avropa arbitraj məhkəmələrində bu qayda formal xarakter daşımaqla özünün «sərtliyi» ilə səciyyələnmir, lakin ingilis – sakson hüquq sistemli ölkələrdə (əsasən ABŞ-da) bu qayda özünün gərginliyi və sərtliyi ilə fərqlənir. Arbitrajın hansı hüquq sisteminə məxsus ölkədə keçirilməsindən asılı olmayaraq arbitrlər iki əsas tələbə əməl etməyə borcludurlar, birincisi, hər bir tərəfə öz mövqeyini ifadə etmək üçün tam imkanın verilməsi, ikincisi, hər bir tərəfə bərabər münasibətin ifadə edilməsi.

Beynəlxalq Kommersiya Arbitraj Məhkəmələrinin Reqlamentlərinin tələbinə müvafiq olaraq işin dinlənilməsi aşağıdakı prosedur qaydasında həyata keçirilir:

Arbitraj iclası açıq elan edildikdən sonra tərəflərə imkan verilir ki, onlar iş üzrə mövqelərini qısa şəkildə şərh etsinlər. Ondan sonra şahidlərin dindirilməsi başlayır. Arbitraj prosesində yazılı sübutlar əsas sübutetmə vasitəsi olduğu üçün bir qayda olaraq şahidlərin ətraflı dindirilməsinə zərurət yaranmır, ona görə də arbitrlər və tərəflər şahidlərə sual verməklə kifayətlənirlər.

Şahidlər adətən ifadə verənədək arbitraj iclasında iştirak etmirlər. Şahidlər dindirildikdən sonra ekspertlər dəvət edilir və maddi sübutlar araşdırılır.

Bir sıra arbitraj Reqlamentlərində işin baxılmasının təxirə salınması nəzərdə tutulmuşdur, BKAM-ın Əsasnaməsinin 43-cü maddəsinə müvafiq olaraq isə zərurət olduqda tərəflərin təşəbbüsü ilə arbitraj baxışı **təxirə salına** və ya icraat dayandırıla bilər. Arbitraj baxışının və ya arbitraj araşdırmasının dayandırılmasına dair qərar çıxarılır.

Cavabdeh arbitraj prosesində ilkin iddiaya qarşı qarşılıqlı iddia təqdim edə bilər. BKAM-ın Əsasnaməsinin 40-cı maddəsinə əsasən cavabdehin qarşılıqlı iddia vermək hüququ vardır və ya hesablama məqsədilə tələb irəli sürə bilər.

Əgər cavabdehin təqsirindən əsassız ləngimə nəticəsində qarşılıqlı iddianın və ya hesablama tələbinin arbitraj araşdırması uzadılırsa, Arbitraj Kollejiyası və ya işə təkbaşına baxan arbitr əlavə xərclərin və digər tərəfin məsrəflərinin ödənilməsini cavabdehə həvalə edə bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, qarşılıqlı iddianın və ya hesablama tələbinin həll olunmasını məqsədəuyğun hesab etməyə bilər.

Qarşılıqlı iddia və hesablama məqsədilə verilən tələbə də ilk iddiaya aid olan qaydalar tətbiq olunur.

Hər hansı tərəf şifahi işəbaxmanın sonuna qədər əsassız ləngimə olmadan öz iddia tələblərini və ya iddia üzrə etirazlarını dəyişə və ya əlavələr edə bilər.

Tərəflərdən birinin iddia tələblərinə və ya iddia üzrə etirazlara dəyişikliyə və ya əlavəyə dair əsassız ləngiməyə yol verməsi müəyyən edildikdə Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr həmin tərəfin üzərinə bu ləngimə ilə bağlı Arbitraj Məhkəməsinin əlavə xərclərini və digər tərəfin məsrəflərini ödəmək vəzifəsini qoya bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, iddia tələblərinə və ya iddia üzrə etirazlara bu cür dəyişiklik və ya əlavənin həll olunmasını məqsədəuyğun hesab etməyə bilər.

Yalnız mübahisə edən tərəflərin razılığı ilə arbitraj araşdırmasına üçünçü şəxslərin müdaxiləsinə yol verilir. Üçüncü şəxsləri araşdırmaya cəlb etmək üçün, tərəflərin razılığından əlavə, cəlb edilmiş şəxsin öz razılığı da olmalıdır. İddia ərizəsinə verilən cavabın müddəti keçmirsə, üçüncü şəxsin cəlb edilməsinə dair vəsatət təqdim

edilə bilər. Üçüncü şəxsin cəlb edilməsinə razılıq yazılı formada verilməlidir.

Sübutlar araşdırıldıqdan sonra arbitrlər (arbitraj) tərəflərin çıxış etməsi üçün onlara imkan verir.

Tərəflərin çıxışından sonra arbitraj iclası bağlı elan edilir.

Arbitraj prosesində arbitrlərin əsas vəzifələrindən biri tərəflərin prosessual hüquqlarına əməl edilməsinin təmin edilməsi və arbitraj qətnaməsinin çıxarılması üçün kifayət qədər informasiyanın toplanılmasıdır.

Bir sıra arbitraj Reqlamentində arbitraj iclasının protokolunun aparılması məcburi norma kimi nəzərdə tutulmuşdur. Bu sıraya Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Reqlamentini (37-ci paraqraf), Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentini (14-cü maddə), Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentini (28-ci paraqraf) aid etmək olar. BKAM-ın Əsasnaməsinin 44-cü maddəsinə əsasən İcraatın şifahi aparıldığı halda protokol tərtib olunur. Protokolda aşağıdakılar göstərilməlidir:

- BKAM-ın adı;
- işin nömrəsi;
- məhkəmə iclasının yeri və tarixi;
- tərəflərin adları;
- tərəflərin nümayəndələrinin dinləmələrdə iştirakı barədə məlumat;
- işdə iştirak edən arbitrlərin, məruzəçilərin, şahidlərin, ekspertlərin, tərcüməçilərin və digər iştirakçıların adları və soyadları;
- dinləmələrin qısa məzmunu;
- işdə iştirak edənlərin tələbləri və izahatları;
- işin təxirə salınma əsasları və ya araşdırmanın bitirilməsi;
- arbitrlərin imzaları.

Tərəflərin iclas protokolunun məzmunu ilə tanış olmaq hüquqları vardır. Tərəflərin xahişləri əsaslı olarsa, Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin qərarı ilə protokola dəyişikliklər və ya əlavələr edilə bilər.

Tərəfin xahişi ilə iclas protokolunun surəti ona verilir.

Amerika Arbitraj Assosiasiyasının Beynəlxalq Reqlamentinin 23-cü maddəsinə müvafiq olaraq tərəf prosesin stenoqramının olmasını arzu edərsə, bu halda tərəfin özü bu işi təşkil etməli və stenoqramını yazan şəxsin haqqını ödəməlidir.

Arbitraj prosesində aşkarlıq prinsipi olmadığından arbitraj iclasları qapalı keçirilir, burda yalnız arbitrlər və tərəflər iştirak edirlər, digər şəxslərin iştirakı isə arbitrlərin və tərəflərin razılığı olduğu hallarda mümkündür.

London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 30-cu maddəsinə müvafiq olaraq tərəflər arasında yazılı formada açıq-aşkar şəkildə əks hal nəzərdə tutulmamışdırsa, tərəflər ümumi qaydada bütün arbitraj qətnamələrinin tərəflərin hər birinin arbitraj araşdırması məqsədləri üçün təqdim etdikləri materiallarla birgə və digər tərəfin arbitrajın gedişatında təqdim etdiyi hələlik aşkar olunmamış bütün digər sənədlərin, bu və ya digər formada açılması qanuni tələbə əsasən, tərəflərin vəzifəsi olarsa, qanuni hüquqların müdafiəsi və iddia qaldırılması və ya *bona fide* arbitraj qətnaməsinin dövlət məhkəmələri və ya digər məhkəmə orqanları qarşısında mübahisələndirilməsi və ya icra olunması üçün zəruri olan sənədlər istisna olmaqla – konfidensiallığı qorumağı öhdələrinə götürürlər.

Reqlamentin 10, 12 və 26-cı maddələrinə uyğun olaraq arbitrin arbitraj araşdırmasından imtina etməsinin bəyan edilməsi arbitraj tərkibinin digər üzvləri üçün zəruri olduğu hallar istisna olmaqla, arbitraj tərkibinin müşavirələri onun üzvləri üçün məxfi xarakter daşıyır.

LBAM, bir qayda olaraq, tərəflərin və arbitraj tərkibinin əvvəlcədən yazılı razılığı olmadan arbitraj qətnaməsini və ya onun bir hissəsini dərc etdirmir.

Nə arbitraj tərkibi, nə LBAM (onun prezidenti, vitse-prezidenti və üzvləri də daxil olmaqla), nə katib, nə katibin müavini, nə arbitrlər, nə də arbitraj tərkibi tərəfindən təyin edilən ekspertlər bu Reqlamentə uyğun olaraq, arbitraj araşdırması zamanı hər hansı bir halın nəzərdən qaçırılmasına görə tərəflər qarşısında məsuliyyət daşımırlar. Bu şərt hər hansı bir orqan və ya şəxsin nəzərdən qaçırdığı halın və ya hərəkətin qəsdən və ya düşünülmüş qaydada edildiyi barədə tərəflərdən birinin təqdim etdiyi sübutlar əsasında təsdiq edildiyi hallara şamil edilmir.

Arbitraj qətnaməsi çıxarıldıqdan və qətnaməyə düzəlişlərin və əlavə qərardadların çıxarılması imkanı və ya müddəti ötdükdən sonra nə arbitraj tərkibi, nə də LBAM (prezident, vitse-prezident və üzvlər də daxil olmaqla), nə katib nə katibin müavini, nə arbitrlər və ya arbitraj tərkibi tərəfindən təyin edilmiş ekspertlər arbitraj araşdırmasına aid olan hər hansı məsələ barəsində hər hansı şəxsə şərh verməyə borclu deyil. Eyni qayda ilə, hər hansı tərəf göstərilən şəxslərin hər hansı birindən həmin arbitraj araşdırmasından gələcəkdə yarana biləcək hər hansı

məhkəmə və ya digər prosesdə şahid qismində istifadə etməyə çalışmamalıdır.

### *§ 2. Arbitraj araşdırmasının qurtarması və qətnamənin çıxarılması*

Arbitraj iclası bağlı elan edildikdən sonra arbitraj prosesi başa çatır və arbitrlər (arbitr) qəbul ediləcək qətnaməni müzakirə etməyə başlayırlar.

Bir sıra arbitraj Reqlamentində iclas bağlı elan olunduqdan sonra «əlavə araşdırılma» zərurəti meydana çıxdıqda iclasın yenidən təzələnməsi haqqında normalar təsbit edilmişdir.

Məsələn, BKAM-ın Əsasnamənin 47-ci maddəsinə uyğun olaraq mübahisənin düzgün həlli üçün əlavə araşdırma aparılması zərurəti yarandıqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) qətnamənin nəticə hissəsini elan etmədən araşdırmanı davam etdirə bilər.

Arbitraj məhkəməsi mübahisə ilə bağlı bütün məsələlərin kifayət qədər araşdırıldığını hesab etsə, o, işəbaxmanı bitmiş elan edir və qətnamə çıxarır.

Arbitrajın qətnaməsi arbitraj araşdırması keçirilən yerdə çıxarılır. Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 32-ci maddəsinə əsasən Arbitraj qərarı arbitraj araşdırması keçirilən yerdə çıxarılır. Sənəddə onun çıxarıldığı tarix, qətnamə və ya qərar olması, onların əsaslandırıldığı motivlər, həmçinin, arbitrlərin imzası olmalıdır. Arbitrlərdən birinin imzası olmadıqda, arbitraj qərarı o şərtə çıxarılır ki, qərara arbitrlərin əksəriyyəti imza atmış olur və qərarda imzası olmayan arbitrin mübahisənin həll edilməsində iştirak etməsi təsdiqlənir.

Arbitrlərdən biri üzürsüz səbəblərdən, arbitraj tərkibinin hər hansı bir məsələ barədə müzakirəsində iştirak etmirsə, bu hal digər arbitrlərin qərarı qəbul etməsinə mane olmur.

Tərəflər, arbitraj qərarını yalnız arbitraj tərkibinin sədrinin imzalayacağı barədə razılaşa bilərlər.

Arbitrin xüsusi rəyi olduqda, o, arbitraj qərarına əlavə edilir.

Arbitraj araşdırılmalarının gedişində tərəflər mübahisəni həll edirlərsə, arbitraj tərkibi, tərəflərin xahişi ilə razılaşdırılmış şərtlərlə barışıq sazişini arbitraj qərarı şəklində rəsmiləşdirilir.

Arbitraj xərcləri və onların tərəflərin arasında bölüşdürülməsi arbitraj qətnaməsi ilə, yaxud arbitraj araşdırmasına yekun vuran digər qərarla rəsmiləşdirilir. Arbitraj qərarı həmçinin, yalnız xərclərə aid də çıxarıla bilər.

Arbitraj tərkibi arbitraj qərarını tərəflərə təcili göndərməyə borcludur.

Əksər arbitraj Reqlamentlərində arbitraj qətnaməsinin arbitrlərin səs çoxluğu ilə qəbul edilməsi qaydası nəzərdə tutulmuşdur. Lakin London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 26-cı maddəsinə görə üç arbitrdən ibarət arbitraj tərkibinin hər hansı bir məsələ üzrə razılığa gəlmədiyi halda arbitrlər bu məsələni səs çoxluğu ilə həll edirlər, hər hansı bir məsələ üzrə səsçoxluğu alınmadıqda qətnamə **arbitraj tərkibinin sədri** tərəfindən qəbul edilir. Oxşar norma Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 25-ci və Rusiya Beynəlxalq Kommersiya Məhkəməsinin Reqlamentinin 39-cu paraqrafında da nəzərdə tutulmuşdur.

BKAM-ın Əsasnaməsinin 47-ci maddəsinə əsasən qətnamə çıxarıldıqdan sonra onun nəticə hissəsi tərəflərə şifahi elan edilir, əgər onlar iştirak etmirsə, 3 gün ərzində onlara yazılı formada məlumat verilir.

Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) tərəfindən qətnamənin elan edilməsindən 10 gün müddətindən gec olmayaraq katiblik əsaslandırılmış qətnaməni tərəflərə göndərir.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxmanın sonunda qətnamənin nəticə hissəsini şifahi elan etmədən, 10 gün müddətdən gec olmayaraq, əsaslandırılmış qətnamənin tərəflərə göndərilməsini elan edə bilər.

Mübahisənin düzgün həlli üçün əlavə araşdırma aparılması zərurəti yarandıqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) qətnamənin nəticə hissəsini elan etmədən araşdırmanı davam etdirə bilər.

Zərurət olduqda, Arbitraj Məhkəməsinin sədri 10 gün müddəti uzada bilər.

Qətnamədə aşağıdakılar göstərilməlidir:

- Arbitraj Məhkəməsinin adı;
- işin nömrəsi;
- qətnamənin çıxarılma yeri və tarixi;
- işə baxan arbitrlərin adları və soyadları;
- Arbitraj araşdırmasında iştirak edən tərəflərin (və ya onların nümayəndələrinin) və digər şəxslərin adları və soyadları;

- mübahisənin predmeti və işin qısa məzmunu;
- qətnamənin əsaslandığı motivlər;
- iddia tələblərinin təmini və ya rədd edilməsinə dair nəticə;
- iş üzrə arbitraj xərcləri və rüsumlarının məbləği, onların tərəflər arasında bölünməsi;
- arbitrlərin imzası.

Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsini imzalaya bilmirsə, Arbitraj Məhkəməsinin sədri arbitrin imzasının olmaması səbəbini göstərməklə, qərarı öz imzası ilə təsdiq edir.

Əksər arbitraj Reqlamentlərində arbitraj qətnaməsinin çıxarılmalı olduğu müddət göstərilmişdir. Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 24-cü maddəsinə uyğun olaraq Arbitraj tərkibinin qəti qərar çıxarması üçün 6 aylıq müddət müəyyən edilir. Bu müddət tərəflərin və arbitrlərin, arbitrlərin səlahiyyətləri haqqında Akta etdikləri axırıncı imzanın tarixindən, yaxud Katiblik tərəfindən arbitraj tərkibinə arbitrlərin səlahiyyətləri haqqında Aktın Məhkəmə tərəfindən təsdiq edilməsi barədə məlumat verildiyi tarixdən hesablanır.

Məhkəmə zəruri hallarda arbitrin əsaslandırılmış xahişi ilə, yaxud əgər buna zərurət yaranarsa, öz təşəbbüsü ilə müddəti uzada bilər.

Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun Reqlamentinə görə bu müddət 6 ay (33-cü maddə), Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Reqlamentində bu müddət 180 gün müəyyən edilmişdir. London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentində, Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentində, Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentində, YUNSİTRAL-ın Arbitraj Reqlamentində arbitraj qətnaməsinin çıxarılmalı olduğu müddət dəqiq nəzərdə tutulmamışdır.

BKAM-ın Əsasnaməsinin 46-cı maddəsinə uyğun olaraq arbitraj tərkibi mübahisə ilə bağlı bütün məsələlərin **kifayət qədər araşdırıldığını** hesab etsə, o, şifahi işəbaxmanı bişmiş hesab edir və qətnamə çıxarır.

### *§ 3. Arbitraj icraatına qətnamə çıxarılmadan xitam verilməsi*

Arbitraj baxışı heç də hər bir halda arbitraj qətnaməsinin çıxarılması ilə başa çatmır, bir sıra hallarda arbitraj qətnaməsi çıxarılmadan da icraat qurtarmış hesab olunur.

Bir çox arbitraj Reqlamentlərində qətnamə çıxarılmadan arbitraj icraatının başa çatması halları nəzərdə tutulmuşdur.

Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 35-ci maddəsinə, Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 26-cı maddəsində, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 28-ci maddəsində, Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentinin 32-ci maddəsində, YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 34-cü maddəsində bu hallar sadalanır və qətnamə çıxarılmadan arbitraj icraatının başa çatmasının proseduru müəyyən olunur.

BKAM-ın Əsasnaməsinin 50-ci maddəsinə uyğun olaraq Arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırarlarsa, Arbitraj Kollegiyası (işə təkbaşına baxan arbitr) baxışa xitam verilir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda razılaşdırılmış şərtlər əsasında arbitraj qərarı formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir.

Razılaşdırılmış şərtlə arbitraj qərarı Əsasnamənin müddəalarına uyğun olaraq çıxarılmalıdır və onun arbitraj qərarı olduğu göstərilməlidir.

Belə arbitraj qərarı, digər hər hansı arbitraj qərarı ilə bərabər hüquqi qüvvəli sayılır və mübahisənin mahiyyəti üzrə olan digər hər hansı arbitraj qərarı kimi icra olunmalıdır.

Əgər iş üzrə yekun qətnamə çıxarılmırsa, arbitraj araşdırmasına qərarla xitam verilir. Aşağıdakı hallarda arbitraj araşdırmasına xitam verilməsi haqqında qərar çıxarılır:

A) iddiaçı öz tələbindən imtina edərsə, əgər cavabdeh xəbərdarlıq məktubunu aldıqdan 30 gün müddətindən gec olmayaraq icraatın dayandırılmasına etiraz etməzsə, Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitraj) mübahisənin qəti həllində cavabdehin qanuni marağını tanımadıqda;

B) arbitraj araşdırmasının dayandırılmasına dair tərəflərin razılığı olduqda;

C) Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) araşdırmanın davamını hər hansı bir səbəbdən lazımsız və ya mümkünsüz hesab edirsə, xüsusilə, mahiyyəti üzrə baxılması və həlli üçün zəmin olmadıqda, həmçinin, iddiaçı tərəfindən iş 2 aydan çox müddətdə hərəkətsiz qaldıqda.

Arbitraj Kollegiyasının yaranmasına qədər işin araşdırılmasının dayandırılmasına dair qərar BKAM-ın sədri tərəfindən çıxarılır.

## *§ 4. Arbitrlərin xüsusi rəyləri*

Arbitraj prosesində bəzi hallarda arbitraj tərkibi yekdil qətnamə çıxara bilmir, bunun səbəbi isə arbitrlərdən birinin çıxarılan qətnamə və ya onun səbəbi isə arbitrlərdən birinin çıxarılan qətnamə və ya onun əsaslandırması ilə razı olmaması və ya işin nəticəsi haqqında özünün fərqli fikrinin mövcud olmasıdır.

Qitə hüquq sisteminə mənsub olan ölkələrdə bir qayda olaraq hakimin və ya arbitrin xüsusi rəydə qalmasına yaxşı baxmırlar və hesab edirlər ki, bu halda prosesin kollegiallığı prinsipi pozulmuş olur və ona görə də hakimin (arbitrin) xüsusi rəyi proses iştirakçılarından gizli saxlanılır. Bu səbəbdən də mülki mühakimə icraatında müşavirə otağının gizliliyi prinsipinin müddəalarına dəqiq riayət edilməsinə böyük əhəmiyyət verilir.

Ümumi hüquq sistemli (ingilis – sakson) ölkələrdə isə hakimlərin (arbitrlərin) xüsusi rəyi institutuna «mülayim» baxış mövcuddur və buna adi hal kimi baxılır. Hakimlərin (arbitrlərin) xüsusi rəyi elan edilir, mətbuatda çap olunur və bir sıra hallarda məhkəmə təcrübəsinin inkişafında müsbət rol oynayır. Hətta bəzi hallarda hakim (arbitr) qətnamə ilə bütövlükdə razı olsa da onun əsaslandırıcı hissəsini qeyri-məqbul hesab etməklə xüsusi rəydə qala bilər.

Əksər beynəlxalq kommersiya arbitraj məhkəmələri arbitrlərin xüsusi rəyi ilə bağlı məsələlərdə ingilis-sakson hüquq sisteminin müddəalarından yararlanırlar və bu da özünü arbitraj institutlarının Reqlamentlərində əks etdirir. Arbitrlərin xüsusi rəyləri qətnamə ilə birlikdə işə əlavə edilir və qətnamənin icrası prosesinə heç bir maneçilik törətmir. Lakin qeyd etmək lazımdır ki, xüsusi rəy qətnaməyə əlavə edilsə də onun tərkib hissəsini təşkil etmir və onun məzmunu yalnız tərəflərə məlum olur.

Arbitrin xüsusi rəyi bəzi hallarda arbitrin onu seçən şəxs qarşısında xidməti, digər hallarda isə müzakirə edilən mübahisəyə arbitrin nəzəri baxışı kimi qiymətləndirilə bilər.[1]

Arbitraj İnstitutları içərisində investisiya mübahisələrinin həlli üzrə Beynəlxalq Mərkəzin (İCSİD) Arbitraj Reqlamentində, Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Reqlamentində, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentində və BKAM-ın Əsasnaməsində arbitrlərin xüsusi rəydə qalması hüququ birbaşa təsbit olunmuşdur. BKAM-ın Əsasnaməsinin 46-cı maddəsinə

---

[1] Е. В. Брунцева, Международный Коммерческий Арбитраж, Санкт-Петербург, 2001, с.216

əsasən Qətnamə qapalı iclasda Arbitraj Kollegiyasının səsçoxluğu ilə çıxarılır. Çıxarılan qətnamə ilə razılaşmayan **arbitr öz xüsusi rəyini** – qətnaməyə əlavə ediləcək yazılı formada ifadə edə bilər.

Bir sıra Arbitraj Reqlamentlərində arbitrlərin xüsusi rəyi ilə bağlı müddəalar ümumiyyətlə nəzərdə tutulmamışdır. Bu sıraya London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentini, Amerika Arbitraj Assosiasiyasının Arbitraj Reqlamenti, Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentini, Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj məhkəməsinin Arbitraj və Barışıq Reqlamentini, Alman Arbitraj İnstitutu Arbitraj Məhkəməsinin Reqlamentini aid etmək olar. Sonuncunun Arbitraj Reqlamentinin 33-cü paraqrafına uyğun olaraq arbitraj tərkibinin bütün qərarları onun bütün üzvlərinin səs çoxluğu ilə çıxarılmalıdır. Tərəflərin digər hal barədə razılığı yoxdursa, arbitrlərdən biri səsvermədə iştirakdan imtina etdikdə, **digər arbitrlər qərarı onsuz qəbul edə bilərlər**.

Qalan arbitrlər qərarı səs çoxluğu ilə çıxarır. İmtina etmiş arbitr olmadan Arbitraj qərarı çıxarılması üçün səsvermənin keçiriləcəyi barədə tərəflərə əvvəlcədən məlumat verilir. Arbitraj araşdırması bir neçə arbitr tərəfindən aparıldığı halda Arbitraj tərkibinin arbitrlər çoxluğunun (olmayan imzaların səbəbini göstərmək şərtilə) imzalarının olması kifayətdir.

YUNSİTRAL-ın Arbitraj Reqlamentində də bu məsələ ilə bağlı çox maraqlı müddəa vardır, Reqlamentin 32-ci maddəsinin 4-cü bəndinə əsasən «Arbitraj qətnaməsi arbitrlər tərəfindən imzalanmalı və onun çıxarıldığı yer və tarix qeyd edilməlidir. Üç arbitrdən biri arbitraj qərarını imzalamadıqda, qərarda onun imzasının olmamasının səbəbləri göstərilməlidir».

Göründüyü kimi YUNSİTRAL-ın Arbitraj Reqlamenti də arbitrlərin xüsusi rəydə qalması məsələsinə ayrıca yer ayırmır, sadəcə olaraq nəzərdə tutulur ki, «qərarda onun imzasının olmamasının səbəbləri göstərilməlidir».

# XI fəsil
# Arbitraj qətnamələri və onlara yenidən baxılması

## *§ 1. Arbitraj qətnamələrinin anlayışı və növləri*

Arbitraj haqqında milli qanunvericilikdə və Arbitraj Reqlamentlərində arbitraj qətnaməsinin dəqiq anlayışı verilməmişdir. YUNSİTRAL-ın Nümunəvi Qanununda da arbitraj qətnaməsinə anlayış verilmir.

Mülki prosesdə məhkəmə qərarı iki formada qətnamə və qərardad formasında çıxarılır.

Azərbaycan Respublikasının MPM-nin 216-cı maddəsinə görə işi mahiyyət üzrə həll edən məhkəmənin aktı qətnamə formasında çıxarılır. Qətnamə məhkəmə iclasında işə baxıldıqdan sonra hakimlərin ayrıca müşavirə otağında çıxarılır.

MPM-nin 263-cü maddəsinə əsasən isə iş mahiyyəti üzrə həll edilmədikdə məhkəmə aktları qərardad formasında çıxarılır. Məhkəmə iş üzrə icraatı dayandırdıqda, icraata xitam verdikdə, iddianı baxılmamış saxladıqda və Məcəllədə nəzərdə tutulan digər hallarda qərardad çıxarılır.

Arbitraj prosesində isə arbitraj qərarlarının qətnamə və qərardad formasında təsnifatı bölgüsü yoxdur, arbitraj prosesində çıxarılan qərarların hamısı arbitraj qətnaməsi adlandırılır və həmin qətnamələr aşağıdakı növlərə bölünür:

1. Qəti qətnamə;
2. İlkin qətnamə;
3. Müddətli Qətnamə;
4. Hissəvi qətnamə;
5. Əlavə qətnamə.

Arbitraj prosesi qurtardıqdan sonra mübahisənin həll edilməsi məqsədilə çıxarılan qətnamə **qəti qətnamə** adlandırılır.

**İlkin qətnamə** bir çox hallarda arbitraj tərkibinin səlahiyyəti və tətbiq ediləcək hüququn müəyyən edilməsi ilə bağlı məsələlər üzrə çıxarılır (bu barədə ətraflı X fəslin 4-cü paraqrafında bəhs edilmişdir).

Arbitraj tərkibi qəti və ilkin qətnamə ilə yanaşı **müddətli** və ya **hissəvi qətnamə** də çıxara bilər, bu qətnamələrdə iddia tələblərinin bəzi məsələləri (o cümlədən, təminedici tədbirlər) həll edilə bilər.

Əgər tərəflər arbitraj prosesinin gedişində barışıq sazişi bağlayırlarsa, onda arbitraj məhkəməsi baxışa xitam verir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda **razılaşdırılmış** şərtlər əsasında **arbitraj qərarı** formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir.

Razılaşdırılmış şərtlərlə arbitraj qərarı qətnamənin qarşısına qoyulan tələblərə cavab verməlidir və onun arbitraj qərarı olduğu göstərilməlidir. Belə arbitraj qərarı, digər hər hansı arbitraj qərarı ilə bərabər hüquqi qüvvəli sayılır və mübahisənin mahiyyəti üzrə olan digər hər hansı arbitraj qərarı kimi icra olunmalıdır (Beynəlxalq Arbitraj haqqında AR Qanununun 30-cu maddəsi).

Həmçinin Beynəlxalq Arbitraj haqqında Qanunun 33-cü maddəsinə uyğun olaraq tərəflər arasında digər razılıq yoxdursa, tərəflərdən biri bu barədə digər tərəfi xəbərdar etməklə arbitraj baxışının gedişində qaldırılmış, lakin arbitraj qərarında öz əksini tapmamış tələblər barəsində arbitraj məhkəməsindən **əlavə qərar** çıxarılmasını xahiş edə bilər.

Göründüyü kimi arbitraj qərarları və qətnamələrinin ifadə tərzi ilə bağlı məsələlər istər Milli arbitraj qanunvericiliyində, istərsə də müxtəlif Arbitraj Reqlamentlərində kifayət qədər dolaşdırılmışdır. Ona görə də fikrimizcə, mülki prosesdə bu məsələ ilə bağlı məfhumlar daha dəqiq olduğu üçün həmin istilahlardan istifadə edilməsi daha məqsədəuyğundur. Məsələn, **qəti arbitraj qətnaməsini** sadəcə **arbitraj qətnaməsi** adlandırmaqla yerdə qalan bütün **qətnamə məfhumlarını** (ilkin, müddətli, hissəvi) **qərar** adlandırmaq həmin istilahlardan istifadə edilməsini asanlaşdırmaqla həm də bu sahədə olan dolaşıqlığı aradan qaldırmış olardı. Xarici Arbitraj qərarlarının tanınması və icra edilməsi barədə 1958-ci il tarixli Nyu-York Konvensiyasında və digər beynəlxalq müqavilələrdə söhbət **arbitraj qətnamələrinin** icra edilməsindən və tanınmasından gedir və bu arbitraj qətnaməsi də arbitraj mübahisəsini qəti həll etmiş arbitraj qətnaməsidir. Bu halda məsələn, ilkin, müddətli və ya hissəvi arbitraj qətnaməsi tanına və ya icraya yönəldilə bilməz.

Milli arbitraj qanunvericiliyi və Arbitraj Reqlamentləri arbitraj qətnamələrinin forma və məzmununa aid olan bir sıra tələblər müəyyən etmişlər, bu tələblərdən əlavə olaraq tərəflər arbitraj sazişində çıxarılacaq arbitraj qətnaməsi üçün əlavə tələblər nəzərdə tuta bilərlər.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 31-ci maddəsinə əsasən arbitraj qərarı forma və məzmununa görə aşağıdakı 3 tələbə cavab verməlidir:

1) Arbitraj qərarı **yazılı formada çıxarılmalıdır** ;

2) Arbitr və ya arbitrlər tərəfindən imzalanmalıdır, birdən artıq arbitr olduğu arbitraj icraatında həmin qərara arbitraj məhkəməsi üzvlərinin çoxu imza etməli, digər imzaların olmaması səbəbləri göstərilməlidir;

3) Arbitraj qərarında onun çıxarılması tarixi və yeri göstərilməlidir.

BKAM-ın Əsasnaməsinin 48-ci maddəsi isə arbitraj qətnaməsi qarşısında daha geniş tələblər qoyur;

Qətnamədə aşağıdakılar göstərilməlidir:

- BKAM-ın adı;
- işin nömrəsi;
- qətnamənin çıxarılma yeri və tarixi;
- işə baxan arbitrlərin adları və soyadları;
- Arbitraj araşdırmasında iştirak edən tərəflərin (və ya onların nümayəndələrinin) və digər şəxslərin adları və soyadları;
- mübahisənin predmeti və işin qısa məzmunu;
- qətnamənin əsaslandığı motivlər;
- iddia tələblərinin təmini və ya rədd edilməsinə dair nəticə;
- iş üzrə arbitraj xərcləri və rüsumlarının məbləği, onların tərəflər arasında bölünməsi;
- arbitrlərin imzası.

Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsini imzalaya bilmirsə, BKAM-ın sədri arbitrin imzasının olmaması səbəbini göstərməklə, qərarı öz imzası ilə təsdiq edir.

London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 26-cı maddəsinə uyğun olaraq tərəflər arasında yazılı şəkildə **digər hal nəzərdə tutulmadıqda**, arbitraj tərkibi arbitraj qətnaməsini yazılı formada çıxarır. Göründüyü kimi LBAM-nin Reqlamenti qətnamənin **şifahi formada** çıxarılması imkanını istisna etmir, lakin arbitraj təcrübəsində bu formadan istifadə olunmur, çünki **şifahi formada çıxarılan qətnamənin** icrası mümkünsüzdür.

Arbitraj qətnaməsi adətən arbitraj icraatının aparıldığı dildə çıxarılır.

BKAM-ın Əsasnaməsinin 47-ci maddəsinə əsasən Qətnamə çıxarıldıqdan sonra onun nəticə hissəsi tərəflərə şifahi elan edilir, əgər onlar iştirak etmirsə, 3 gün ərzində onlara yazılı formada məlumat verilir.

Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) tərəfindən qətnamənin elan edilməsindən 10 gün müddətindən gec olmayaraq katiblik əsaslandırılmış qətnaməni tərəflərə göndərir.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxmanın sonunda qətnamənin nəticə hissəsini şifahi elan etmədən, 10 gün müddətindən gec olmayaraq, əsaslandırılmış qətnamənin tərəflərə göndərilməsini elan edə bilər.

Mübahisənin həlli üçün əlavə araşdırma aparılması zərurəti yarandıqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) qətnamənin nəticə hissəsini elan etmədən araşdırmanı davam etdirə bilər.

Zərurət olduqda, BKAM-ın sədri 10 gün müddəti uzada bilər.

Arbitraj qərarının tərəflər üçün məcburi olması norması bir çox arbitrajların Reqlamentlərində nəzərdə tutulmuşdur. YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 32-ci maddəsinə əsasən arbitraj qərarı yazılı formada ifadə olunur və tərəflər üçün qəti və məcburidir. Tərəflər arbitraj qərarını ləngitmədən yerinə yetirməyi öhdələrinə götürürlər. London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 26.9-cu maddəsinə əsasən bütün arbitraj qərarları qətidir və tərəflər üçün məcburidir. Mövcud Reqlamentə uyğun olaraq, arbitraj araşdırmasına razılaşan tərəflər istənilən arbitraj qərarının ləngitmədən təcili yerinə yetirilməsi barədə öz üzərlərinə öhdəlik götürürlər və hər hansı bir dövlət məhkəməsi və ya digər məhkəmə orqanlarında apelyasiya, işə yenidən baxılması və ya şikayət verilməsi kimi hüquqlarından imtina edirlər.

Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 36-cı maddəsində də arbitraj qətnaməsinin çıxarıldığı andan məcburi olması təsbit edilmişdir.

BKAM-ın Əsasnaməsinin 54-cü maddəsinə uyğun olaraq BKAM-ın qətnaməsinin icrası məcburidir və Azərbaycan Respublikası Qanunlarının müddəalarına uyğun icra edilir.

Digər dövlətlərdə icra edilməli olan qətnamələrin icra edilməsinə və tanınmasına BMT-nin 10 iyun 1958-ci il tarixli «Xarici arbitraj məhkəmələrinin qətnamələrinin icra edilməsi və tanınması barədə» Nyu-York Konvensiyası tətbiq edilir.

Arbitraj qətnaməsi çıxarıldıqdan sonra onun surəti tərəflərə təqdim edilir. Qətnamənin surəti tərəflərə arbitrlər tərəfindən (*ad hoc* - arbitrajında), həmçinin Arbitraj Məhkəməsinin Katibliyi tərəfindən verilə bilər.

Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentinin 36-cı paraqrafına uyğun olaraq Arbitraj tərkibi arbitraj qətnaməsinin kifayət qədər nüsxəsini hazırlamalıdır. Gecikdirməyə yol vermədən qərarın bir nüsxəsi arxiv üçün olmaqla, tərəflərə çatdırılmaq üçün zəruri nüsxələr Alman Arbitraj İnstitutunun katibliyinə təqdim olunur.

Alman Arbitraj İnstitutunun katibliyi arbitraj qətnaməsini tərəflərin hər birinə bir nüsxədə çatdırır.

Arbitraj qətnaməsinin tərəflərə çatdırılması Arbitraj tərkibinin və Alman Arbitraj İnstitutunun Arbitraj araşdırması ilə əlaqədar xərcləri tam ödənilənə qədər ləngidilə bilər.

YUNSİTRAL-ın Arbitraj Reqlamentinin 32-ci maddəsinə əsasən arbitrlər tərəfindən imzalanmış arbitraj qətnaməsinin surətlərini arbitraj məhkəməsi tərəflərə göndərir. Arbitraj qətnaməsinin çıxarıldığı ölkənin arbitraj qanunvericiliyi onun qeydiyyatını və ya arbitraj məhkəməsinə saxlanca verilməsini tələb edirsə, məhkəmə bu tələbi həmin qanunvericiliyin nəzərdə tutduğu müddətdə yerinə yetirməlidir.

Qeyd etmək lazımdır ki, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 38-ci maddəsində xüsusi olaraq nəzərdə tutulur ki, arbitraj araşdırması bitdikdən sonra arbitraj tərkibi iş üzrə çıxarılmış bütün arbitraj qətnamələrinin və yazılı qərarların, eləcə də onlara aid bütün protokolların bir nüsxəsini İnstituta təqdim etməlidir və həmin sənədlər İnstitut tərəfindən saxlanılmalıdır.

## *§ 2. Qətnamədə olan səhvlərin aradan qaldırılması, qətnamənin təfsiri. Əlavə qətnamə*

Hər hansı bir məhkəmənin, o cümlədən arbitraj məhkəməsinin qətnaməsi tam, müəyyən, aydın, qanuni və əsaslı olmalıdır. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmalıdır. Məhkəmənin qətnaməsi qanuni və əsaslı olmadıqda həmin qətnaməyə apelyasiya və kassasiya qaydasında baxılmaqla səhvlər aradan qaldırıla bilər.

Beynəlxalq arbitraj məhkəmələrinin qətnamələri əvvəlki fəsillərdə qeyd edildiyi kimi qəti olduğundan ondan şikayət verilməsi imkanı çox məhduddur, başqa sözlə, dövlət məhkəmələrində mövcud olan üç pilləli məhkəmə sistemi (I instansiya, apelyasiya, kassasiya) arbitraj prosesi üçün yaddır. Bəzi arbitraj məhkəmələrinin Reqlamentlərində məhdud sferada arbitraj qətnaməsindən şikayət verilməsi qaydası müəyyən edilmişdir. Məsələn, BKAM-ın Əsasnaməsinin 52-ci maddəsinə uyğun olaraq tərəflər yalnız **arbitraj sazişində nəzərdə tutduqları halda** işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən Rəyasət Heyətinə şikayət verə bilərlər.

Arbitraj qətnaməsi həmçinin qəti, müəyyən və şərtsiz olmalıdır. Arbitraj prosesində **şərti qətnamə** çıxarılması yolverilməzdir. Göstərilən şərtlərə cavab verməyən arbitraj qətnaməsi keyfiyyətli sayıla bilməz. Arbitraj Reqlamentlərində qətnamədə yol verilən səhvlərin aradan qaldırılmasının üç yolu nəzərdə tutulmuşdur:

1. Qətnamədə olan səhvlərin aradan qaldırılması;
2. Qətnamənin təfsiri
3. Əlavə qətnamənin çıxarılması.

Arbitraj məhkəməsi tərəfindən qətnamədə yol verilmiş yanlışlıqların (tərəflərin adlarının, rekvizitlərinin təhrif edilməsi) və ya açıq hesab səhvlərinin (tutulmalı məbləğin düz göstərilməməsi) aradan qaldırılması həm tərəflərin, həm də işə baxan təkbaşına arbitrin və ya Arbitraj Kollegiyasının təşəbbüsü ilə ola bilər.

«Beynəlxalq Arbitraj haqqında» AR-nın Qanununun 33-cü maddəsinə əsasən tərəflər arasında müddətlər barəsində digər razılıq yoxdursa, qərarın alınmasından 30 gün müddətində tərəflərdən biri digər tərəfi xəbərdar etməklə arbitraj məhkəməsindən qərarda yol verilmiş yazı xətalarını və hesab səhvlərinin düzəldilməsini, həmçinin, çap və yaxud yol verilmiş digər bu cür qüsurların aradan qaldırılmasını xahiş edə bilər.

Arbitraj məhkəməsi belə müraciəti əsaslı hesab edərsə, onu aldığı gündən 30 gün müddətində müvafiq düzəliş etməli və yaxud izahat verməlidir.

Qanunun 33-cü maddəsinin 2-ci bəndinə əsasən Arbitraj Məhkəməsi də öz təşəbbüsü ilə qərarın verildiyi gündən 30 gün müddətində qətnamədə yol verilən hər hansı qüsuru aradan qaldıra bilər.

Təcrübədə bir qayda olaraq qətnamədə olan yanlışlıqlar və hesab səhvləri özünü ayrıca söz və ya ifadələrin təhrif olunması, arbitrlərin və ya proses iştirakçıların ad və soyadlarının düzgün yazılmaması, hüquqi şəxsin adının təhrif olunması, ödənilməli və ya silinməli məbləğin azaldılması və ya çoxaldılması, rəqəmlərin (faizlərin) təhrif olunması formasında göstərir.

Arbitraj qətnaməsində olan çatışmazlıqların aradan qaldırılması yollarından biri də **qətnamənin təfsiridir** (izahıdır).

Arbitraj qətnaməsi o halda təfsir edilir ki, o qeyri müəyyəndir, mətn tərəflərə aydın deyil, ziddiyyətlidir və bir qayda olaraq qeyri-müəyyənlik qətnamənin qərar hissəsinə aid olur və onun icrasını ya çətinləşdirir, ya da mümkünsüz edir.

Beynəlxalq Arbitraj haqqında AR Qanununun 33-cü maddəsinə əsasən tərəflər arasında müddətlər barəsində digər razılıq yoxdursa, qərarın alınmasından 30 gün müddətində tərəflər arasında əldə olunmuş müvafiq razılaşma əsasında hər hansı bir tərəf digər tərəfi bu haqda xəbərdar etməklə arbitraj məhkəməsindən qərarın müvafiq hissəsinin və yaxud hər hansı konkret bəndinin **izah edilməsini** xahiş edə bilər. Arbitraj Məhkəməsi belə müraciəti əsaslı hesab edərsə, onu aldığı

gündən 30 gün müddətində müvafiq düzəliş etməli və yaxud izahat verməlidi. Belə **izahat** arbitraj qərarının **tərkib hissəsi** hesab edilir.

Arbitraj qətnaməsinə düzəlişlər və təfsir edilməsi ilə bağlı qaydalar bir çox ölkələrin Milli arbitraj qanunvericiliyində və Arbitraj Reqlamentlərində təsbit olunmuşdur və demək olar ki, normaların əksəriyyəti eynilik təşkil edir. Bu da onunla izah olunmalıdır ki, Milli arbitraj qanunvericilikləri əsasən YUNSİTRAL-ın Nümunəvi Qanunu əsasında hazırlanmışdır.

Qətnamədə düzəlişlərin edilməsinin digər bir yolu da **əlavə qətnamənin** qəbul edilməsidir. Qətnamənin tamlığı prinsipi pozulduğu hallarda əlavə qətnamənin çıxarılması zəruri olur.

Beynəlxalq Arbitraj haqqında AR Qanunun 33.3-cü maddəsində əlavə qətnamənin çıxarılması qaydası nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən tərəflər arasında digər razılıq yoxdursa, tərəflərdən biri bu barədə digər tərəfi xəbərdar etməklə **arbitraj baxışının gedişində qaldırılmış**, lakin **arbitraj qərarında öz əksini tapmamış tələblər barəsində** arbitraj məhkəməsindən əlavə qərar çıxarılmasını xahiş edə bilər. Arbitraj məhkəməsi xahişi haqlı və əsaslı hesab edərsə, 60 gün müddətində **əlavə qərar** çıxarmalıdır. Arbitraj Məhkəməsi, zəruri olarsa, əlavə qərar çıxarılması, qərarda düzəlişlər edilməsi və yaxud müvafiq izahat verilməsi müddətini artıra bilər.

Əlavə qətnamə arbitraj qətnaməsinin forma və məzmunu üçün müəyyən olunan tələblərə cavab verməlidir.

## *§ 3. Arbitraj qətnamələrinə Arbitraj Məhkəməsi tərəfindən yenidən baxılması*

Əvvəlki fəsillərdə qeyd edildiyi kimi bir qayda olaraq arbitraj qətnamələri qəti olur və onun icrası tərəflər üçün məcburidir. Dövlət məhkəmələrinin çıxardığı qətnamələr üçün müəyyən olunan çoxpilləli şikayət mexanizmi arbitraj məhkəmələri üçün yaddır, lakin bununla belə arbitraj məhkəmələrinin də qətnamələrinin yoxlanılması qaydası mövcuddur.

Arbitraj Məhkəmələri tərəfindən arbitraj qətnamələrinə yenidən baxılması qaydası bir sıra Arbitraj Reqlamentlərində nəzərdə tutulmuşdur.

Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 27-ci maddəsinə uyğun olaraq hər hansı qərarı imzalamazdan əvvəl arbitraj

tərkibi qərarın layihəsini Məhkəməyə təqdim edir. Məhkəmə qərarın formasına, arbitraj tərkibinin qərar qəbul etmək müstəqilliyinə toxunmadan dəyişiklik edə bilər; o, həmçinin, məsələnin mahiyyətinə aid olan məqamlara diqqət yetirə bilər. Qərar, Məhkəmə tərəfindən onun forması bəyənildikdən sonra imzalanır.

Vaşinqton Konvensiyası İnvestisiya mübahisələrinin həlli üzrə Mərkəzin çıxardığı qətnamələrin yoxlanmasının xüsusi prosedurunu müəyyən edir.

Həmin prosedura müvafiq olaraq çıxarılan qətnamə ilə razı olmayan hər hansı bir tərəf 120 gün ərzində həmin qətnamənin ləğv edilməsi üçün yazılı ərizə ilə Mərkəzin Baş Katibinə müraciət edir. Mərkəzin İnzibati Şurasının Sədri (Ümumdünya Bankının Prezidenti öz vəzifəsinə görə həmin Şuranın Sədridir) ərizəni aldıqdan sonra Mərkəzin arbitrlər siyahısında olan şəxslərin içərisindən (o şəxslər işə baxılmasında iştirak etməməlidirlər) 3 nəfərdən ibarət xüsusi komitə təyin edir. Komitə üzvləri mübahisə üzrə tərəf olan şəxslərin və ya onların investisiyalarının mənsub olduğu dövlətin vətəndaşları ola bilməzlər. Xüsusi Komitə arbitraj qətnaməsinə yenidən baxaraq onu tam və ya qismən ləğv edə və ya tam və ya qismən qüvvədə saxlaya bilər.

Konvensiyaya əsasən arbitraj qətnamələri aşağıdakı əsaslara görə ləğv edilə bilər:

1) əgər arbitraj lazımi qaydada yaradılmamışdırsa;
2) əgər arbitraj öz səlahiyyətini aşmışdırsa;
3) əgər arbitrlərdən birinin qərəzli olması müəyyən edilərsə;
4) əgər prosedur qaydalarından əhəmiyyətli dərəcədə kənara çıxarılmışdırsa;
5) əgər arbitraj qətnaməsi kifayət qədər əsaslandırılmamışdırsa.

Xüsusi Komitə arbitraj qətnaməsini tam ləğv etdiyi halda iş yenidən baxılmaq üçün ümumi əsaslarla təşkil edilmiş yeni arbitraj tərkibinə verilir. Qətnamə qismən ləğv edildiyi halda arbitraj tərkibi ləğv edilən hissə üzrə işə baxmağa haqlıdır.

Xüsusi Komitə qətnaməni tam qüvvədə saxlayarsa Vaşinqton Konvensiyasında ondan təkrar şikayət verilməsi qaydası nəzərdə tutulmamışdır, ona görə də hesab etmək olar ki, qətnamə icraya yönəldilməlidir.

BKAM-ın Əsasnaməsinin 52-ci maddəsinə əsasən tərəflər arbitraj sazişində nəzərdə tutduqları halda Rəyasət Heyəti işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən verilmiş şikayətlərə baxır.

Tərəflər yalnız arbitraj sazişində nəzərdə tutduqları halda işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən Rəyasət Heyətinə şikayət verə bilərlər.

Tərəflərin Rəyasət Heyətinə verdiyi şikayət ərizəsi 5 gün ərzində katiblik tərəfindən işlə birlikdə Rəyasət Heyətinə təqdim edilir.

Tərəflər işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnaməsinin surətini aldıqdan 30 gün ərzində Rəyasət Heyətinə verdikləri şikayəti katibliyə təqdim etməlidirlər, əks halda şikayət müddəti ötürülmüş hesab edilir və qəbul olunmur.

Üzürlü səbəb olduqda, şikayət vermə müddəti bərpa edilə bilər.

Rəyasət Heyəti arbitraj qətnamələrindən verilən şikayətlərə (şikayət verildiyi vaxtdan) 2 ay ərzində, digər qərarlardan verilən şikayətlərə 10 gün müddətində baxıb həll etməlidir.

Rəyasət Heyəti üzvlərinin 2/3 hissəsi iştirak etdikdə Rəyasət Heyətinin iclası səlahiyyətli sayılır. Səslər bərabər olduqda şikayət qəbul edilməmiş hesab olunur.

Rəyasət Heyətində işlərə baxılma qaydası Əsasnamə ilə müəyyən edilən qaydalara uyğun aparılır.

Rəyasət Heyətinin qətnaməsi Əsasnamənin tələblərinə riayət edilməklə qəbul olunur. Rəyasət Heyəti yenidən mübahisəyə baxır və işə təkbaşına baxmış arbitrin və ya Arbitraj Kollegiyasının qətnaməsinin dəyişdirilmədən saxlanılması və ya qətnamənin ləğv edilərək yeni qətnamə çıxarılması və yaxud da qətnamənin dəyişdirilməsi, o cümlədən, işin BKAM-da baxılmalı olmaması barədə qərar çıxarmaq hüququna malikdir.

Rəyasət Heyətinin qətnaməsi qətidir və onlardan şikayət verilə bilməz.

Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentində, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentində, Alman Arbitraj İnstitutunun Arbitraj Məhkəməsinin Reqlamentində, Vyana Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsinin Arbitraj və Barışıq Reqlamentində Arbitraj qətnamələrinə yenidən baxılması ilə bağlı normalar nəzərdə tutulmamışdır.

Beynəlxalq Arbitraj təcrübəsində arbitraj qətnamələrinə digər orqanlarda baxılması hallarına da rast gəlinir. Məsələn, Səudiyyə Ərəbistanda arbitraj qətnamələrinə Kommersiya mübahisələrinin nizama salınması üzrə Xüsusi Komitədə baxılması nəzərdə tutulmuşdur.

# XII fəsil
# Arbitraj qətnamələri üzərində məhkəmə nəzarəti

### *§ 1. Arbitraj qətnamələri üzərində məhkəmə nəzarətinin anlayışı və məqsədi*

Əvvəlki fəsillərdə qeyd edildiyi kimi, arbitraj prosesinin səciyyəvi xüsusiyyətlərindən biri də beynəlxalq arbitraj məhkəmələrinin qətnamələrinin qəti olması və ondan şikayət verilməsi imkanlarının məhdud olmasıdır. Arbitraj sazişini imzalayan tərəflər bir çox hallarda arbitraj qətnaməsindən şikayət verilməsi ilə bağlı bəndi də razılaşdırırlar, arbitraj sazişində belə razılıq nəzərdə tutulmadığı hallarda isə arbitraj qətnaməsindən şikayət verilməsi qaydası arbitraj Reqlamentlərində müəyyən edilir.

Lakin arbitraj qətnamələri də bəzi hallarda qanunun və arbitraj sazişinin tələblərinə zidd çıxarıla bilər, belə arbitraj qətnamələrində olan səhvlərin aradan qaldırılması məqsədilə arbitraj prosesində **daxili** (arbitraj institutlarının özləri tərəfindən)[1] və **xarici** (dövlət məhkəmələri tərəfindən) adlanan nəzarət mexanizm mövcuddur.

Arbitraj prosesində qətnamələr üzərində nəzarət mexanizminin mövcudluğu qətnamələrdə olan ciddi maddi və prosessual hüquq pozuntularının aradan qaldırılmasına və son nəticədə arbitraj qətnamələrinin nüfuzunun yüksəldilməsinə xidmət edir. Arbitraj qətnamələri üzərində nəzarətin həyata keçirilməsi nəticəsində arbitraj qətnaməsi tam və ya qismən ləğv edilə bilər və bunun nəticəsində də həmin qətnamənin icrası Nyu-York Konvensiyasına əsasən mümkünsüz ola bilər.

Arbitraj prosesində qətnamələr üzərində məhkəmə nəzarəti çox dar münasibətlər çərçivəsində mümkündür, belə ki, məhkəmə yalnız qətnamənin prosessual aspektləri ilə bağlı məsələləri yoxlamaqla onu tam və ya qismən ləğv edə bilər. Ləğv etmənin əsasları isə Milli arbitraj qanunvericiliyində və Beynəlxalq Konvensiyalarda nəzərdə tutulmuşdur.

Dünyada arbitraj qətnamələri üzərində məhkəmə nəzarətinin üç əsas modeli mövcuddur:

1) Arbitraj qətnaməsinin mahiyyət üzrə yoxlanılması (maddi və prsessual hüquqların düzgün tətbiq edilməsi, iş üçün mühüm əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi, habelə prosessual pozuntuların mövcudluğunun aşkar edilməsi);

[1] Bu barədə XI fəslin 3-cü paraqrafında ətraflı bəhs edilmişdir.

2) Arbitraj qətnaməsi üzrə arbitraj tərkibinin səlahiyyətinin mövcudluğunun və işə baxılması zamanı mühüm prosessual pozuntulara yol verilməsinin yoxlanılması;

3) hər hansı məhkəmə nəzarətinin olmaması.

Arbitraj qətnaməsinin mahiyyət üzrə məhkəmə tərəfindən yoxlanılması İngiltərənin 1979-cu il tarixli arbitraj qanunvericiliyindən nəzərdə tutulmuşdu, həmin qanuna əsasən İngiltərə ərazisində çıxarılan bütün arbitraj qətnamələrindən maddi hüququn səhv tətbiq edilməsi səbəbi ilə dövlət məhkəmələrinə şikayət verilə bilərdi. Lakin İngiltərənin hazırkı arbitraj qanunvericiliyinə uyğun olaraq (1996-cı il tarixli qanunun 67-70-ci maddələri) hər bir tərəf arbitraj qətnaməsi çıxarılandan 28 gün ərzində arbitraj tərkibinin səlahiyyətsiz olması və ya ciddi prosessual pozuntular motivi ilə dövlət məhkəməsinə şikayət ərizəsi ilə müraciət edə bilər. Bu halda tərəflər arasında yazılı razılıq yoxdursa, məhkəmə arbitrlər tərəfindən maddi hüququn düzgün tətbiq edilib – edilməməsini də yoxlamağa haqlıdır. Məhkəmə arbitraj qətnaməsini yoxladıqdan sonra onu qüvvədə saxlaya bilər, tam və ya qismən ləğv edə bilər və yenidən baxılmaq üçün arbitrlərə göndərə bilər.

Dünyanın əksər ölkələrinin (o cümlədən, Rusiya, Almaniya, ABŞ, Hollandiya, Fransa) arbitraj qanunvericiliyi qətnamənin dövlət məhkəmələri tərəfindən ləğv edilməsinin əsası kimi ciddi prosessual pozuntuları və arbitrlərin öz səlahiyyətlərini aşmasını nəzərdə tuturlar. Bu qrup ölkələrin əksəriyyəti YUNSİTRAL-ın Nümunəvi Qanunu Əsasında milli arbitraj qanunvericiliyini qəbul etmiş ölkələrdir və Azərbaycan Respublikası da bu ölkələr sırasındadır. Bu ölkələrdə arbitraj qətnamələri üzərində məhkəmə nəzarəti imperativ institutdur və YUNSİTRAL-ın Nümunəvi Qanununun 34-cü maddəsinə uyğun olaraq məhkəmə aşağıdakı məsələləri araşdırmağa haqlıdır:

a) tərəflər arasında arbitraj sazişinin mövcudluğu;

b) mübahisənin predmetinin arbitraj sazişinə uyğunluğu;

c) mübahisəni həll edərkən arbitrlərin hərəkətlərinin tərəflərin arbitraj sazişinə uyğunluğu.

Göründüyü kimi məhkəmə nəzarətinin bu modelinin əsas vəzifəsi arbitraj araşdırmasının aparılması prosedurunun ədalətli olmasının və arbitrlərin öz səlahiyyət həddini aşmamasının təmin edilməsidir, əgər arbitraj qətnaməsi ərazisində arbitrajın keçirildiyi ölkənin ümumi qaydasına zidd deyildirsə hesab edilir ki, arbitrlər öz səlahiyyətləri daxilində prosessual normalara uyğun hərəkət etmişlər.

Dünyanın bəzi ölkələrinin arbitraj qanunvericiliyində (o cümlədən Malaziyada) Beynəlxalq arbitrajların qətnamələri üzərində ümumiyyətlə məhkəmə nəzarətinin mövcudluğu nəzərdə tutulmamışdır. Məsələn, Kuala-Lumrur bölgə arbitraj Mərkəzinin Reqlamenti əsasında işə baxılarkən çıxarılan arbitraj qətnaməsindən dövlət məhkəməsinə şikayət verilməsi imkanı arbitraj qanunvericiliyində təsbit edilməmişdir. 1998-ci ilədək Avropa dövləti olan Belçikada da arbitraj qətnamələrinə dövlət məhkəmələri tərəfindən yenidən baxılması ilə bağlı qanunvericilikdə norma yox idi, lakin 1998-ci ildə Belçikanın arbitraj qanunvericiliyinə dəyişiklik edildi və arbitraj qətnamələrinə dövlət nəzarəti bərqərar oldu.

Qeyd etmək lazımdır ki, dünyanın əksər ölkələrinin arbitraj qanunvericiliyində tərəflərin arbitraj sazişi ilə dövlət nəzarəti qaydasından imtina etmək imkanı nəzərdə tutulmuşdur. Belə ki, tərəflər arbitraj sazişində gələcəkdə çıxarılacaq arbitraj qətnaməsindən dövlət məhkəməsinə şikayət verilməməsi barədə razılığa gələ bilərlər.

## *§ 2. Məhkəmə nəzarətinin hüquqi tənzimi*

Arbitraj qətnamələri üzərində məhkəmə nəzarətinin hüquqi əsaslarından biri «Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi barədə» 1958-ci il tarixli Nyu-York Konvensiyasıdır. Konvensiyanın 3-cü maddəsinə əsasən Konvensiyanı imzalayan ölkələr arbitraj qərarlarını mütləq şəkildə tanıyır və bu Konvensiyada təsbit edilmiş şərtlərə uyğun olaraq, bu qərarların tanınması və icra edilməsi tələb olunan ərazinin prosedur normalarına müvafiq şəkildə həmin qərarları icraya yönəldir. Mövcud Konvensiya tətbiq edildiyi arbitraj qərarlarının tanınmasına və icra edilməsinə daxili qərarların tanınması və icra edilməsi üçün daha ağırlaşdırıcı şərtlər və ya mövcud olandan daha yüksək rüsum və ödənişlər tətbiq edilməməlidir.

Konvensiyanın 5-ci maddəsində arbitraj qərarlarının tanınmasından və icra edilməsindən imtina edilməsinin əsasları təsbit olunmuşdur. Konvensiyanın 6-cı maddəsinə uyğun olaraq səlahiyyətli hakimiyyət orqanı qarşısında (AR-nın Ali Məhkəməsi - müəllif) arbitraj qərarının icrasının ləğv edilməsi və ya dayandırılması barədə vəsatət qaldırıldığı halda bu qərarın tanınması və icra edilməsi barədə xahiş olunan hakimiyyət orqanı məqsədəuyğun hesab etdiyi halda bu qərarın icra edilməsi məsələsinin həllini saxlaya bilər, eyni zamanda bu qərarın

icrasını xahiş edən tərəfin vəsatəti əsasında digər tərəfin üzərinə lazımi təminatın görülməsi öhdəliyini qoya bilər.

Konvensiyanın 7-ci maddəsinə əsasən Mövjud Konvensiyanın qərarları Razılaşan Dövlətlər arasında bağlanmış arbitraj qərarlarının tanınması və icra edilməsi barədə ikitərəfli və ya çoxtərəfli sazişlərin fəaliyyətinə toxunmur, habelə heç bir maraqlı tərəfi belə arbitraj qərarının tanınması və icra edilməsi tələb olunan ölkənin qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin imkan verdiyi qaydada və hədd çərçivəsində hər bir arbitraj qərarından faydalanmaq hüququndan məhrum etmir.

Mövcud Konvensiya tərəflər üçün müəyyən hədlər çərçivəsində məcburi hesab edildiyi vaxtdan etibarən arbitraj qeyd-şərləri haqqında 1923-cü il Cenevrə protokolu və xarici arbitraj qərarlarının icra edilməsi barədə 1927-ci il Cenevrə protokolu Razılaşan Dövlətlər arasında öz qanuni qüvvələrini itirirlər.

Arbitraj qərarlarının dövlət məhkəmələri tərəfindən ləğv edilməsinin əsasları YUNSİTRAL-ın Nümunəvi arbitraj Qanununda da nəzərdə tutulmuşdur. Qeyd etmək lazımdır ki, YUNSİTRAL-ın Nümunəvi arbitraj Qanunu bir çox ölkələrin Milli arbitraj qanunvericiliyinə öz pozitiv təsirini göstərmişdir. Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunu da həmin qanun əsasında hazırlanmışdır və demək olar ki, bir çox maddələr məzmununa görə üst-üstə düşür.

Beynəlxalq Arbitraj haqqında AR Qanununun 6-cı maddəsinə uyğun olaraq arbitraja münasibətdə müvafiq nəzarət və yardım funksiyalarını yerinə yetirən Məhkəmə AR-nın Ali məhkəməsidir.[1] Qanunun VII fəsli Arbitraj qərarından şikayət verilməsinə həsr edilmişdir və arbitraj qərarının dövlət məhkəməsi tərəfindən ləğv edilməsinin əsasları dəqiq müəyyən edilmişdir. Qanunun 34-cü maddəsinin 3-cü bəndinə uyğun olaraq Qərarın ləğv edilməsi haqqında vəsatət, vəsatəti verən tərəfin arbitraj qərarını aldığı gündən başlayaraq 3 aydan gej qaldırıla bilməz, müraciət 33-cü maddəyə uyğun verilmişdirsə - arbitraj məhkəməsi tərəfindən bu müraciətlə bağlı qərar çıxarıldığı gündən başlayaraq 3 aydan gec vəsatət verilə bilməz.
Arbitraj qərarını ləğv etmək xahişi ilə müraciət olunduğu halda məhkəmə, əgər lazım bilərsə və əgər tərəflərdən biri xahiş edərsə, arbitraj məhkəməsinə arbitraj baxışını bərpa etmək və ya arbitraj məhkəməsinin fikrincə, arbitraj məhkəməsinin qərarının ləğv edilməsi üçün əsasları aradan götürməyə imkan verən digər hərəkətlərə əl atmaq

[1] Əvvəllər bu funksiyanı AR-nın İqtisad Məhkəməsi yerinə yetirirdi.

imkanı vermək üçün ləğvetmə məsələsi üzrə icraatı özünün müəyyən etdiyi müddətə dayandıra bilər.

### *§ 3. Arbitraj qətnaməsinin ləğvi üçün əsaslar*

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 34-cü maddəsinə əsasən Arbitraj qərarı AR-nın Ali Məhkəməsi tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

Arbitraj qərarı 6-cı maddədə göstərilmiş məhkəmə tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

a) əgər vəsatət qaldıran tərəf sübutlar təqdim etsə ki:

I) Arbitraj sazişinin tərəflərindən biri bu və ya digər dərəcədə fəaliyyət qabiliyyəti olmayan olmuşdur və yaxud arbitraj sazişi tərəflərin onu tabe etdirdikləri qanuna görə, sazişdə bu barədə göstəriş olmadıqda isə Azərbaycan Respublikasının qanunvericiliyinə görə etibarsızdır; və yaxud

II) arbitrin təyin edilməsi və yaxud arbitraj baxışı haqqında lazımi qaydada xəbərdar edilməmiş və yaxud başqa səbəblərdən öz izahatlarını təqdim edə bilməmişdir; yaxud

III) qərar arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılmışdır; yaxud qərar arbitraj sazişinin bəndlərindən kənara çıxan məsələləri əhatə edir (belə halda arbitraj sazişinin predmetinə aid olmayan məsələləri əhatə edən arbitraj qərarının müvafiq hissələri ləğv edilə bilər); və yaxud

IV) arbitraj məhkəməsinin tərkibi və ya arbitraj proseduru tərəflərin bağladıqları sazişə uyğun olmamışdır (belə saziş tərəflərin yerinə yetirməyə məjbur olduqları bu Qanunun müddəalarına zidd olmasa) və yaxud tərəflər belə sazişi bağlamadıqları halda, arbitrac məhkəməsinin tərkibi və yaxud arbitrac proseduru bu Qanuna uyğun olmamışdır; və yaxud

b) əgər məhkəmə müəyyən etsə ki:

I) Azərbayjan Respublikasının qanunverijiliyinə görə mübahisə obyekti arbitrac baxışının predmeti ola bilməz; və yaxud

II) arbitrac qərarı Azərbayjan Respublikasının Konstitusiyasına ziddir.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 34-cü maddəsi ilə YUNSİTRAL-IN Nümunəvi Arbitraj Qanunun 34-cü maddələri eynilik təşkil edir.

Bir çox sivil dövlətlərin arbitraj qanunları kimi bu qanunun hazırlanmasında Beynəlxalq Ticarət Arbitrajı haqqında Nümunəvi

YUNSİTRAL Qanundan geniş istifadə olunmuşdur, hətta Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının Qanununun maddələri ilə bu qanunun maddələrinin sıra sayı da üst-üstə düşür.

Beynəlxalq Arbitraj haqqında qanunun 34 və 36-cı maddələri də YUNSİTRAL qanunu ilə eynilik təşkil edir. Bununla belə Arbitraj haqqında qanunun 34-cü maddəsinin 2-ci hissəsinin «b» bəndində ingilis dilindən tərcümədə səhvə yol verilmişdir. Həmin bənd 10 may 2005-ci il tarixədək belə olmuşdur:

- Arbitraj qərarı 6-cı maddədə göstərilmiş məhkəmə tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

«... II) arbitraj qərarı **Azərbacan Respublikasının qanunvericiliyinə** zidd olduqda».

Nümunəvi YUNSİTRAL qanunun 34-cü maddəsində həmin bənd aşağıdakı kimidir:

«... II) arbitraj qərarı müvafiq dövlətin **ümumi qaydalarına** zidd olduqda».

«Xarici arbitraj qərarlarının tanınması və icrası edilməsi barədə 1958-ci il Nyu-York Konvensiyasının» V maddəsinin 2-ci «b» bəndi də aşağıdakı kimi ifadə edilmişdir:

«... Arbitraj qərarının tanınmasından və icra edilməsindən aşağıdakı hallarda imtina edilə bilər:

... b) bu qərarın tanınması və icra edilməsi həmin ölkənin **ümumi qaydalarına** zidd olduqda»

Digər dövlətlərin də Arbitraj haqqında qanunlarında söhbət «arbitraj qərarının həmin dövlətin **ümumi qaydalarına** zidd olmasından»gedir.

**«Ümumi qayda»** beynəlxalq xüsusi hüququn bir institutu olub, öz ərazisində xarici hüququn tətbiqini nəzərdə tutan hər hansı bir dövlətin eyni zamanda həmin hüququn tətbiqi dairəsinin müəyyən edilməsi məqsədlərinə xidmət edir.

**«Ümumi qayda»** beynəlxalq sənədlərdə iki cür adlanılır:**«o r d r e p u b l i k»** fransız dilində, **«r u b l i k p o l i c u»** ingilis dilində.

Müxtəlif ölkələrin qanunvericiliyində **«ümumi qayda»** ifadəsi müxtəlif formalarda işlədilir. Məsələn, 1987-ci il Avstriyanın beynəlxalq xüsusi hüquq haqqında qanunda (6-cı maddə), 1982-ci il Türkiyənin beynəlxalq xüsusi hüquq haqqında qanunda (5-ci maddə), 1988-ci il İsveçrənin beynəlxalq xüsusi hüquq haqqında qanunda (17-ci maddə) **«hüquq qaydasının əsasları»**, 1965-ci il Polşanın beynəlxalq xüsusi hüquq haqqında qanunda (6-cı maddə) **«hüquq qaydasının əsas prinsipləri»**, Almaniya qanunvericiliyində **«Alman hüququnun əsas**

**prinsipləri»** və s. adlandırılır. Azərbaycan Respublikasının «Beynəlxalq xüsusi hüquq haqqında» qanununun «xarici hüququn tətbiqinə məhdudiyyət» adlandırılan 4-cü maddəsinə uyğun olaraq **«Azərbaycan Respublikasının Konstitusiyasına və referendumla qəbul edilmiş aktlarına** zidd olan xarici hüquq normaları Azərbaycan Respublikasında tətbiq edilmir».

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 157-ci maddəsində göstərilir ki, «xarici ölkələrin Azərbaycan Respublikasının **hüquq qaydasının əsaslarına** zidd olan hüquq normaları Azərbaycanda tətbiq edilmir. Bu halda Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilir».

Normaların mətnindən göründüyü kimi birinci halda «**Konstitusiya və referendumla qəbul edilmiş aktlar»**, ikinci halda isə **«hüquq qaydasının əsasları»** ifadələrindən istifadə edilmişdir.

Ona görə də «Beynəlxalq Arbitraj haqqında» Azərbaycan Respublikasının qanununun 34-cü və 36-cı maddələrinin mətnində səhv tərcümə nəticəsində nəzərdə tutulan **«arbitraj qərarlarının Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olması»** norması Beynəlxalq xüsusi hüquq haqqında qanunun 4-cü maddəsinə, AR-nın imzaladığı «Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında 1958-ci il Nyu-York Konvensiyasının» V maddəsinin 2-ci hissəsinin «b» bəndinə, Nümunəvi YUNSİTRAL qanununun 34 və 36-cı maddəsinə zədd olduğu üçün bu sətirlərin müəllifinin təşəbbüsü və təklifi ilə Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 34-cü maddəsinin 2-ci bəndinə AR-nın Milli Məclisinin 10 may 2005-ci il tarixli qərarı ilə düzəliş edilmiş və «AR-nın qanunvericiliyinə ziddir» ifadəsi **«AR-nın Konstitusiyasına ziddir»** sözləri ilə əvəz olunmaqla beynəlxalq normaların tələblərinə uyğunlaşdırılmışdır.

Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi arbitraj araşdırmasına bir qayda olaraq arbitrajın keçirildiyi yerin qanunları tətbiq edilir. Lakin Nyu-York Konvensiyasının 5-ci maddəsinin 1-ci bəndinə əsasən arbitraj qərarı icra edilə bilmədiyi halların sırasında **«… qərarın çıxarılmadığı ölkənin və yaxud qanunvericiliyi tətbiq edilən ölkənin səlahiyyəti hakimiyyət orqanlarının göstərişinə əsasən qərarın icrası dayandırılmışdır»** şərti də aid edilmişdir. Göründüyü kimi Konvensiya arbitraj araşdırmasının keçirildiyi yerin də qanununun tətbiq edilməsi imkanını istisna etmir, ancaq bu normanın təcrübədə tətbiq edilməsinə demək olar ki, rast gəlinmir.

Beynəlxalq Arbitraj haqqında AR qanununun 34-cü maddəsinin 1-ci bəndinə əsasən **arbitraj sazişini imzalayan tərəflərdən biri bu və**

**ya digər dərəcədə fəaliyyət qabiliyyətsiz olduqda və yaxud arbitraj sazişi tərəflərin onu tabe etdirdikləri qanuna görə, arbitraj sazişində bu barədə göstəriş olmadıqda isə AR-nın qanunvericiliyinə görə etibarsız olduqda arbitraj qərarı ləğv edilə bilər.**

Arbitraj sazişini imzalayan tərəflərdən biri fəaliyyət qabiliyyətsiz olduqda həmin şəxsin imzaladığı arbitraj sazişi də etibarsız hesab edilməlidir, arbitraj sazişinin etibarsız hesab edilməsinin digər şərtləri də mövcuddur və bu barədə V fəsilin 2-ci paraqrafında ətraflı bəhs edilmişdir.

Arbitraj qərarının ləğv edilməsinin ikinci əsası (Qanunun 34-cü maddəsinin I hissəsi) **tərəflərin arbitrin təyin edilməsi və yaxud arbitraj baxışı haqqında lazımi qaydada xəbərdar edilməməsi və yaxud başqa səbəblərdən öz izahatlarını təqdim edə bilməməsidir.**

Sadalanan əsaslar arbitraj araşdırmasının gedişi prosesində yol verilmiş ciddi prosessual hüquq pozuntuları hesab olunur və qətnamənin ləğv edilməsinə səbəb olur. Arbitraj prosesinin əsas prinsiplərindən biri də tərəflərə öz mövqeyini sübut etmək üçün bərabər imkanlar verilməsi və bərabər şəraitin yaradılmasıdır, bu prinsipə əməl edilməməsi prosessual hüquq pozuntusu sayılır, çünki arbitrin təyin edilməsi, arbitraj iclasının yeri və vaxtı haqqında tərəflərə məlumat verilməməsi onların prosessual hüquqlarını pozur və son nəticədə tərəfi arbitraj baxışında iştirak etmək imkanından məhrum edir.

Arbitraj qərarının ləğv edilməsinin üçüncü əsası **qərarın arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılması, yaxud qərarın arbitraj sazişinin bəndlərindən kənara çıxan** məsələləri əhatə etməsidir. Qərarın arbitraj sazişinin bəndlərindən kənara çıxan məsələləri əhatə etməsi hallarında arbitraj sazişinin predmetinə aid olmayan məsələləri əhatə edən arbitraj qərarının müvafiq hissələri ləğv edilə bilər. Arbitraj sazişinin məzmunu və arbitraj sazişi üzrə arbitrlərin səlahiyyətləri məsələləri bu kitabın V fəslində geniş araşdırıldığından bir daha həmin məsələlərə toxunmağa ehtiyac duymuruq. Lakin qeyd etməyi lazım bilirik ki, arbitraj məhkəməsi özünün səlahiyyətlərinin olub-olmaması barədə bəyanata dair ya ilkin xarakterli məsələ üzrə olduğu kimi, yaxud da mübahisənin mahiyyətcə həll edilməsi kimi qərar çıxara bilər.

Əgər arbitraj məhkəməsi ilkin xarakterli məsələ üzrə olduğu kimi qərar çıxarsa ki, o səlahiyyətlidir, tərəflərdən hər hansı biri bu qərar haqqında xəbərdarlıq aldıqdan sonra 30 gün ərzində AR Ali Məhkəməsindən xahiş edə bilər ki, bu məsələyə dair qərar qəbul etsin.

Belə qərardan şikayət verilə bilməz, bu cür xahiş həll edilənədək arbitraj məhkəməsi arbitraj baxışını davam etdirə və arbitraj qərarı çıxara bilər.

Arbitraj qərarının ləğv edilməsinin digər əsası **arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj prosedurunun tərəflərin bağladıqları sazişə uyğun olmaması və yaxud tərəflər belə saziş bağlamadıqları halda, arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj prosedurunun Beynəlxalq Arbitraj haqqında Qanuna uyğun olmamasıdır.** Hər bir halda tərəflərin bağladıqları arbitraj sazişi Qanunun tələblərinə uyğun olmalıdır və arbitraj sazişinin şərtlərindən biri arbitrlər tərəfindən pozulduğu halda arbitraj qətnaməsi ləğv edilə bilər. Məsələn, tərəflər arbitraj sazişində işə üçüncü neytral ölkənin qanununun tətbiq edilməsi barədə razılığına gəldiyi halda arbitrlər arbitraj keçirilən ölkənin qanununu tətbiq edərsə, arbitraj qətnaməsinin ləğv edilməsi əsası mövcud olmuş olur.

Arbitraj qərarının ləğv edilməsinin bir əsası da **AR-nın qanunvericiliyinə görə mübahisə obyektinin arbitraj baxışının predmeti ola bilməməsidir.** Bu halda arbitraj qətnaməsinin ləğv edilməsi haqqında vəsatət yalnız tərəflərin deyil, həmçinin məhkəmənin öz təşəbbüsü ilə də qaldırıla bilər. Əksər ölkələrin milli qanunvericiliyi bir sıra mübahisələrin Beynəlxalq Arbitraj Məhkəmələrndə baxılmasını qadağan edir, bu sıraya əmək, ailə mübahisələri, inzibati hüquq münasibətləri, antiinhisar mübahisələri və s. aid edilir. Sadalanan mübahisələr üzrə arbitraj qərarı sözsüz ləğv edilməlidir. **Arbitraj qərarı arbitraj iclasının keçirildiyi ölkənin ictimai qaydasına zid olduqda da ləğv edilə bilər.**

### *§ 4. Arbitraj qətnaməsinin ləğv edilməsinin hüquqi nəticələri*

Arbitraj qətnaməsinin onun çıxarıldığı yerin məhkəməsi tərəfindən ləğv edilməsi ilə bağlı çıxarılan qərarını arbitraj qətnaməsinin tanınması və icra edilməsindən imtina edilməsi barədə çıxarılan məhkəmə qərarından fərqləndirmək lazımdır. Məhkəmə xarici arbitraj qətnaməsinin tanınması və icra edilməsi barədə qərar çıxararkən ona həmin dövlətin məhkəmə qərarı hüququ və qüvvəsi verir və müvafiq olaraq həmin arbitraj qətnaməsinin qüvvəsini öz dövlətinin ərazisi ilə məhdudlaşdırır. Başqa sözlə, bu halda arbitraj qətnaməsi **ekstraərazi** hüququndan məhrum olur və Nyu-York Konvensiyasına uyğun olaraq digər ölkələrin ərazisində tətbiq edilə bilməz.

Arbitraj qətnamələri dövlət məhkəmələri tərəfindən ləğv edildikdə isə qaydalar dəyişir, belə ki, bu halda arbitraj qətnaməsini

birincisi, yalnız ərazisində qətnamə çıxarılan ölkənin dövlət məhkəməsi ləğv edə bilər, ikincisi, qətnamə çıxarılan ölkənin dövlət məhkəməsi həmin qətnaməni ləğv etdiyi təqdirdə, digər ölkələrin məhkəmələri həmin ləğv edilmiş arbitraj qətnaməsini Nyu-York və Avropa Konvensiyası əsasında digər dövlətlərin ərazisində tanıya və icraya yönəldə bilməzlər. Beləliklə, arbitraj qətnaməsinin dövlət məhkəməsi tərəfindən ləğv edilməsinin hüquqi nəticəsi ondan ibarətdir ki, həmin qətnamə Nyu-York Konvensiyasını imzalayan dövlətlərin ərazisində tanına və icraya yönəldilə bilməz.

Arbitraj qətnaməsi arbitraj sazişinin olmaması və ya mübahisənin arbitraja aid olmaması səbəbi ilə ləğv olunduğu təqdirdə tərəf, iddia müddəti ötməmişsə, mübahisəni baxılmaq üçün dövlət məhkəməsinə təqdim edə bilər, arbitraj qətnaməsi prosessual pozuntular səbəbi ilə ləğv edildikdə isə iş yenidən arbitraj baxışına verilə bilər. Lakin hər iki halda arbitraj qətnaməsinin ləğvinin nəticəsində tərəflər vaxt və maliyyə itkisinə məruz qalırlar.

Ləğv edilmiş arbitraj qətnamələrinin icrasının mümkünlüyü ilə bağlı hüquq ədəbiyyatında müxtəlif fikirlərin mövcud olmasına baxmayaraq hesab edirik ki, milli məhkəmələr tərəfindən ləğv edilmiş arbitraj qətnamələri iki səbəbdən icra edilə bilməzlər:

1) milli məhkəmə tərəfindən arbitraj qətnaməsinin ləğv edilməsi həmin qətnamənin digər ölkələrdə icra edilməsini hüquqi cəhətdən istisna edir;
2) ləğv edilmiş arbitraj qətnaməsinin digər ölkələrdə icra edilməsi qətnaməni ləğv etmiş məhkəmənin mənsub olduğu ölkənin qanunlarına hörmətsizlik kimi qiymətləndirilə bilər.

Nyu-York Konvensiyasının 5-ci, Avropa Konvensiyasının 9-cu YUNSİTRAL-ın Nümunəvi Qanunun 34-cü maddələri də ləğv edilmiş arbitraj qətnamələrinin icrasını mümkünsüz sayır.

# XIII fəsil
# Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsi

### *§ 1. Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsinin anlayışı və qaydası*

Dünyanın əksər ölkələrinin Arbitraj Reqlamentləri arbitraj qərarlarının könüllü icra edilməsini nəzərdə tutur. BKAM-ın Əsasnaməsinin 53-cü maddəsinə əsasən arbitraj qətnaməsi könüllü şəkildə və qətnamədə göstərilən qaydada və müddətdə icra edilir. Analoji norma Beynəlxalq Ticarət Palatasının Arbitraj Reqlamentinin 28-ci, Stokholm Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinin 36-cı, London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinin 26-cı, Rusiya Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Reqlamentinin 44-cü maddələrində də nəzərdə tutulmuşdur.

Arbitraj prosesində qətnamələr bir qayda olaraq könüllü icra edilir, çünki arbitraj qərarını könüllü icra etməyən tərəf etibarsız tərəfmüqabil təsiri bağışlayır və digər kontragentləri onunla gələcəkdə müqavilə münasibətlərinə daxil olmaqdan çəkindirir.

Arbitraj qətnaməsini könüllü qaydada icra etməyən tərəfə qarşı isə Nyu-York Konvensiyasının 5-ci maddəsində, digər beynəlxalq sazişlərdə və Milli arbitraj qanunvericiliyində nəzərdə tutulan qətnamələrin məcburi icrası mexanizmi işə düşür.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qunununun 35-ci maddəsinə uyğun olaraq hansı ölkədə çıxarılmasından asılı olmayaraq, arbitraj qərarının icrası məcburidir və səlahiyyətli məhkəməyə (AR-nın Ali Məhkəməsinə - **müəllif**) yazılı vəsatət verildikdə icra edilir.
1958-ci il tarixli «Xarici Arbitraj qərarlarının tanınması və icra edilməsi barədə» Konvensiyanın adında «arbitraj qərarlarının **tanınması** və **icra edilməsi**» məfhumları yanaşı işlədilir, çünki arbitraj qərarı tanınmadan icrası mümkün deyildir.

**Arbitraj qərarının tanınması** – həmin qərardan doğan müəyyən hüquqi nəticələrin tanınmasıdır, əsas hüquqi nəticə qətnamənin **müstəsnalığıdır**. Qətnamənin müstəsnalığı dedikdə, eyni tərəflər arasında, eyni predmet və eyni əsasla işə hər hansı məhkəmədə bir daha baxıla bilməməsi anlaşılmalıdır, məhkəmə tərəfindən qətnamə çıxarılan işə bir daha başqa məhkəmədə baxılmamalıdır.

Arbitraj qərarlarının icra edilməsi dedikdə, adətən məhkəmənin qətnamədə nəzərdə tutulan vəzifələrin (pul vəsaitinin verilməsi, əmlakın verilməsi və ya qaytarılması, müəyyən hərəkətlərin icra edilməsi və s.) yerinə yetirilməsi üçün məcburedici tədbirlərdən istifadə etməsi imkanı anlaşılmalıdır. Arbitraj qətnaməsi tanınmadan onun icrası

mümkünsüzdür. Arbitraj qətnaməsinin tanınmasından imtina edilməsi onun icra edilməməsi ilə nəticələnir.

Beynəlxalq Arbitraj haqqında AR-nın Qanunun 35-ci maddəsinə uyğun olaraq hansı ölkədə çıxarılmasından asılı olmayaraq arbitraj qərarının icrası məcburidir və səlahiyyətli məhkəməyə (AR-nın Ali Məhkəməsinə - **müəllif**) yazılı vəsatət verildikdə icra edilir. Oxşar norma YUNSİTRAL-ın Nümunəvi Qanununun 35,36-cı maddələrində də nəzərdə tutulmuşdur.

Dünyanın heç bir ölkəsində xarici arbitraj qərarları birbaşa icra edilmir, həmin qərarların icra edilməsi üçün müvafiq ölkənin səlahiyyətli orqanının (bir qayda olaraq məhkəmənin) sərəncamı tələb olunur.[1] Ümumi qaydaya görə arbitraj qətnaməsi icra edilmək üçün icra yerinin məhkəmə orqanına təqdim olunur və həmin məhkəmə də arbitraj qətnaməsini ya tanıyıb icraya yönəldir və ya tanımaqdan və icra etməkdən imtina edir.

Xarici arbitraj qərarlarının icra edilməsi qaydasının dörd modeli mövcuddur:

1. Arbitraj qərarının məhkəmədə və ya digər səlahiyyətli orqanda qeydiyyatı;
2. Arbitraj qərarının qeydiyyat aparılmadan birbaşa icrası;
3. Arbitraj qərarının tanınması və icra edilməsi üçün məhkəməyə xahişlə müraciət edilməsi (ekzekvatura, exequatur);
4. Arbitraj qərarı əsasında borc öhdəliyinin təsdiq edilməsi məqsədilə məhkəməyə iddia təqdim edilməsi.

Beynəlxalq Arbitrajların təcrübəsində ən çox üçüncü modeldən (ekzekvatura) istifadə olunur. Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 34-36-cı maddələrinə uyğun olaraq AR-da ekzekvatura modeli tətbiq edilir. Ekzekvatura modelinə əsasən xarici arbitraj qərarının tanınması və icrası üçün məhkəməyə müraciət edilir, məhkəmə arbitraj qərarına mahiyyəti üzrə yenidən baxmadan onun Milli arbitraj qanunvericiliyində nəzərdə tutulmuş tələblərə cavab verdiyini yoxlayır və nəticədə ya arbitraj qərarını tanıyıb onu icraya yönəldir və ya onu tanımaqdan və icraya yönəltməkdən imtina edir.

[1] Burada yalnız Xarici investisiyaların qorunması üzrə beynəlxalq Mərkəzin (İCSİD) qərarları istisnalıq təşkil edir.

## *§ 2. Xarici arbitraj qətnamələrinin tanınması və icrasının beynəlxalq hüquqi tənzimi*

Xarici arbitraj qətnamələrinin tanınması və icrası ilə bağlı münasibətlər bir neçə beynəlxalq Konvensiyalar, beynəlxalq sazişlər və həmçinin tövsiyyə xarakterli beynəlxalq aktlarla tənzimlənir. Həmin beynəlxalq sənədlər içərisində ən sanballı və əhəmiyyətlisi **«Xarici arbitraj qətnamələrinin tanınması və icra edilməsi barədə» 1958-ci il tarixli Nyu – York Konvensiyasıdır.**

Konvensiyanın 1-ci maddəsinə əsasən mövcud Konvensiya tərəflərin həm fiziki, həm də hüquqi şəxslər arasında yaranan mübahisələri üzrə arbitraj qərarlarının tanınması və icra edilməsi tələb olunan dövlətdən fərqli olan dövlətin ərazisində çıxarılmış beynəlxalq arbitraj qərarlarının tanınması və icra edilməsi sahəsində tətbiq edilir. Bu Konvensiya həmçinin arbitraj qərarlarının tanınması və icra edilməsi tələb olunan dövlətin daxili qərarları hesab olunmayan arbitraj qərarlarına da tətbiq edilir.

«Arbitraj qərarları» termini hər bir konkret iş üzrə təyin edilmiş arbitrlərin (ad hoc) arbitraj qərarlarından əlavə həmçinin, tərəflərin müraciət etdiyi daimi arbitraj orqanlarının arbitraj qərarlarına da şamil edilir.

Mövcud Konvensiya imzalandıqda, ratifikasiya edildikdə və ya ona qoşulduqda, yaxud mövcud Konvensiyada nəzərdə tutulmuş bildirişi edərkən hər bir dövlət mövcud Konvensiyanı yalnız digər Razılaşan Dövlətin ərazisində çıxarılmış arbitraj qərarlarının tanınması və icra edilməsinə münasibətdə tətbiq edəcəyini qarşılıqlı əsasda tətbiq edə bilər.

Hər bir dövlət, həmçinin, bəyan edə bilər ki, o mövcud Konvensiyanı belə bəyanat verən dövlətin milli qanunvericiliyinə görə yalnız ticarət hüquq münasibətləri hesab edilən müqavilə və ya digər hüquqi münasibətlər üzrə yaranmış mübahisələrə tətbiq edəcəkdir.

Konvensiyanın 4-cü maddəsinə uyğun olaraq bundan əvvəlki maddədə göstərilən

tanınma və icraya yönəltmə üçün tanınmanı və icra edilməni tələb edən tərəf belə xahişi etdikdə aşağıdakıları təqdim etməlidir:

a) lazımi qaydada təsdiq edilmiş arbitraj qərarının əslini və yaxud həmin qərarın lazımi qaydada təsdiq edilmiş surətini;

b) II maddədə göstərilən müqavilənin (burada **arbitraj sazişi** nəzərdə tutulur - **müəllif**) əslini yaxud onun lazımi qaydada təsdiq edilmiş

surətini;

Arbitraj qərarının yaxud sazişin mətni bu qərarın tanınması və icra edilməsi tələb edilən ölkənin rəsmi dilində olmadığı halda, bu qərarın tanınmasını və icra edilməsini xahiş edən tərəf bu sənədlərin həmin dilə tərcüməsini təqdim edir. Tərcümə rəsmi və ya andlı tərcüməçi, yaxud diplomatik və ya konsulluq idarəsi tərəfindən təsdiq edilir.

Konvensiyanın 5-ci maddəsində xarici arbitraj qərarının tanınmasından və icra edilməsindən imtinanın əsasları müəyyən olunmuşdur.

V maddənin 1-ci bəndinin «d» yarımbəndində göstərilən səlahiyyətli hakimiyyət orqanı qarşısında arbitraj qərarı icrasının ləğv edilməsi və ya dayandırılması barədə vəsatət qaldırıldığı halda bu qərarın tanınması və icra edilməsi barədə xahiş olunan hakimiyyət orqanı məqsədəuyğun hesab etdiyi halda bu qərarın icra edilməsi məsələsinin həllini saxlaya bilər, eyni zamanda bu qərarın icrasını xahiş edən tərəfin vəsatəti əsasında digər tərəfin üzərinə lazımi təminatın görülməsi öhdəliyini qoya bilər.

Mövcud Konvensiyanın qərarları Razılaşan Dövlətlər arasında bağlanmış arbitraj qərarlarının tanınması və icra edilməsi barədə ikitərəfli və ya çoxtərəfli sazişlərin fəaliyyətinə toxunmur, habelə heç bir maraqlı tərəfi belə arbitraj qərarının tanınması və icra edilməsi tələb olunan ölkənin qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin imkan verdiyi qaydada və hədd çərçivəsində hər bir arbitraj qərarından faydalanmaq hüququndan məhrum etmir.

Mövcud Konvensiya tərəflər üçün müəyyən hədlər çərçivəsində məcburi hesab edildiyi vaxtdan etibarən arbitraj qeyd-şərtləri haqqında 1923-cü il Cenevrə protokolu və xarici arbitraj qərarlarının icra edilməsi barədə 1927-ci il Cenevrə protokolu Razılaşan Dövlətlər arasında öz qanuni qüvvələrini itirirlər.

Hər bir dövlət mövcud Konvensiyaya qoşularkən və ya onu təsdiq yaxud ratifikasiya edərkən bəyan etməlidir ki, mövcud Konvensiya həmin dövlətin beynəlxalq münasibətlərə görə məsuliyyət daşıdığı bütün və yaxud müəyyən ərazilərə şamil edilir. Belə bəyanat mövcud Konvensiyanın qanuni qüvvəyə mindiyi vaxtdan qüvvəyə minir.

**1961-ci il tarixli Avropa Konvensiyası** xarici arbitraj qətnamələrinin icrası ilə bağlı məsələləri birbaşa tənzim etmir, lakin xarici arbitraj qətnamələrinin ləğv edilməsi əsaslarını nəzərdə tutan 9-cu maddə Nyu-York Konvensiyasının 5-ci maddəsini demək olar ki, təkrar

edir. Avropa Konvensiyasının 9-cu maddəsinə əsasən xarici arbitraj qətnaməsinin ləğv edilməsi həmin qətnaməni başqa ölkələrin ərazisində icra edilməsi imkanlarından məhrum etmir.

**1975-ci il tarixli Panama Konvensiyası** arbitraj qətnamələrinin qəti olmasını və ondan şikayət verilməsi ilə bağlı normaları özündə əks etdirir. Konvensiyanın 4-cü maddəsinə uyğun olaraq arbitraj qətnamələri də Milli məhkəmələrin qətnamələrinin icra olunduğu prosessual qaydada icra edilməlidir. Konvensiyanın 5-ci maddəsində arbitraj qərarının tanınması və icra edilməsi ilə bağlı əsaslar nəzərdə tutulmuşdur, bu əsaslar Nyu-York Konvensiyasının 5-ci maddəsi ilə üst-üstə düşür.

**1965-ci il tarixli Vaşinqton Konvensiyası üzrə** çıxarılan arbitraj qərarları üzərində məhkəmə nəzarəti istisna edilməklə yanaşı, həm də həmin qərarlara icra qüvvəsi (ekzekvatura) verilməsi tələb olunmur. Vaşinqton Konvensiyasını imzalayan tərəf 54-cü maddəyə uyğun olaraq arbitraj qərarını öz ölkəsinin ərazisində heç bir yoxlama aparılmadan icraya yönəltməsi barədə öhdəlik götürür.

**Arbitraj qətnamələri iki tərəfli beynəlxalq müqavilələr üzrə** də tanına və icraya yönəldilə bilər. Bu imkan Nyu-York Konvensiyasının 7-ci maddəsinin 1-ci bəndində də nəzərdə tutulmuşdur. Ona görə də xarici arbitraj qətnaməsinin icrasında marağı olan tərəf həmin qətnaməni Konvensiyaya və ya iki tərəfli sazişə uyğun icra edilməsi imkanını özü seçməlidir, çünki müəyyən hallarda qətnamənin icrasının tərəf üçün Nyu-York Konvensiyasına görə deyil, ikitərəfli sazişə uyğun icra edilməsi məqsədə müvafiqlik baxımından məqbul sayıla bilər.

**YUNSİTRAL-ın Nümunəvi Qanununun** 35 və 36-cı maddələri xarici arbitraj məhkəmələrinin qərarlarının tanınmasına və icra edilməsinə həsr edilmişdir. Qeyd etmək lazımdır ki, Qanunun 35 və 36-cı maddələri Nyu-York Konvensiyasının 4 və 5-ci maddələrini demək olar təkrar edir.

Nümunəvi Qanun arbitraj qərarlarının icra edilməsinin əsas prosessual qaydasını müəyyən edir. Nümunəvi Qanun hazırlanarkən onun Nyu-York Konvensiyasına uyğunluğu təmin edilmişdir.

Mülki Prosessual Məcəllənin 474-477-ci maddələri həmçinin, xarici dövlətlərin arbitraj məhkəmələrinin qətnamələrinin icra edilməsi və ya tanınmasına həsr edilmişdir.

AR-nın MPM-nin 477-ci maddəsinə əsasən xarici münsiflər məhkəməsi qətnaməsinin icra edilməsi və tanınması üçün bu Məcəllənin maddələri müvafiq olaraq tətbiq edilə bilər. Bundan əlavə, BMT-nin

1958-ci il 10 iyun tarixli xarici münsiflər məhkəməsinin qətnaməsinin tanınması və icra edilməsi barədə Nyu-York Konvensiyası tətbiq edilir.

### *§ 3. Xarici arbitraj qətnamələrinin tanınması və icrasının şərtləri*

Xarici arbitraj qətnamələrinin tanınmasının və icrasının şərtləri Nyu-York Konvensiyasının 3-6-cı maddələrində təsbit edilmişdir.

Nyu-York Konvensiyasının 4-cü maddəsinin 1-ci bəndinə uyğun olaraq tanınmanı və icra edilməni tələb edən tərəf belə xahişi etdikdə aşağıdakıları təqdim etməlidir:

a) Lazımi qaydada təsdiq edilmiş arbitraj qərarının əslini və yaxud həmin qərarın lazımi qaydada təsdiq edilmiş surətini;

b) arbitraj sazişinin əslini, yaxud onun lazımi qaydada təsdiq edilmiş surətini.

Göstərilən sənədlərin təqdim edilməsi tələbkarın vəzifəsidir və məhkəmə (bu halda AR-nın Ali Məhkəməsi) ondan əlavə sənədləri tələb etməyə haqlı deyildir.

Nümunəvi Qanunun 35-ci maddəsinə əsasən hansı ölkədə çıxarılmasından asılı olmayaraq, arbitraj qərarının tanınması məcburidir və səlahiyyətli məhkəməyə yazılı vəsatət verildikdə bu maddənin və 36-cı maddənin müddəaları nəzərə alınmaqla icra edilir.

Arbitraj qərarına əsaslanan və yaxud onun icra edilməsinə dair vəsatət verən tərəf arbitraj qərarının təsdiq edilmiş nüsxəsini və ya belə nüsxənin lazımi qaydada təsdiq edilmiş surətini, həmçinin, 7-ci maddədə göstərilmiş arbitraj sazişinin əslini və ya onun lazımi qaydada təsdiq edilmiş surətini təqdim etməlidir.

Əgər arbitraj qərarı və ya arbitraj sazişi müvafiq dövlətin rəsmi dilində deyilsə, tərəf bu sənədlərin lazımi qaydada təsdiq olunmuş tərcüməsini təqdim etməlidir.[1]

Nyu-York Konvensiyasının 4-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq Arbitraj qərarının yaxud sazişin mətni bu qərarın tanınması və icra edilməsi tələb edilən ölkənin rəsmi dilində olmadığı halda, bu qərarın tanınmasını və icra edilməsini xahiş edən tərəf bu sənədlərin həmin dilə tərcüməsini təqdim edir. Tərcümə rəsmi və ya andlı tərcüməçi, yaxud diplomatik və ya konsulluq idarəsi tərəfindən təsdiq edilir.

---

[1] Bu bənddə göstərilən şərtlər tələblərin məzmununu təyin etməyə yönəldilmişdir. Bu səbəbdən hər hansı bir dövlət qismən öz ağırlaşdırıcı şərtlərinin qoyulmasını qərara alarsa, bu, nümunəvi Qanunun hazırlanmasına xidmət edən uyğunlaşma ilə ziddiyət təşkil etməyəcək.

Nyu – York Konvensiyasında tərəfin hansı müddət ərzində arbitraj qətnaməsinin tanınması və icrası barədə müraciət etməsi nəzərdə tutulmamışdır, ona görə də arbitraj təcrübəsi müxtəlif istiqamətlərdə inkişaf edir. Bir sıra ölkələrdə arbitraj qətnaməsinin tanınmaya və icraya təqdim edilməsi müddətsiz müəyyən edilmişdir və tərəf istənilən vaxt bu xahişlə müraciət edə bilər. Bəzi ölkələrdə qətnamənin icraya təqdim edilməsi üçün xüsusi müddət müəyyən edilmişdir. Digər ölkələrin qanunvericiliyində isə qətnamənin iddia müddəti ərzində icraya təqdim edilməsi nəzərdə tutulmuşdur.

Məhkəmə qərarlarının icrası haqqında AR-nın Qanununun 13.1.4-cü maddəsinə əsasən beynəlxalq arbitrajların və münsiflər məhkəmələrinin qərarları, xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri **3 il ərzində** icraya yönəldilə bilər.

Xarici məhkəmələrin qətnamələri yalnız Milli qanunvericilik əsasında deyil, həmçinin ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddət ərzində də icraya yönəldilə bilər. Məsələn, 1972-ci il tarixli Moskva Konvensiyasının 4-cü maddəsinə uyğun olaraq bu Konvensiya əsasında çıxarılan arbitraj qərarları könüllü ücra edilmədiyi təqdirdə 2 il ərzində məcburi icra üçün təqdim edilə bilər. 2 illik müddət qətnamənin tərəfə göndərildiyi və ya təqdim edildiyi gündən hesablanır.

Tərəflər arasında barışıq sazişinin bağlandığı halda isə bu müddət sazişin bağlandığı gündən hesablanır.

## *§ 4. Xarici arbitraj qətnamələrinin tanınmasından və icra edilməsindən imtina edilməsi üçün əsaslar*

Nyu-York Konvensiyasının 5-ci maddəsinə əsasən Arbitraj qərarının əleyhinə yönəldiyi tərəfin xahişi ilə arbitraj qərarının tanınmasına və icra edilməsinə o halda etiraz edilə bilər ki, həmin tərəf qərarların tanınması və icra edilməsi tələb olunan ərazinin səlahiyyətli hakimiyyət orqanlarına dəlillər təqdim edərək sübuta yetirir ki:

a) II maddədə göstərilən saziş üzrə tərəflər tətbiq olunan qanunvericiliyə əsasən hər hansı bir şəkildə fəaliyyət qabiliyyətsizdirlər və ya tərəflərin istinad etdikləri qanunvericiliyə əsasən həmin saziş qeyri-qanunidir, belə müddəanın olmadığı təqdirdə isə qərarın çıxarıldığı ölkənin

qanunvericiliyə əsasən həmin saziş qeyri-qanunidir; yaxud
b) çıxarılan qərarın əleyhinə yönəldiyi tərəf arbitrin təyin olunması və ya araşdırılması barədə qanuna müvafiq qaydada xəbərdar və ya digər səbəblərdən öz izahatlarını təqdim edə bilməmişdir; yaxud
v) göstərilən qərar arbitraj sazişi və ya arbitraj qeyd-şərtlərində nəzərdə tutmamış və ya həmin şərtlərə uyğun deyildir; yaxud qərar arbitraj sazişi və ya müqavilədəki arbitraj qeyd-şərtlərindən kənara çıxan məsələlər üzrə müddəaları özündə əks etdirir. Bundan əlavə, digər arbitraj sazişi və ya arbitraj qeyd-şərtləri ilə əhatə olunan məsələlər üzrə müddəaları belə arbitraj sazişi və ya arbitraj qeyd-şərtləri ilə əhatə olunmayan müddəalardan ayırmaq mümkün olarsa, belə halda arbitraj sazişi və ya arbitraj qeyd-şərtləri ilə əhatə olunmayan məsələlər üzrə müddəaları özündə əks etdirməyən arbitraj qərarlarının bir hissəsi tanına və ya icra edilə bilər; yaxud
q) arbitraj orqanının tərkibi və ya arbitraj prosesi tərəflərin sazişinə uyğun olmamışdır və ya belə saziş olmadığı halda arbitrajın keçirildiyi ölkənin qanunvericiliyinə uyğun olmamışdır; yaxud
d) tərəflər üçün qərar hələ öz qəti qüvvəsinə minməmişdir və ya qərarın çıxarılmadığı ölkənin və yaxud qanunvericiliyi tətbiq edilən ölkənin səlahiyyətli hakimiyyət orqanlarının göstərişinə əsasən qərarın icrası dayandırılmışdır.

Arbitraj qərarının tanınmasına və icra edilməsinə, həmçinin, o halda da etiraz edilə bilər ki, tanınması və icra edilməsi tələb olunan ölkənin səlahiyyətli icra hakimiyyəti orqanları müəyyən etsin ki:
a) mübahisənin obyekti bu ölkənin qanunvericiliyinə əsasən arbitraj araşdırılmasının predmeti ola bilməz; yaxud
b) bu qərarın tanınması və icra edilməsi həmin ölkənin ictimai qaydalarına ziddir.

Xarici arbitraj qətnamələrinin tanınmasından və icra edilməsindən imtinanın Konvensiyada müəyyən edilən əsasları YUNSİTRAL-ın Nümunəvi Qanununun 5-ci maddəsində və Beynəlxalq Arbitraj haqqında AR-sı Qanununun 36-cı maddəsində təsbit edilmişdir.

Arbitraj qətnamələrinin tanınması və icra edilməsinin əsaslarının dairəsi genişləndirilə və həmçinin arbitraj qətnaməsi mahiyyət üzrə yoxlanıla bilməz. Təsadüfi deyil ki, xarici arbitraj qətnamələrinin ləğv edilməsi üçün müəyyən edilən əsaslarla onun tanınması və icra edilməsi əsasları (YUNSİTRAL-ın Nümunəvi Qanununun **34** və **36-cı** maddələri, Beynəlxalq Arbitraj haqqında AR-sı Qanununun 34 və 36-cı maddələri) eynilik təşkil edir və ona görə də bu kitabın **XIII** fəslinin **3-cü** paraqrafında şərh edilən məsələlər bu paraqrafa da aid edilməlidir.

Konvensiyanın V maddəsinin a) yarımbəndinə istinad edən tələbkar qətnamənin icrasından yayınmaq məqsədilə bəzi hallarda arbitraj sazişinin onun adından səlahiyyətsiz şəxsin bağlaması və ya ümumiyyətlə, belə sazişin bağlanmaması haqqında bəyanatlar verir. Bu halda səlahiyyətli məhkəmə hər bir fakta diqqətlə yanaşmalı və a) yarımbəndində göstərilən halları araşdıraraq nəticəyə gəlməlidir.

Konvensiyanın V maddəsinin v) yarımbəndi arbitraj araşdırması zamanı yol verilən prosessual pozuntuları özündə əks etdirir, borclu həmin pozuntuları sübuta yetirə bildiyi təqdirdə arbitraj qətnaməsi tanına və icraya yönəldilə bilməz.

V maddənin ğ) yarımbəndində arbitraj məhkəməsinin öz səlahiyyət həddini aşması və ya səlahiyyətsiz olması ilə bağlı qəbul etdiyi qətnamənin icraya yönəldilə bilməsi halları şərh edilmişdir.

Lakin qeyd etmək lazımdır ki, Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 4-cü maddəsinə müvafiq olaraq hər hansı tərəfin bu Qanunun yerinə yetirilməməsi mümkün olan hər hansı bir müddəasına və ya arbitraj sazişinin hər hansı tələbinə əməl edilməməsi barədə xəbəri varsa və buna baxmayaraq öz etirazını bildirmədən arbitraj prosesində iştirakına davam edirsə və bu etirazın verilməsi üçün müvafiq müddət müəyyən edilibsə, tərəf bu müddət ərzində özünün etiraz hüququndan imtina etmiş sayılır.

Qanunun 4-cü maddəsinin müddəaları Konvensiyanın V maddəsinin q) yarımbəndində nəzərə tutulan hallara da şamil edilir.

Konvensiyanın V maddəsinin d) yarımbəndi («tərəflər üçün qərar hələ öz qəti qüvvəsinə minməmişdir və ya qərarın çıxarılmadığı ölkənin və yaxud qanunvericiliyi tətbiq edilən ölkənin səlahiyyətli hakimiyyət orqanlarının göstərilməsinə əsasən qərarın icrası dayandırılmışdır») arbitraj təcrübəsində ən çox mübahisə doğuran halları özündə əks etdirir. Belə ki, bu yarımbənddə ən çox mübahisə doğuran «tərəflər üçün qərar hələ öz qəti qüvvəsinə minməmişdir» ifadəsidir, çünki arbitraj qətnaməsinin hansı andan qəti olması məsələsinə müxtəlif ölkələrin məhkəmələri müxtəlif cür yanaşırlar. Lakin beynəlxalq kommersiya arbitrajı nəzəriyyəsində və təcrübəsində belə bir fikir hakimdir ki, qətnamə o halda qəti ola bilər ki, ondan mahiyyət üzrə şikayət verilə bilməsin, ona görə də arbitraj qətnamələrinin əksəriyyəti mahiyyət üzrə yenidən baxıla bilmədiyi üçün qəti olmaqla dərhal qüvvəyə minir.

Konvensiyanın V maddəsinin 2-ci bəndinin a) yarımbəndinin («mübahisənin obyekti bu ölkənin qanunvericiliyinə əsasən arbitraj araşdırmasının predmet ola bilməz») təcrübədə tətbiqinə az rast gəlinir,

çünki arbitrlər işə baxarkən hər bir halda mübahisənin arbitraj baxışının predmeti olması məsələsini dərindən və diqqətlə araşdırırlar. Lakin nəzərə almaq lazımdır ki, hansı mübahisənin arbitraj araşdırmasının predmeti olması məsələsini hər bir dövlət öz Milli qanunvericiliyi ilə müəyyən edir və ona görə də bu məsələyə vahid yanaşma tərzi formalaşmamışdır.

Konvensiyanın V maddəsinin 2-ci bəndinin v) yarımbəndi arbitraj qərarının tanınması və icrası edilməsini həmin ölkənin ictimai (ümumi) qaydalarına uyğunluğu ilə şərtləndirilir. Beynəlxalq Arbitraj haqqında AR-nın Qanununun 36-cı maddəsinin b) yarımbəndində bu şərt «...Konstitusiyaya uyğun olması» kimi ifadə olunmuşdur.[1]

Qeyd etmək lazımdır ki, məhkəmələr çox az hallarda arbitraj qərarlarını ümumi qaydaya zidd olması əsası ilə ləğv edirlər.

İstər Nyu-York Konvensiyasının V maddəsində, istərsə də YUNSİTRAL-ın Nümunəvi Arbitraj Qanununun 36-cı maddəsində söhbət «Arbitraj qərarının hansı ölkədə çıxarılmasından asılı olmayaraq, onun tanınmasından və ya icra edilməsindən **imtina edilə bilməsi»ndən** gedir.

Beləliklə, hətta səlahiyyətli məhkəmə AR-nın (Ali Məhkəməsi) Konvensiyanın V maddəsində nəzərdə tutulan şərtlər mövcud olduqda belə qətnaməni tanıya və icraya yönəldə bilər.

Səlahiyyətli məhkəmə arbitraj qərarının tanınmasından və icraya yönəldilməsindən imtina etdiyi halda tələbkar bu qərarın başqa dövlətdə və ya dövlətlərdə (əmlakının və ya əmlakının əsas hissəsinin olduğu yerdə) tanınma və icra edilmək üçün təqdim etmək hüququnu özündə saxlayır, çünki bir dövlətin məhkəməsinin arbitraj qərarını tanımaqdan və icraya yönəltməkdən imtina etməsi həmin qərarın ləğvi kimi anlaşılmamalıdır. Bu halda borclunun başqa dövlətlərdə əmlakı olmadıqda o, ya yeni arbitraj prosesinin başlanması (iddia müddəti başa çatmadıqda və imtina, prosessual pozuntular səbəbi ilə baş verdikdə), yaxud da dövlət məhkəməsində işə baxılması (imtina arbitraj sazişinin mövcud olmaması, arbitrlərin səlahiyyətsiz olması və ya mübahisənin arbitraj predmeti olmaması səbəbindən baş verdikdə) haqqında müraciət edə bilər.

[1] Bu barədə daha ətraflı Bax: XII fəslin 3-cü paraqrafı.

# Ədəbiyyat

1. Арбитражный процесс, М., 1998.
2. Azərbaycan Respublikasının MPM-nin elmi-praktiki kommentariyası. Bakı, 2003.
3. Брунцева Е.В. Международный коммерческий арбитраж, Санкт-Петербург, 2001.
4. Боботов С.В. Правосудие во Франсии. М., 1994.
5. Богуславский М.М. Иностранные инвестисии: правовое регулирование. М., 1996.
6. Виноградова Е.А. Третейский суд. Законодателство. Практика. Комментарий. М., 1997.
7. Виноградова Е.А. Правовые основы организации и деятельности третейского суда. Автореф. дисс. канд. юрид. наук. М., 1994.
8. Vidadi Mirkamal "Arbitraj sazişi", Bakı, 2005
9. Джудитта Кордеро Мосс. Автономия воли в практике международного коммерческого арбитража, М., 1996.
10. Егоров С. Верховный Суд США / Вестник Верховного Суда СССР, 1991, №9.
11. Зыкин И.С. Негосударственное регулирование /Международное частное право: Современные проблемы, М., 1993.
12. Комаров В.В. Международный коммерческий арби-траж. Харьков, 1995.
13. Крылова Н. Статус суда в Великобритании /Вестник Верховного Суда СССР 1991., №5.
14. Керр М. Роль судов и арбитража / Право и европейское сотрудничество. М. – Лондон, 1991.
15. Комментарий судебно-арбитражной практики. Выпуск 2, М., 1995.
16. Крылова И. Судебная система Франции / Вестник Верховного Суда СССР, 1991, №7.
17. Коммерсийа щцгугу. Бакы, 2003.
18. Лебедев С.Н. Международный торговый арбитраж, М., 1965.
19. Лунц Л.А., Марышева Н.И. Курс международного частного права. Т.3. Международный гражданский процесс, М., 1976.
20. Лебедев С.Н. Международный коммерческий арбитраж: Компетенция арбитров и соглашение сторон, М., 1988.
21. Лазарев С.Л. Международный арбитраж. М., 1991.
22. Минаков А.И. Арбитражные соглашения и практика рассмотрения внешнеэкономических споров, М., 1985.

23. Mirkamal V. M. Arbitraj sazişi, Bakı – 2005.
24. Münsiflər Məhkəməsi. Qanunvericilik. Təcrübə. Şəhərlər. Bakı, 2002.
25. Поздняков В.С. Международный коммерческий арбитраж в Российской Федерации. Закон. Регламент. Комментарий. М., 1996.
26. Пучинский В.К. Принципы буржуазного гражданского процессуального права, М., 1988.
27. Пучинский В.К. Понятие и источники гражданско-производственного права Англии, США, Франции. М., 1988.
28. Принципы международных коммерческих договоров / Перевод с англ. А.С.Комарова, М., 1996.
29. Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практический комментарий. М., 1997.
30. Попков А. Международный арбитраж и постоянные суды: сходства и различия. Вестник Высшего Хозяйственного Суда Республики Беларусь, №1, 2000.
31. Розенберг М.Г. Практика Международного Коммерческого Арбитражного Суда. Научно-практиче-ский комментарий, М., 1997.
32. Розенберг М.Г. Международный договор и иностранное право в практике Международного Коммерческого Арбитражного Суда, М., 1998.
33. Решетников Ф.М. Правовые системы стран мира. Справочник. М., 1993.
34. Рубанов А.А. Теоретические основы международного взаимодействия национальных правовых систем. М., 1984.
35. Рубанов А.А. Автономия воли в международном частном праве как теоретическая проблема /Советский ежегодник международного права. 1985. М., 1986.
36. Решетникова И.В. Доказательственное право Англии и США. Екатеринбург. 1997.
37. Садиков О.Б. Императивные нормы в международном частном праве / Московский журнал международного права, 1992, №2.
38. Сюкияйнен Л.Р. Мусульманское право, М., 1986.
39. Тимофеева Н.Г. Становление и развитие правовой системы Мексики / Правоведение. 1992, №2.
40. Хлестова И.О. Арбитраж во внешнеэкономических отношениях стран-членов СЭВ, М., 1980.
41. Хамедов И. Международный Коммерческий Арбитраж / Хозяйство и право. Ташкент. 2003, №2.

42. Фридмен Л. Введение в американское право. М., 1993.
43. Шинкарецкая Г.Г. Международная судебная процедура, М., 1992.
44. Энтип М.Л. Международные судебные учреждения, М., 1984.
45. Ярков В.В. Третейский суд Национальной Ассоциации участников фондового рынка / Вестник НАУФОР, 1998, №1.

---

1. Alan Redfern, Martin Hunter, Law and Practice of İnternational Commercial Arbitration, Swed, Maxwell, 1999.
2. Andreas F.Lowenfeld, Lex Mercatoria: an Arbitrator's View' in 6 Arbitration İnternational 133, 144 (1990).
3. Aussenwirtchaftsdients des Betribss-Beraters, 1970.
4. W.Michael Reisman et al. İnternational Commercial Arbitration 198-201 (1997).
5. Griqera Noon H.A. / Choice-Law problems in İnternational commercial arbitration. Tubinqen, 1992.
6. Yves Dezaley, Brayn C.Garth, Dealinq in Virtue 87 (1996).
7. Yearbook, Commercial Arbitration. The Haque, V, VII, 1992.
8. Jakson R.M. The Machinery of Custice in Enqland, Cambridqe, 1972.
9. Klein F.E. / Considerations sur L'arbitraqe en droit inernational prive.
10. Lew C.Applicable Law in international commercial arbitration, N.Y., 1978.
11. Nissbaum A. The "Separability Doctrine" in American and Foreign Arbitration. New York University Law Quarterty Review 1940, №17.
12. Pevue Critique de Droit İnternational Prive, 1994.
13. Rubellin-Devichi C, Essai sur La nature de L'arbitraqe. Paris, 1965.
14. Rubellin-Devichi C, Essai sur La nature de L'arbitraqe. Paris, 1965.
15. Stephen R.Bond, How to Draft an Arbitration Clause, 6 Yornal of İnternational Arbitration 66 (1989).
16. The freshfields Guide to Arbitration and ADR Clauses in İnternational Contracts 31, 1993.
17. Fellhauzer H., Strohbach H. İnternational Handels Schiedsgerichtsbarkeit, Berlin, 1969.

**Qanunvericilik**

1. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, Bakı, 2001.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Bakı, 2000.
3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, Bakı, 2000.
4. Beynəlxalq Arbitraj haqqında Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli qanunu.
5. Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi haqqında Əsasnamə, Bakı, 2004.
6. "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" BMT-nin 10 iyul 1958-ci il tarixli Nyu-York Konvensiyası.
7. "Xarici ticarət arbitrajı haqqında" 1961-ci tarixli Avropa Konvensiyası.
8. «Dövlət və xarici şəxslər arasında investisiya mübahisələrinin həlli üzrə» 1965-ci il tarixli Vaşinqton Konvensiyası.

# AZƏRBAYCAN ARBİTRAJ VƏ MEDİASİYA MƏRKƏZİ y a n ı n d a AZƏRBAYCAN BEYNƏLXALQ KOMMERSİYA ARBİTRAJ MƏHKƏMƏSİNİN

# Ə S A S N A M Ə S İ

**«İNTERNATİONAL COMMERCİAL ARBİTRATİON» CƏMİYYƏTİNİN**[1]
Ümumi Yığıncağının «11» noyabr 2003-cü il tarixli qərarı ilə təsdiq edilmişdir.

**Sədr N.Y.Abdullayev**

AZƏRBAYCAN ARBİTRAJ
VƏ MEDİASİYA MƏRKƏZİ y a n ı n d a

# AZƏRBAYCAN BEYNƏLXALQ KOMMERSİYA ARBİTRAJ MƏHKƏMƏSİNİN

# Ə S A S N A M Ə S İ

**Bu Əsasnamə məhkəməyə aid olan mübahisələrin müqavilə və ya tərəflərin Sazişi ilə nəzərdə tutulan hallarda, pozulmuş və mübahisə edilən məsələlərin həll edilməsi məqsədilə AZƏRBAYCAN ARBİTRAJ VƏ MEDİASİYA MƏRKƏZİ yanında yaradılmış «Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi»nin səlahiyyətlərinin təşkilini, funksiyalarını, strukturunu, işlərə baxılma qaydasını, qərarların qəbulu və icraya yönəldilməsi məsələlərini, ayrı-ayrı hallarda hərəkət qaydalarını, digər münasibətlərin hüquqi əsaslarını tənzimləyir.**

[1] 21 may 2008-ci ildən "İnternational Commercial Arbitration" Cəmiyyəti Hüquqi İslahatlara Yardım Mərkəzi İctimai Birliyinin təsisçiliyi ilə, hüquq varisliyi qaydasında yenidən dövlət qeydiyyatına alınmaqla adı dəyişdirilərək hazırda Azərbaycan Arbitraj və Mediasiya Mərkəzi adlanır.

# I F Ə S İ L

## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Məhkəmənin səlahiyyətləri

1. «Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsi» (bundan sonra – BKAM) 18 noyabr 1999-cu il tarixli «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununa əsasən öz fəaliyyətini könüllülük əsasında həyata keçirən müstəqil, daimi fəaliyyət göstərən arbitraj təşkilatıdır (münsiflər məhkəməsidir).
2. BKAM-a tərəflərin razılığı ilə xarici ticarət və beynəlxalq iqtisadi əlaqələrin digər növlərinin həyata keçirilməsindən yaranan müqavilə və digər mülki-hüquqi münasibətlərə dair mübahisələr (əgər tərəflərdən ən azı birinin kommersiya müəssisəsi xaricdə yerləşirsə), həmçinin, Azərbaycan Respublikasının ərazisində yaradılmış xarici investisiyalı və beynəlxalq birlik və təşkilatların öz aralarında və ya onların iştirakçıları arasında mövcud olan mübahisələr, eləcə də onlarla Azərbaycan Respublikasının digər hüquq subyektləri arasındakı mübahisələr verilə bilər.
Mülki-hüquqi münasibətlərdən yaranan mübahisələrə, xüsusilə, malların alqı-satqısına (çatdırılmasına), işlərin həll edilməsinə, xidmətlərin göstərilməsinə, malların və (və ya) xidmətlərin mübadiləsinə, malların və sərnişinlərin daşınmasına, ticarət nümayəndəliyinə və vasitəçiliyinə, icarəyə (lizinqə), elmi-texniki mübadiləyə, yaradıcılıq fəaliyyətinin digər nəticələrinin mübadiləsinə, sənaye və digər obyektlərin yaradılmasına, lisenziyalı əməliyyatlara, investisiyalara, kredit-hesablaşma əməliyyatlarına, sığortaya (təkrar sığortaya), müştərək sahibkarlığa, sənaye və sahibkarlıq kooperasiyasının digər formalarına dair münasibətlərdən yaranmış mübahisələr və s. kommersiya münasibətlərindən irəli gələn mübahisələr BKAM-ın həllinə verilə bilər.

3. BKAM mübahisələrə, tərəflər arasında yaranmış və ya yarana biləcək mübahisələrin həlli üçün yazılı Saziş və ya müqavilə qeyd-şərti olduqda, hazırkı Əsasnaməyə uyğun olaraq baxır.

4. BKAM aşağıdakı hallarda beynəlxalq səlahiyyətlərə malik hesab edilir:

4.1. İşdə iştirak edən tərəflərdən hər hansı biri xarici şəxs olarsa və onun Azərbaycan Respublikasında yaşayış yeri, yaxud olduğu yer, yaxud da adətən gəldiyi yer olarsa;

4.2. Arbitraj razılaşması (arbitraj Sazişi) bağlananda onun tərəflərinin müəssisələri ayrı-ayrı dövlətlərdə yerləşmiş olarsa;

4.3. Aşağıdakı yerlərdən biri tərəflərin öz müəssisələrinin olduğu dövlətin hüdudlarından kənarda yerləşmiş olarsa:

- arbitrajın yeri – əgər bu yer arbitraj Sazişində və yaxud ona uyğun müəyyən edilmişdirsə;
- ticarət və kommersiya münasibətlərindən irəli gələn öhdəliklərin əsas hissəsinin icra edilməli olduğu hər hansı yer və yaxud mübahisə predmetinin sıx əlaqəli olduğu yer ;

4.4. Arbitraj Sazişinin predmeti bir neçə dövlətlə əlaqəli olduqda və tərəflərin bu barədə razılığı varsa.

**Maddə 2. Mübahisənin BKAM-a verilməsi barədə Saziş**

1. **Arbitraj Sazişi** - tərəflər arasında hər hansı bir məsələ barədə yaranmış və ya yarana biləcək bütün və ya müəyyən mübahisələrin, onların müqavilə xarakteri daşıyıb-daşımamasından asılı olmayaraq, arbitraja verilməsi haqqında tərəflərin razılığıdır. Saziş müqavilədə arbitraj qeyd-şərti (əlavə bir müddəa şəklində) və ya ayrıca bir Saziş şəklində bağlanıla bilər. Saziş yazılı şəkildə bağlanılır.

2. Mübahisənin BKAM-a verilməsinə dair Saziş - tərəflərin imzaladığı sənəddə öz əksini taparsa, yaxud bu razılaşmanı təsbit etməyi imkan verən məktubların mübadiləsi yolu ilə, teletayp, teleqraf və ya digər elektron rabitəsi vasitələrindən istifadə etməklə məlumat verilərsə, yazılı şəkildə bağlanılmış hesab edilir. Arbitraj qeyd-şərtinə müqavilədə istinad edilməsi Arbitraj Sazişi hesab olunur, bu şərtlə ki, müqavilə yazılı şəkildə bağlanmışdır və bu istinad həmin qeyd-şərti müqavilənin bir hissəsinə çevirir.

3. Bu maddənin 1-ci və 2-ci hissələri ilə nəzərdə tutulmuş normalara əməl edilmədikdə, Saziş bağlanılmamış hesab edilir.

4. BKAM tərəfindən müqavilənin etibarsız hesab edilməsi, mübahisənin BKAM-a verilməsi barədə Sazişin etibarsız hesab edilməsinə səbəb olmur.

5. Əgər iddiaçı tərəfindən BKAM-a iddia ərizəsi, cavabdehdən isə iddia ərizəsinə rəy verilibsə, mübahisənin BKAM-a baxılmasına verilməsi haqqında razılaşma bağlanmış hesab olunur.

**Maddə 3. Etiraz hüququndan imtina etmə**

Tərəf, bu Əsasnamənin hər hansı müddəasının yerinə yetirilməsinin mümkünsüzlüyü və ya arbitraj sazişinin hər hansı tələbinə əməl edilməməsi barədə məlumatlı olmasına baxmayaraq arbitraj prosesində iştirak edirsə və buna 15 gün ərzində öz etirazını bildirmirsə, həmin tərəf özünün etiraz hüququndan imtina etmiş sayılır.

**Maddə 4. Arbitraj araşdırmasının əsasları**

BKAM öz vəzifəsini həyata keçirərkən müstəqildir və heç kimdən asılı deyildir.

BKAM-ın arbitrləri (hakimləri) baxdıqları mübahisəli işdə tərəflərin nümayəndəsi kimi çıxış edə bilməzlər.

BKAM-da mübahisələrin həlli tərəflərin hüquq bərabərliyi prinsipi əsasında həyata keçirilir.

Tərəflərin hər biri öz mövqeyini bildirmək və hüquqlarını müdafiə etmək üçün bərabər hüquqlara malikdir.

**Maddə 5. Arbitraj araşdırmasının iştirakçıları**

İşdə iştirak edən tərəflər və üçüncü şəxslər iştirakçı hesab olunurlar. Arbitraj araşdırmasının tərəfləri hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdir.

Özünün mənafeyi naminə iddia qaldırmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər iddiaçı hesab olunurlar.

İddia tələbinin yönəldiyi hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər cavabdeh hesab olunurlar.

Məhkəmə aktı ilə mənafeyinə toxunulan hər hansı bir şəxs tərəflərin razılığı ilə üçüncü şəxs qismində işə cəlb edilə bilər.

**Maddə 6. İşdə iştirak edən şəxslərin hüquq və vəzifələri**

İşdə iştirak edən şəxslər bu Əsasnamə və qanunvericiliklə onlara verilmiş prosessual hüquqlardan vicdanla istifadə etməyə borcludurlar.

İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərardadlarından, tərəflərin Sazişində nəzərdə tutulduğu hallarda məhkəmə qətnaməsindən Rəyasət Heyətinə şikayət etmək və sair hüquqlara malikdirlər.

**Maddə 7. Mübahisəyə baxılmaq imkanının olmaması barədə məsələnin BKAM tərəfindən həll edilməsi**

Mübahisənin BKAM-a verilməsi barədə Sazişin olması və ya etibarlılığı məsələsini BKAM müstəqil surətdə həll edir. BKAM tərəflərin Sazişinin mövcud olmadığını və ya etibarsız olduğunu müəyyən etdiyi hallarda mübahisə həll edilmək üçün aiddiyyatı məhkəməyə verilə bilər.

**Maddə 8. Dövlət müdaxiləsinin hüdudları**

«Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Əsasnamə ilə tənzimlənən məsələlərə heç bir məhkəmə müdaxiləsinə yol verilmir.

**Maddə 9. Konfidensiallıq**

Məhkəmə arbitrləri (hakimləri), katibliyin əməkdaşları və məruzəçilər məhkəmə araşdırması üçün alınmış bütün məlumatları gizli saxlamağa borcludurlar.

**Maddə 10. BKAM-ın yerləşdiyi və məhkəmə iclaslarının keçirildiyi yerlər**

1. BKAM Bakı şəhərində yerləşir.
2. Tərəflər məhkəmə iclaslarının Azərbaycan Respublikasının istənilən ərazisində keçirilməsi üçün razılaşa bilərlər. Bu halda Bakı şəhərindən kənarda keçirilən məhkəmə iclaslarının əlavə xərclərinin ödənilməsi mübahisə edən tərəflərin üzərinə düşür. BKAM tərəflərdən bu xərclərin

qabaqcadan ödənilməsini və ya ödənilməsinə dair təminat verilməsini tələb edə bilər.
3. Zərurət olduqda, BKAM-ın sədrinin razılığı ilə Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr Azərbaycan Respublikasının istənilən ərazisində məhkəmə iclasını keçirə bilər.

**Maddə 11. Sənədlərin təqdim edilmə qaydası**

1. Əgər BKAM-ın məsul katibi tərəfindən başqa zəruri hal təyin edilmirsə, Arbitraj araşdırmalarının başlanmasına və həll edilməsinə aid bütün sənədləri tərəflər BKAM-a 5 nüsxədə təqdim edirlər. Mübahisəyə təkbaşına arbitr baxırsa, sənədlər 3 nüsxədə təqdim edilməlidir.
2. Bu maddənin 1-ci bəndində göstərilən sənədlər, yazılı sübutlar istisna olmaqla, müqavilə tərtib edilən dildə və yaxud Azərbaycan dilində təqdim edilir. BKAM öz təşəbbüsü və ya tərəflərin birinin xahişinə əsasən digər tərəfdən təqdim edilən sənədlərin Azərbaycan dilinə tərcüməsini və ya həmin tərcümənin tərəfin öz hesabına təmin edilməsini tələb edə bilər.

**Maddə 12. İşə baxılma dili**

İşə Azərbaycan dilində baxılır. BKAM tərəflərin razılığı ilə işə başqa dildə də baxa bilər. Əgər tərəf məhkəmə iclası aparılan dili bilmirsə, BKAM tərəfin xahişi ilə və tərəfin öz hesabına onu tərcüməçi ilə təmin edir.

**Maddə 13. Araşdırmanın müddəti**

BKAM işin araşdırılmasını mümkün qədər, Arbitraj Kollegiyasının (və yaxud təkbaşına arbitrin seçilməsi və ya təyin edilməsi) bu Əsasnaməyə uyğun olaraq təşkil edildiyi andan 90 gün müddətində başa çatdırmalıdır. Zərurət olduqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) bu müddəti artıra bilər.

**Maddə 14. Sənədlərin göndərilməsi və ya verilməsi**

1. BKAM-ın katibliyi işə dair bütün sənədləri tərəflərin göstərdiyi ünvanlara göndərir. Tərəflər əvvəl göstərdikləri ünvanların dəyişilməsi haqqında BKAM-a dərhal məlumat verməlidirlər.
2. İddia ərizələri, iddia üzrə izahatlar, göndərişlər, arbitraj qətnamələri, qərarları və qərardadları, bildirişlər sifariş məktubu vasitəsilə və ya belə

məlumatların çatdırılmasının digər formalarına uyğun olaraq qeydiyyatdan keçirilmək şərtilə göndərilir.
3. Digər sənədlər sifarişli və ya sadə məktub vasitəsilə, xəbərdarlıq və bildiriş isə teleqrafla, teletaypla, telefaksla tərəflərin göstərdiyi ünvana (və ya nömrələrə) göndərilə bilər.
4. Yuxarıda qeyd edilən sənədlərdən hər hansı biri tərəflərin özlərinə iltizam alınmaqla verilə bilər.
5. Hər hansı yazılı məlumat tərəfə şəxsən və ya onun müəssisəsinə və ya onun yaşayış yeri üzrə və yaxud poçt ünvanına çatdırılıbsa, o, alınmış hesab edilir. Əgər bu cür qaydada yazılı məlumat müəssisənin məlum olan axırıncı ünvanına və ya tərəfin yaşayış yerinə, yaxud onun poçt ünvanına sifarişli məktubla, yaxud belə məlumatların çatdırılmasının digər formalarına uyğun olaraq qeydiyyatdan keçirmək şərtilə çatdırılıbsa, o, alınmış sayılır.
6. Bu maddənin 5-ci bəndinə əsasən məlumat çatdırıldığı gün alınmış hesab edilir.

**Maddə 15. Tətbiq olunan hüquq**

1. BKAM mübahisələri, tərəflərin razılığı ilə müəyyən olunmuş, tətbiq edilən maddi hüquq normaları əsasında həll edir. Belə razılaşma olmadıqda isə BKAM tətbiq olunmasını mümkün saydığı kollizion normalara əsaslanan hüququ rəhbər tutur.
2. BKAM arbitraj araşdırmasında bu Əsasnaməni rəhbər tutur. Lakin bu Əsasnamə və tərəflərin razılığı ilə tənzimlənməyən məsələlərin həllində BKAM tərəflərin hər birinə öz mənafelərini qorumaq imkanı verməklə və tərəflərə bərabər münasibət göstərməklə, beynəlxalq arbitraj haqqında Azərbaycan Respublikasının qanunvericiliyini əsas götürməklə müvafiq hesab etdiyi qaydada işin araşdırılmasını aparır.

## II F Ə S İ L

## TƏŞKİLATİ PRİNSİPLƏR

### Maddə 16. Arbitrlər

1. Arbitrlər, hazırki Əsasnaməyə əsasən, BKAM-ın səlahiyyətlərinə aid olan mübahisələrin həlli sahəsində lazımi xüsusi biliklərə malik olan şəxslər sırasından seçilirlər. Arbitr funksiyasını yerinə yetirən şəxs iştirakı nəzərdə tutulan mübahisə ilə bağlı onun qərəzsizliyinə və müstəqilliyinə əsaslı şübhələr gətirə bilən bütün hallar barədə BKAM-a məlumat verməlidir (əgər arbitrə arbitraj araşdırmaları zamanı belə hallar məlum olarsa, o, bu haqda dərhal BKAM-ı məlumatlandırmalıdır).
2. BKAM-ın arbitrlərinin adı, atasının adı və soyadı, təhsili və iş yeri, elmi dərəcəsi və rütbəsi, ixtisası göstərilməklə, 5 il müddətinə arbitrlərin siyahısı (gələcəkdə – arbitrlərin siyahısı) Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən təsdiq olunur.
Arbitrlərin siyahısı hər bir maraqlı şəxsin sorğusuna əsasən BKAM-ın katibliyi tərəfindən təqdim edilir.
3. Arbitrlərin funksiyalarını siyahıya daxil edilməyən şəxslər də yerinə yetirə bilərlər.
4. Arbitr (hakim) öz funksiyasını yerinə yetirə bilmədikdə və ya layiqincə yerinə yetirmədikdə və yaxud Arbitrlərin Etik Kodeksinin tələblərinə riayət etmədikdə Rəyasət Heyətinin təqdimatına əsasən Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən vaxtından əvvəl arbitrlərin siyahısından xaric edilir.

### Maddə 17. BKAM-ın sədri və sədrin müavinləri

1. BKAM-ın sədri Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin Ali Orqanı tərəfindən, onun müavinləri arbitrlərin siyahısına daxil edilən şəxslərin iştirakı ilə keçirilən ümumi iclasda 5 il müddətinə seçilirlər.
2. BKAM-ın sədri BKAM-ı ölkə daxilində və xaricdə təmsil edir.
3. BKAM-ın sədri Əsasnamədə nəzərdə tutulan funksiyaları yerinə yetirir.
4. BKAM-ın sədr müavinlərinin funksiyalarını BKAM-ın sədri müəyyən edir.

BKAM-ın sədri öz funksiyalarını yerinə yetirə bilmədikdə onun funksiyalarını BKAM-ın sədrinin birinci müavini, o olmadıqda isə, BKAM-ın sədrinin təyinatına əsasən müavinlərindən biri yerinə yetirir.

**Maddə 18. BKAM-ın Rəyasət Heyəti**

1. BKAM-ın Rəyasət Heyətinin tərkibi 7 nəfərdən ibarətdir. BKAM-ın Rəyasət Heyətinin tərkibinə BKAM-ın sədri, onun müavinləri, arbitrlərin siyahısına daxil edilən şəxslərin iştirakı ilə ümumi iclasda seçilmiş arbitrlərin üç üzvü daxildirlər. BKAM-ın sədri BKAM-ın Rəyasət Heyətinin sədridir.

2. BKAM-ın Rəyasət Heyəti hazırki Əsasnamə ilə səlahiyyətlərinə aid olan məsələləri həll edir, arbitraj təcrübəsini təhlil edir, BKAM-ın fəaliyyəti ilə bağlı məlumatların yayılması, BKAM-ın beynəlxalq əlaqələri və fəaliyyətinin digər məsələlərinə baxır. Rəyasət Heyətinin iclaslarında BKAM-ın məsul katibi məşvərətçi səsvermə hüququ ilə iştirak edir.

3. Rəyasət Heyətində sədr səsvermədə iştirak edir və axırıncı səs verir. Səslər bərabər olduqda sədrin səsi həlledicidir. Rəyasət Heyətinin qərarlarının icrası BKAM-ın sədri tərəfindən həyata keçirilir.

Bu Əsasnamənin 52-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Rəyasət Heyətinin qərarları, səsvermədə Rəyasət Heyətinin üzvlərinin yarıdan çoxunun iştirakı şərti ilə, sadə səsçoxluğu ilə qəbul edilir. Rəyasət Heyətinin qərarı protokolla rəsmiləşdirilir. Rəyasət Heyətinin katibi funksiyalarını BKAM-ın məsul katibi yerinə yetirir.

Rəyasət Heyətinin iclasları 3 ayda bir dəfədən az olmayaraq keçirilir. Növbədənkənar iclaslar Rəyasət Heyətinin hər bir üzvünün təşəbbüsü ilə çağırıla bilər. Rəyasət Heyətinin iclaslarına BKAM-ın sədri sədrlik edir.

Rəyasət Heyətinin iclaslarına arbitrlər və digər şəxslər dəvət edilə bilərlər.

Rəyasət Heyətinin üzvü müzakirə edilən məsələ üzrə bitərəf qala bilməz.

Rəyasət Heyətinin iclasında müzakirəyə çıxarılan məsələlər barədə Rəyasət Heyətinin üzvlərinə Rəyasət Heyətinin iclaslarına 10 gün qalmış məlumat verilir.

4. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin çıxardığı qətnamə və qərarlardan verilən şikayətlərə bu Əsasnamənin 52-ci maddəsinin müddəalarına əsasən baxılır.

## Maddə 19. Məruzəçilər

1. BKAM-ın sədri arbitraj araşdırmaları başlanan hər bir iş üzrə işi Arbitraj Kollegiyasına və ya işə təkbaşına baxan arbitrə məruzə edən, iş üzrə məhkəmə iclas protokolunu yazan, Arbitraj Kollegiyasının iclaslarında iştirak edən və onun tapşırıqlarını yerinə yetirən məruzəçi təyin edir. Məruzəçi Arbitraj Kollegiyasının yaradılmasına qədər arbitraj araşdırmalarına aid olan, həmçinin, arbitraj araşdırmaları zamanı işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının, BKAM-ın sədrinin və ya BKAM-ın məsul katibinin tapşırıqlarını yerinə yetirir.
2. Məruzəçilərin siyahısı 5 il müddətinə BKAM-ın sədri tərəfindən təsdiq edilir. Məruzəçilərin siyahısına ali hüquq təhsili olan və bir qayda olaraq, xarici dilləri bilən şəxslər daxil edilirlər.

## Maddə 20. Katiblik

1. Katiblik hazırki Əsasnaməyə əsasən BKAM-ın fəaliyyətini təmin etmək üçün zəruri olan funksiyaları həyata keçirir. Katibliyə BKAM-ın Sədri ilə razılaşdırılaraq AZƏRBAYCAN ARBİTRAJ VƏ MEDİASİYA MƏRKƏZİ-nin təyin etdiyi məsul katib başçılıq edir.
2. BKAM-ın məsul katibi ilə müavini, həmçinin, katibliyin digər işçiləri arasında iş bölgüsünü BKAM-ın məsul katibi aparır.
3. Katiblik BKAM-da işlərin baxılması ilə bağlı funksiyaların həyata keçirilməsində BKAM-ın Sədrinə tabe olur.

# III F Ə S İ L

# FUNKSİONAL PRİNSİPLƏR

## 1. ARBİTRAJ ARAŞDIRMASININ BAŞLANMASI

## Maddə 21. İddianın verilməsi (təqdim olunması)

1. BKAM-a iddia ərizəsi verildikdə arbitraj araşdırması başlanılır.
2. BKAM-a iddia ərizəsi verildiyi tarix onun təqdim olunduğu gün, iddia ərizəsi poçt vasitəsi ilə göndərilərsə – göndərilən sənəddəki poçtun ştamp tarixi hesab olunur.

## Maddə 22. İddia ərizəsinin məzmunu

İddia ərizəsində aşağıdakılar göstərilməlidir:
a) tərəflərin adları, ünvanları və digər rekvizitləri;
b) iddia tələbi;
c) BKAM-ın səlahiyyətlərinin əsasları;
ç) iddiaçının faktiki və hüquqi vəziyyətinə istinad edərək iddia tələbinin izahı və həmin vəziyyətin əsaslandığı sübutların təsdiq edilməsi;
d) iddianın qiyməti;
e) iddiaçı tərəfindən seçilən arbitrin və ehtiyat arbitrin adı, soyadı və yaxud arbitrin və ehtiyat arbitrin BKAM-ın sədri tərəfindən təyin edilməsi xahişi;
j) iddia ərizəsinə əlavə edilən sənədlərin siyahısı;
h) iddiaçının imzası.

## Maddə 23. İddianın qiyməti

1. İddianın qiyməti aşağıdakı qaydada müəyyən edilir:
a) pul tələbinə dair iddia – tələb olunan məbləğlə;
b) əmlak tələbinə dair iddia – tələb olunan əmlakın dəyəri ilə;
c) hüquqi münasibətlərin tanınmasına dair iddia – iddianın təqdim olunduğu anda hüquqi münasibətlərin obyektinin dəyəri ilə;
ç) hansısa hərəkət və hərəkətsizliyə dair iddia – iddiaçının əmlak maraqları haqda əldə olunmuş məlumat əsasında. İddia ərizəsində iddia tələbi və ya tələbin bir hissəsi pul xarakteri daşımadığı hallarda da, iddiaçı iddianın məbləğini göstərməlidir.
2. Bir neçə tələbdən ibarət olan iddiada, hər tələbin məbləği ayrıca müəyyənləşdirilməlidir. Bu halda iddia qiyməti bütün tələblərin ümumi məbləği ilə müəyyən edilir.
3. Əgər iddiaçı iddianın qiymətini düzgün müəyyənləşdirməyibsə, BKAM öz təşəbbüsü ilə və ya cavabdehin tələbi ilə əldə olunan məlumatlara əsasən iddianın qiymətini müəyyən edir.

## Maddə 24. İddia ərizəsində çatışmazlığın aradan qaldırılması

1. İddia ərizəsi hazırkı Əsasnamənin 22-ci maddəsində nəzərdə tutulan tələblərə uyğun olmadığı halda, BKAM-ın məsul katibi iddiaçıya iddia ərizəsində olan çatışmazlığı aradan qaldırmağı təklif edir.
Çatışmazlıq təklif edilən vaxtdan 1 ay müddətindən gec olmayaraq aradan qaldırılmalıdır.
2. İddiaçı iddia ərizəsində çatışmazlıqların aradan qaldırılması təklifinə əməl etməyərək onları aradan qaldırmadan işin baxılmasına təkid edirsə, BKAM iş üzrə qətnamə və ya araşdırmanın dayandırılması barədə qərar çıxara bilər.

### Maddə 25. Arbitraj araşdırmasının xərcləri

1. İddiaçı iddia ərizəsini və yaxud tələbin təmin edilməsinə dair vəsatəti təqdim edərkən qeydiyyat rüsumu ödəməlidir. Qeydiyyat rüsumu ödənilənə qədər iddia və ya vəsatət verilməmiş hesab edilir. Qeydiyyat rüsumu geri qaytarılmır.
2. İddiaçı hər iddia üçün avansla arbitraj rüsumu ödəməlidir. İddiaçı tərəfindən iddia ərizəsi verilərkən avans məbləği qeydiyyat rüsumu hesab edilir.
Arbitraj rüsumunun avansı ödənilənə qədər iddia üzrə arbitraj araşdırması aparılmır və iş hərəkətsiz qalır.
3. Qeydiyyat və arbitraj rüsumlarının məbləği, ödənilməsi və müəyyənləşdirilməsi, həmçinin, arbitraj araşdırmasına dair digər xərclərin ödənilməsi qaydaları, hazırki Əsasnamənin ayrılmaz hissəsi olan «Arbitraj xərcləri və rüsumları haqqında» Əsasnamə ilə müəyyən edilir.

## 2. İŞİN ARAŞDIRMAYA HAZIRLANMASI

### Maddə 26. Cavabdehin bildirişi və onun arbitr seçməsi

1. BKAM-ın məsul katibi cavabdehi iddia ərizəsi barədə məlumatlandırır, iddia ərizəsinin surətini və ona əlavə edilmiş sənədləri cavabdehə göndərir. Bu zaman məsul katib cavabdehə aldığı iddia ərizəsinə və sübutlara dair öz yazılı izahatının 20 gün müddətində BKAM-a təqdim edilməsini təklif edir.
2. Cavabdeh iddia ərizəsinin surətini aldığı gündən 20 gün müddətində seçdiyi arbitrin və ehtiyat arbitrin adlarını və soyadlarını və ya arbitrin və ehtiyat arbitrinin BKAM-ın Sədri tərəfindən təyin edilməsinə dair xahişini bildirməlidir.

### Maddə 27. Arbitraj Kollegiyasının yaradılması

1. Əgər tərəflərin arasında işə təkbaşına arbitrin baxmasına dair razılıq yoxdursa, 3 arbitrdən ibarət Arbitraj Kollegiyası yaranır. Əsasnamədə göstərilən Arbitraj Kollegiyasının funksiyaları təkbaşına arbitrə də aiddir.
2. Əgər cavabdeh arbitr və ehtiyat arbitrini, hazırki Əsasnamənin 26-cı maddəsinin 2-ci bəndində nəzərdə tutulan müddətdə seçməzsə, BKAM-ın Sədri onun əvəzinə arbitrlər siyahısından arbitri və ehtiyat arbitri təyin edir.

3. Tərəflərin seçdiyi və ya BKAM-ın Sədrinin təyin etdiyi arbitrlər, arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədrini seçirlər. Eyni qayda ilə onlar Arbitraj Kollegiyasının ehtiyat sədrini də seçə bilərlər.
Əgər arbitrlər ikinci arbitrin seçilməsi və ya təyin edilməsindən keçən 15 gün müddətində Arbitraj Kollegiyasının sədrini seçməsələr, BKAM Sədri tərəfindən arbitrlər siyahısından Arbitraj Kollegiyasının sədri təyin edilir. Eyni qayda ilə BKAM-ın Sədri Arbitraj Kollegiyasının ehtiyat sədrini seçə bilər.
4. İki və artıq iddiaçı və ya cavabdehlər olduqda, iddiaçılar və cavabdehlərdən hər biri bir arbitr və hər biri bir ehtiyat arbitri seçirlər. Onlar həmçinin, arbitr və ehtiyat arbitrlərin onların əvəzinə BKAM-ın Sədri tərəfindən təyin edilməsini xahiş edə bilərlər. İddiaçılar və cavabdehlər arasında 20 gün müddətində razılaşma olmazsa, arbitr və ehtiyat arbitri arbitrlər siyahısından BKAM-ın Sədri tərəfindən təyin edilirlər.
Göstərilən müddət iki və ya daha artıq iddiaçı və ya cavabdeh tərəfindən bir arbitr və bir ehtiyat arbitrinin seçilməsi zərurəti məlum olduğu andan hesablanmağa başlayır.

### Maddə 28. Təkbaşına arbitrin seçilməsi və təyin edilməsi

Əgər tərəflərin razılığı ilə işə təkbaşına arbitr baxırsa, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr tərəflərin razılığı ilə seçilir. Onlar, həmçinin, təkbaşına arbitrin və ehtiyat təkbaşına arbitrin BKAM-ın Sədri tərəfindən təyin edilməsini də xahiş edə bilərlər. Tərəflər 20 gün ərzində razılığa gələ bilmədikdə, təkbaşına arbitr və ehtiyat təkbaşına arbitr arbitrlər siyahısından BKAM-ın Sədri tərəfindən təyin edilirlər.

### Maddə 29. Araşdırmalara hazırlıq

1. Arbitraj Kollegiyası işin araşdırmaya hazırlanması vəziyyətini yoxlayır və zəruri halda, hazırlıq üçün əlavə tədbirlər görür, xüsusilə, tərəflərdən yazılı şəkildə izahatlar, sübutlar və digər əlavə sənədlər tələb edir. Əgər işin araşdırmaya hazırlanması üçün əlavə tədbirlər görülürsə, bunun üçün müəyyən müddət təyin edilir.
2. Arbitraj Kollegiyasının sədri BKAM-ın məsul katibinə işin araşdırılması və hazırlanması üçün əlavə tapşırıqlar verə bilər. O, həmçinin, ona tərəflərin məhkəmə baxışına çağırılması üçün tapşırıqlar verə bilər.

## Maddə 30. Tərəflərin şifahi işəbaxma haqqında məlumatlandırılması

1. Şifahi işəbaxmanın vaxtı və yeri haqqında çağırış vərəqəsi tərəflərə elə qaydada göndərilməlidir ki, hər bir tərəfin hazırlıq və şifahi işəbaxmaya gəlməsi üçün 30 gün müddəti olmalıdır. Tərəflərin razılığı ilə bu müddət azaldıla bilər.
2. Əgər növbəti şifahi işəbaxma zərurəti varsa, Arbitraj Kollegiyası konkret imkanları nəzərə alıb, onun keçirilməsini təyin edir.
Maddə 31. Arbitrə, ekspertə və tərcüməçiyə etiraz
1.Tərəflərin hər birinin, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə, əgər onların qərəzsizliyi və müstəqilliyi barədə əsaslı şübhələr doğura bilən hallar varsa, xüsusilə, əgər onların şəxsən, birbaşa və yaxud dolayısı ilə işin həllində maraqlı olduqları müəyyən edilirsə, onlara etiraz etmək hüquqları vardır. Tərəfin etirazın səbəbini göstərən yazılı ərizəsini, tərəf Arbitraj Kollegiyasının təşkili və bu cür halları bildiyi vaxtdan 15 gün müddətində verə bilər. Yalnız üzürlü səbəb olduqda göstərilən müddətdən sonra verilən etiraz ərizəsinə baxılması mümkündür.
2. Arbitrə etiraz məsələsi Arbitraj Kollegiyasının digər üzvləri tərəfindən həll edilir. Əgər onlar razılığa gələ bilməmişlərsə və ya etiraz iki arbitrə və ya təkbaşına arbitrə verilərsə, etiraz məsələsi BKAM-ın sədri tərəfindən həll edilir.
3.BKAM-ın sədrinin öz təşəbbüsü ilə arbitrə, Arbitraj Kollegiyasının sədrinə və ya təkbaşına arbitrə hazırki maddənin 1-ci bəndində göstərilən əsaslar olduqda, etiraz məsələsini həll etmək hüququ vardır.
Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz təşəbbüsü ilə özlərinə etiraz edə bilərlər.
4. Bu maddənin 1–3-cü bəndlərindəki əsaslar, həmçinin, ehtiyat üçün seçilmiş və ya təyin edilmiş arbitrə, Arbitraj Kollegiyasının sədrinə və təkbaşına arbitrə də aid edilir.
5. Bu maddənin 1-ci bəndində göstərilən eyni əsaslarla işin araşdırılmasında iştirak edən ekspertə və tərcüməçiyə etiraz verilə bilər. Bu halda etiraz məsələsi Arbitraj Kollegiyası tərəfindən həll edilir.

## Maddə 32. Arbitrin səlahiyyətlərinin dayandırılması

1. Əgər arbitr, Arbitraj Kollegiyasının sədri və ya təkbaşına arbitr öz funksiyalarını yerinə yetirə bilmirlərsə və ya bu funksiyaları əsassız gecikdirərək həyata keçirmirlərsə, tərəflərin razılığı ilə onların hər birinin səlahiyyətləri dayandırıla bilər.

2. Arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətləri özlərinə etiraz ərizəsilə də dayandırıla bilər.
3. Tərəflər razılığa gələ bilməmişlərsə, onların hər birinin hazırki maddənin 1-ci bəndinə əsaslanaraq, arbitrin, Arbitraj Kollegiyası sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması məsələsini həll etmək üçün BKAM-ın sədrinə müraciət etmək hüquqları vardır.
4. BKAM-ın sədrinin öz təşəbbüsü ilə hazırki maddənin 1-ci bəndində göstərilən arbitrin, Arbitraj Kollegiyasının sədrinin və ya təkbaşına arbitrin səlahiyyətlərinin dayandırılması məsələsini həll etmək hüququ vardır.
5. Bu Əsasnamənin 31.3 və 32.4-cü bəndlərinə uyğun BKAM-ın Sədrinin qəbul etdiyi qərarlardan tərəflər BKAM-ın Rəyasət Heyətinə şikayət verə bilərlər.

### Maddə 33. Arbitraj Kollegiyasında dəyişikliklər

1. Əgər Arbitraj Kollegiyasının sədrinə, təkbaşına arbitrə və ya arbitrə etiraz verilmişsə və ya digər səbəblərdən işin araşdırmasında iştirak edə bilmirlərsə, onları müvafiq surətdə ehtiyat Arbitraj Kollegiyasının sədri, ehtiyat təkbaşına arbitr və ya ehtiyat arbitr əvəz edirlər. Əgər belə əvəzetmə mümkün olmazsa, bu Əsasnaməyə uyğun olaraq yeni Arbitraj Kollegiyasının sədri, təkbaşına arbitr və ya arbitr seçilir və ya təyin edilirlər. Əgər Arbitraj Kollegiyasının sədri, təkbaşına arbitr və ya arbitr BKAM-ın sədri tərəfindən təyin ediliblərsə, yeni təyin etmələri də o, həyata keçirir.
2. Zərurət olduqda və tərəflərin fikri nəzərə alınmaqla dəyişdirilmiş Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr iş üzrə əvvəlki şifahi dinləmələrdə baxılmış məsələyə yenidən baxa bilər.

## 3. İŞİN ARAŞDIRILMASI

### Maddə 34. Şifahi işəbaxmanın keçirilməsi

Tərəflərin təqdim edilən sübutlara əsasən öz mövqelərini ifadə etmək və şifahi mübahisə edilməsi üçün şifahi işəbaxma həyata keçirilir. İşəbaxma qapalı keçirilir. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin icazəsi və tərəflərin razılığı ilə işəbaxmada arbitraj araşdırmasında iştirak etməyən şəxslər iştirak edə bilərlər.

**Maddə 35. Tərəflərin iştirakı**

1. Tərəflər BKAM-da öz işlərini birbaşa və ya özlərinin təyin etdikləri səlahiyyətli nümayəndələri vasitəsilə apara bilərlər.
2. İşəbaxmanın vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilən tərəf, araşdırmada iştirak etməyə gəlməzsə və üzürlü səbəbdən işəbaxmanın təxirə salınması barədə vəsatət təqdim etməyibsə, bu hal işin araşdırılmasına və qərarın çıxarılmasına mane olmur.
3. Tərəf öz iştirakı olmadan işin baxılmasını xahiş edə bilər.

**Maddə 36. Sənədlərin verilməsi**

Tərəflərdən birinin BKAM-a təqdim etdiyi bütün sənədlər, BKAM-ın katibliyi vasitəsilə digər tərəfə verilməlidir. Tərəflərə, həmçinin, arbitraj qətnaməsinin əsaslana biləcəyi, sübutedici əhəmiyyəti olan ekspertlərin bütün rəyləri və ya başqa sənədləri də verilməlidir.

**Maddə 37. Təminedici tədbirlər**

1. Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr hər hansı bir tərəfin xahişi ilə mübahisəli predmetlə bağlı zəruri hesab edərsə, tərəflərin təminedici tədbirlərinin həyata keçirilməsinə dair göstərişlər verə bilər. O, hər hansı bir tərəfdən belə tədbirlərin təmin edilməsini tələb edə bilər.
2. Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr belə təminedici tədbirləri müddətli qətnamə formasında qəbul edə bilər. Tərəflərin arbitraj baxışına qədər və yaxud arbitraj baxışı ərzində təminedici tədbirlərin görülməsi haqqında məhkəməyə müraciət etmələri və məhkəmənin belə tədbirlərin təmin edilməsi ilə bağlı müvafiq qərar qəbul etməsi arbitraj sazişi ilə ziddiyyət təşkil etmir.
3. Təminedici tədbir barədə olan qərardan şikayət verilə bilməz.
4. BKAM-ın sədri tərəflərin xahişi ilə BKAM-ın baxışına verilən işlər üzrə iddianın təmin edilməsinin miqyasını və formasını müəyyən edə bilər.
BKAM-da baxılan mübahisə predmetinin təminedici tədbirlərin tətbiq edilməsinə dair qərarı, həmin iş üzrə yaradılan Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr tərəfindən hazırki Əsasnaməyə uyğun olaraq qəbul edilə bilər.
Əgər tərəf BKAM-da qaldırılmış iddia üzrə iddianın təmin edilməsinə dair vəsatətlə dövlət məhkəməsinə müraciət edibsə, eyni zamanda,

məhkəmə tərəfindən belə tədbir görülməsi barədə qərar çıxarılıbsa, tərəf BKAM-ı dərhal bu barədə məlumatlandırmalıdır.

**Maddə 38. Yazılı materiallar əsasında işin araşdırılması**

Tərəflər, şifahi dinləmə keçirilmədən, yalnız yazılı materiallar əsasında mübahisənin araşdırılmasına dair razılığa gələ bilərlər. Əgər təqdim edilən materiallar mahiyyəti üzrə mübahisənin həll edilməsi üçün kifayət etməzsə, Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxma təyin edə bilər.

**Maddə 39. İddia tələblərinə və ya iddia üzrə etirazlara dəyişikliklər və ya əlavə**

1. Hər hansı bir tərəf şifahi işəbaxmanın sonuna qədər əsassız ləngimə olmadan öz iddia tələblərini və ya iddia üzrə etirazlarını dəyişə və ya əlavələr edə bilər.
2. Tərəflərdən birinin iddia tələblərinə və ya iddia üzrə etirazlara dəyişikliyə və ya əlavəyə dair əsassız ləngiməyə yol verməsi müəyyən edildikdə Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr həmin tərəfin üzərinə bu ləngimə ilə bağlı BKAM-ın əlavə xərclərini və digər tərəfin məsrəflərini ödəmək vəzifəsini qoya bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, iddia tələblərinə və ya iddia üzrə etirazlara bu cür dəyişiklik və ya əlavənin həll olunmasını məqsədəuyğun hesab etməyə bilər.

**Maddə 40. Qarşılıqlı iddia və hesablama məqsədilə tələb**

1. Bu Əsasnamənin 26-cı maddəsinin 1-ci bəndində qeyd edilən müddətdə, cavabdehin müqaviləyə əsasən qarşılıqlı iddia vermək hüququ vardır və ya həmin müqaviləyə əsasən də hesablama məqsədilə tələb irəli sürə bilər.
2. Əgər cavabdehin təqsirindən əsassız ləngimə nəticəsində qarşılıqlı iddianın və ya hesablama tələbinin arbitraj araşdırılması uzadılırsa, Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr əlavə xərcləri və digər tərəfin məsrəflərinin ödənilməsini cavabdehə həvalə edə bilər.

Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr yol verilmiş bu ləngiməni nəzərə almaqla, qarşılıqlı iddianın və ya hesablama tələbinin həll olunmasını məqsədəuyğun hesab etməyə bilər.

3. Qarşılıqlı iddia və hesablama məqsədilə verilən tələbə də ilk iddiaya aid olan qaydalar tətbiq olunur.

## Maddə 41. Sübutlar

1. Tərəflər öz tələb və etirazlarının əsası kimi istinad etdikləri halı sübut etməlidirlər.
Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr tərəflərdən digər sübutların da təqdim edilməsini tələb edə bilər. Onun öz mülahizəsinə əsasən ekspertiza keçirilməsini təyin etmək və üçüncü şəxslərdən sübutların təqdim edilməsini tələb etmək, həmçinin şahidləri dəvət etmək və dinləmək hüququ vardır.
2. Tərəf yazılı sübutların əslini (orijinal) və ya əslinin təsdiq edilmiş surətlərini təqdim edə bilər. Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin, işin araşdırılmasında zərurət olduqda, bu sübutların digər müvafiq dildə tərcüməsini tələb etmək hüququ vardır.
3. Yazılı sübutların yoxlanılması Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr tərəfindən müəyyən olunmuş üsulla həyata keçirilir. Arbitraj Kollegiyası yoxlama hərəkətlərinin icrasını arbitrlərdən birinə həvalə edə bilər.
4. Sübutlar arbitrlər tərəfindən tətbiq edilən hüquq normasına, müqavilə şərtlərinə, beynəlxalq təcrübəyə və ticarət adətlərinə ( lex mercatoria ) uyğun qiymətləndirilir.
5. Tərəflərin lazımi sübutları təqdim etməməsi Arbitraj Kollegiyasına və ya işə təkbaşına baxan arbitrin araşdırmanın davam etdirilməsinə və sübutlara əsasən qərar çıxarılmasına mane olmur.

## Maddə 42. Üçüncü şəxslərin iştirakı

Yalnız mübahisə edən tərəflərin razılığı ilə arbitraj araşdırmasına üçüncü şəxslərin müdaxiləsi yol verilir. Üçüncü şəxsləri araşdırmaya cəlb etmək üçün, tərəflərin razılığından əlavə, cəlb edilmiş şəxsin öz razılığı da olmalıdır. İddia ərizəsinə verilən cavabın müddəti keçmirsə, üçüncü şəxsin cəlb edilməsinə dair vəsatət təqdim edilə bilər. Üçüncü şəxsin cəlb edilməsinə razılıq yazılı formada verilməlidir.

## Maddə 43. Məhkəmə baxışının təxirə salınması və icraatın Dayandırılması

Zərurət olduqda tərəflərin və ya Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin təşəbbüsü ilə məhkəmə baxışı təxirə salına və ya icraat dayandırıla bilər. Məhkəmə baxışının və ya arbitraj araşdırmasının dayandırılmasına dair qərar çıxarılır.

**Maddə 44. Məhkəmə iclasının protokolu**

1. İcraatın şifahi aparıldığı halda protokol tərtib olunur. Protokolda aşağıdakılar göstərilməlidir:
- BKAM-ın adı;
- işin nömrəsi;
- məhkəmə iclasının yeri və tarixi;
- tərəflərin adları;
- tərəflərin nümayəndələrinin dinləmələrdə iştirakı barədə məlumat;
- işdə iştirak edən arbitrlərin, məruzəçilərin, şahidlərin, ekspertlərin, tərcüməçilərin və digər iştirakçıların adları və soyadları;
- dinləmələrin qısa məzmunu;
- işdə iştirak edənlərin tələbləri və izahatları;
- işin təxirə salınma əsasları və ya araşdırmanın bitirilməsi;
- arbitrlərin imzaları.

2. Tərəflərin iclas protokolunun məzmunu ilə tanış olmaq hüquqları vardır. Tərəflərin xahişləri əsaslı olarsa, Arbitraj Kollegiyasının və ya işə təkbaşına baxan arbitrin qərarı ilə protokola dəyişikliklər və ya əlavələr edilə bilər.
3. Tərəfin xahişi ilə iclas protokolunun surəti ona verilir.

## 4. ARBİTRAJ ARAŞDIRMASININ QURTARMASI

**Maddə 45. Son arbitraj araşdırması**

Arbitraj araşdırması arbitraj qətnaməsinin çıxarılması ilə qurtarır.

**Maddə 46. Arbitraj qətnaməsinin çıxarılması**

1. Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr mübahisə ilə bağlı bütün məsələlərin kifayət qədər araşdırıldığını hesab etsə, o, şifahi işəbaxmanı bitmiş elan edir və qətnamə çıxarır.

2. Qətnamə qapalı iclasda Arbitraj Kollegiyasının səsçoxluğu ilə çıxarılır. Çıxarılan qətnamə ilə razılaşmayan arbitr öz xüsusi rəyini, qətnaməyə əlavə ediləcək yazılı formada, ifadə edə bilər.

**Maddə 47. Arbitraj qətnaməsinin elan edilməsi**

1. Qətnamə çıxarıldıqdan sonra onun nəticə hissəsi tərəflərə şifahi elan edilir, əgər onlar iştirak etmirsə, 3 gün ərzində onlara yazılı formada məlumat verilir.
2. Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) tərəfindən qətnamənin elan edilməsindən 10 gün müddətindən gec olmayaraq katiblik əsaslandırılmış qətnaməni tərəflərə göndərir.
3. Arbitraj Kollegiyası və ya işə təkbaşına baxan arbitr şifahi işəbaxmanın sonunda qətnamənin nəticə hissəsini şifahi elan etmədən, 10 gün müddətdən gec olmayaraq, əsaslandırılmış qətnamənin tərəflərə göndərilməsini elan edə bilər.
4. Mübahisənin düzgün həlli üçün əlavə araşdırma aparılması zərurəti yarandıqda Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) qətnamənin nəticə hissəsini elan etmədən araşdırmanı davam etdirə bilər.
5. Zərurət olduqda, BKAM-ın sədri bu maddənin 2-ci və 3-cü bəndlərinə əsasən müəyyən edilən müddəti uzada bilər.

**Maddə 48. Arbitraj qətnaməsinin forma və məzmunu**

1. Qətnamədə aşağıdakılar göstərilməlidir:
- BKAM-ın adı;
- işin nömrəsi;
- qətnamənin çıxarılma yeri və tarixi;
- işə baxan arbitrlərin adları və soyadları;
- Arbitraj araşdırmasında iştirak edən tərəflərin (və ya onların nümayəndələrinin) və digər şəxslərin adları və soyadları;
- mübahisənin predmeti və işin qısa məzmunu;
- qətnamənin əsaslandığı motivlər;

- iddia tələblərinin təmini və ya rədd edilməsinə dair nəticə;
- iş üzrə arbitraj xərcləri və rüsumlarının məbləği, onların tərəflər arasında bölünməsi;
- arbitrlərin imzası.

2. Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsini imzalaya bilmirsə, BKAM-ın sədri arbitrin imzasının olmaması səbəbini göstərməklə, qərarı öz imzası ilə təsdiq edir.

**Maddə 49. Qətnamədə düzəlişlər edilməsi, qətnamənin izah edilməsi və əlavə qətnamə çıxarılması**

1. Tərəflərdən biri digər tərəfi xəbərdar etməklə, qətnamənin alınmasından 15 gün müddətində, Arbitraj Kollegiyasından (və ya işə təkbaşına baxan arbitrdən) qətnamədə yol verilmiş yazı xətalarının və hesab səhvlərinin düzəldilməsini, həmçinin, çap və yaxud yol verilmiş digər bu cür texniki qüsurların aradan qaldırılmasını xahiş edə bilər. Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) belə müraciəti əsaslı hesab edərsə, onu aldığı gündən 15 gün müddətində müvafiq düzəliş etməlidir.

Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) öz təşəbbüsü ilə də belə qüsurları aradan qaldıra bilər.

2. Tərəflər arasında digər razılıq yoxdursa, tərəflərdən biri bu barədə digər tərəfi xəbərdar etməklə, qətnamənin tərəfə təqdim edildiyi (və ya alındığı) gündən 30 gün müddətində, Arbitraj Kollegiyasından (və ya işə təkbaşına baxan arbitrdən) qətnamənin konkret hər hansı bölməsinin və ya hissəsinin izahının verilməsini xahiş edə bilər.

3. Tərəflərdən biri bu barədə digər tərəfi xəbərdar etməklə, qətnamənin təqdim edildiyi (və ya alındığı) gündən 15 gün müddətində, arbitraj baxışının gedişində qaldırılmış, lakin arbitraj qərarında öz əksini tapmamış tələblər barəsində Arbitraj Kollegiyasından (və ya işə təkbaşına baxan arbitrdən) əlavə qətnamə çıxarılmasını xahiş edə bilər. Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) xahişi haqlı və əsaslı hesab edərsə, 15 gün müddətində əlavə qətnamə çıxarmalıdır.

4. Zərurət olduqda, BKAM-ın sədri hazırkı maddənin 1–3-cü bəndlərində qeyd edilən müddətləri artıra bilər.

5. Düzəlişlər edilməsi və izahlar verilməsinə dair qərarlar, həmçinin, əlavə qətnamələr arbitraj qətnaməsinin tərkib hissəsini təşkil edir.

**Maddə 50. Barışıq sazişi**

1. Arbitraj baxışının gedişində tərəflər mübahisəni aradan qaldırarlarsa, Arbitraj Kollegiyası (işə təkbaşına baxan arbitr) baxışa xitam verir və tərəflərin xahişi əsasında və öz tərəfindən etirazı olmadıqda razılaşdırılmış şərtlər əsasında arbitraj qərarı formasında mübahisənin aradan qalxmasını rəsmiləşdirir.
2. Razılaşdırılmış şərtlərlə arbitraj qərarı 48-ci maddənin müddəalarına uyğun olaraq çıxarılmalıdır və onun arbitraj qərarı olduğu göstərilməlidir.
Belə arbitraj qərarı, digər hər hansı arbitraj qərarı ilə bərabər hüquqi qüvvəli sayılır və mübahisənin mahiyyəti üzrə olan digər hər hansı arbitraj qərarı kimi icra olunmalıdır.

**Maddə 51. Qətnamə çıxarılmadan icraata xitam verilməsi**

1. Əgər iş üzrə yekun qətnamə çıxarılmırsa, arbitraj araşdırmasına qərarla xitam verilir.
2. Aşağıdakı hallarda arbitraj araşdırmasına xitam verilməsi haqqında qərar çıxarılır:
a) iddiaçı öz tələbindən imtina edərsə, əgər cavabdeh xəbərdarlıq məktubunu aldıqdan 30 gün müddətdən gec olmayaraq icraatın dayandırılmasına etiraz etməzsə, Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan arbitr) mübahisənin qəti həllində cavabdehin qanuni marağını tanımadıqda;
b) arbitraj araşdırmasının dayandırılmasına dair tərəflərin razılığı olduqda;
c) Arbitraj Kollegiyası (və ya işə təkbaşına baxan) arbitr araşdırmanın davamını hər hansı bir səbəbdən lazımsız və ya mümkünsüz hesab edirsə, xüsusilə, mahiyyəti üzrə baxılması və həlli üçün zəmin olmadıqda, həmçinin, iddiaçı tərəfindən iş 2 aydan çox müddətdə hərəkətsiz qaldıqda.
3. Arbitraj Kollegiyasının yaranmasına qədər işin araşdırılmasının dayandırılmasına dair qərar BKAM-ın sədri tərəfindən çıxarılır.

# 5. ARBİTRAJ QƏRARLARINA YENİDƏN BAXILMASI

## Maddə 52. Şikayətlərə baxılmanın əsasları və qaydası

1. Tərəflər arbitraj sazişində nəzərdə tutduqları halda Rəyasət Heyəti işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən verilmiş şikayətlərə və bu Əsasnamənin 32.5-ci bəndində nəzərdə tutulmuş şikayətlərə baxır.

Tərəflər yalnız arbitraj sazişində nəzərdə tutduqları halda işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnamələrindən Rəyasət Heyətinə şikayət verə bilərlər.

2. Tərəflərin Rəyasət Heyətinə verdiyi şikayət ərizəsi 5 gün ərzində katiblik tərəfindən işlə birlikdə Rəyasət Heyətinə təqdim edilir.

3. Tərəflər işə təkbaşına baxan arbitrin və ya Arbitraj Kollegiyasının qətnaməsinin surətini aldıqdan 30 gün ərzində Rəyasət Heyətinə verdikləri şikayəti katibliyə təqdim etməlidirlər, əks halda şikayət müddəti ötürülmüş hesab edilir və qəbul olunmur.

Üzürlü səbəb olduqda, şikayət vermə müddəti bərpa edilə bilər.

4. Rəyasət Heyəti arbitraj qətnamələrindən verilən şikayətlərə (şikayət verildiyi vaxtdan) 2 ay ərzində, digər qərarlardan verilən şikayətlərə 10 gün müddətində baxıb həll etməlidir.

Rəyasət Heyəti üzvlərinin 2/3 hissəsi iştirak etdikdə Rəyasət Heyətinin iclası səlahiyyətli sayılır. Səslər bərabər olduqda şikayət qəbul edilməmiş hesab olunur.

Rəyasət Heyətində işlərə baxılma qaydası bu Əsasnamə ilə müəyyən edilən qaydalara uyğun aparılır.

5. Rəyasət Heyətinin qətnaməsi bu Əsasnamənin 46–50-ci maddələrinə riayət edilməklə qəbul olunur. Rəyasət Heyəti yenidən mübahisəyə baxır və işə təkbaşına baxmış arbitrin və ya Arbitraj Kollegiyasının qətnaməsinin dəyişdirilmədən saxlanılması və ya qətnamənin ləğv edilərək yeni qətnamə çıxarılması və yaxud da qətnamənin dəyişdirilməsi, o cümlədən, işin BKAM-da baxılmalı olmaması barədə qərar çıxarmaq hüququna malikdir.

Rəyasət Heyətinin qətnaməsi və bu Əsasnamənin 32.5-ci maddəsinə uyğun çıxardığı qərarları qətidir və onlardan şikayət verilə bilməz.

## 6. BKAM-ın QƏTNAMƏSİNİN İCRA EDİLMƏSİ

### Maddə 53. BKAM-ın qətnaməsinin icra edilməsi qaydası

BKAM-ın qətnaməsi könüllü şəkildə və qətnamədə göstərilən qaydada və müddətdə icra edilir.

Tərəflərin Sazişində digər qayda müəyyən edilməyibsə, icra müddəti göstərilməyən qətnamə dərhal icra edilməlidir.

### Maddə 54. BKAM-ın qətnaməsinin tanınması və icra edilməsi

BKAM-ın qətnaməsinin icrası məcburidir və Azərbaycan Respublikası Qanunlarının müddəalarına uyğun icra edilir.

Digər dövlətlərdə icra edilməli olan qətnamələrin icra edilməsinə və tanınmasına BMT-nin 10 iyun 1958-ci il tarixli «Xarici arbitraj məhkəmələrinin qətnamələrinin icra edilməsi və tanınması barədə» Nyu-York Konvensiyası tətbiq edilir.

## YEKUN MÜDDƏALAR

Bu Əsasnamə ilə tənzimlənməsi nəzərdə tutulmayan digər prosessual hərəkətlər «Beynəlxalq arbitraj haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həll edilir.

Bu Əsasnaməyə dəyişikliklər və əlavələr Əsasnaməni qəbul etmiş orqan tərəfindən edilə bilər.

Əlavə və dəyişikliklər bu Əsasnamənin ayrılmaz tərkib hissəsi hesab olunur və dərhal bu barədə «ARBİTRAJ» qəzetində və digər Kütləvi İnformasiya Vasitələrində müvafiq məlumatlar verilir.

Əlavə və dəyişikliklər BKAM-ın arbitrlərinin (hakimlərinin) ümumi yığıncağının təklifləri və rəyi nəzərə alınmaqla edilir.

BKAM-ın əldə etdiyi gəlirlər yalnız bu məhkəmənin fəaliyyətinin inkişafına yönəldilməlidir.

Arbitraj xərclərinin miqdarı və ödənilmə qaydası AZƏRBAYCAN ARBİTRAJ VƏ MEDİASİYA MƏRKƏZİNİN Ali orqanının qəbul etdiyi Əsasnamə ilə müəyyən edilir.

BKAM-ın arbitrləri «Arbitrlərin Seçilmə Qaydaları» haqqında Əsasnaməyə müvafiq qaydada seçilirlər.

Bu Əsasnamə Azərbaycan, rus və ingilis dillərində (hər dildə 2 nüsxədə) eyni gücə malik 6 nüsxədə təsdiq edilmişdir.

Bu Əsasnamə 11 noyabr 2003-cü il tarixdən qüvvəyə minir.

## TÖVSİYƏ OLUNAN ARBİTRAJ qeyd şərti

İstənilən mübahisələrin Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsində baxılmasını arzu edən müqavilə tərəflərinə aşağıdakı məzmunda arbitraj qeyd-şərtini müqaviləyə əlavə etmələri məsləhət görülür.

> Bu müqavilədən irəli gələn, yaxud bu müqavilənin pozulması, ləğv edilməsi, və ya etibarsızlığı ilə bağlı bütün mübahisələr Azərbaycan Arbitraj və Mediasiya Mərkəzi yanında Azərbaycan Beynəlxalq Kommersiya Arbitraj Məhkəməsinin Əsasnaməsi ilə müəyyən edilmiş qaydada qəti olaraq arbitraj məhkəməsində bu Əsasnaməyə uyğun olaraq təyin olunmuş bir və ya bir neçə arbitr tərəfindən həll ediləcəkdir.

Həmçinin, diqqətinizə çatdırmaq istərdik ki, bağladığınız müqaviləni tənzimləyəcək maddi hüququ dəqiq göstərməklə əlavə çətinliklərlə və xərclərlə qarşılaşmamaq mümkündür. Tərəflər öz istəkləri ilə arbitrlərin sayını, arbitraj araşdırmasının keçiriləcəyi yeri və arbitraj araşdırmasının hansı dildə aparılacağını göstərə bilərlər.

Aşağıdakı müddəalardan istifadə edilməsi məqsədəuyğundur:

> "Tətbiq olunan maddi hüquq __________________ olacaqdır".
> /ölkə/
> "Arbitrlərin sayı ___________________________olacaqdır".
> /bir və ya üç arbitr/
> "Arbitraj araşdırmasının keçiriləcəyi yer
> ________________olacaqdır".
> /şəhər/
> "Arbitraj araşdırmasının dili ____________________________
> olacaqdır". /Azərbaycan, ingilis, rus və ya
> başqa/

## ARBİTRAJ XƏRCLƏRİ
## VƏ RÜSUMLARI HAQQINDA

## Ə S A S N A M Ə

### Maddə 1. Əsas anlayışlar

1. **"Qeydiyyat rüsumu"** - BKAM-a iddia ərizəsi və ya tələbin təmin edilməsinə dair vəsatət verilərkən arbitraj araşdırması başlanana qədər lazım olan xərcləri bağlamaq üçün ödənilən rüsumdur.
2. **"Arbitraj rüsumu"** - BKAM-ın araşdırmasına verilən hər bir iddiaya görə BKAM-ın fəaliyyəti ilə bağlı ümumi xərcləri (o cümlədən, arbitrlərin, məruzəçilərin qonorarları, katibliyin mükafatlandırılması, arbitraj araşdırmasının təşkili və s. zəruri xərclər) ödəmək üçün tutulan rüsumdur.
3. **"BKAM-ın əlavə xərcləri"** - BKAM-ın konkret işin araşdırılması ilə bağlı çəkdiyi (xüsusilə, ekspertiza keçirilməsi və yazılı tərcümələrin xərcləri, ekspertlərə, tərcüməçilərə ödənilən qonorar, şahidlərin xərclərinin ödənilməsi, ezamiyyə xərcləri və s. kimi) xüsusi xərclərdir.
4. **"Tərəflərin ödənişləri"** - bu maddənin əvvəlki bəndlərində göstərilən xərclərdən başqa, BKAM-a mübahisənin araşdırılması zamanı tərəflərin öz maraqlarını müdafiə etmək üçün ödədikləri xərclərdir.

### Maddə 2. Qeydiyyat rüsumu

Qeydiyyat rüsumu 300 ABŞ dollarının manata olan məzənnəsi məbləğində ödənilir. Növbəti arbitraj rüsumu ödənilərkən qeydiyyat rüsumu arbitraj rüsumu məbləğinə daxil edilir.
Qeydiyyat rüsumu geri qaytarılmır.

**Maddə 3. Arbitraj rüsumu**

1. Arbitraj rüsumu ABŞ dolları ilə aşağıdakı cədvələ uyğun hesablanır:

| **Mübahisənin qiyməti (ABŞ dolları)** | **Arbitraj rüsumu (ABŞ dolları)** |
|---|---|
| 20.000 qədər | 1000 |
| 20.001 dən 100.000 qədər | 1000 + 20.000-dən yuxarı məbləğin 4%-i |
| 100.001 dən 500.000 qədər | 4.200 + 100.000-dən yuxarı məbləğin 2%-i |
| 500.001 dən 1.000.000 qədər | 12.200 + 500.000-dən yuxarı məbləğin 1%-i |
| 1.000.001 dən 2.000.000 qədər | 17.200 + 1.000.000-dan yuxarı məbləğin 0,4%-i |
| 2.000.001 dən 5.000.000 qədər | 21.200 + 2.000.000-dan yuxarı məbləğin 0,2%-i |
| 5.000.001 dən 10.000.000 qədər | 27.200 + 5.000.000-dan yuxarı məbləğin 0,1%-i |
| 10.000.001-dən yuxarı | 32.200 + 10.000.000-dan yuxarı məbləğin 0,05%-i |

2. Arbitraj araşdırması zamanı işin mürəkkəbliyi nəzərə alınaraq, arbitraj araşdırması üçün müddət və xərclər əhəmiyyətli dərəcədə artdıqda, BKAM-ın Sədrinin arbitraj rüsumunun artırılmasına dair qərar çıxarmaq hüququ vardır.
3. BKAM-ın Sədrinin, arbitrlərin və məruzəçilərin qonorarları "Arbitrlərin və məruzəçilərin qonorarları haqqında" BKAM-ın Əsasnaməsinə uyğun müəyyənləşdirilir.
4. Arbitraj rüsumu avans formasında ödənilir.
5. İddianın qiyməti Azərbaycan manatı ilə göstərildikdə, arbitraj rüsumu da Azərbaycan manatı ilə ödənilir. İddianın qiyməti ABŞ dolları ilə hesablandıqda, Azərbaycan Milli Bankının iddia verilən günə olan kursu ilə hesablanır. Qüvvədə olan valyuta qanunvericiliyinə zidd deyilsə, iddiaçının istəyi ilə arbitraj rüsumu ABŞ dolları ilə ödənilə bilər.
6. İddianın qiyməti xarici valyuta ilə göstərilibsə, arbitraj rüsumu ABŞ dolları ilə ödənilir. İddianın qiymətinin ABŞ dollarına olan məzənnəsi

beynəlxalq valyuta bazarının iddia verilən günə olan kursu ilə hesablanır.

## Maddə 4. Arbitraj rüsumunun miqdarının azaldılması

1. Əgər işə təkbaşına arbitr tərəfindən baxılarsa, arbitraj rüsumu 30% miqdarında azaldılır.
2. Əgər iddiaçı iddiasını iş üzrə dinləmələrin təyin olunmasına dair bildiriş göndərilənə qədər geri götürərsə, arbitraj rüsumu 75% miqdarında azaldılır.
3. Əgər iddiaçı, bildiriş göndəriləndən sonra işin ilkin dinlənilməsinə qədər, xüsusən, tərəflər mübahisəni barışıq yolu ilə həll etdikləri halda, iddiasını geri götürürsə, eləcə də işin BKAM-da araşdırılmasından tərəflərin imtina etməsi haqqında BKAM-a ərizə daxil olduğu digər hallarda, arbitraj rüsumu 50% miqdarında azaldılır.
4. Bu maddənin 3-cü bəndində göstərilən hallarda ilk arbitraj iclasında qətnamə çıxarılmadan məhkəmə araşdırmasına xitam verilibsə, arbitraj rüsumu 25% miqdarında azaldılır.
5. Əgər iddiaçı tərəfindən arbitraj rüsumu ödənilənə qədər işə xitam verilibsə, o halda iddiaçıdan arbitraj rüsumunun 25%-i alınır.
6. Bu maddənin 1-4--cü bəndlərində nəzərdə tutulan hallarda işə xitam verilməsinə dair qərar və yaxud qətnamədə arbitraj rüsumunun azaldılması haqqında məlumat öz əksini tapmalıdır. Arbitraj tərkibinin formalaşmasına qədər işə xitam verildikdə, arbitraj rüsumunun azaldılmasına dair qərar BKAM-ın Sədri tərəfindən qəbul edilir.
7. Bu maddənin 1-4--cü bəndlərində arbitraj rüsumunun azaldılmasına dair nəzərdə tutulmuş qaydalar qeydiyyat rüsumuna aid edilmir.

## Maddə 5. Qarşılıqlı iddia və ya hesablama tələbi zamanı arbitraj rüsumu

Arbitraj rüsumu haqqında ilkin iddiaya aid edilən qaydalar, qarşılıqlı iddia və hesabların qarşılıqlı yoxlanması tələbi zamanı da tətbiq edilir.

## Maddə 6. Arbitraj rüsumunun tərəflər arasında bölüşdürülməsi

1. Tərəflər arasında digər razılıq yoxdursa, arbitraj rüsumu əleyhinə qətnamə çıxarılmış tərəfdən tələb edilir.
2. İddia qismən təmin edildikdə, arbitraj rüsumu iddia tələbinin təmin edilən məbləğində münasib olaraq cavabdehdən və iddianın təmin edilməyən hissəsində mütənasib şəkildə iddiaçıdan tutulur.

## Maddə 7. BKAM-ın əlavə xərclərinin ödənilməsi

1. BKAM arbitraj araşdırması ilə bağlı BKAM-ın əlavə xərclərinin ödənilməsi üçün, tərəflərdən birinin və ya hər ikisinin üzərinə avans ödəmək vəzifəsini qoya bilər.
2. BKAM əlavə xərclərin ödənilməsi üçün avans tələbini, xüsusilə, mübahisənin araşdırılması zamanı əlavə xərclər tələb edən hərəkətlərə dair ərizəsi əsaslı sayılan tərəfdən tələb edə bilər. BKAM tərəfindən mübahisənin araşdırılması üçün hərəkətlərin yerinə yetirilməsi, həmin tərəfdən əlavə xərclərin ödənilməsi üçün avansın müəyyən edilən müddət ərzində ödənilməsindən asılıdır.
3. Tərəfin seçdiyi arbitrin daimi yaşayış yeri BKAM-ın iclaslarından kənarda yerləşirsə, həmin arbitrin arbitraj araşdırmasında iştirak etməsi üçün xərcləri (gediş haqqı, yaşayış xərci və s.) onu seçən tərəfin avansı hesabına ödənilir. Belə şəxs Arbitraj Kollegiyasının sədri seçilərsə, arbitraj araşdırmasında onun iştirakı üçün lazım olan xərcləri hər iki tərəf bərabər qaydada ödəyir.
Müəyyən olunmuş müddətdə cavabdeh tərəfindən müvafiq avans ödənilmədikdə, həmin avansın ödənilməsi iddiaçıya həvalə olunur.
4. Arbitraj araşdırması zamanı tərəflərdən birinin xahişi ilə tərəflərin izahatları, ərizələri və s. müraciətlər, eləcə də Arbitraj Kollegiyasının sualları, izahatları və göstərişləri tərcümə olunursa, tərcümə üzrə xərclər həmin tərəfin hesabına ödənilir.
Tərəflərin razılığı ilə dinləmələr xarici dildə aparılırsa, tərcümə üzrə çəkilən xərclər hər iki tərəfdən bərabər qaydada tutulur.
BKAM müvafiq tərəfdən və ya hər iki tərəfdən bu xərclərin ödənilməsi üçün avans tələb edə bilər. Bu qaydalar BKAM-ın qətnamələrinin tərcüməsi üzrə də tətbiq edilir.
5. BKAM-ın əlavə xərclərinin tərəflər arasında bölünməsi bu Əsasnamənin 6-cı maddəsinin müddəalarına uyğun həyata keçirilir. Bu maddənin 4-cü bəndinin 1-ci hissəsində göstərilən xərclər tərcüməçinin xidməti ilə təmin olunmaq barədə xahiş etmiş tərəfin hesabından tutulur.

## Maddə 8. Arbitraj xərclərinin və rüsumlarının ödənilməsi qaydası

1. BKAM-a ödənilməli olan arbitraj xərcləri və rüsumları Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin hesabına köçürüldüyü gündən ödənilmiş sayılır.
2. BKAM-a ödənilən arbitraj xərcləri və rüsumlarının hesabı üzrə bank məsrəflərinin ödənilməsi ödənişi həyata keçirən tərəfin üzərinə qoyulur.

**Maddə 9. Tərəflərin ödənişləri**

Xeyrinə qətnamə çıxarılmış tərəf, arbitraj araşdırması ilə bağlı xərclərin, o cümlədən, öz mənafeyinin hüquqi nümayəndəliklər vasitəsilə müdafiəsi ilə bağlı xərclərin ağlabatan məbləğdə digər tərəfdən tutulmasını tələb edə bilər.

**Maddə 10. Arbitraj xərclərinin və rüsumlarının digər qaydada bölüşdürülməsi**

Bu Əsasnamənin 6-7 və 9-cu paraqrafları ilə müəyyən edilmiş qaydadan fərqli olaraq, iş üzrə konkret halları nəzərə almaqla BKAM, arbitraj rüsumunun, BKAM-ın əlavə xərclərinin və ödənişlərinin tərəflər arasında bölüşdürülməsinin digər qaydasını, xüsusilə də, bir tərəfin əsassız və vicdansız, o cümlədən arbitraj araşdırmasını zərurət olmadan ləngidən hərəkətləri nəticəsində digər tərəfin çəkdiyi artıq xərclərin, bu xərcləri çəkmiş tərəfin onun xeyrinə həmin tərəfdən tutulmasını müəyyən edə bilər.

# BEYNƏLXALQ TİCARƏT PALATASININ ARBİTRAJ REQLAMENTİ

# BEYNƏLXALQ TİCARƏT PALATASININ ARBİTRAJ REQLAMENTİ

## İLKİN MÜDDƏALAR

### Maddə 1. Beynəlxalq arbitraj məhkəməsi

1. Beynəlxalq Ticarət Palatasının («BTP») Beynəlxalq arbitraj məhkəməsi («Məhkəmə») BTP-nin nəzdində arbitraj orqanıdır. Məhkəmənin nizamnaməsi I Əlavədə nəzərdə tutulmuşdur. Məhkəmənin üzvləri BTP-nin Şurası tərəfindən təyin edilirlər. Məhkəmənin vəzifəsi işgüzar münasibətlərdə yaranmış beynəlxalq əhəmiyyətli mübahisələrin Beynəlxalq Ticarət Palatasının Beynəlxalq arbitraj məhkəməsinin Reqlamenti («Reqlament») əsasında arbitraj yolu ilə həll edilməsindən ibarətdir. Bununla bərabər Məhkəmə Reqlament əsasında işgüzar münasibətlərdə yaranmış beynəlxalq əhəmiyyət daşımayan mübahisələri də, ona müvafiq səlahiyyətləri verən arbitraj sazişi olduqda, həll edir.

2. Məhkəmənin özü mübahisələri həll etmir. Onun vəzifəsi bu Reqlamentin tətbiqinin təmin edilməsindən ibarətdir. O, özünün Daxili Reqlamentini qəbul edir. (2 №-li Əlavə)

3. Məhkəmənin Sədri, yaxud Sədr olmadıqda onun xahişi ilə Sədrin müavinlərindən biri Məhkəmənin adından təcili qərarları qəbul etmək səlahiyyətinə malikdir, bu şərtlə ki, hər cür belə qərar Məhkəməyə onun növbəti sessiyasında məruzə olunsun.

4. Məhkəmə, onun Daxili Reqlamenti ilə müəyyən edilmiş qaydada özünün üzvlərindən ibarət tərkibdə bir və ya bir neçə komitəyə qərarlar qəbul etmək səlahiyyəti verə bilər, bu şərtlə ki, hər cür belə qərar Məhkəməyə onun növbəti sessiyasında məruzə olunsun.

5. Məhkəmənin katibliyi («Katiblik») Baş katibin («Baş katib») rəhbərliyi altında BTP-nin qərargahında yerləşir.

### Maddə 2. Təyinat

Bu Reqlamentin məqsədləri üçün:
I. «Arbitraj tərkibi» - bir və ya bir neçə arbitr.

II. «İddiaçı» bir və ya bir neçə iddiaçı, «Cavabdeh» - bir və ya bir neçə cavabdeh.
III. «Qərar»- inter alia, aralıq, qismən, yaxud qəti qərarı nəzərdə tutur.

**Maddə 3. Yazılı bildirişlər və məlumatlar; müddətlər**

1. Tərəflərdən hər hansı biri tərəfindən mübahisə ilə əlaqədar təqdim edilmiş bütün yazılı məlumatlar, həmçinin, onlara əlavə edilən bütün sənədlər tərəflərdən hər biri, hər bir arbitr və Katibliyə çatacaq nüsxədə təqdim edilməlidir. Arbitraj tərkibi tərəfindən tərəflərə göndərilən hər bir məlumatın surəti Katibliyə də göndərilməlidir.

2. Katiblik və arbitraj tərkibinin bütün məlumat və bildirişləri tərəfin və ya onun nümayəndəsinin, həmin tərəfin özü yaxud digər tərəfin bildirdiyi, axırıncı ünvanına göndərilir. Bildiriş və ya məlumat vermə qəbz almaqla, sifarişli məktub göndərməklə, kuryer məktubu ilə, faksla göndərməklə, teleksla, teleqramla ilə, yaxud göndərişi təsdiq edə bilən hər hansı digər vasitə ilə həyata keçirilir.

3. Bildiriş və ya məlumat onları tərəfin və ya onun nümayəndəsinin aldığı gün, yaxud bildiriş və ya məlumat bundan əvvəlki bəndə uyğun olaraq göndərilmişsə, onların alınmalı olduğu gün təqdim edilmiş hesab olunur.

4. Bu Reqlamentlə nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş müddətlər bildiriş və ya məlumatın əvvəlki bəndlə müəyyən edilmiş qaydada təqdim edildiyi gündən sonra gələn növbəti gündən başlayaraq hesablanır. Təqdim edilmə tarixindən sonra gələn gün bildiriş və ya məlumatın təqdim edildiyi ölkədə qeyri-iş günü hesab olunursa, müddət həmin gündən sonra gələn birinci iş günündən başlayaraq hesablanır. Qeyri-iş günləri müddətin hesablanmasına daxil edilir. Müvafiq müddətin axırıncı günü bildiriş və ya məlumatın təqdim edildiyi ölkədə bayram və ya qeyri-iş günüdürsə, müddət sonra gələn birinci iş gününün axırı bitir.

## ARBİTRAJ ARAŞDIRMASININ BAŞLANMASI

**Maddə 4. İşə arbitrajda baxılması haqqında ərizə.**

1. Bu Reqlament əsasında arbitraja müraciət etmək istəyən tərəf özünün iddia ərizəsini («Ərizə») Katibliyə göndərir, Katiblik sonuncu isə iddiaçıya və cavabdehə ərizənin alınması və alınma tarixi haqqında məlumat verir.

2. Ərizənin Katiblik tərəfindən alınma tarixi bütün məqsədlər üçün arbitraj araşdırmasının başlanğıc tarixi hesab olunur.

3. İddia ərizəsi, həmçinin aşağıdakıları özündə əks etdirməlidir:
a) tərəflərdən hər birinin tam adı və ünvanı;
b) iddianın əsasını təşkil edən mübahisənin xarakteri və hallarının ifadə olunması;
c) tələbin predmeti və tələb edilən məbləğin, yaxud məbləğlərin mümkün ölçüsü;
ç) müvafiq saziş, xüsusilə də arbitraj sazişi;
d) 8, 9 və 10-cu maddələr əsasında arbitrlərin sayı və seçilməsi ilə bağlı, həmçinin arbitrin təyin edilməsinin həmin maddələrlə müəyyən edilmiş qaydası haqqında müvafiq məlumatlar;
e) arbitrajın yeri, tətbiq edilən hüquq normaları və arbitraj araşdırmasının dili ilə bağlı bütün qeydlər.

4. İddiaçı iddia ərizəsini 3 (1)-ci maddəyə uyğun olaraq tələb edilən sayda göndərir və inzibati xərclər üçün ərizənin verildiyi tarixdə qüvvədə olan, III Əlavə ilə («Arbitraj xərcləri və qonorarları») müəyyən edilmiş avansı ödəyir. İddiaçının bu tələblərdən hər hansı birinə əməl etmədiyi halda Katiblik onlara əməl edilməsi üçün müddət müəyyən edə bilər; bu müddətin keçməsi ilə işə xitam verilir, lakin iddiaçı eyni ərizəni yenidən təqdim etmək hüququndan məhrum edilmir.

5. Katiblik ərizənin kifayət sayda surətlərinə və tələb olunan avansın ödənilməsini təsdiq edən sənədə malik olduqda ərizənin surətini və ona əlavə edilmiş sənədləri cavabdehə öz rəyini bildirməsi üçün göndərir.

5. Tərəf artıq eyni tərəflər arasında arbitraj araşdırmasının bu Reqlament əsasında predmeti olan hüquq münasibətləri ilə bağlı iddia ərizəsi verdikdə, Məhkəmə tərəflərdən hər hansı

birinin xahişi ilə ərizədə göstərilmiş tələbləri artıq icraatda olan işin predmeti olan tələblərlə, arbitrlərin səlahiyyəti haqqında Aktın hələ Məhkəmə tərəfindən imzalanmadığı və ya təsdiq olunmadığı halda, birləşdirə bilər. Arbitrlərin səlahiyyəti haqqında Akt Məhkəmə tərəfindən imzalandığı, yaxud təsdiq olunduğu halda tələblərin birləşdirilməsi haqqında qərar yalnız 19-cu maddənin tələblərinə əməl edilməklə qəbul edilə bilər.

**Maddə 5. Arbitraja verilmiş ərizəyə etiraz; qarşılıqlı iddia**

1. Katiblikdən ərizəni aldıqdan sonra 30 gün müddətində Cavabdeh, o cümlədən, aşağıdakı məlumatları da özündə əks etdirən etiraz («Etiraz») göndərir

a) cavabdehin tam adı və ünvanı;

b) iddianın/iddiaların əsası olan mübahisənin xarakteri və halları üzrə onun izahatı;

c) onun tələbin predmeti ilə bağlı etirazı;

ç) onun arbitrlərin sayı və seçilmələrinin 8, 9 və 10-cu maddələrlə müəyyən edilmiş qaydası, həmin maddələrlə arbitrlərin təyin edilməsinin müəyyən edilmiş qaydası və İddiaçının arbitrlərin sayı və seçilmələri ilə əlaqədar təklifləri üzrə mövqeyi; və

d) arbitrajın yeri, tətbiq edilən hüquq normaları və arbitraj araşdırmasının dili ilə bağlı istənilən qeydlər.

2. Katiblik Cavabdehə Etirazın verilməsi üçün müəyyən edilmiş müddəti bu barədə olan vəsatətdə Cavabdehin arbitrlərin sayı və seçilməsi, 8; 9 və 10-cu maddələrlə nəzərdə tutulmuş hallarda isə, habelə onların təyin edilməsi haqqında izahatı əks olunduqda artıra bilər. Cavabdeh belə vəsatətlə çıxış etmədikdə Məhkəmə bu Reqlament əsasında iş üzrə icraata başlayır.

3. Etirazın 3 (1)-ci maddə ilə nəzərdə tutulmuş sayda nüsxələrlə Katibliyə göndərilir.

4. Etirazın surətini və ona əlavə edilmiş sənədləri Katiblik İddiaçıya göndərir.

5. Cavabdehin qarşılıqlı iddiası (iddiaları) Etirazla birlikdə təqdim edilməli və xüsusilə, aşağıdakıları nəzərdə tutmalıdır

a) qarşılıqlı iddianın (iddiaların) əsası olmuş mübahisənin xarakteri və hallarının izahı; və
b) tələbin predmeti haqqında tələb edilən mümkün məbləği (məbləğləri) özündə əks etdirən ərizə.

6. İddiaçı Katiblik tərəfindən göndərilmiş qarşılıqlı iddiaya (iddialara) qarşılıqlı iddianın alınmasından 30 gün müddətində cavab təqdim edir. Katiblik iddiaçıya cavabın təqdim edilməsi üçün nəzərdə tutulmuş müddəti artıra bilər.

## Maddə 6. Arbitraj sazişinin bağlanmasının nəticələri

1. Tərəflər bu Reqlament əsasında arbitraja müraciət etməyi razılaşdıqda və əgər onlar arbitraj sazişinin bağlandığı vaxt qüvvədə olan Reqlamentə tabe olmağı razılaşdırmayıblarsa, arbitraj araşdırmasının başlanğıcında qüvvədə olan bu Reqlamentə tabe olurlar.

2. Cavabdeh 5-ci maddə ilə nəzərdə tutulmuş qaydada Etirazı göndərmədikdə, yaxud tərəflərdən biri arbitraj sazişinin həcmi, etibarlığı və ya mövcudluğu barədə bir və ya bir neçə etiraz irəli sürdükdə, Məhkəmə etirazın və ya etirazların əsaslığı və ya mümkünlüyü barədə məsələni əvvəlcədən həll etmədən arbitraj sazişinin prima facie mövcudluğunu mümkün hesab etsə işi arbitraj icraatına qəbul edə bilər. Bu halda arbitraj tərkibinin səlahiyyətinə aid olan istənilən qərar tərkibin özü tərəfindən qəbul edilir. Məhkəmə belə nəticəyə gəlmədikdə, tərəflər işin icraata qəbul edilə bilməməsi haqqında məlumatlandırılırlar. Bu halda tərəflər onların məcburi arbitraj sazişi ilə bağlı olub-olmadıqları məsələsinin həll edilməsi üçün səlahiyyətli məhkəməyə müraciət etmək hüququnu özlərində saxlayırlar.

3.Tərəflərdən biri arbitraj araşdırmasında, yaxud araşdırmanın hər hansı mərhələsində iştirak etmədikdə, yaxud iştirakdan etməkdən imtina etdikdə arbitraj icraatı, belə imtinaya, yaxud iştirak etməməyə baxmayaraq, davam etdirilir.

4. Başqa hal razılaşdırılmayıbsa, arbitraj tərkibi arbitraj sazişini etibarlı hesab edirsə, iş üzrə müqavilənin etibarsızlığı və ya olmaması təsdiqləndikdə belə, arbitraj araşdırmasına xitam vermir. Arbitraj tərkibi, müqavilə mövcud deyilsə və ya etibarsızdırsa belə, tərəflərin

müvafiq hüquqlarını müəyyən etmək və onların iddia və pretenziyaları üzrə qərar çıxarmaq üçün iş üzrə icraatı davam etdirir.

## ARBİTRAJ TƏRKİBİ

### Maddə 7. Ümumi müddəalar

1. Hər bir arbitr müstəqil olmalı və mübahisə edən tərəflərdən asılı olmamalıdır.

2. Özünün təyin edilməsi, yaxud təsdiq edilməsinə qədər arbitr, özünün müstəqilliyi haqqında ərizəni imzalamalı və tərəflərin hər hansı birində onun müstəqilliyinə şübhə yarada biləcək hər cür fakt və halları yazılı formada Katibliyə bildirməlidir. Katiblik bu məlumatı yazılı formada tərəflərə göndərir və edilə biləcək iradlar üçün müddət müəyyən edir.

3. Arbitr eyni qaydada arbitraj araşdırmasının gedişində yarana biləcək istənilən fakt və hallar barədə də Katibliyə və tərəflərə dərhal yazılı məlumat verir.

4. Arbitrin təyin edilməsi, təsdiq edilməsi, geri çağırılması və ya dəyişdirilməsi haqqında Məhkəmənin qərarı qətidir. Bu qərarların motivləri haqqında məlumat verilmir.

5. Təyinatını qəbul edərək hər bir arbitr öz funksiyalarını bu Reqlament əsasında həyata keçirməyi öhdəsinə götürür.

6. Tərəflər digər halı nəzərdə tutmayıblarsa, arbitraj tərkibi 8, 9 və 10-cu maddələrin tələbləri əsasında təşkil olunur.

### Maddə 8. Arbitrlərin sayı

1. Mübahisələr təkbaşına arbitr, yaxud üç arbitr tərəfindən həll edilə bilər.

2. Arbitrlərin sayı barədə tərəflərin razılığı yoxdursa, Məhkəmə işə təkbaşına baxan arbitri təyin edir; İstisna hallarda məhkəmə mübahisənin xarakterinə görə üç arbitri təyin edir. Bu halda İddiaçı

Məhkəmənin qərarı haqqında bildirişi aldığı gündən 15 gün müddətində, cavabdeh isə iddiaçının arbitri təyin etməsi haqqında bildirişi aldığı gündən 15 gün müddətində arbitri təyin edir,

3. Tərəflər mübahisənin təkbaşına arbitr tərəfindən həll ediləcəyini razılaşdırdıqda, qarşılıqlı razılaşma əsasında təkbaşına arbitri təsdiq edilmək üçün təyin edə bilərlər. Tərəflər təkbaşına arbitri iddiaçının arbitraja göndərilmiş ərizəsinin digər tərəfin aldığı gündən 30 gün müddətində, yaxud əlavə verilmiş müddət ərzində təyin etmədikdə, təkbaşına arbitr Məhkəmə tərəfindən təyin edilir.

4. Mübahisəyə üç arbitr tərəfindən baxıldıqda hər bir tərəf müvafiq olaraq iddia ərizəsində və ona etirazda təsdiq olunmaq üçün bir arbitri təyin edir. Tərəflərdən hər hansı biri arbitri təyin etmədikdə arbitr Məhkəmə tərəfindən təyin edilir. Arbitraj tərkibinin sədri funksiyasını həyata keçirən üçüncü arbitr, tərəflər onun təyin edilməsi üçün başqa qayda barədə razılaşmayıblarsa, Məhkəmə tərəfindən təyin edilir. Bu halda arbitrin təyin edilməsi 9-cu maddənin tələblərinə müvafiq qaydada təsdiq edilməlidir. Məhkəmənin, yaxud tərəflərin özlərinin müəyyən etdikləri müddət ərzində üçüncü arbitrin təyin edilməsi həyata keçirilmirsə, üçüncü arbitr Məhkəmə tərəfindən təyin edilir.

**Maddə 9. Arbitrlərin təyin və təsdiq edilməsi**

1. Arbitrlərin təyin, yaxud təsdiq edilməsi zamanı Məhkəmə arbitrlərin vətəndaşlığını, onların daimi yaşayış yerlərini və tərəflərin, yaxud digər arbitrlərin mənsub olduqları ölkələrlə onların digər əlaqələrini, həmçinin arbitrin arbitraj araşdırmasını bu Reqlament əsasında aparmaq bacarığı və imkanlarını nəzərə alır. Bu qayda 9 (2)-ci maddə əsasında arbitrlər Baş katib tərəfindən təsdiq edildikdə də tətbiq olunacaqdır.

2. Baş katib tərəflərin özləri tərəfindən təyin edilmiş, yaxud onların konkret razılaşmalarının həyata keçirilməsi məqsədilə təyin edilmiş və namizədlikləri irəli sürülmüş şəxsləri arbitrlər, təkbaşına arbitr və arbitraj tərkiblərinin sədrləri kimi bu şərtlə təsdiq edə bilər ki, onlar öz müstəqillikləri barədə hər hansı qeyd-şərt nəzərdə tutmayan, yaxud göstərilmiş qeyd-şərtlərin etiraz doğurmadığı ərizə təqdim etmiş olsunlar. Bu cür təsdiq edilmə Məhkəmənin nəzərinə onun növbəti sessiyasında çatdırılır. Baş katib arbitrin, təkbaşına arbitrin, yaxud arbitraj tərkibinin sədrinin namizədliyinin təsdiq edilməsini qeyri-

mümkün hesab etdikdə, o, bu məsələni Məhkəmənin müzakirəsinə çıxarır.

3. Məhkəmə təkbaşına arbitri, yaxud arbitraj tərkibinin sədrini təyin etmək niyyətində olduqda, bu təyinetməni BTP-nin müvafiq milli komitəsinə namizədin irəli sürülməsini təklif edən sorğunu əvvəlcədən göndərməklə həyata keçirir. Edilmiş təkliflə razılaşmadıqda, yaxud yuxarıda qeyd olunan milli komitə Məhkəmə tərəfindən müəyyən edilmiş müddət ərzində təklif vermədikdə, Məhkəmə ona yeni sorğu göndərə, yaxud digər müvafiq milli komitəyə ona təklif göndərilməsi barədə sorğu göndərə bilər.

4. Məhkəmə vəziyyətin tələb etdiyini müəyyən etdikdə və tərəflərdən hər hansı biri Məhkəmə tərəfindən müəyyən edilmiş müddət ərzində buna etiraz etmədikdə özünün milli komitəsinin təsis edilmədiyi ölkədən təkbaşına arbitri, yaxud arbitraj tərkibinin sədrini seçə bilər.

5. Təkbaşına arbitr, yaxud arbitraj tərkibinin sədri tərəflərin mənsub olmadıqları ölkədən seçilir. Lakin, vəziyyət buna haqq qazandırmırsa və əgər tərəflərdən hər hansı biri Məhkəmə tərəfindən müəyyən edilmiş müddət ərzində öz etirazını bildirməzsə, təkbaşına arbitr, yaxud arbitraj tərkibinin sədri tərəflərdən birinin mənsub olduğu ölkədən seçilə bilər.

6. Məhkəmə arbitri arbitr təyin etməmiş tərəfin adından təyin etdikdə, tərəfin mənsub olduğu ölkənin milli komitəsinə əvvəlcədən sorğu göndərməklə təyin edir. Məhkəmə edilmiş təkliflə razılaşmadıqda, yaxud həmin milli komitə Məhkəmə tərəfindən müəyyən edilmiş müddət ərzində öz təkliflərini vermədikdə, yaxud müvafiq tərəf milli komitəsi təsis edilməyən ölkəyə mənsub olduqda, Məhkəmə səlahiyyətli hesab etdiyi istənilən şəxsin seçimində azaddır. Katiblik bu haqda həmin şəxsin vətəndaşı olduğu ölkənin milli komitəsinə (əgər bu varsa) məlumat verir.

## Maddə 10. Tərəflərin çoxluğu

1. İşdə bir neçə iddiaçı, yaxud bir neçə cavabdehin iştirak etdiyi və mübahisəyə üç arbitr tərəfindən baxıldığı halda, iddiaçılar birlikdə bir arbitri, cavabdehlər birlikdə bir arbitri, 9-cu maddə əsasında təsdiq edilmə üçün təyin etməlidirlər.

2. Belə birgə təyinetmə olmadıqda və tərəflər arbitraj tərkibinin təşkil edilməsi qaydasını razılaşdıra bilmədikdə, Məhkəmə arbitraj tərkibinin hər bir üzvünü təyin etməklə onlardan birini sədr təyin edə bilər. Bu halda Məhkəmə, əgər lazım bilərsə, 9-cu maddəyə müvafiq olaraq, arbitr qismində fəaliyyət göstərmək üçün səlahiyyətli hesab etdiyi istənilən şəxsin seçimində azaddır.

## Maddə 11. Arbitrlərin geri çağırılması

1. Arbitrin geri çağırılması onun kifayət qədər müstəqil olmamasının iddia edilməsi və ya hər hansı digər motiv əsasında Katibliyə etirazın əsaslandığı fakt və halları özündə əks etdirən yazılı ərizə ilə müraciət etməklə həyata keçirilir.

2. Müzakirəyə qəbul edilməsi üçün Etiraz tərəflərdən hər hansı biri tərəfindən həmin tərəfin arbitrin təyin, yaxud təsdiq edilməsi barədə bildirişi aldığı gündən 30 gün müddətində, yaxud etiraz edən tərəfin etirazın əsaslandığı fakt və hallar barədə məlumatlandırıldığı gündən, əgər bu tarix belə bildirişin alındığı tarixdən sonraya təsadüf edirsə, 30 gün müddətində göndərilməlidir.

3. Məhkəmə etirazın müzakirəyə çıxarılması üçün qərar qəbul edir və eyni zamanda, əgər bu vacibdirsə, etirazın mahiyyəti üzrə, Katiblik tərəfindən maraqlı arbitrə, digər tərəfə, yaxud tərəflərə və arbitraj tərkibinin hər hansı üzvünə müəyyən edilmiş müddət ərzində yazılı formada iradlarını bildirmək imkanı verildikdən sonra, qərar qəbul edir. Bu iradlar tərəflərə və arbitrlərə göndərilir.

## Maddə 12. Arbitrlərin dəyişdirilməsi

1. Arbitr, vəfat etdikdə, arbitrin istefa barədə ərizəsi Məhkəmə tərəifndən qəbul edildikdə, ona edilmiş etiraz Məhkəmə tərəfindən təmin edildikdə, yaxud bütün tərəflərin xahişi ilə dəyişdirilir.

2. Arbitr, həmçinin, Məhkəmənin təşəbbüsü ilə Məhkəmə onun öz funksiyalarını de-yure, yaxud de-facto icra edə bilməməsi qərarına gəldikdə, yaxud o, öz funksiyalarını bu Reqlament əsasında, yaxud müəyyən edilmiş müddət ərzində yerinə yetirmədikdə dəyişdirilir.

3. Məhkəmə ona çatdırılmış məlumat əsasında 12 (2)-ci maddəni tətbiq etməyi mümkün hesab etdikdə, bu məsələni maraqlı arbitrə, tərəflərə və arbitraj tərkibinin hər hansı üzvünə onların öz iradlarını müəyyən edilmiş müddət ərzində yazılı formada bildirmək imkanı verildikdən sonra həll edir. Bu iradlar tərəflərlə və arbitrlərlə razılaşdırılmalıdır.

4. Arbitrin dəyişdirilməsi zamanı Məhkəmə arbitrin təyin edilməsinin ilkin prosedurunun təkrar edilməli olub-olmadığını öz mülahizəsinə əsasən həll edir. Yenidən təşkil edildikdən sonra arbitraj tərkibi tərəflərə öz rəylərini bildirməyi təklif edərək icraatın təzələnməli və hansı həcmdə təzələnməli olması məsələsini həll edir.

5. Arbitrin ölümü, yaxud onun Məhkəmə tərəfindən 12 (1) və 12 (2) maddələri əsasında dəyişdirilməsi işin şifahi dinlənilməsindən sonra baş verərsə, Məhkəmə, lazım bildikdə, qalan arbitrlərin iş üzrə icraatı davam etdirmələri barədə qərar qəbul edə bilər. Belə qərar qəbul edərkən Məhkəmə tərəflərin və qalan arbitrlərin rəylərinə diqqətlə yanaşır, həmçinin, bu hallar üçün vacib hesab etdiyi istənilən hər hansı digər məqamları nəzərə alır.

## ARBİTRAJ ARAŞDIRMASI

### Maddə 13. İşin arbitraj tərkibinə verilməsi

1. Katiblik işi, materialları hazır olan kimi, eyni zamanda, icraatın həmin mərhələsində arbitraj xərclərinin bağlanması üçün Katiblik tərəfindən tələb olunan avansın ödənilməsindən sonra, arbitraj tərkibinə verir.

### Maddə 14. Arbitraj araşdırmasının yeri

1. Arbitraj araşdırmasının yerini tərəflər özləri razılaşdırmayıblarsa, Məhkəmə müəyyən edir.

2. Tərəflərlə məsləhətləşmədən sonra arbitraj tərkibi, tərəflər başqa qayda müəyyən etməyiblərsə, işə baxılmasını (işin dinlənilməsini) və iclası lazım bildiyi istənilən yerdə keçirə bilər.

3. Arbitraj tərkibi özünün daxili müşavirələrini lazım bildiyi istənilən yerdə keçirə bilər.

**Maddə 15. Prosedura tətbiq olunan qaydalar**

1. İşin icraatında arbitraj tərkibi bu Reqlamenti, bu Reqlamentin tələblərinin kifayət etmədiyi halda isə arbitraja tətbiq olunan milli prosessual qanuna istinad edərək, yaxud istinad etmədən tərəflərin müəyyən etdikləri (yaxud onlar olmadıqda, arbitraj tərkibinin müəyyən etdiyi) istənilən qaydaları rəhbər tutur.

2. Bütün hallarda arbitraj tərkibi ədalətli və qərəzsiz olmalı, hər bir tərəfə dinlənilmək üçün kifayət qədər imkan yaratmalıdır.

**Maddə 16. Arbitraj araşdırmasının dili**

1. Tərəflərin bu haqda müvafiq razılaşması olmadıqda, arbitraj tərkibi arbitraj araşdırmasının dilini, yaxud dillərini müqavilənin dili də daxil olmaqla işə aid olan bütün halları nəzərə alaraq müəyyən edir.

**Maddə 17. Tətbiq edilən hüquq normaları**

1.Tərəflər arbitraj tərkibi tərəfindən mübahisənin mahiyyətinə tətbiq ediləcək qanunla bağlı razılaşmada müstəqildirlər. Belə razılaşma olmadıqda arbitraj tərkibi lazım bildiyi hüquq normalarını tətbiq edir.

2. Bütün hallarda arbitraj tərkibi müqavilənin müddəalarını və müvafiq ticarət adətlərini nəzərə alır.

3. Arbitraj tərkibi, tərəflər ona belə səlahiyyət veriblərsə, dostcasına vasitəçi səlahiyyətlərini öz üzərinə götürür, yaxud mübahisəni ex aequo et bono həll edir.

**Maddə 18. Arbitrlərin səlahiyyətləri haqqında Akt; iş üzrə icraat müddətləri**

1. Arbitraj tərkibi Katiblikdən iş materiallarını alan kimi sənədlər əsasında, yaxud tərəflərin iştirakı ilə, onların axırıncı ərizələrini nəzərə almaqla, həmin iş üzrə onun səlahiyyətlərini müəyyən edən sənəd hazırlayır. Bu sənədə aşağıdakı məqamlar əks olunmalıdır:
a) tərəflərin tam adı və təsviri;

b) arbitraj araşdırması gedişində meydana çıxan bildiriş və məlumatların göndərilməsi üçün tərəflərin ünvanları;
c) tərəflərin müvafiq tələblərinin və almaq istədikləri qərarın, əsas, yaxud qarşılıqlı iddia üzrə tələb edilən məbləğin, imkan daxilində, göstərilməsi ilə qısa məzmunu;
ç) arbitraj tərkibinin lazım bilmədiyi hal istisna olmaqla, həll edilməli olan məsələlərin siyahısı;
d) arbitrin tam adı, vəzifəsi və ünvanı;
e) arbitraj araşdırmasının yeri; və
ə) tətbiq olunacaq prosessual qaydalarla bağlı detallar və işin xarakterindən asılı olaraq arbitraj tərkibinin dostcasına vasitəçi qismində hərəkət etmək, yaxud mübahisəni ex aequo et bono həll edə bilmək səlahiyyətinin göstərilməsi.

2. Arbitrlərin səlahiyyətləri haqqında Akt tərəflər və arbitraj tərkibi tərəfindən imzalanır. İşin ona verilməsindən sonra 2 ay müddətində arbitraj tərkibi onun və tərəflərin imzaladığı arbitrlərin səlahiyyətləri haqqında Aktı Məhkəməyə göndərir. Məhkəmə lazım bildikdə arbitraj tərkibinin əsaslandırılmış xahişi ilə, yaxud zərurət yaranarsa, öz təşəbbüsü ilə, həmin müddəti uzada bilər.

3. Tərəflərdən biri arbitrlərin səlahiyyətləri haqqında Aktın tərtib olunmasında iştirak etməkdən, yaxud onu imzalamaqdan imtina etdikdə Akt təsdiq olunması üçün Məhkəməyə verilir. Arbitrlərin səlahiyyətləri haqqında Akt 18 (2)-ci maddə ilə müəyyən edilmiş qaydada imzalandıqdan və Məhkəmə tərəfindən təsdiq olunduqdan sonra arbitraj araşdırması davam etdirilə bilər.

4. Arbitrlərin səlahiyyətləri haqqında Aktı tərtib edərkən, yaxud onun tərtib edilməsindən dərhal sonra arbitraj tərkibi tərəflərlə məsləhətləşərək ayrıca sənəddə iş üzrə icraatın güman edilən müddətlərini müəyyən edir və bu barədə Məhkəməyə və tərəflərə məlumat verir. Bu cədvələ edilən sonrakı hər hansı dəyişiklik haqqında Məhkəməyə və tərəflərə məlumat verilir.

## Maddə 19. Yeni iddialar

1. Arbitrlərin səlahiyyətləri haqqında Akt imzalandıqdan və Məhkəmə tərəfindən təsdiq olunduqdan sonra tərəflər yeni iddiaların və qarşılıqlı iddiaların xarakterini, arbitraj araşdırmasının mərhələsini və işə aid olan

digər halları nəzərə alan arbitraj tərkibinin razılığı olmadan arbitrlərin səlahiyyətləri haqqında Aktın hüdudlarından kənara çıxan yeni iddialar və qarşılıqlı iddialar verə bilməzlər.

**Maddə 20. İş üzrə faktiki halların müəyyən edilməsi**

1. Arbitraj tərkibi bütün zəruri vasitələrin köməyi ilə iş üzrə bütün faktların müəyyən edilməsi məqsədilə, mümkün olan, ən qısa müddətdə arbitraj araşdırmasına başlayır.

2. Arbitraj tərkibi tərəflərin yazılı ərizələrini və işə aid olan bütün sənədləri öyrəndikdən sonra tərəflərdən birinin xahişi ilə onları birlikdə şəxsən dinləyir, belə xahiş olmadıqda isə belə dinləməni öz təşəbbüsü ilə həyata keçirir.

3. Arbitraj tərkibi tərəflərin təyin etdikləri şahidləri, ekspertləri, yaxud istənilən başqa şəxsi tərəflərin iştirakı ilə, yaxud onların iştirakı olmadan, əgər bu şəxslər lazımi qaydada çağırılmışlarsa, dinləyə bilər.

4. Arbitraj tərkibi tərəflərlə məsləhətləşdikdən sonra bir və ya bir neçə eksperti, onların səlahiyyətlərini müəyyən etməklə, təyin edə və onların rəylərini qəbul edə bilər. Tərəflərə, onlardan birinin xahişi ilə, arbitraj tərkibi tərəfindən təyin edilmiş ekspertə, yaxud ekspertlərə işə baxılması gedişində suallar vermək imkanı verilir.

5. Arbitraj tərkibi arbitraj araşdırmasının istənilən mərhələsində tərəflərə əlavə sübutların təqdim edilməsini təklif edə bilər.

6. Arbitraj tərkibi, tərəflərdən heç biri iş üzrə dinləmənin həyata keçirilməsini xahiş etmədikdə, iş üzrə yalnız tərəflərin təqdim etdiyi sənədlər əsasında qərar qəbul edə bilər.

7. Arbitraj tərkibi işlə əlaqədar sirlərin və konfidensial məlumatın qorunmasına yönəlmiş istənilən tədbirləri görə bilər.

**Maddə 21. Dinləmə**

1. Arbitraj tərkibi işə baxılmasında iştirak etmək üçün tərəfləri ağlabatan müddət ərzində xəbərdar etməklə, onlara müəyyən edilmiş gün və yerdə keçiriləcək iclasa gəlməyi təklif edir.

2. Lazımi qaydada çağırılmış tərəflərdən hər hansı biri üzrlü səbəb olmadan gəlmədikdə, arbitraj tərkibi işə baxılmasını həyata keçirmək hüququna malikdir.

3. Arbitraj tərkibi tərəflərin iştirak etmək hüququna malik olduqları dinləmə üçün məsuliyyət daşıyır. Arbitraj tərkibinin və tərəflərin razılığı olmadan araşdırmada iştirak etməyən şəxslər dinləməyə buraxılmırlar.

4. Tərəflər şəxsən, yaxud lazımi qaydada səlahiyyət verilmiş nümayəndələri vasitəsilə təmsil oluna bilərlər. Eyni zamanda, onlar məsləhətçilərin xidmətindən də istifadə edə bilərlər.

**Maddə 22. Araşdırmanın başa çatdırılması**

1. Arbitraj tərkibi tərəflərə dinlənilmək üçün kifayət qədər imkan verildiyi qənaətinə gəldikdə işin araşdırılmasını bitmiş elən edir. Bundan sonra arbitraj tərkibinin tələb etdiyi və ya onun razılığı olmadan istisana hal kimi heç bir ərizənin, heç bir sənədin, yaxud sübutun təqdim edilməsinə yol verilmir.

2. Arbitraj tərkibi İşin araşdırılmasını bitmiş elan etdikdə Katibliyə qərar layihəsinin 27–ci maddə əsasında təsdiq edilmək üçün Məhkəməyə veriləcəyinin təxmini tarixini bildirir. Arbitraj tərkibi həmin tarixin daha gec tarixə dəyişdirilməsi haqqında hər hansı məlumatı Katibliyə bildirir.

**Maddə 23. İlkin və təminedici tədbirlər.**

1. Tərəflər başqa cür razılaşdırmayıblarsa, arbitraj tərkibi işin ona verilməsindən sonra tərəflərdən hər hansı birinin xahişi ilə lazım bildiyi ilkin, yaxud təminedici tədbirlərdən birinin qəbul edilməsi üçün göstəriş verə bilər. Arbitraj tərkibi bu cür təminedici tədbirini müvafiq vəsatətlə müraciət etmiş tərəfin adekvat təminat təqdim etməsi ilə şərtləndirə bilər. Zərurət olduqda arbitraj tərkibi bu tədbirləri əsaslandırılmış əmr və ya qərar formasında qəbul edə bilər.

2. İşin arbitraj tərkibinə verilməsinə qədər, müəyyən hallarda isə bundan sonra da, tərəflər istənilən səlahiyyətli məhkəmədən ilkin, yaxud təminedici tədbirlərin qəbul edilməsini xahiş edə bilərlər. Tərəfin belə tədbirin qəbul edilməsi, yaxud arbitraj tərkibi tərəfindən qəbul edilmiş oxşar tədbirlərin icra edilməsi məqsədilə məhkəməyə müraciət etməsi arbitraj sazişinin pozulması, yaxud ondan imtina edilməsi deyil və bu, arbitraj tərkibinin səlahiyyətinə təsir göstərmir. Məhkəmə tərəfindən qəbul edilmiş istənilən tədbir, yaxud istənilən bu cür vəsatət haqqında məlumat dərhal Katibliyin nəzərinə çatdırılmalıdır. Katiblik bu barədə arbitraj tərkibinə məlumat verir.

## QƏRAR

### Maddə 24. Arbitraj qərarının çıxarılması müddəti

1. Arbitraj tərkibinin qəti qərar çıxarması üçün 6 aylıq müddət müəyyən edilir. Bu müddət tərəflərin və arbitrlərin, arbitrlərin səlahiyyətləri haqqında Akta etdikləri axırıncı imzanın tarixindən, yaxud 18 (3)-cü maddə tətbiq edildikdə Katiblik tərəfindən arbitraj tərkibinə arbitrlərin səlahiyyətləri haqqında Aktın Məhkəmə tərəfindən təsdiq edilməsi barədə məlumat verildiyi tarixdən hesablanır.

2. Məhkəmə zəruri hallarda arbitrin əsaslandırılmış xahişi ilə, yaxud əgər buna zərurət yaranarsa, öz təşəbbüsü ilə müddəti uzada bilər.

### Maddə 25. Qərarın çıxarılması

1. Arbitraj tərkibi birdən çox arbitrdən ibarət olduqda, qərar səs çoxluğu ilə çıxarılır. Səs çoxluğu əldə edilmədikdə, qərar, yalnız arbitraj tərkibinin sədri tərəfindən çıxarılır.

2. Qərar əsaslandırılmış olmalıdır.

3. Qərar arbitraj araşdırmasının yerində və onda qeyd edilmiş tarixdə çıxarılmış hesab olunur.

### Maddə 26. Barışıq sazişi əsasında qərar

1. Tərəflər işin 13-cü maddə əsasında arbitraj tərkibinə verilməsindən sonra razılığa gəliblərsə, bu, arbitraj qərarı ilə tərəflər arasında

bağlanmış saziş əsasında o halda rəsmiləşdirilir ki, tərəflər bunu xahiş etsinlər, arbitraj tərkibi isə buna razı olsun.

.

**Maddə 27. Məhkəmə tərəfindən qərarların yoxlanılması**

Hər hansı qərarı imzalamazdan əvvəl arbitraj tərkibi qərarın layihəsini Məhkəməyə təqdim edir. Məhkəmə qərarın formasına arbitraj tərkibinin qərar qəbul etmək müstəqilliyinə toxunmadan dəyişiklik edə bilər; o, həmçinin, məsələnin mahiyyətinə aid olan məqamlara diqqət yetirə bilər. Qərar, Məhkəmə tərəfindən onun forması bəyənildikdən sonra imzalanır.

**Maddə 28. Tərəflərə məlumat verilməsi, arbitraj qərarlarının icra edilməsi və saxlanılması**

1. Qərar çıxarıldıqdan sonra bütün arbitraj xərcləri tərəflərdən biri, yaxud hamısı tərəfindən bütünlüklə Beynəlxalq Ticarət Palatasına ödənildiyi halda, Katiblik tərəfləri, qərarın arbitraj tərkibi tərəfindən imzalanmış mətnini onlara verməklə, məlumatlandırır.

2. Qərarın Baş katib tərəfindən təsdiq edilmiş surətləri tərəflərin sorğusu ilə onlara istənilən vaxt verilir; Bu sənəd tərəflərdən başqa heç kimə verilmir.

3. Bu maddənin 1-ci bəndinə uyğun məlumatlandırılmış tərəflər, bunun nəticəsində hər hansı digər formada məlumatlandırılmadan, yaxud arbitraj tərkibi tərəfindən qərarın depozitə qoyulmasından imtina etmiş olurlar.

4. Bu Reqlament əsasında çıxarılmış hər bir qərarın əsli Katiblikdə saxlanılır.

5. Arbitraj tərkibi və Katiblik tərəflərə yerinə yetirilməsi zəruri olan sonrakı hər hansı formallığın həyata keçirilməsi ilə əlaqədar köməklik göstərirlər.

6. İstənilən qərar tərəflər üçün məcburi qüvvəyə malikdir. Mübahisəni bu Reqlament əsasında arbitraja verən tərəflər istənilən qərarın dərhal icra edilməsini öhdələrinə götürür və hər hansı formada şikayət etməkdən, əgər belə imtina əsaslıdırsa, imtina etmiş olurlar.

## Maddə 29. Qərarın izahı və ona düzəlişlər edilməsi

1. Arbitraj tərkibi öz təşəbbüsü ilə qərarda yol verilmiş səhvləri, hesablamalarda edilmiş səhvləri, yaxud analoji xarakterə malik digər istənilən səhvləri, həmin səhvləri onların təsdiq edilməsi üçün qərarın çıxarılması tarixindən 30 gün müddətində Məhkəməyə göndərməklə düzəldə bilər.
2. Tərəfin səhvlərin düzəldilməsi ilə bağlı 29 (1)-ci maddədə xatırladılan istənilən vəsatəti, yaxud qərarın izah edilməsi üçün 3 (1)-ci maddə ilə müəyyən edilmiş sayda nüsxələri həmin tərəfin qərarı aldığı tarixdən hesablanan 30 gün müddətində Katibliyə göndərilməlidir. Vəsatətin arbitraj tərkibinə verilməsindən sonra sonuncu digər tərəfə özünün iradlarını bildirmək üçün adətən həmin tərəfin vəsatəti aldığı tarixdən hesablanan 30 gündən çox olmayan vaxt verir. Arbitraj tərkibi qərarın izah edilməsi, yaxud onda yol verilmiş səhvlərin düzəldilməsi qərarına gəldikdə öz qərarının layihəsini digər tərəfə iradlarını bildirməsi üçün verilmiş 30 günlük müddət keçdikdən sonra, yaxud Məhkəmə tərəfindən müəyyən edilmiş müddətdə Məhkəməyə göndərir.

3. Qərarın izah edilməsi, yaxud səhvlərin düzəldilməsi qərara əlavə kimi rəsmiləşdirilir və arbitraj qərarının tərkib hissəsi hesab edilir. 25; 27 və 28-ci maddələrin tələbləri mitatis mitandis tətbiq edilir.

# XƏRCLƏR

## Maddə 30. Arbitraj xərclərinin ödənilməsi üçün avans

1. Ərizəni aldıqdan sonra Baş katib arbitrlərin səlahiyyətləri haqqında Akt imzalanana qədər iddiaçıya arbitraj xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuş məbləğdə avans ödəməyi təklif edə bilər.

2. Məhkəmə mümkün qədər əvvəlcədən arbitrlərin qonorarlarının və arbitraj xərclərinin, BTP-nın inzibati xərclərinin ödənilməsi üçün kifayət edə biləcək miqdarda avansın məbləğini tərəflərin göndərdikləri iddialar və qarşılıqlı iddialar üzrə müəyyən edir. Bu məbləğ arbitraj araşdırmasının istənilən mərhələsində dəqiqləşdirilə bilər. Əsas iddiadan başqa bir və ya bir neçə qarşılıqlı iddia da verildikdə Məhkəmə əsas iddia və qarşılıqlı iddia, yaxud qarşılıqlı iddialar üzrə ayrı-ayrı avans məbləğləri müəyyən edə bilər.

3. Məhkəmə tərəfindən müəyyən edilmiş avans iddiaçı və cavabdeh tərəfindən eyni məbləğlərdə ödənilir. 30 (1)-ci maddəyə uyğun olaraq həyata keçirilmiş ödəniş avansın qismən ödənişi kimi hesab olunur. Lakin tərəflərdən hər hansı biri əsas iddia, yaxud qarşılıqlı iddia üzrə avansın tam məbləğinin ödənişini, digər tərəf öz hissəsini ödəməkdən yayındıqda, həyata keçirə bilər. Məhkəmə 30 (2)-ci maddə əsasında ayrı-ayrı avans məbləğləri müəyyən etdikdə hər bir tərəf onun iddia tələblərinə müvafiq olan avans məbləğini ödəyir.

4. Avansın ödənişinin həyata keçirilməsi barədə təklif yerinə yetirilmədikdə, Baş katib arbitraj tərkibi ilə məsləhətləşdikdən sonra sonuncuya öz işini dayandırmağı və müddətin ötürülməsi ilə müvafiq iddia və qarşılıqlı iddiaların geri qaytarılmış hesab edilməsini şərtləşdirən 15 gündən az olmayan müddət müəyyən etməyi təklif edə bilər. Maraqlı tərəf bu qaydanın tətbiq edilməsinə etiraz etdikdə o, məsələnin Məhkəmə tərəfindən həll edilməsi haqqında yuxarıda göstərilən müddət ərzində vəsatət verməlidir. Bununla bərabər maraqlı tərəf eyni iddianı, yaxud qarşılıqlı iddianı digər arbitraj icraatına vermək hüququndan məhrum edilmir.

5. Tərəflərdən biri əsas iddia, yaxud qarşılıqlı iddia üzrə tələblərin hesablanmasını irəli sürdükdə, belə hesab arbitraj xərclərinin ödənilməsi üçün avans müəyyən edilərkən nəzərə alınır. Eyni qayda ayrıca iddia üzrə də tətbiq edilir, çünki həmin tərəf arbitraj tərkibindən əlavə məsələlərə baxılmasını tələb edə bilər.

### Maddə 31. Arbitraj xərcləri haqqında qərar

1. Arbitraj xərcləri Məhkəmə tərəfindən arbitraj araşdırmasının başlanğıc məqamında qüvvədə olan cədvələ müvafiq surətdə müəyyən edilmiş arbitrlərin qonorarlarını və arbitraj xərclərini və BTP-nin inzibati xərclərini, arbitraj tərkibi tərəfindən təyin edilmiş istənilən ekspertlərin qonorarları və xərclərini, həmçinin tərəflərin özləri tərəfindən arbitraj araşdırmasının gedişində sərf edilmiş ağlabatan hüquqi məsrəfləri özündə birləşdirir.

2. Məhkəmə arbitrin qonorarını, işin istisna hesab oluna biləcək hallarında məcburiyyət yaranarsa, əlavə edilmiş cədvəl ilə nəzərdə tutulmuş ölçüdən aşağı, yaxud yuxarı müəyyən edə bilər. Məhkəmə

tərəfindən müəyyən edilmiş xərclərdən başqa xərclər arbitraj tərkibi tərəfindən arbitraj araşdırmasının istənilən mərhələsində müəyyən edilə bilər.

3. Qəti qərarda arbitraj xərclərinin məbləği müəyyən edilir və tərəflərdən hansının hansı xərcləri ödəməsi, yaxud xərclərin hansı nisbətdə tərəflər arasında bölünməsi göstərilir.

## DİGƏR MÜDDƏALAR

### Maddə 32. Müddətlərin dəyişdirilməsi

1. Tərəflər bu Reqlamentdə nəzərdə tutulmuş müddətlərin qısaldılması barədə razılaşa bilərlər. Bu cür razılaşma arbitraj tərkibinin təşkil olunmasından sonra əldə edildikdə, yalnız arbitraj tərkibinin razılığı ilə qüvvəyə minir.

2. Məhkəmə 32 (1)-ci maddə əsasında dəyişdirilmiş istənilən müddəti öz təşəbbüsü ilə, bunu Məhkəmənin, yaxud arbitraj tərkibinin bu Reqlamentlə nəzərdə tutulmuş funksiyalarının yerinə yetirilməsi üçün vacib hesab etdikdə, uzada bilər.

### Maddə 33. Etiraz vermək hüququndan imtina

1. Arbitraj araşdırmasında iştirak edən tərəf bu Reqlamentin istənilən tələblərinə, istənilən prosessual normaların tətbiq edilməsinə, arbitraj tərkibinin istənilən göstərişlərinə, yaxud arbitraj sazişinin arbitraj tərkibinin təşkil olunması, yaxud arbitraj araşdırmasının aparılması ilə bağlı istənilən tələbinə riayət edilməməsinə etiraz etmədikdə etiraz hüququndan imtina etmiş hesab olunur.

**Maddə 34. Məsuliyyətdən azad etmə**

1. Arbitrlər, Məhkəmə və onun üzvləri, Beynəlxalq Ticarət Palatası və onun əməkdaşları, Beynəlxalq Ticarət Palatasının milli komitələri heç kimin qarşısında arbitraj araşdırması ilə bağlı hər hansı hərəkət, yaxud nöqsan üçün məsuliyyət daşımırlar.

**Maddə 35. Ümumi müddəalar**

Bu Reqlamentlə bilavasitə nəzərdə tutulmamış bütün məsələlər üzrə Məhkəmə və arbitraj tərkibi bu Reqlamentin ruhunda hərəkət edir və qərarın qanuni qüvvəyə malik olması üçün bütün tədbirləri görür.

*I Əlavə*

## BTP-nin BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN NİZAMNAMƏSİ

**Maddə 1. Funksiyalar**

1. Beynəlxalq Ticarət Palatasının Beynəlxalq arbitraj məhkəməsinin (Məhkəmə) funksiyaları Arbitraj Reqlamentinin və Beynəlxalq Ticarət Palatasının Barışıq Reqlamentinin tətbiqinin təmin edilməsindən ibarətdir. Bunun üçün Məhkəmə bütün lazımi səlahiyyətlərə malikdir.

2. Məhkəmə müstəqil təşkilat olmaqla öz funksiyalarını Beynəlxalq Ticarət Palatasından və onun orqanlarından tamamilə asılı olmadan həyata keçirir.

3. Onun üzvləri BTP-nin milli komitələrindən asılı deyillər.

**Maddə 2. Məhkəmənin tərkibi**

1. Məhkəmənin tərkibi Sədrdən, Sədrin müavinlərindən, üzvlər və üzvlərin müavinlərindən (hər iki kateqoriya bərabər əsasla üzvlər adlandırılır) ibarətdir. Məhkəmənin işində ona Katiblik (Məhkəmənin Katibliyi) köməklik göstərir.

**Maddə 3. Təyinat**

1. Sədr BTP-nin Rəhbər komitəsinin tövsiyəsi ilə BTP-nin Şurası tərəfindən seçilir.

2. BTP-nin Şurası Məhkəmə Sədrinin müavinlərini Məhkəmənin üzvləri və ya digər şəxslərin arasından təyin edir.

3. Məhkəmənin üzvləri BTP-nin Şurası tərəfindən milli komitələrin təklifləri əsasında hər komitədən bir nəfər olmaqla təyin edilirlər.

4. Məhkəmənin Sədrinin təklifi ilə Şura, üzvlərin müavinlərini təyin edə bilər.

5. Üzvlərin səlahiyyət müddəti üç ildir. Üzv öz funksiyalarını icra edə bilmədikdə, Şura onun səlahiyyət müddətinin qalan hissəsi müddətinə onu əvəz edəni təyin edir.

**Maddə 4. Məhkəmənin plenum iclasları**

Məhkəmənin plenum iclaslarında Sədr, Sədrin olmadığı hallarda isə onun tərəfindən təyin edilən müavinlərdən biri sədrlik edir. Məhkəmənin iclasları onun üzvlərinin ən azı 6 nəfəri iştirak etdikdə səlahiyyətli hesab edilir. Qərarlar səs çoxluğu ilə qəbul edilir, səslər bərabər olduqda isə Sədrin səsi həlledici hesab olunur.

**Maddə 5. Komitələr**

Məhkəmə bir, yaxud daha çox komitələr yarada bilər, onların səlahiyyətlərini müəyyən edə və onları təşkil edə bilər.

**Maddə 6. Konfidensiallıq**

Məhkəmənin fəaliyyəti konfidensial xarakter daşıyır və bu, onun işində hansı şəkildə iştirak etməsindən asılı olmayaraq hər bir şəxs tərəfindən gözlənilməlidir. Məhkəmə kənar şəxslərin Məhkəmənin və onun komitələrinin iclaslarında iştirak edə bilmələri, həmçinin onların Məhkəməyə və onun Katibliyinə verilmiş materiallarla tanış ola bilmələri şərtlərini müəyyən edir.

## Maddə 7. Arbitraj Reqlamentinin dəyişdirilməsi

Reqlamentin dəyişdirilməsi ilə əlaqədar Məhkəmənin hər hansı təklifi, onun Rəhbər komitəyə və BTP-nin Şurasına təsdiq edilməsi üçün verilməsindən əvvəl, Beynəlxalq arbitraj üzrə komissiyaya göndərilir.

*II Əlavə*

# BTP-nin BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN DAXİLİ REQLAMENTİ

## Maddə 1. Beynəlxalq arbitraj məhkəməsinin işinin konfidensial xarakteri

1. Plenar iclaslar və ya Komitələrin sessiyaları da daxil olmaqla Məhkəmənin sessiyaları yalnız onun üzvləri və üzvləri və Katiblik üçün açıqdır.

2. Lakin, istisna olaraq bəzi hallarda, Sədr iclaslarda iştirak etmək üçün digər şəxsləri də dəvət edə bilər. Bu şəxslər Məhkəmənin işinin konfidensial xarakterinə hörmət etməlidirlər.

3. Məhkəməyə baxılması üçün təqdim edilmiş sənədlər, yaxud iclasların gedişində tərtib olunmuş sənədlər haqqında, yalnız Məhkəmənin üzvlərinə və Katibliyə, həmçinin Sədr tərəfindən Məhkəmənin iclaslarında iştirak etmələrinə icazə verilmiş şəxslərə məlumat verilir

4. Məhkəmənin Sədri, yaxud Baş katibi, habelə beynəlxalq ticarət hüququ üzrə elmi işlər üzərində işləyən elmi işçilərə, arbitraj araşdırması gedişində tərəflərin təqdim etdikləri ərizələr, məktublar, bildirişlər və sənədlər istisna olmaqla, qərarlarla və ümumi maraq kəsb edən digər sənədlərlə tanış olmağa icazə verə bilərlər.

5. Belə icazə, yalnız onun verilməsi haqqında vəsatət verən şəxslər onlara təqdim edilən sənədlərin konfidensial xarakterinə hörmət etməyi və mətnin əvvəlcə Məhkəmənin Baş katibinə razılaşdırılması üçün təqdim edilməsinə qədər dərc edilməyəcəyini öhdələrinə götürdükdə verilir.

6. Katiblik bu Reqlament əsasında arbitraja təqdim edilmiş hər bir iş üzrə bütün qərarları, arbitrlərin səlahiyyətləri haqqında Aktı, Məhkəmənin hər hansı qərarını, həmçinin Katibliyin müvafiq yazışmalarının surətlərini Məhkəmənin arxivində saxlayır.

7. Tərəf, yaxud arbitr Məhkəmənin müəyyən etdiyi müddət ərzində həmin sənədlərin geri qaytarılması haqqında yazılı vəsatət vermədikdə, tərəflər, yaxud arbitrlər tərəfindən təqdim edilmiş bütün sənədlər, məlumatlar və ya yazışmalar məhv edilə bilər. Həmin sənədlərin geri qaytarılması ilə bağlı bütün xərclər və məsrəflər müvafiq olaraq tərəf, yaxud arbitr tərəfindən ödənilir.

**Maddə 2. Beynəlxalq arbitraj məhkəməsi üzvlərinin BTP-nin arbitrajında iştirakı**

1. Məhkəmənin Sədri və Katibliyin üzvləri BTP-nin arbitrajına verilən işlərdə arbitr, yaxud məsləhətçi ola bilməzlər.

2. Məhkəmə Sədrin müavinlərini, yaxud Məhkəmənin üzvlərini arbitr qismində təyin edə bilməz. Lakin, onlar bu vəzifələrə bir və ya bir neçə tərəf vasitəsilə, yaxud təsdiq edilməsi şərtilə tərəflərin razılaşdırdığı başqa qayda üzrə, təklif oluna bilərlər.

3. Sədr, Sədrin müavini, Məhkəmənin, yaxud Katibliyin digər üzvü Məhkəmədə qərar çıxarılması gözlənilən arbitraj araşdırmasına hər hansı qisimdə cəlb edildikdə, həmin şəxs bu cür cəlb edilməni aşkar edən kimi Məhkəmənin Baş katibini bu barədə məlumatlandırmalıdır.

4. Həmin şəxs Məhkəmənin araşdırma ilə bağlı qərarlarında, yaxud diskussiyalarında iştirak etməkdən çəkinməyə və həmin işə baxıldıqda iclas zalında olmamağa borcludur.

5. Həmin şəxs araşdırmanın gedişində Beynəlxalq arbitraj məhkəməsinə təqdim edilən sənədləri və məlumatları almır.

**Maddə 3. Məhkəmənin üzvləri və BTP-nin milli komitələri arasında münasibətlər**

1. Məhkəmənin üzvləri Milli komitələrin təklifi ilə BTP-nin Şurası tərəfindən təyin edilirlər; Buna baxmayaraq Məhkəmənin üzvləri milli komitələrdən asılı deyillər.

2. Bundan əlavə, Məhkəmənin üzvləri kimi onların tanış olduqları xüsusi mübahisələrə dair istənilən məlumatın konfidensiallığı onlar tərəfindən qeyd edilən milli komitələrə münasibətdə, Məhkəmənin Sədrinin, yaxud Baş katibinin onlara həmin məlumatı müvafiq milli komitəyə bildirməyi xahiş etmələri halları istisna edilməklə, qorunmalıdır.

**Maddə 4. Məhkəmənin Komitəsi**

Məhkəmə Reqlamentin 1 (4)-cü maddəsinin və Nizamnamənin (I Əlavə) 5-ci maddəsinin tələbləri əsasında Məhkəmənin Komitəsini təsis edir.

2. Komitə sədrdən və ən azı iki üzvdən ibarətdir. Məhkəmənin Sədri həm də Komitənin sədridir. Özünün olmadığı hallar üçün Sədr Məhkəmə Sədrinin müavinini, yaxud istisna təşkil edən hallarda, Məhkəmənin digər üzvünü Komitənin Sədri kimi təyin edə bilər.

3. Komitənin digər iki üzvü Məhkəmə tərəfindən sədrin müavinləri sırasından, yaxud Məhkəmənin digər üzvlərindən təyin edilir. Məhkəmə hər plenum iclasında Məhkəmənin növbəti plenum iclasına qədər Komitənin iclaslarında iştirak etməli olan üzvlərini təyin edir.

4. Komitə sədrin göstərişi ilə toplanır. İki üzvün iştirakı ilə yetərsay alınmış hesab olunur.

5. a) Məhkəmə Komitə tərəfindən qəbul edilən qərarların dairəsini müəyyən edir.
b) Komitənin qərarları yekdilliklə qəbul edilir.
c) Komitə qərar çıxara bilmədikdə, yaxud qərarı qəbul etməkdən çəkinməyə üstünlük verdikdə işi, lazım bildiyi istənilən təklifi irəli sürməklə, Məhkəmənin növbəti plenum iclasına verir.
ç) Komitənin qərarları növbəti plenum iclasında Məhkəməyə təyin edilir.

**Maddə 5. Məhkəmənin Katibliyi**

1. Baş katib, özünün olmadığı hallar üçün, Baş məsləhətçiyə və Baş katibin müavininə arbitrlərin təsdiq edilməsi, qərarların surətinin təsdiq edilməsi və Reqlamentin 9 (2); 28 (2) və 30 (1) maddələrinin tələblərinə müvafiq olaraq avansın ödənilməsinin təklif edilməsi səlahiyyətlərini verə bilər.

2. Məhkəmənin razılığı ilə Katiblik arbitrlərin, yaxud tərəflərin məlumatlandırılması və ya zəruri hallarda arbitraj araşdırmasının lazımi qaydada aparılması üçün, qeydlərin və digər sənədlərin tərtibatını apara bilər.

**Maddə 6. Arbitraj qərarlarının yoxlanılması**

Reqlamentin 27-ci maddəsinin tələbləri əsasında Qərar layihələrinin müzakirəsi zamanı Məhkəmə arbitrajın aparıldığı yerin imperativ qanunlarının tələblərini, mümkün qədər, nəzərə alır.

*III Əlavə*

## ARBİTRAJ XƏRCLƏRİ VƏ QONORARLAR

**Maddə 1. Arbitraj xərclərinin ödənilməsi üçün avans**

1. Reqlament əsasında arbitraj araşdırmasına başlanılması üçün edilən hər xahişə görə inzibati xərclər üçün nəzərdə tutulan 2500 ABŞ dolları məbləğində avans ödənilməlidir. Bu ödəniş geri qaytarılmır və inzibati xərclərin iddiaçının payına düşən hissəsinə hesab edilir.

2. Baş katib tərəfindən Reqlamentin 30 (1)-ci maddəsi əsasında arbitraj xərcləri üçün müəyyən edilmiş avans, adətən inzibati xərclərin toplanması nəticəsində alınan məbləğdən iddianın qiyməti əsasında müəyyən edilən qonorarların minimum məbləğlərindən (aşağıda göstərilmiş cədvəldə müəyyən edildiyi kimi) arbitrlərin səlahiyyətləri haqqında Aktın layihəsinin tərtib edilməsi ilə əlaqədar arbitraj tərkibinin məruz qaldığı əvəzi ödəniləcək xərclərin məbləğindən artıq olmur. İddianın qiyməti göstərilmədikdə avans Baş katibin mülahizəsi əsasında müəyyən edilir. İddiaçının həyata keçirdiyi ödəniş Məhkəmə tərəfindən müəyyən edilmiş inzibati xərclərin onun payına düşən avans hissəsinə hesablanır.

3. Bir qayda olaraq, arbitrlərin səlahiyyətləri haqqında Akt imzalandıqdan və Məhkəmə tərəfindən təsdiq olunduqdan, həmçinin işə baxılmasının təxmini qrafiki tərtib edildikdən sonra arbitraj tərkibi Reqlamentin 30 (4)-cü maddəsi əsasında, yalnız xərclər üzrə avansın tamamilə ödənildiyi iddialara, yaxud qarşılıqlı iddialara baxılmasına başlayır.

4. Məhkəmə tərəfindən Reqlamentin 30 (2)-ci maddəsi əsasında müəyyən edilmiş xərclər üçün avans arbitrin, yaxud arbitrlərin (bundan sonra «arbitr»), qonorarlarını arbitrin arbitraj araşdırması ilə əlaqədar istənilən məsrəflərini, habelə inzibati xərcləri özündə birləşdirir.

5. Hər bir tərəf avansın ümumi məbləğinin öz payına düşən hissəsini pul ilə ödəməlidir. Lakin, tərəfin payı Məhkəmə tərəfindən müəyyən edilmiş məbləğdən artıq olduqda, o əlavə məbləğ üçün bank zəmanəti təqdim edə bilər.

6. Məhkəmə tərəfindən Reqlamentin 30 (3)-cü maddəsi əsasında müəyyən edilmiş avansın öz payına düşən hissəsini tamamilə ödəmiş tərəf digər tərəfin ödəmədiyi avans payını da bank zəmanəti təqdim etməklə ödəyə bilər.

7. Reqlamentin 30 (2)-ci maddəsi əsasında Məhkəmənin xərclər üçün müxtəlif avanslar müəyyən etdiyi hallarda Katiblik hər bir tərəfə avansın onun iddia tələblərinə müvafiq hissəsini ödəməyi təklif edir.

8. Müxtəlif avanslar müəyyən edildikdən sonra, bir tərəfin tələbləri üzrə müəyyən edilmiş avans əvvəl müəyyən edilmiş avansın (ayrı-ayrı avanslar müəyyən edilmiş elə həmin əsas və qarşılıqlı iddia tələbləri üzə) ümumi məbləğinin yarısından artıq olduqda, bank zəmanəti yuxarıda qeyd edilən məbləğin yarısından çox olan hissəsinin ödənişi üçün istifadə oluna bilər. Nəticədə, ayrıca götürülmüş avansın məbləği artmış olarsa, bu artımın minimum yarısı pul ilə ödənilməlidir.

9. Katiblik tərəflərin ödəniş kimi istifadə edə bilmələri üçün yuxarıda qeyd edilən tələblər əsasında bank zəmanətlərini nizamlayan şərtlər müəyyən edir.

10. Reqlamentin 30 (2)-ci maddəsinə uyğun olaraq xərclər üçün avans arbitraj araşdırmasının istənilən mərhələsində, xüsusilə mübahisənin məbləğinin dəyişilməsi, arbitrlərin nəzərdə tutulan məsrəflərinin dəyişilməsi, yaxud arbitraj araşdırmasının çətinliyi, yaxud mürəkkəb xarakteri əsas götürülməklə dəqiqləşdirilə bilər.

11. Arbitraj tərkibinin qərarı əsasında keçirilən hər hansı ekspertizanın başlanmasına qədər tərəflər, yaxud onlardan biri, ekspertlərin, arbitraj

tərkibi tərəfindən müəyyən edilmiş mümkün olan qonorarlarının və məsrəflərinin ödənilməsinə kifayət edən arbitraj tərkibinin müəyyən etdiyi məbləğdə avans ödəməlidir. Arbitraj tərkibi tərəflərin həmin qonorarları və məsrəfləri ödədiklərinə əmin olmalıdır.

**Maddə 2. Xərclər və qonorarlar**

1. Məhkəmə Reqlamentin 31 (2)-ci maddəsinə riayət edilməsi şərtilə, arbitrin qonorarlarını aşağıda göstərilmiş cədvəl əsasında, mübahisənin məbləği göstərilmədikdə isə, öz mülahizəsinə müvafiq olaraq müəyyən edir.

2. Məhkəmə arbitrlərin qonorarlarını müəyyən edərkən arbitrin icraçılıq qabiliyyətini, onun tərəfindən sərf edilmiş vaxtı, iş üzrə icraatın operativliyini, həmçinin mübahisənin mürəkkəbliyini müəyyən edilmiş limitlər həddində, yaxud istisna hallarda (Reqlamentin 31 (2)-ci maddəsi) limitlərin müəyyən edilmiş yuxarı, yaxud aşağı həddində məbləği almaq məqsədilə nəzərə alır.

3. İş baxılması üçün birdən çox arbitrə verildikdə, Məhkəmə, öz mülahizəsinə əsasən, qonorarların ümumi məbləğini, bir qayda olaraq, bir arbitrə ödənilən qonorarın üçqat məbləğindən çox olmayan maksimum həddə qədər qaldırmaq hüququna malikdir.

4. Arbitrlərin qonorarları və xərcləri, yalnız bu Reqlamentlə müəyyən edilmiş qaydada, Məhkəmə tərəfindən müəyyən edilir. Arbitrlər və tərəflər arasında qonorarlarla bağlı istənilən razılaşma bu Reqlamentə ziddir.

5. Məhkəmə hər bir arbitraj araşdırması üçün inzibati xərcləri aşağıda göstərilmiş cədvəl əsasında, mübahisənin məbləği göstərilmədiyi halda isə öz mülahizəsinə əsasən müəyyən edir. Məhkəmə istisna hallarda, inzibati xərcləri göstərilən cədvəldə müəyyən edilmiş məbləğlərdən həmin xərclərin cədvəldə göstərilən maksimum məbləğini, bir qayda olaraq, aşmamaq şərtilə daha az, yaxud daha böyük ölçüdə müəyyən edə bilər. Bundan əlavə, tərəflərin hər ikisi, yaxud onlardan biri digər tərəfin buna etirazı olmazsa, işin hərəkətsiz saxlanılmasını xahiş etdikdə, Məhkəmə əlavə inzibati xərclərin ödənilməsini tələb edə bilər.

6. İş üzrə icraat qəti qərar çıxarılana qədər dayandırıldıqda, Məhkəmə arbitraj araşdırmasının dayandırılması mərhələsini və işin hallarına aid olan digər məqamları nəzərə alaraq, öz mülahizəsinə əsasən inzibati xərcləri müəyyən edir.

7. Reqlamentin 29 (2)-ci maddəsi ilə nəzərdə tutulmuş vəsatət daxil olduqda, Məhkəmə arbitraj tərkibinin əlavə qonorarlarının və xərclərinin ödənilməsi üçün avans müəyyən edə və avansın BTP-yə tamamilə ödənilməsindən sonra arbitraj tərkibinə vəsatətin verilə bilməsini şərtləndirə bilər. Məhkəmə arbitraj tərkibi tərəfindən çıxarılmış müvafiq qərarları təsdiq edərkən arbitrlərin qonorarlarını, öz mülahizəsinə əsasən, müəyyən edə bilər.

8. Arbitraj araşdırmasından əvvəl barışıq icraatı aparıldıqda, barışıq icraatı üçün ödənilmiş inzibati xərclərin yarısı arbitraj araşdırması üçün müəyyən edilmiş inzibati xərclərə daxil edilir.

9. Arbitrə ödənilmiş məbləğdən onların qonorarlarına hesablanacaq əlavə dəyər vergisi (ƏDV) və digər ödəniş və rüsumlar tutulmur. Güman edilir ki, bu vergi və rüsumları tərəflər ödəyir; həmin ödənişlərin əvəzinin qaytarılması isə arbitr və tərəflərin arasında olan münasibətlərə aid məsələ hesab olunur.

**Maddə 3. Arbitrlərin təyin edilməsi**

1. Bu Reqlament əsasında həyata keçirilməyən arbitraj araşdırmasının məqsədləri üçün BTP-yə arbitr təyin edilməsi xahişi ilə müraciət edən tərəf, adətən 2500 ABŞ dollarından çox olmayan məbləği ödəməlidir. Bu məbləğ geri qaytarılmır və BTP-nin mülkiyyəti hesab olunur. Belə ödəniş aparılmayana qədər arbitrin təyin olunması ilə bağlı heç bir vəsatətə baxılmır.

2. Qeyd edilən ödəniş BTP tərəfindən bu təyinetmə ilə əlaqədar göstərilən istənilən xidməti, xüsusilə də arbitrə edilmiş etiraz və arbitrin əvəz edilməsi ilə bağlı qərarın qəbul edilməsini əvəzləşdirir.

**Maddə 4. İnzibati xərclər və arbitrlərin qonorarları cədvəli**

1. 1 yanvar 1998-ci il tarixdən və ondan sonra icraata qəbul edilmiş bütün işlərə, bu işlərə Reqlamentin hansı variantının tətbiq edilməsindən asılı omayaraq, aşağıda göstərilmiş inzibati xərclər və arbitrlərin qonorarları cədvəli tətbiq olunur.

2. İnzibati xərclərin və arbitrlərin qonorarlarının ödənilməsi üçün zəruri olan məbləği hesablamaq üçün hər hissənin hesablanmış məbləğini toplamaq lazımdır. Lakin, mübahisənin məbləği 80 milyon ABŞ dollarından çox olduqda 75.800 ABŞ dolları məbləğində birdəfəlik ödəniş inzibati xərcləri tamamilə təmin edir.

## A. İNZİBATİ XƏRCLƏR

| Mübahisənin qiyməti (ABŞ dollarında) | | İnzibati xərclər |
|---|---|---|
| 50.000-ə qədər | | 2.500$ |
| 50.001-dən | 100.000-ə qədər | 3,50 % |
| 100.001-dən | 500.000-ə qədər | 1,70 % |
| 500.001-dən | 1.000.000-a qədər | 1,15 % |
| 1.000.001-dən | 2.000.000-a qədər | 0,60 % |
| 2.000.001-dən | 5.000.000-a qədər | 0,20 % |
| 5.000.001-dən | 10.000.000-a qədər | 0,10 % |
| 10.000.001-dən | 50.000.000-a qədər | 0,06 % |
| 50.000.001-dən | 80.000.000-a qədər | 0,06 % |
| 80.000.000-dən yuxarı | | 75.800 |

## B. ARBİTRLƏRİN QONORARLARI

| Mübahisənin qiyməti (ABŞ dollarında) | | Qonorarlar | |
|---|---|---|---|
| | | Minimum | Maksimum |
| 50.000-ə qədər | | 2.500$ | 17,00 % |
| 50.001-dən | 100.000-ə qədər | 2,00 % | 11,00 % |
| 100.001-dən | 500.000-ə qədər | 1,00 % | 5,50 % |
| 500.001-dən | 1.000.000-a qədər | 0,75 % | 3,50 % |
| 1.000.001-dən | 2.000.000-a qədər | 0,50 % | 2,50 % |
| 2.000.001-dən | 5.000.000-a qədər | 0,25 % | 1,00 % |
| 5.000.001-dən | 10.000.000-a qədər | 0,10 % | 0,55 % |
| 10.000.001-dən | 50.000.000-a qədər | 0,05 % | 0,17 % |
| 50.000.001-dən | 80.000.000-a qədər | 0,03 % | 0,12 % |
| 80.000.001-dən | 100.000.000-a qədər | 0,02 % | 0,10 % |
| 100.000.000-dan yuxarı | | 0,01 % | 0,05 % |

| Mübahisə-nin məbləği (ABŞ dollarında) | A. İnzibati xərclər (ABŞ dollarında) | B. Arbitrlərin qonorarları (ABŞ dollarında) | |
|---|---|---|---|
| | | Minimum | Maksimum |
| 50.000-ə qədər | 2.500 | 2.500 | Mübahisənin məbləğindən 17,00% |
| 50.001-dən 100.000-dək | 2.500+50.000-dən yuxarı məbləğin 3,50%-i | 2.500+50.000-dən yuxarı məbləğin 2,00%-i | 8.500 +50.000-dən yuxarı məbləğin 11,0%-i |
| 100.001-dən 500.000-dək | 4.250+100.000-dən yuxarı məbləğin 1,70%-i | 3.500+100.000-dən yuxarı məbləğin 1,00%-i | 14.000+100.000-dən yuxarı məbləğin 5,50%-i |
| 500.001-dən 1.000.000-dək | 11.050+500.000-dən yuxarı məbləğin 1,15%-i | 7.500+500.000-dən yuxarı məbləğin 0,75%-i | 36.000+500.000-dən yuxarı məbləğin 3,50%-i |
| 1.000.001-dən 2.000.000-dək | 16.800+1.000.000-dən yuxarı məbləğin 0,60%-i | 11.250+1.000.000-dan yuxarı məbləğin 0,50%-i | 53.500+1.000.000-dan yuxarı məbləğin 2,50%-i |
| 2.000.001-dən 5.000.000-dək | 22.800+2.000.000-dən yuxarı məbləğin 0,20%-i | 16.250+2.000.000-dan yuxarı məbləğin 0,25%-i | 78.500+2.000.000-dan yuxarı məbləğin 1,00%-i |
| 5.000.001-dən 10.000.000-dək | 28.800+5.000.000-dən yuxarı məbləğin 0,10%-i | 23.750+5.000.000-dan yuxarı məbləğin 0,10%-i | 108.500+5.000.000-dan yuxarı məbləğin 0,55%-i |
| 10.000.001-dən 50.000.000-dək | 33.800+10.000.000-dən yuxarı məbləğin 0,06%-i | 28.750+10.000.000-dan yuxarı məbləğin 0,05%-i | 136.000+10.000.000-dan yuxarı məbləğin 0,17%-i |
| 50.000.001-dən 80.000.000-dək | 57.800+50.000.000-dən yuxarı məbləğin 0,06%-i | 48.750+50.000.000-dan yuxarı məbləğin 0,03%-i | 204.000+50.000.000-dan yuxarı məbləğin 0,12%-i |
| 80.000.001-dən 100.000.000-dək | 75.800 | 57.750+80.000.000-dan yuxarı məbləğin 0,02%-i | 240.000+80.000.000-dan yuxarı məbləğin 0,10%-i |
| 100.000.000-dan yuxarı | 75.800 | 61.750+100.000.000-dan yuxarı məbləğin 0,01%-i | 260.000+100.000.000-dan yuxarı məbləğin 0,05%-i |

# BTP-nin KÖNÜLLÜ BARIŞIQ REQLAMENTİ

## Preambula

Beynəlxalq xarakterə malik kommersiya mübahisələrinin nizama salınması könüllülüyə əsaslanır. Beynəlxalq Ticarət Palatası belə mübahisələrin dostcasına həll edilməsinin asanlaşdırılması üçün bu Barışıq Reqlamentini təklif edir.

## Maddə 1

Beynəlxalq xarakterə malik bütün kommersiya mübahisələri Beynəlxal Ticarət Palatası tərəfindən təyin edilmiş təkbaşına vasitəçinin köməyi ilə barışıq predmeti ola bilər.

## Maddə 2

Barışıq üçün müraciət etmək istəyən tərəf mübahisənin predmetinin qısa xülasəsini göstərməklə müvafiq müraciəti Beynəlxalq Ticarət Palatasının Beynəlxalq arbitraj məhkəməsinin Katibliyinə göndərir və işin baxılmaya qəbul edilməsi üçün mübahisənin bu Reqlamentə Əlavədə nəzərdə tutulduğu qaydada zəruri məbləğini təklif edir.

## Maddə 3

Beynəlxalq arbitraj məhkəməsinin Katibliyi qısa müddətdə digər tərəfi barışıq proseduru ilə bağlı müraciətlə əlaqədar məlumatlandırır. Katiblik tərəfə barışıq prosedurunda iştirak etmək haqqında razılığın, yaxud bundan imtinanın bildirilməsi üçün 15 günlük müddət verir.

Digər tərəf barışıq prosedurunda iştirak etməyə razılıq verdikdə, bu razılıq barədə göstərilən müddət ərzində Beynəlxalq arbitraj məhkəməsinin Katibliyini məlumatlandırır.

Göstərilən müddət ərzində cavab verilmədikdə, yaxud mənfi cavab verildikdə, barışıq haqqında müraciət rədd edilmiş hesab edilir və Katiblik qısa müddətdə müraciəti vermiş tərəfi bu barədə məlumatlandırır.

**Maddə 4**

Barışıq prosedurunun keçirilməsi haqqında razılıq əldə edildikdə Beynəlxalq arbitraj məhkəməsinin Baş katibi qısa müddətdə vasitəçini təyin edir, sonuncu isə tərəfləri özünün təyinatı ilə bağlı məlumatlandırır və onlara müəyyən edilmiş müddətdə özlərinin müvafiq arqumentlərini təqdim etməyi təklif edir.

**Maddə 5**

Vasitəçi barışıq prosedurunu qərəzsizlik, dürüstlük və ədalətlilik prinsiplərini rəhbər tutmaqla öz mülahizəsinə əsasən həyata keçirir.

Vasitəçi tərəflərin razılığı ilə barışıq prosedurunun keçirilməsi yerini müəyyən edir.

Barışıq prosedurunun istənilən mərhələsində vasitəçi, zəruri hesab etdiyi əlavə məlumatın ona təqdim edilməsi xahişi ilə istənilən tərəfə müraciət edə bilər.

Tərəflər istədikdə öz seçimləri üzrə məsləhətçilərin xidmətlərindən istifadə edə bilərlər.

**Maddə 6**

Barışıq prosedurunun konfidensiallığı qorunmalıdır, bu prosedurda hansı qisimdə iştirak etməsindən asılı olmayaraq istənilən şəxs buna hörmət etməlidir.

**Maddə 7**

Barışıq proseduruna aşağıdakı hallarda xitam verilir:

a) Tərəflərin sazişi imzalaması ilə.

Tərəflər bu sazişdən asılı olurlar. Bu saziş onun icrası, yaxud tətbiqinin bunu tələb etdiyi müddətə və ya hala qədər konfidensial olaraq qalır.

b) Vasitəçinin, barışıq prosedurunun müvəffəqiyyətsiz başa çatmasını qeyd etdiyi, protokolun tərtib edilməsi ilə. Protokolda motivlər göstərilmir.

c) Barışıq prosedurunun istənilən mərhələsində tərəflərdən har hansı birinin, yaxud hər iki tərəfin barışıq prosedurunun daha davam etdirilməməsi qərarı ilə vasitəçinin məlumatlandırılması halında.

**Maddə 8**

Barışıq proseduru bitdikdə vasitəçi tərəflərin imzaladıqları barışıq haqqında sazişi, yaxud özünün bu sazişin əldə edilməməsini nəzərdə tutan məlumatını, yaxud barışıq prosedurunun daha aparılmaması ilə bağlı tərəflərdən birinin və ya bir neçəsinin bildirişini Beynəlxalq arbitraj məhkəməsinin Katibliyinə göndərir.

**Maddə 9**

İşin qaldırılması zamanı Beynəlxalq arbitraj məhkəməsinin Katibliyi işin mahiyyətini və vacibliyini nəzərə alaraq bu prosedurun başlanılması üçün zəruri olan məbləği müəyyən edir. Müəyyən edilmiş məbləği tərəflər bərabər hissələrdə ödəməlidirlər.

Bu məbləğ vasitəçinin gözlənilən qonorarlarının və barışıq proseduru ilə bağlı xərclərin, həmçinin bu Reqlamentə Əlavədə göstərilmiş qaydada inzibati xərclərin ödənilməsinə sərf olunur.

Barışıq prosedurunun gedişində Beynəlxalq arbitraj məhkəməsinin Katibliyi ilkin ödənilmiş məbləğin barışıq proseduru ilə bağlı gözlənilən ümumi xərclərin ödənilməsi üçün kifayət etmədiyi qərarına gəldiyi hər bir halda, katiblik tərəflərdən bərabər hissələrdə əlavə haqqın ödənilməsini tələb edir.

Barışıq prosedurunun bitməsi ilə Katiblik prosedura ilə bağlı məsrəflərin ümumi məbləğini müəyyən edir və tərəfləri bu barədə yazılı məlumatlandırır.

Sazişlə başqa hal nəzərdə tutulmayıbsa, yuxarıda qeyd edilən məsrəfləri tərəflər bərabər hissələrdə ödəyirlər.

Hər hansı tərəfin istənilən digər hər hansı xərcləri, yalnız həmin tərəfin özü tərəfindən ödənilir.

**Maddə 10**

Tərəflər, digər hal barədə razılaşmayıblarsa, vasitəçi barışıq prosedurunun predmeti olmuş mübahisə ilə bağlı hər hansı məhkəmə və ya arbitraj prosedurlarında arbitr, tərəfin nümayəndəsi, yaxud məsləhətçisi funksiyalarını həyata keçirməməlidir.

Tərəflər, digər hal barədə razılaşmayıblarsa, vasitəçini məhkəməyə, yaxud arbitraja şahid qismində çağırmamağı qarşılıqlı olaraq öhdələrinə götürürlər.

**Maddə 11**

Tərəflər məhkəmə, yaxud arbitraj prosedurlarında, yaxud hər hansı digər üsulla aşağıdakıları sübut kimi təqdim etməməyi öhdələrinə götürürlər:

a) digər tərəfin mübahisənin nizama salınması ilə bağlı irəli sürdüyü istənilən fikir və təklifləri;

b) vasitəçi tərəfindən irəli sürülmüş təklifləri;

c) tərəflərdən hər hansı birinin mübahisənin nizama salınması ilə bağlı vasitəçinin təklifini qəbul etməyə hazır olmasını göstərən fakt.

**Barışıq üzrə xərclər cədvəli**

a) BTP-nin Könüllü Barışıq Reqlamenti əsasında barışıq prosesində iştirak edən mübahisə tərəflərin hər biri inzibati xərclər üçün 500 ABŞ dolları məbləğində avans ödəməlidir. Belə ödəniş olmdıqla barışıq prosesinin aparılması üçün xahişə baxılmır. Bu ödəniş əvəzləşdirilmir və BTP-nin mülkiyyəti hesab olunur. Tərəflərdən

birinin belə ödənişi barışıq icraatı üçün inzibati xərclərdə onun hesabında hesablanır.

b) Barışıq prosedurunun inzibati xərcləri Arbitraj Reqlamentinə III əlavədəki inzibati xərclər cədvəlində hesablanmış məbləğini dörddə biri həcmində müəyyənləşdirilir. Barışıq icraatının predmeti olan mübahisənin məbləği göstərilməyibsə, inzibati xərclər Beynəlxalq Arbitraj Məhkəməsinin ("Məhkəmə") Baş katibinin mülahizəsi ilə müəyyənləşir.

c) Tərəflərin ödədiyi vasitəçinin qonorarı Beynəlxalq Arbitraj Məhkəməsinin Baş katibi tərəfindən müəyyənləşdirilir. Bu məbləğ sərf olunan vaxtı, işin mürəkkəbliyi və işə aid digər halları nəzərə almaqla ağlabatan məbləğdə təyin olunmalıdır.

d) Vasitəçiyə ödənilən məbləğdən, onun qonorarına hesablana bilən əlavə dəyər vergisi (ƏDV) və ya hər hansı digər vergi, ödəniş və rüsumlar tutulmur. Güman edilir ki, həmin vergi və rüsumları tərəflər ödəyir: həmin ödənişlərin əvəzinin qaytarılması isə vasitəçi ilə tərəflərin arasında olan münasibətlərə aid məsələ hesab olunur.

# STOKHOLM TİCARƏT PALATASI ARBİTRAJ İNSTİTUTUNUN R E Q L A M E N T İ

*1 aprel 1999-cu ildən qüvvəyə minmişdir*

# STOKHOLM TİCARƏT PALATASI
# ARBİTRAJ İNSTİTUTUNUN
# R E Q L A M E N T İ

**1 aprel 1999-cu ildən qüvvəyə minmişdir**

***Tövsiyə olunan arbitraj qeyd-şərti***

Mövcud müqavilə ilə bağlı istənilən mübahisə, fikir müxtəlifliyi və ya pretenziya, yaxud onun pozulması, ona xitam verilməsi və ya onun etibarsızlığı məsələləri son olaraq Stokholm şəhəri Ticarət Palatası Arbitraj İnstitutunun Reqlamentinə uyğun olaraq arbitraj yolu ilə həll ediləcəkdir. Zərurət olduqda, arbitraj qeyd-şərtinə aşağıdakı əlavələrin edilməsi tərəflərə tövsiyə olunur:
Arbitraj tərkibinə ________________arbitrlər (tək arbitr) daxil ediləcək
Arbitrajın keçirildiyi yer ____________________
Arbitraj araşdırmasının dili __________________ olacaqdır

Tətbiq olunan hüquq haqqında nümunəvi qeyd-şərt

Mövcud müqavilə ___________________________________________
(göstərməli) maddi hüquq normaları ilə tənzimlənir

## İNSTİTUTUN TƏŞKİLİ

### Maddə 1. İnstitut

Stokholm Ticarət Palatasının Arbitraj İnstitutu (bundan sonra «İnstitut») Stokholm Ticarət Palatasının (bundan sonra «Palata») arbitraj məsələləri ilə məşğul olan müstəqil orqanıdır. İnstitut özü mübahisələri həll etmir. Onun vəzifələrinə daxildir:

- Beynəlxalq və daxili mübahisələrin həll edilməsinə İnstitutun Reqlamentinə (bundan sonra «Reqlament») uyğun olaraq kömək etmək;
- Mübahisələrin həll edilməsinə İnstitut tərəfindən qəbul olunmuş[1] digər prosedur qaydalarına uyğun olmaqla kömək etmək;
- Reqlamentdə nəzərdə tutulmuş prosedurdan qismən, yaxud tamamilə fərqlənə biləcək prosedurla İnstitutun müəyyən etdiyi qaydalara uyğun olaraq, arbitraj araşdırmalarına kömək etmək;
- Arbitraj və barışıq prosedurlarının aparılmasına aid informasiyanın təqdim olunması.

### Maddə 2. İdarə heyəti

1. İnstitutun İdarə Heyəti, Palatanın Direktorlar Şurası tərəfindən üç il müddətinə təyin olunmuş altı nəfərdən ibarətdir.
Palatanın Direktorlar Şurası İnstitutun İdarə Heyətinin üzvlərindən Sədri və Sədrin müavinini təyin edir. İdarə heyətinin Sədri və Sədrin müavini hüquqşünas olmalıdırlar.
2. Fövqəladə səbəblər olduqda Palatanın Direktorlar Şurası İdarə Heyətinin üzvünü tutduğu vəzifədən kənarlaşdırmaq hüququna malikdir. Əgər İdarə Heyətinin üzvü öz səlahiyyətlərini icra etdiyi müddət ərzində istefaya gedərsə, yaxud tutduğu vəzifədən azad edilərsə, Direktorlar Şurası qalan müddət üçün İdarə Heyətinin yeni üzvünü təyin edir.

### Maddə 3. İdarə heyətinin qərarları

İdarə Heyətinin iki üzvü yetərsayı təşkil edir. Səs çoxluğu ilə qəbul olunması mümkün olmadıqda, Sədrin səsi həlledicidir. Sədr, eləcə də

---

[1] İnstitut tərəfindən tezləşdirilən arbitraj prosedurunun Qaydaları, sığorta sahəsində mübahisələrə baxılması Reqlamenti, mübahisələrin tənzimlənməsində İnstitutun vasitəçilik xidmətlərinin barışıq proseduru Qaydaları və UNCİTRAL Arbitraj Reqlamentinə müvafiq prosedur Qaydaları qəbul olunmuşdur.

sədrin müavini təcili məsələlərə görə İdarə Heyətinin adından qərar qəbul etmək hüququna malikdirlər. İdarə Heyətinin qərarları qətidir və Palata tərəfindən yenidən baxıla bilməz.

**Maddə 4. Katiblik**
İnstitut, Baş Katibin rəhbərlik etdiyi Katibliyə malikdir. Baş katib hüquqşünas olmalıdır.

## İNSTİTUTUN ARBİTRAJ REQLAMENTİ
## İCRAATIN BAŞLANMASI

**Maddə 5. Arbitraj haqqında xahiş**

Arbitraj icraatı iddiaçının arbitraj haqqında xahişinin İnstituta verilməsi ilə başlanır. Arbitraj xahişində aşağıdakılar göstərilməlidir:
I) tərəflərin və onların təmsilçilərinin adları, poçt ünvanları, telefon və faks nömrələri, həmçinin elektron poçtunun ünvanı;
II) mübahisənin qısa təsviri;
III) iddiaçının tələblərinin ilkin təfsiri;
IV) mübahisənin arbitraj tərəfindən həll edilməli olduğunu təsdiqləyən arbitraj müqaviləsinin, yaxud qeyd-şərtinin surəti;
V) əgər seçilmiş prosedurda nəzərdə tutulubsa, iddiaçının təyin etdiyi arbitr, onun poçt və elektron poçtunun ünvanları, telefon və faksının nömrələri də göstərilməlidir.

**Maddə 6. Qeydiyyat rüsumu**

1. İddiaçı arbitraj haqqında xahişin verilməsi ilə eyni zamanda qeydiyyat rüsumunu da ödəyir. Rüsumun miqdarı arbitraj xahişinin verildiyi tarixdə qüvvədə olan İnstitutun «Arbitraj xərcləri və rüsumları haqqında» Əsasnaməsinə müvafiq qaydada müəyyənləşdirilir.

2. Arbitraj xahişi təqdim olunarkən tələb edilən rüsum ödənilmədikdə, İnstitut iddiaçının həmin rüsumu ödəməsi üçün vaxt müəyyənləşdirir.

**Maddə 7. İş üzrə icraatın başlanmasından imtina**

Mübahisənin mahiyyətinə görə İnstitutun yurisdiksiyaya malik olmaması müəyyən edildikdə və ya göstərilən müddət ərzində qeydiyyat rüsumu ödənilmədikdə, iddiaçının arbitraj xahişi rədd edilir.

**Maddə 8. İş üzrə icraatın başlanma vaxtı**

Arbitraj icraatı İnstitut tərəfindən arbitraj xahişinin alındığı andan başlanmış hesab olunur.

**Maddə 9. Prosedur qaydaları**

İnstitut araşdırmanın konfidensiallığını və onun qərəzsiz, qənaətçiliklə və ləngitmədən aparılmasını təmin etməyə borcludur.

**Maddə 10. Cavabdehin izahatı**

1.İnstitut iddiaçının arbitraj xahişini cavabdehə təqdim etməklə müəyyən olunmuş müddət ərzində öz mövqeyini, xüsusən, aşağıda göstərilənləri şərh etməyi ona təklif edir:

I) iddiaçının arbitraj xahişini şərh etmək; və

II) əgər seçilmiş prosedurda nəzərdə tutulubsa, cavabdehin təyin etdiyi arbitri, onun poçt və elektron poçtunun ünvanını, telefon və faksının nömrələri daxil olmaqla göstərmək.

2.Əgər cavabdeh arbitraj müqaviləsinin tətbiq olunması, yaxud onun etibarlılığı məsələsi ilə bağlı etiraz vermək istəyirsə, bu barədə etirazını əsaslandırmaqla İnstituta cavabında məlumat verməlidir.

3.Əgər cavabdeh qarşılıqlı iddia, yaxud yoxlama barədə tələb təqdim etmək istəyirsə, bu barədə dəlillərini göstərməklə, İnstituta cavabında məlumat verməlidir. Bu halda cavabdehin ərizəsinə iddianın xarakterinin təfsiri və iddia tələblərinin ilkin şərhi daxil edilməlidir. İstənilən qarşılıqlı iddia, eləcə də yoxlama haqqında tələb arbitraj müqaviləsinə əsaslanmalıdır.

4.İnstitut cavabdehin mövqeyini iddiaçıya təqdim edir. İddiaçıya cavabdehin irəli sürdüyü istənilən etirazını, yaxud ərizəsini şərh etmək

imkanı verilməlidir.
5.Cavabdehin müəyyən olunmuş müddət ərzində izahat verməkdən yayınması mövcud Reqlamentə uyğun olaraq iş üzrə icraatın davam etdirilməsinə mane olmur.

**Maddə 11. Tərəflərdən əlavə məlumatların tələb olunması; müddətlər**

1.İnstitut tərəflərdən daxil olmuş istənilən yazılı ərizə barəsində əlavə məlumatların verilməsini tələb edə bilər. İnstitut iddiaçıdan tələb olunan məlumatları almazsa, iş üzrə icraatın dayandırılması haqda qərar qəbul edə bilər. İnstitut qarşılıqlı iddiaya aid olan məlumatları cavabdehdən almazsa, qarşılıqlı iddianı rədd edə bilər. Əgər cavabdeh digər yazılı ərizələrə aid olan tələb edilmiş məlumatları təqdim etməzsə, bu, iş üzrə icraatın davam etdirilməsinə mane olmur.
2.İnstitut tərəfindən göstərilmiş prosessual hərəkətlərin icrası üçün tərəflərə verilmiş hər bir müddət artırıla bilər.

**Maddə 12. Tərəflərə xəbərdarlıq edilməsi**

1.İnstitutun istənilən xəbərdarlığı, yaxud digər məlumatları ünvan sahibinin axırıncı məlum ünvanına çatdırılır.
2.İstənilən xəbərdarlıq, yaxud digər məlumat ünvan sahibinə, məlumatın göndərilməsini qeydə almağa imkan verən vasitələrdən biri ilə, o cümlədən, kuryer vasitəsilə, yaxud sifarişli poçt göndərməsi, eləcə də elektron poçtu, yaxud digər rabitə vasitələri ilə çatdırılır.
3.2-ci bəndə uyğun olaraq göndərilən xəbərdarlıq və ya məlumat, ünvan sahibi tərəfindən, seçilmiş rabitə xidməti üçün müəyyən edilmiş adi çatdırma müddətindən gec olmayaraq alınmış hesab olunur.

**Maddə 13. Arbitrlərin təyini, arbitrajın yerinin müəyyən edilməsi**

İnstitut 5-11-ci maddələrə uyğun olmaqla, yazılı ərizələrin mübadiləsindən sonra aşağıdakıları etməlidir:
I) Arbitrlərin sayı barədə, əgər tərəflərin razılığı yoxdursa, qərar qəbul etməlidir;
II) 16-cı maddədə nəzərdə tutulmuş hallarda, təkbaşına arbitr, yaxud arbitraj tərkibinin sədrini, eləcə də zərurət olarsa, arbitraj tərkibinə daxil olan digər arbitrləri təyin etmək;

III) əgər tərəflər bunu razılaşdırmayıblarsa, arbitrajın yeri barədə qərar qəbul etmək; və
IV) 14-cü maddəyə müvafiq olaraq, xərclərin ödənilməsi üçün avansın məbləğini müəyyən etmək.

## Maddə 14. Xərclərin ödənilməsinin ilkin məbləği (avans)

1.Xərclərin ödənilməsinin ilkin məbləği (avans) 39-cu maddəyə müvafiq olaraq arbitraj xərclərinin güman edilən məbləğinə bərabər olmalıdır.
2.Tərəflərin hər biri xərcləri ödəyəcək ilkin məbləğin (avans) yarısını ödəməlidir. İnstitut, qarşılıqlı iddialar və yoxlamalar barədə tələblər üçün ayrıca məbləğ müəyyən edə bilər? Arbitraj tərkibinin müvafiq müraciətinə əsasən, İnstitut araşdırmanın gedişi zamanı əlavə məbləğlərin ödənilməsi zərurəti barədə qərar qəbul edə bilər.
3.Əgər tərəflərdən biri tələb olunan məbləği ödəməzsə, İnstitut digər tərəfin çatışmayan məbləği ödəməsi üçün vaxt müəyyən etməlidir. Əgər tələb olunan ödəniş həyata keçirilməzsə, iş üzrə icraat tamamilə, yaxud çatışmayan ödənişə aid olan hissədə dayandırılır.
4.İş üzrə icraatın gedişində, eləcə də icraat qurtardıqdan sonra, İnstitut arbitrləri mükafatlandırmaq, eləcə də digər arbitraj xərclərini ödəmək üçün tədbirlər görə bilər.
5.İnstitut tərəflərə avansın bir qismini bank zəmanəti, yaxud təminatın digər forması şəklində ödəmələrinə icazə verə bilər.

## Maddə 15. İşin arbitraj tərkibinə verilməsi

Arbitraj tərkibi formalaşdıqdan və xərclərin bağlanmasına avans ödənildikdən sonra, İnstitut işi arbitraj tərkibinə verir.

## ARBİTRAJ TƏRKİBİNİN FORMALAŞMASI

## Maddə 16. Arbitrlərin sayı və onların təyin olunması proseduru

1.Arbitrlərin sayını tərəflər öz mülahizələri əsasında müəyyən edirlər. Arbitrlərin sayı haqqında tərəflərin razılaşması yoxdursa, əgər İnstitut işin mürəkkəbliyini, mübahisənin dəyərini və digər halları nəzərə alaraq,

mübahisənin bir arbitr tərəfindən həllini mümkünsüz hesab edirsə, arbitraj tərkibinə üç arbitr daxil edir.

2.Arbitraj tərkibi bir arbitrdən çox olduqda, tərəflərin hər biri eyni sayda arbitr təyin edir. Əgər tərəflər İnstitutun müəyyən etdiyi müddətdə arbitrləri təyin etməzsə, tərəflərin digər razılaşdığı hallar istisna olmaqla, təyinat İnstitut tərəfindən aparılır.

3.Əgər mübahisədə iki və ya daha çox iddiaçı, yaxud cavabdeh iştirak edirsə və mübahisə bir neçə arbitr tərəfindən həll edilməlidirsə, iddiaçılar cavabdehlərlə birlikdə bərabər sayda arbitr təyin edirlər. Tərəflərdən hər hansı biri göstərilən birgə təyinatı yerinə yetirmədikdə, təyinatı həmin tərəfin əvəzindən İnstitut həyata keçirir. Zəruri hallarda, tərəflərin digər razılaşması olmadıqda, İnstitut arbitraj heyətini tam tərkibdə təyin edə bilər.

4.Arbitraj tərkibinə birdən çox arbitr daxil edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, sədri İnstitut təyin edir.

5.Mübahisə bir arbitr tərəfindən həll edildiyi halda, tərəflərin digər razılaşması yoxdursa, onun təyinatını İnstitut həll edir.

6.Tərəflərdən birinin təyin etdiyi arbitr öldükdə, həmin tərəf digər arbitri təyin edir. İnstitutun təyin etdiyi arbitr öldükdə, digər arbitri İnstitut təyin edir.

7.Əgər arbitr öz funksiyasını yerinə yetirməkdən imtina edərsə, yaxud o, vəzifəsindən azad edilərsə, İnstitut digər arbitri təyin edir. Əgər arbitri tərəflərdən biri təyin etmişsə, İnstitut həmin tərəfin rəyini nəzərə alır. Əgər arbitrajın tərkibinə üç və ya daha çox arbitr daxildirsə, İnstitut işin qalan arbitrlər tərəfindən davam etdirilməsi barədə qərar çıxara bilər. İnstitut belə qərar qəbul edərkən tərəflərin və arbitraj tərkibinin rəyini nəzərə alır.

8.Tərəflər müxtəlif dövlətləri təmsil etdiyi halda, əgər tərəflər başqa cür qərar qəbul etməyiblərsə, yaxud İnstitut digər rəyə gəlməyibsə, İnstitut sədrliyə üçüncü ölkənin vətəndaşını təyin edir.

## Maddə 17. Arbitrlərin qərəzsizliyi və müstəqilliyi. Etiraz üçün əsaslar barədə arbitrin məlumat vermə öhdəliyi

1.Arbitr qərəzsiz və müstəqil olmalıdır.

2.Arbitr təyin olunması təklif olunan şəxs, özünün qərəzsiz və müstəqil olmasına əsaslı şübhələr oyada biləcək istənilən hallar barədə məlumat verməyə borcludur. Əgər bununla belə, bu şəxs artıq arbitr təyin edilmişsə, o, həmin hallar barədə dərhal tərəflərə və digər arbitrlərə

yazılı məlumat verməlidir.
3.Arbitraj araşdırmasının gedişində, arbitrə onun ixtisasından məhrum edilməsinə səbəb ola biləcək istənilən hal məlum olarsa, təcili olaraq yazılı şəkildə tərəflərə və digər arbitrlərə məlumat verməlidir.

**Maddə 18. Arbitrlərə etiraz**

1.Tərəflərdən biri arbitrə etiraz etmək istədikdə, İnstituta etirazın əsaslandırılmış səbəblərini göstərməklə yazılı ərizə göndərir.
2.Etiraz barədə ərizə, arbitri təyin edən tərəfə etiraz üçün əsas olacaq hal məlum olduqdan 15 gündən gec olmayaraq verilir. Nəzərdə tutulan müddət ərzində etiraz ərizəsinin verilməməsi, etiraz hüququndan imtina edilməsi kimi qəbul olunur.
3.İnstitut tərəflərə və arbitrlərə etirazı şərh etmək imkanını verməlidir.
4.Etiraz barədə son qərar İnstitut tərəfindən qəbul edilir. İnstitut arbitrin ixtisasından məhrum edilməli olduğunu müəyyən etdikdə, arbitri tutduğu vəzifədən azad edir.

**Maddə 19. Arbitrin səlahiyyətlərinə xitam verilməsi**

1.Arbitrin öz səlahiyyətlərini icra etməyə faktiki imkanları olmadıqda, yaxud öz funksiyalarını lazımi şəkildə yerinə yetirmədikdə, İnstitut arbitri tutduğu vəzifədən azad edir.
2.İnstitut arbitri öz vəzifəsindən azad etməzdən əvvəl, tərəflərin və digər arbitrlərin rəyini soruşmağa borcludur.

## ARBİTRAJ TƏRKİBİNİN İŞ ÜZRƏ HƏYATA KEÇİRDİYİ İCRAAT

**Maddə 20. Arbitraj tərkibinin müəyyən etdiyi prosedur qaydaları**

1.Arbitraj tərkibi araşdırmanın aparılması qaydalarını arbitraj sazişinin və mövcud Reqlamentin müəyyən etdiyi şərtləri və tərəflərin istəklərini nəzərə almaqla müəyyən edir.
2.Arbitraj tərkibi sədrə prosedur məsələləri barədə müstəqil qərar qəbul etmək səlahiyyəti verə bilər.
3.Arbitraj tərkibi araşdırmanın konfidensiallığını təmin etməyə və işi

qərəzsiz, qənaətçiliklə və ləngitmədən, tərəflərin hər birinə öz mövqeyini kifayət qədər şərh etmək imkanını verməklə aparmağa borcludur.

4.Arbitraj tərkibi tərəflərlə məsləhətləşdikdən sonra dinləmələrin aparılacağı yeri, arbitraj araşdırması nəzərdə tutulan yerdən başqa yerə təyin edə bilər.

5.Arbitraj tərkibinin göndərdiyi bildirişlərə 12-ci maddədə göstərilən qaydalar tətbiq olunur.

**Maddə 21. İddia ərizəsi və iddia üzrə etirazlar**

1.Arbitraj tərkibinin müəyyən etdiyi müddət ərzində, iddiaçı iddia ərizəsini təqdim edir və əgər ərizədəki məlumatlar əvvəllər göstərilməyibsə, aşağıdakıları əhatə etməlidir:

I) Konkret tələblərin şərh edilməsi və onların məbləğləri;

II) iddiaçının öz tələblərini əsaslandırdığı əsas faktların və halların şərhi; və

III) iddiaçının öz tələblərini əsaslandırmaq istədiyi sübutların ilkin siyahısı.

2.Arbitraj tərkibinin müəyyən etdiyi müddətdə cavabdeh iddia üzrə etirazını təqdim edir və əgər etirazdakı məlumatlar əvvəldən işdə göstərilməyibsə, aşağıdakıları əhatə etməlidir:

I) cavabdeh iddiaçının tələblərini qəbul edirmi və hansı dərəcədə qəbul və ya inkar etdiyini bəyan etməlidir;

II) cavabdehin öz mövqeyini əsaslandırdığı əsas faktların və halların təfsiri;

III) müvafiq əsaslarla qarşılıqlı iddia, yaxud yoxlama barədə tələb; və

IV) cavabdehin öz mövqeyini əsaslandırmaq istədiyi sübutların ilkin siyahısı;

3.Arbitraj tərkibi tərəflərin üzərinə əlavə yazılı izahat təqdim etmək vəzifəsini qoya bilər.

**Maddə 22. İddiaya əlavə, yaxud iddia üzrə etiraz**

1.İş üzrə icraatın gedişində tərəflərin hər biri öz iddiasını dəyişə, yaxud iddia üzrə aşağıdakı şərtlərlə etiraz verə bilər: dəyişdirilmiş tələb əvvəlkitək arbitraj sazişinə aid olsun; yalnız arbitraj heyətinin bu

dəyişilmənin, ərizənin verildiyi vaxt nəzərə alınmaqla, qarşı tərəfə ziyan vura biləcəyini yaxud digər amilləri nəzərə almaqla məqsədyönlü hesab etmədiyi hallardan başqa.
2.10-cu maddənin qaydaları, əvvəlki bəndin tətbiqinə, tərəflərin qarşılıqlı iddia, yaxud yoxlama barədə tələb vermək hüququna mane olmur.

**Maddə 23. Araşdırmanın dili**

Tərəflər iş üzrə icraatın aparılacağı dili, yaxud dilləri arbitraj sazişində razılaşdırmayıblarsa, arbitraj tərkibi tərəflərlə məsləhətləşdikdən sonra bu məsələ barədə qərar qəbul edə bilər.

**Maddə 24. Tətbiq olunan hüquq**

1.Arbitraj tərkibi mübahisələri mahiyyəti üzrə tərəflərlə razılaşdırılmış hüquq normaları və ya qanun əsasında həll edir. Belə razılaşma olmadıqda, arbitraj tərkibi daha müvafiq hesab etdiyi qanunu və ya hüquq normalarını tətbiq edir.
2.Tərəflərin müəyyən dövlətin qanunvericiliyinə istənilən istinadı bu dövlətin kollizion normalarına deyil, bilavasitə maddi hüququna istinad kimi izah edilməlidir.
3.Arbitraj tərkibi, mübahisəni ədalətlə (*ex aequo et bono*), yaxud əgər tərəflər ona səlahiyyət verərsə, barışdırıcı vasitəçi (*amiable compositeur*) qismində həll edir.

**Maddə 25. Şifahi dinləmə**

1.Şifahi dinləmə tərəflərdən birinin xahişi ilə, eləcə də arbitraj tərkibi şifahi dinləməni məqsədyönlü hesab etdikdə aparılır. Əgər dinləmə təyin edilmişsə, arbitraj tərkibi, tərəflərin arzusunu nəzərə alaraq dinləmənin vaxtını, onun davamlığını və sübutların təqdim edilməsi də daxil olmaqla, keçirilmə qaydasını təyin edir.
2.Araşdırmanın gedişində arbitr dəyişdirildikdə, yenidən formalaşdırılan arbitraj tərkibi, əvvəlki dinləmənin təkrar olunması məsələsini, eləcə də lazım gələrsə, dinləmənin qismən, yaxud tamamilə təzələnməsini həll edir.

**Maddə 26. Sübutlar**

1.Arbitraj tərkibinin xahişi ilə tərəflər sübutların hər biri ilə təsdiq etmək istədikləri halları göstərməklə istinad etdikləri sübutları, həmçinin, istinad etdikləri sənədləri təqdim edirlər.
2.Arbitraj tərkibi təqdim olunmuş sübutların işə aidiyyəti olmadığını, əhəmiyyətsizliyini, yaxud sübutun digər daha əlverişli və ya qənaətli vasitələrlə edilə bilməsinin mümkünlüyünü hesab edərsə, ona təqdim olunmuş sübutları qəbul etməyə bilər.

**Maddə 27. Ekspertlər**

1.Tərəflər arasında başqa razılaşma olmadıqda, arbitraj tərkibi konkret məsələyə görə məruzə etmək üçün bir, yaxud bir neçə ekspert təyin edə bilər.
2.Tərəflərdən hər birinə, onun xahişi ilə, hər bir belə ekspertə sual vermək imkanı yaradılmalıdır.

**Maddə 28. Tərəflərin iclasa gəlməməsi**

Tərəflərdən hər hansı biri üzrsüz səbəblərdən dinləməyə gəlmədikdə, yaxud başqa bir şəkildə arbitraj tərkibinin müəyyən etdiyi qaydaya əməl etmədikdə, belə hallar arbitraj tərkibinin işə baxmasına və qərar çıxarmasına mane olmur.

**Maddə 29. Prosedurun rədd edilməsinə istinad edilmədən imtina**

Araşdırmanın gedişində, qənaətbəxş zaman kəsiyində, tərəflərdən hər hansı biri arbitraj sazişinin qaydalarından, mövcud Reqlamentdən, yaxud işə baxılması üçün tətbiq olunan digər prosessual qaydalardan kənara çıxmalar barədə etirazını bildirmədikdə həmin tərəf prosedur qaydaların dəyişdirilməsi hüququndan imtina etmiş sayılır.

**Maddə 30. Səsvermə**

Səsvermə zamanı daha çox səs almış rəy həlledici olur. Səs çoxluğu əldə edilmədikdə, tərəflərin digər razılaşması olmazsa, sədrin rəyi həlledici hesab olunur.

**Maddə 31. Təmin edici tədbirlər**

1.Əgər tərəflərin digər razılaşması yoxdursa, iş üzrə icraatın gedişində arbitraj tərkibi, tərəflərdən birinin tələbi ilə, arbitraj tərkibinin baxacağı iddianın təmin edilməsi məqsədilə qarşı tərəfin müəyyən tədbirlər görməsini tələb edə bilər. Arbitraj tərkibi həmin tərəfdən belə tədbirlərin nəticəsində qarşı tərəfin məruz qala biləcəyi zərərin ağlabatan məbləğdə təmin olunmasını tələb edə bilər.
2.Tərəfin təminedici tədbir görülməsi xahişi ilə məhkəmə orqanına müraciət etməsi, arbitraj sazişi, yaxud mövcud Reqlamentə əsasən yolverilməz hesab olunur.

## ARBİTRAJ QƏTNAMƏSİ

**Maddə 32. Arbitraj qətnaməsi**

1.Arbitraj qərarı arbitraj araşdırması keçirilən yerdə çıxarılır. Sənəddə onun çıxarıldığı tarix, qətnamə və ya qərar olması, onların əsaslandırıldığı motivlər, həmçinin, arbitrlərin imzası olmalıdır. Arbitrlərdən birinin imzası olmadıqda, arbitraj qərarı o şərtlə çıxarılır ki, qərara arbitrlərin əksəriyyəti imza atmış olur və qərarda imzası olmayan arbitrin mübahisənin həll edilməsində iştirak etməsi təsdiqlənir.
2.Arbitrlərdən biri üzrsüz səbəblərdən, arbitraj tərkibinin hər hansı bir məsələ barədə müzakirəsində iştirak etmirsə, bu hal digər arbitrlərin qərar qəbul etməsinə mane olmur.
3.Tərəflər, arbitraj qərarını yalnız arbitraj tərkibinin sədrinin imzalayacağı barədə razılaşa bilərlər.
4.Arbitrin xüsusi rəyi olduqda, o, arbitraj qərarına əlavə edilir.
5.Arbitraj araşdırmalarının gedişində tərəflər mübahisəni həll edirlərsə, arbitraj tərkibi, tərəflərin xahişi ilə razılaşdırılmış şərtlərlə barışıq sazişini arbitraj qərarı şəklində rəsmiləşdirir.
6.39-cu maddəyə uyğun olmaqla arbitraj xərcləri və onların tərəflərin arasında bölüşdürülməsi arbitraj qətnaməsi ilə, yaxud arbitraj araşdırmasına yekun vuran digər qərarla rəsmiləşdirilir. Arbitraj qərarı həmçinin, yalnız xərclərə aid də çıxarıla bilər.
7.Arbitraj tərkibi arbitraj qərarını tərəflərə təcili göndərməyə borcludur.

**Maddə 33. Arbitraj qətnaməsinin çıxarılması üçün müddət**

Arbitraj qətnaməsi işin arbitraj tərkibinə verildiyi gündən altı aydan gec olmayaraq çıxarılmalıdır. İnstitut arbitraj qətnaməsinin çıxarılma müddətini uzada bilər.

**Maddə 34. Ayrıca arbitraj qərarı**

1. Tərəflərdən birinin xahişi ilə ayrıca götürülmüş məsələyə görə, yaxud mübahisə predmetinin bir qisminə aid ayrıca arbitraj qərarı çıxarıla bilər.

2. Tərəflərdən biri iddianı qismən qəbul etdikdə, arbitraj tərkibi belə etirafa əsaslanan ayrıca arbitraj qərarı çıxara bilər.

**Maddə 35. Arbitraj qərarının çıxarılmasını tələb etmək hüququ**

1. Tərəflərdən biri iddianı geri götürdükdə, digər tərəf arbitraj tərkibindən bu iddiaya görə qərar çıxarılmasını tələb etmədikdə arbitraj tərkibi mübahisənin bu hissəsinə görə icraatı dayandırır.

2. Xərclərin ödənməsi üçün avansı hələ verməmiş tərəf, arbitraj tərkibindən geri götürülmüş iddiaya görə arbitraj qərarının çıxarılmasını xahiş etdikdə, İnstitut belə qərarın çıxarılması şərti kimi xahiş edən tərəfdən xərclərin bağlanması üçün avansın ödənməsini tələb edə bilər.

**Maddə 36. Arbitraj qətnaməsinin xarakteri**

Arbitraj qətnaməsi qətidir və çıxarıldığı andan məcburidir.

**Maddə 37. Arbitraj qətnaməsinə düzəliş və əlavə arbitraj qətnaməsinin çıxarılması**

1. Arbitraj qətnaməsindəki hesablamalarda istənilən aşkar səhvlər, yaxud çap səhvi arbitraj tərkibi tərəfindən düzəldilməlidir.

2. Tərəflərdən biri arbitraj qətnaməsini aldıqdan sonra 30 gün ərzində lazımi vəsatət verərsə, arbitraj tərkibi öz həllini tapmalı olan, lakin

arbitraj qətnaməsində ehtiva olunmayan məsələ barəsində qərar çıxarmalıdır.

3. Tərəflərdən biri arbitraj qətnaməsini aldıqdan sonra 30 gün ərzində lazımi vəsatət verərsə, arbitraj tərkibi qətnamənin yazılı izahını verə bilər.

4. Bu maddənin 2-ci və 3-cü bəndlərinə uyğun hər hansı bir qərar qəbul edilməzdən əvvəl arbitraj tərkibi tərəflərin rəyini aydınlaşdırmalıdır.

**Maddə 38. Arbitraj qərarlarının saxlanması**

Arbitraj araşdırması bitdikdən sonra arbitraj tərkibi iş üzrə çıxarılmış bütün arbitraj qətnamələrinin və yazılı qərarların, eləcə də onlara aid bütün protokolların bir nüsxəsini İnstituta təqdim etməlidir.

Yuxarıda göstərilən sənədlər İnstitut tərəfindən saxlanmalıdır.

## ARBİTRAJ XƏRCLƏRİ

**Maddə 39. Arbitraj xərcləri**

1.Arbitraj xərclərinə aşağıdakılar daxildir:

I) Arbitrlərin qonorarları;

II) İnstitutun inzibati rüsumu;

III) İşə baxılmasının gedişində arbitrlərin və İnstitutun meydana çıxan xərclərini ödəmək üçün kompensasiya;

IV) Reqlamentin 27-ci maddəsinə müvafiq olaraq, İnstitutun təyin etdiyi bütün ekspertlərin xərclərinin kompensasiyası və qonorarları.

2.(I)–(III) bəndlərində göstərilən xərclərin yekun məbləği İnstitut tərəfindən arbitraj icraatının başlandığı vaxt üçün qüvvədə olan arbitraj xərcləri və rüsumları haqda Əsasnaməyə uyğun olaraq təyin edilir, (IV) bəndində göstərilən yekun məbləği isə arbitraj tərkibi müəyyənləşdirir.

**Maddə 40. Arbitraj xərclərinin ödənməsi**

1. Tərəflər 39-cu maddədə göstərilən bütün xərclərin ödənməsində tam bərabər məsuliyyət daşıyırlar.

2. Arbitraj tərkibi arbitraj araşdırmalarının xərclərinin tərəflər arasında bölünməsi barədə qərarı işin nəticəsindən və digər hallardan asılı olaraq çıxarır.

**Maddə 41. Tərəflərin çəkdiyi xərclər**

Tərəflərin digər razılaşması yoxdursa, arbitraj tərkibi tərəflərdən birinin xahişi ilə arbitraj araşdırmasını sona çatdıran arbitraj qətnaməsində, yaxud digər qərarda, digər tərəfin işin aparılmasında hüquqşünasların xidməti və sair xərclərini ödəməyi uduzan tərəfin öhdəsinə qoya bilər.

## MƏSULİYYƏTDƏN AZAD OLUNMA

**Maddə 42. Məsuliyyətdən azad olunma**

İnstitut tərəflərin qarşısında arbitraj araşdırmaları ilə bağlı hər hansı bir fəaliyyətə və ya fəaliyyətsizliyə görə məsuliyyət daşımır, bir şərtlə ki, belə fəaliyyətə və ya fəaliyyətsizliyə İnstitutun kobud səhlənkarlığı səbəb olmamalıdır. Əgər sübut olunarsa ki, belə fəaliyyət və ya fəaliyyətsizlik hər hansı bir arbitrin qəsdi və ya kobud səhlənkarlığı sayəsində yaranmışdır, onda o, buna məsuliyyət daşıyır.

## QÜVVƏYƏ MİNMƏ

Mövcud Reqlament 1 aprel 1999-cu ildən qüvvəyə minmişdir və Stokholm Ticarət Palatasının Arbitraj İnstitutunun əvvəlki Reqlamentini əvəz edir. Tərəflərin digər razılaşması yoxdursa, mövcud Reqlament 1 aprel 1999-cu ildən baxılmaq üçün qəbul olunmuş istənilən mübahisəyə tətbiq edilə bilər.

# III. ƏLAVƏ

# ƏLAVƏ ARBİTRAJ XƏRCLƏRİ VƏ RÜSUMLARI BARƏDƏ ƏSASNAMƏ

## 1. QEYDİYYAT RÜSUMU

Stokholm Ticarət Palatası Arbitraj İnstitutu Reqlamentinin (bundan sonra «Reqlament») 6-cı maddəsində nəzərdə tutulmuş qeydiyyat rüsumu 1000 Avro müəyyən edilmişdir.

Qeydiyyat rüsumu İnstituta III bölmənin 2-ci maddəsinə uyğun ödəniləcək inzibati xərclərin tərkib hissəsi olmaqla geri qaytarılmır və Reqlamentin 14-cü maddəsinə müvafiq olaraq iddiaçının xərclərin bağlanması üçün ödədiyi ilkin məbləğdən (avansdan) çıxılır.

## 2. ARBİTRAJ XƏRCLƏRİNİN ÖDƏNMƏSİ ÜÇÜN AVANS

Reqlamentin 13-cü maddəsinə uyğun olaraq, İnstitut arbitraj xərclərini bağlamaq üçün, faizləri də nəzərə almaqla avansın məbləğini müəyyən edir. Məbləğ elə hesablanır ki, Reqlamentin 39-cu maddəsinə uyğun olmaqla, gözlənilən arbitraj xərclərini və qanunvericilikdə nəzərdə tutulmuş hallarda əlavə dəyər vergisi də daxil olmaqla bütün xərclər ödənilə bilsin. Reqlamentin 39-cu maddəsinin 1-ci bəndinin (I-III) yarımbəndlərində göstərilən məbləğ bu Əsasnaməyə uyğun olmaqla təyin edilməlidir.

## 3. ARBİTRAJ XƏRCLƏRİ

### Maddə 1. Arbitrlərin qonorarları

1. Tərəflərin digər razılaşması yoxdursa, İnstitut arbitrlərin qonorarlarının məbləği barədə mübahisənin qiymətinə əsasən və aşağıdakı cədvələ müvafiq olaraq qərar qəbul edir. Qanunvericilikdə

nəzərdə tutulan hallarda, qonorar məbləğinə əlavə dəyər vergisi əlavə olunur.

2. Mübahisənin qiymətini hesablamaq məqsədi ilə iddianın dəyərinə qarşılıqlı iddianın, yaxud yoxlama tələblərinin dəyəri, faizlərin ödənməsi tələbi istisna olmaqla, əlavə edilir. Mübahisənin dəyəri təyin edilməyən hallarda, İnstitut onu işin həcminin qiymətləndirilməsinə əsaslanaraq təyin edir. Tərəflərin hər biri, belə qiymətləndirməni aparmaq üçün İnstituta lazım olan məlumatları təqdim etməyə borcludur.

3. Araşdırılan işdə adi hallardan kifayət qədər çox və ya az iş görüldükdə, cədvəldə göstərilən məbləğdən kənara çıxmalar mümkündür.

4. İnstitut işdəki xüsusi hallara əsaslanaraq, başqa cür qərar çıxarmadıqda, arbitrlərin hər birinin qonorarı arbitraj tərkibi sədrinin qonorarının 60%-i qədər hesablanır.

**Maddə 2. İnstitutun inzibati yığımı**

1. Ona çatacaq inzibati yığımın miqdarını İnstitut təyin edir. Qərar mübahisənin aşağıdakı cədvələ uyğun məbləği nəzərə alınmaqla qəbul edilir. Qanunda nəzərdə tutulan hallarda inzibati xərclərə əlavə dəyər vergisi əlavə edilir.

2. Mübahisənin qiymətini hesablamaq məqsədi ilə iddianın dəyərinə, qarşı tərəfin iddiasının, yaxud yoxlama tələblərinin dəyəri, faizlərin ödənməsi tələbi istisna olmaqla əlavə edilir. Mübahisənin dəyəri göstərilmədikdə İnstitut inzibati yığımın məbləğini işin həcmini nəzərə almaqla təyin edir. Tərəflərdən hər biri belə hesablamanı aparmaq üçün İnstituta lazım olan məlumatları təqdim etməyə borcludur.

3. Araşdırılacaq işdə adi hallardan kifayət qədər çox və ya az iş görüldükdə, cədvəldə göstərilən məbləğdən kənara çıxmalar mümkündür.

**Maddə 3. Xərclər**

Arbitrlərə ödənilən qonorarlara və İnstitut inzibati yığımlarına əlavə olaraq, İnstitut arbitrlərin və İnstitutun əlavə xərclərini bağlamaq

üçün zəruri məbləği müəyyənləşdirir; həmin məbləği tərəflər ödəməlidir.

## IV. QÜVVƏYƏ MİNMƏ

**Bu Əsasnamə 1 aprel 1999-cu ildən qüvvəyə minir və əvvəlki Əsasnaməni əvəz edir.**

**Bu Əsasnamə 1 aprel 1999-cu ildən baxılmaq üçün qəbul olunmuş istənilən işə tətbiq olunur.**

## ARBİTRLƏRİN QONORARLARI

| Mübahisənin qiyməti (avro) | Arbitraj tərkibinin Sədri təkbaşına arbitr (avro) | |
|---|---|---|
| | Minimum | Maksimum |
| 25 000-ə qədər | 2 500 | 5 000 |
| 25 001-dən 50 000-ə qədər | 2 500+2% məbləğdən 25 000 yuxarı | 5 000+10% məbləğdən 25 000 yuxarı |
| 50 001 dən 100 000 qədər | 3 000 +1% məbləğdən 50 000 yuxarı | 7 500 + 5% məbləğdən 50 000 yuxarı |
| 100 001 dən 500 000 qədər | 4000+1% məbləğdən 100 000 yuxarı | 10 000 + 3% məbləğdən 100 000 yuxarı |
| 500 001 dən 1000 000 qədər | 8 000 + 0,8% məbləğdən 500 000 yuxarı | 22 000 + 2,4% məbləğdən 500 000 yuxarı |
| 1 000 001 dən 2 000 000 qədər | 12 000 + 0,5% məbləğdən 1 000 000 yuxarı | 34 000+2% məbləğdən 1 000 000 yuxarı |
| 2 000 001 dən 5 000 000 qədər | 17 000 + 0,2% məbləğdən 2 000 000 yuxarı | 54 000+1% məbləğdən 2 000 000 yuxarı |
| 5 000 001 dən 10 000 000 qədər | 23 000+0,1% məbləğdən 5 000 000 yuxarı | 84 000 + 0,52% məbləğdən 5 000 000 yuxarı |

| | | |
|---|---|---|
| 10 000 001 dən<br>50 000 000 qədər | 28 000 + 0,03% məbləğdən<br>10 000 000 yuxarı | 110 000+0,1% məbləğdən<br>10 000 000 yuxarı |
| 50 000 001 dən<br>75 000 000 qədər | 40 000 + 0,02% məbləğdən<br>50 000 000 yuxarı | 150 000 + 0,08% məbləğdən<br>50 000 00 yuxarı |
| 75 000 001 dən<br>100 000 000 qədər | 45 000 + 0,012%<br>məbləğdən<br>75 000 000 yuxarı | 170 000 + 0,048%<br>məbləğdən<br>75 000 000 yuxarı |
| 100 000 001 dən | 48 000+0,01% məbləğdən<br>100 000 000 yuxarı | 182 000+0,045% məbləğdən<br>100 000 000 yuxarı |

## İNSTİTUTUN İNZİBATİ YIĞIMI

| Mübahisənin qiyməti (avro) | İnstitutun inzibati yığımı (avro) |
|---|---|
| 25 000 dən | 1 000 |
| 25 001 dən 50 000 qədər | 1 000 + 4% məbləğdən 25 000 yuxarı |
| 50 001 dən 100 000 qədər | 2 000 + 2% məbləğdən 50 000 yuxarı |
| 100 001 dən 500 000 qədər | 3 000 + 1% məbləğdən 100 000 yuxarı |
| 500 001 dən 1 000 000 qədər | 7 000 + 0,8% məbləğdən 500 000 yuxarı |
| 1 000 001 dən 2 000 000 qədər | 11 000 + 0,3% məbləğdən 1 000 000 yuxarı |
| 2 000 001 dən 5 000 000 qədər | 14 000 + 0,1% məbləğdən 2 000 000 yuxarı |
| 5 000 001 dən 10 000 000 qədər | 17 000 + 0,06% məbləğdən 5 000 000 yuxarı |
| 10 000 001 dən 50 000 000 qədər | 20 000 + 0,02% məbləğdən 10 000 000 yuxarı |
| 50 000 001 dən 75 000 000 qədər | 28 000 + 0,01% məbləğdən 50 000 000 yuxarı |
| 75 000 001 dən | 35 500 + 0,01% məbləğdən 75 000 000 yuxarı |
| | Maksimum 60 000 |

# LONDON BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN (LBAM) R E Q L A M E N T İ

*01 yanvar 1998-ci ildə və ya 01 yanvar 1998-ci ildən sonra başlamış arbitraj araşdırmalarına tətbiq edilmək üçün qəbul olunub*

# LONDON BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN R E Q L A M E N T İ

London Beynəlxalq Arbitraj Məhkəməsinin Reqlamentinə və ya London Beynəlxalq Arbitraj Məhkəməsinə əsasən, hər hansı bir saziş, qeyd-şərt və yaxud münsif qeydi yazılı şəkildə və ya digər qaydaya əsasən arbitrajı nəzərdə tutursa, hesab edilir ki, arbitraj araşdırması mövcud Reqlamentə və ya arbitraj araşdırmasının başlanmasına qədər LBAM tərəfindən qəbul edilərək qüvvəyə minən əlavə qaydalara uyğun olaraq keçirilməlidir.

Mövcud Reqlamentə arbitraj araşdırması başlananadək qüvvəyə minmiş arbitraj xərcləri və qonorarları haqqında Əsasnamə daxildir. Bu Əsasnaməyə vaxtaşırı olaraq LBAM tərəfindən əlavələr olunur.

## Maddə 1. Arbitraj barədə xahiş

1.1. Arbitraj araşdırmasına başlamaq arzusunda olan hər hansı bir tərəf («İddiaçı») mövcud Reqlamentə uyğun olaraq LBAM-in katibinə («Katib») arbitraj barədə (aşağıdakı məlumatlar və sənədlər əlavə olunmaqla) yazılı xahiş ("Xahiş") göndərir:

a) Arbitrajın tərəflərinin və onların hüquqi nümayəndələrinin (məlum olan) adları, ünvanları, telefon, faks, teleks və elektron poçtun nömrələri;
b) İddiaçının istinad etdiyi yazılı arbitraj qeyd-şərtinin və ya ayrıca yazılı arbitraj sazişinin («Arbitraj sazişi») surəti və arbitraj qeyd-şərtinin, yaxud arbitraj araşdırmasının yarandığı müqavilə üzrə sənədlərin surəti;
c) Mübahisənin predmetini əhatə edən halların mahiyyəti və məzmununun qısa ifadəsi və iddiaçının arbitraj araşdırmasının digər tərəfinə («Cavabdeh») qarşı irəli sürdüyü konkret tələb;
d) Tərəflərin arbitraj araşdırması məqsədilə yazılı şəkildə razılaşdırdıqları və ya iddiaçının təklif vermək istədiyi məsələlər üzrə (məsələn, arbitraj araşdırmasının yeri və dili; arbitrlərin sayı və ya onların ixtisas səviyyəsi, yaxud onların eyniləşdirilməsi (identifikasiyası)) məlumatlar;
e) Arbitrlərin namizədliyinin irəli sürülməsi tərəflərin sazişində nəzərdə tutulduğu hallarda iddiaçı tərəfindən irəli sürülən arbitrliyə namizədin tam adı, ünvanı, telefon, faks, teleks və elektron poçtun nömrəsi (əgər məlumdursa);
f) Arbitraj xərcləri haqqında Əsasnamə ilə nəzərdə tutulmuş rüsum (bunsuz Xahiş katib tərəfindən alınmamış hesab ediləcək və arbitraj araşdırması başlanmamış hesab ediləcək);

g) Arbitraj haqqında xahişin surətlərinin (əlavə edilmiş bütün sənədlərlə birgə) arbitraj araşdırmasının bütün tərəflərinə eyni zamanda bir və ya bir neçə rabitə vasitəsilə çatdırıldığının və ya çatdırılmasının katib tərəfindən təsdiq edilməsi;
1.2. Katib tərəfindən arbitraj barədə xahişin alınması tarixi hər hansı bir məqsəd üçün arbitraj araşdırmasının başlanması tarixi hesab edilir. Arbitraj araşdırması üçün bir hakim təyin edildikdə arbitraj barədə xahiş (əlavə edilmiş sənədlər daxil olmaqla) iki nüsxədən, tərəflərin razılığına və ya iddiaçının xahişinə əsasən üç hakimin təyin edildiyi hallarda isə dörd nüsxədən ibarət olmalıdır.

## Maddə 2. Cavabdehin rəyi

1. Arbitraj barədə xahişi aldıqdan sonra 30 gün (və ya LBAM tərəfindən müəyyən edilmiş daha az müddət) ərzində cavabdeh katibə yazılı şəkildə aşağıda göstərilənləri özündə əks etdirən rəy ("Rəy") göndərməlidir:
a) İddiaçının arbitraj barədə ərizəsində irəli sürdüyü tələblərin hamısının və ya bir hissəsinin təsdiq və ya inkar edilməsi;

b) Cavabdeh tərəfindən iddiaçıya qarşı irəli sürülmüş istənilən qarşılıqlı tələblərin halları, şəraiti və predmetinin qısa məzmunu;
c) 1.1-ci maddənin (d) bəndində nəzərdə tutulan arbitraj araşdırmasının aparılmasına aid olan məsələlər üzrə arbitraj xahişində qeyd olunan hər bir tələbə qarşı şərhin verilməsi;
d) arbitraj sazişində arbitrlərin namizədliyini tərəflərin irəli sürməsi nəzərdə tutulduğu halda cavabdehin təklif etdiyi namizədin tam adı, ünvanı, telefon, faks, teleks və elektron poçt nömrələri (əgər məlumdursa);
e) cavab rəyinin arbitraj araşdırmasının bütün tərəflərinə eyni zamanda təqdim olunduğunu katibin təsdiq etməsi;
2.2. Rəy iki nüsxədə, yaxud tərəflərin razılaşması və ya cavabdehin təklifi ilə üç arbitr təyin edilməlidirsə, dörd nüsxədə təqdim olunmalıdır.
2.3. Rəyin göndərilməməsi arbitraj araşdırması prosesində cavabdehi hər hansı tələbi rədd etmək və ya qarşılıqlı iddia irəli sürmək hüququndan məhrum etmir. Lakin arbitraj sazişi arbitrlərin namizədliyini tərəflərin irəli sürməsini nəzərdə tutduğu halda, rəyin göndərilməməsi və ya namizədin irəli sürülməməsi (yaxud müəyyən olunmuş müddət ərzində

irəli sürülməməsi) cavabdehin arbitrin namizədliyini irəli sürməsi imkanından imtinası kimi başa düşülməlidir.

**Maddə 3. LBAM və məhkəmənin katibi**

3.1. LBAM-in mövcud Reqlamentlə nəzərdə tutulmuş funksiyaları onun adından prezident və ya vitse-prezident tərəfindən; yaxud prezidentin göstərişinə əsasən, prezident və ya vitse-prezident tərəfindən LBAM-in üç və ya beş üzvündən ibarət tərkibdə təyin olunan kollegiya tərəfindən yerinə yetirilir.
3.2. Katibin mövcud Reqlamentlə nəzərdə tutulmuş funksiyalarını LBAM-in müşahidəsi altında katib və ya katibin müavini yerinə yetirir.
3. Tərəflərdən hər hansı birinin LBAM-ə göndərdikləri bütün məlumatlar katibə təqdim edilməlidir.

**Maddə 4. Bildiriş və müddətlər**

4.1. Mövcud Reqlamentə uyğun olaraq bir tərəfin digər tərəfə verməyə borclu olduğu hər hansı bildiriş və digər məlumatlar yazılı şəkildə olmalı və sifarişli məktubla, və ya kuryer xidməti ilə çatdırılmalı, yaxud faks, teleks, elektron poçt və ya belə ötürmənin qeydiyyatını təmin edən digər telekommunikasiya vasitəsi ilə təqdim edilməlidir.
4.2. Tərəfin kommersiya müəssisəsinin məlum olan sonuncu yeri arbitraj araşdırması zamanı həmin tərəfin digər tərəflərə, arbitraj tərkibinə və katibinə ünvanının dəyişməsi barədə hər hansı bir məlumatın olmadığı təqdirdə, hər hansı bildiriş və ya digər məlumat üçün həqiqi ünvan hesab edilməlidir.
4.3. Bildirişin və ya sair məlumatın çatdırıldığı, yaxud 4-cü maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq digər telekommunikasiya vasitələri ilə ötürüldüyü gün bildirişin və ya sair məlumatın tarixinin və sonuncu müddətin müəyyən edilməsi günü hesab edilir.
4.4. Bildiriş və ya sair məlumat bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq sonuncu müddətin bitməsinədək və ya bitdiyi gün göndərilmişdirsə, bildiriş və ya sair məlumat göndərilmiş, çatdırılmış və ya verilmiş hesab edilir.
4.5. Yuxarıda qeyd olunanlara baxmayaraq, hər bir bildiriş və ya sair məlumat tərəflərin yazılı şəkildə razılaşdırdıqları formada və ya belə razılaşmanın olmadığı halda, onların əvvəlki işgüzar münasibətlərində

yaranmış təcrübəyə əsasən, yaxud arbitraj tərkibi tərəfindən müəyyən edilmiş digər qaydaya əsasən göndərilə bilər.

4.6. Bu Reqlamentə əsasən sonuncu müddətin hesablanması bildirişin və ya sair məlumatın alındığı günün sonrakı günündən başlanır. Əgər müddətin sonu bildirişin çatacağı ünvanda və ya həmin tərəfin müəssisəsinin yerləşdiyi yerdə rəsmi bayram və ya qeyri-iş gününə düşürsə, belə halda müddət sonrakı birinci iş gününə qədər uzadılır. Müddətə daxil olan rəsmi bayramlar və qeyri-iş günləri müddət hesablanarkən ümumi hesaba daxil edilir.

4.7. Bu Reqlamentdə və ya arbitraj sazişinə uyğun olaraq tərəflərdən birinin digər tərəfə hər hansı bildiriş və ya məlumat verməsi də daxil olmaqla arbitraj araşdırmasının müddətini arbitraj tərkibi, hətta müddət qurtardıqda belə, istənilən vaxt uzada və ya qısalda bilər.

## Maddə 5. Arbitraj tərkibinin formalaşdırılması

5.1. Mövcud Reqlamentdə «arbitraj tərkibi» termini bir arbitri və ya sayı birdən çox olan bütün arbitrləri əhatə edir. Arbitr dedikdə, kişi və qadın cinsindən olan şəxslər başa düşülür. (LBAM-in prezidenti, vitse-prezidenti və üzvləri, katib və ya katibin müavini, ekspertlər, şahidlər, tərəflər və hüquqi nümayəndəliklərə münasibətdə də yuxarıda göstərilənlər başa düşülməlidir.)

5.2. Arbitraj araşdırmasını aparan bütün arbitrlər bu Reqlamentə uyğun olaraq, arbitraj araşdırması zamanı qərəzsiz və müstəqil olmalıdırlar; onlardan heç biri arbitraj prosesində hər hansı bir tərəf üçün vəkil kimi fəaliyyət göstərməməlidir. Heç bir arbitr təyin edilməzdən əvvəl və ya təyin edildikdən sonra heç bir halda mahiyyəti üzrə və ya mübahisənin nəticələri ilə bağlı hər hansı bir tərəfə şərh verməməlidir.

5.3. LBAM-ə təyin olunmamışdan əvvəl hər bir arbitr özünün əvvəlki və hazırkı ixtisas səviyyəsi barədə yazılı xülasəni katibə təqdim etməlidir. Bu xülasədə o, arbitraj xərcləri haqqında əsasnaməyə uyğun olan qonorarların məbləği ilə razılaşdığını bildirməlidir. O, özünün qərəzsizliyinə və müstəqilliyinə şübhə yaradacaq halların mövcud olmadığı və belə halların deklarasiyanı imzaladığı andan sonra və arbitraj araşdırması başa çatanadək yaranacağı təqdirdə, arbitraj tərkibinin bütün iştirakçılarına və mübahisənin bütün tərəflərinə dərhal məlumat verəcəyi barədə deklarasiyanı imzalamalıdır.

5.4. LBAM arbitraj tərkibini cavabdehin rəyi alındıqdan sonra və ya cavabdehin rəyinin katibə təqdim edilmədiyi halda, iddiaçının arbitraj

barədə ərizəsinin cavabdehə təqdim edilməsindən 30 gün sonra (mümkün qədər tez) təyin edir (arbitraj tərkibi tərəfindən daha qısa müddət müəyyən oluna bilər). LBAM arbitraj haqqında xahişin tam və ya qismən olmadığı, yaxud xahişə cavab olmadığı hallarda arbitraj tərkibinin formalaşdırılmasını həyata keçirə bilər. Tərəflər arasında yazılı şəkildə digər hal razılaşdırılmadığı və ya LBAM işin bütün hallarını nəzərə alaraq üç arbitrdən ibarət tərkibin məqsədəuyğun olmaması barədə qərara gəldiyi hallarda işə təkbaşına baxan arbitr təyin edilir.

5.5. Arbitrlərin təyin edilməsi hüququ yalnız LBAM-ə məxsusdur. LBAM tərəflərin yazılı şəkildə razılaşdırdıqları hər bir nəzərəçarpacaq qaydaları və ya seçim meyarlarını nəzərə almaqla arbitrləri təyin edir. Arbitrlərin seçilməsi üçün əsaslar nəzərdən keçirilərkən əqdlərin mahiyyəti, mübahisənin mahiyyəti və halları, vətəndaşlıq, tərəflərin yeri və dili və mübahisə tərəflərinin sayı (ikidən çox olduqda) nəzərə alınır.

5.6. Arbitraj tərkibi 3 arbitrdən ibarət olduğu halda LBAM tərkibin sədrini təyin edir. Tərkibin sədri tərəflərin irəli sürdükləri namizədlər sırasından təyin edilə bilməz..

**Maddə 6. Arbitrlərin vətəndaşlığı**

6.1. Tərəflərin müxtəlif vətəndaşlığı olduğu halda, tərəflər arasında başqa hal barədə yazılı razılaşma olmadıqda, tək arbitr və ya arbitraj tərkibinin sədri tərəflərdən birinin vətəndaşı olduğu dövlətin vətəndaşı ola bilməz.

6.2. Tərəflərin vətəndaşlığı dedikdə, aksiyaların (payların) nəzarət zərfinin sahibləri və ya tərəflərə nəzarət edən şəxslərin vətəndaşlığı başa düşülür.

6.3. Bu maddənin məqsədləri üçün Avropa İttifaqının vətəndaşları Avropa İttifaqına daxil olan müxtəlif dövlətlərin vətəndaşları kimi nəzərdə tutulurlar.

**Maddə 7. Tərəf və arbitrlərin namizədliyinin üçüncü şəxslər tərəfindən irəli sürülməsi**

7.1. Arbitrin bir və ya bir neçə tərəf və yaxud hər hansı üçüncü şəxs tərəfindən təyin edilməsi barədə tərəflərin razılığa gəldiyi halda, bu razılıq hər bir məqsəd üçün arbitrlərin namizədliyinin irəli sürülməsi barədə yazılı saziş kimi qiymətləndirilməlidir. Belə namizəd yalnız onun 5.3-cü maddənin tələblərinə uyğun gəldiyi halda LBAM tərəfindən arbitr təyin edilə bilər.

LBAM namizədin müvafiq tələblərə uyğun gəlmədiyi, yaxud müstəqil və ya qərəzsiz olmadığını müəyyən edərsə, onun arbitr təyin olunmasından imtina edə bilər.
7.2. Arbitrin namizədliyinin cavabdehin və ya 3-cü şəxsin irəli sürməsi barədə tərəflərin razılığı olduğu halda, belə təşəbbüs edilməmişsə və ya müddət bitdikdən sonra edilmişsə, LBAM, arbitrin namizədliyinin irəli sürülmədiyini və ya müddət bitdikdən sonra irəli sürüldüyünü nəzərə almadan, arbitri təyin edə bilər. Eyni qayda ilə, arbitrin namizədliyini iddiaçının irəli sürməsi barədə tərəflərin razılığı olduğu halda arbitraj xahişində arbitrin namizədliyi göstərilməmişsə, LBAM arbitrin namizədliyinin irəli sürülmədiyini və ya müddət bitdikdən sonra irəli sürüldüyünü nəzərə almadan arbitri təyin edə bilər.

### Maddə 8. Mübahisənin üç və daha çox tərəfi

8.1. Arbitraj sazişi bütün tərəflərə arbitrlərin namizədliyini irəli sürmək hüququ verdikdə, tərəflərin sayı isə ikidən çoxdursa və onlar mübahisə edən tərəflərin arbitraj tərkibini formalaşdırarkən (iddiaçı və cavabdeh kimi), iki əks tərəfi təmsil etdiklərini yazılı şəkildə razılaşdırmayıblarsa, LBAM tərəflərin öz namizədlərini irəli sürmək imkanına əhəmiyyət vermədən arbitraj tərkibini təyin edə bilər.
8.2. Belə hallarda arbitraj sazişi bütün məqsədlər üçün LBAM tərəfindən arbitraj tərkibinin təyin edilməsi üçün yazılı razılaşma kimi qiymətləndirilməlidir.

### Maddə 9. Arbitraj tərkibinin formalaşdırılmasının sürətləndirilməsi

9.1. Xüsusilə təxirəsalınmaz hallarda arbitraj araşdırmasının başlanmasından əvvəl və ya sonra tərəflərdən hər hansı biri LBAM-ə bu Reqlamentin 10 və 11-ci maddələrinə müvafiq olaraq arbitrlərin təyin edilməsi və dəyişdirilməsi məsələləri də daxil olmaqla arbitraj tərkibinin formalaşdırılmasının sürətləndirilməsini xahiş edə bilər.
9.2. Belə müraciətin surətləri arbitraj araşdırmasının bütün tərəflərinə göndərilməklə LBAM-ə yazılı şəkildə təqdim edilir. Müraciətdə arbitraj tərkibinin təcili formalaşdırılmasının xüsusilə təxirəsalınmaz olması konkret şəkildə əsaslandırılmalıdır.

9.3. LBAM yalnız öz rəyilə arbitraj tərkibinin formalaşdırılması üçün bu Reqlamentlə nəzərdə tutulmuş, arbitraj haqqında ərizədə çatışmadığı hesab edilən hər hansı bir material və ya sənədlərin, və ya cavabın çatdırılması da daxil edilməklə, hər hansı bir müddəti ixtisar edə və ya azalda bilər. LBAM hər hansı digər müddətləri ixtisar etmək və ya azaltmaq hüququna malik deyil.

**Maddə 10. Təyin edilmiş arbitrin geri çağırılması**

10.1. Əgər: (a) hər hansı bir arbitr öz funksiyasından imtina etmək barədə arzusunu yazılı bildirişlə LBAM-ə təqdim edərsə və onun surətlərini tərəflərə və digər arbitrlərə (əgər varsa) göndərərsə; və ya (b) hər hansı bir arbitr ölərsə, ağır xəstələnərsə, təyinatdan imtina edərsə və yaxud öz funksiyalarını yerinə yetirmək qabiliyyətinə malik olmazsa, belə halda LBAM tərəflərin hər hansı birinin tələbi, və ya digər arbitrlərin xahişi ilə öz təyinatını geri götürə və digər arbitr təyin edə bilər. LBAM bütün hallar nəzərə alınmaqla keçmiş arbitrin xidmətlərinə (əgər belə hallar varsa) görə ödənilməli olan qonorar və xərclərin məsələsini həll etməlidir.
10.2. Əgər arbitrlərdən hər hansı biri arbitraj sazişini (mövcud Reqlament də daxil olmaqla) aşkar şəkildə pozaraq fəaliyyət göstərirsə və ya tərəflərə münasibətdə ədalətli və qərəzsiz fəaliyyət göstərmirsə və yaxud araşdırmanı lüzumsuz ləngimələr və xərclərə yol verməklə lazımi səviyyədə aparmırsa, bu hallarda belə arbitr LBAM tərəfindən yararsız kimi qiymətləndirilir.
10.3. Arbitrin qərəzsizliyi və müstəqilliyini şübhə altına alan hallar mövcud olarsa, tərəflərdən hər hansı biri onun geri çağırılması tələbi ilə çıxış edə bilər. Arbitrin namizədliyini irəli sürmüş və ya onun təyin edilməsində iştirak etmiş tərəf qeyd edilən hallar ona yalnız təyinatdan sonra məlum olduqda arbitrin geri çağırılması tələbini irəli sürə bilər.
10.4. Arbitrin geri çağırılması tələbi ilə çıxış edən tərəf arbitraj tərkibinin formalaşdırılmasından sonra 15 gün ərzində və ya (əgər gec olarsa) 10-cu maddənin 1-ci, 2-ci və yaxud 3-cü bəndlərində nəzərdə tutulmuş hər hansı bir hal ona məlum olduqdan dərhal sonra LBAM-ə, arbitraj tərkibinə və bütün digər tərəflərə arbitrin geri çağırılmasının səbəbini əsaslandıran yazılı bildiriş göndərməlidir. Etiraz edilmiş arbitr özü təyinatından imtina etmirsə və ya bütün digər tərəflər yazılı müraciəti aldıqdan sonra 15 gün müddətində etirazla razılaşmazlarsa, LBAM geri çağırılma barədə qərar qəbul edir.

**Maddə 11. Arbitrlərin namizədliyinin irəli sürülməsi və arbitrlərin əvəz edilməsi**

11.1. LBAM arbitrliyə hər hansı bir namizədliyin uyğun gəlməməsi, yaxud müstəqil və ya qərəzsiz olmaması, habelə təyin olunmuş arbitrin hər hansı bir səbəbdən əvəz edilməli olması qərarına gələrsə, belə halda LBAM arbitrlərin namizədliyinin irəli sürülməsinin ilkin prosedurunun tətbiq edilib-edilməməsi məsələsini öz mülahizəsinə əsasən həll etməlidir.
11.2. Əgər LBAM ilkin prosedurun tətbiq edilməsini qərara alarsa, 15 gün ərzində (və ya LBAM tərəfindən müəyyən edilmiş daha az müddətdə) tərəflərdən biri arbitrin namizədliyinin təkrarən irəli sürülməsi imkanından istifadə etmədiyi halda belə imkandan təkrarən istifadə edilməsi istisna edilir və LBAM yeni arbitri təyin edir.

**Maddə 12. Arbitrlər çoxluğunun arbitraj araşdırmasını davam etdirmək səlahiyyəti**

12.1. Üç arbitrdən ibarət olan arbitraj tərkibinin arbitrlərindən biri müzakirələrdən inadla imtina edirsə və ya sistematik olaraq müzakirələrdə iştirak etmirsə, digər iki arbitr bu barədə LBAM-i, digər tərəfləri və üçüncü arbitri xəbərdar etməklə, üçüncü arbitrin olmamasına baxmayaraq, (iş üzrə hər hansı bir qərar, qətnamə və ya qərardad qəbul etmək daxil olmaqla) arbitraj araşdırmasını davam etdirmək səlahiyyətinə malik olacaqlar.
12.2. Arbitraj araşdırmasını davam etdirmək zərurətini müəyyən edərkən digər iki arbitr arbitraj araşdırmasının mərhələsini, işdə iştirak etməməsinə bəraət qazandırmaq üçün üçüncü arbitrin göstərdiyi səbəbləri və baxılan mübahisənin halları üçün onların məqbul hesab etdikləri digər faktları nəzərə almalıdırlar. Bu cür halın əsaslandırılması üçüncü arbitrin iştirakı olmadan iki arbitr tərəfindən qəbul edilən hər bir qətnamədə, əmrdə və ya digər qərarda öz əksini tapmalıdır.
12.3. Digər iki arbitr üçüncü arbitrin olmadığı halda arbitraj araşdırmasını davam etdirməmək qərarına gəldikdə, onlar LBAM-ə və tərəflərə öz qərarlarını yazılı şəkildə bildirməlidir: bu halda digər iki arbitr və ya tərəflərdən hər hansı biri üçüncü arbitrə etiraz və 10-cu maddəyə müvafiq surətdə onun əvəz edilməsi barədə LBAM-ə müraciət edə bilərlər.

## Maddə 13. Tərəflərin və arbitraj tərkibinin arasında məlumatların verilməsi

13.1. Arbitraj tərkibi formalaşanadək tərəflər və arbitrlər arasında bütün məlumatlar katibin vasitəsilə verilməlidir.
13.2. Arbitraj tərkibi formalaşdıqdan sonra tribunalın tərkibi ilə tərəflər arasında məlumatın bilavasitə verilməsi barədə (eyni zamanda katibə surəti göndərilməklə) LBAM sərəncam verənədək, tərəflər və arbitraj tərkibi arasında bütün məlumatlar əvvəlki kimi, katibin vasitəsilə verilir.
13.3. Əgər katib tərəflərdən birinə arbitraj tərkibi adından məlumat göndərirsə, o, digər tərəflərə də məlumatın surətini göndərməyə borcludur. Əgər tərəflərdən biri katibə hər hansı bir məlumat (15-ci maddəyə uyğun olaraq yazılı bildirişlər və sənədlər daxil olmaqla) göndərirsə, həmin tərəf hər bir arbitr üçün surəti əlavə etməlidir, həmçinin, digər tərəflərə surətləri göndərməlidir və göndərildiyi və yaxud göndəriləcəyini yazılı şəkildə katibə təsdiq etməlidir.

## Maddə 14. Arbitraj araşdırmasının aparılması

14.1. Tərəflər arbitraj proseduru barədə razılığa gələ bilərlər və arbitraj tərkibinin ümumi qəbul edilmiş öhdəlikləri ilə razılaşdırılmaqla onlara tövsiyə edilir ki:
(I) hər bir tərəf öz sübutlarını söyləmək və öz rəqiblərinin sübutlarını dinləmək imkanı verməklə bütün tərəflərə münasibətdə ədalətli və qərəzsiz fəaliyyət göstərsinlər; və
(II) tərəflərin mübahisəsini tam şəkildə həll edən səmərəli üsulları nəzərdə tutan və lüzumsuz gecikmələri və xərcləri istisna edən arbitraj araşdırmasının hallarına müvafiq prosedur qaydalarını qəbul etsinlər.
Tərəflər arasında belə razılaşmalar yazılı şəkildə olmalı və ya tərəflərin xahişi və səlahiyyət vermələi ilə arbitraj tərkibi tərəfindən protokollaşdırılmalıdır.
14.2. Bu maddənin 1-ci bəndinə uyğun olaraq tərəflər arasında digər hallar razılaşdırılmamışsa, arbitraj tərkibi ümumi qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi məqsədilə tətbiq edilə bilən qanunla nəzərdə tutulmuş ən geniş fəaliyyət azadlığına malik olacaqdır: bütün vaxt ərzində tərəflər arbitraj araşdırmasının ədalətli, səmərəli və sürətli aparılması üçün zəruri olan hər bir şeyi etməlidirlər.

14.3. Arbitraj tərkibi üç arbitrdən ibarət olduğu halda tərkibin sədri digər iki arbitrin ilkin razılığı ilə prosedur məsələləri üzrə təkbaşına qərar çıxara bilər.

**Maddə 15. Yazılı ərizələrin və sənədlərin verilməsi**

15.1. Tərəflər 14-cü maddənin 1-ci bəndinə uyğun olaraq razılaşdırmadıqda və ya arbitraj tərkibi digər qayda müəyyən etmədikdə, arbitraj araşdırmasının yazılı mərhələsi aşağıdakı qaydada olmalıdır.
15.2. Arbitraj tərkibinin formalaşdırılması barədə katibdən bildiriş aldıqdan sonra 30 gün ərzində iddiaçı katibə iddia ərizəsini göndərərək orada faktiki halları və istinad etdiyi hüququn əsaslarını əhatəli şəkildə qeyd etməlidir, belə məsələlər arbitraj barədə ərizədə göstərilməmişdirsə, iddia tələbini bütün digər tərəflərə göndərməlidir.
15.3. İddiaçının arbitraj xahişini iddia ərizəsi kimi baxmasını qərara aldığı barədə yazılı bildiriş aldıqdan sonra 30 gün ərzində cavabdeh iddia ərizəsində və ya iddia barədə xahişdə (müvafiq halda) hansı faktiki hallar və hüquqi əsaslandırmalarla razılaşıb-razılaşmadığını, bu zaman hansı hüquqi əsaslara və digər faktiki hallara istinad etdiyini göstərməklə əhatəli şəkildə iddia üzrə etirazını katibə göndərməlidir. Bütün qarşılıqlı iddialar iddia üzrə etirazla birlikdə iddia tələblərinin iddia ərizəsində ifadə olunduğu formada təqdim edilməlidir.
15.4. İddia üzrə etirazı aldıqdan sonra 30 gün ərzində iddiaçı, qarşılıqlı iddianın olduğu təqdirdə, iddia üzrə etirazda olduğu kimi, qarşılıqlı iddiaya cavab ərizəsini katibə göndərə bilər.
15.5. Cavab ərizəsində qarşılıqlı iddia üzrə etiraz olduqda cavabdeh ərizəni aldıqdan sonra 30 gün ərzində qarşılıqlı iddiaya münasibət bildirərək onu katibə göndərməlidir.
15.6. Bu maddədə qeyd olunan bütün ərizələrə maraqlı tərəflərin istinad etdiyi və əvvəllər hər hansı bir tərəfin təqdim etmədiyi, işə aid olan hər bir nümunə və maddi sübutlar, bütün əsas sənədlərin surətləri (əgər böyük həcmlidirsə, belə halda siyahısı) əlavə edilməlidir.
15.7. Bu maddədə qeyd olunan ərizələr alındıqdan sonra arbitraj tərkibi mümkün qədər tez tərəflərin yazılı şəkildə razılaşdırdıqları və ya mövcud Reqlamentə əsasən öz səlahiyyətlərinə uyğun şəkildə prosesi başlamalıdır.
15.8. Cavabdeh iddia üzrə etiraz etmədiyi və ya iddiaçı qarşılıqlı iddia üzrə etiraz etmədiyi, yaxud tərəflərdən hər hansı biri 15-ci maddənin 2-6-cı bəndlərində nəzərdə tutulmuş qaydada öz mövqelərini bildirmək

imkanından istifadə etmədiyi hallarda da arbitraj tərkibi məhkəmə baxışını apara və qətnamə çıxara bilər.

### Maddə 16. Arbitraj araşdırmasının yeri və dinləmənin yeri

16.1. Tərəflər yazılı şəkildə arbitraj araşdırmasının yerini (və ya hüquqi ünvanını) razılaşdıra bilərlər. Tərəflər belə seçimdən istifadə etmədikdə, LBAM işin bütün hallarını öyrənənədək və tərəflərə digər yerin daha münasib olduğu barədə yazılı şərh təqdim etmək imkanı verənədək arbitraj çəkişməsinin keçirildiyi yer London şəhəri olacaqdır.
16.2. Arbitraj tərkibi iclaslarını, dinləmələri və müzakirələri özünün məqbul hesab etdiyi (öz seçiminə əsasən) hər hansı bir əlverişli coğrafi məkanda və ya LBAM-in rəsmi yeri olmayan digər bir yerdə keçirərsə, arbitraj araşdırması LBAM-in rəsmi yerində keçirilən arbitraj araşdırması hesab olunur və çıxarılan hər hansı bir qətnamə LBAM-in rəsmi yerində çıxarılmış qətnamə hesab olunacaq.
16.3. Tərəflər yazılı formada aydın şəkildə digər arbitraj qanununun tətbiq edilməsi barədə razılığa gəlməmişlərsə və belə razılıq LBAM-in rəsmi yerləşdiyi ölkənin hüququ ilə qadağan edilmədiyi halda arbitraj araşdırması zamanı tətbiq edilən hüquq LBAM-in rəsmi yerinin arbitraj qanunu olacaqdır.

### Maddə 17. Arbitraj araşdırmasının dili

17.1. Katibə verilən, katibdən gələn informasiya və arbitraj araşdırması zamanı istifadə olunan dil ingilis dili olarsa, iclaslarda iştirak etməyən və ya öz öhdəliklərinin yerinə yetirilməsindən boyun qaçıran tərəfin şikayət vermək üçün əsası olmayacağı şərtini tərəflərin yazılı şəkildə razılaşdırmadıqları təqdirdə arbitraj çəkişməsi başlanarkən istifadə olunan dil arbitraj sazişində göstərilən dil olmalıdır.
17.2. Arbitraj sazişi arbitraj araşdırmasının bir dildə aparılmayacağını nəzərdə tutduğu və arbitraj sazişi bir dildə tərtib edilmədiyi hallarda LBAM arbitraj araşdırmasının hansı dildə başlanmasını müəyyən edə bilər.
17.3. Arbitraj tərkibi formalaşdıqdan sonra və tərəflərin arbitraj araşdırmasını hansı dildə və ya dillərdə aparılacağı barədə razılıq əldə etmədikləri təqdirdə işin bütün hallarına uyğun olduğu təsdiq edilən bütün faktları və arbitraj araşdırması başlanarkən hansı dildən istifadə

olunduğunu nəzərə alaraq, arbitraj tərkibi tərəflərə yazılı şərh vermək imkanı təqdim etdikdən sonra arbitraj baxışında istifadə olunan dilin (dillərin) seçilməsi barədə qərar qəbul etməlidir.
17.4. Hər hansı bir sənəd arbitraj araşdırmasında istifadə olunan dildən (dillərdən) fərqli olan dildə tərtib edildiyi və həmin sənədə istinad edən tərəf sənədin tərcüməsini təqdim etmədiyi hallarda arbitraj tərkibi və ya LBAM (arbitraj tərkibinin hələ formalaşmadığı halda) həmin tərəfi arbitraj tərkibinin və ya LBAM-in həmin hal üçün müəyyən etdiyi qaydada tərcümə təqdim etməyə məcbur edə bilər.

**Maddə 18. Tərəflərin nümayəndəliyi**

18.1. Hər bir tərəf müvafiq iş təcrübəsinə malik olan hüquqşünas və ya hər hansı bir digər nümayəndə ilə təmsil oluna bilər.
18.2. Arbitraj tərkibi özünün müəyyən etdiyi şəkildə nümayəndəliyi sübut edən dəlillərin təqdim edilməsini istənilən vaxt hər hansı bir tərəfdən tələb edə bilər.

**Maddə 19. Dinləmələr**

19.1. Tərəflərin arbitraj araşdırmasının yalnız sənədlər əsasında aparılması barədə yazılı şəkildə razılaşdıqları hallar istisna olmaqla, hər bir tərəf öz arzusuna əsasən arbitraj tərkibi qarşısında işin mahiyyəti üzrə dinlənilmək hüququna malikdir.
19.2. Arbitraj tərkibi arbitraj baxışı üzrə hər bir iclas və dinləmələrin tarixini, vaxtını və yerini təyin edir və bu barədə tərəflərə əvvəlcədən bildiriş göndərir.
19.3. Arbitraj tərkibi xüsusi diqqətlə yanaşılması tələb olunan sualların siyahısını tərəflərə dinləmələr başlananadək təqdim edə bilər.
19.4. Tərəflər arasında digər razılaşma olmadığı və ya arbitraj tərkibi digər qərara gəlmədiyi hallarda bütün iclas və dinləmələr qapalı keçirilir.
19.5. Arbitraj tərkibi iclas və dinləmələr və ya onların bir hissəsi üçün müddətin hədlərinin müəyyənləşdirilməsi məhdudlaşdırılması sahəsində müstəsna səlahiyyətlərə malikdir.

**Maddə 20. Şahidlər**

20.1. Hər bir dinləmədən əvvəl arbitraj tərkibi tərəflərin hər birindən dəvət etmək istədiyi şahidlərin (əks sübutlar təqdim edən şahidlər də daxil olmaqla) şəxsiyyəti, habelə onların təsdiq edə biləcəyi hallar, onların məzmunu və arbitraj araşdırmasına aid olması barədə bildiriş tələb edə bilər.
20.2. Arbitraj tərkibi habelə tərəflərin materialları bir-birinə və arbitraj tərkibinə verilməsi müddətini, üsulunu və formasını müəyyən edə bilər; o, öz mülahizəsinə əsasən şahidlərin (onların işin faktiki hallarını təsdiq etməsindən, və ya şahid-ekspert olmasından asılı olmayaraq) çıxışına icazə verə və qadağan edə, yaxud məhdudlaşdıra bilər.
20.3. Arbitraj tərkibi tərəfindən digər hal müəyyənləşdirilmədikdə, tərəflər şahidlərin ifadələrini yazılı formada və ya müvafiq qaydada imzalanmış ərizə şəklində, yaxud andlı ifadəsi kimi təqdim edə bilərlər.
20.4. 14-cü maddənin 1-ci və 2-ci bəndlərinə riayət etmək şərti ilə tərəflərdən hər biri digər tərəfin ifadəsinə əsaslandığı şahidin şifahi dindirilməsi üçün arbitraj tərkibinin qarşısında ifadə verməsi barədə xahiş edə bilər. Əgər arbitraj tərkibi digər tərəfə şahidin gətirilməsi barədə tapşırıq verərsə və şahid üzrlü səbəb olmadan şifahi dinləmələrə gəlməzsə, arbitraj tərkibi şahidin yazılı ifadələrinə özünün zəruri hesab etdiyi kimi qiymət verə (və ya onları tamamilə rədd edə) bilər.
20.5. Arbitraj tərkibi qarşısında dinləmələrdə şifahi ifadə verən hər bir şahidi tərəflərdən hər biri arbitraj tərkibinin nəzarəti altında dindirə bilər. Arbitraj tərkibi şahid ifadəsinin istənilən mərhələsində suallar verə bilər.
20.6. Tətbiq olunan istənilən hüququn imperativ normalarına riayət etmək şərti ilə tərəflərdən hər birinin və ya onların nümayəndələrinin hər hansı bir şahidlə, yaxud şahid ola biləcək şəxslə söhbət etmək və ya onun şahid ifadələrini yazılı şəkildə almaq, yaxud hər hansı bir dindirmədə şahid qismində təqdim etmək hüququ vardır.
20.7. Arbitraj tərkibi qarşısında işin faktiki halları və ya ekspertiza məsələləri üzrə şahid qismində ifadə vermək istəyən hər bir fiziki şəxs, LBAM-in Reqlamentinə əsasən, arbitraj araşdırmasının tərəfidirsə, yaxud hər hansı bir tərəfin vəzifəli şəxsi olubsa və ya hazırda vəzifəli şəxsi, aksioneri və ya qulluqçusu olmasından asılı olmayaraq, şahid qismində tanınır.

## Maddə 21. Arbitraj tərkibinin təyin etdiyi ekspertlər

21.1. Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda, arbitraj tərkibi:
a) arbitraj tərkibinə konkret məsələlər üzrə rəy vermək məqsədilə qərəzsiz və tərəflərdən asılı olmayan bir və ya bir neçə ekspert təyin edə bilər;
b) işə aidiyyatı olan hər bir məlumatın ekspertə təqdim edilməsi və ya eksperti işə aidiyyatı olan hər bir sənəd, əmtəə, nümunə, əmlak və yerlə tanış etməyin təmin edilməsini tələb edə bilər.
21.2. Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda, əgər tərəflər xahiş edərsə və arbitraj tərkibi bunu zəruri hesab edərsə, ekspert özünün yazılı və ya şifahi rəyini arbitraj tərkibinə və tərəflərə təqdim etdikdən sonra rəy barəsində tərəflərin ona sual verməsi və mübahisəli məsələlər üzrə ifadələr vermək üçün ekspert-şahidlərin təqdim edilməsi məqsədilə ekspert bir və ya bir neçə dinləmələrdə iştirak etməlidir.
21.3. Bu maddəyə uyğun olaraq, arbitraj tərkibinin təyin etdiyi hər hansı bir ekspertin qonorar və məsrəfləri 24-cü maddəyə əsasən tərəflərin yaratdığı və arbitraj araşdırması xərclərinin bir hissəsini təşkil edən depozitdən ödənilir.

## Maddə 22. Arbitraj tərkibinin əlavə səlahiyyətləri

22.1. Tərəflər hər hansı müddət ərzində digər halı yazılı şəkildə razılaşdırmadığı və tətbiq olunan hüququn imperativ məhdudiyyətlərinə riayət edilməsi şərtilə arbitraj tərkibi tərəflərdən hər hansı birinin vəsatəti və ya özünün təşəbbüsü əsasında, lakin hər bir halda tərəflərə öz rəylərini bildirmək imkanı yaratmaqla aşağıdakı səlahiyyətlərə malik olacaqdır:
a) tərəflərin hər birinə özlərinin müəyyən etdiyi şərtlərlə (xərclər və sair sahəsində) iddia tələblərinin, qarşılıqlı iddiaların, iddia üzrə etirazların və cavab ərizəsinin dəyişdirilməsinə icazə verilməsi;
b) arbitraj araşdırmasının keçirilməsi məqsədi ilə arbitraj sazişi və ya mövcud Reqlamentlə, yaxud arbitraj tərkibinin öz qərarı ilə nəzərdə tutulan hər hansı bir müddətin uzadılması və ya qısaldılması;
c) hansı hallarda və nə dərəcədə işə aid olan mübahisəli məsələlərin araşdırılması və faktların müəyyən edilməsi üzrə, habelə tətbiq olunacaq hüququn və ya hüquq normasının, tərəflərin mübahisəsinin və arbitraj sazişinin mahiyyətinin araşdırılması barədə qərarlar da daxil olmaqla,

arbitraj tərkibinin zəruri və ya məqsədəuyğun hesab etdiyi təhqiqatın aparılması;
d) hər hansı bir tərəfin nəzarəti altında olan və arbitraj çəkişməsinin predmetinə aid olan hər hansı əmlaka, torpaq sahəsinə və ya əşyaya digər tərəfin, onun ekspertinin və ya arbitraj tərkibinin təyin etdiyi ekspertlərin baxış keçirməsinə şərait yaradılması öhdəliyinin tərəflərdən hər hansı birinin üzərinə qoyulması;
e) hər hansı bir tərəfin üzərinə onun sərəncamında və istifadəsində olan, arbitraj tərkibinin işə aid hesab etdiyi istənilən sənədlərin arbitraj tərkibinə və digər tərəfə tanışlıq üçün təqdim edilməsi və surətinin verilməsi öhdəliyini qoya bilər;
f) tərəflərdən birinin işin faktiki halları üzrə təqdim etdiyi işin hər hansı bir materiallarına və ya ekspertlərin rəylərinə aid olan və əhəmiyyət kəsb edən sübutetmənin və ya hər hansı digər qaydaların ciddi qaydalarının tətbiq edilib-edilməməsinin qərara alınması, tərəflərin belə materialları bir-biri ilə mübadilə etməsi və onların arbitraj tərkibinə təqdim edilməsi müddətinin qaydası və formasının təyin edilməsi;
g) arbitraj tərkibinin tərəflər üçün ümumi hesab etdiyi hər hansı səhvlərin düzəldilməsi üçün zəruri olan hədd daxilində tərəflər arasında bağlanmış hər bir müqaviləyə və ya arbitraj sazişinə düzəliş etmək, lakin müqavilədə və ya arbitraj sazişində tətbiq edilməsi nəzərdə tutulan hüququn və ya hüquq normasının imkan verdiyi hədd daxilində düzəliş etmək barədə göstərişin verilməsi;
h) üçüncü şəxs və ya vəsatət verən tərəf yazılı formada aydın şəkildə bunu razılaşdırdıqdan sonra bir və ya daha çox üçüncü şəxsi mübahisənin tərəfləri qismində arbitraj araşdırmasına cəlb etmək barədə tərəflərin vəsatətinə icazə verilməsi və bundan sonra arbitraj araşdırmasına cəlb edilmiş bütün tərəflər üçün vahid yekun arbitraj qətnaməsinin və ya ayrıca arbitraj qətnaməsinin çıxarılması.
22.2. Mövcud Reqlamentə uyğun olaraq arbitraj araşdırmasına razılıq verməklə tərəflər 22-ci maddənin 1-ci bəndinə əsasən, bütün tərəflər üçün yazılı formada olan müqavilələr istisna olmaqla, arbitraj tərkibi müddəaları hüdudunda olan qərara görə hər hansı bir dövlət məhkəməsinə və ya digər məhkəmə orqanına müraciət etməmək barədə razılığa gəlmiş hesab olunurlar.
22.3. Arbitraj tərkibi tərəflərin seçdiyi və mübahisənin mahiyyəti üzrə tətbiq edilə bilən hüquq və ya hüquq normalarına uyğun olaraq tərəflərin mübahisəsini həll etməlidir. Arbitraj tərkibi tərəflərin belə

seçim etmədiyini müəyyənləşdirdikdə, arbitraj tərkibi tətbiq olunmasını mümkün hesab etdiyi hüquq normasını tətbiq edəcəkdir.
22.4. Tərəflər yazılı formada aydın şəkildə «ex aequo et bono» və ya «dostcasına vasitəçilik», yaxud «şərəfli məşğuliyyət» prinsipinin tətbiq edilməsinə razılıq verdikləri halda arbitraj tərkibi mübahisənin mahiyyətinə həmin prinsipi tətbiq edəcəkdir.

### Maddə 23. Arbitraj tərkibinin səlahiyyətləri

23.1. Arbitraj tərkibi özünün səlahiyyətləri, habelə arbitraj sazişinin mövcudluğu və etibarlılığı barədə hər bir etiraz üzrə qərar qəbul etmək hüququna malikdir. Bu məqsədlə digər saziş üçün nəzərdə tutulan və ya onun bir hissəsini təşkil edən arbitraj qeyd-şərti digər sazişdən asılı olmayan arbitraj sazişi kimi qiymətləndirilməlidir. Arbitraj tərkibi tərəfindən belə sazişin mövcud olmaması, hüquqi qüvvəyə malik olmaması və ya etibarsız olması barədə qərar qəbul edilməsi avtomatik olaraq (ipso jure) arbitraj qeyd-şərtinin mövcud olmaması, hüquqi qüvvəyə malik olmaması və ya etibarsız olmasına səbəb olmur.
23.2. İddia üzrə etirazda arbitraj tərkibinin səlahiyyətli olmaması barədə müddəa olmadıqda, bu, cavabdehin belə tələb irəli sürmək hüququndan imtina etməsi hesab olunur; eyni qayda ilə, qarşılıqlı iddia üzrə cavabdeh belə tələb irəli sürmədikdə öz hüququndan imtina etmiş sayılır. Arbitraj tərkibi hər hansı bir məsələ üzrə qətnamə çıxarmaq niyyətində olduğunu bildirərsə və tərəflər bu məsələnin arbitraj tərkibinin səlahiyyətlərindən kənarda olduğu qənaətinə gələrsə, belə halda dərhal arbitraj tərkibinin səlahiyyətlərini aşması barədə ərizə verməlidirlər, əks halda tərəflər belə ərizə vermək hüququndan imtina etmiş sayılırlar. Qeyd olunan hər bir halda arbitraj tərkibi sonradan verilmiş ərizəni, konkret hallarda ləngiməni əsaslı sayarsa, qəbul edə bilər.
23.3. Arbitraj tərkibi özünün kompetensiyası və ya səlahiyyəti barədə ərizəni işin hallarına müvafiq olaraq, kompetensiya haqqında arbitraj qərarı ilə və ya mübahisəni mahiyyəti üzrə həll edən arbitraj qətnaməsi ilə rədd edə bilər.
23.4. Mövcud Reqlamentə uyğun olaraq arbitraj araşdırması barədə razılığa gələrkən tərəflər hər hansı dövlət məhkəməsinə və ya digər məhkəmə orqanına arbitraj tərkibinin səlahiyyətli olmaması ilə əlaqədar hər hansı bir məhkəmə müdafiəsi və vasitələri üçün müraciət etməməyi razılaşdırırlar; Burada yalnız arbitraj araşdırmasının bütün tərəflərinin

yazılı formada, yaxud arbitraj tərkibinin ilkin razılığı və ya bu arbitraj tərkibinin onun kompetensiya və yaxud səlahiyyətləri barədə ərizəni rədd edən arbitraj qətnaməsinin çıxarılması halları istisna təşkil edir.

**Maddə 24. Depozitlər**

24.1. LBAM arbitraj araşdırması üzrə xərclərin ödənilməsi üçün özünün məqbul hesab etdiyi miqdarda vəsaitin bir və ya bir neçə aralıq ödənişi və ya birdəfəlik ödənilməsi üçün tərəflərə göstəriş verə bilər.
Belə depozitlər ödənilməli və LBAM-in nəzarəti altında olmaqla vaxtaşırı arbitraj araşdırması prosesində arbitr(lər), arbitraj tərkibi tərəfindən təyin olunmuş ekspertlər və LBAM üçün istifadə olunmalıdır.
24.2. Arbitraj tərkibi LBAM-in tələb olunan pul vəsaitlərini aldığı barədə katibdən və ya katibin müavinindən təsdiqləyici məlumat olmayanadək arbitraj araşdırmasına başlamamalıdır.
24.3. LBAM-in təyin etdiyi qaydada tərəflərdən biri depoziti ödəmədikdə və ya ödəməkdən imtina etdiyi halda LBAM digər tərəfə və ya tərəflərə arbitraj araşdırması prosesinin baş tutması üçün həmin tərəfin əvəzinə depozit ödəməyi (bunun xərclər haqqında arbitraj qətnaməsində qeyd edilməsi şərti ilə) təklif edə bilər. Belə halda digər tərəfin əvəzinə depozit ödəmiş tərəf bu depozitin borc kimi depoziti ödəməkdən boyun qaçıran tərəfdən tutularaq dərhal ödənilməsi hüququna malikdir.
24.4. İddiaçının və ya qarşılıqlı iddia irəli sürmüş tərəfin tələb olunan depoziti vaxtında və tam ödənməməsi LBAM tərəfindən iddianın və ya müvafiq surətdə qarşılıqlı iddianın geri götürülməsi kimi qiymətləndirilə bilər.

**Maddə 25. Aralıq və təminedici tədbirlər**

25.1. Tərəflər arasında yazılı şəkildə digər hal nəzərdə tutulmayıbsa, arbitraj tərkibi tərəflərdən hər birinin vəsatəti əsasında aşağıdakıları etməyə səlahiyyətlidir:
a) iddia və ya qarşılıqlı iddia üzrə cavabdeh tərəfi depozitin ödənilməsi və ya bank təminatlarının verilməsi, yaxud arbitraj tərkibinin məqbul hesab etdiyi digər şərtlərlə mübahisənin məbləğinin tam şəkildə və ya bir hissəsinin təmin edilməsinə məcbur edə bilər. Bu şərtlər daxilində qarşılıqlı iddia vermiş iddiaçının və ya tərəfin ziyana düşməmək üçün qarşılıqlı zəmanət təqdim etməsi və arbitraj tərkibinin müvafiq hesab etdiyi qaydada cavabdehin zəmanətlə əlaqədar yaranmış xərclərinin və ya zərərinin ödənilməsinin təmin edilməsi nəzərdə tutula bilər. Ziyana

düşməmək üçün qarşılıqlı zəmanətə uyğun olaraq hər hansı xərclərin və zərərin məbləği arbitraj tərkibinin bir və ya bir neçə qətnaməsi ilə müəyyən edilə bilər.
b) tərəflərdən hər hansı birinin nəzarətində olan və arbitraj araşdırmasının predmetinə aid olan əşyanın və əmlakın qorunmasını, saxlanmasını, satılmasını və digər istifadəsini təmin etməyə məcbur edə bilər; və
c) pulun ödənilməsi və ya tərəflər arasında əmlakın bölüşdürülməsi barədə müvəqqəti əmr də daxil olmaqla arbitraj tərkibinin arbitraj qərarında göstərmək hüququna malik olduğu hər hansı bir məhkəmə müdafiəsi tələblərinin ilkin tədbirlərini müvəqqəti olaraq, arbitraj qətnaməsində qəti qərara alınmaqla qeyd edə bilər.
25.2. Arbitraj tərkibi tərəflərdən birinin vəsatəti əsasında iddia və ya qarşılıqlı iddia vermiş tərəflərdən hər hansı birini depozitin ödənməsi və ya bank zəmanətinin təqdim edilməsi yolu ilə, yaxud arbitraj tərkibinin məqbul hesab etdiyi digər xərclər üzrə təminatı təqdim etməyə məcbur etmək səlahiyyətinə malikdir. Bu şərtlər digər tərəfin zərərə düşməmək üçün qarşılıqlı zəmanət təqdim etməsini nəzərdə tuta bilər və iddiaçıdan və ya qarşılıqlı iddia vermiş şəxsdən zəmanətlə əlaqədar yaranmış xərclərin və yaxud zərərin ödənilməsinin təmin edilməsini nəzərdə tuta bilər. Ziyana düşməmək üçün qarşılıqlı zəmanətə uyğun olaraq ödənilməli olan hər hansı xərclərin və zərərin məbləği arbitraj tərkibinin bir və ya bir neçə qətnaməsi ilə müəyyən edilə bilər. İddia və ya qarşılıqlı iddia vermiş tərəf belə təminatı yerinə yetirmədiyi halda arbitraj tərkibi həmin tərəfin iddiasını və ya qarşılıqlı iddiasını dayandıra və imtina barədə qərar çıxara bilər.
25.3. Arbitraj tərkibinin bu maddənin 1-ci bəndində göstərilən səlahiyyətləri tərəflərdən hər hansı birinin arbitraj tərkibi formalaşanadək və müstəsna hallarda formalaşdıqdan sonra hər hansı bir dövlət məhkəməsinə və ya digər məhkəmə orqanlarına aralıq və ya təminedici tədbirlərin görülməsi məqsədilə müraciət etmək hüququna mane olmur. Arbitraj tərkibi formalaşdıqdan sonra belə tədbirlər haqqında verilən hər hansı bir göstəriş vəsatəti vermiş şəxs tərəfindən dərhal arbitraj tərkibinə və bütün digər tərəflərə təqdim edilməlidir.
25.4. Lakin mövcud Reqlamentə əsasən arbitraj araşdırmasına razılaşmaqla tərəflər 25-ci maddənin 2-ci bəndinə uyğun olaraq arbitraj tərkibi tərəfindən müəyyən edilmiş məhkəmə xərcləri və ya digər xərclərin təmin edilməsi məqsədilə hər hansı dövlət məhkəməsinə və ya digər məhkəmə orqanlarına müraciət etməməyə razı olduqlarını bildirirlər.

**Maddə 26. Arbitraj qətnaməsi**

26.1. Arbitraj tərkibi arbitraj qətnaməsini yazılı formada çıxarır və tərəflər arasında yazılı şəkildə digər hal nəzərdə tutulmadıqda, arbitraj tərkibi bu qətnamənin əsaslandığı motivləri göstərir. Arbitraj qətnaməsində onun tarixi və arbitraj araşdırmasının yeri göstərilməlidir. Arbitraj qətnaməsi arbitraj tərkibi tərəfindən və ya bu qətnamə ilə razı olan arbitraj tərkibinin üzvləri tərəfindən imzalanmalıdır.
26.2. Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsinin çıxarılmasında tətbiq olunan hüququn imperativ normalarına riayət etməkdən imtina etdiyi halda, digər arbitrlər həmin arbitrin arbitraj qətnaməsinın çıxarılmasında iştirak etməməsinin səbəblərini qeyd etməklə onun iştirakı olmadan fəaliyyətlərini davam etdirə bilərlər.
26.3. Üç arbitrdən ibarət arbitraj tərkibinin hər hansı bir məsələ üzrə razılığa gəlmədiyi halda arbitrlər bu məsələni səsçoxluğu ilə həll edirlər. Hər hansı bir məsələ üzrə səsçoxluğu alınmadıqda qətnamə arbitraj tərkibinin sədri tərəfindən qəbul edilir.
26.4. Arbitrlərdən hər hansı biri arbitraj qətnaməsini imzalamaqdan imtina edirsə və ya arbitrin imzası qətnamədə olmavdıqda, imzanın olmaması səbəbi göstərilməklə, arbitrlərin əksəriyyətinin imzası və ya (əksəriyyətin olmadığı halda) arbitraj tərkibi sədrinin imzası kifayət edəcəkdir.
26.5. İşə təkbaşına baxan arbitr və ya arbitraj tərkibinin sədri arbitiraj qətnaməsinin LBAM-ə verilməsinə borcludurlar; LBAM bu Reqlamentin 28-ci maddəsinə uyğun olaraq, arbitraj xərclərinin ödənildiyi halda qətnamənin təsdiq olunmuş surətlərini tərəflərə göndərir.
26.6. Arbitraj qətnaməsi hər hansı bir valyuta ilə ifadə oluna bilər. Arbitraj tərkibi özünün məqbul hesab etdiyi istənilən tarif dərəcəsi üzrə, arbitraj qətnaməsinin yerinə yetirilməsi müddətindən gec olmayaraq, müddətin hər hansı dövrü üzrə dövlət məhkəmələri tərəfindən alınan faiz dərəcələri ilə məhdudlaşmayaraq, müvafiq tərəfin ödəməli olduğu sadə və ya mürəkkəb faizlərin ödənilməsini arbitraj qətnaməsində göstərə bilər.
26.7. Arbitraj tərkibi müxtəlif vaxtlarda müxtəlif məsələlər üzrə ayrıca arbitraj qərarları çıxara bilər. Belə qərarlar arbitraj tərkibinin çıxardığı digər arbitraj qərarları kimi eyni statusa və hüquqi qüvvəyə malik olacaqlar.
26.8. Tərəflərin özlərinin mübahisəsini tənzimlədiyi və bu barədə yazılı şəkildə xahiş etdikləri halda ("barışıq sazişi haqqında arbitraj qərardadı") arbitraj tərkibi tərəflərin razılığını açıq-aydın şəkildə əks etdirən

müddəaları göstərməklə mübahisənin tənzimlənməsi şərtlərinin göstərildiyi arbitraj qətnaməsi çıxara bilər. Barışıq sazişi haqqında arbitraj qərardadında motivlərin göstərilməsi məcburi deyildir. Tərəflərə razılaşdırılmış şərtlərin qeyd olunduğu arbitraj qərardadının lazım olmadığı və LBAM-ə mübahisənin barışıq yolu ilə tənzimləndiyi təsdiqlənən yazılı sənəd təqdim edildiyi halda arbitraj tərkibi buraxılır və 28-ci maddəyə uyğun olaraq tərəflərin bütün arbitraj xərclərini ödəməsi şərti ilə arbitraj araşdırması başa çatır.
26.9. Bütün arbitraj qərarları qətidir və tərəflər üçün məcburidir. Mövcud Reqlamentə uyğun olaraq, arbitraj araşdırmasına razılaşan tərəflər istənilən arbitraj qərarının ləngitmədən təcili (27-ci maddədə göstərilən hallar istisna olmaqla) yerinə yetirilməsi barədə öz üzərlərinə öhdəlik götürürlər və hər hansı bir dövlət məhkəməsi və ya digər məhkəmə orqanlarında apellyasiya, işə yenidən baxılması və ya şikayət verilməsi kimi hüquqlarından imtina edirlər.

## Maddə 27. Arbitraj qətnamələrində düzəliş və əlavə arbitraj qətnamələrı

27.1. Arbitraj qətnaməsini aldıqdan sonra 30 gün ərzində və ya daha tərəflərin yazılı formada razılaşdıra biləcəkləri qısa müddət ərzində tərəflərdən hər biri katibə yazılı bildiriş təqdim etməklə (surətini tərəflərə göndərmək şərti ilə) arbitraj qətnaməsində yol verilmiş istənilən hesablama səhvlərinin, çap səhvlərinin və digər analoji səhvlərin düzəldilməsini arbitraj tərkibindən xahiş edə bilər. Arbitraj tərkibi xahişi əsaslı hesab etdikdə, onu aldıqdan sonra 30 gün ərzində arbitraj qətnaməsinə müvafiq düzəlişləri etməlidir. Hər bir düzəliş əlavə memorandum şəklində edilməli, tarixi qoyulmalı və arbitraj tərkibi, yaxud (əgər üç arbitrdirsə) bunu etməyə razılıq verən arbitrlər tərəfindən imzalanmalıdır; və belə memorandum bütün məqsədlər üçün qəbul edilmiş arbitraj qətnaməsinin tərkib hissəsinə çevrilir.
27.2. Arbitraj qətnaməsi çıxarıldıqdan 30 gün müddətində arbitraj tərkibi öz təşəbbüsü ilə eyni hüquqi səbəb olmaqla 27-ci maddənin 1-ci bəndində göstərilən xarakterli səhvləri düzəldə bilər.
27.3. Yekun arbitrajın yekun qətnaməsini aldıqdan sonra 30 gün ərzində tərəflərdən biri (surətləri bütün tərəflərə göndərməklə katibə yazılı bildiriş təqdim edərək arbitraj araşdırması prosesində iddia və ya qarşılıqlı iddia üzrə bəyan edilmiş, lakin arbitraj qətnaməsində öz əksini tapmayan məsələlər üzrə əlavə qətnamə çıxarılmasını arbitraj tərkibindən xahiş edə

bilər. Arbitraj tərkibi xahişi əsaslı hesab etdiyi halda xahiş alındıqdan 60 gün ərzində əlavə qətnamə çıxarmalıdır. 26-cı maddənin tələbləri istənilən əlavə qətnaməyə şamil edilməlidir.

### Maddə 28. Arbitraj xərcləri və hüquqi yardıma görə xərclər

28.1. Arbitraj xərclərinin məbləği (tərəflərin hüquqi yardıma və ya digər məsrəflər üçün sərf etdikləri xərclərdən əlavə) arbitraj xərcləri və qonorarları haqqında Əsasnaməyə uyğun olaraq, LBAM tərəfindən müəyyən edilir. Tərəflər birlikdə və ayrı-ayrılıqda arbitraj xərclərinin ödənilməsi üçün arbitraj tərkibinin və LBAM-in qarşısında məsuliyyət daşıyırlar.

28.2. Arbitraj tərkibi LBAM tərəfindən müəyyən edilmiş arbitraj xərclərinin bütün məbləğini arbitraj qətnaməsində əks göstərməlidir. Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda arbitraj tərkibi arbitraj xərclərinin hamısının və ya bir hissəsinin tərəflərdən tutulması nisbətini müəyyən etməlidir. Arbitraj tərkibi LBAM-ə arbitraj xərcini ödəmiş tərəfdən fərqli olaraq, digər tərəfin arbitraj xərclərinin hamısını və ya bir hissəsini ödəməsini müəyyən edərsə, arbitraj xərclərini ödəmiş tərəf digər tərəfdən müvafiq məbləğin alınmasını tələb edə bilər.

28.3. Arbitraj tərkibi tərəflərdən birinin hüquqi yardım üçün xərclədiyi məbləğin və ya onun bir hissəsinin, yaxud sair məsrəflərin digər tərəfin ödəməsi barədə qətnamə çıxarmağa səlahiyyətlidir. Arbitraj tərkibi, habelə hər bir hala görə belə xərclərin məbləğini özünün məqbul hesab etdiyi kimi qeydə almalı və bu barədə qərar qəbul etməlidir.

28.4. Tərəflər arasında yazılı şəkildə digər razılaşma olmadığı halda arbitraj tərkibi ümumi prinsip əsasında arbitraj xərclərinin və hüquqi yardım üçün xərclərin arbitraj qətnaməsindən və ya arbitraj araşdırmasından sonra ödənilməsi barədə sərəncam verməlidir. İstisna hal - yalnız arbitraj tərkibinin belə qətnamənin verilməsinin düzgün olmadığı qərarına gəldiyi konkret halda ola bilər. Xərclər haqqında belə qərarın motivləri arbitraj qətnaməsində göstərilməlidir.

28.5. Arbitraj qətnaməsi çıxarılmadan arbitraj araşdırmasına xitam verilərsə, dayandırılarsa və ya razılaşmaya əsasən, yaxud digər səbəbdən başa çatdırılarsa, «Arbitraj xərcləri və qonorarları haqqında» Əsasnaməyə uyğun olaraq, tərəflər birlikdə və ayrı-ayrılıqda LBAM-ə arbitraj xərclərini ödəməyə borcludurlar. Arbitraj xərcləri tərəflərin ödədiyi depozitdən az məbləğdədirsə, fərq tərəflərin yazılı razılaşdığı nisbətdə və

ya belə razılaşma olmadıqda, depozitin ödənildiyi nisbətdə LBAM tərəfindən qaytarılmalıdır.

**Maddə 29. LBAM-in qərardadı**

29.1. LBAM-in arbitraj araşdırması ilə əlaqədar bütün məsələlər üzrə qərardadı qətidir və tərəflər və arbitraj tərkibi üçün məcburi xarakter daşıyır. Belə qərardadlar öz mahiyyətinə görə sərəncamverici qüvvəyə malikdir və onlarda hər hansı bir motivlərin göstərilməsi tələb olunmur.
29.2. Arbitraj prosesini tənzimləyən qanunun yol verdiyi hədlərdə tərəflər apellyasiya hüququndan və ya LBAM-in hər hansı qərardadının dövlət məhkəməsində və yaxud digərməhkəmə orqanlarında yenidən baxılmasından imtina etmiş hesab olunurlar. Tətbiq olunan hüququn imperativ normasına əsasən, belə apellyasiya və işə yenidən baxılma mümkündürsə, LBAM tətbiq olunacaq hüquq normasından asılı olaraq arbitraj prosedurunun apellyasiyadan və ya işə yenidən baxılmadan asılı olmayaraq davam etdirilməli olduğunu müəyyən etməlidir.

**Maddə 30. Konfidensiallıq (Məxfiliyin qorunması)**

30.1. Tərəflər arasında yazılı formada açıq-aşkar şəkildə əks hal nəzərdə tutulmamışdırsa, tərəflər ümumi qaydada bütün arbitraj qətnamələrinin tərəflərin hər birinin arbitraj araşdırması məqsədləri üçün təqdim etdikləri materiallarla birgə və digər tərəfin arbitrajın gedişatında təqdim etdiyi hələlik aşkar olunmamış bütün digər sənədlərin, bu və ya digər formada açılması qanuni tələbə əsasən, qanuni hüquqların müdafiəsi və iddia qaldırılması və ya bona fide arbitraj qətnaməsinin dövlət məhkəmələri və ya digər məhkəmə orqanları qarşısında mübahisələndirilməsi və ya icra olunması üçün zəruri olan sənədlər istisna olmaqla - konfidensiallığı qorumağı öhdələrinə götürürlər.
30.2. Bu Reqlamentin 10, 12 və 26-cı maddələrinə uyğun olaraq arbitrin arbitraj araşdırmasından imtina etməsinin bəyan edilməsi arbitraj tərkibinin digər üzvləri üçün zəruri olduğu hallar istisna olmaqla, arbitraj tərkibinin müşavirələri onun üzvləri üçün məxfi xarakter daşıyır.
30.3. LBAM bir qayda olaraq, tərəflərin və arbitraj tərkibinin əvvəlcədən yazılı razılığı olmadan arbitraj qətnaməsini və ya onun bir hissəsini dərc etdirmir.

**Maddə 31. Məsuliyyətin istisnası**

31.1. Nə arbitraj tərkibi, nə LBAM (onun prezidenti, vitse-prezidenti və üzvləri də daxil olmaqla), nə katib, nə katibin müavini, nə arbitrlər, nə də arbitraj tərkibi tərəfindən təyin edilən ekspertlər bu Reqlamentə uyğun olaraq arbitraj araşdırması zamanı hər hansı bir halın nəzərdən qaçırılmasına görə tərəflər qarşısında məsuliyyət daşımırlar. Bu şərt hər hansı bir orqan və ya şəxsin nəzərdən qaçırdığı halın və ya hərəkətin qəsdən və ya düşünülmüş qaydada edildiyi barədə tərəflərdən birinin təqdim etdiyi sübutlar əsasında təsdiq edildiyi hallara şamil edilmir.
31.2. Arbitraj qətnaməsi çıxarıldıqdan və 27-ci maddədə göstərilən düzəlişlərin və əlavə qərardadların çıxarılması imkanı və ya müddəti ötdükdən sonra nə arbitraj tərkibi, nə LBAM (prezident, vitse-prezident və üzvlər də daxil olmaqla), nə katib, nə katibin müavini, nə arbitrlər və ya arbitraj tərkibi tərəfindən təyin edilmiş ekspertlər arbitraj araşdırmasına aid olan hər hansı məsələ barəsində hər hansı şəxsə şərh verməyə borclu deyil. Eyni qayda ilə, hər hansı tərəf göstərilən şəxslərin hər hansı birindən həmin arbitraj araşdırmasından gələcəkdə yarana biləcək hər hansı məhkəmə və ya digər prosesdə şahid qismində istifadə etməyə çalışmamalıdır.

**Maddə 32. Ümumi qaydalar**

32.1. Arbitraj sazişinin hər hansı tələbinə (mövcud Reqlament də daxil olmaqla) əməl edilmədiyini bilən, lakin bu hala qarşı dərhal etiraz etməyərək və arbitraj araşdırmasında iştirakını davam etdirən tərəf etiraz hüququndan imtina etmiş sayılır.
32.2. Bu Reqlamentdə aşkar şəkildə öz əksini tapmamış məsələlər olduqda, LBAM, arbitraj tərkibi və tərəflər mövcud Reqlament çərçivəsində fəaliyyət göstərməli və arbitraj qətnaməsinin hüquqi cəhətdən məcburi qaydada həyata keçirilməsi üçün bütün səylərini əsirgəməməlidirlər.

## TÖVSİYƏ OLUNAN ARBİTRAJ QEYD-ŞƏRTİ

### Gələcək mübahisələr

Gələcəkdə yarana biləcək mübahisələrin arbitraj prosesinin təşkili üçün LBAM-ə verilməsi, vasitəçilik və ya onların uyğunlaşdırılmasını istəyən beynəlxalq müqavilə tərəflərinə aşağıdakı qeyd-şərtlərdən biri tövsiyə olunur. Sözlər, mötərizə daxilindəki boşluqlar müvafiq qaydada işarələnir/doldurulur.

"Bu müqavilədən yaranan və ya bununla bağlı istənilən mübahisə, həmçinin, onun mövcudluğu, etibarlığı və ya ona xitam verilməsilə bağlı istənilən məsələ, onun müddəalarına istinad zamanı qeyd-şərtin ayrılmaz tərkib hissəsi olan LBAM-in Reqlamentinə əsasən, arbitraj yolu ilə baxılmalı və qəti həll olunmalıdır.

Arbitrlərin sayı (1/3) olacaq
Arbitraj araşdırmasının yeri* (şəhər və /və ya ölkə) olacaq.
Arbitraj araşdırmasının dili (---) olacaq.
Müqaviləyə tətbiq olunan hüquq (--) maddi hüquqdur (olacaq)

Yaranmış mübahisələr

Əgər mübahisə yaranıbsa, ancaq tərəflər arasında arbitraj haqqında və ya vasitəçilik haqqında saziş yoxdursa; yaxud tərəflər LBAM-in yurisdiksiyasını nəzərə alaraq mübahisənin həll olunması şərtlərini dəyişmək istəyirlərsə, aşağıdakı qeyd-şərtlərdən biri tövsiyə olunur.
Sözlər, mötərizə daxilindəki boşluqlar müvafiq qaydada işarələnir/doldurulur.

"Bununla tərəflər onların arasında (--------------) yaranmış mübahisənin LBAM-in Reqlamentinə əsasən arbitraj yolu ilə baxılması və qəti həll olunmasına razılaşırlar.

Arbitrlərin sayı (1/3) olacaq
Arbitraj araşdırmasının yeri[1] (şəhər və /və ya ölkə) olacaq.
Arbitraj araşdırmasının dili (---) olacaq.
Müqaviləyə tətbiq olunan hüquq (--) maddi hüquqdur (olacaq)"

---

[1] Arbitraj tərkibi iclaslarını, dinləmələri və müzakirələri özünün məqbul hesab etdiyi (öz seçiminə əsasən) hər hansı bir əlverişli coğrafi məkanda və ya LBAM-in rəsmi yeri olmayan digər bir yerdə keçirərsə, arbitraj araşdırması LBAM-in rəsmi yerində keçirilən arbitraj araşdırması hesab olunur və çıxarılan hər hansı bir qərar LBAM-in rəsmi yerində çıxarılmış qərar hesab olunacaq.

## ARBİTRAJ XƏRCLƏRİ VƏ QONORARLARI HAQQINDA ƏSASNAMƏ

**(1 yanvar 1998-ci ildən qüvvədədir)**

LBAM arbitraj prosesinin təşkilini üzərinə götürdüyü halda LBAM-in Reqlamentinə və UNCİTRAL Reqlamentinə əsasən arbitrlər üçün;
LBAM arbitrlərin təyinatı üzrə səlahiyyətli orqan kimi fəaliyyət göstərdikdə və LBAM arbitrlərin geri çağırılması qərarını çıxarmağa səlahiyyətli olduqda.

**1. LBAM və YUNSİTRAL-ın inzibati xərcləri**

1(a) Qeydiyyat rüsumu (arbitraj haqqında xahiş verilərkən avansla ödənilməlidir - 1500 funt sterlinq geri qaytarılmır)

1 (b) Arbitraj tərkibinin qonorarına 5% əlavə (xərcləri çıxmaq şərti ilə)[1]

1 (c) Arbitraj araşdırmasının[1] təşkilinə katib, yaxud

onun müavinləri və LBAM-in katibliyi tərəfindən sərf edilmiş[2] vaxt

Katib və müavini - saatı 1500 funt sterlinq
Katiblik saatı - 75 funt sterlinq

1 (d) Arbitrajın təşkili üçün sərf olunan xərclər
Saat hesabı və ya maya dəyəri ilə
(poçt, telefon, faksimil, nəqliyyat və s. kimi) və
özəl və/və ya başqa mənbələrdən katiblik
tərəfindən arbitraj araşdırması üzrə göstərilən
əlavə yardım xidmətləri

---

[1] (b), 1 (c) və 1 (d) bəndləri arbitraj qərarı ilə birgə aralıq hesabla və ya Reqlamentin 24.1 maddəsinə əsasən LBAM-in qərarı ilə ödənilir.
[2] Vaxtın minimum hesab vahidi 15 dəqiqəyə bərabərdir.

**2. Səlahiyyətli təşkilat kimi fəaliyyət göstərmək barədə xahiş**

2 (a) Təyinat üçün qonorar (xahişin təqdim edilməsi 1000 funt sterlinq
zamanı ödənilir - geri qaytarılmır)
2 (b) Yuxarıda 1 (c) və 1 (d) göstərilən tariflər üzrə

**3. LBAM-in arbitri olmayan arbitraja etiraz üçün fəaliyyət göstərməsi barədə xahiş**

3 (a) Yuxarıda göstərilən tariflər üzrə 2 (a) və 2 (b); LBAM üzvləri üçün
üstəgəl geri çağırma barədə qərar qəbul edilən zaman
saat tarifləri
funksiyaları yerinə yetirən LBAM-in üzvləri
tərəfindən sərf olunmuş vaxt

3 (b) Etiraz barədə qərar qəbul edilən zaman LBAM üzvləri üçün
funksiyaları yerinə yetirən LBAM üzvləri saat tarifləri
tərəfindən sərf olunan vaxt

**4. Tribunal tərkibinin xərcləri və qonorarları**

4 (a) Arbitraj tərkibinin qonorarları arbitraj araşdırması ilə əlaqədar onun üzvləri tərəfindən görülən işlərə əsasən hesablanır və arbitrajın çətinliyi və arbitrlərin müxtəlif xüsusi ixtisasları daxil olmaqla, işin konkret şəraiti nəzərə alınmaqla tutulur. Arbitraj tərkibi onun LBAM tərəfindən təyin olunmasına qədər arbitraj xərcləri və qonorarları haqqında Əsasnamədən fərqlənən qonorarların tariflərini yazılı formada razılaşdırmalıdır. Tariflər məhkəmənin katibi tərəfindən arbitraj tərkibinin təyinatı zamanı tərəflərə bildirilir. Lakin arbitraj araşdırmasının davamlılığından asılı olaraq, onlara hər il yenidən baxıla bilər.
Qonorarların tarifləri bu hədlərdə müəyyənləşir: bütöv iş günü üçün 800-2000 funt sterlinq və natamam iş günü və ya normal iş gününə əlavə edilən hər saat üçün 100-250 funt sterlinq.

Lakin istisna hallarda tariflər o şərtlə çox, yaxud az ola bilər ki, belə hallarda (a) arbitraj tərkibinin qonorar tarifləri arbitrl(ər)ə razılığı və katibin tövsiyəsi ilə LBAM tərəfindən müəyyən edilir və (b) qonorarın tarifləri aşkar şəkildə bütün tərəflərlə razılaşdırılmalıdır.
4 (b) Arbitraj tərkibinin qonorarlarına yola sərf olunan vaxta görə ödəniş də daxil edilə bilər.
4 (c) Arbitraj tərkibinin qonorarlarına, həmçinin təyin olunmuş, lakin dinləmənin ertələnməsi və ya prosesin təxirə salınması səbəbindən istifadə olunmamış vaxta görə (belə xərclər haqqında arbitrin yazılı əsaslandırılmış bildirişi və onların ödənilməsi LBAM tərəfindən təsdiqləndikdə) ödənişlər də daxil edilə bilər.
4 (d) Arbitraj araşdırması zamanı arbitraj tərkibinin məsrəfləri maya dəyərilə ödənilir.
4 (e) LBAM-in Reqlamentinin 10-cu maddəsinə əsasən, LBAM təyin olunmuş hər hansı arbitri geri çağırarkən, bütün halları nəzərə almaqla keçmiş arbitrin xidmətlərinə (əgər belə xidmətlər varsa) görə qonorarların və rüsumların məbləği barədə qərar qəbul etməlidir.

**5. Depozitlər**

5 (a) LBAM arbitraj araşdırması üzrə xərclərin ödənilməsi üçün özünün məqbul hesab etdiyi miqdarda vəsaitin bir və bir neçə aralıq ödənişi və ya birdəfəlik ödənilməsi üçün tərəflərə göstəriş verə bilər. LBAM bu ödənişin məbləğini qonorarların, növbəti arbitraj araşdırması mərhələsi üçün rüsum və xərclərin bağlanmasına tələb olunan məbləğlə məhdudlaşdıra bilər.

5 (b) Arbitraj tərkibi LBAM-ə tələb olunan vəsaitin daxil olması barədə katib və ya katibin müavinindən təsdiqləyici məlumat almayanadək, arbitraj araşdırmasına başlamamalıdır.
5 (c) LBAM-in təyin etdiyi qaydada tərəflərdən biri depoziti ödəmədikdə və ya ödəməkdən imtina etdiyi halda, LBAM arbitraj araşdırması prosesinin baş tutması üçün həmin tərəfin əvəzinə depozit ödəməyi (bunun xərclər haqqında arbitraj qərarında qeyd edilməsi şərtilə) digər tərəfə və ya tərəflərə təklif edə bilər. Belə halda, digər tərəfin əvəzinə depozit ödəmiş tərəf bu depozitin borc kimi depoziti ödəməkdən boyun qaçıran tərəfdən tutularaq, dərhal ödənilməsi hüququna malikdir.

5 (d) İddiaçının və qarşılıqlı iddia sürmüş tərəfin tələb olunan depoziti vaxtında və tam ödəməməsi LBAM tərəfindən iddianın və ya müvafiq surətdə qarşılıqlı iddianın geri götürülməsi kimi qiymətləndirilə bilər.

**6. Depozitlər üzrə faizlər**

Depozitdə olan məbləğin faizləri həmin məbləği depozitə yerləşdirən tərəfin hesabına, depozitə hesablanan faiz dərəcəsilə hesablanır. Bu barədə LBAM-ə xidmət göstərən bank vaxtaşırı məlumat verir.

**7. Aralıq ödənişlər**

7 (a) LBAM-in inzibati xərclərinin və ya qonorarların və arbitraj tərkibinin təyin etdiyi ekspertlərin xərclərinin bağlanması üçün tələb olunan aralıq ödənişlər LBAM-in razılığı ilə onun idarə etdiyi depozit hesablarından ödənilir.

7 (b) LBAM istənilən halda arbitraj araşdırması prosesilə bağlı aralıq hesabları hər ilin mart, iyun, sentyabr və dekabr aylarında bilavasitə tərəflərdən tələb edə və ya depozitdə olan məbləğdən ödəyə bilər.

**8. Qeydlər**

8 (a) Arbitraj xərclərinin məbləği (tərəflərin hüquqi yardım və ya digər məsrəflər üçün sərf etdikləri xərclərdən əlavə) arbitraj xərcləri və qonorarları haqqnıda Əsasnaməyə uyğun olaraq, LBAM tərəfindən müəyyən edilir.

8 (b) Tərəflər birlikdə və ayrı-ayrılıqda arbitraj xərclərinin tam ödənilməsi üçün arbitraj tərkibinin və LBAM-in qarşısında məsuliyyət daşıyırlar.

8 (c) Arbitraj araşdırması üzrə xərclər tam ödənilməyənədək arbitraj tərkibinin arbitraj qətnaməsi tərəflərə verilmir.

8 (d) Əlavə dəyər vergisi (ƏDV) ödənilməli olan bütün məbləğdən müəyyən olunmuş tariflə hesbalanmalıdır.

8 (e) LBAM-in qonorar və xərclər üzrə hesabları funt sterlinqlə göstərilir, ancaq digər dönərli valyuta ilə ödənilə bilər; bu halda valyuta mübadiləsinə görə xərcləri ödəyici çəkir.

8 (f) Arbitraj tərkibinin qonorarları üzrə hesabları arbitraj tərkibi ilə tərəflər arasında valyuta hesablaşmaları və ya funt sterlinqlə göstərilə

(çıxıla) bilər; arbitraj tərkibinin məsrəfləri üzrə hesablar onların ödənildiyi valyuta və ya funt sterlinqlə göstərilir (çıxılır).
8 (g) Arbitraj xərcləri və qonorarları haqqında Əsasnamədə göstərilən tariflərə yenidən baxıla bilər.
8 (h) İnzibati xərclər və ya qonorarlar və arbitraj tərkibinin məsrəfləri ilə əlaqədar istənilən mübahisə LBAM tərəfindən həll edilir.

# VYANA FEDERAL İQTİSADİYYAT PALATASI BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN ARBİTRAJ VƏ BARIŞIQ REQLAMENTİ

(Vyana qaydaları)
1 sentyabr 1991-ci ildən qüvvəyə minmişdir

# VYANA FEDERAL İQTİSADİYYAT PALATASI BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏSİNİN ARBİTRAJ VƏ BARIŞIQ REQLAMENTİ

## Tövsiyə olunan arbitraj qeyd-şərti

Bu müqavilə ilə bağlı, yaxud bu müqavilənin pozulması, ləğv edilməsi, yaxud etibarsızlığı ilə bağlı istənilən mübahisələr qəti olaraq Vyana Federal İqtisadiyyat Palatasının Beynəlxalq Arbitraj Məhkəməsinin arbitraj və barışıq Reqlamenti (Vyana qaydaları) əsasında təyin edilmiş bir və ya bir neçə arbitr tərəfindən həmin Reqlament əsasında həll ediləcəkdir.

## Məqsədəuyğun olan əlavə razılaşmalar:

a) Arbitrlərin sayı … (bir və ya üç)[1]
b) Tətbiq olunan maddi hüquq … olacaqdır.
c) Arbitraj araşdırmasının dili… olacaqdır.

Sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslər qismində arbitraj sazişi bağlamış tərəflər işin təzələnməsi haqqında vəsatət qaldırılması ilə məhkəmə qərarlarından şikayət verilməsinə imkan verən əsaslar üzrə arbitraj qərarından Avstriyada şikayət verilməsindən imtina edə bilərlər. Bu halda əlavə etmək lazımdır: «Tərəflər Avstriya mülki prosessual qanunlar külliyyatının 598 (2)-ci paraqrafını rəhbər tutaraq, həmin külliyyatın 595-ci paraqrafının 1-ci hissəsinin 7-ci bəndinin tətbiq edilməsindən imtina edirlər».

---

[1] Burada, zərurət yaranarsa, BMT-nin 1980-ci il tarixli «Malların beynəlxalq alqı-satqısı müqavilələri haqqında» Konvensiyasının tətbiqinin mümkünlüyünü nəzərə almaq lazımdır.

# ARBİTRAJ REQLAMENTİ

## ÜMUMİ MÜDDƏALAR

SƏLAHİYYƏT

**Maddə 1**

1. Vyana şəhərində yerləşən Avstriya Federal İqtisadiyyat Palatası Beynəlxalq Arbitraj Məhkəməsi (bundan sonra «Arbitraj Məhkəməsi» adlandırılır) təsərrüfat mübahisələrini arbitraj razılaşması olduğu halda və ən azı tərəflərdən birinin ünvanı Avstriya Respublikasının hüdudlarından kənarda yerləşdikdə həll etmək səlahiyyətinə malikdir.
2. Hamısının ünvanının Avstriyanın ərazisində yerləşdiyi tərəflərin Arbitraj Məhkəməsinin səlahiyyətli olduğunu müəyyənləşdirdikləri halında səlahiyyətli Arbitraj Məhkəməsi kimi Vyana İqtisadiyyat Palatasının (əvvəllər Vyana ticarət palatası adlanırdı) Daimi Arbitraj Məhkəməsi, arbitraj araşdırması üçün başqa yer müəyyənləşdirilibsə, arbitraj araşdırmasının aparılması üçün razılaşdırılmış yerin ərazi aidiyyəti üzrə iqtisadiyyat palatasının (əvvəllər ticarət palatası) Arbitraj Məhkəməsi çıxış edir. Bu Arbitraj Məhkəməsi araşdırmanı iqtisadiyyat palatasının Daimi arbitraj məhkəmələri üçün Reqlament əsasında həyata keçirir.
3. Arbitraj araşdırması Arbitraj Məhkəməsinin Vyanada yerləşdiyi yerdə aparılır. Eyni zamanda, tərəflər arbitraj araşdırmasının başqa yerdə aparılmasını da razılaşdıra bilərlər.[1]

[1] Arbitraj araşdırmasınının xaricdə aparılmasını müəyyən edərkən nəzərə almaq lazımdır ki, bu halda münsiflər məhkəməsinin qərarı Avstriyanın qərarı kimi tanınmayacaq və buna görə də həmin qərardan xarici dövlətin hüququ əsasında şikayət verilə bilər.

## TƏŞKİLAT

### Maddə 2

1. Arbitraj Məhkəməsinin orqanları Sədrdən və ən azı dörd digər üzvü olan Rəyasət Heyətindən, habelə Katiblikdən ibarətdir.
2. Bundan əlavə, Arbitraj Məhkəməsinə öz səlahiyyətləri müddətində arbitraj araşdırması ilə məşğul olan arbitrlər də daxildir.

### Maddə 3

1. Sədr və Rəyasət Heyətinin digər üzvləri Federal iqtisadiyyat palatasının Rəyasət Heyəti tərəfindən beş il müddətinə təyin edilirlər; təkrar təyinata yol verilir.
2. Rəyasət Heyətinin iclaslarını sədr aparır, onu iclasda iştirak edən Reyasət Heyəti üzvlərindən ən yaşlısı əvəz edə bilər. Rəyasət Heyəti, üzvlərinin mütləq əksəriyyəti iştirak etdikdə, qərarlar qəbul etməyə səlahiyyətlidir. Qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrlik edənin səsi həlledici rol oynayır.
3. Rəyasət Heyətinin hər hansı arbitraj araşdırmasında, necə iştirak etməsindən asılı olmayaraq iştirak etmiş üzvü həmin arbitraj araşdırması ilə bağlı olan qərarların qəbul edilməsi prosesindən kənarlaşdırılır.
4. Rəyasət Heyətinin üzvləri öz səlahiyyətlərini şərəflə və vicdanla yerinə yetirməyə borcludurlar və bu zaman onlar hər hansı göstərişlərdən asılı deyillər. Onlar öz funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar onlara məlum olan bütün məlumatların tam konfidensiallığını təmin etməyə borcludurlar.

### Maddə 4

1. Katib Federal iqtisadiyyat palatasının Rəyasət Heyəti tərəfindən beş il müddətinə təyin edilir; təkrar təyinata yol verilir.
2. Katib Arbitraj Məhkəməsinin inzibati funksiyalarını yerinə yetirən Katibliyin işinə rəhbərlik edir.
3. Katib öz vəzifələrini şərəflə və vicdanla yerinə yetirməyə borcludur və bu zaman hər hansı göstərişlərdən asılı deyil. O, öz funksiyalarının həyata keçirilməsi ilə əlaqədar ona bəlli olan bütün məlumatların konfidensiallığını təmin etməyə borcludur.

4. Katib Rəyasət Heyətinin iclaslarında məşvərətçi səs hüququ ilə iştirak edir.

**ARBİTRLƏR**

**Maddə 5**

1. Arbitrlər hüquq, iqtisadiyyat, yaxud hər hansı digər müvafiq sahə üzrə xüsusi biliklərə və təcrübəyə malik olmalıdırlar. Avstriya vətəndaşlığı tələb olunmur.
2. Arbitr qismində çıxış etməyə qabil şəxslərin adları Katiblik tərəfindən tərtib olunan siyahıya daxil edilə bilər. Siyahıya daxil edilmə və siyahıdan xaric edilmə Rəyasət Heyəti tərəfindən həll olunur. Rəyasət Heyəti hər üç ildən bir yeni siyahı tərtib edir.
3. Arbitr funksiyasının həyata keçirilməsi üçün arbitrlərin siyahısına daxil olunma şərt hesab edilmir. Tərəflər, onların seçdiyi arbitrlər və Rəyasət Heyəti bu Reqlament ilə onlara arbitrlərin seçilməsi və təyin edilməsi hüququnun verilmiş imkanları həddində istənilən müvafiq şəxsi seçə və yaxud təyin edə bilərlər.
4. Rəyasət Heyətinin üzvləri yalnız arbitraj tərkibinin sədrinin, yaxud təkbaşına arbitrin funksiyalarını icra edə bilərlər.
5. Arbitrlər öz funksiyalarını müstəqil və qərəzsiz, şərəflə və vicdanla yerinə yetirməli və bu zaman hər hansı digər göstərişlərdən asılı olmamalıdırlar. Onlar öz funksiyalarının icrası zamanı onlara bəlli olmuş bütün məlumatların tam konfidensiallığını təmin etməyə borcludurlar.

**ARBİTRAJ İCRAATI**

**İcraata başlanılması**

**Maddə 6**

1. İcraat Arbitraj Məhkəməsinin Katibliyinə alman, yaxud arbitraj sazişinin tərtib olunduğu dildə iddia ərizəsinin verilməsi ilə başlanılır. İddianın Katibliyə daxil olması ilə araşdırma başlanılmış hesab olunur.

2. İddia ərizəsinin surəti qoşma sənədlərlə birlikdə hər bir cavabdehə, hər bir arbitrə və Katibliyə verilməlidir.

3. İddia ərizəsində göstərilməlidir:

– tərəflərin adı və ünvanı;

– Arbitraj Məhkəməsinin səlahiyyətini əsaslandıran sənəd, yaxud sənədlər;
– iddia tələbləri, onların əsaslandığı sənədlərin və sübutların qoşması ilə birlikdə;
– konkret məbləğin ödənilməsi tələbi yoxdursa, iddia ərizəsinin verilməsi məqamında iddia obyektinin qiyməti;
– 9-cu maddəyə müvafiq olaraq arbitrlərin sayının göstərilməsi; mübahisəyə üç arbitr tərəfindən baxılacağı təqdirdə, seçilmiş arbitr və onun ünvanı.

4. Əgər iddia ərizəsi lazımi qaydada tərtib edilməyibsə, yaxud tələb olunan surətlər, yaxud qoşma sənədlər əlavə edilməyibsə, Katiblik müddət müəyyən edərək həmin müddət ərzində iddiaçıya çatışmazlıqları düzəltməyi, yaxud çatışmayan sənədləri göndərməyi təklif edir; 1-ci bəndin ikinci cümləsində nəzərdə tutulmuş norma belə təkliflə müraciət edildikdə də qüvvədə olur.

**Maddə 7**

1. Katib cavabdehə iddia ərizəsinin surətini, Arbitraj Reqlamentinin və arbitrlərin siyahısının hər birinin bir nüsxəsini göndərir və ona 30 gün müddətində iddia ilə bağlı izahatının, o cümlədən, mümkün olan qarşılıqlı iddia ərizəsinin 6-cı maddənin 2-ci bəndində göstərilmiş sayda nüsxələrini göndərməyi, həmçinin, 9-cu maddəyə uyğun olaraq arbitrlərin sayı barədə rəyini bildirməyi təklif edir. Mübahisəyə üç arbitrdən ibarət tərkibdə baxılacağı təqdirdə, cavabdeh özünün iddia ilə bağlı izahatında, həmçinin, bir arbitri təyin etməli və onun ünvanını göstərməlidir.

## MÜDDƏTLƏR, BİLDİRİŞLƏR VƏ MƏLUMATLAR

**Maddə 8**

1. Arbitraj Reqlamenti ilə nəzərdə tutulmuş, yaxud Katiblik tərəfindən müəyyən edilmiş müddətlər Katiblik tərəfindən, vəsatət əsasında, yaxud öz təşəbbüsü ilə – hətta, müddətin ötürüldüyü halda

belə – əgər göstərilən, yaxud ona aydın olmuş səbəbləri üzrlü hesab edərsə, uzadıla bilər.

2. Bildiriş sifariş məktubu, teleks, yaxud telefaks ilə tərəflərin göstərdikləri ünvanlara göndərildikdə, yaxud göndərilmiş sənədin çatdırıldığını sübut etmək mümkün olduğu hallarda etibarlı hesab edilir.

## ARBİTRLƏRİN TƏYİN EDİLMƏSİ

### Maddə 9

1. Tərəflər onların mübahisəsinə ya təkbaşına arbitr, yaxud üç nəfərdən ibarət arbitraj tərkibi tərəfindən baxılmasını razılaşa bilərlər.
2. Belə razılaşma olmadıqda, yaxud tərəflər arbitrlərin sayı barədə heç bir razılığa gələ bilmədikdə mübahisənin bir, yaxud üç arbitr tərəfindən həll edilməsi məsələsi Rəyasət Heyəti tərəfindən həll edilir.
3. Rəyasət Heyətinin 2-ci bənddə nəzərdə tutulmuş qərarı, mübahisənin işə təkbaşına baxan arbitr tərəfindən baxılması qərara alındığı halda, bildirişin alındığı gündən 30 gün müddətində tərəflərə göndərilir və təkbaşına arbitrin təyinatının razılaşdırılması və onun adının və ünvanının bildirilməsi haqqında təkliflə müraciət edilir. Əgər müəyyən edilmiş müddət ərzində bu təklifə cavab verilmirsə, təkbaşına arbitr Rəyasət Heyəti tərəfindən təyin olunur.
4. Mübahisəyə üç arbitr tərəfindən baxıldığı halda arbitrin namizədliyini irəli sürməmiş tərəfə bildirişin təqdim edildiyi gündən 30 gün müddətində seçdiyi arbitrin adını və ünvanını bildirmək təklif olunur. Əgər müəyyən edilmiş müddət ərzində bu barədə məlumat daxil olmazsa, həmin tərəf üçün arbitri Rəyasət Heyəti təyin edir.
5. Mübahisəyə üç arbitr tərəfindən baxıldığı halda tərəflərin seçdikləri, yaxud Rəyasət Heyətinin təyin etdiyi arbitrlərə bildirişin təqdim edildiyi gündən 30 gün müddətində sədrin təyinatının razılaşdırılması və onun adının və ünvanının elan edilməsi təklif olunur. Əgər müəyyən edilmiş müddət ərzində belə elan edilmirsə, onda sədri Rəyasət Heyəti təyin edir.

### Maddə 10

1. İki və ya çox iddiaçı, yaxud iki və ya çox cavabdeh araşdırmanın bir arbitr, yaxud üç arbitr tərəfindən aparılmasını öz aralarında

razılaşdırmalı və əgər araşdırma üç arbitr tərəfindən aparılmalıdırsa, onda birlikdə bir arbitri müəyyən etməlidirlər.
2. İddiaçı və cavabdehlər arasında arbitrlərin sayı barədə razılıq olmadıqda, Katib bildirişin təqdim edildiyi gündən 30 gün müddətində arbitrlərin sayını razılaşdırmağı onlara təklif edir.
3. 2-ci bənddə müəyyən edilmiş müddət ərzində arbitrlərin sayı müəyyən edilmədiyi halda, araşdırmanın bir, yaxud üç arbitr tərəfindən həyata keçirilməsi haqqında qərarı Rəyasət Heyəti çıxarır.
4. İddiaçı və cavabdehlərin araşdırmanın üç arbitr tərəfindən aparılması haqqında razılığa gəldikləri, lakin arbitrin namizədliyini irəli sürmədikləri halda Katib bildirişin təqdim edildiyi gündən 30 gün müddətində arbitrin adının və ünvanının elan olunmasını onlara təklif edir.
5. Araşdırma üç arbitr tərəfindən aparılmalı olduğu halda və 4-cü bənddə göstərilmiş müddət ərzində arbitrin adı bildirilmədikdə, Katibin təkliflərinə cavab verməmiş iddiaçı və cavabdehlərin əvəzinə arbitr Rəyasət Heyəti tərəfindən təyin edilir.

## ARBİTRLƏRƏ ETİRAZ

### Maddə 11

1. Arbitrin namizədliyinə, onun müstəqilliyinə və qərəzsizliyinə əsaslı şübhə olduqda, etiraz edilə bilər.
2. Arbitrə etiraz edən tərəf etirazın səbəblərini həmin səbəblər ona məlum olduğu andan Katibə bildirməlidir.
3. Etiraz edən tərəf göstərdiyi səbəbləri əvvəlcədən bilirdisə və ya bilməli idisə və buna baxmayaraq araşdırmada iştirak etmişdirsə, onun etirazı təmin edilmir. Etiraz, həmçinin, etirazın səbəblərinin etiraz edən tərəfə araşdırmanın gedişində aydın olduğu, lakin həmin tərəfin üzrsüz səbəbdən gecikdirməsi ilə olunduqda da təmin edilmir.
4. Arbitrə etiraz məsələsi Rəyasət Heyəti tərəfindən həll edilir.

## ARBİTRLƏRİN GERİ ÇAĞIRILMASI

### Maddə 12

1. Arbitr öz funksiyasını yerinə yetirmirsə və ya prosesi hədsiz ləngidirsə, istənilən tərəf onun geri çağırılması məsələsini qaldıra bilər. Müvafiq ərizə Katibliyə verilir. Bu barədə qərarı Rəyasət Heyəti qəbul edir.
2. Arbitrin öz funksiyalarını icra etməsinin mümkünsüzlüyü müvəqqəti xarakter daşımırsa, Rəyasət Heyəti tərəflərdən birinin ərizəsi üzrə onu geri çağırmalıdır. Əgər arbitrin öz funksiyalarını yerinə yetirə bilməməsi açıq-aşkar görünürsə, Rəyasət Heyəti onu tərəflərin hər hansı birinin ərizəsi olmadan da geri çağıra bilər.

### Maddə 13

1. Əgər arbitrə etiraz ərizəsi təmin olunubsa, əgər o, geri çağırılıbsa, səlahiyyətlərinin icrasından imtina edibsə, yaxud ölübsə - bu halda:
a) əgər o, təkbaşına arbitrdirsə, tərəflərə,
b) əgər o, arbitraj tərkibinin sədridirsə, qalan arbitrlərə,
c) arbitri müəyyən etmiş, yaxud onun üçün arbitr təyin olunmuş, əgər söhbət müəyyən olunmuş bir tərəfdən yaxud həmin tərəf üçün təyin olunmuş arbitrdən gedirsə, tərəfə

30 gün müddətində başqa arbitrin adının təqdim edilməsi, a) və b) bəndləri ilə müəyyən edilmiş hallarda – onların qarşılıqlı razılığı ilə arbitrin adının və ünvanının bildirilməsi təklif edilir. Müəyyən edilmiş müddət ərzində bu barədə bildiriş daxil olmazsa, yeni arbitri Rəyasət Heyəti təyin edir.
2. Yeni arbitr, araşdırmanı əvvəlki arbitrin çıxdığı vaxtda olan vəziyyətdəki kimi qəbul edir. Zərurət yaranarsa, arbitraj araşdırmanın ayrı-ayrı elementlərinin təkrarlanmasını təyin edə bilər.

## ARAŞDIRMA

### Maddə 14

1. Araşdırma şifahi və ya yalnız yazılı materiallar əsasında həyata keçirilə bilər. Dinləmə bir tərəfin xahişi, yaxud təkbaşına arbitr və ya arbitraj tərkibinin zəruri hesab etdiyi hallarda keçirilir.
2. Dinləmənin vaxtı işə təkbaşına baxan arbitr və ya arbitraj tərkibinin sədri tərəfindən müəyyən edilir. İşə qapalı iclasda baxılır. Dinləmənin nəticələri protokollaşdırılır.
3. Arbitrlər zəruri hesab edərlərsə, özləri sübutları toplaya, tərəfləri, yaxud şahidləri dindirə bilər, sənədlərin təqdim olunmasını və ekspertlərin cəlb edilməsini tələb edə bilərlər.

### Maddə 15

Tərəflər öz işlərini Arbitraj Məhkəməsində özlərinin vəkalətli nümayəndələri vasitəsi ilə apara bilərlər.

### Maddə 16

1. Arbitrlər işə baxarkən tərəflərin seçdikləri hüququ tətbiq etməlidirlər. Əgər tərəflər belə seçim etməyiblərsə, onda arbitrlər özlərinin daha uyğun hesab etdikləri kollizion normalarla müəyyən edilmiş hüququ tətbiq etməlidirlər. Hər bir halda arbitrlər müqavilənin və əqdin bağlanılması üçün əsas götürülmüş ticarət adətlərinin tələblərinə riayət etməlidirlər.
2. Tərəflər onlara birbaşa aşkar formada səlahiyyət verdikləri halda arbitrlər ədalətlilik mövqeyindən çıxış edərək, qərar çıxara bilərlər.

**Maddə 17**

1. Tərəflər başlanmış prosesi lazımi qaydada davam etdirməlidirlər. Araşdırmanın müvəqqəti olaraq qeyri-müəyyən müddətə, yaxud əsassız olaraq uzun müddətə, hətta, tərəflərin birgə ərizəsi əsasında da - dayandırılmasına icazə verilmir. Tərəflərin kifayət qədər əsası olmadan davam etdirmədikləri işi Rəyasət Heyəti icraatdan çıxara bilər; bu halda arbitrlərin səlahiyyətlərinə xitam verilir.

**QƏTNAMƏ**

**Maddə 18**

1. Qətnamələr yazılı çıxarılır və lazımi sayda nüsxələri arbitrlər tərəfindən imzalanır. Əgər qətnamədə arbitrin qətnaməni imzalamaqdan imtina etməsi, yaxud onun imzasının ağlabatan müddətə aradan qaldırıla bilməyən maneələrlə bağlı əldə edilməsinin mümkün olmaması göstərilibsə, onda qətnamənin arbitrlərin çoxluğu tərəfindən imzalanması kifayətdir. Qətnamə arbitraj tərkibinin səsçoxluğu ilə çıxarılırsa, azlıqda qalan arbitrin xahişi ilə bu haqda qərarda qeyd olunmalıdır.
2. Qərarların bütün lazımi sayda nüsxələri Katibin imzası və Arbitraj Məhkəməsinin möhürü ilə təsdiqlənir və tərəflərə göndərilir.
3. Arbitraj tərkibinin sədri, o, olmadıqda isə, digər arbitr tərəflərdən birinin xahişi ilə qərarın nüsxələrindən birinin hüquqi qüvvəsini və icra edilə bilməsini təsdiq etməlidir.
4. Tərəflər Vyana qaydalarının tətbiq edilməsinə razılaşarkən Arbitraj Məhkəməsinin qərarını icra edəcəklərini öhdələrinə götürürlər.
5. Qərarın bir nüsxəsi Arbitraj Məhkəməsinin Katibliyində qalır.

**Maddə 19**

Araşdırmanın bitməsini nəzərdə tutan qərarda Katib tərəfindən 23-cü maddənin 1-ci bəndi əsasında hazırki araşdırmanın müəyyən edilmiş xərcləri göstərilir.
Arbitraj, xərclərin, həmçinin, tərəflərin qanuni nümayəndəlik üçün sərf etdikləri haqlı xərclərin və hüquqların müvafiq müdafiəsi məqsədi ilə sərf edilmiş digər xərclərin tərəflər arasında hansı nisbətdə bölünməsini həll edir.

**Maddə 20**

Tərəflər, onların arasında əldə edilmiş barışıq sazişinin qərar şəklində rəsmiləşdirilməsini tələb edə bilərlər.

**Maddə 21**

Qərar və ya barışıq sazişi icraya yönəldilməlidirsə, onda Katib pulsuz, lakin tamlığına və etibarlığına zəmanət vermədən müraciət etmiş tərəfə qərarın, yaxud barışıq sazişinin icra edilməli olduğu ölkənin hüququ və həmin ölkədə qərarların icrası təcrübəsi haqqında onda olan məlumatı verə bilər.

## ARBİTRAJ ARAŞDIRMASI ÜZRƏ XƏRCLƏR

## XƏRCLƏRİN ÖDƏNİLMƏSİ VƏ DEPOZİT

### Maddə 22

1. İddiaçı əsas (yaxud qarşılıqlı) iddia üzrə qeydiyyat rüsumunu ödəməlidir; bu rüsum işin arbitrlərə verilməsinə qədər olan xərclərin ödənilməsi üçün təyin edilmişdir. Xərclər həmin məbləğdən çox olduqda əlavə məbləğ tələb oluna bilər.
2. Araşdırmada ikidən çox tərəf iştirak etdikdə, qeydiyyat rüsumu işə qoşulan hər bir əlavə tərəf üçün 10% miqdarında artırılır.
3. Qeydiyyat rüsumu geri qaytarılmır. Qeydiyyat rüsumu, həmçinin 1-ci bənddə qeyd edilmiş əlavə məbləğ iddiaçı (qarşılıqlı iddianı təqdim edən şəxs) tərəfindən ödənilmiş depozit hesabında nəzərə alınır.
4. İddia (qarşılıqlı iddia) barəsində bildiriş vərəqəsi yalnız nəzərdə tutulmuş qeydiyyat rüsumu ödənildikdən sonra çatdırılır.

### Maddə 23

1. Arbitraj xərcləri (inzibati xərclər, arbitrlərin qonorarları, nağd xərclər; məsələn, ekspertlərin qonorarları, arbitrlərin və ekspertlərin bir yerdən başqa yerə getmələri və yaşayış xərcləri, icarə üçün xərclər, protokollaşdırma, şifahi və yazılı tərcümələr üçün xərclər) Katib tərəfindən müəyyən edilir.
2. Araşdırmanın təkbaşına arbitr və ya arbitraj tərkibi tərəfindən aparılacağı müəyyən edilən kimi Katib depozitin həcmini müəyyənləşdirir; depoziti tərəflər işin arbitrlərə verilməsinə qədər onlara göndərilmiş təklifin alınmasından 30 gün müddətində gözlənilən xərclər üzrə bərabər hissədə ödəyirlər.
3. İddiaçı (qarşılıqlı iddianı təqdim edən şəxs) müəyyən edilmiş müddətdə öz payını ödəmədikdə, Katib iddia üzrə icraata xitam verə bilər. O, bu barədə tərəfləri məlumatlandırır. İddia (qarşılıqlı iddia) 6-cı maddəyə müvafiq qaydada təkrar verilə bilər.
4. Cavabdeh (qarşılıqlı iddia üzrə cavabdeh) öz payını müəyyən edilmiş müddətdə ödəmədikdə, Katib bu barədə iddiaçıya (qarşılıqlı iddianı təqdim edən şəxsə) məlumat verir və ona təklifin alındığı gündən 30 gün müddətində depozitin qalan hissəsinin ödənilməsini təklif edir. Müəyyən edilmiş müddətdə həmin məbləğ ödənilmədikdə Katib iddia

(qarşılıqlı iddia) üzrə icraata xitam verə bilər. O, bu barədə tərəflərə məlumat verir. İddia (qarşılıqlı iddia) 6-cı maddəyə müvafiq qaydada təkrar verilə bilər.

5. Araşdırmanın gedişində iddianın məbləğinin yüksəlməsi nəticəsində depozitin həcminin artırılmasına zərurət yarandıqda 2–4-cü bəndlərin tələbləri qüvvədə olur. Depozitə əlavənin ödənilməsinə qədər iddianın məbləğinin yüksəlməsi araşdırmanın gedişində nəzərə alınmamalıdır

6. Araşdırmanın gedişində, Katib tərəfindən depozitin ilkin müəyyən edilmiş məbləğinin nağd xərclərin ödənilməsi üçün kifayət olmadığı səbəbindən, depozitin artırılmasına zərurət yaranarsa, 2–4-cü bəndlərin tələbləri qüvvədə olur.

7. İddia məbləğinin azaldılması arbitrlərin qonorarlarının və inzibati məsrəflərin hesablanması üzrə, yalnız o halda nəzərə alınır ki, bu, işin arbitrlərə verilməsindən əvvəl edilmiş olsun.

8. Araşdırma qərar çıxarılmadan və barışıq sazişi bağlanmadan bitdikdə, Katib arbitrlərin qonorarlarının və inzibati məsrəflərin, həmçinin, nağd xərclərin müvafiq məbləğini müəyyən edir.

9. Arbitrlər ekspertlərin təyin edilməsini zəruri hesab etdikdə, güman edilən xərclərin həcmini göstərməklə Katibi bu barədə məlumatlandırmalıdırlar. Bu məbləğ 2–4-cü bəndlərin tələblərinə müvafiq qaydada ödənilməlidir. Arbitrlər, yalnız güman edilən xərclərin və ekspertlərin qonorarlarının məbləği Katibliyin depozit hesabına köçürüldükdən sonra, yaxud qonorarların verilməsinə və xərclərin ödənilməsinə tərəflərlə ekspertlər arasında bağlanmış podrat müqaviləsində zəmanət verildiyi halda, ekspertləri təyin edə bilərlər. Eyni qaydalar yazılı və şifahi tərcümə üçün tərcüməçilərin təyin edilməsi zamanı da tətbiq edilir.

**Maddə 24**

1. İnzibati məsrəflər və arbitrlərin qonorarları iddia məbləği əsasında bu Reqlamentə əlavə edilmiş arbitraj rüsumları və xərcləri cədvəli üzrə hesablanır. Nağd məsrəflər (məsələn, ekspertlərin qonorarları, arbitrlərin və ekspertlərin bir yerdən başqa yerə getmələri və yaşayış xərcləri, icarə, protokollaşdırma, şifahi və yazılı tərcümə üçün xərclər) fakt üzrə müəyyən edilir.

2. Tərəflərdən hər biri Katib tərəfindən müəyyən edilmiş depozitin müvafiq olaraq yarı hissəsini ödədikləri halda inzibati məsrəflərin və

arbitrlərin qonorarlarının müəyyən edilməsi üçün iddia məbləği ilə qarşılıqlı iddia məbləği cəmləşdirilir. Əks halda, iddia və qarşılıqlı iddia üzrə depozitlərin məbləğləri ayrı-ayrılıqda hesablanır.
3. Ayrıca hesablama, qarşılıqlı iddia üzrə irəli sürülmüş tələblər iddia tələblərinə aid olmadıqda da tətbiq edilir.
4. Araşdırmada ikidən çox tərəf iştirak etdikdə, inzibati məsrəflərin və arbitrlər üçün qonorarların bu Reqlamentə əlavə edilmiş cədvəldə nəzərdə tutulmuş məbləğləri hər bir əlavə tərəf üçün 10% məbləğində artırılır.
5. Ayrı-ayrı tələblər, yaxud qarşılıqlı tələblər üzrə aparılan araşdırma zamanı Katib ayrı-ayrı tələblərin iddia məbləğlərini əsas götürməklə arbitrlərin qonorarları üzrə ayrı-ayrılıqda hesablama apara bilər.
6. Arbitrlərin cədvəldə göstərilmiş qonorarlarının məbləğləri təkbaşına arbitrin qonorarının məbləği hesab olunur. Araşdırma arbitraj tərkibi tərəfindən aparıldıqda onların ölçüləri iki dəfə yarım, xüsusilə mürəkkəb işlər olduqda isə, üç dəfəyədək artırılır.

## BARIŞIQ REQLAMENTİ

### Maddə 1

Barışıq icraatı mübahisənin predmeti Arbitraj Məhkəməsinin səlahiyyətinə aid olduqda tərəflərdən birinin xahişi ilə aparıla bilər. Bunun üçün qüvvədə olan arbitraj qeyd-şərti tələb olunmur.

### Maddə 2

Barışıq icraatının keçirilməsi haqqında vəsatət Arbitraj Məhkəməsinin Katibliyinə göndərilir. Katiblik digər tərəfə və ya tərəflərə vəsatətin alındığı gündən 30 gün müddətində bu məsələ barədə öz rəylərini bildirməyi təklif edir. Tərəf barışıq icraatından imtina etdikdə, yaxud öz rəyini müəyyən edilmiş müddət ərzində bildirmədikdə barışıq icraatı aparılmır.

### Maddə 3

Barışıq icraatının aparılmasına tərəfin (tərəflərin) razılığı olduqda, Rəyasət Heyəti öz üzvlərindən birini, yaxud digər ixtisaslı şəxsi barışdırıcı funksiyasını yerinə yetirmək üçün təyin edir. Sonuncu tərəflərin təqdim

etdikləri sənədləri öyrənir, tərəfləri işin müzakirəsinə çağırır və mübahisənin sülh yolu ilə həlli barədə təklif irəli sürür.

**Maddə 4**

Barışıq sazişinə nail olunduqda, bu, tərəflərin və barışdıran şəxsin imzaladığı protokolda qeyd edilir. Qüvvədə olan arbitraj sazişi olduqda Rəyasət Heyəti, iş üzrə bütün tərəflərin vəsatəti olduqda, barışdıran şəxsi təkbaşına arbitr təyin edir. Sonuncu barışığı barışıq sazişi şəklində, tərəflər istədikdə isə, arbitraj qərarı ilə rəsmiləşdirməlidir.

**Maddə 5**

Barışıq razılaşması əldə edilmədikdə barışıq icraatı bitmiş hesab olunur. Barışıq icraatının gedişində tərəflərin verdikləri bəyanatlar (məlumatlar) onları sonrakı arbitraj araşdırmasında asılı etmir. 4-cü maddədə nəzərdə tutulmuş hal istisna olmaqla, barışdıran şəxs işin sonrakı arbitraj araşdırmasında arbitr təyin edilə bilməz.

**Maddə 6**

Barışıq icraatı ilə, həmçinin, barışdıran şəxsin 4-cü maddəyə müvafiq fəaliyyəti ilə bağlı xərclər, Katib tərəfindən müvafiq iddia məbləği olan işlər üzrə arbitraj araşdırmasının aparılmasına görə tələb edilən xərclərin ölçüsünə müvafiq həcmdə müəyyən edilir (Arbitraj Reqlamentinin 24-cü maddəsinin 1-ci bəndi). Katib tərəfindən müəyyən edilən depozitlər haqqında da eyni qayda tətbiq edilir.

## ARBİTRAJ RÜSUMLARI VƏ XƏRCLƏRİ[1]

## Qeydiyyat rüsumu 20.000 avstriya şillinqi[2]

İnzibati xərclər[3]

| **İddianın dəyəri (şillinqlə)** | | |
|---|---|---|
| | 1.000.000-a qədər | 30.000 |
| 1.000.001 | 2.000.000 | 30.000+1.000.000-dan artıq məbləğin 1,5% |
| 2.000.001 | 5.000.000 | 45.000+2.000.000-dan arıtq məbləğin 1% |
| 5.000.001 | 10.000.000 | 75.000+5.000.000-dan artıq məbləğin 0,5% |
| 10.000.001 | 20.000.000 | 110.000+10.000.000-dan artıq məbləğin 0,2% |
| 20.000.001 | 50.000.000 | 150.000+20.000.000-dan artıq məbləğin 0,1% |
| 50.000.001 | 100.000.000 | 180.000+50.000.000-dan artıq məbləğin 0,05% |
| | 100.000.000-dan yuxarı | 205.000+100.000.000-dan artıq məbləğin 0,01% |
| Təkbaşına arbitrlərin qonorarları[4] | | |
| İddianın dəyəri (şillinqlə) | | |
| | 1.000.000-a qədər | 6%, minimum 10.000 |
| 1.000.001 | 2.000.000 | 60.000+1.000.000-dan artıq məbləğin 3% |
| 2.000.001 | 5.000.000 | 90.000+2.000.000-dan artıq məbləğin 2,5% |
| 5.000.001 | 10.000.000 | 165.000+5.000.000-dan artıq məbləğin 2% |
| 10.000.001 | 20.000.000 | 265.000+10.000.000-dan artıq məbləğin 1% |
| 20.000.001 | 50.000.000 | 365.000+20.000.000-dan artıq məbləğin 0,6% |
| 50.000.001 | 100.000.000 | 545.000+50.000.000-dan artıq məbləğin 0,4% |
| 100.000.001 | 200.000.000 | 745.000+100.000.000-dan artıq məbləğin 0,2% |
| 200.000.001 | 1.000.000.000 | 945.000+200.000.000-dan artıq məbləğin 0,1% |
| | 1.000.000.000-dan yuxarı | 1.745.000+1 mlrd.-dan artıq məbləğin 0,01% |

[1] 01.01.1997-ci il tarixdən qüvvəyə minmişdir.
[2] 22-ci maddəyə bax.
[3] 24-cü maddəyə bax
[4] 24-cü maddənin 6-cı bəndinə bax.

# ALMANİYA ARBİTRAJ İNSTİTUTU ARBİTRAJ MƏHKƏMƏSİNİN REQLAMENTİ

*1 iyul 1998-ci ildən qüvvəyə minmişdir*

# ALMANİYA ARBİTRAJ İNSTİTUTU ARBİTRAJ MƏHKƏMƏSİNİN REQLAMENTİ

## Arbitraj sazişi

Almaniya Arbitraj İnstitutu öz müqavilələrində onun arbitrajına istinad etmək istəyən bütün tərəflərə aşağıdakı arbitraj sazişini tövsiyə edir.

«Müqavilə ilə bağlı (…müqavilənin adı) bütövlükdə və qismən yaranan mübahisələr adi yurisdiksiyalı məhkəmələrə müraciət etmədən Almanya Arbitraj İnstitutunun arbitraj məhkəməsinin Reqlamentinə uyğun olaraq, qəti həll olunurlar.

Bundan sonra aşağıdakı əlavələr tövsiyə olunur:

- Arbitrajın yeri…
- Arbitrlərin sayı…
- Mübahisənin mahiyyətinə tətbiq olunan maddi normalar…
- Arbitraj araşdırması … dilində aparılır.

## ARBİTRAJ SAZİŞİNİN FORMASINA AİD TƏLƏBLƏR

Mübahisələr Arbitraj Məhkəməsinin bu Reqlamentinə müvafiq qaydada həll olunursa, yazılı formada arbitraj sazişinin olması zəruridir. Qüvvədə olan beynəlxalq prinsiplərə müvafiq olaraq, Arbitraj sazişi tərəflərin imzaladığı müqavilədə, yaxud məktublarda, həmçinin, tərəflərin mübadilə etdiyi telefaks və ya teleqraf yazışmalarında əks olunubsa, arbitraj sazişi yazılı tərtib olunmuş hesab edilir.

01 yanvar 1998-ci ildən Almaniyada arbitraj sazişinin forması Mülki prosessual qanunvericiliyin § 1031 qaydaları ilə müəyyən olunur:

**§ 1031**

(1) Arbitraj sazişi ya tərəflərin imzaladığı sənəddə olmalıdır, yaxud telefaks, teleqraf vasitəsilə məktubların, məlumatların mübadiləsi yolu ilə və ya belə sazişin təsbit edilməsini təmin edən elektrorabitənin digər vasitələrindən istifadə olunması ilə bağlanmış hesab olunur.

(2) Bu paraqrafın birinci bəndində nəzərdə tutulan forma, bir tərəfin digər tərəfə və ya üçüncü tərəfin hər iki tərəfə ötürdüyü sənəddə arbitraj sazişinin olduğu və belə sənədin məzmunu vaxtsız bəyan edilmiş etiraz

zamanı ümumi prinsiplərə cavab verdikdə yerinə yetirilmiş hesab olunur.
(3) Bu paraqrafın birinci və ikinci bəndlərində nəzərdə tutulan formanın tələblərinə cavab verən istinad, həmin qeyd-şərt müqavilənin tərkib hissəsi olduğu halda, arbitraj sazişi hesab olunur.
(4) Arbitraj sazişi birbaşa çarter müqaviləsində olan arbitraj qeyd-şərtinə əsaslanmadan ibarət olan konosamentin verilməsi nəticəsində də yaranır.
(5) İstehlakçının iştirak etdiyi arbitraj sazişi tərəflərin öz dəst-xətti ilə imzaladığı sənədin tərkibində olmalıdır. Belə sənəd yalnız arbitraj araşdırmasına aid olan razılaşmadan ibarət olmalıdır; notarial təsdiqli sənədin hüquqi qüvvəsi yoxdur. İstehlakçı deyiləndə nəzərdə tutulan fiziki şəxs mübahisəyə səbəb olmuş əqdlə əlaqəlidir və onun sahibkar və ya müstəqil peşə fəaliyyətinə aid olmayan məqsədlə hərəkət edir.
(6) Sazişin formasının tələblərinə riayət edilməməsi cavabdehin mübahisənin mahiyyəti üzrə arbitraj araşdırmasına daxil olması ilə aradan qaldırılır.

## ALMANİYA ARBİTRAJ İNSTİTUTUNUN ARBİTRAJ MƏHKƏMƏSİNİN REQLAMENTİ

### § 1. Tətbiq dairəsi

1.1. Arbitraj Məhkəməsinin bu Reqlamenti Alman Arbitraj İnstitutunun (Deutsche İnstitution für Schiedsgerishtsbarkeit - DIS) Arbitraj Məhkəməsinin Reqlamentinə uyğun olaraq tərəflər arasında bağlanmış arbitraj sazişinə müvafiq qaydada Arbitraj Məhkəməsinə baxılmaq üçün verilən mübahisələrin həllində tətbiq olunur.

1.2. Tərəflər arasında digər razılaşma olmadıqda, Arbitraj araşdırmasının başlanma anında qüvvədə olan Arbitraj Məhkəməsinin Reqlamenti tətbiq olunur.

### § 2. Arbitrlərin seçilməsi

2.1. Tərəflər öz mülahizələrilə arbitrləri seçirlər və təyin edirlər.
2.2. Tərəflər başqa qayda barədə razılığa gəlməyiblərsə, arbitraj tərkibinin sədri və ya təkbaşına arbitr hüquqşünas olmalıdır.
2.3. Alman Arbitraj İnstitutu arbitrlərin seçilməsi üçün sorğu üzrə təqdimatlar verir.

**§ 3. Arbitrlərin sayı**

Tərəflər arasında digər razılıq yoxdursa, Arbitraj Məhkəməsi üç arbitrdən ibarətdir.

**§ 4. Ərizələrin və əlavələrin sayı**

Prosesin gedişi zamanı hazırlanmış bütün sənədlər və onlara əlavələrin nüsxələri minimum o sayda olmalıdır ki, hər bir arbitr, hər bir tərəf və həmçinin, əgər ərizə Alman Arbitraj İnstitutuna təqdim olunursa, sonuncu da təqdim olunan sənədlərin bir nüsxəsini əldə edə bilsin.

**§ 5. Yazılı məlumatların çatdırılması**

5.1. İddia ərizələri və proses zamanı tərəflərin hazırladıqları sənədlər, mahiyyəti üzrə vəsatət və ya iddiaçının iddiadan imtinasını təsbit edən sənədlər bu sənədlərin çatdırılmasının qeydiyyatını təmin edən kuryer xidməti müəssisəsi vasitəsilə, göndərilən ünvana çatdırılmış yazılı bildirişli sifarişli məktub, telefaks və s. üsullarla çatdırılmalıdır.
Bütün digər sənədlər, həmçinin, istənilən digər üsulla çatdırıla bilər. Arbitraj məhkəməsinə təqdim olunan istənilən sənəd və məlumatlar, eyni zamanda, digər tərəfə də çatdırılmalıdır.
5.2. Arbitraj məhkəməsinin və ya Alman Arbitraj İnstitutunun katibliyinin, tərəflərin bütün yazılı məlumatları təhvil alanın və ya o, olmadıqda digər tərəfin bildirdiyi axırıncı məlum olan ünvana göndərilməlidir.
5.3. Yazılı məlumatı qəbul etməyə səlahiyyətli olan tərəfin və ya şəxsin olduğu yer məlum olmadıqda bu məlumatın çatdırılması cəhdinin qeydə alınmasını təmin edən – kuryer rabitəsi müəssisəsi, telefaks və ya digər üsulla sonuncu məlum ünvana göndərənin qəbul edənə çatdırılma barədə yazılı bildirişli sifarişli məktubunun çatdırılması mümkün olan müddətin sonuncu günü istənilən yazılı məlumat qəbul olunmuş hesab edilir.
5.4. Bu paraqrafın birinci bəndinə müvafiq qaydada çatdırılan sənəd digər şəkildə təhvil alınıbsa, bu sənədin faktiki daxil olduğu andan çatdırılma icra edilmiş hesab olunur.
5.5. Tərəflərdən hər hansı biri prosessual səlahiyyətli şəxs təyin edibsə, yazılı məlumatlar həmin şəxsə təqdim olunmalıdır.

## § 6. Arbitraj araşdırmasının başlanması

6.1. İddia, Alman Arbitraj İnstitutunun katibliklərindən birinə iddiaçı tərəfindən təqdim olunur. Arbitraj araşdırması, iddia ərizəsinin Alman Arbitraj İnstitutunun katibliklərindən birinə daxil olduğu andan başlanır.
6.2. İddia ərizəsində aşağıdakılar göstərilməlidir:
(1) tərəflərin adları;
(2) tələblərin mahiyyəti;
(3) iddia tələblərinin əsaslandığı faktların və halların ifadəsi;
(4) arbitraj sazişinin yenidən ifadəsi;
(5) Tərəflər arasında mübahisənin təkbaşına arbitr tərəfindən həlli barədə razılıq olmadıqda halda arbitrin təyin olunması.
6.3. Bundan başqa, iddia ərizəsində olmalıdır:
(1) iddianın qiymətinin miqdarı haqqında məlumat;
(2) Tərəflər mübahisənin təkbaşına arbitr tərəfindən həllinə razılaşıblarsa, arbitrin təyin olunması ilə bağlı təkliflər;

(3) arbitraj araşdırmasının yeri və dili, həmçinin, tətbiq edilən hüquq barədə məlumatlar.
6.4. Əgər iddia ərizəsi tam deyilsə və ya nüsxələrin, yaxud əlavələrin zəruri sayı qatışmırsa, Alman Arbitraj İnstitutunun katibliyi iddiaçıdan bu məqsəd üçün ayrılmış müddətdə iddia ərizəsinin tamamlanmasını tələb edir.
İddia ərizəsi bu müddət ərzində tamamlanarsa, bu paraqrafın 1-ci bəndinin 2-ci cümləsinə uyğun olaraq araşdırma başlanır, digər hallarda, iddiaçının öz iddia ərizəsini təkrar təqdim etmək hüququna toxunulmadan araşdırma dayandırılır.

## § 7. Araşdırmanın başlanması ilə əlaqədar xərclər

7.1. İddia qaldırılarkən iddiaçı Alman Arbitraj İnstitutuna Alman Arbitraj İnstitutunun inzibati yığımını və iddia ərizəsi Alman Arbitraj İnstitutunun katibliyinə daxil olan gün qüvvədə olan xərclər cədvəlinə (§40-ın 5-ci bəndinə Əlavə) uyğun olaraq arbitrlər üçün əvvəlcədən avans ödəməlidir.

7.2. Alman Arbitraj İnstitutunun inzibati yığımı və arbitrlər üçün avans ödənməmişdirsə, Alman Arbitraj İnstitutunun katibliyi iddiaçıya hesab göndərir və iddiaçının onu ödəməsi üçün vaxt müəyyən edir. Alman Arbitraj İnstitutunun katibliyinin müvafiq olaraq artırıla bilən, müəyyən

etdiyi vaxtda ödəmə aparılmadıqda, iddiaçının öz iddia ərizəsini təkrar təqdim etmək hüququna toxunulmadan araşdırma dayandırılır.

### § 8. İddianın cavabdehə çatdırılması

Alman Arbitraj İnstitutunun katibliyi ləngitmədən iddia ərizəsini cavabdehə çatdırır. İddia ərizəsinin katiblik tərəfindən çatdırılması (iddia ərizəsinin və əlavələrin sayı) §4-ün tələblərinə uyğun nüsxədə və §7-yə müvafiq qaydada ödəniş daxil olduqda həyata keçirilir.

### § 9. İddia üzrə etiraz

§17-yə uyğun olaraq arbitraj tərkibi formalaşdıqdan sonra arbitraj tərkibi cavabdehin iddia üzrə etirazını bildirməsi üçün vaxt təyin edir. Arbitraj tərkibi bu müddəti müəyyən edərkən, müvafiq qaydada cavabdehin iddianı aldığı vaxtı nəzərə alır.

### § 10. Qarşılıqlı iddia

10.1. Qarşılıqlı iddia Alman Arbitraj İnstitutunun katibliklərindən birinə təqdim olunur. Müvafiq olaraq §6-nın 1-4-ci bəndlərinin tələbləri qarşılıqlı iddiaya şamil olunur.
10.2. Qarşılıqlı iddianın yol verilənliyi barədə qərarı arbitraj tərkibi qəbul edir.

### § 11. Qarşılıqlı iddianın irəli sürülməsi ilə əlaqədar xərclər

11.1. Qarşılıqlı iddianı irəli sürərkən cavabdeh Alman Arbitraj İnstitutuna Alman Arbitraj İnstitutunun inzibati yığımını, araşdırmanın başlanma anında qüvvədə olan xərclər cədvəlinə (§40-ın 5-ci bəndindəki Əlavə) uyğun olaraq ödəməlidir.
11.2. Alman Arbitraj İnstitutunun inzibati yığımı ödənilmədiyi halda Alman Arbitraj İnstitutunun Katibliyi cavabdehə hesab göndərir və onun ödənilməsi vaxtını müəyyənləşdirir. Alman Arbitraj İnstitutunun katibliyinin müvafiq olaraq artırıla bilən, müəyyən etdiyi vaxtda ödəmə aparılmadığı halda, qarşılıqlı iddiaya diqqət verilmir (baxılmamış saxlanılır).
11.3. Alman Arbitraj İnstitutunun katibliyi ləngitmədən qarşılıqlı iddia ərizəsini iddiaçıya və arbitraj tərkibinə çatdırır. O, qarşılıqlı iddia

ərizəsinin çatdırılmasını onda §4-ə uyğun olaraq qarşılıqlı iddia ərizəsinin və ona əlavələrin lazım olan sayda nüsxələrinin olmasından və bu paraqrafın 1-ci bəndinə müvafiq olaraq ödənişin daxil olmasından asılı olaraq, həyata keçirə bilər.

## § 12. Üç arbitr heyəti ilə arbitraj məhkəməsi

12.1. İddia ərizəsinin çatdırılması ilə eyni vaxtda Alman Arbitraj İnstitutunun katibliyi cavabdehdən tələb edir ki, o da arbitr təyin etsin. Əgər cavabdeh tərəfindən arbitrin təyin edilməsi Alman Arbitraj İnstitutunun katibliyinə cavabdehin iddia ərizəsini almasından 30 gün ərzində daxil olmazsa, iddiaçı arbitrin Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsi tərəfindən təyin edilməsini xahiş edə bilər. Cavabdehin xahişi ilə Alman Arbitraj İnstitutunun katibliyi göstərilən vaxtı uzada bilər. Arbitrin təyin edilməsi, göstərilən müddət bitdikdən sonra da vaxtında hesab edilə bilər, o halda ki, bu təyinat Alman Arbitraj İnstitutunun katibliyinə, iddiaçının Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsinə arbitr təyin etmək xahişindən əvvəl daxil olub.
Tərəf təyin etdiyi arbitrlə Alman Arbitraj İnstitutunun katibliyi bu təyinat barədə məlumat aldıqdan dərhal sonra əlaqədədir.
12.2. Tərəflərin təyin etdikləri arbitrlər arbitraj tərkibinin sədrini təyin edirlər və ləngitmədən bu təyinat barədə Alman Arbitraj İnstitutunun katibliyinə məlumat verirlər. Arbitraj heyətinin sədrini təyin edərkən arbitrlər tərəflərin bir-birinə uyğun gələn istəklərini nəzərə almalıdırlar. Arbitraj məhkəməsi tərkibinin sədrinin təyin edilməsi barədə məlumat Alman Arbitraj İnstitutunun katibliyinin tələb etdiyi vaxtdan sonra 30 gün ərzində Alman Arbitraj İnstitutunun katibliyinə daxil olmadıqda tərəflərin hər biri Alman Arbitraj İnstitutunun arbitr təyin etmək üzrə Komitəsindən arbitraj tərkibinin sədrinin təyin edilməsini xahiş edə bilər. Təyinat öz vaxtında edilmiş hesab edilə bilər. Təyinat vaxtında edilmiş hesab edilir, o halda ki, belə təyinat Alman Arbitraj İnstitutunun katibliyinə, tərəflərdən birinin AAİ-nin arbitr təyin etmək üzrə Komitəsinə arbitraj tərkibinin sədrinin təyin olunması xahişindən əvvəl daxil olub.

## § 13. İddiaçının və ya cavabdehin tərəfində tərəf çoxluğu

13.1. Bir neçə iddiaçı olduğu halda, tərəflər digər hal barədə razılığa gəlməyiblərsə, arbitraj iddiasında hakimin təyin edilməsi onlar tərəfindən birgə həyata keçirilir.
13.2. Arbitraj iddiasında iki və ya daha çox cavabdeh göstərdikdə, tərəflər digər hal barədə razılığa gəlməyiblərsə, onda iddianın alındığı vaxtdan 30 gün müddətində cavabdehlər arbitri birgə təyin etməlidirlər. İddia ərizəsi cavabdehlərə müxtəlif vaxtlarda çatdırıldıqda, bu müddət iddianı axırıncı cavabdehin aldığı vaxtdan hesablanır. Alman Arbitraj İnstitutunun katibliyi bu müddəti uzada bilər. Cavabdehlər göstərilən vaxt ərzində öz aralarında arbitrin təyin edilməsi barədə razılığa gəlmədikdə, Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsi, tərəflər digər hal nəzərdə tutmayıblarsa, tərəfləri dinləyir və iki arbitr təyin edir. Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsinin etdiyi təyinat nəticəsində iddiaçı tərəfindən edilmiş təyinat öz əhəmiyyətini itirir.

Tərəflərin və ya Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsinin təyin etdikləri arbitrlər arbitraj tərkibinin sədrini təyin edirlər. §12-nin 2-ci bəndi müvafiq olaraq qüvvədə olur, bununla əlaqədar bir tərəfin xahişi kifayətdir.
13.3. Araşdırmanın bir neçə tərəfin iştirakı ilə aparılmasının yol verilənliyi barədə qərarı arbitraj məhkəməsi qəbul edir.

## § 14. Təkbaşına arbitr

Arbitraj məhkəməsi təkbaşına arbitrdən ibarətdirsə və cavabdeh tərəfindən iddianın alındığı vaxtdan 30 gün müddətində tərəflər öz aralarında tək arbitr barədə razılığa gəlməsələr, hər hansı tərəf Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsindən tək arbitrin təyin edilməsini xahiş edə bilər.

## § 15. Qərəzsizlik və müstəqilik

Arbitr qərəzsiz və müstəqil olmalıdır. O, öz vəzifələrini vicdanla yerinə yetirməlidir; bu zaman o, heç bir göstərişlə əlaqədar olmamalıdır.

## § 16. Mandatın qəbul edilməsi

16.1. Arbitr təyin edilmiş şəxs ləngitmədən mandatın qəbul edilməsi və tərəflərin müəyyən etdikləri şərtlərin yerinə yetirilməsinə başlaması barədə Alman Arbitraj İnstitutunun katibliyini xəbərdar etməlidir və onun qərəzsizliyi və müstəqilliyini əsaslı şübhə altına ala biləcək bütün hallar barədə məlumat verməlidir. Alman Arbitraj İnstitutunun Katibliyi tərəflərə bu barədə məlumat verir.
16.2. Əgər arbitrin ərizəsində onun qərəzsizliyini və ya müstəqilliyini və yaxud müəyyən olunmuş şərtlərin yerinə yetirilməsini şübhə altına ala biləcək hallar varsa, Alman Arbitraj İnstitutunun katibliyi öz mövqelərini izah etmək üçün tərəflərə müvafiq vaxt verir.
16.3. Arbitr arbitraj araşdırmasının aparıldığı bütün müddət ərzində tərəflərə və Alman Arbitraj İnstitutunun katibliyinə və tərəflərə onun qərəzsizliyini və müstəqilliyini şübhə altına ala biləcək bütün hallar barədə ləngitmədən məlumat verməlidir.

## § 17. Arbitrlərin təsdiq edilməsi

17.1. Alman Arbitraj İnstitutunun Katibliyi təyin olunmuş arbitrin mandatı qəbul etməsi barədə ərizəsini alan kimi, əgər bu ərizədə onun qərəzsizliyi və müstəqilliyi və ya müəyyən olunmuş şərtlərin yerinə yetirilməsini şübhə altına ala biləcək əsaslar yoxdursa və yaxud tərəflərdən heç biri §16-nın 2-ci bəndində nəzərdə tutulmuş müddət ərzində müvafiq arbitrin təsdiq edilməsinə etiraz bildirməzsə, Alman Arbitraj İnstitutunun baş katibi təyin edilmiş arbitri təsdiq edir.
17.2. Digər hallarda təyin edilmiş arbitrin təsdiq edilməsi barədə qərarı Alman Arbitraj İnstitutunun arbitr təyin etmə üzrə Komitəsi qəbul edir.
17.3. Bütün arbitrlər təsdiq edildikdə arbitraj tərkibi formalaşmış hesab olunur. Alman Arbitraj İnstitutunun katibliyi tərəfləri arbitraj tərkibinin formalaşması barədə məlumatlandırır.

## § 18. Arbitrə etiraz

18.1. Arbitrə yalnız o halda etiraz verilə bilər ki, onun qərəzsizliyi və müstəqilliyini şübhə altına ala bilən hallar olsun və yaxud o, tərəflərin razılaşmasında tələb edilən ixtisasa malik olmasın. Tərəf öz təyin etdiyi və ya təyin olunmasında iştirak etdiyi arbitrə yalnız o halda etiraz edə bilər ki, bunun səbəbi onun təyin edilməsindən sonra məlum olsun.

18.2. Əsaslandırılmış etiraz §17-nin 3-cü bəndinə uyğun olaraq arbitraj məhkəməsinin formalaşması haqqında məlumatı aldıqdan və ya etirazın səbəbi məlum olduqdan sonra iki həftə ərzində Alman Arbitraj İnstitutunun katibliyinə təqdim edilir. Alman Arbitraj İnstitutunun katibliyi arbitrləri və digər tərəfi etiraz barədə məlumatlandırır və etiraz elan edilmiş arbitrin və digər tərəfin öz mövqelərini izah etməsi üçün müvafiq vaxt müəyyənləşdirir. Əgər bu müddət ərzində etiraz edilmiş hakim özü mandatından imtina etmirsə və ya digər tərəf etirazla razılaşmırsa, etiraz vermiş tərəf iki həftə ərzində arbitraj tərkibindən (əgər tərəflər başqa hallar haqqında razılığa gəlməyiblərsə) etiraz barədə məsələni həll etməyi xahiş edir.

18.3. Əgər digər tərəf etirazla razılaşırsa və ya arbitr etiraz edildikdən sonra mandatından imtina edərsə və yaxud arbitrin geri çağırılması barədə xahiş yerinə yetirilərsə, yeni arbitr təyin edilir. Yeni arbitrin təyin edilməsi və təsdiq olunmasına müvafiq olaraq 12-17-ci paraqraflar tətbiq edilir.

## § 19. Arbitrin fəaliyyətsizliyi və ya fəaliyyətinin mümkün olmaması

19.1. Arbitr hüquqi və ya faktiki cəhətdən öz funksiyalarını yerinə yetirə bilmirsə və ya başqa səbəblərə görə ağlasığmaz dərəcədə uzun müddət fəaliyyətsizlik göstərirsə və əgər arbitr özü öz vəzifəsindən imtina edirsə və ya tərəflər onun mandatının dayandırılması barədə razılığa gəlirlərsə, onun mandatının fəaliyyəti dayandırılır. Əgər arbitr özü öz vəzifəsindən imtina etmirsə və ya tərəflər mandatın dayandırılması barədə razılığa gələ bilmirlərsə hər hansı tərəf mandatın fəaliyyətinin dayandırılması barədə qərarın qəbul edilməsi xahişi ilə səlahiyyətli məhkəməyə müraciət edə bilər.

19.2. Arbitrin mandatının dayandırıldığı halda yeni arbitr təyin edilir. Yeni arbitrin təyin edilməsi və təsdiq olunmasına müvafiq olaraq §§12-17 tətbiq edilir.

19.3. Bu paraqrafın 1-ci bəndinə və ya §18-ın 2-ci bəndinə əsasən arbitr özü vəzifəsindən imtina edirsə və ya tərəf mandatın fəaliyyətinin dayandırılmasına razılıq verirsə, bu hal bu paraqrafın 1-ci bəndində və ya §18-in 1-ci bəndində qeyd edilmiş hər hansı əsasın tanınmasını nəzərdə tutmur.

## § 20. Təminedici tədbirlərin görülməsi

20.1. Tərəflər digər hal barədə razılığa gəlməyiblərsə, arbitraj tərkibi hər hansı bir tərəfin xahişi ilə mübahisənin predmetinə dair özünün zəruri hesab etdiyi təminedici tədbirlərin görülməsi barədə sərəncam verə bilər. Arbitraj tərkibi istənilən tərəfdən belə tədbirlərlə əlaqədar lazımi təminatın təqdim edilməsini tələb edə bilər.
20.2. Arbitraj araşdırmasına qədər və ya araşdırma müddətində tərəfin arbitraj araşdırmasının predmetinə aid olan iddianı təmin edən tədbirlərin görülməsi barədə dövlət məhkəməsinə müraciət etməsi arbitraj sazişi ilə ziddiyyət təşkil etmir.

## § 21. Arbitrajın yeri

21.1. Arbitrajın yeri barədə tərəflər razılığa gəlmədiyi halda, belə yeri arbitraj tərkibi müəyyən edir.

21.2. Bu paraqrafın 1-ci bəndinin tələblərinə baxmayaraq, tərəflər arasında digər razılıq yoxdursa, arbitraj tərkibi iş üzrə dinləmənin keçirilməsi, şahidlərin, ekspertlərin və ya tərəflərin dindirilməsi üçün, onun üzvləri arasında məsləhətləşmələrin aparılması, əmlaka baxış keçirilməsi və ya sənədlərlə tanışlıq üçün münasib hesab etdiyi istənilən yerdə yığışa bilər.

## § 22. Araşdırmanın dili

22.1. Tərəflər özləri arbitraj araşdırmasında istifadə ediləcək dil və ya dillər barədə razılığa gələ bilərlər. Belə razılaşma olmadıqda arbitraj tərkibi araşdırmada istifadə edilməli olan dil və ya dilləri müəyyən edir. Tərəflər arasında belə razılaşma və ya arbitraj tərkibinin qərarı, əgər onlarda digər hal nəzərdə tutulmayıbsa, tərəflərin istənilən yazılı ərizəsinə, işin dinlənilməsinə və istənilən arbitraj qətnaməsinə, arbitraj tərkibinin digər qərarına və başqa məlumata aiddir.

22.2. Arbitraj tərkibi istənilən ekspert rəyləri və başqa sənədli sübutların tərəflərin razılaşdıqları və ya arbitraj məhkəməsinin müəyyən etdiyi dilə və ya dillərə tərcümə olunmasına sərəncam verə bilər.

## § 23. Tətbiq edilən hüquq

23.1. Arbitraj tərkibi mübahisəni tərəflərin mübahisənin mahiyyəti üzrə tətbiq edilə bilən, seçilmiş hüquq normalarına uyğun olaraq həll edir. Tərəflər birbaşa formada başqa hallar barədə razılığa gəlmədikdə, hər hansı dövlətin hüququ və ya hüquq sisteminin göstərişi kollizion normalar kimi yox, həmin dövlətin maddi hüququna aid normalar kimi izah edilməlidir.

23.2. Tərəflərin hər hansı göstərişi olmadıqda, Arbitraj tərkibi araşdırma predmetinin daha sıx bağlı olduğu dövlətin qanununu tətbiq edir.

23.3. Arbitraj tərkibi, yalnız tərəflər ona birbaşa belə səlahiyyət verdikdə, ex aequo et bono və ya “barışıq vasitəçiliyi” qərarını qəbul edir. Belə səlahiyyət Arbitraj Məhkəməsində mübahisənin həll olunmasına qədər verilə bilər.

23.4. Arbitraj tərkibi bütün hallarda müqavilənin şərtlərinə müvafiq olaraq və bu əqdə tətbiq edilən ticarət ənənələrini nəzərə almaqla qərar qəbul edir.

## § 24. Prosedur

24.1. Arbitraj araşdırmasına arbitraj məhkəməsinin hazırkı reqlamenti ilə arbitraj yerində qüvvədə olan arbitraj hüququnun imperativ normaları, zərurət olduqda isə tərəflərin sonrakı razılaşması tətbiq edilir. Digər hallarda arbitraj məhkəməsi arbitraj araşdırmasını müvafiq hesab etdiyi qaydada aparır.

24.2. Arbitraj tərkibi tərəflərin bütün əhəmiyyətli faktlar üzrə tam izahat vermələrinə və onlar tərəfdən məqsədəuyğun xahiş və ərizələrin verilməsinə yardım etməlidir.

24.3. Araşdırmanı Arbitraj tərkibinin sədri aparır.

24.4. Ayrı-ayrı məsələlər üzrə qərarlar, digər arbitrlər sədrə səlahiyyət veriblərsə, Arbitraj tərkibinin sədri tərəfindən təkbaşına qəbul edilir.

## § 25. Arbitraj tərkibi üçün avans

Arbitraj tərkibi araşdırmanı Arbitraj tərkibinin gözlənilən xərclərinə avansın ödənilməsindən asılı olaraq davam etdirə bilər. O, iddiaçı və cabdehin hər birindən müvafiq olaraq bu avansın yarısını tələb etməlidir. Avansın məbləğinə arbitrlərin tam qonorarı və qanuna uyğun

olaraq əlavə dəyər vergisi də daxil olmaqla nəzərdə tutulan xərclər daxil edilə bilər.
İddiaçının hesabından gələn avansdan bu reqlamentin §7-nin 1-ci bəndinə müvafiq olaraq Alman Arbitraj İnstitutuna ödəniş çıxılır.

## § 26. Tərəflərin mövqelərinin ifadə edilməsi

26.1. Tərəflərə bərabər münasibət olmalıdır. Hər bir tərəfə araşdırmanın istənilən mərhələsində öz mövqelərini izah etmək üçün bütün imkanlar verilməlidir. Hər bir tərəfə sübutların toplanması məqsədilə Arbitraj tərkibinin keçirdiyi istənilən dinləmələr və iclaslar barədə kifayət qədər əvvəlcədən bildiriş göndərilməlidir. Tərəflər öz nümayəndələri vasitəsilə fəaliyyət göstərə bilərlər.
26.2. Tərəflərdən birinin Arbitraj tərkibinə təqdim etdiyi istənilən ərizələr, sənədlər və ya digər məlumat digər tərəfə verilməlidir. Arbitraj tərkibinin qərar çıxararkən əsaslana biləcəyi sübutedici əhəmiyyəti olan istənilən ekspert rəyi və ya digər sənədlər hər iki tərəfə verilməlidir.

## § 27. İşin hallarının müəyyənləşdirilməsi

27.1. Arbitraj tərkibi işin hallarını müəyyənləşdirməlidir. Bu məqsədlə o müvafiq sərəncamlar verə bilər, o cümlədən, şahidləri və ekspertləri dindirə və sənədləri tələb edə bilər. O, sübutların ehtimal olunmasına aid tərəflrin vəsatəti ilə əlaqəli deyil.
27.2. Tərəflər arasında digər hal barədə razılıq olmadıqda, Arbitraj tərkibi müəyyən etdiyi konkret məsələ üzrə ona məruzə edilməsi üçün bir və ya bir neçə ekspert təyin edə bilər. Bundan başqa, o, hər bir tərəfdən işə aidiyyatı olan istənilən məlumatın və ya istənilən sənədlərin və əmlakların baxış keçirilməsi üçün ekspertə təqdim olunmasını tələb edə bilər.
27.3. Tərəflər arasında digər hal barədə razılıq olmadıqda və əgər hər hansı tərəf bu barədə xahiş etsə və ya Arbitraj tərkibi zəruri hesab etsə, ekspert, özünün yazılı və ya şifahi rəyini verdikdən sonra, dinləmələrdə iştirak etməlidir. Tərəflərə ona sual vermək üçün və mübahisəli məsələlər üzrə ifadə vermək üçün şahid-ekspertlərin dəvət olunması imkanı yaradılmalıdır.

## § 28. Şifahi işəbaxma

Tərəflərin sazişinin şərtlərinə riayət etməklə, Arbitraj tərkibi iş üzrə şifahi dinləmələrin keçirilməsi və ya araşdırmanın yalnız sənədlər və digər materiallar əsasında aparılması barədə qərar qəbul edir. Bu hallardan başqa, tərəflərin şifahi dinləmənin keçirilməməsi barədə razılığı varsa, Arbitraj tərkibi belə dinləməni tərəflərdən birinin xahişilə araşdırmanın müvafiq mərhələsində apara bilər.

## § 29. Şifahi işəbaxmanın protokolu

İşin hər bir şifahi dinlənməsində protokol tərtib olunur. Protokol Arbitraj tərkibinin sədri tərəfindən imzalanır. Protokolun surəti tərəflərə verilir.

## § 30. Sənədlərin təqdim edilməməsi və ya tərəfin iştirak etməməsi

30.1 Cavabdeh §9-da nəzərdə tutulmuş müddət ərzində iddia üzrə öz etirazlarını bildirmirsə, Arbitraj tərkibi bu halı iddianın etirafı kimi qəbul etməyərək, araşdırmanı davam etdirir.

30.2 Tərəflərdən hər hansı biri məhkəməyə lazımi çağırış almasına baxmayaraq, dinləməyə gəlmirsə və ya təyin edilmiş müddətdə sənədli sübutlarını təqdim etmirsə, Arbitraj tərkibi araşdırmanı davam etdirə bilər və özündə olan sübutların əsasında qərar çıxara bilər.
30.3 Əgər hər hansı bir tərəfin sənəd təqdim etməməsinin və ya gəlməməsinin səbəbi, arbitraj tərkibinin fikrinə görə üzürlüdürsə, onda onlar nəzərə alınmırlar. Digər hallarda tərəflər hər hansı tərəfin sənəd təqdim etməməsi və ya araşdırmada iştirak etməməsinin başqa nəticələri barədə razılaşa bilərlər.

## § 31. Mahiyyət üzrə araşdırmanın qurtarması

Arbitraj tərkibinin fikrincə, araşdırma prosesində tərəflər öz ifadələrini təqdim etmək üçün kifayət qədər imkana malik olublarsa, onun müəyyən etdiyi növbəti müddət başa çatdıqdan sonra tərəflərin işin mahiyyəti üzrə yeni izahatları rədd edilə bilər.

## § 32. Barışıq sazişi

32.1. Araşdırmanın istənilən mərhələsində Arbitraj tərkibi mübahisənin və ya ayrı-ayrı mübahisəli məsələlərin barışıq sazişilə həll olunmasına çalışmalıdır.
32.2. Arbitraj araşdırmasının gedişində tərəflər mübahisəni həll edirsə, Arbitraj tərkibi araşdırmanı dayandırır. Əgər barışıq sazişinin məzmunu ictimai qaydalara (ordre public) zidd deyilsə, Arbitraj tərkibi tərəflərin xahişilə bu barışığı razılaşdırılmış şərtlərlə Arbitraj qərarı ilə rəsmiləşdirir.
32.3. Razılaşdırılmış şərtlər əsasında Arbitraj qərarı 34-cü paraqrafın qaydalarına müvafiq çıxarılmalıdır və onun məzmununda Arbitraj qərarı olması göstərilməlidir. Belə Arbitraj qərarı mübahisənin mahiyyəti üzrə qəbul edilmiş istənilən başqa qərarla eyni qüvvəyə malikdir.

## § 33. Arbitraj qətnaməsinin çıxarılması

33.1. Arbitraj tərkibi araşdırmanı ləngitmədən aparmalı və Arbitraj qətnaməsini müvafiq müddətdə çıxarmalıdır.
33.2. Arbitraj qətnaməsi çıxarılan zaman Arbitraj tərkibi tərəflərin xahiş, vəsatət və ərizələrini nəzərə alır.
33.3. Arbitraj araşdırmasının bir neçə arbitr tərəfindən aparıldığı halda , tərəflər başqa hal barədə razılığa gəlməyiblərsə, Arbitraj tərkibinin bütün qərarları onun bütün üzvlərinin səs çoxluğu ilə çıxarılmalıdır.
33.4. Tərəflərin digər hal barədə razılığı yoxdursa, arbitrlərdən biri səsvermədə iştirakdan imtina etdikdə, digər arbitrlər qərarı onsuz qəbul edə bilərlər. Qalan arbitrlər qərarı səs çoxluğu ilə çıxarır. İmtina etmiş arbitr olmadan Arbitraj qərarı çıxarılması üçün səsvermənin keçiriləcəyi barədə tərəflərə əvvəlcədən məlumat verilir. Başqa qərarlar qəbul edilən zaman səsvermədən imtina etmək barədə tərəflər sonradan xəbərdar edilirlər.

## § 34. Arbitraj qətnaməsi

34.1. Arbitraj qətnaməsi yazılı şəkildə çıxarılmalı və təkbaşına arbitr və ya arbitrlər tərəfindən imzalanmalıdır. Arbitraj araşdırması bir neçə arbitr tərəfindən aparıldığı halda Arbitraj tərkibinin arbitrlər çoxluğunun (olmayan imzaların səbəbini göstərmək şərtilə) imzalarının olması kifayətdir.

34.2. Arbitraj qətnaməsində Arbitraj araşdırmasının tərəflərinin, onların prosessual səlahiyyətli nümayəndələrinin, həmçinin, həmin Arbitraj qətnaməsini çıxaran arbitrlərin tam adları olmalıdır.
34.3. Tərəflər başqa hal barədə razılığa gəlməyiblərsə, və yaxud belə qərar 32-ci paraqrafın 2-ci bəndində nəzərdə tutulduğu kimi razılaşdırılmış şərtlər əsasında çıxarılmışdırsa, Arbitraj qətnaməsində motivlər göstərilməlidir.
34.4. Arbitraj qərarında onun tarixi və §21-də müəyyən edildiyi kimi, Arbitrajın yeri göstərilməlidir. Arbitraj qətnaməsi bu tarixdə və bu yerdə çıxarılmış hesab edilir.

**§ 35. Xərclər üzrə qərar**

35.1. Tərəflər başqa hal barədə razılığa gəlməyiblərsə, arbitraj tərkibi arbitraj qərarında arbitraj araşdırmaları ilə əlaqədar xariclərin, tərəflərin çəkdiyi və mübahisənin məqsədə uyğun həlli üçün zəruri olan xərclərin hansı tərəfin hesabına ödənilməsini müəyyən edir.
35.2. Arbitraj araşdırması ilə əlaqədar xərcləri prinsipial olaraq tələbi rədd edilmiş tərəf çəkir. Arbitraj tərkibi işin hallarını nəzərə alaraq, o cümlədən, əgər tərəflərin hər birinin tələblərinin yalnız bir hissəsi təmin edilibsə, xərclərin qarşılıqlı əvəzləşdirilməsini apara və yaxud onları proporsional olaraq bölə bilər.
35.3. Arbitraj araşdırmaları ilə əlaqədar xərclər müəyyən edildikdə, Arbitraj tərkibi, həmçinin, bu xərcləri tərəflərin hansı həcmdə ödəməli olduqlarını müəyyənləşdirir. Əgər xərcləri müəyyən etmək baş tutmursa və yaxud onun müəyyən edilməsi yalnız arbitraj araşdırmasının dayandırılması ilə mümkün ola bilərsə, bu hallara dair qərar xüsusi arbitraj qərarında qəbul edilir.
35.4. Bu paraqrafın 1, 2, 3-cü bəndləri müvafiq qaydada o halda qüvvədə olurlar ki, araşdırma mahiyyəti üzrə arbitraj qərarı olmadan dayandırılır, tərəflər isə xərclər barədə razılığa gələ bilmirlər.

**§ 36. Arbitraj qətnaməsinin çatdırılması**

36.1. Arbitraj tərkibi arbitraj qətnaməsinin kifayət qədər nüsxəsini hazırlamalıdır. Gecikdirməyə yol vermədən qərarın bir nüsxəsi arxiv üçün, həmçinin, tərəflərə çatdırılmaq üçün zəruri nüsxələr Alman Arbitraj İnstitutunun katibliyinə təqdim olunur.

36.2. Alman Arbitraj İnstitutunun katibliyi arbitraj qətnaməsini tərəflərin hər birinə bir nüsxədə çatdırır.
36.3. Arbitraj qətnaməsinin tərəflərə çatdırılması Arbitraj tərkibinin və Alman Arbitraj İnstitutunun Arbitraj araşdırması ilə əlaqədar xərcləri tam ödənilənə qədərləngidilə bilər.

## § 37. Arbitraj qətnaməsinin izah edilməsi və ona düzəlişlər

37.1. İstənilən tərəf Arbitraj tərkibindən xahiş edə bilər:
- qətnamədə hesablamalara dair buraxılmış istənilən səhvi, istənilən yazı səhvini və ya çap xətasını, yaxud analoji xarakterli digər səhvləri düzəltmək;
- qətnamənin hər hansı konkret hissəsinin izahının verilməsi;
- Arbitraj araşdırması zamanı irəli sürülmüş, lakin arbitraj qətnaməsində öz əksini tapmamış tələblərə dair əlavə arbitraj qərarının çıxarılması;

37.2. Əgər tərəflər başqa müddət barədə razılığa gəlməyiblərsə, belə xahiş arbitraj qətnaməsinin alınmasından sonra 30 gün ərzində arbitraj məhkəməsinə verilməlidir. Belə xahişin bir nüsxəsi Alman Arbitraj İnstitutunun katibliyinə təqdim edilir.
37.3. Arbitraj tərkibi düzəliş və ya arbitraj qətnaməsinin izahı barədə qərarı 30 gün ərzində, əlavə arbitraj qərarını isə 60 gün ərzində qəbul edir.
37.4. Arbitraj tərkibi arbitraj qərarına, habelə, müvafiq xahiş olmadan da düzəliş edə bilər.
37.5. 33, 34, 36-cı paraqrafların müddəaları arbitraj qətnaməsinə düzəliş olunması və ya əlavə arbitraj qərarının çıxarılmasına tətbiq edilməlidir.

## § 38. Arbitraj qətnaməsinin qüvvəsi

Arbitraj qətnaməsi qətidir və tərəflər üçün qanuni qüvvəyə minmiş məhkəmə qərarıdır.

## § 39. Arbitraj araşdırmasının qurtarması

39.1. Arbitraj araşdırması qəti arbitraj qətnaməsi ilə, arbitraj tərkibinin bu paraqrafın ikinci bəndinə müvafiq olaraq çıxardığı qərarı ilə və ya Alman Arbitraj İnstitutunun katibliyinin bu paraqrafın üçüncü bəndinə müvafiq olaraq çıxardığı qərarla qurtarır.

39.2. Arbitraj heyəti arbitraj araşdırmasının bitməsi barədə o halda qərar çıxarır ki:
(1) İddiaçı öz iddiasından imtina edirsə, cavabdeh araşdırmanın dayandırılmasının əleyhinə etiraz irəli sürmürsə və arbitraj tərkibi cavabdehin mübahisənin son nizamlanmasında qanuni marağını tanımırsa; və yaxud
(2) Tərəflər araşdırmanın dayandırılması barədə razılığa gəlirlərsə; və yaxud
(3) Tərəflər arbitraj araşdırmasını, arbitraj tərkibinin tələbinə baxmayaraq davam etdirmirlərsə və yaxud araşdırmanın davam etdirilməsi hər hansı bir səbəbdən qeyri-mümkündürsə.
39.3. Əgər bu məqsəd üçün nəzərdə tutulmuş müddətdə arbitr və ya yeni arbitr təyin edilməmişsə və tərəflərdən heç biri arbitrin təyin edilməsi barədə Alman Arbitraj İnstitutunun arbitr təyin etmə Komitəsinə xahişlə müraciət etmirsə, Alman Arbitraj İnstitutunun katibliyi tərəfləri dinləyərək araşdırmanı xitam edə bilər.

**§ 40. Arbitraj araşdırması ilə bağlı xərclər**

40.1. Arbitrlərin qonorar almaq və müvafiq olaraq, qanuni əlavə dəyər vergisi də daxil olmaqla onlara xərclərin qaytarılması hüququ var. Tərəflər arbitraj tərkibi qarşısında arbitraj araşdırması ilə əlaqədar olan xərclər üzrə, bir tərəfin digər tərəfdən belə xərclərin ödənilməsini tələb etmək hüququndan asılı olmayaraq, bərabər qaydada cavabdehlik daşıyırlar.

40.2. Arbitrin qonorarı arbitraj tərkibinin vicdanla təyin etdiyi iddianın qiyməti ilə müəyyən edilir.
40.3. Araşdırmanın vaxtından əvvəl dayandırıldığı halda arbitraj tərkibi ədalətlə, araşdırmanın aparılma şəraitinə müvafiq olaraq qonorarı azalda bilər.

40.4. Alman Arbitraj İnstitutunun qanuni əlavə dəyər vergisi də daxil olmaqla, inzibati yığım hüququ var. Tərəflər Alman Arbitraj İnstitutunun qarşısında bir tərəfin digər tərəfdən belə xərclərin ödənilməsini tələb etmək hüququndan asılı olmayaraq, inzibati yığım üzrə bərabər məsuliyyət daşıyırlar.
40.5. Qonorar və yığımların miqdarı Arbitraj Məhkəməsinin bu Reqlamentinin tərkibi olan Əlavə ilə müəyyən olunur.
40.6. İddiada və yaxud qarşılıqlı iddiada iddianın qiyməti göstərilmədikdə, əvvəlcədən ödənilən qeydiyyat yığımının və avansın məbləği Alman Arbitraj İnstitutunun və ya Arbitraj tərkibinin vicdanlı mülahizəsi əsasında müəyyən edilir.

## § 41. Etiraz hüququnun itirilməsi

Arbitraj Məhkəməsinin bu Reqlamentinin hər hansı bir müddəasına və ya arbitraj araşdırması ilə nəzərdə tutulmuş hər hansı razılaşdırılmış tələbə əməl edilmədikdə, bu hala görə ləngimədən etirazını bildirməyən tərəf öz etiraz hüququndan imtina etmiş hesab olunur. Tərəfin belə tələblərə əməl edilməməsindən xəbərsiz olduğu hallara bu müddəa tətbiq olunmur.

## § 42. Arbitraj qətnaməsinin dərc edilməsi

Arbitraj qətnaməsi yalnız tərəflərin və Alman Arbitraj İnstitutunun yazılı icazəsi ilə dərc edilir. Tərəflərin, prosessual səlahiyyətlilərin və arbitrlərin adı, həmçinin, digər fərdi məlumatların dərc olunması yolverilməzdir.

## § 43. Konfidensiallıq (Məxfilik)

43.1. Tərəflər, arbitrlər və Alman Arbitraj İnstitutunun Katibliyində arbitraj araşdırması üzrə təhkim olunmuş şəxslər arbitraj araşdırmasının aparılması ilə bağlı şəxslər barəsində və xüsusilə də araşdırmada iştirak edən tərəflər, şahidlər, ekspertlər və başqa sübutlar barəsində məxfiliyi qorumalıdırlar. Araşdırmaların iştirakçıları tərəfindən cəlb olunmuş şəxslər də məxfiliyi qorumağa borcludurlar.

43.2. Alman Arbitraj İnstitutuna arbitraj araşdırması barədə informasiyanı statistik məlumatlar sırasında, bu informasiya arbitraj araşdırmasında iştirak edən şəxslərin tanınmasını istisna edirsə, dərc etməsinə icazə verilir.

## § 44. Məsuliyyətin istisnası

44.1. Arbitr öz vəzifələrini qəsdən pozmursa, arbitraj araşdırması ilə bağlı fəaliyyətinə görə heç bir məsuliyyət daşımır.
44.2. Arbitrlər, Alman Arbitraj İnstitutu, onun orqanları və əməkdaşları öz vəzifələrini qəsdən və ya kobud ehtiyatsızlıq ucbatından pozmurlarsa, arbitraj araşdırması ilə bağlı istənilən başqa fəaliyyət və yaxud fəaliyyətsizliklə əlaqədar onlar heç bir məsuliyyət daşımırlar.

***40-cı paraqrafın 5-ci bəndinə əlavə***

№ 1. İddianın qiyməti 10.000,00 DM–ə qədər:

Arbitraj tərkibinin sədrinin və yaxud işə təkbaşına baxan arbitrin qonorarı 2.000,00 Alman markası (DM) və arbitraj məhkəməsinin istənilən iclasçısının qonorarı 1.500,00 DM təşkil edir

№ 2. İddianın qiyməti 10.000,00 DM–dan 100.000,00 DM-ə qədər:

| İddianın qiyməti | Arbitraj tərkibinin sədrinin/ tək arbitrin qonorarı | Arbitraj tərkibinin üzvünün qonorarı |
|---|---|---|
| 12.000,00 DM-a qədər | 2.344,00 DM | 1.803,00 DM |
| 14.000,00 DM-ya qədər | 2.586,00 DM | 1.989,00 DM |
| 16.000,00 DM-ya qədər | 2.828,00 DM | 2.175,00 DM |
| 18.000,00 DM-ya qədər | 3.070,00 DM | 2.361,00 DM |
| 20.000,00 DM-ya qədər | 3.312,00 DM | 2.547,00 DM |
| 25.000,00 DM-ya qədər | 3.565,00 DM | 2.742,00 DM |
| 30.000,00 DM-ya qədər | 3.819,00 DM | 2.937,00 DM |
| 35.000,00 DM-ya qədər | 4.072,00 DM | 3.132,00 DM |
| 40.000,00 DM-ya qədər | 4.326,00 DM | 3.327,00 DM |
| 45.000,00 DM-ya qədər | 4.579,00 DM | 3.522,00 DM |
| 50.000,00 DM-ya qədər | 4.833,00 DM | 3.717,00 DM |
| 55.000,00 DM-ya qədər | 5.086,00 DM | 3.912,00 DM |
| 60.000,00 DM-ya qədər | 5.340,00 DM | 4.107,00 DM |
| 65.000,00 DM-ya qədər | 5.593,00 DM | 4.302,00 DM |
| 70.000,00 DM-ya qədər | 5.847,00 DM | 4.497,00 DM |
| 75.000,00 DM-ya qədər | 6.100,00 DM | 4.692,00 DM |
| 80.000,00 DM-ya qədər | 6.354,00 DM | 4.887,00 DM |
| 85.000,00 DM-ya qədər | 6.607,00 DM | 5.082,00 DM |
| 90.000,00 DM-ya qədər | 6.861,00 DM | 5.277,00 DM |
| 95.000,00 DM-ya qədər | 7.114,00 DM | 5.472,00 DM |
| 100.000,00 DM-ya qədər | 7.368,00 DM | 5.667,00 DM |

İddianın qiyməti daha yüksək olduqda, arbitraj tərkibinin üzvünun qonorarı aşağıdakı kimi hesablanır.

№ 3. İddianın qiyməti 100.000,00 DM-dən çox 1.000.000,00 DM-ə qədər:
5.667,00 DM üstəgəl 100.000,00 DM-dən artıq məbləğin 1,8%-i;

№ 4. İddianın qiyməti 1.000.000,00 DM-dən çox 2.000.000,00 DM-ə qədər:
21.867,00 DM üstəgəl 1.000.000,00 DM-dən artıq məbləğin 1,2%-i;
№ 5. İddianın qiyməti 2.000.000,00 DM-dən çox 4.000.000,00 DM-ə qədər:
33.867,00 DM üstəgəl 2.000.000,00 DM-dən artıq məbləğin 0,9%-i;
№ 6. İddianın qiyməti 4.000.000,00 DM-dən çox 10.000.000,00 DM-ə qədər:
51.867,00 DM üstəgəl 4.000.000,00 DM-dən artıq məbləğin 0,4%-i;
№ 7. İddianın qiyməti 10.000.000,00 DM-dən çox 20.000.000,00 DM-ə qədər:
75.867,00 DM üstəgəl 10.000.000,00 DM-dən artıq məbləğin 0,2%-i;
№ 8. İddianın qiyməti 20.000.000,00 DM-dən çox 100.000.000,00 DM-ə qədər:
95.867,00 DM üstəgəl 20.000.000,00 DM-dən artıq məbləğin 0,1%-i;
№ 9. İddianın qiyməti 100.000.000,00 DM-dən çox 200.000.000,00 DM-ə qədər:
175.867,00 DM üstəgəl 100.000.000,00 DM-dən artıq məbləğin 0,06%-i;
№ 10. İddianın qiyməti 200.000.000,00 DM-dən çox:
235.867,00 DM üstəgəl 200.000.000,00 DM-dən artıq məbləğin 0,03%-i;
№ 11. Arbitraj tərkibinə 20-ci paraqrafa uyğun olaraq təminedici tədbirlər barədə xahiş verildikdə, arbitrin qonorarı bu cədvəldəki qonorarın 30%-i məbləğində artırılır;
№ 12. Arbitraj araşdırmasında 2-dən çox tərəf iştirak etdikdə, bu cədvəldə göstərilən yığımın məbləği hər bir əlavə tərəfə görə 20% artırılır. Arbitrlərin qonorarı maksimum 50% artırıla bilər;
№ 13. Bu Əlavənin 3-12 №-lərinə uyğun olaraq, arbitraj tərkibinin sədrinin və təkbaşına arbitrin qonorarı 30% artırılır;
№ 14. Arbitraj tərkibi üçün 7-ci paraqrafın birinci bəndinə əsasən Alman Arbitraj İnstitutunun katibliyi tərəfindən iddiaçıdan tutulan avansın məbləği bu cədvələ uyğun olaraq arbitraj tərkibinin üzvünün qonorarına müvafiq hesablanır;
№ 15. Alman Arbitraj İnstitutunun inzibati yığımı:
iddianın qiyməti 100.000,00 DM-ə qədər olduqda, iddianın qiymətinin 2%-ni təşkil edir;

iddianın qiyməti 100.000,00 DM-dən 2.000.000,00 DM-ə qədər olduqda, 2.000,00 DM üstəgəl 100.000,00 DM-dən artıq məbləğin 1%-ni təşkil edir;
iddianın qiyməti 2.000.000 DM-dən çox olduqa, 21.000,00 DM üstəgəl 2.000.000,00 DM-dən artıq məbləğin 0,5%-ni təşkil edir.
Alman Arbitraj İnstitutunun inzibati yığımı 750,00 DM-dən (minimum) 50.000,00 DM-ə (maksimum) qədər təşkil edir;
qarşılıqlı iddia ərizəsi verildiyi halda inzibati yığımın miqdarının müəyyən edilməsi üçün iddianın və qarşılıqlı iddianın qiymətləri toplanılır. Alman Arbitraj İnstitutunun qarşılıqlı iddiaya görə inzibati yığımı iddia ilə əlaqədar Alman Arbitraj İnstitutunun inzibati yığımını çıxmaqla, meydana çıxmış iddianın artırılmış qiymətinə müvafiq olaraq müəyyən edilir;
qarşılıqlı iddiaya görə inzibati yığım minimum 750,00 DM təşkil edir. Alman Arbitraj İnstitutunun iddiaya və qarşılıqlı iddiaya görə inzibati yığımının maksimum məbləği 75.000,00 DM təşkil edir;
arbitraj araşdırmasında 2-dən artıq tərəf iştirak etdiyi halda, Alman Arbitraj İnstitutunun bu yığım cədvəlində göstərilən inzibati yığımı hər bir əlavə tərəf üçün 20% artırılır. Yığımın məbləği 75.000,00 DM-dən artıq olmamalıdır.
№ 16. Arbitraj iddiası, qarşılıqlı iddia və yaxud digər ərizə Alman Arbitraj İnstitutuna alman, ingilis və yaxud fransız dillərindən başqa dildə təqdim edildikdə, Alman Arbitraj İnstitutu bu sənədlərin tərcüməsinə sərəncam verə bilər; tərcümə ilə əlaqədar xərcləri Alman Arbitraj İnstitutu bu Əsasnamənin 15 №-nə müvafiq olaraq inzibati yığıma əlavə kimi ala bilər.

## ALMANYA ARBİTRAJ İNSTİTUTUNUN ARBİTRLƏRİ TƏYİNETMƏ ÜZRƏ KOMİTƏSİ

### Almanya Arbitraj İnstitutunun Nizamnaməsinin 14-cü paraqrafı

(1) «Arbitrləri təyinetmə üzrə Komitə» məsləhət şurasının 2 il müddətinə cəlb etdiyi idarə heyəti tərəfindən təyin edilən üç üzvdən və 3 müavindən ibarətdir. Təkrar təyin edilməyə yol verilir. Komitə üzvlərinin iştirak etmədiyi halda iştirak etməyən üzvlərin vəzifəsi əlifba sırası ilə müavinləri tərəfindən yerinə yetirilir.
(2) «Arbitrləri təyinetmə üzrə Komitə» direktorluğun təqdimatı ilə arbitrləri, vasitəçiləri, yeni arbitrləri və yeni vasitəçiləri təyin edir.

(3) «Arbitrləri təyinetmə üzrə Komitə» həmçinin, arbitrlərin, vasitəçilərin yerini dəyişir, belə ki, bu hal arbitraj məhkəməsinin tətbiq edilən Reqlamenti ilə nəzərdə tutulub.
(4) «Arbitrləri təyinetmə üzrə Komitə»nin üzərinə sonrakı vəzifələr qoyula bilər.
(5) «Arbitrləri təyinetmə üzrə Komitə» heç bir göstərişlə əlaqəli deyil. Onun işi məxfi xarakter daşıyır. Onun qərarları sadə səsçoxluğu ilə qəbul edilir. Qərarların çıxarılması bir qayda olaraq yazılı üsulla aparılır.

(6) «Arbitrləri təyinetmə üzrə Komitə»nin Alman Arbitraj İnstitutunun arbitraj araşdırmasında hər hansı qaydada iştirak edən üzvləri bu araşdırmaya aid olan qərarın qəbulunda iştirak edə bilməzlər. «Arbitrləri təyinetmə üzrə Komitə»nin üzvü bu paraqrafın 2-ci bəndinə əsasən arbitr təyin edilə bilməz.
(7) Direktorluq bu paraqrafın 2-ci bəndinə aid öz təkliflərində heç bir göstərişlə əlaqəli deyil.

Hüquqi **HİYM**
İslahatlara Yardım
Mərkəzi İB

Legal Reforms
Support Center NGO

AZƏRBAYCAN
RESPUBLİKASI AZ 1073
Bakı ş., Mətbuat pr.,
18/7, məhəllə 539
Tel: (+99412) 439-47-22;
439-73-17;(040)212-20-70
Faks:(+99412) 510-30-94

539 quarter, 18/7,
Metbuat ave, Baku, AZ 1073,
AZERBAIJAN REPUBLIC,
Tel:(+99412) 439-47-22;
439-73-17;(040)212-20-70
Fax: (+99412) 510-30-94

www.lrs.az
www.legalreform.az
info@legalreform.az
info@lrs.az

Kitabın nəşrinə göstərdiyi yardıma görə
Azərbaycan Beynəlxalq Arbitraj Məhkəməsinin arbitri
***Xəqani Xasay oğlu Əhmədova*** minnətdarlığımızı bildiririk.

Çapa imzalanıb:
Formatı: Ofset çapı. Həcmi:
Sifariş № Tiraj: 500

## Azərbaycan Arbitraj və Mediasiya Mərkəzi
## Azerbaijan Arbitration And Mediation Centre

**Fiziki və hüquqi şəxslərin nəzərinə!**

Azərbaycan Arbitraj və Mediasiya Mərkəzinin nəzdində fəaliyyət göstərən

**Bakı Mediasiya və Barışıq Xidməti**

mülki və iqtisadi mübahisələrin məhkəmədənkənar alternativ həlli üsullarını

**Sizə təklif edir.**

Fiziki və hüquqi şəxslər öz aralarındakı mülki və iqtisadi mübahisələri məhkəməyə müraciət etmədən, vasitəçinin iştirakı ilə, dostcasına danışıqlar və barışıq yolu ilə (mediasiya prosesi) həll edə bilərlər.

Mübahisələrin mediasiya vasitəsilə həlli ilə iş adamları öz dəyərli vaxtlarına və pullarına qənaət edə, kommersiya münasibətlərində yaranmış münaqişələrin aradan qaldırılmasından sonra da tərəfdaşlarla normal işgüzar münasibətləri davam etdirməyə nail ola bilərlər.

Mediasiya vasitəsilə mübahisələri istənilən mərhələdə həll etmək mümkündür: mübahisə yarananda dərhal - məhkəməyə müraciət etmədən; mübahisənin məhkəmə baxışında olduğu dövrdə; və ya məhkəmə baxışından sonrakı dövrdə.

Bakı Mediasiya və Barışıq Xidmətinin peşəkar mediatorları ən mürəkkəb mübahisələrin barışıq yolu ilə həllində Sizin xidmətinizdə!

# Hüquqi İslahatlara Yardım Mərkəzi İctimai Birliyinin nəşrləri:

